Novruz MƏMMƏDOV

GEOSİYASƏTƏ GİRİŞ

(İki cilddə)

I CİLD

- 9531 -

Azərbaycan Respublikası Prezidentinin
işlər İdarəsi
PREZİDENT KİTABXANASI
AZƏRBAYCAN

BAKI–2011

66.2(0)
M(08)11 M 51

Elmi redaktor: **Pərvin Darabadi**
tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının professoru

Elmi məsləhətçilər: **İlham Məmmədzadə**
fəlsəfə elmləri doktoru, professor, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun direktoru

Həmid İmanov
"Şöhrət" ordenli əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının müdiri

Rəyçilər: **Sani Hacıyev**
tarix elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin humanitar məsələlər üzrə prorektoru

Əmir Əliyev
hüquq elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı

Həsən Əlibəyli
tarix elmləri doktoru, professor, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Beynəlxalq münasibətlər və beynəlxalq hüquq şöbəsinin müdiri

Məmməd Fətəliyev
tarix elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının müdiri

Amil Məhərrəmov
iqtisad elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Gömrük işinin təşkili və idarəetmə kafedrasının müdiri

Kərəm Məmmədov
siyasi elmlər üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dosenti

Elnur Kazımlı
siyasi elmlər üzrə fəlsəfə doktoru

Redaktor: **Kamal Adıgözəlov**

Novruz Məmmədov
M(08)11 **Geosiyasətə giriş** (İki cilddə. I cild). - Bakı, "Azərbaycan" nəşriyyatı, 2011. - 576 səh.

M 4804000000 - 008(2011) / M670(07) - 2011 Sifarişlə

© "Azərbaycan" nəşriyyatı, 2011.

Kitab Azərbaycanın böyük oğlu, müasir Azərbaycan dövlətinin banisi, dahi siyasi və dövlət xadimi HEYDƏR ƏLİYEVİN əziz xatirəsinə ithaf olunur.

GEOSİYASƏTƏ GİRİŞ

Kitabda oxucular XX əsrdə əvvəlcə nüfuzdan salınmış, sonra isə dirçəldilmiş geosiyasət elminin dramatik taleyi ilə tanış olacaqlar. Bu əsərdə ənənəvi (klassik) geosiyasət, yeni geosiyasət (geoiqtisadiyyat) və ən yeni sivilizasiya geosiyasəti (geofəlsəfə) haqqında qısa kurs və əsas anlayışlar verilmişdir.

Geosiyasət - dövlətlərin dünya səhnəsində davranışını müəyyən edən bazis amillərinin toplusunun genişləndirilməsi hesabına coğrafi və iqtisadi determinizmin ənənəvi məhdudluğunu aradan qaldıran analitik elm hesab edilir.

Müasir geosiyasət geoiqtisadiyyatla eyniləşdirilir. Formasiya yanaşmasından fərqli olaraq, ən yeni geosiyasətdə mədəni-genetik kodların və arxetiplərin davamlılığı, kənar təhdidlərə qarşı mübarizədə mentalitetin və mənəvi dəyərlərin rolu önə çəkilir.

Əvvəlki nəsillərin yaratdığı mənəvi sərvətlərin tamamilə itirilməməsi üçün nə etmək lazımdır? Dövlətin sosial-iqtisadi firavanlığa doğru yolu haradan keçir? Keçmişin hansı ibrət dərslərini yadda saxlamaq lazımdır? Düşmənçiliklə sülhün geosiyasi sərhədləri haradadır, geoiqtisadi müharibələr nə deməkdir və bu müharibələrdən zəfərlə çıxmaq üçün nə etmək olar? Kitabda bu və digər sualların cavablarının mümkün variantları nəzərdən keçirilir.

Tədqiqatda geosiyasətin sistemli təhlili, onun mövzusu, metodları, məqsəd və vəzifələri, baza anlayışları, kateqoriyaları və cərəyanları haqqında geniş söhbət açılır, bu elmin inkişafının ümumi mənzərəsi təqdim edilir. Müəllif dünya siyasi fikrinin nailiyyətləri daxil edilməklə, geosiyasətin əsas ideya istiqamətlərini, model və ehtimallarını təhlil edir. Ən qədim geosiyasi təlim nümunələrini yaratmış Şərq xalqlarının fəlsəfi və sosial-siyasi fikrinin xüsusiyyətləri, filosof və mütəfəkkirlərin həyat və fəaliyyəti ilə bağlı məsələlər kitabda ayrıca yer tutur.

İdeyaların tarixi beynəlxalq münasibətlər sistemində və bir çox dünya ölkələrinin siyasi həyatında təzahür edən nümunələrlə göstərilir. Son illər müasir dünyanın geosiyasi xəritəsində baş vermiş dəyişikliklər daha əhatəli verilir. Geosiyasətin informasiya resurslarının təsvirinə, informasiya qarşıdurmasının problem və ziddiyyətlərinə, informasiya mühitində geosiyasətin yeni imkanlarına, informasiya müharibəsinin müasir reallıqlarına diqqət ayrılır.

Əsərdə, həmçinin beynəlxalq münasibətlərin və milli təhlükəsizliyin əsasını təşkil edən ən mühüm geosiyasi anlayışlar şərh edilir. Neoliberal (postmüasir) beynəlxalq münasibətlərin iqtisadi qloballaşması və regionallaşması proseslərini səciyyələndirən yeni terminlərə xüsusi diqqət yetirilir. İlk dəfədir ki, ənənəvi geosiyasətin (hərbi qüdrətin), geoiqtisadiyyatın (iqtisadi qüdrətin) və sivilizasiya yanaşmasına əsaslanan müasir geosiyasətin anlayış və terminləri təhlil edilir və Qərbdə hamılıqla qəbul olunmuş anlayışların postsovet məkanında transformasiyasının spesifik xüsusiyyətləri nəzərə alınır.

Kitabda mövzulara aid xəritə və təsvirlər də yer almışdır.

Kitab analitik təfəkkürün formalaşmasına kömək edir, bu cür təfəkkür olmadan müasir dövrdə peşəkar uğurlar qazanmaq mümkün deyil.

Kitab siyasi və işgüzar elita, dövlət qulluqçuları, "Dövlət idarəçiliyi", "Politologiya", "Regionşünaslıq", "Beynəlxalq münasibətlər", "Beynəlxalq iqtisadi münasibətlər", "Dünya iqtisadiyyatı", "Beynəlxalq biznes" və "Beynəlxalq hüquq" ixtisasları üzrə universitet tələbələri, müəllimlər, alimlər üçün, eləcə də geniş oxucu kütləsi üçün maraq doğurur.

MÜNDƏRİCAT

Elmi redaktordan 7
Rəyçilərdən 8
Müəllifin ön sözü 11
Giriş 17

I FƏSİL

Geosiyasətin yaranması və inkişafı

1.1. Geosiyasət anlayışı 39
1.2. Geosiyasətin mənbələri 54
1.3. Geosiyasətin predmeti 125
1.4. Geosiyasi dövrlər 129
1.5. Geosiyasətin əsas qanunları 136
1.6. Geosiyasətin kateqoriyaları 139
1.7. Geosiyasətin metodoloji paradiqmaları 146
1.8. Geosiyasətin tədqiqat metodları 150
1.9. Geosiyasətin funksiyaları 155
1.10. Geosiyasətin aktorları 159

II FƏSİL

Geosiyasətin baniləri

2.1. Fridrix Ratsel 170
2.2. Rudolf Çellen 185
2.3. Helford Makinder 196
2.4. Alfred Mehen 213
2.5. Karl Haushofer 221
2.6. Karl Şmitt 238
2.7. Vidal dö la Blaş 246
2.8. İsayya Boumen 252
2.9. Nikolas Spaykmen 257

2.10. Fumimaro Konoye 268
2.11. Culiyo Due 276
2.12. Pyotr Savitski 279
2.13. Geosiyasət milli siyasətin vasitəsi kimi 287

III FƏSİL
Müasir geosiyasi nəzəriyyələr və məktəblər
3.1. Ümumi icmal 292
3.2. Müasir atlantizm 296
3.3. Mondializm 341
3.4. Tətbiqi geosiyasət 367
3.5. Avropalı "yeni sağlar"ın geosiyasəti 372
3.6. Yeni avrasiyaçılıq 390
3.7. Türk avrasiyaçılığı 399
3.8. Geosiyasi kodekslər haqqında təsəvvür 404
3.9. Geosiyasətdə sakral ənənələr 413

IV FƏSİL
Postmodern epoxasının geosiyasi təlimləri
4.1. Geosiyasi fikrin üfüqlərinə doğru: transformasiya problemləri 422
4.2. Yeni geosiyasət: nəzəri mənbələri və əsas konsepsiyaları 424
4.3. Ən yeni sivilizasiya geosiyasəti: əsas ideya və nəzəriyyələri 465

Terminlər lüğəti 485
Adlar göstəricisi 525
Xülasə (ingilis dilində) 533
İstifadə olunmuş və tövsiyə edilən ədəbiyyat 534

ELMİ REDAKTORDAN

Məlum olduğu kimi, XXI əsrin əvvəli geosiyasətin - "dövlətin bu coğrafi zəkasının" (K.Haushofer) intibahı dövrü kimi səciyyələndirilir. Gözlərimiz qarşısında dünya arenasında, bütöv beynəlxalq nizamda ciddi dəyişikliklərlə müşayiət olunan böyük təbədüllatlar baş verir. Və təsadüfi deyil ki, geosiyasi problem dünya elmi ədəbiyyatında beynəlxalq tematikanı tədqiq edən nəşrlərin böyük qisminin mərkəzində yer alır.

Bütün Qafqaz-Xəzər regionunda olduğu kimi, onun ətrafında - Böyük Orta Şərqdə də baş verən mürəkkəb geosiyasi proseslərin obyekti və subyekti olan Azərbaycan Respublikası üçün Novruz Məmmədovun bu problemə müraciət etməsinin, dünya siyasətində dərin və çox zaman ziddiyyətli proseslərin əsas aləti olan geosiyasətin nəzəriyyə və təcrübəsinə yiyələnməyin vacibliyi baxımından mühüm əhəmiyyəti var.

Oxucuların mühakiməsinə təqdim edilmiş "Geosiyasətə giriş" kitabında müəllif geosiyasətin böyük məkanlar haqda elm kimi yaranması və inkişafının əhatəli mənzərəsini çanlandırmağı, yüz ildən artıq bir müddətdə formalaşmış başlıca nəzəri məktəblərin təməl ideyalarının mahiyyətini açmağı bacarmışdır.

Kitabda həm böyük, həm də regional dövlətlərin müasir mərhələdə əsas siyasi məqsədləri işıqlandırılır. Kitabın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geosiyasi aspektlərinə həsr edilmiş bölməsi xüsusi maraq kəsb edir.

Novruz Məmmədovun fundamental tədqiqatı, bütövlükdə, Azərbaycan siyasətşünaslıq elminə böyük töhfədir və sözsüz ki, beynəlxalq siyasət mütəxəssislərinin, həmçinin geniş oxucu kütləsinin marağına səbəb olacaqdır.

Pərvin DARABADİ,
tarix elmləri doktoru, professor

RƏYÇİLƏRDƏN

Novruz Məmmədovun "Geosiyasətə giriş" kitabında geosiyasətin elm sahəsi kimi meydana gəlməsi, əsas anlayışlarının yaranması, formalaşması və inkişafına nəzər salınır, onun nəzəri mənbələri, qanunauyğunluqları, obyekt və predmeti, kateqoriyaları, metodoloji paradiqmaları, aktorları ilə bağlı müxtəlif dövrləri, fərqli geosiyasi məktəbləri təmsil edən siyasətşünasların elmi nəzəriyyələri araşdırılır. Əsərdə, həmçinin dünyada cərəyan edən əsas geosiyasi hadisələr, planetin geosiyasi xarakteristikası, geosiyasi güc mərkəzləri və onlar arasındakı münasibətlər, qloballaşan dünyada geosiyasi məsələlərə yeni baxışlar, milli dövlət maraqları uğrunda mübarizə, yeni dünya nizamı, beynəlxalq təşkilatların və maliyyə təsisatlarının artan rolu, bəşəriyyəti təhdid və məşğul edən əsas iqtisadi, siyasi, enerji təhlükəsizliyi, qlobal nəqliyyat-kommunikasiya, ticarət, xammal, beynəlxalq daşımalar kimi məsələlərin mövcud vəziyyəti, perspektivləri haqqında ətraflı məlumat verilir. Kitabda, eyni zamanda, Azərbaycanın müstəqillik illərində keçdiyi yol sistemli şəkildə təhlil edilir və ümumiləşdirilir, eləcə də XX əsrin sonu - XXI əsrin əvvəlində bütün dünyada gedən geosiyasi dəyişikliklər şəraitində Azərbaycan dövlətçiliyinin təşəkkülünün və inkişafının əsas meylləri göstərilir.

Bununla yanaşı, kitabda beynəlxalq münasibətlərin və milli təhlükəsizliyin əsasını təşkil edən ən mühüm geosiyasi anlayışlar şərh edilir. Neoliberal (postmodern) beynəlxalq münasibətlərin iqtisadi qloballaşması və regionallaşması proseslərini səciyyələndirən yeni terminlərə xüsusi diqqət yetirilir və ənənəvi geosiyasətin (hərbi qüdrətin), geoiqtisadiyyatın (iqtisadi qüdrətin) və sivilizasiya yanaşmasına əsaslanan müasir geosiyasətin anlayış və terminləri sistemləşdirilir. Bütün bunlar oxucuda geosiyasət elmi və geosiyasi fikir haqqında aydın təsəvvür yaratmağa kömək edir.

Bu əsərdə bəşər tarixində ən məşhur və mühüm rol oynamış geosiyasətçi mütəfəkkirlərin zəngin irsi təqdim edilmişdir. Artıq Azərbaycan oxucusu daha bir kitabın köməyi ilə geosiyasət elminin inkişafı tarixinə varmaq imkanı qazanmışdır.

Novruz Məmmədova görə, geosiyasət insan davranışının unikal sahələrindən biri, siyasi-strateji xarakterli problemlərin qoyuluşuna və həllinə yönəlmiş praktik fəaliyyətin xüsusi formasıdır. XIX əsrin sonu - XX əsrin əvvəlində Almaniyanın, İngiltərənin, ABŞ-ın, Fransanın, Yaponiyanın, İtaliyanın və Rusiyanın böyük mütəfəkkir və alimlərinin fəaliyyəti sayəsində yaranmış geosiyasət siyasi şüurun əsas formalarından birinə, dünya və onun dərk edilməsi haqqında ən ümumi anlayışlar sisteminə çevrilmişdir.

Novruz Məmmədovun kitabı geosiyasətə dair mühakimələrin və fikirlərin təhrif edilmiş, yanlış təsəvvür və məzmundan təmizlənməsinə, millətçilik və irqçilik qalıqlarından uzaqlaşaraq saflaşmasına böyük töhfədir. Bu kitab nəinki müasir Azərbaycan aliminin, siyasətşünaslıq elminin geosiyasi problemlərə dair yeni fikirlərini, həm də bütövlükdə XXI əsrin reallığı işığında geosiyasi ideyanın dərk edilməsinə nəzəri oriyentir kimi çıxış edir.

Kitab, eyni zamanda, çoxsaylı geosiyasi konsepsiyaların böhran yaşadığı vaxtda bir çox suallara cavab axtararaq, geosiyasətə dair XIX əsrdən üzü bəri deyilən fikirlərə yeni keyfiyyət və məna gətirir.

Müəllif xüsusi vurğulayır ki, geosiyasətin dirçəlişi böyük çətinliklərlə müşayiət olunur. Bu elmin əsasını təşkil edən fundamental anlayışların çoxu hələ XIX əsrdə ifadə edilsə də, müasir dövrdə bəzən onların dəqiqləşdirilməsinə ehtiyac var. Geosiyasətə misli görünməmiş maraq onun konturlarının silinməsi ilə müşayiət olunur.

Novruz Məmmədov hesab edir ki, dövlətlərin, xüsusilə də dünya dövlətlərinin geosiyasi maraqları permanent xarakter daşıdığı üçün geosiyasət elminin qarşısında sivilizasiya yanaşması çərçivəsində müasir dövrdə gedən proseslərin mahiyyətini tədqiq etmək və müəyyənləşdirmək kimi mühüm və mürəkkəb vəzifə durur.

Onun fikrincə, beynəlxalq münasibətlərdə və yeni dünya nizamının formalaşmasında əsas diqqət formasiya yanaşmasına deyil, sivilizasiya yanaşmasına yönəldilir. Buna görə də kitabda geosiyasi təfəkkürün transformasiyası məsələlərinə xüsusi diqqət yetirilir.

Kitabda, müəllifin özünün də qeyd etdiyi kimi, dünya sivilizasiyaları, ayrı-ayrı regionlardakı böyük dövlətlər haqqında ümumi təsəvvür yaradılır. Nəzərdən keçirilən əsas geosiyasi obyekt Avrasiya (sözün geniş mənasında "Hartland" və ya "Yerin mərkəzi"), həmçinin etnomilli və etnokonfessional baxımdan münaqişə zonalarından ibarətdir. Bu halda isə, iqtisadi və sivilizasiya geosiyasətinin inkişafı aktualdır. Onun üçün də kitab-

da Amerika, Avropa, Rusiya, Çin, Hindistan, Yaponiya və müsəlman dövlətlərinin geosiyasətlərinə xüsusi diqqət yetirilir, alimlər və siyasi xadimlər haqqında bioqrafik məlumatlar verilməsi geosiyasi təfəkkürün qaynaqlarını daha dərindən başa düşməyə kömək edir.

XXI əsrdə geosiyasətin dərin elmi-siyasi əsaslarla yanaşı, həm də gerçəkliyin sınağından çıxan real həqiqətlər üzərində durması çox önəmlidir və artıq bu əsaslar müəyyən edilmişdir. Kitabda geosiyasi proseslərin dünya tarixinin ayrılmaz tərkib hissəsi kimi öyrənilməsi əsaslandırılır.

Şübhəsiz ki, bu əsər həm Azərbaycanda geosiyasi proseslərin, həm də ümumiyyətlə, geosiyasət elminin dünya miqyasında yeni təhlilinə töhfə hesab edilə bilər.

Sani Hacıyev,
tarix elmləri doktoru, professor

Əmir Əliyev,
hüquq elmləri doktoru, professor

Həsən Əlibəyli,
tarix elmləri doktoru, professor

Məmməd Fətəliyev,
tarix elmləri doktoru, professor

Amil Məhərrəmov,
iqtisad elmləri doktoru, professor

Kərəm Məmmədov,
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

Elnur Kazımlı,
siyasi elmlər üzrə fəlsəfə doktoru

MÜƏLLİFİN ÖN SÖZÜ

Bu kitab yeni, XXI əsrin ilk onilliyində nəşrə hazırlanmışdır. Ötən, XX əsr parlaq elmi-texniki və iqtisadi nailiyyətlər, incəsənətdə misli görünməmiş inkişaf, təhsilin və səhiyyənin sıçrayışı, dövlət səviyyəsində və yerli səviyyədə demokratik prinsiplər əsasında idarəetmədə vətəndaşların iştirakının genişlənməsi ilə əlamətdar olmuşdur. Başa çatmış yüzillik, eyni zamanda, iki dünya müharibəsi ilə tarixə düşmüşdür. Bu dövrdə, həmçinin nüvə müharibəsi təhlükəsi yaranmış, insanın fəaliyyətinin təbii mühitə təsiri qlobal miqyas almış, nəticədə isə, ekoloji problemlərin həlli naminə dövlətlərin öz əraziləri üzərində suverenliyinin hesabına səmərəli beynəlxalq əməkdaşlığı zərurətə çevrilmişdir.

Sirr deyil ki, hətta ən fantastik elmi və hərbi layihələrin həyata keçirilməsi də heç bir ölkənin təhlükəsizliyinə və sülhə təminat vermir. "Aşağı və orta səviyyədə intensiv" lokal silahlı münaqişələrin genişlənərək tammiqyaslı müharibələrə çevrilməsi riski hələ də qalır. Beynəlxalq terrorizm təzahürləri hətta ən dinc dövlətlərdə də siyasi sabitliyin pozulması ilə nəticələnə bilər. Bütövlükdə, dünyada siyasi təzadlar zəifləmir, yalnız modifikasiyaya məruz qalır, bəzi regionlarda isə böhranlı dərəcədə kəskinliyi ilə müşahidə olunur. Bu şəraitdə "tərəqqi" və "demokratiya" anlayışlarına yeni təriflər verməyə çalışan beynəlxalq akademik dairələr SSRİ və dünya sosializm sistemi dağılandan sonra yaranmaqda olan "postbipolyar" dünya geosiyasi nizamının əsas xüsusiyyətlərini müzakirə edir. Qərbə xas olan "istehlak sivilizasiyası"nın ekoloji və sosiomədəni hüdudlarını nəzərə alan yeni sivilizasiya modellərinin yaranmasının mümkünlüyü barədə diskussiyalar aparılır.[1]

[1] Əsrlər boyu sivilizasiyalı inkişafın mənası elmi müzakirələr üçün müxtəlif, bəzən ikili, bəzən də paralel mənalar daşımışdır. Sivilizasiyalara zaman kəsiyi, bu və ya digər cəmiyyətlərin tarixi vəziyyəti kontekstində baxılır, onların əlamətləri, məsələn, urbanizasiya ilə, əhalinin sürətlə artması ilə, təhsil sisteminin və elmi biliklərin inkişaf dərəcəsi ilə, əmək məhsuldarlığı ilə əlaqə-

Cəmiyyətdə inqilabi dəyişikliklər və dünyanın geosiyasi strukturunun radikal transformasiyası geosiyasətin "yenidən kəşf olunmasını" tələb edir. Bir sıra başqa ictimai elmlərin fonunda geosiyasət artıq sanballı, lakin ziddiyyətli tarixə malikdir. Nasist ideoloqları tərəfindən uzun müddət hörmətdən salınmış "geosiyasət" termini faktiki olaraq nəinki keçmiş Sovet İttifaqında və Şərqi Avropa ölkələrində, hətta Almaniyanın özündə və bəzi başqa ölkələrdə də qadağan edilmişdi. Eyni zamanda, resursların, kapitalların, əmtəələrin qarşılıqlı mübadiləsi, sosiomədəni əlaqələr, daxili siyasi vəziyyət və başqa amillər nəzərə alınmaqla, dünya miqyasında və iri regionlarda siyasi qüvvələr nisbətinin təhlilinə ciddi ictimai tələbat hiss edilirdi. Qlobal və regional siyasi problemlərin qarşılıqlı əlaqələrinin, ölkələrin və regionların sosial-iqtisadi coğrafiyasında irəliləyişlərə siyasi fəaliyyətin təsirinin öyrənilməsi məsələləri getdikcə aktuallaşırdı.

Beləliklə, ənənəvi geosiyasətin nəzəri irsinin konstruktiv mövqedən təhlil edilməsi və ərazi-siyasi proseslərin izahının metodologiyasının yaradılması yenidən zərurətə çevrilmişdir. İyirmi beş ildən çoxdur ki, bu elmə Qərb ölkələrində və onların hüdudlarından kənarda marağın getdikcə artması müşahidə olunur. Yeni akademik jurnallar təsis edilir, sanballı nəzəri monoqrafiyalar və dərsliklər çap olunur, elmi assosiasiyalar yaradılır. Geosiyasət üzrə mütəxəssislər qanunverici və icra hakimiyyəti orqanlarının, siyasi xadimlərin məsləhətçiləri rolunda çıxış edirlər.

ləndirilir, "insanların ən yüksək mədəni birliyi və mədəni identifikasiyanın (eyniləşdirmə) ən geniş səviyyəsi" *(S.Hantinqton)* kimi başa düşülür. Təxminən 1500 il bundan əvvəl yaranmış ilk sivilizasiyaların rüşeymləri müasir dövrdə çoxşəkilli və geniş dünya mədəniyyətinə çevrilmişdir [*bax:* Mehdiyev, 2008, səh. 219]. Lakin "sivilizasiya" (lat. *civilis* - mülki, dövlət) termini və onun mahiyyətini ayrı-ayrı elmlərdə fərqli anlayışlar ehtiva edir. Geosiyasi anlamda "sivilizasiya" anlayışı insanlığın xüsusi bir tarixi inkişaf dövrü olaraq, "barbarlıq" dövründən sonrakı daha sivil sosiomədəni münasibətlərə malik, xüsusi inkişaf mərhələsi hesab olunur.

Məlumat üçün qeyd edək ki, "barbarlıq" [qədim yunanlar, sonra isə romalılar dil və mədəniyyətcə onlara yabançı olan xalqları "barbarlar" (yun. *barbaroi*, lat. *barbari* - yadellilər sözündən) adlandırırdılar] dövrü dedikdə, XVIII əsrin 60-cı illərində şotland filosofu *A.Fergüsonun* irəli sürdüyü və XVIII-XIX əsrlərdə Avropa elmində bəşəriyyət tarixinin keçdiyi üç dövrün (vəhşilik, barbarlıq, mədəniyyət) orta mərhələsi nəzərdə tutulur. Amerikan etnoloqu *L.Morqan* bu bölgünü daha da əsaslandırmışdır. Onun fikrinco, barbarlıq bəşəriyyət tarixində ən böyük ixtiralardan biri olan dulusçuluğun, - gil məmulatının hazırlanması və bişirilməsi ilə məşğul olan sənət sahəsinin, - yaranması dövründən (erkən neolit dövrü) başlanıb, yazının meydana gəlməsi ilə qurtarır.

Son onillikdə geosiyasət Azərbaycanın elmi və ictimai həyatında da nəzərəçarpacaq yer tutmuşdur. Tamamilə qanunauyğun haldır ki, ali təhsil sistemində, xüsusən siyasi profilli ali məktəblərdə bu elmin tədrisinə geniş yer ayrılır.

Oxuculara təqdim olunan bu kitab geosiyasət sahəsində Azərbaycan dilində nəşr edilən ilk əsərlərdəndir. Kitabın ***xüsusiyyəti*** *ondan ibarətdir ki, burada təkcə geosiyasətin yaranması və tarixi barədə deyil, müasir şəraitdə dünyada və xüsusən Qərbdə geosiyasətin vəziyyəti, ən mühüm nəzəri yanaşmalar və konsepsiyalar haqqında ətraflı məlumat verilir. Son illərdə dünyada geosiyasətə həsr edilən çoxlu sayda yeni kitablar və dərs vəsaitlərinin demək olar ki, hamısında ənənəvi "güc geosiyasəti" konsepsiyaları ətraflı səciyyələndirilir. Halbuki bu konsepsiyaların əksəriyyəti hələ İkinci Dünya müharibəsindən əvvəl yaranmışdır. Həmin konsepsiyalara əsasən elə güman etmək olar ki, guya dünyada geosiyasi təfəkkürün inkişafı Helford Makinder*[1] *(1861-1947) və Karl Haushoferin*[2] *(1869-1946) dövründə olduğu səviyyədə qalmışdır. Bu konsepsiyaların müəllifləri ən yaxşı halda nisbətən sonrakı dövrdə siyasətşünaslar, yaxud beynəlxalq münasibətlər üzrə mütəxəssislər tərəfindən təklif edilmiş, geosiyasət məsələlərinə birbaşa və ya dolayı aidiyyəti olan ayrı-ayrı nəzəriyyələri təhlil edirlər, bu isə müasir geosiyasət haqqında təhrif olunmuş təsəvvür yaradır. Məsələyə bu yanaşma çox vaxt müəlliflərin subyektiv ideoloji mövqeləri ilə şərtlənir.*

Eyni zamanda, dünyanın müasir geosiyasi mənzərəsinin və xarici ölkələrin siyasi-coğrafi problemlərinin başa düşülməsi üçün nəzəriyyəyə diqqəti cəlb etməklə bu problemlərin çoxu bu və ya digər formada səciyyələndirilir. Hər halda, nəzəri müddəalar Azərbaycanın və xarici ölkələrin, xüsusən keçmiş SSRİ-nin varisləri olan ölkələrin siyasi praktikasından seçilmiş nümunələrlə illüstrasiya edilərək əsaslandırılır.

Geosiyasət müasir beynəlxalq münasibətlərdə mühüm yer tutur. Geosiyasi proqnozlar olmasa, ölkənin gələcəyini təsəvvür etmək mümkün deyil. Açıq və qapalı cəmiyyətlər və iqtisadiyyatlarla səciyyəvi

[1] İngilis coğrafiyaşünası və tarixçisi, beynəlxalq münasibətlər nəzəriyyəçisi.
[2] Böyük alman geosiyasətçisi, general və diplomat.

olan çoxqütblü dünyada dövlət xadimi geosiyasi təfəkkürə malik olmalıdır. Lakin geosiyasətin təkcə siyasətçilər üçün vacib olmasını vurğulamaq kifayət deyil, çünki o, həmçinin ümumtəhsil mədəniyyətinin tərkib hissəsinə çevrilməkdədir. Geosiyasət haqqında təsəvvürlər cəmiyyətdə fəal mövqe tutmağa çalışan hər bir insan üçün faydalıdır.

Geosiyasətin dirçəlişi böyük çətinliklərlə müşayiət olunur. Bu elmin əsasını təşkil edən fundamental anlayışların çoxu hələ XIX əsrdə ifadə edilmişdir və müasir dövrdə bəzən onların dəqiqləşdirilməsinə ehtiyac var. Geosiyasətə misli görünməmiş maraq onun konturlarının silinməsi ilə müşayiət olunur. Bizə belə gəlir ki, ənənəvi geosiyasətin ən düzgün tərifini o vaxtlar K.Haushofer vermişdir. O, geosiyasət elmini dövlətin siyasətini yaratmaq və əsaslandırmaq üçün coğrafi biliklərdən istifadə etmək bacarığı, praktik siyasətə rəhbərlik etmək məharəti hesab edirdi: "Geosiyasət - dövlətin coğrafi zəkasıdır". Lakin bu tərif artıq köhnəlmişdir. Müasir tədqiqatçılar artıq fundamental (qlobal) və tətbiqi geosiyasət, geosiyasət və siyasi coğrafiya anlayışlarını fərqləndirirlər.

Fundamental geosiyasət həyati məkanın nəzəriyyə və konsepsiyalarını, o cümlədən dünya inqilabı, "ox" (məhvər) məkanı, dənizlərin qüdrəti, atlantizm, avrasiyaçılıq, "qabağınalma" (containment) nəzəriyyəsi və bir sıra başqa məsələləri tədqiq edir.

Tətbiqi geosiyasət suveren dövlətlərin yaranması və parçalanması, millətçiliyin dirçəlməsi, qloballaşma və regionallaşma, nəqliyyat dəhlizləri və enerji resurslarından asılılıq, beynəlxalq təşkilatların və maliyyə təsisatlarının rolunun getdikcə artması, konkret beynəlxalq investisiya layihələrinin geosiyasi aspektləri və başqa siyasi-iqtisadi-coğrafi problemlərin geniş spektrini təhlil edir.

Qloballaşma şəraitində təkcə makroregional (dövlətlərarası) səviyyədə deyil, həm də regional siyasətdə geosiyasi proseslərin təsiri artmışdır. Buna görə də qlobalistika ilə yanaşı həm daxili, həm də xarici amillərin regional inkişafa təsirini nəzərə alan regionalistika təşəkkül edir.

Bəzi tədqiqatçılar geosiyasət ilə siyasi coğrafiya arasında prinsipial fərqi görmür və bu anlayışları sinonimlər hesab edirlər. Biz isə onların arasında fərq olmasına əminik.

Siyasi coğrafiya siyasi proseslərin inkişafına məkan elementlərinin təsirini tədqiq edir və klassik coğrafiya çərçivəsində iqtisadi və fiziki coğrafiya ilə yanaşı ayrıca bir istiqamət kimi nəzərdən keçirilə bilər. Ənənəvi siyasi coğrafiya dövlətləri və onların sərhədlərini makrosəviyyədə öyrənir. Siyasi (elektoral) coğrafiya, əsasən, konkret məkanda (ölkə, ştat, seçki dairəsi və s.) siyasi qüvvələrin paylanmasının xüsusiyyətlərini tədqiq edir, səsvermənin nəticələrində məkan fərqlərini açıqlayır. Qərarlaşmış seçkilər institutuna malik olan demokratik hüquqi dövlətlərdə elektoral coğrafiyanın öyrənmə predmeti bütün siyasi sistemi, o cümlədən seçkiləri (səsvermə prosesi, elektoratın tərkibi, seçki dairələrinin "biçilməsi" və s.), hakimiyyət təsisatlarını və həyata keçirilən siyasəti əhatə edir.

Geosiyasət isə coğrafiya, tarix, iqtisadiyyat, etnologiya və başqa elmlərin sərhədlərində olan məsələlərə dair biliklər tələb edir. Bu biliklər peşəkar analitika təkcə məkan hadisələrinin səriştəli təhlili üçün deyil, həm də hadisələrin inkişafının və mümkün strategiyaların proqnozlaşdırılması, onların ssenari və meyillərinin yaradılması üçün zəruridir. Geosiyasət klassikləri göstərirlər ki, bu halda tədqiqatçı özünün ümumi savad və mədəniyyətinin yüksək səviyyəsi ilə seçilməli, ən başlıcası, yeni ideyalar generatoru olmalıdır. Geosiyasət bu sahəyə təkcə siyasi aspektlərin deyil, həm də hərbi, iqtisadi, sosiomədəni və başqa aspektlərin daxil edilməsi yolu ilə inkişaf edir, bu isə çoxölçülü (geosiyasi, geoiqtisadi, sosiomədəni və s.) məkan və onun hüdudlarını müəyyən edən təsəvvürlər əsasında geofəlsəfənin və ya siyasi-coğrafi fəlsəfənin yaranmasına gətirib çıxarır. Məsələyə bu yanaşmanın təməli klassik Avropa fəlsəfəsində qoyulmuşdur. Həmin fəlsəfəyə görə, həqiqəti yalnız sərhəd vəziyyətləri vasitəsilə görmək mümkündür.

Bu kitabın ***məqsədi*** *geosiyasi transformasiya, ziddiyyətli qloballaşma və regionallaşma prosesləri şəraitində səmərəli siyasət yeritməyə kömək edən analitik təfəkkür formalaşdırmaqdır. Kitabın əsas* ***vəzifəsi*** *dövlətin beynəlxalq səhnədə davranışını müəyyən edən bazis amillərinin toplusunun genişləndirilməsi hesabına geosiyasətin coğrafi və iqtisadi determinizminin ənənəvi məhdudluğunu aradan qaldırmağa cəhd göstərməkdən ibarətdir. Beynəlxalq münasibətlər-*

də və yeni dünya nizamının formalaşmasında əsas diqqət formasiya yanaşmasına deyil, sivilizasiya yanaşmasına[1] *yönəldilir. Buna görə də kitabda geosiyasi təfəkkürün transformasiyası məsələləri öz əksini tapmışdır. Beləliklə, ənənəvi geosiyasət, yeni (iqtisadi) geosiyasət (geoiqtisadiyyat) və ən yeni sivilizasiya geosiyasəti fərqləndirilir.*

Kitabda dünya sivilizasiyaları, dövlətlər, ayrı-ayrı regionlardakı böyük dövlətlər haqqında ümumi təsəvvür yaradılır. Nəzərdən keçirilən əsas geosiyasi obyekt Avrasiya (sözün geniş mənasında "Hartland"[2]*), həmçinin etnik-milli və etnik-konfessional münaqişə zonalarından ibarətdir. Bu halda isə, iqtisadi və sivilizasiya geosiyasətinin inkişafı aktualdır. Onun üçün də kitabda Amerika, Avropa, Rusiya, Çin, Hindistan, Yaponiya və müsəlman dövlətlərinin geosiyasətlərinə xüsusi diqqət yetirilir, alimlər və siyasi xadimlər haqqında bioqrafik məlumatlar verilməsi geosiyasi təfəkkürün qaynaqlarını daha dərindən başa düşməyə kömək edir.*

Geosiyasətdə başqa məna kəsb edən coğrafi anlayışlardan - məsələn, Qərb, Şərq, Şimal, Cənub, Dəniz, Qitə anlayışlarından istifadə etmək ənənəsi yaranmışdır. Kitabda bu sözlər böyük hərflə yazılır. Qərbə xas olan anlayışların çoxu postsovet məkanında ciddi transformasiyaya məruz qalmışdır. Buna görə də mümkün olduqca müvafiq terminin yeni, çox vaxt onun ilkin mənasına uyğun gəlməyən real məzmunu şərh edilir.

Kitabda müxtəlif dövrlərin və xalqların geosiyasətçilərini onların öz təsəvvürləri işığında anlamaqdan ötrü hər bir geosiyasətçinin baxışlarının onun zəmanəsi kontekstində öyrənilməsinə xüsusi diqqət yetirilir. Amma, eyni zamanda, onlarla dialoqa da səy edilir. Biz keçmişdən gələn səslərə yalnız qulaq asmağı deyil, həm də onlarla dialoqa girərək münasibət bildirməyi qarşımıza məqsəd qoyuruq.

Novruz MƏMMƏDOV

[1] Sivilizasiyalı yanaşmada tarixi prosesin mərkəzində öz mentalitetinin xüsusiyyətləri, cəmiyyətlə mürəkkəb qarşılıqlı əlaqələri ilə fərqlənən insan özü-özünü inkişaf etdirən sistem kimi nəzərdən keçirilir.

[2] *H.Makinder* tərəfindən irəli sürülmüş "Yerin mərkəzi" geosiyasi anlayışı. Bu anlayışa görə, kim "Yerin mərkəzi"nə sahib olarsa, dünya ağalığına nail ola bilər.

GİRİŞ

Dünya gözümüz qarşısında sürətlə dəyişir. İndi tez-tez sistemli xarakter daşıyan iqtisadi böhran dünyanın geosiyasi xəritəsində aparıcı oyunçuların möhkəmliyini sınağa çəkir. Müasir geosiyasət bir qisim üçün "oyanış geosiyasətinə" *(Z.Bjezinski)*, digərləri üçün isə həyəcan və ümidsizlik geosiyasətinə çevrilir, dünya tarixi səhnəsində keçmiş ittifaq və bloklar dağılır, adi geosiyasi konfiqurasiyalar dəyişir, yeniləri yaranır. "Rəngli inqilablar", "ərəb baharı" və lokal münaqişələr dünyanın geosiyasi xəritəsində hakimiyyətin yenidən bölüşdürülməsində real alətlərə çevrilir. Eyni zamanda, informasiya inqilabı yeni zamanın, məkanın virtual ölçülərini tətbiq edərək, geosiyasətin qeyri-ənənəvi subyektləri üçün səhnə açaraq, dünya kommunikasiyalarının yeni şəbəkəsini yaradaraq, nəzəriyyəçiləri bütün əsas problemlərin yenidən dərkinə məcbur edir.

Məlumdur ki, geosiyasi məktəblərin çoxsaylı nümayəndələrinin əsərlərində fərqlər və çox vaxt ziddiyyətlər mövcud olmasına baxmayaraq, bu əsərlər bir ümumi mənzərə yaradır və predmetin özü barəsində müəyyən fikir söyləməyə imkan verir. Bu elmin öyrəndiyi əsas predmetin və başlıca metodoloji prinsiplərin müəyyən edilməsində müxtəlif müəlliflərin mövqeləri, müxtəlif lüğətlərdə verilən təriflər bir-birindən fərqlənir. Belə fikir ayrılıqları tarixi şəraitlə, geosiyasət ilə dünya siyasəti arasında, hakimiyyət problemləri və hakim ideologiyalar arasında çox sıx əlaqənin mövcud olması ilə izah edilməlidir. Geosiyasət elminin sintetik xarakteri ona coğrafiya, tarix, demoqrafiya, hərbi strategiya, etnologiya, dinşünaslıq, ekologiya, sosiologiya, politologiya və bir sıra başqa əlavə predmetlərin daxil edilməsini nəzərdə tutur. Bütün hərbi elmlərin, təbiətşünaslıq elmlərinin və humanitar elmlərin özlərinin də çoxsaylı məktəbləri və istiqamətləri

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

mövcud olduğuna görə geosiyasətin tədqiqat obyektini konkret çərçivəyə salmaq çətindir. Belə olan təqdirdə bu qədər qeyri-müəyyən predmeti olan bu elmə tərif verilməsi olduqca mürəkkəbləşir.

Geosiyasət dünyabaxışıdır və bu mənada onu təkcə elmlərlə deyil, elm sistemləri ilə də müqayisə etmək münasibdir. Geosiyasət də marksizm, liberalizm və başqa "izm"lərlə eyni səviyyədədir, yəni əsas prinsip kimi ən mühüm bir meyarı seçən və insanın, təbiətin saysız-hesabsız başqa aspektlərinin hamısını həmin prinsiplə əlaqələndirən cəmiyyətin və tarixin interpretasiyaları sistemi səviyyəsindədir.

Marksizm və liberalizm insanın mövcudluğunun iqtisadi cəhətini, *"iqtisadiyyat tale qisməti kimidir"* prinsipini əsas götürür. Bu iki ideologiyadan bir-birinə zidd nəticələr çıxarılması əhəmiyyətli deyil. *Karl Marks*[1] (1818-1883) antikapitalist inqilabın labüd olması qənaətinə gəlir, *Adam Smitin*[2] (1723-1790) davamçıları isə belə hesab edirlər ki, kapitalizm cəmiyyətin ən mükəmməl modelidir. Hər iki halda tarixi prosesin geniş interpretasiya metodu, xüsusi sosiologiya, antropologiya və politologiya təklif olunur. "İqtisadi reduksionizm"in bu formalarının daim alternativ (və marginal) elmi dairələr tərəfindən tənqid edilməsinə baxmayaraq, bu formalar üstün sosial modellər kimi qalır və onların əsasında insanlar yalnız keçmişi dərk etməklə kifayətlənməyib həm də gələcəyi yaradırlar, yəni bütün bəşəriyyətin maraqlarına bilavasitə aid olan planlar, layihələr qurur, irimiqyaslı tədbirlər hazırlayıb həyata keçirirlər.

Geosiyasətdə də vəziyyət belədir. Lakin "iqtisadi ideologiyalar"dan fərqli olaraq klassik geosiyasət *"coğrafi relyef tale kimidir"* tezisinə əsaslanır. **Marksizmdə və liberalizmdə pul və istehsal münasibətləri hansı funksiyaları yerinə yetirirsə, geosiyasətdə coğrafiya və məkan eyni funksiyaları yerinə yetirir,**

[1] Dialektik və tarixi materializmin, elmi siyasi iqtisadın banisi.

[2] Şotland iqtisadçısı və filosofu, klassik burjua siyasi iqtisadının ən böyük nümayəndələrindən biri.

bəşəriyyətin mövcudluğunun bütün əsas aspektləri bu funksiyalar vasitəsilə ifadə edilir. Onlar keçmişin interpretasiyasının baza metodu, insanın varlığının əsas amilləri kimi çıxış edir, varlığın bütün başqa cəhətlərini öz ətrafında cəmləşdirirlər. İqtisadi ideologiyalar kimi geosiyasət də ehtimallara, reduksionizmə, həyatın çox müxtəlif təzahürlərini bir neçə parametrlə ifadə etməyə əsaslanır. Lakin bu cür nəzəriyyələrə həmişə xas olan aşkar təqribiliyə, xətalara baxmayaraq, geosiyasət keçmişin izah edilməsi məsələsində özünün ciddiliyini, müasir dövrün təşkilində və gələcəyin layihələşdirilməsində son dərəcə effektiv olmasını inandırıcı şəkildə sübut edir.

Marksizm və klassik burjua siyasi iqtisadı ilə müqayisəni davam etdirsək deyə bilərik ki, "iqtisadi insan" (homo economicus) deyilən ayrıca bir kateqoriyanın mövcud olmasını iddia edən iqtisadi ideologiyalar kimi, geosiyasət də "məkan adamı"ndan bəhs edir. Bu sonuncu, məkan vasitəsilə əvvəlcədən müəyyən edilmiş, onun spesifik relyefi, landşaftı ilə şərtlənmişdir. Lakin bu şərtilik insanın dövlətlərdə, etnoslarda, mədəniyyətlərdə, sivilizasiyalarda və başqa formalarda geniş əhatəli sosial təzahürlərində daha aşkar əks olunur. Hər bir fərdin iqtisadiyyatdan asılı olması istər kiçik, istərsə də böyük nisbətlərdə aşkar görünür. Buna görə də iqtisadi determinizm həm adi insanlar, həm də böyük kateqoriyalarla işləyən hakimiyyət instansiyaları üçün anlaşıqlıdır. Bəlkə də elə bu səbəbdən iqtisadi ideologiyalar bu dərəcədə populyarlaşmış və çoxsaylı fərdlərin ideologiyasında şəxsi iddialara əsaslanan inqilablar da daxil olmaqla səfərbəredici funksiyanı yerinə yetirmişdir. **Geosiyasətin əsas tezisi - insanın məkandan asılı olması barədə tezis yalnız müəyyən məsafədən baxanda aşkar görünür. Buna görə də müvafiq şəraitin mövcud olmasına baxmayaraq, geosiyasət xüsusi ideologiyaya, daha dəqiq desək, "kütləvi ideologiya"ya çevrilməmişdir.** Onun çıxardığı nəticələr, tətbiq etdiyi metodlar, öyrəndiyi predmet və onun əsas tezisləri yalnız irimiqyaslı problemlərlə, strateji planlaşdırma, qlobal sosial və tarixi qanunauyğun-

luqların dərk edilməsi və başqa məsələlərlə məşğul olan sosial instansiyalar üçün aydındır. Məkan böyük kəmiyyətlərdə özünü göstərir. Bu baxımdan, geosiyasət ümumiləşdirilmiş reallıqlarla - ölkələr, xalqlar və b. səviyyələrlə bağlı sosial qruplar üçün nəzərdə tutulmuşdur.

Geosiyasət hakimiyyət dünyagörüşüdür, hakimiyyət haqqında və hakimiyyət üçün elmdir. İnsan yalnız ən yüksək sosial təbəqələrə yaxınlaşdıqda geosiyasət ondan ötrü öz mənasını, əhəmiyyətini və faydasını göstərir, halbuki bu məqama qədər o, mücərrəd bir anlayış kimi qəbul edilir. Geosiyasət, həmçinin siyasi elitalar üçün nəzərdə tutulan bir elmdir və onun bütün tarixi inandırıcı şəkildə sübut edir ki, geosiyasətlə yalnız ölkələrin və millətlərin idarə olunması prosesində fəal iştirak edən və ya bu rola hazırlaşan insanlar (tarixi şəraitlə əlaqədar hakimiyyətdən kənarlaşdırılmış alternativ müxalifətçi ideoloji düşərgələrdən söhbət gedirsə) məşğul olmuşlar. Geosiyasət elmi ciddilik iddiasında olmadan nəyin ondan ötrü dəyərli və nəyin dəyərsiz olmasını öz səviyyəsində özü müəyyən edir. Humanitar və təbii elmlər yalnız o halda cəlb edilir ki, onlar geosiyasi metodun əsas prinsiplərinə zidd olmasın. Geosiyasət faydalı hesab etdiyi elmləri və elmi istiqamətləri müəyyən mənada özü seçir və bu zaman başqa elmlərə və elmi istiqamətlərə əhəmiyyət vermir. **Müasir dünyada geosiyasət "hökmdarın qısa soraq kitabı", hakimiyyət dərsliyidir,** bu dərslikdə ittifaqlar bağlanması, müharibələrə başlamaq, islahatların həyata keçirilməsi, cəmiyyətin strukturunun yenidən qurulması, genişmiqyaslı iqtisadi və siyasi sanksiyaların və sair qlobal (taleyüklü) qərarların qəbul edilməsi zamanı nəzərə alınmalı mülahizələr verilir.

Geosiyasətin əsas qanunu planetin coğrafi quruluşunda və sivilizasiyaların tarixi tipologiyasında öz əksini tapmış fundamental dualizmdir. Bu dualizm "tellurokratiya" (quru qüdrəti) və "talassokratiya" (dəniz qüdrəti) arasındakı qarşıdurmada ifadə olunur. Bu cür qarşıdurmanın xarakteri ticarət sivilizasiyası

(Karfagen[1], Afina[2]) ilə hərbi-avtoritar sivilizasiyanın (Roma[3], Sparta[4]) bir-birinə qarşı qoyulmasından ibarətdir. Başqa sözlə desək, söhbət "demokratiya" ilə "ideokratiya" arasında dualizmdən gedir.

Bu dualizm lap əvvəldən onu təşkil edən qütblərin bir-birinə düşmən, bir-birinin alternativi olması keyfiyyətinə malikdir, hərçənd, bu keyfiyyətin dərəcəsi dəyişə bilər. Beləliklə, bəşər cəmiyyətlərinin bütün tarixi iki stixiyadan - "su" ("maye", "axıcı") və "quru" ("torpaq") ("möhkəm", "bərk", "sabit") stixiyalarından ibarət hesab edilir.

"Tellurokratiya", "quru qüdrəti" məkanın sabitliyi, onun keyfiyyət oriyentasiya və xarakteristikalarının davamlı olması ilə əlaqədardır. O, sivilizasiya səviyyəsində oturaqlıqda, mühafizəkarlıqda, iri insan birliklərinin - qəbilələrin, tayfaların, xalqların, dövlətlərin, imperiyaların tabe olduğu ciddi hüquqi normativlərdə təcəssüm olunur. Qurunun möhkəmliyi mədəni baxımdan əxlaqın qətiyyətində və sosial ənənələrin davamlılığında təcəssüm olunur. Quru ərazidə yaşayan (xüsusən oturaq həyat tərzi keçirən) xalqlar üçün fərdiyyətçilik, sahibkarlıq ruhu kimi keyfiyyətlərlə müqayisədə kollektivizm və iyerarxiya daha səciyyəvidir.

[1] Şimali Afrikada quldarlıq şəhər-dövləti. Əsası e.ə. 825-ci ildə qoyulmuşdur. E.ə. III-II əsrlərdə Karfagenlə Roma arasında Pun müharibələri zamanı romalılar tərəfindən tamamilə dağıdılmış (e.ə. 146) və Romanın Afrika əyalətinə çevrilmişdir.

[2] Qədim Yunanıstanın iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış şəhər-dövlət. Afina quldarlıq demokratiyasının klassik nümunəsi idi. *Perikl* dövründə (e.ə. V əsrin 2-ci yarısı) öz inkişafının ən yüksək pilləsinə nail olmuşdur. Afina dövlət quruluşunun daha da demokratikləşdirilməsinə yönəldilmiş bir sıra qanunvericilik tədbirləri *Periklin* adı ilə bağlıdır. Xarici siyasət sahəsində *Periklin* fəaliyyəti Afina dəniz dövlətinin genişlənməsinə və möhkəmləndirilməsinə yönəldilmişdi.

[3] Əvvəlcə şəhər-dövlət, sonralar Avropanın qərb və cənub-şərq hissələrinin, Kiçik Asiyanın, Şimali Afrika sahilinin, Suriya və Fələstinin daxil olduğu dövlət. Roma Qədim Yunanıstandan sonra antik dünyanın ən böyük quldar dövləti olmuşdur.

[4] Əvvəllər Yevrot çayı vadisində qədim yunan polisi, e.ə. VI-I əsrlərdə Peloponnes yarımadasının cənubunda dövlət. E.ə. VI əsrdə Sparta Peloponnes ittifaqına başçılıq etmiş, Peloponnes müharibəsində (e.ə. 431-404) Afinaya qalib gəlmiş, bütün Yunanıstanda hegemonluğu ələ keçirmişdi. Spartanın hegemonluğuna qarşı yunan şəhərlərinin koalisiyası yarandı. Lakin Sparta Yunanıstanda üstünlüyünü saxlaya bildi. Ellinizm dövründə Sparta zəiflədi və e.ə. 146-cı ildə Romadan asılı vəziyyətə düşdü; e.ə. 27-ci ildə Romanın təşkil etdiyi Axey əyalətinin tərkibinə daxil edildi.

"Talassokratiya", "dəniz qüdrəti" fərqli dəyərlərə əsaslanan sivilizasiya tipi kimi qəbul edilir. Dinamik, mütəhərrik (hərəkət edən, bir yerdə qərar tutmayan, oynaq), texniki inkişafa meyilli olan bu tipin prioritetləri köçəri həyat tərzi (xüsusən dənizçilik), ticarət, fərdi sahibkarlıq ruhudur. Fərd kollektivin ən mütəhərrik hissəsi kimi ən yüksək dəyər kəsb edir, bu halda etik və hüquqi normalar arasında hədlər silinir, onlar nisbi və dəyişkən olur. Sivilizasiyanın bu tipi sürətlə inkişaf edir, fəal təkamül prosesi keçir, zahiri mədəni əlamətlərini asanlıqla dəyişir, yalnız ümumi daxili identikliyini qoruyub saxlayır.

Bəşər tarixinin çox hissəsi hər iki oriyentasiyanın məhdud miqyası daxilində "tellurokratiya"nın qlobal hökmranlığı şəraitində cərəyan edir. "Torpaq" (quru) elementi sivilizasiyaların bütün ansamblı üzərində üstünlük təşkil edir, "Su" (dəniz, okean) elementi isə yalnız fraqmentar və sporadik formada çıxış edir. Dualizm müəyyən həddə qədər coğrafi baxımdan lokal qalır (dəniz sahilləri, çayların mənsəbi, hövzələri və s.), planetin müxtəlif zonalarında qarşıdurma müxtəlif intensivliklə və müxtəlif formalarda inkişaf edir.

Dünya xalqlarının siyasi tarixi getdikcə daha geniş miqyas alan siyasi formaların tədricən çoxalmasını nümayiş etdirir. Dövlətlər və imperiyalar bu cür yaranır. Geosiyasi səviyyədə bu proses bəşər tarixində məkan amilinin güclənməsi deməkdir. Dövlətlərin və imperiyaların iri siyasi qurumlarının xarakteri getdikcə daha universal sivilizasiya tipləri səviyyəsinə çıxaraq stixiyaların dualizmini daha güclü ifadə edir.

Müəyyən məqamda (antik dünya) *"Makinderin xəritəsi"ndə* təsvir edilmiş kifayət qədər sabit mənzərə yaranır. "Tellurokratiya" zonası Şimal-Şərqi Avrasiyanın ucsuz-bucaqsız qitədaxili ərazisi ilə (bütövlükdə Çar Rusiyasının və keçmiş SSRİ-nin ərazisi ilə) eyniləşdirilir. "Talassokratiya" Avrasiya materikinin sahil zonaları, Aralıq dənizi arealı, Atlantik okeanı və Avrasiyanı cənubdan və qərbdən əhatə edən ərazi mənasında qəbul edilir. Beləliklə, dünya xəritəsi geosiyasi mahiyyət kəsb edir:

1) Qitədaxili məkanlar "qeyri-mütəhərrik" platformaya, "Hartland"ə ("Yerin mərkəzi"nə), "tellurokratik" sivilizasiyaya xas olan mahiyyətini qoruyub saxlayan "tarixin coğrafi oxu"na çevrilir.

2) "Daxili və ya kontinental aypara", "sahil zonası", "Rimland" intensiv mədəni inkişaf məkanıdır. Burada "talassokratiya" cizgiləri aşkar görünür, hərçənd, çoxsaylı "tellurokratik" meyillər bu cizgiləri tarazlaşdırır.

3) "Xarici və ya ada ayparası" yalnız dəniz yolları ilə kommunikasiya yaratmaq mümkün olan "kəşf edilməmiş torpaqlar"dır. O, ilk dəfə Karfagendə və Avropanın "daxili aypara"sına kənardan təsir göstərmiş Finikiya[1] ticarət sivilizasiyasında özünü nümayiş etdirmişdir.

"Talassokratiya" və "tellurokratiya" arasında nisbətin bu geosiyasi mənzərəsi *Pun müharibələri*[2] (e.ə. 264-146) dövründən sonra xristian erasının əvvəlində potensial baxımdan üzə çıxır. Lakin o yalnız XVII-XIX əsrlərdə İngiltərənin böyük dəniz dövlətinə çevrildiyi dövrdə tam mənа kəsb edir. XV əsrin axırlarından etibarən *Böyük coğrafi kəşflər* dövrü "talassokratiya"nın Avrasiyadan və onun sahillərindən təcrid olunmuş və anqlosaks dünyasında (İngiltərə, Amerika) və müstəmləkələrdə təmərküzləşmiş müstəqil planetar qurum kimi təşəkkül etməsinə səbəb olmuşdur. Anqlosaks kapitalizmi və sənayeləşdirmə dövründə vahid və bütöv "Yeni Karfagen" formalaşmış və bu vaxtdan etibarən geosiyasi dualizm artıq dəqiq fərqləndirilə bilən ideoloji və siyasi formalar kəsb etmişdir.

[1] Aralıq dənizinin şərq sahilində qədim ölkə (indiki Livanın və Suriyanın sahil ərazisi). Finikiya şəhər-dövlətləri (Tir, Sidon, Bibl və s.) fəal dəniz və quru ticarəti aparır, Aralıq dənizi hövzəsində koloniyalar salırdılar. E.ə. 539-cu ildən e.ə. 332-ci ilə qədər Finikiya Əhəmənilər dövlətinin tərkibində olmuş, sonra isə *Makedoniyalı İsgəndərin* imperiyasına daxil edilmişdi. Bu imperiyalar dağıldıqdan sonra Ptolomeylərin, e.ə. III əsrin ortalarından isə Selevkilərin əlinə keçmişdi. E.ə. 63-cü ildən Finikiya Romanın Suriya əyalətinə daxil edilmişdir.

[2] Karfagenlə Qədim Roma arasında əvvəlcə Siciliyada, sonra Aralıq dənizinin bütün qərb sahilində hökmranlıq uğrunda işğalçılıq müharibələri. Pun müharibələri nəticəsində Roma Aralıq dənizinin ən güclü dövlətinə çevrilmişdir.

İngiltərənin qitə dövlətləri Avstriya-Macarıstan imperiyası, Almaniya və Rusiya ilə mövqe mübarizəsi XVIII-XIX əsrlərin (eləcə də XX əsrin birinci yarısının) əsas geosiyasi məzmununu təşkil etmiş, XX əsrin ortalarından etibarən isə ABŞ "talassokratiya"nın əsas dayağına çevrilmişdir.

1946-1991-ci illəri əhatə edən *"soyuq müharibə"* dövründə əbədi geosiyasi dualizm maksimal nisbətlərə çatmış, bu dövrdə "talassokratiya" dedikdə ABŞ, "tellurokratiya" dedikdə isə SSRİ nəzərdə tutulmuşdur. Sivilizasiyanın, mədəniyyətin, metaideologiyanın iki qlobal tipi stixiyanın qarşıdurmasının bütün geosiyasi tarixinin yekunu olan dolğun geosiyasi cizgilər kəsb etmişdir. Çox qəribədir ki, geosiyasi dualizmin bu formalarına ideoloji səviyyədə eyni dərəcədə sintetik xarakterli iki reallıq, - marksizm (sosializm) ideologiyası və liberal kapitalizm ideologiyası, - müvafiq idi.

Bu halda "reduksionizm"in iki tipinin təcrübədə reallaşmasından danışmaq olar: iqtisadi reduksionizm *A.Smitin* və *K.Marksın* ideyalarının bir-birinə qarşı qoyulması, geosiyasi reduksionizm isə planetdəki bütün sektorların "talassokratiya" (Yeni Karfagen, ABŞ) və "tellurokratiya"nın (Yeni Roma, SSRİ) nəzarəti altında bölünməsi demək idi.

Tarixə geosiyasi baxış planetar dualizmin maksimal nisbətlərə qədər inkişafı modelidir. Quru və Dəniz arasında əzəli qarşıdurma bütün dünyaya şamil edilir.

Bəşər tarixi bu mübarizənin ifadəsi və onun mütləqləşdirilməsi yolu deməkdir. Geosiyasətin əsas qanunu - stixiyaların dualizmi qanunu (Quru Dənizə qarşı) ən ümumi şəkildə belə ifadə oluna bilər.

"Soyuq müharibə"də Qərb qəti qələbə qazanana qədər geosiyasi dualizm əzəli çərçivələr daxilində inkişaf edirdi. Bu halda həm "talassokratiya" və həm də "tellurokratiya" maksimal məkan və strateji güc həcmi toplayırdı. Hər iki tərəf öz nüvə potensialını artırdığına görə bəzi bədbin geosiyasətçilər bütün bu prosesin fəlakətlə nəticələnəcəyini güman edirdilər, çünki bu iki qüdrətli

tərəf planetə nəzarəti bütünlüklə təmin etdikdən sonra ya qarşıdurmanı Yer kürəsinin hüdudlarından kənara yaymalı ("ulduz müharibələri" nəzəriyyəsi), ya da bir-birini qarşılıqlı məhv etməli idi ("nüvə apokalipsisi"). Tarixin əsas geosiyasi prosesinin xarakteri - "talassokratiya" və "tellurokratiya"nın məkanda maksimal genişlənməsi bu elm üçün aşkar olduğu halda, bu genişlənmənin nəticəsi sual doğurur. Bu məsələdə heç bir deterministik əlaqə yoxdur. Buna görə də, geosiyasi teleologiya, yəni tarixin məqsədinin geosiyasi terminlərlə dərk edilməsi yalnız dualizmin qloballaşması məqamına çatır və burada dayanır.

Bununla belə, xalis nəzəri səviyyədə iki sistemdən birinin qələbəsini qeyd etmək mümkün olandan sonra hadisələrin ehtimal edilən bir neçə inkişaf versiyasını göstərmək olar.

Birinci variant. "Talassokratiya"nın qələbəsi "tellurokratiya" sivilizasiyasını tamamilə məğlub edir. Planetdə vahid liberal-demokratik qayda bərqərar olur. "Talassokratiya" öz arxetipini mütləqləşdirir və insan həyatının təşkilinin yeganə sisteminə çevrilir. Bu variant məntiqi cəhətdən ziddiyyətli deyildir, çünki bu variantda Qurunun tam hökmranlığından (ənənəvi dünya) Dənizin tam hökmranlığına (müasir dünya) qədər geosiyasi tarixin bir istiqamətdə (bütövlükdə) gedişinin qanunauyğun tərzdə başa çatmasını görmək olar.

İkinci variant. "Talassokratiya"nın qələbəsi iki sivilizasiyanın qarşıdurma dövrəsini başa çatdırır, lakin bu model bütün dünyaya şamil edilmir, sadəcə olaraq geosiyasi tarixin problemlərini aradan qaldıraraq onu başa çatdırır. Postsənaye cəmiyyəti nəzəriyyələrində bu cəmiyyətdə klassik siyasi iqtisadın (marksizmin) əsas ziddiyyətlərinin aradan qalxması sübut edildiyi kimi, bəzi mondialist nəzəriyyələrdə də iddia edilir ki, gələcəkdə Quru və Dəniz arasında qarşıdurma tamamilə aradan qalxacaqdır. Bu da "tarixin sonu" deməkdir, lakin hadisələrin bundan sonrakı inkişafını birinci variantda olduğu kimi ciddi təhlil etmək mümkün olmur. Bu variantların hər ikisi "tellurokratiya" məğlubiyyətini

qarşısıalınmaz və artıq baş vermiş fakt hesab edir. Digər iki variantda isə bu məsələyə münasibət başqadır.

Üçüncü variant. "Tellurokratiya"nın məğlubiyyəti müvəqqəti haldır. Avrasiya özünün kontinental missiyasına yeni formada qayıdacaqdır. Bu halda fəlakətə səbəb olmuş geosiyasi amillər nəzərə alınacaqdır. Kontinentalist qüvvələr ("yeni kontinental blok") Cənubda və Qərbdə dəniz sərhədlərinə malik olacaqdır, yəni "Avrasiya üçün Monro doktrinası" həyata keçəcəkdir. Bu halda dünya yenidən bipolyar (ikiqütblü) duruma qayıdacaqdır, lakin bu halda səviyyə və keyfiyyət başqa olacaqdır.

Dördüncü variant (əvvəlki variantın inkişafı). Bu yeni qarşıdurmada "tellurokratiya" qalib gəlir. O, özünün xüsusi sivilizasiya modelini bütün planetə şamil etməyə və "tarixi öz akkordu ilə bağlamağa" çalışır. Bütün dünya tipoloji baxımdan Quruya çevriləcək və hər yerdə "ideokratiya" bərqərar olacaqdır. "Dünya inqilabı" və Üçüncü reyxin planetdə ağalığı ideyaları hadisələrin bu cür yekunu barədə düşüncələrin məhsulu idi.

Müasir dövrdə tarixi proseslərin inkişafında subyektiv və rasional amillərin rolu həmişəkindən daha böyük olduğu üçün bu dörd variantı geosiyasi prosesin ehtimal edilən inkişafının mücərrəd təsviri kimi deyil, həm də qlobal miqyaslı hərəkətlər üçün rəhbər vasitəyə çevrilə biləcək fəal geosiyasi mövqelər kimi nəzərdən keçirmək lazımdır. Lakin bu halda geosiyasət heç bir deterministik versiya təklif edə bilməz. Burada hər şey elə imkanlar toplusuna çevrilir ki, onların gerçəkləşməsi artıq xalis geosiyasi təhlil çərçivəsinə yerləşməyən çoxsaylı amillərdən asılı olur.

Geosiyasi tədqiqatın bütün metodologiyası Qurunun və Dənizin qlobal geosiyasi dualizmi prinsiplərinin daha lokal kateqoriyalara tətbiq edilməsinə əsaslanır. Hər hansı vəziyyətin təhlilində başlıca və əsas model məhz planetar modeldir. Ümumi mənzərə üçün səciyyəvi olan münasibətlər daha xüsusi səviyyədə də təkrarlanır.

"Talassokratiya" və "tellurokratiya"nın iki əsas prinsipi fərqləndirildikdən sonra növbəti ən mühüm prinsip "Rimlənd", "sahil

zonası" prinsipidir. Bu mühüm kateqoriya geosiyasi tədqiqatın əsasını təşkil edir.

"Rimlənd" potensial baxımdan ya "talassokratiya"nın, ya da "tellurokratiya"nın fraqmentinə çevrilə biləcək mürəkkəb bir məkandır. O, çoxcəhətli və zəngin mədəniyyətə malik olan regiondur. Dəniz stixiyasının, Suyun təsiri "sahil zonası"nda fəal və dinamik inkişafa şərait yaradır. Kontinental kütlə enerjiyə təzyiq göstərərək onu strukturlaşmağa məcbur edir. Bir tərəfdən "Rimlənd" Adaya və Gəmiyə, digər tərəfdən İmperiyaya və Evə keçir.

Lakin "Rimlənd" təkcə iki impulsun bir-birinə qarşı durduğu aralıq və keçici mühit demək deyildir. O, müstəqil siyasətə malik olan və həm "talassokratiya"ya, həm "tellurokratiya"ya çox güclü təsir göstərən çox mürəkkəb reallıqdır. O tarixin obyekti deyil, onun fəal subyektidir. "Talassokratiya" və "tellurokratiya"nın "Rimlənd" uğrunda mübarizəsi adi strateji mövqeyə malik olmaq uğrunda rəqabət deyildir. "Rimlənd"in öz taleyi və tarixi iradəsi var, lakin bu məsələlər əsas geosiyasi dualizmdən kənarda həll edilə bilməz. "Rimlənd" seçim etməkdə xeyli sərbəstdir, lakin seçimin strukturunda sərbəst deyildir, çünki "talassokratik" və ya "tellurokratik" yoldan fərqli üçüncü yol yoxdur.

"Daxili aypara"nın bu keyfiyyəti ilə əlaqədar onu çox vaxt boşqa sivilizasiyasının yayılma arealı ilə eyniləşdirirlər. Qitənin dərinliyində mühafizəkarlıq, onun hüdudlarından kənarda isə mütəhərrik hərc-mərclik hökm sürür. "Sahil zonaları" öz mövqeyinə görə coğrafiyanın təklif etdiyi problemə cavab vermək zərurəti ilə üzləşmişdir.

"Rimlənd" sərhəd zonası, qurşaq, zolaqdır. Bütün bunlarla bərabər, o, sərhəddir. Bu cür əlaqəlilik sərhədə geosiyasi tərifin verilməsinə gətirib çıxarır. Dövlətlər arasında sərhədlərdən fərqli olaraq geosiyasət bu termini başqa cür mənalandırır, modelin ilkin variantında bütün sərhədlərin özəli hüdudu və ya arxetipi konkret tarixi-coğrafi və mədəni anlayış olan "Rimlənd" anlayışından çıxış edir.

"Sahil zonaları"nın məkan həcmi materikə kənardan, "Dənizdən gəlmələrin gözü ilə" baxmağın nəticəsidir. Sahil məhz "Dəniz qüvvələri" üçün Qurunun dərinliklərinə doğru uzanan zolaqdır. Materikin özü üçün isə, əksinə, sahil - hüdud xəttidir.

Sərhəd, - xətt kimi (beynəlxalq hüquqda onu məhz bu cür başa düşürlər), - ən qədim ənənələrdən müasir hüquqa irsən keçmiş "quru yurisprudensiyası"nın qalığıdır. Bu, "sərhəd" anlayışına xalis Quru məntiqi mövqeyindən baxışdır.

Lakin materikə münasibətdə Dəniz baxışı sahil ərazilərini potensial müstəmləkələr, kontinentin qalan hissəsindən ayıraraq bazaya, strateji məkana çevirmək mümkün olacaq torpaq zolaqları hesab edir. Bu halda sahil zonası heç vaxt sona qədər "özününkü" olmur, zərurət yarandıqda "Gəmi"yə əyləşib vətənə, "Ada"ya üzmək olar. Sahilin zolağa çevrilməsi isə məhz o hesaba baş verir ki, "Dənizdən gəlmələr"in kontinentin içərisinə yalnız müəyyən məsafəyə qədər daxil olması çox təhlükəli hesab edilir.

Geosiyasət məkana hər iki baxışı - həm Dəniz, həm də Quru baxışını özündə birləşdirdiyi üçün bu halda "Rimlənd" xüsusi bir reallıq kimi, sərhəd-zolaq kimi başa düşülür. Özü də bu zolağın keyfiyyət həcmi həmin sektorda Quru, yoxsa Dəniz impulsunun hökmranlıq etməsindən asılıdır. Hindistanın və Çinin çox geniş, gəmilərin rahat hərəkət edə bildiyi okean sahilləri məhz minimal həcmli zolaqlar, xətlərdir. Müvafiq mədəniyyətlər Quru ərazisinə oriyentasiya edir və sahil zolaqlarının həcmi materikin sonuna çevrilmək üçün sıfıra yaxınlaşır. Avropada, xüsusən Aralıq dənizi bölgəsində sahil zonaları materikin dərinliklərinə uzanan enli zolaqlardır. Onların həcmi maksimaldır. Lakin hər iki halda söhbət geosiyasi sərhəddən gedir. Deməli, o, vəziyyətdən asılı olaraq xətdən zolağa qədər variasiya edən, dəyişən kateqoriyadır.

Geosiyasət bu yanaşmanı sərhədlərlə əlaqədar daha xüsusi problemlərin təhlilinə də yönəldir. O, dövlətlər arasında sərhədləri "dəyişən həcmli zonalar" hesab edir. Bu həcmin qiyməti, onun azalması və ya genişlənməsi kontinentin ümumi dinamikasından asılıdır. Bu dinamikadan asılı olaraq zonaların forması və

trayektoriyası müəyyən hədlər daxilində dəyişir. "Geosiyasi sərhədlər" anlayışı bütöv dövlətləri əhatə edə bilər. Məsələn, Rusiya ilə Almaniya arasında *"sanitar sədd"* yaratmaq barədə İngiltərənin təklif etdiyi ideya Baltikyanı və Şərqi Avropa dövlətlərindən ibarət, "heç kimin olmayan" (yarımmüstəmləkə və İngiltərə yönümlü) zona yaradılmasını nəzərdə tuturdu. Rusiyanın və Almaniyanın kontinentalist siyasəti isə əksinə, bu zonanı xəttə *[Brest-Litovsk[1] (1918), Rapallo[2] (1922) müqavilələri, Ribbentrop-Molotov paktı[3] (1939)]* çevirməyə çalışırdı. "Talassokrat"-atlantistlər həmin zonanı genişləndirərək süni "tıxac dövlətlər" (etats-tampons) yaratmağa cəhd edirdilər. Bu halda bitkin və mükəmməl "talassokratiya" (İngiltərə, ABŞ) ikili standart tətbiq edir. "Talassokratlar" öz adalarının sərhədlərini xəttə çevirməyə, Avrasiyanın sahil zonalarını isə genişləndirməyə çalışırlar. Kontinentalist geosiyasət üçün eyni prinsipdən əks istiqamətdə istifadə etmək məntiqə uyğundur: Avrasiya sərhədləri xətt şəklində, Amerika sərhədləri isə zolaqlar şəklində təsəvvür edilir.

"Sivilizasiyanın beşiyi" olmuş tarixi "Rimlənd" ilə analogiya "sərhəd zonaları"nın xüsusi hallarda daha böyük əhəmiyyət kəsb etdiyini göstərir. Tarixin coğrafi yükünü öz çiynində daşımaq zərurətindən azad olan "sərhəd zonaları" öz enerjisini bütünlüklə mədəni-intellektual sahələrə yönəldir. Bu "yüngül" geosiyasi potensialdan bacarıqla istifadə edilməsi mübarizə aparan tərəflərin geosiyasi strategiya məharətidir. Bu halda məhz "Dəniz qüvvələri" həmin strategiyanı mükəmməl mənimsəmişlər, çünki onlar həmişə müstəmləkələşdirilmiş ərazilərdən ən qısa müddətdə və

[1] Rusiya ilə Avstriya-Macarıstan, Almaniya, Bolqarıstan və Türkiyə arasında imzalanmışdır.

[2] Cenuya konfransı (1922) zamanı, aprelin 16-da Rapallo şəhərində (İtaliya) RSFSR və Almaniya arasında bağlanmışdır.

[3] Hücum etməmək və Avropada *təsir dairələrinin* bölünməsi haqqında 1939-cu ilin 23 avqust və 28 sentyabrında imzalanmış sovet-alman *müqavilələri* və onlara məxfi əlavələr. Qərbdə bu pakt nasist-sovet paktı da adlandırılır. Pakt müharibədən qabaq "məcburi təəffüs" kimi şərh olunurdu.

fayda götürmək prinsipinə əsaslanırlar. Bu, "Dəniz qüvvələri"ni Quru fatehlərindən fərqləndirən əsas xüsusiyyətdir. Sonuncular bir ərazini işğal etdikdən dərhal sonra onu özününkü hesab etməyə başlayır, buna görə də ondan nə mümkündürsə, sıxıb çıxarmağa o qədər də tələsmirdilər.

Qeyd etmək lazımdır ki, informasiya inqilabı müasir geosiyasətdə yeni, məkan uğrunda mübarizədə virtual texnologiyalar dövrünün başlanmasına səbəb olmuşdur.

Əvvəllər görünməmiş qlobal dəyişikliklər hamını "geosiyasi xaos"dan danışmağa vadar etdi. Köhnə geosiyasi paradiqmalar çərçivəsində artıq heç nəyi izah etmək mümkün deyil, onlar oyuncaq evlər kimi dağılırlar. İnformasiya inqilabı geosiyasət sahəsinə məkanın yeni, virtual hesablanmasını gətirdi, bizi geosiyasi mübarizəyə və onun qaydalarına yeni baxışlarla nəzər salmağa vadar etdi. Bəlli oldu ki, informasiya modellərinin "soyuq elektron savaşı" zərbənin tutarlığına və mübtəlalığına görə sənaye dövrünün köhnə "qaynar" müharibələrini üstələyir. Bir zamanlar kanadalı sosioloq *Marşall Maklyuenin* (1911-1980) əvvəlcədən xəbər verdiyi kimi, günlər ötdükcə qələm qılıncdan daha qüdrətli olur, əsgər və tankların əvəzinə isə tez-tez nəşriyyat boyası, fotoşəkillər və elektron kommunikasiya vasitələri gəlir *[Маклюэн, 2003, cmp. 389]*. Hələ dünən klassik siyasi məkanın formalaşmasını üç nişanə, tükənməyən mötəbərliyin üç əbədi məşəli müəyyənləşdirirdi: *inam, torpaq və qan*. Onların sırasında torpağa xüsusi yer ayrılmışdır. Axı inam azala, qan isə tökülə bilər və məhz torpaq inam və qanı yüzilliklərlə biri-birinə bağlayır, nəsildən-nəsilə gözlə görünməyən mədəniyyətin enerji axınlarını ötürür. Geosiyasətçilər torpağın - yaşayış mühitinin - insanın sosial-mədəni və siyasi fərdiliyinin formalaşması üçün əhəmiyyətini gözəl hiss edirlər.

Klassik geosiyasətin mərkəzi paradiqması almaniyalı siyasətşünas və hüquqşünas *Karl Şmitt* (1888-1985) tərəfindən tərtib edilmiş geosiyasi məkanda Dəniz və Quru dualizmi konsepsiyası idi. Bu paradiqmaya əsasən, Şərq sivilizasiyasının məkan ikonoq-

rafiyasını[1] Quru (Yer) ünsürü, Qərb sivilizasiyasını isə Dəniz ünsürü müəyyən edir. Bu ünsürlərin mübarizəsini iki Tövrat nəhənglərinin surətləri ifadə edir - *Begemot* və *Leviafan* (dəniz nəhəngi). Quru və dəniz məkanının keyfiyyətli təşkili nəinki Şərqdə və Qərbdə səciyyəvi dövlət quruluşlarının törəməsinə səbəb oldu, həm də xüsusi Dəniz və Quru geosiyasi strategiyalarının əsasını təşkil etdi. Belə ki, Yerin nizamı Qurunun dəyişməz coğrafi və relyef hərəkətsizliyini, dayanaqlığını və etibarlığını əks etdirir. Dəniz nizamı isə Su ünsürünün hərəkətliyini, dəyişkənliyini və sabitsizliyini simvolizə edir. Dəniz və qitə aləmlərinin qarşıdurması - bu həmən qlobal həqiqətdir ki, daim planet miqyasında gərginlik yaradan və "dünənki" tarix prosesinə təkan verən klassik geosiyasətin məkan dualizminin əsasını təşkil edir.

Şəbəkə informasiya strukturlarının inkişafı və virtual məkanın yaranması geosiyasətdə siyasi məkanın təşkili və mühafizəsi probleminə yeni nəzərlərlə baxmağa məcbur etdi. Əgər klassik geosiyasət inam, torpaq və qan ideyaları üzərində təşəkkül tapmışdısa, siyasi məkanın postklassik mənzərəsi bu nişanələrin virtual məkana milli mədəniyyətin rəmzi kapitalı halında daşınması məsələsini gündəmə gətirdi. Əgər sənayeləşdirmə dövründə təcavüzkar sənaye və istehsal vasitələrini dağıdaraq ərazini ələ keçirməyə cəhd göstərirdisə, informasiya cəmiyyətində mühit üzərində nəzarətin əsas vasitəsi şəxsiyyət üzərində nəzarətdir - bütöv xalqların dünyagörüşü və dünya düzəninin idarəetməsidir. Müasir informasiya cəmiyyətində məkan uğrunda mübarizə informasiya müstəvisində cərəyan edir. Postklassik geosiyasətin "ön cəbhəsi" məhz buradadır. Buna görə də informasiya inqilabının hər yeni inkişaf mərhələsində əhəmiyyəti artan mənəvi, sivilizasiya və mədəni amillər xüsusi məna daşıyır. Postklassik dövrdə məkan uğrunda informasiya müharibələrinin əsas ideyası - potensial rəqibə dünyanın proqramlaşdırılan informasiya obrazını

[1] Məkan ikonoqrafiyası anlayışına ərazilərin sosial-mədəni, dini, milli və məişət cizgilərini özündə əks etdirən xarakteristika (sxem) daxildir.

qəbul etdirmək, bununla da onun bütün idarəetmə sistemini tabe etməkdir.

"Soyuq müharibə"nin nəzəriyyəçilərindən biri *Henri Kissincer* (1923) geosiyasətin yeni məsləyini texnoloqa xas olan amansızlıqda müəyyənləşdirmişdi: *"Rəqibin dünyagörüşü haqda məlumat obyektiv reallıqdan əhəmiyyətlidir"*. Hələ dünən geosiyasət üçün Yer fəzasının kartoqrafiyası böyük əhəmiyyət daşıyırdı, lakin artıq indi onun diqqət mərkəzində "insan ruhunun kartoqrafiyası", rəmzi mədəniyyət kapitalı, rəmzlərin virtual dünyasıdır.

İnformasiya inqilabının ölkələr və qitələr arasında bütün ənənəvi maneələrin aradan qaldırılması ilə əlaqəli olan qloballaşma prosesinin inkişafı fonunda baş verməsi faktı da xüsusi əhəmiyyət kəsb edir. Üçüncü minillikdə beynəlxalq təhlükəsizliyin bütün əsas parametrləri dəyişib. Əgər əvvəllər onlar hərbi qüvvələr balansı, münaqişəlik səviyyəsi, dünya müharibəsi təhlükəsi, silahların məhdudlaşdırılması və ixtisarı ilə əlaqəli idisə, indi ilk plana "qeyri-ənənəvi" təhlükələrlə mübarizə gəlir: beynəlxalq terrorçuluq, transmilli cinayətkarlıq, əhalinin qeyri-qanuni miqrasiyası, informasiya təxribatları. Əgər əvvəllər hərbi kəşfiyyat və əkskəşfiyyat strateji əhəmiyyət daşıyırdısa, bu gün onların yerini informasiya axınının təhlili tutub ki, burda da təcavüzkarın dağıdıcı informasiya modellərini zamanında aşkarlamaq və zərərsizləşdirmək lazımdır. İnformasiya cəmiyyətinin yeni reallıqları geosiyasətçilər qarşısında yeni qeyri-ənənəvi problem qoyub: geosiyasi müstəvidə olan məsələlərin həllində informasiya təsirlərinin rolunu təhlil etmək. İndi aydındır ki, məhz informasiya təsirləri dövlətin əsas geosiyasi potensialını - milli mentaliteti, mədəniyyəti, insanların mənəvi vəziyyətini dəyişdirməyə qadirdir. Bununla da informasiya məkanında mədəniyyətin rəmzi kapitalının rolu haqda məsələ bu gün abstrakt-nəzəri deyil, strateji-geosiyasi məna daşıyır.

Rusiyanın hərbi ekspertlər kollegiyasının vitse-prezidenti, general-mayor *A.İ.Vladimirov* haqlı olaraq deyir: "Bu gün tərəfimizdən hələ qiymətləndirilməyən və reallığa çevrilən, düşüncə tər-

zimizin və hətta milli psixologiyamızın öz tərəfimizdən formalaşdırılmaması kimi qlobal təhlükə mövcuddur. Ərazi sərhədlərini aşaraq kütlələri idarə etməyə imkan verən informasiya texnologiyalarının yaranması, ilk dəfə hərbi əməliyyatlar teatrını "sivilizasiya ruhunun" dəyişdirilməsinin virtual dərinliklərinə qədər genişləndirməyə şərait yaratdı" *[Владимиров, 2002, стр. 118]*.

Özünüməhvetmə istənilən mürəkkəb informasiya sistemlərinin mütləq elementidir. Onların sırasına həm insanın özü, həm sivilizasiya, həm mədəniyyət daxildir.

Məqsədyönlü informasiya təsiri özünün məhvetmə mexanizmlərini gizli proqramların fəaliyyətə keçməsi ilə işə salır. İnformasiya silahının təsiri də bunun üzərində qurulur.

İnternetin, kütləvi kommunikasiya vasitələrinin, reklamın hökmranlıq etdiyi müasir qlobal informasiya məkanı informasiya ilə idarə edilən bir dünyadır. İnformasiya təsirinin "görünməz əlləri" gələcək dünyanın cizgilərini formalaşdırır.

1997-ci ilin mayında Konqresdə təqdim olunan Amerikanın XXI yüzillikdəki geosiyasi strategiyasının prioritetləri belə qeyd olunur: "Bizim prinsipial yanaşmamız belədir, birincisi, biz digər dövlətlər və qüvvələrə təsir etmək üçün milli gücün bütün alətlərindən istifadə etməyə hazır olmalıyıq. İkincisi, bizə qlobal lider rolunu həyata keçirmək və dəyərlərimizi bölüşənlər üçün arzuolunan tərəfdaş kimi qalmaq üçün iradə və imkanlara sahib olmaq lazımdır... ABŞ-ın liderliyi demokratik ideallar və dəyərlərlə qüvvətlənir. Strategiyanı tərtib edərkən, biz demokratiyanın yayılmasının Amerika dəyərlərini möhkəmlətməsini və təhlükəsizlik və rifahımızı artırmasını əsas götürürük. Deməli, bütün dünya üzrə demokratikləşmə və azad bazarların yayılması ABŞ maraqlarına xidmət edir" *[bax: Стратегия национальной безопасности США в следующем столетии // Зарубежное военное обозрение. 1997, № 8, səh. 4-19]*.

Bütün dünyanın kommunikasiya kanalları geosiyasi, - ilk baxışda görünməyən və qansız, həqiqətdə isə sərt və amansız mübarizənin virtual güc arenasına çevrilir. Məkan uğrunda bu qlobal

mübarizənin ilkin nəticələri, dünya xəritəsində KİV vasitəsi ilə damğalanan bütöv dövlətlərin və xalqların qeyb olmasına səbəb olan növbəti "humanitar antiterror əməliyyatları"ndan sonra daha qabarıq nəzərə çarpır.

İnformasiya məkanında geosiyasi panideyaların toqquşmasının təhlili ənənəvi statik siyasi analitikanın əksi olaraq xüsusi, dinamik yanaşma tələb edir. İnformasiya məkanında həqiqəti yalandan ayırmaq üçün tez-tez biri-birinə çox gözlənilməz istiqamətlərdə "atəş açan" toqquşan panideyaların "güc sahəsi" üzərində daimi nəzarət tələb olunur. Bu gün dünya informasiyasının 85%-nin ABŞ tərəfindən istehsal olunması ilk baxışda məkan uğrunda virtual mübarizənin yekunlarını müəyyənləşdirir və qaçılmaz edir. Lakin siyasi tarix həmişə paradoksal və gözlənilməz olub. Çünki əks təqdirdə, o, daim zəfər çalan gücə şöhrət bəxş edər. Geosiyasətin yeni informasiya paradiqması XXI yüzillikdə dövlətlərarası məkan münasibətlərinin başlıca olaraq virtual məkandakı üstünlüklə müəyyənləşməsi deməkdir. Bu mənada, geosiyasi strategiyanın tərtibi informasiya üstünlüyü üzərində təşəkkül tapmış çevik konsepsiyanın yaradılmasıdır.

Bütövlükdə, geosiyasət qanunları siyasi tarixi, diplomatiya tarixini və strateji planlaşdırmanı təhlil etmək üçün son dərəcə münasib vasitədir. Xatırladaq ki, bu elmin sosiologiya, politologiya, etnologiya, hərbi strategiya, diplomatiya, din tarixi və başqa elm sahələri ilə çoxsaylı kəsişmə nöqtələri vardır. O dolayısı ilə, lakin bəzən çox əyani şəraitdə iqtisadiyyatla da əlaqədardır. Hətta bəzi geosiyasətçilər geoiqtisadiyyat adlı yeni elmi fərqləndirirlər. Hər halda, geosiyasi metodun bəzi aspektlərində iqtisadi reallıqlara müraciət etmək zəruridir. **Müasir dövrdə elmlərin bütün növlərinin sintezə, qovuşmağa səy göstərməsi, yeni elmlərarası makrofənlər və çoxölçülü modellər yaratmaq meyillərinin güclənməsi şəraitində geosiyasət həm xalis nəzəri araşdırmalar üçün, həm də planet miqyasında, yaxud ayrı-ayrı dövlətlər və ya dövlət blokları miqyasında mürəkkəb sivilizasiya proseslərinin idarə edilməsində praktiki addımlar atılması**

üçün əhəmiyyətini göstərir. Gələcəyin elmi - geosiyasətin əsaslarının çox tezliklə təkcə xüsusi ali məktəblərdə və akademiyalarda deyil, adi məktəblərdə də tədris edilməsi ehtimalı çox böyükdür. Geosiyasi təhlilin köməyi ilə ölkələrin və xalqların tarixi inkişafının bütöv epoxalarını asanlıqla dərk etmək olar. İnformasiya zonalarının genişlənməsi ilə səciyyəvi olan müasir dövrdə bu cür sadə və əyani reduksionist metodologiyaların yaranması labüddür, çünki əks halda insan müxtəlif biliklərin rəngarəng və çoxölçülü axınları xaosunda bütün oriyentirləri tamamilə itirmək riskinə məruz qala bilər.

Geosiyasət təhsil məsələlərində çox qiymətli yardımçı vasitədir. Geosiyasətin strukturu elədir ki, məhz o, məktəbin inkişafının yeni mərhələsində əsas fənnə çevrilə bilər. Bununla bərabər, sosial sahədə geosiyasətin geniş rolu getdikcə aşkar görünür. İnformasiyanın inkişaf səviyyəsi, bütün dünyada cərəyan edən hadisələrə adi insanın fəal cəlb olunması, "mondializasiya", mass-media - bütün bunlar hətta ən adi televiziya və ya radio yeniliklərinin mənasını təxmini də olsa anlaya bilmək üçün xalqları, dövlətləri, rejimləri və dinləri sadələşdirilmiş vahid şkala üzrə "çeşidləməyə" kömək edən geosiyasi terminlərdə məkan təfəkküründən ön plana çəkir. Ən sadə "Hartlənd", "Rimlənd", "Dünya adası" (World İsland) geosiyasi şəbəkəsini beynəlxalq hadisələrlə əlaqədar hər hansı məlumata tətbiq etsək dərhal əlavə xüsusi biliklər tələb etməyən aydın interpretasiya modeli yaranır.

Nəhayət, bir neçə söz də geosiyasi metodologiyanın daxili və xarici siyasətə təsiri barədə demək lazımdır. Belə ki, siyasi partiyaların və hərəkatların, eləcə də hakimiyyət strukturlarının müəyyən addımlarının geosiyasi mənası aşkar görünsə, onları qlobal maraqlar sisteminə aid etmək və deməli, onların uzaq məqsədlərini açıqlamaq asan olar.

Geosiyasi baxımdan hər bir hadisə dəqiq məna kəsb edir. Bu geosiyasi məna hadisənin əsas mənası hesab edilə bilməz, lakin hər bir halda o, təhlil və proqnozlaşdırma üçün yüksək dərəcədə faydalı olur.

Bu gün geosiyasi biliklərin yeni təfəkkür baxımından izahı və kütləviləşməsinə olan ehtiyac, bizi bir elm kimi geosiyasətə giriş funksiyasını yerinə yetirməli olan bu kitabı yazmağa sövq etmişdir.

Biz bu kitabda Azərbaycan oxucusundan ötrü, habelə geosiyasət elminin mahiyyəti, inkişaf qanunauyğunluqları, tarixi, əsas nəzəriyyələri və geosiyasi transformasiyaların xüsusiyyətləri ilə tanış olmaq istəyənlər üçün maraq doğuracaq məsələlərin geniş dairəsini ümumi şəkildə təhlil etməyə çalışmışıq. Bəs, buna nə dərəcədə nail olmuşuq? Bu barədə, qoy bu kitabın oxucuları qərar versinlər.



GEOSİYASƏTİN NƏZƏRİ ƏSASLARI

I Fəsil
GEOSİYASƏTİN YARANMASI VƏ İNKİŞAFI

XIX əsrin sonu - XX əsrin əvvəlində geosiyasətin bir elm kimi yaranması təkcə elmi biliklərin inkişaf məntiqi ilə deyil, ilk növbədə, yeni siyasi reallıqların dərk edilməsi zərurəti ilə şərtlənmişdir. Bu elm dünyanın bir-biri ilə mübarizə aparan əsas güc mərkəzləri arasında bölündüyü bir vaxtda yaranmışdır. Dünyanın yenidən bölünməsi, əslində, "bölünmüşün bölünməsi", yəni sahibsizlikdən sahibin əlinə keçməsi deyil, bir sahibdən digərinə keçməsi idi. Bu vəziyyət beynəlxalq səhnədə əsas geosiyasi qüvvələrin bir-birinə qarşı mübarizə üsullarının təkmilləşdirilməsinə istiqamətlənmiş elmi axtarışlara təkan vermişdir.

1.1. Geosiyasət anlayışı

"Geosiyasət" termini iki yunan sözündən ibarətdir: ***geo*** **- yer, torpaq,** ***politike*** **- dövləti idarə etmə sənəti.** Müasir elmdə "geosiyasət" anlayışı hələ də birmənalı qəbul edilmir. Bu, onun mürəkkəbliyi və tərkibinin zənginliyi, xüsusiyyətlərinin rəngarəngliyi ilə izah olunur. Artıq yüz ildən çoxdur ki, geosiyasətin obyekti və predmeti haqqında mübahisələr gedir. "Geosiyasət" anlayışı çox vaxt həddən artıq geniş şərh edilir. Nəticədə, bu elm ona xas olan cizgilərdən məhrum olur, onun hüdudları həddsiz dərəcədə qeyri-müəyyən olmaqla iqtisadi, siyasi, hərbi-strateji, təbiətşünaslıq, sosial ekologiya və bu kimi başqa elmlərin, beynəlxalq münasibətlərin, xarici siyasətin predmeti ilə kəsişir.

Bu anlayışın ilk və ən ümumi tərifinə görə, geosiyasət dedikdə, dövlətin böyük dövlətçilik siyasəti ilə onun mövcud olduğu coğrafi mühit arasında münasibətlərin öyrənilməsi nəzərdə tutulur. Ənənəvi geosiyasət beynəlxalq münasibətləri dövlətlər arasında güc münasibətləri kimi təsvir edən siyasi realizmin bölmələrindən biridir. Tədqiqatçıların bir çoxunun fikrincə

isə, geosiyasət öz aralarında qarşılıqlı əlaqədə olan və dövlətin strateji potensialına böyük təsir göstərən coğrafi, tarixi, siyasi və başqa amillər kompleksini öyrənən bir elmdir.

Tarixdən məlumdur ki, nasistlər Almaniyada hakimiyyətə gələndən sonra geosiyasətdən özlərinin "irqi üstünlüyünü", "həyati məkan"ın fəth edilməsini, "Almaniyanın bütün qalan dünya üzərində hökmranlıqdan ibarət böyük tarixi missiyasını" əsaslandırmaq üçün istifadə etməyə başladılar. Bununla əlaqədar həm Avropada, həm də Amerikada tədqiqatçıların çoxu bu terminin özünün elmi cəhətdən əsaslandırılmış olmasına şübhə etməyə başladılar. Bu halda alimlərin bir qismi "geosiyasət" anlayışını Avropada mövcud nizamın dəyişdirilməsi istəklərinə haqq qazandırmaq cəhdlərinə xidmət edən psevdoelmi neologizm, hakimiyyət vasitəsi, təbliğat aləti kimi qiymətləndirir *[Ancel, 1936, p. 103]*. Başqaları bu termini tam inkar etməsələr də, onun imkanlarına çox şübhə ilə yanaşdıqlarını bildirirlər *[bax: Aron, 1984, səh. 398-399]*. Üçüncülər belə güman edirlər ki, geosiyasət müəyyən elmi nəticələr verə bilər, lakin bu sahə çox məhdud olacaq, dövlətlərin və ya onların ittifaqlarının siyasətinin və coğrafi məkan xarakteristikalarının qarşılıqlı təsirini əks etdirəcək *[Senarclens, 1992, p. 40]*. Dördüncülər bu fikirdədirlər ki, geosiyasət elm və ya tədris fənni deyil, yalnız coğrafi mühiti və dövlətlərin beynəlxalq fəaliyyətini əlaqələndirən sosioloji yanaşma metodu hesab edilməlidir *[Huntzinger, 1987, p. 134]*. Nəhayət, belə düşünənlər də var ki, geosiyasət - elm deyil, bundan qat-qat mürəkkəb bir anlayışdır *[bax: Lacoste, 1988, səh. 31]*.

SSRİ-də geosiyasət uzun müddət imperialist dövlətlərin ərazi ekspansiyasına haqq qazandıran yalançı burjua elmi hesab edilirdi. XX əsrin 80-ci illərindən başlayaraq elmi fikrin bu istiqamətinə münasibət dəyişdi. Artıq *"Sovet fəlsəfi ensiklopedik lüğəti"ndə* geosiyasətə bu cür sərt neqativ qiymət verilmir və o ayrı-ayrı coğrafi amillərlə məkanın yerləşməsi, müəyyən təbii ehtiyatların siyasi qiymətləndirilməsi, iqlim, əhali sıxlığı və onun artım sürəti kimi amillərlə müəyyənləşən dövlət siyasəti, xüsusən də strateji xarici

siyasət sahəsi - Qərb siyasi konsepsiyası kimi dəyərləndirilirdi *[Философский.., 1989, стр. 116]*.

"Geosiyasət" anlayışını elmi ədəbiyyata İsveç dövlətşünası **Rudolf Çellen** (1864-1922) gətirmişdir. O, geosiyasəti *"konkret məkanda yerləşən, daim genişlənən və inkişaf edən, coğrafi və bioloji orqanizmin qovuşduğu dövlət haqqında elm kimi"* xarakterizə etmişdir *[bax: Dorpalen, 1942, səh. 12]*.

Almaniyada çıxan **"Zeitschrift für Geopolitik"** jurnalında verilən tərif isə belədir: *"Geosiyasət torpaq ilə siyasi proseslərin nisbəti haqqında elmdir. O, məkanlardakı siyasi orqanizmlər və onların strukturu haqqında elm olan coğrafiyanın, ilk növbədə, siyasi coğrafiyanın geniş təməlinə əsaslanır. Bundan əlavə, geosiyasətin məqsədi siyasi hərəkətləri müvafiq vasitə ilə təmin etmək və bütövlükdə, siyasi həyatı istiqamətləndirməkdir. Beləliklə, geosiyasət incəsənətə, daha doğrusu, praktiki siyasətə rəhbərlik etmək məharətinə çevrilir. Geosiyasət - dövlətin coğrafi zəkasıdır" [yenə orada, səh. 24-25]*.

Geosiyasət dövləti sabit, dəyişməz qurum kimi statikada (sükunət halı) deyil, canlı varlıq kimi dinamikada (inkişafın gedişi, hərəkət vəziyyəti) öyrənir. Məsələyə bu yanaşmanı alman nəzəriyyəçisi **Fridrix Ratsel** (1844-1904) təklif etmişdir. F.Ratselə görə, geosiyasətin məqsədi dövlətin öz ətrafına, qonşularına, ilk növbədə isə, yerləşdiyi coğrafi məkana münasibətini öyrənmək və coğrafi məkan münasibətlərindən (ətraf aləmdən) irəli gələn, yaranan problemləri həll etməkdir. Ratselin fikrinco, siyasi coğrafiyadan fərqli olaraq, geosiyasəti dövlətin mövqeyi, onun forması, ölçüləri və ya sərhədləri, iqtisadiyyatı, ticarəti, mədəniyyəti kimi məsələlər maraqlandırmır. Bütün bunlar siyasi coğrafiyanın tədqiqat sahəsinə daha çox aiddir. Geosiyasət çox vaxt dövlətin statik vəziyyətinin təsviri ilə kifayətlənir, hərçənd, onun əvvəlki inkişaf dinamikasını da öyrənə bilər.

Geosiyasət siyasi hadisələri məkanda qarşılıqlı münasibətlərdə, onların Yerə təsiri, mədəni amillərə təsiri şəraitində öyrənir. O, müstəqil tədqiqat sahəsi olan, coğrafi baxımdan formalaşan müstə-

qil elmdir. Siyasətə daha çox meyil edən geosiyasət əsas diqqəti siyasi hadisələr üzərində cəmləşdirir və bu hadisələrin coğrafi interpretasiyasını, onların coğrafi aspektlərinin təhlilini verməyə çalışır.

Rusiya tədqiqatçısı *E.A. Pozdnyakov* yazır ki, *geosiyasət - coğrafi mühitin siyasi amillərin istifadəsi yolu ilə ona təsir imkanlarının üzə çıxarılmasına, öyrənilməsinə, dövlətin iqtisadi, ekoloji, hərbi-strateji təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Praktiki geosiyasət dövlətin ərazi problemləri, sərhədləri, əhalisi də daxil olmaqla, malik olduğu strateji ehtiyatların yerləşdirilməsi və istifadəsi ilə bağlı hər bir şeyi öyrənir [Поздняков, 1995, стр. 42].* Deməli, *geosiyasət - məkan üzərində nəzarət haqqında biliklər sistemini öyrənən elmdir.*

"Geosiyasət" anlayışı məhdud və geniş mənada işlənir. Məhdud anlayışın tərəfdarlarının fikrincə, "geosiyasət" terminindən yalnız dövlətlər arasında ərazi mübahisələrindən söhbət gedəndə istifadə edilməlidir. Bu halda tərəflərdən hər biri tarixə istinad edir *[bax: Lacoste, 1988, səh. 16].* Lakin postsənaye inqilabı dövründə - klassik geosiyasətin bütün ənənəvi imperativlərinin puç olduğu şəraitdə geosiyasətin bu anlamı get-gedə zəifləyir. Müasir dünya məkanını onun bölünməsi üsulları, sosial birliklərin fəaliyyət prinsipləri, dünya tarixinin müasir ənənəsinin tələbləri baxımından "dövlətlərarası məkan" kimi səciyyələndirmək getdikcə çətinləşir. Beynəlxalq münasibətlər sosiologiyasının nümayəndələri bir məqama xüsusi diqqət yetirirlər ki, **beynəlxalq münasibətlər haqqında klassik təsəvvürlərin təməlini təşkil edən üç əsas prinsipin - ərazi, suverenlik və təhlükəsizlik prinsiplərinin** heç biri yeni reallıqlara tam adekvat deyil və toxunulmaz hesab edilə bilməz *[bu barədə bax: Badie, Smouths, 1992, səh. 237-239; Введение.., 1992, səh. 29].* Eyni zamanda, insanların kütləvi miqrasiyası, kapital axınları, ideyaların dövriyyəsi, ətraf mühitin çirklənməsi, kütləvi qırğın silahlarının yayılması və s. fenomenlər, dövlət və onun təhlükəsizliyi, milli maraqlar və siyasi prioritetlər haqqında adət etdiyimiz təsəvvürlər də dəyişikliyə məruz qalır. Hələ keçən əsrin 60-cı illərində fransız filosofu və sosioloqu **Reymon Aron** (1905-1983) geosiyasətin "məhdud" anlamının başqa bir mühüm nöqsanını - onun cılızlaşaraq ideologiyaya çevrilməsini göstərmişdir *[bax: Aron, 1984, səh. 193].*

Buna görə də son illərdə "geosiyasət" anlayışı daha geniş mənada - dövlətin fiziki və sosial, maddi və mənəvi resurslarının məcmusu kimi qəbul edilir. Bu resursların təşkil etdiyi potensialdan istifadə edilməsi (bəzi hallarda isə onun sadəcə mövcud olması) dövlətin beynəlxalq səhnədə öz məqsədlərinə nail olmasına imkan verir [Gallois, 1990].

Tədqiqatçıların bəziləri hesab edir ki, geosiyasət elmi məkana təbii anlamda deyil, daha çox siyasi-strateji baxımdan, dövlətlərin subyektiv nöqteyi-nəzərindən yanaşır. O, siyasi coğrafiyaya nisbətən daha dinamikdir.

Yerin məkan xüsusiyyətləri və dünyanın güc sahələrinin balansı arasında qarşılıqlı əlaqələrin öyrənilməsini mühüm hesab edən coğrafiya **geosiyasətin tarixi özəyi** kimi çıxış edir. Bununla yanaşı, **geosiyasətin metodoloji özəyi** ümumplanetar səviyyədə "modelləşdirmədir". Baxmayaraq ki, bu elmi fənnin tərkibində həm regional, həm də lokal bölmələr mövcuddur. Məsələn, sərhədlərin, mübahisəli sərhəd problemlərinin, dövlətlərarası münaqişələrin öyrənilməsi və s. Bununla belə, regional və lokal problemlər yalnız göstərilən metodoloji təməl kontekstində, yəni ümumidən xüsusiyə istiqamətlənərək öyrənilə bilər.

Geosiyasət siyasi məna daşıyaraq obyektiv mövcud olan məkanları meydana çıxarır. Onun işi, bir qayda olaraq, Böyük məkanlardır (dünya ölçülərinə görə). Buna görə geosiyasəti qlobal miqyasla bağlı olan siyasi coğrafiya kimi müəyyən etmək olar. **Geosiyasətin siyasi coğrafiyadan köklü fərqi** onların qarşılıqlı sıx əlaqəsi ilə yanaşı, özünü bunda göstərir. Siyasi coğrafiya daha çox cəmiyyətin ərazi-siyasi təşkilinin qanunauyğunluqlarını dövlət və onun bölgələri səviyyəsində öyrənən ölkəşünaslıq elmidir.

Doğrudur, məşhur alman geosiyasətçisi *K.Haushoferin* oğlu *Albrext* hesab edirdi ki, siyasi coğrafiya obyektiv qanunauyğunluqları öyrənən akademik elm, geosiyasət isə dünyanı özünəməxsus şəkildə "layihələşdirməklə" məşğul olan tətbiqi fəndir. Lakin XX

əsr korifey coğrafiyaşünaslarının geosiyasi tədqiqatları göstərdi ki, bu sahədə "filosofluq etməklə" "layihələşdirmək" arasındakı sərhəd kifayət qədər şərtidir. *Geosiyasət həm konsepsiya, həm də hərəkət tərzidir,* geosiyasi qüvvələr nisbətini izah etmək və proqnozlaşdırmaq isə onun maraqlarına daxildir.

Geosiyasətin coğrafiyaya aidiyyətinə etiraz edənlər müasir coğrafiyanın mahiyyətini anlamayan siyasətçilərdir. Bir qayda olaraq, onlar üçün coğrafiya "daimi amil", coğrafi məkan isə dünya siyasətinin dəyişməz səhnəsidir. Bununla yanaşı, relyef, iqlim xüsusiyyətləri, hidroqrafik şəbəkə, fiziki-coğrafi vəziyyət, ərazinin ölçü və konfiqurasiyası, dövlətlərin, regionların, qitələrin təbii hüdudlarının xarakteri kimi ənənəvi "dəyişənlərin" geosiyasi strukturlara təsiri nəzərə alınır. Bu "dəyişənlərin" geosiyasi təhlil üçün rolu ilk geosiyasi tədqiqatlardan indiyədək kifayət qədər azalmışdır. Baxmayaraq ki, onlar öz əhəmiyyətini tamamilə itirməmişlər. Ona görə coğrafiyanın rolunu tarixi proseslərin "məkan axını" kimi nisbətən sabit coğrafiyaşünaslıq şərtləri ilə qiymətləndirmək olmaz. *Müasir coğrafiyanın metodu, ümumiyyətlə, tərkib hissələrin təhlilini nəzərdə tutmur. Coğrafiya təbii və ictimai fənn kimi müxtəlif lokal və qlobal iyerarxik ərazi səviyyələrində təbii və ictimai komponentlərin qarşılıqlı təsirlərinin öyrənilməsinə istiqamətlənmişdir.*

Müasir coğrafiya, həmçinin zəruri metodoloji inteqrasiya potensialına malikdir və geosiyasi tədqiqatların lideri qismində çıxış edə bilər. Heç bir elm tarixi nöqteyi-nəzərdən coğrafiya ilə müqayisədə geoməkanın xüsusiyyətləri haqda bu qədər mühüm məlumat toplamamışdır. **"Americana" geosiyasi ensiklopediyası**nda geosiyasətə verilmiş tərif coğrafiyaya yaxındır.

Geosiyasət - dövlətin strateji potensialına nüfuz edən coğrafi, tarixi, siyasi və başqa amillərin birgə təsirini öyrənən elmdir *[bax: Колосов, Мироненко, 2005, səh. 25].*

Qeyd etmək lazımdır ki, geosiyasi tədqiqatlarla əlaqədar coğrafiyanın rolu haqda məsələ çoxdan qaldırılmışdır. Hələ XX əsrin əvvəlində amerikalı geosiyasətçi-coğrafiyaşünas **İsayya Boumen** (1878-1950) yazırdı ki, coğrafiyanın guya dəyişmədiyi barədə tez-

tez danışırlar. Əslində isə ideyalar və texnologiyalar kimi coğrafiya da sürətlə dəyişir. Boumenə görə, coğrafi şərtlərin dəyişməsinin mənası elə budur. Praktik olaraq XX əsrin bütün coğrafiyaçıları geosiyasətdə "coğrafi amil"in əhəmiyyətinə tarixi baxımdan yanaşmışlar ki, bu da geosiyasətin coğrafi fənn kimi müəyyən edilməsinə imkan vermişdir *(bax:* **cədvəl 1***).*

İki növ geosiyasi tədqiqat fərqləndirilir: **praktik** və **akademik.** Əksər tədqiqatlar **praktik geosiyasətə** həsr edilmişdir. Geosiyasətdə dünyabaxışı yanaşmasının güclü olması elə bu səbəbdəndir. Belə ki, tanınmış geosiyasətçi *A.Q. Duqinin* "Geosiyasətin əsasları" kitabında dünyanın "özümüzünkülərə" və "düşmən-atlantistlərə" (mondialistlər) bölünməsi fikri aydın yürüdülür. O, bir sıra nəşrlərdə rus pravoslavlarının taleyini iki düşmən cəbhə arasında orta vəziyyətdə müəyyən edir: liberalist - Avropa irticası və fundamentalist - Asiya irticası. Duqin adıçəkilən kitabda tədqiqatçı-geosiyasətçiyə tövsiyə kimi bu sözləri deyir: *"Geosiyasətçi elmi tədqiqata başlayarkən geosiyasət təzadları xəritəsində mütləq öz şəxsi yerini müəyyən etməlidir. Onun bütün dünya proseslərini təhlil etməyə başladığı baxış bucağı bundan asılı olacaqdır" [Дугин, 1997, стр. 92].* Bu tədqiqatçı hətta geosiyasəti özünün dünyaya baxışı kimi rus xalqının şüuruna yeritməyə səy göstərir: *"Bütün ruslara özünüidentifikasiyanın ikinci dərəcəli, millidən törəmə miqyasında olduğunu təlqin etmək lazımdır. Ruslar, ilk növbədə, pravoslav, sonra rus və yalnız bundan sonra insan olduqlarını anlamalıdırlar" [yenə orada, səh. 255]. "Rus uşağı əvvəlcə məhz rus, sonra isə uşaq kimi qəbul edilməlidir... Nəticədə radikal şüar irəli sürülməlidir: "millət-hər şey, fərd heç nədir"" [yenə orada, səh. 257].*

Digər müəllifə, *C.Qeddisə* görə, geosiyasət son nəticədə dövlətlərin **geosiyasi kodlarının** hazırlanmasına xidmət edir *[Gaddis, 1982].* O, "Qabağınalma[1] strategiyası" (Strategies of Containment:

[1] İngiliscə *containment* sözündəndir. "Qabağınalma" doktrinası keçən əsrin 40-50-ci illərində *C.F.Kennan* (1904-2005) tərəfindən irəli sürülmüşdür. ABŞ-ın maraqlarına hər hansı təcavüz meyillərinin üzə çıxdığı təqdirdə, onların qarşısını əks tədbirlərlə almağı nəzərdə tuturdu.

Cədvəl 1

Siyasi coğrafiyanın inkişaf mərhələləri

Mərhələlər və onların davametmə müddəti (illərlə)	Əsas sosial proseslər və tarixi dövrlər	Mühüm ictimai ideyalar və ictimai elmlər nəzəriyyəsinin inkişaf meyilləri	Tədqiqatların miqyası	Başlıca əsərlərin müəllifləri
1897-1914	İngiltərə, ABŞ, Almaniya və d. ölkələrin imperialist rəqabəti; sürətli sənayeləşdirmə və urbanizasiya; kütləvi sol partiyaların meydana gəlməsi: milli dövlətlərin təşəkkülü	Sosial-darvinizm; coğrafi determinizm	Bütövlükdə dünya, dövlət	F.Ratsel, H.Makinder, A.Ziqfrid
1915-1949	Birinci və ikinci dünya müharibələri və onların nəticəsində dünyanın geosiyasi baxımdan yenidən qurulması; SSRİ-nin yaranması və ikiqütblü dünya geosiyasi nizamının formalaşması	Dövlətin bioloji (orqanik) inkişafı nəzəriyyəsi; "təbii" sərhədlər nəzəriyyəsi	Bütövlükdə dünya və dövlət: hər iki səviyyənin ayrılmazlığı	H.Makinder, İ.Boumen, J.Ansel və b.
1950-1973 75	İnkişaf etmiş ölkələrdə sənayenin inkişafı və sosial sabitliyin bərqərar olması: Şərq ilə Qərb arasında geosiyasi rəqabət: dekolonizasiya: böhranların şiddətlənməsi	Pozitivizmin üstünlüyü və tədqiqatların kəmiyyət metodlarının tətbiq edilməsi; neomarksist nəzəriyyələrin geniş yayılması; elektoral araşdırmalarda "ekoloji yanaşma"nın populyarlıq qazanması	Dövlət, bütövlükdə dünya	R.Hartşorn, S.Cons, J.Hotmann
1973 1975-ci illərdən başlayaraq	Postsənaye epoxasının başlanması; iqtisadiyyatın və ictimai həyatın beynəlmiləlləşməsi; SSRİ-nin və sosializm sisteminin dağılması	İ.Vallerstaynın və P.Teylorun dünyanın iqtisadi və siyasi inkişafının uzun dövrələri nəzəriyyəsi; E.Qiddensin strukturalizm nəzəriyyəsi; M.Fukonun postmodernizm konsepsiyası	Bütün miqyaslar üzvi qarşılıqlı əlaqədə	D.Harvi, P.Teylor, C.Eqnyu, C.O'Loklin, K.Koks

A Critical Appraisal of Postwar American National Security Policy, 1982; 2d ed. 2005) kitabında belə fikir söyləyir: **geosiyasi kodlar (kodekslər) ölkənin daxili siyasətinin əsasında duran, siyasi-coğrafi ehtimallardan ibarət operativ qanunlar toplusudur.** Belə kodekslərə dövlət maraqlarının müəyyənləşdirilməsi, bu maraqlara xaricdən olan təhlükələrin eyniləşdirilməsi, bu təhlükələrə qarşı planlaşdırılmış reaksiyalar və onların əsaslandırılması daxildir. Kodekslərin sayı dövlətlərin sayına müvafiqdir. Hər kodeksin konkret ölkə üçün unikal olmasına baxmayaraq, hər halda, kodekslərin yaradılması bir-birindən asılı vəziyyətdədir. Məsələ ondadır ki, beynəlxalq münasibətlər iyerarxik qurulub, o mənada ki, daha qüvvətli dövlətlər öz ideya və təkliflərini bu və ya digər üsullarla bir az zəiflərə qəbul etdirirlər.

Akademik geosiyasət əvvəlcədən təlqin olunmuş milli düşüncələrdən azad fikirləri qəbul edir. Görünür, akademik geosiyasətçilər bəzi geosiyasət klassiklərinin səy göstərdikləri kimi (lakin etiraf edilməlidir ki, bu, həmişə yanlış və yanlış qənaətdən uzaq olmamışdır), keçmişdən ağlabatanı götürməyə və geosiyasi arqumentasiyanı geosiyasi münasibətlərin ümumi qanunauyğunluqları və meyilləri şəklində təqdim etməyə çalışmalıdırlar. İndi vahid şəklə salınmış geosiyasi nəzəriyyənin yoxluğuna baxmayaraq, hər halda, geosiyasətçilər tərəfindən müəyyən edilmiş kateqoriyalar və səbəb-nəticə əlaqələri elmi tutumu ilə birlikdə qəbul olunmalıdır. Məsələn, geosiyasi strukturların Yer kürəsi səthinin quruluşunun fundamental xüsusiyyətləri ilə davamlılıq korrelyasiyası; qüvvələrin geosiyasi tarazlığının dövlətlərin güc dairələrinin qarşılıqlı təsir xarakterindən asılılığı; dünyanın geosiyasi strukturunun nəqliyyat vasitələrinin inkişaf səviyyəsindən və strukturundan, xüsusilə kütləvi qırğın silahları daşıyan vasitələrdən asılılığı; böyük dövlətlərin yüksəlişinin və süqutunun səbəbləri; geosiyasi proseslərin dövriliyi və s.

Məşhur ingilis geosiyasətçisi *C.Parker* geosiyasi proses haqda elmi təsəvvürü bir çox amillərin təbii qarşılıqlı təsiri kimi deyil, bəşəriyyət tarixinin çoxamilliyi ilə mürəkkəbləşərək, geosiyasi məkanın

formalaşmasının obyektiv qanunauyğunluqlar ilə şərtləşdirilmiş təkamül prosesi kimi inkişaf etdirmişdir *[Parker, 1998, p. 155-167].*

Geosiyasətdə planetin geosiyasi **rayonlaşdırılması** üçün *"mərkəz-periferiya" yanaşmasından* istifadə edilir. Əgər klassik geosiyasət ardıcıl mərkəz-periferiya dixotomoyasını kontinental mərkəz və dəniz periferiyası arasında hərbi-siyasi münaqişə kimi qəbul edirdisə, yeni geosiyasət bunu, ilk növbədə, iqtisadi münaqişə və özəklə periferiya arasında qarşılıqlı təsir kimi qəbul edir.

Qeyd etmək lazımdır ki, bir çox tədqiqatçı XX əsrin sonlarından etibarən beynəlxalq münasibətlərin qəti şəkildə **geosiyasətdən geoiqtisadi paradiqmaya keçid** ideyasını inkişaf etdirir. *E.Lyuttvak* (ABŞ), *K.Jak* və *P.Savona* (İtaliya), *E.Q. Koçetov* (Rusiya) kimi tədqiqatçılar hesab edirlər ki, bəşəriyyət prinsipcə yeni - geosiyasi deyil, geoiqtisadi qanunlarla yaşayır. Roma hərbi strategiyası üzrə mütəxəssis *E.Lyuttvak* geosiyasətdən geoiqtisadiyyata keçidi münaqişə məntiqinin biznes və kommersiya mühiti ilə əvəzlənməsi kimi müəyyən etmişdir: *"Dövlətlər arasındakı köhnə rəqabət yeni forma kəsb etmişdir ki, mən bunu "geoiqtisadiyyat" adlandırıram" [sitat Fuşedəndir (bax: Фуше, 1999, səh. 143)].* Sözsüz, iqtisadi proseslər aparıcı amil rolu oynayır, lakin, eyni zamanda, beynəlxalq münasibətlərdə qüvvələr nisbətinə həm təbii-tarixi, həm də ictimai-tarixi xarakterli bir çox digər parametrlər təsir göstərir. Bütün bunlar, "Americana" ensiklopediyasında deyildiyi kimi, *Etat-Nation* (dövlət-millət) strateji maraqları mövqeyindən gözdən keçirilməlidir.

Hazırda geosiyasət təkcə dünya nizamının dəyişdirilməsində əsas ideya və alət deyil, həm də aparıcı ölkələrin strateji siyasətinin və bəşəriyyətin gələcək taleyinin proqnozlaşdırılmasında açar rolunu oynayır.

Beləliklə, yuxarıda deyilənləri yekunlaşdıraraq geosiyasətə qısaca bu cür tərif vermək olar: ***geosiyasət dövlətin məkan üzərində nəzarəti haqqında elmi biliklər sistemidir.***

Geosiyasət məkana siyasət (dövlətin siyasəti) baxımından yanaşır. Siyasi coğrafiya ilə müqayisədə geosiyasət daha dinamikdir. Bu elm çərçivəsində iki istiqamət fərqləndirilir: *doktrinal-normativ və ya sərəncamverici geosiyasət və qiymətləndirici-konseptual geosiyasət.* Birinci cərəyana *Haushoferin* alman məktəbini, ikinci cərəyana ingilis-amerikan məktəbini *(Makinder, Spaykmen, Kohen)* aid etmək olar, hərçənd, bu məktəblər arasında dəqiq hədd göstərmək çox çətindir.

Son illərdə "geosiyasət" anlayışı daha geniş mənada - dövlətin fiziki və sosial, maddi və mənəvi resurslarının məcmusu kimi qəbul edilir. Bu resursların təşkil etdiyi potensialdan istifadə edilməsi (bəzi hallarda isə onun sadəcə mövcud olması) dövlətin beynəlxalq səhnədə öz məqsədlərinə nail olmasına, beynəlxalq münasibətlərin sosiallaşması ilə əlaqədar yeni meyillərin meydana çıxmasına imkan verir.

Bu yanaşmanın nümayəndələrindən biri **Pyer-Mari Qalluadır** (1911-2010). Onun fikrincə, **bu gün geosiyasətə xas olan dövlətin ərazi-məkan xarakteristikaları (onun coğrafi mövqeyi, sərhədlərinin uzunluğu və konfiqurasiyası), Yerin təki, landşaftı və iqlimi, ölçüləri və əhalinin strukturu kimi ənənəvi elementlərə yeni elementlər əlavə olunur, nəticədə, dövlətin qüdrəti barədə bizim əvvəlki təsəvvürlərimiz alt-üst olur, beynəlxalq siyasətə təsir göstərən amilləri nəzərə alarkən prioritetlər dəyişir.** Söhbət kütləvi qırğın silahlarının, ilk növbədə, raket-nüvə silahlarının yaradılmasından və yayılmasından gedir, çünki bu silahlara malik olan dövlətlər, aralarındakı məsafədən, onların coğrafi mövqeyindən, iqlimindən və əhalisinin sayından asılı olmayaraq sanki bərabərləşirlər. Bundan əlavə, ənənəvi geosiyasət insanların kütləvi davranışını nəzərə almırdı. Ondan fərqli olaraq, müasir dövrdə geosiyasət nəzərə almalıdır ki, informasiya və rabitə vasitələrinin inkişafı, dövlətin siyasətinə əhalinin bilavasitə müdaxilə etməsi fenomeninin geniş yayılması bəşəriyyət üçün nüvə kataklizmi təhlükəsinin nəticələri ilə müqayisə edilə biləcək nəticələr doğura bilər. Nəhayət, ənənəvi geosiyasətin tətbiq sahəsi Yer kürəsinin quru məkanı və dənizlərlə məhdudlaşırdı. Müasir geosiyasi təhlil isə kosmik fəzanın öyrənilməsinin bugünkü və gələcək vəziyyətini, onun dünya siyasətində qüvvələr nisbətinə və bu qüvvələrin yerləşməsinə təsirini nəzərə almalıdır.

Klassik geosiyasət baxımından coğrafi mühit dövlətlərin beynəlxalq siyasi davranışına təsir göstərən sabit və toxunulmaz amildir. Lakin müasir geosiyasi təhlil bu gün baş verən ciddi dəyişiklikləri nəzərə almaya bilməz. Bu baxımdan, insanın ətraf mühitlə qarşılıqlı əlaqəsində və buna müvafiq olaraq, **geosiyasətin təkamülündə üç tarixi mərhələ** göstərmək olar.

İctimai inkişafın erkən mərhələlərindən başlamış ta sənaye inqilabı dövrünə qədər ətraf mühitin insana, cəmiyyətə və dövlətə təsiri həlledici olmasa da, çox mühüm, bir sıra məsələlərdə isə müəyyənedici amil idi. İnsanın ətraf mühitdən bu cür asılılığı "coğrafi determinizm"i izah edir və ona müəyyən mənada (əlbəttə, məlum tarixi və məntiqi hədlər daxilində) haqq qazandırır. ***Sənaye inqilabı dövlətin böyük dövlətçilik yönümlü xarici siyasəti ilə onun coğrafi hüdudları arasında qarşılıqlı təsirdə yeni mərhələnin başlanğıcı olmuşdur.*** İnsan ətraf mühiti amansızcasına istismar etməyə, onun qanunlarından öz məqsədləri üçün istifadə etməyə başlayır, bəşəriyyətin mövcudluğunun təbii şəraitinə, Yer kürəsinin iqliminə, onun flora və faunasına, torpağın münbit, məhsuldar qatına və hava məkanına, yeraltı və su ehtiyatlarına antropogen təsir güclənir. Təbiətə "düzəliş etmək", onu insana tabe etmək sindromu (onu "Miçurin sindromu" adlandırmaq olardı) o qədər geniş yayılmışdır ki, nəticə etibarilə sivilizasiyanın özünün mövcudluğuna təhlükə törətmiş, onu məhv olmaq həddinə çatdırmış qlobal problemlərin yaranmasına və hədsiz kəskinləşməsinə səbəb olmuşdur. ***Beləliklə, insan ilə ətraf mühitin qarşılıqlı təsirindən üçüncü stadiya, üçüncü faza yaranır. Obrazlı şəkildə desək, bumeranq geri qayıdır. İnsan təbiətin qanunlarına etinasızlıqla müdaxilə edir, bundan sarsılmış təbiət isə insandan "qisas alır", onun mövcudluğunun təbii şəraitini kifayət qədər təmin etmir. Beləliklə, təbiət dövləti və siyasətçiləri yenidən onunla hesablaşmağa məcbur edir.***

Ümumdünya Vaxta İnstitutunun hesablamalarına görə, hər il dünyada ən azı 17 milyon hektar meşə sahəsi qırılır, 6 milyon hektara yaxın münbit torpağın strukturu pozulur, nəticədə bu torpaqlar təsərrüfat əhəmiyyətini bütünlüklə itirir. Hava və su hövzələrinin

çirklənməsinin çox geniş miqyas alması da şəhər və kənd regionlarının sakinlərinin sağlamlığına ciddi zərər vurur.

Bütün bunlar dövlətin daxili və xarici siyasətinə bilavasitə təsir göstərir. Artıq bir sıra ölkələrdə və beynəlxalq səviyyədə siyasi partiyalar insanla ətraf mühitin münasibətlərində yeni prioritetləri, alternativ təbii ehtiyatlardan istifadə olunmasını təqdir edirlər. Bu, siyasi mübarizəni gücləndirir, çünki bu sahədə hər bir təşəbbüs müxtəlif qrupların mənafelərinə toxunur, qərarlaşmış dəyərlərə yeni mövqedən yanaşmağa səbəb olur, hakimiyyət münasibətlərinə təsir göstərir. Ətraf mühitin çirklənməsinə son qoymaq və ya onu azaltmaq üçün energetika siyasəti sahəsində, istehsal və istehlak üsullarında yeni həllər tapılması tələb olunur. İstehsal xərcləri, struktur yenidənqurmalar üçün ictimai məsrəflər artır.

Beynəlxalq münasibətlər sahəsində də yeni problemlər yaranır. Ekoloji tarazlığın pozulmasına görə əsas məsuliyyət iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin üzərinə düşür. Bu ölkələr planetin əhalisinin cəmi beşdə bir hissəsini təmsil etdiyi halda, "istixana effekti"nə səbəb olan qazların atmosferə tullantısının yarıdan çoxu onların payına düşür. BMT-nin dünyada sosial vəziyyət haqqında məruzəsində göstərilir ki, atmosferdə yığılan və planetin ozon qatının dağılmasına şərait yaradan xlor-ftor-karbohidrogen (CFC) birləşmələrinin 70 faizi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının[1] üzvü olan ölkələrdə istehsal edilən məişət cihazlarının tətbiq edilməsi ilə bağlıdır.

Lakin təbii mühitin çirklənməsində yoxsul ölkələr də böyük mənbədir. Ekoloji fəlakətlər, o cümlədən meşələrin qırılması və torpaqların eroziyası nəticəsində baş verən daşqınlar məhz yoxsul ölkələrdə daha tez-tez baş verir və daha güclü dağıdıcı təsir göstərir. İqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələr təbiəti mühafizə proqramlarına sərmayə qoyulmasına, təmizləyici qurğuların maliy-

[1] İngilis abreviaturası - OECD - dünyanın 30-dan çox iqtisadi cəhətdən inkişaf etmiş ölkəsini birləşdirən beynəlxalq təşkilatdır. Onun əsas məqsədləri: dünya iqtisadiyyatını inkişaf etdirmək, üzv dövlətlərin siyasətini koordinasiya etmək və inkişaf edən ölkələrə yardımı razılaşdırmaqdır.

yələşdirilməsinə və başqa tədbirlərə az maraq göstərirlər. Digər tərəfdən, öz filiallarını bu ölkələrdə yerləşdirən transmilli korporasiyalar (TMK) da həmin ölkələrdə ümumi iqtisadi, sosial-siyasi vəziyyətdən və onların qanunvericiliyindən istifadə edərək təbiəti mühafizə tədbirləri hesabına qənaət etməyə, zərərli istehsalat tullantılarını bu ölkələrin ərazisində basdırmağa meyil edirlər.

İri təbii fəlakətlər beynəlxalq münasibətlər sahəsində həmişə ciddi nəticələr vermişdir. Məsələn, 1846-cı ildə İrlandiyada "kartof böhranı" bu ölkənin həyatına mənfi təsir göstərmiş, onun iqtisadiyyatı görünməmiş dərəcədə sarsıntıya məruz qalmış, əhalisi isə aclıqdan əziyyət çəkmişdir. Bu böhran İrlandiyadan ABŞ-a kütləvi mühacirət dalğasına səbəb oldu. Bu, beynəlxalq əhəmiyyətli fenomen idi. Nisbətən sonrakı dövrdə Pakistanın Benqaliya hissəsində baş vermiş daşqınlar və tayfunlar dünya xəritəsində Banqladeş adlı yeni dövlətin yaranmasında mühüm rol oynamışdır.

Ekoloji problemlərin çoxalması və onların bütün bəşəriyyət üçün təhlükəli olmasının dərk edilməsi Ümumdünya Ərzaq Təşkilatı (FAO), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), YUNİSEF (BMT-nin Uşaq Fondu) və başqa beynəlxalq təşkilatların yaranması ilə nəticələnmişdir. 1972-ci ildə BMT ətraf mühitin qorunması sahəsində tədbirlər proqramı qəbul etmişdir. Sonrakı illərdə ekoloji problemlər "qlobal risklər"ə həsr edilmiş çoxsaylı beynəlxalq konfransların müzakirə predmetinə çevrilmişdir. Ekoloji tarazlığın pozulması hallarını qeydiyyata almaqla yanaşı, ətraf mühitin qorunması və təbii ehtiyatların tənzimlənməsi məsələsində dövlətlərin əməkdaşlığının konkret mexanizmlərini yaratmaq məqsədilə bağlanan hökumətlərarası sazişlərin sayı artmaqdadır.

Bütövlükdə, yeni imperativlərin miqyası elədir ki, geosiyasət artıq ayrı-ayrı dövlətlərin nəsibi deyildir. Əvvəllər *"bir-biri ilə mübarizə aparan əsas millətlər arasında münasibətlərin kartoqrafik təsviri" [Harkavy, 1982, p. 274]* kimi səciyyələndirilə bilən geosiyasəti indi bu cür xarakterizə etmək kifayət deyildir. Müasir şəraitdə ümumi planetar geosiyasətin işlənib hazırlanmasında və reallaşdırılmasında beynəlxalq birliyin bütün üzvlərinin razılaşdırılmış

qarşılıqlı fəaliyyəti zəruridir. Bu geosiyasət sivilizasiyanı gələcək nəsillər üçün xilas etmək maraqlarına əsaslanmalıdır.

Şübhə yoxdur ki, geosiyasət istər beynəlxalq münasibətlərin öyrənilməsinə, istərsə də dövlətlərin və onların hökumətlərinin beynəlxalq strategiyasına təsir göstərmişdir və göstərməkdə davam edir. *P.-M. Qallua* ABŞ-ın qüdrətini onun məkanı ilə əlaqələndirir. Əvvələn, onları, yəni amerikalıları Köhnə Dünyadan ayıran məsafə amerikalıların onun qanunlarından, təsisatlarından, adətlərindən imtina etməsinə və həm məsafəcə, həm də okeanla qorunan yeni cəmiyyət yaratmasına imkan vermişdir. İkincisi, ilk vaxtlarda mühacirlər üçün təhlükə mənbəyi olmuş ucsuz-bucaqsız Amerika qitəsi həmin mühacirlərin davamçılarının sahibkarlıq ruhuna stimul yaratmış, millətin böyüklüyünün əsasına çevrilmişdir. Geosiyasətin baniləri və klassikləri sayılan *F.Ratsel, R.Çellen, H.Makinder, A.Mehen, K.Haushofer, N.Spaykmen* və başqalarının nəzəri araşdırmaları sayəsində bu cür misallar "dəniz dövlətləri" ilə "quru dövlətləri" arasında münasibətlərin izahı üçün onların irəli sürdüyü, böyük dövlətlərin siyasi dairələrində və hərbi qərargahlarında əksəsəda doğurmuş onların qlobalist ambisiyaları üçün "elmi" baza yaratmış aforizmləri anlamağa kömək edir *[bu barədə bax: Senarclens, 1992, səh. 40]*. İkinci Dünya müharibəsindən sonra geosiyasi yanaşmaların izi Amerikanın "sovet işğalını ləngitmək" strategiyasında və SSRİ rəhbərlərinin bu dövlətin sərhədlərindən qərbə doğru "sanitar sədd" yaratmaq və onu əldə saxlamaq cəhdində, "Brejnev doktrinası"nda müşahidə olunur. Müasir dövrdə geosiyasi ideologiya elementləri təkcə böyük dövlətlərin planlarında və onların dünya səhnəsində davranışında deyil, həm də regional kvazifövqəldövlətlərin ekspansionist siyasətində, dövlətlərin milli sərhədlərindən uzaqda yerləşən ərazilərə strateji və ya iqtisadi nəzarət uğrunda rəqabətində də özünü göstərir.

Geosiyasətin öz nəticələrini əsaslandırmaq üçün istifadə etdiyi əsas üsullardan biri *İv Lakostun* təxəyyül mənasında, eləcə də teatrda işləyən aktyorun öz personajını təmsil etməsi mənada "təmsil" adlandırdığı üsuldur. Bu cür epistemoloji üsullar sosial elmlər-

də geniş tətbiq edilir və üstəlik, onların inkişafında mühüm mərhələdir. Geosiyasətin spesifikası, onun xüsusiyyəti ondan ibarətdir ki, burada "təmsil"çilik çox vaxt üstün xarakter kəsb edir, fantastik və mistik mülahizə və fərziyyələrlə tamamlanır.

Rabitə və nəqliyyat vasitələrində inkişaf, informasiya texnologiyalarının inqilabi tərzdə genişlənməsi, ən müasir silah növlərinin yaranması insan ilə ətraf mühit arasında münasibətləri, "böyük məkanlar" və onların rolu haqqında təsəvvürləri kökündən dəyişir, dövlətin coğrafi məkan, demoqrafik və iqtisadi amillərin məcmusu kimi gücünün və qüdrətinin başa düşülməsi köhnəlir və qeyri-qənaətbəxş olur.

Yuxarıda deyilənlərdən aydın görünür ki, geosiyasətin müasir beynəlxalq sistemə, onun mühitinə göstərdiyi təsir heç də birmənalı deyildir. Bu cür təsirin nəticələrindən biri insanların ünsiyyətinin bütün cəhətlərinin, cəmiyyətdaxili və beynəlxalq münasibətlərin qarşılıqlı asılılığının kəskin artması, bu münasibətlərin beynəlmiləlləşməsidir, ümumdünya miqyaslı obyektiv və deməli, ümumi sosioloji meyillər kimi təzahür edən inteqrasiya prosesləridir. Lakin beynəlxalq münasibətlərin sosiallaşmasına gətirib çıxaran, özünəməxsus qlobal vətəndaş cəmiyyətinin təşəkkülünə stimul yaradan bu sistemyaradıcı amillər elmi-texniki, iqtisadi, sosial və siyasi inkişafın müxtəlif səviyyələrində olan müxtəlif ölkələrdə məhsuldar qüvvələrin qeyri-bərabər artması ilə müşayiət olunur. Milli dövlət xüsusiyyətləri, qlobal beynəlxalq sistemdə gərginliyi artıran, bu sistemin sabitliyini pozan və onun münaqişə potensialını artıran iqtisadi mənafelərin toqquşması davam edir, bəzi yerlərdə isə daha da artır. Eyni zamanda, beynəlxalq əməkdaşlıq formaları getdikcə möhkəmlənir və inteqrasiya prosesləri bu faktın səciyyəvi təzahürləridir.

1.2. Geosiyasətin mənbələri

Əsrlərin sərhədində yaranmış əksər fənlər kimi, geosiyasət də üç elmi yanaşma - *coğrafi determinizm yanaşması, hərbi-strateji yanaşma və sivilizasiya yanaşması* nəzəriyyələri bazasında meydana gəlmişdir.

Geosiyasətin ilk nəzəri mənbəyi **coğrafi determinizm konsepsiyalarıdır**. Bu, idrakın ən qədim mənbəyidir. Coğrafi mühitin (iq-

lim, torpaqlar, çaylar, dənizlər və s.) tarixə və insana təsiri haqqında ideyalara **Lao-tszı**[1] (e.ə. VI-V əsrlər), **Konfusi**[2] (e.ə. təqr. 551 - e.ə. 479), **Men-tszı**[3] (e.ə. təqr. 372-289), **Kautilya Arthaşastra**[4] (e.ə. V əsr), **Fales**[5] (e.ə. təqr. 625-547), **Anaksimandr**[6] (e.ə. təqr. 610-540), **Herodot**[7] (e.ə. təqr. 490-480), **Hippokrat**[8] (e.ə. 460-377), **Fukidid**[9] (e.ə. 460-401), **Platon**[10] (e.ə. 428/7-348/7), **Aristo-**

[1] Qədim Çin filosofu. Həyatı barədə az şey məlumdur. Səhih olan məlumat yalnız odur ki, o, *Konfusinin* müasiri idi. Belə hesab olunur ki, o, tənhalıqda yaşamışdır və şöhrətdən qaçmışdır. Lao-tszının adı (bu filosofun adı çincədən "Qoca ustad", yaxud "Qoca filosof" kimi çevrilir) onun məşhur əsərindən - *"Dao de tszın" ("Yol və onun fəzilətləri barədə Kitab"* və ya *"Dao və de haqqında Kitab")* - ayrılmazdır, baxmayaraq ki, bu kitabın məhz onun tərəfindən yazılması şübhə doğurur. Mümkündür ki, bu kitab onun ideya ardıcılları tərəfindən yazılmışdır.

"Dao de tszın" daosizmin müqəddəs kitabıdır. Bu kitabın anlaşılması çətindir və onun şərhi böyük problemlər yaradır. Çox vaxt *Lao-tszını* da *Heraklit* kimi "sirli" və "əlçatmaz" adlandırırlar.

[2] Dahi Çin mütəfəkkiri. *Konfusinin* (Kun-tszı, "müəllim Kun") siyasi və etik görüşləri şagirdləri tərəfindən tərtib edilmiş *"Lun yuy" ("Söhbətlər və mülahizələr")* kitabında ifadə edilmişdir. Konfusiçilik e.ə. II əsrdə Çində rəsmi ideologiya kimi qəbul olunmuş, dövlət dini rolunu oynamış, çinlilərin dünyagörüşünə və həyat tərzinə əsaslı təsir göstərmiş və indi də göstərməkdədir.

[3] *Konfusinin* görkəmli tərəfdarı. *Men-tszının* təlimi feodal Çininin ideologiyasına dərin təsir göstərmişdir.

[4] Qədim Hindistan sivilizasiyasının memarlarından biri, tarixçi, ədəbiyyatçı və digər mədəniyyət sahələrinə aid ideyalar müəllifi. *"Dövlət idarəçiliyi elmi"* kitabında və əlyazmalarında çox qiymətli siyasi ideyalar və fikirlər əks olunmuşdur.

[5] Qədim yunan filosofu; "yeddi müdrik"dən biri. *Fales* ellin fəlsəfəsinin banisi sayılır.

[6] Qədim yunan materialist filosofu. Yunanıstanda ilk fəlsəfi əsər olan və bizə gəlib çatmayan "Təbiət haqqında" adlı əsərin müəllifidir. Səma cisimləri haqqında bir sıra maraqlı fikirlər söyləmiş, Göyün qlobusunu yaratmış, materik və dənizlərin cizgilərini əks etdirmişdir.

[7] Yunan tarixçisi və mütəfəkkiri, *Siseronun "tarixin atası"* adlandırdığı *Herodot* qədim Yunanıstanda xüsusi geosiyasi irs yaratmışdır. Həyatının 10 ilini səyahətlərə həsr edən alim dünyanın çox mühüm geostrateji ərazilərini öyrənmiş, dünya okeanları, dənizlər, çaylar və onların keçidləri, bu ərazilərdəki dövlət və xalqlar haqqında çoxsaylı geostrateji materiallar toplamışdır. Onun 9 kitabdan ibarət "Tarix" kitabında tarixi hadisələr coğrafi nöqteyi-nəzərdən, coğrafi məkanlar isə tarixi nöqteyi-nəzərdən təqdim olunur. *"Coğrafiya - tarixin ifadəçisidir"* məşhur kəlamı da məhz Herodota məxsusdur.

"Tarix" əsərində Yunan-İran müharibələrindən, habelə qədim dünyanın bir sıra dövlətlərinin, o cümlədən Şərq ölkələrinin tarixindən, coğrafi mövqeyindən, yerli xalqlarından, onların adət-ənənələrindən ətraflı bəhs olunur. Əsər Azərbaycanın qədim tarixini öyrənmək baxımından da qiymətli mənbədir. Midiya tarixi, habelə iskitlər (skiflər), onların Azərbaycana gəlmələri, Azərbaycan ərazisində yaşamış qədim qəbilə və tayfalar haqqında məlumatlar son dərəcə dəyərli elmi əhəmiyyətə malikdir.

[8] Qədim yunan həkimi; antik təbabətin reformatoru. Həkimin mənəvi davranış normaları və həkim andı *("Hippokrat andı")* Hippokrata isnad edilir (həmin andın ilk variantı qədim Misirdə mövcud idi). *Hippokratı "Təbabətin atası"* adlandırırlar.

[9] Qədim yunan tarixçisi və mütəfəkkiri. 8 kitabdan ibarət *"Tarix"* əsərinin müəllifidir.

[10] Qədim yunan idealist filosofu, *Sokratın* şagirdi. *Platonun* əsərləri Avropa idealizminin və etikasının təməlini qoymuşdur. *Platonun* dövlət haqqında təlimi siyasi nəzəriyyəyə ilk mühüm töhfədir. Onun siyasətə aid fikirləri dialoq şəklində yazılmış traktatlar nəticəsində günümüzə qədər gəlib çıxmışdır: *"Dövlət", "Pir", "Qanunlar"* və s. *Platon*, hələ *Sokratın* tələbəsi olarkən, dövlətin və onların dəyişməsinin ideal formalarını araşdırmağa cəhd edirdi. Onun fikrincə, dövləti insanın bədənnə və ruhuna oxşatmaq olar. İnsanın ruhunun üç - dərrakəli, hiddətli və şəhvətli hissəsinə, üç üzvə uyğun gəlməlidir: Ləyaqəti müdriklik olan, hökmdarlar; Başqalarından fərqi cəsurluq olan, döyüşçülər; Sociyyəsi qarınlarını və hisslərini doyurmaq olan, istehsalçılar (sənətkarlar, tacirlər, torpaq sahibkarları, aktyorlar).

tel[1], **Polibi**[2], **Yuli Sezar**[3] (e.ə. 102 və ya 100 - e.ə. 44), **Mark Siseron**[4] (e.ə. 106-43), **Strabon**[5], **Plutarx**[6] (təqr. 46 -127) və b. qədim müəlliflərin əsərlərində rast gəlmək olar. Məsələn, **Aristotel** (e.ə.

İlk iki zümrə dövləti idarə edir və qoruyur, amma aşağı təbəqə istehsalla məşğul olur. Mükəmməl dövlətin quruculuq prinsipi olan ədalət, *Platonun* rəyincə, hər kəsin öz işi ilə məşğul olması və ictimai iyerarxiyada müvafiq mövqeyə malik olmasına bağlıdır. Dövlətin vahidliyinə təhlükə yaradan, ayrı-ayrı insanların eqoizmini cilovlamaq üçün, *Platon* hesab edirdi ki, hökmdar və döyüşçülərin ehtiyaclarını ən vacib olanlarla məhdudlaşdırmaq, onların mülkiyyətlərini və ailələrini isə ləğv etmək lazımdır. *Platonun* fikrincə, zaman keçdikcə əxlaqın korlanması və ədalətin pozulması baş verir. Bu, monarxiya (çar hakimiyyəti) və yaxud da aristokratiya (filosofların idarəçiliyi) formalarında reallaşan ideal dövlət pozularaq, əvvəlcə timokratiyanın (döyüşçülərin hakimiyyəti), sonra isə oliqarxiyanın, yəni varlıların hakimiyyətinin yaranmasına səbəb olur. Hədsiz mülkiyyət bərabərsizliyi əhalinin hiddətini oyadır, bu da demokratiyanın yaranmasına, sonradan onun da ən pis dövlət quruluşu - tiranlıqla əvəz olunmasına gətirib çıxarır. *Platon* demokratiyanın əleyhdarı idi və o, xəbərdarlıq edirdi ki, ifrat azadlıqdan qəddar quldarlıq quruluşu əmələ gələ bilər. Eyni zamanda, onun fəlsəfi və siyasi mühakimələrində totalitarizmin cizgilərini izləmək mümkündür: dövlətin fərd üzərində üstünlüyü, senzuranın mövcudluğu, cəmiyyətin ciddi plan üzrə quruluşu, idarəçilər tərəfindən müəyyən olunmuş, bütün vətəndaşların həyatında yeknəsəqlik, onun bütün istiqamətlərinin, hətta məhrəm sahələrin belə, nizama salınması. *Platonun* siyasi baxışları mürtəce mühafizəkarlıq fəlsəfəsi üçün təmələ çevrilmişdir. Əslində, *Platon* bu günə qədər qalmaqda olan ümumi antidemokratik ənənələrin banisi olmuşdur.

[1] Dahi yunan filosofu və siyasi mütəfəkkiri. Aristotel iyirmi il ərzində *Platonun* şagirdi olmuş, onun Afina akademiyasında o dövrün elmi biliklərinə mükəmməl yiyələnmişdir. *Platonun* ölümündən sonra Aristotel Afinanı tərk etmiş, gələcəyin böyük fatehi gənc İsgəndərə müəllimlik etmək üçün Makedoniyada məskən salmışdır. E.ə. 334-cü ildə *Makedoniyalı İsgəndərin* öz Asiya fütuhatına başlaması ilə Aristotel Afinaya qayıdaraq öz məşhur akademiyasını təsis etmişdir. İsgəndərin ölümündən sonra aristokratlar partiyasına yaxın olan Aristotel ateizmdə ittiham edildiyindən Afinanı tərk etmək məcburiyyətində qalmış və bir il sonra dünyasını dəyişmişdir. Aristotelin *"Etika"*, *"Politika"*, *"Ritorika"* və digər əsərlərində cəmlənmiş elmi irsi əsrlər boyu əvvəlcə Şərq, sonralar isə Qərb fəlsəfəsinə öz həlledici təsirini göstərmişdir. Orta əsrlərdə Avropada Aristoteli sadəcə olaraq "filosof" adlandırırdılar. İndiyəcən çoxları fundamental fəlsəfi problemləri bütün dərinliyi ilə əhatə etdiyinə və ensiklopedik biliyinə görə onu bütün zamanların və xalqların ən böyük filosofu sayır. Aristotelin "Politika" əsəri Qərbin siyasi fəlsəfəsində başlanğıc nöqtəsi hesab edilir. Bu, yunan filosofunun siyasi rejimlərin müxtəlif növlərini, vətəndaşlığın mənasını və siyasi həyatda təhsilin rolunu sistemli təhlilə çəkən ilk böyük elmi iş idi. Aristotelə görə, demokratiya siyasi rejimlərin (bunların arasında o, habelə monarxiya, oliqarxiya, tiraniya və politiya rejimlərini nəzərdən keçirirdi) yalnız bir formasıdır. Aristotel monarxiya tərəfdarı idi, lakin bir şərtlə ki, monarx təhsil görmüş, bilikli adam olsun və dövləti hamının xeyri naminə idarə etsin. Aristotel ən geniş yayılmış rejim kimi demokratiyaya yaxın olan, həm də özündə oliqarxiyanın və müasir konstitusiyalı monarxiyaların elementlərini daşıyan politiyanı qeyd edirdi. Aristotelin fikrincə, cəmiyyət daxilində yaşayan insan siyasi varlıqdır. Dövlət təbii şəkildə ailədən törəyərək hakimiyyət və tabeçilik münasibətlərini (ağa və kölə, ər və arvad, ata və övladlar) yeni səviyyədə qurub həyata keçirir. Aristotel quldarlığı müdafiə edirdi. *Platon* kimi o da belə hesab edirdi ki, insan ümumən siyasi azadlıq şəraitində yaşamaq iqtidarında deyildir. Lakin *Platondan* fərqli olaraq, Aristotelin ideal dövləti müxtəlif mülkiyyət formalarına, iqtisadi özünütənzimləmə mexanizminə malik, siyasi hakimiyyəti isə geniş yayılmış institutlar sistemi (şəhər məclisi, magistrat, məhkəmə) və cəmiyyətin təyin etdiyi vəzifəli şəxslərin vasitəsilə həyata keçirilən açıq, dinamik inkişaf edən cəmiyyətdir. Aristotel üçün hakimiyyət *Platonda* olduğu kimi hamıdan yüksəkdə duran əzm, iradə deyil, bir neçə müstəqil iradənin məcmusudur. Aristotel demokratiyanı idarəetmənin ən pis formalarından ən yaxşısı kimi tövsif edirdi, belə ki, onun fikrincə, burada hakimiyyət, adətən, əksəriyyət təşkil edən yoxsul və əsil-nəcabətsiz vətəndaşlara məxsus olacaqdır. Aristotel iddia edirdi ki, demokratiyanın ən yaxşı forması ən az demokratik olanıdır; belə demokratiyada insanların çoxu yoxsul deyil və yoxsulların bərabər hüquqları yoxdur. O, hər şeydə, o cümlədən dövlət quruluşunda, *"qızıl orta"*nın tərəfdarı idi. Aristotelin fikrincə, o dövlətdə ki, orta təbəqə (kasıb olmayan, amma çox zəngin də olmayan insanlar) üstünlük təşkil edir, orada tarazlıq və sabitlik təmin olunur. Onun dahi *"orta element"* gümanı öz dövrünü qabaqladı və müasir zamanda *"orta sinif"* nəzəriyyəsində (bu amil sabitliyin təminatçısı kimi əks edilir) davamını tapdı.

384-322) "Siyasət" əsərində Krit adasının geosiyasi mövqeyinin xüsusiyyətini vurğulayaraq yazırdı: *"Krit adası sanki Yunanıstan üzərində hökmranlıq üçün nəzərdə tutulmuşdur. Onun coğrafi mövqeyi də gözəldir: ada dənizin lap sahilindədir. Onun dövrəsində demək olar ki, bütün yunanların məskənləri var; o, bir tərəfdən Peloponnesin, digər tərəfdən Asiyanın lap yaxınlığındadır" [Аристотель, 1984, стр. 434-435].*

Polibi (e.ə. təqr. 200-120-ci illər) Arkadiya sakinlərinin sərt xasiyyətini orada dumanlı və soyuq iqlim şəraiti ilə izah edərək deyirdi: *"Bu səbəbdən xalqların xarakterində, onların bədən quruluşunda, dərisinin rəngində, əksər məşğuliyyətlərində bu qədər kəskin fərqlər yaranmışdır" [Полибий, 1890, стр. 429].*

Strabon (e.ə. 64-63-cü illər - b.e. 23-24-cü illəri) Qədim Romanın gücünü və möhtəşəmliyini onun xüsusi coğrafi vəziyyəti, Apennin yarımadasında yerləşməsi, ətrafdakı coğrafi və təbii üstünlüklərlə izah edirdi *[Страбон, 1994, стр. 7].*

Şərqin görkəmli filosofu, ensiklopediyaçı alim və siyasi mütəfəkkir **Əbu Nəsr Məhəmməd ibn Məhəmməd əl-Fərabi**[1]

[2] Qədim yunan tarixçisi. 40 kitabdan ibarət *"Ümumi tarix"* adlı əsərində Aralıq dənizi hövzəsindəki əsas ölkələrin tarixindən bəhs edilir. *Bu əsərdə Atropatena, Qafqaz Albaniyası və onların qonşuları haqqında da məlumatlar vardır.*

[3] Roma dövlət və siyasi xadimi, sərkərdə, yazıçı.

[4] Antik hüquq və siyasət fikrinin görkəmli nümayəndəsi, Qədim Romanın məşhur natiqi, vəkili, yazıçı və siyasi xadimi.

[5] Qədim yunan coğrafiyaşünası, tarixçi. *"Tarixi qeydlər"* (dövrümüzədək çatmamışdır) və *"Coğrafiya"* əsərlərinin müəllifidir. *"Coğrafiya" əsəri qədim yunan, Roma və Şərq (o cümlədən Azərbaycan) tarixinin öyrənilməsində mühüm mənbədir. Əsərdə Qafqaz Albaniyası və Atropatenanın coğrafi mövqeyi, sərhədləri, burada məskunlaşmış tayfalar, əhalinin məşğuliyyəti, dini görüşləri, onların Pompey və Mark Antoninin qoşunlarına qarşı mübarizəsi, Atropatenanın Qazaka və Vera şəhərləri, alban tayfalarının 26 ləhcədə danışmaları, Xəzər dənizi və s. haqqında məlumat verilmişdir.*

[6] Yunan filosofu, yazıçı və tarixçi. Mənbələrin məlumatına görə Plutarx 200-dən çox əsər yazmışdır; onların bir çoxu dövrümüzədək çatmamışdır. Plutarxın əldə olan bədii-fəlsəfi əsərləri *"Etik əsərlər"*də *("Moralia")* toplanmışdır. Tarixi janrda yazılmış *"Paralel tərcümeyi-hallar"* əsərində 50 görkəmli yunan və Roma siyasi və dövlət xadiminin tərcümeyi-halından bəhs edilir. *Plutarxın bu əsərində Qafqaz Albaniyası [albanların Pompeyə qarşı apardığı mübarizə, alban piyada və atlı qoşunları, onların silahları, bir sıra toponimlər (Kür, Araz çayları və s.)], Atropatena haqqında da məlumatlar var.*

[1] Fərabi Şaş şəhərindən (indiki Daşkənd) şimal-qərbdə Fərab adlı yerdə anadan olmuşdur. Çox kiçik yaşlarında təhsil almağa başlamış, öz doğma türk (özbək) dilini dərindən bilməklə yanaşı, bir sıra başqa dilləri də mükəmməl mənimsəmişdir. O, Yaxın və Orta Şərqin mədəniyyət mərkəzlərinə səyahətlər etmiş, təhsilini artırmış, məntiq və fəlsəfə elmlərinin incəliklərinə yiyələnmişdir. Fərabi təbiətşünas filosof kimi daha çox *Aristote-*

(870-950) də siyasi və ictimai həyatda baş verən hadisələri, prosesləri təbiətlə və təbii səbəblərlə bağlayır, siyasətlə coğrafiyanı əlaqələndirirdi. Məsələn, **insan cəmiyyəti onun düşüncələrində yaşayış üzrə vahid məkanda müxtəlif insanların bir araya gəlməsi, ətraf mühitin təsiri ilə ortaq yaşayış normalarının və sosial dəyərlərin formalaşması prosesi idi** *[Гражданская политика.., 1993, стр. 4-6].* **Əl-Fərabi, eyni zamanda, insan cəmiyyətlərini dilinə, dininə və davranış normalarına görə ayrı-ayrı xalqlara bölürdü. Xalqlar arasındakı fərqi o, üç təbii amillə: mənəviyyat, təbii xarakter və fərdi xarakteri ilə seçilən insan amili ilə qiymətləndirirdi** *[Çilingir, 2009, səh. 84].* **Bundan əlavə o, dil, düşüncə fərqini də millətlərin fərqləndirici keyfiyyəti kimi təqdim edirdi.** Beləliklə, əl-Fərabi insanların düşüncəsinin, mənəviyyatının, xasiyyətinin və dilinin formalaşmasını fərqli coğrafi mühit və etnogenez səbəbi ilə izah edirdi.

Əl-Fərabi əsərlərində dövlətlərin yaranmasının siyasi və geosiyasi aspektlərini təsvir etmişdir. ***O, dövlətləri böyük, orta və kiçik olmaqla üç qrupa bölürdü. Dövlət idarəçiliyində: hakimlik, müstəqillik və asılılıq formasında üç idarəçilik vəziyyətini və buna uyğun olaraq üç idarəçilik keyfiyyətini fərqləndirirdi.*** Əl-Fərabinin təliminə görə idarəçilik sistemində ən kamil forma *Aristoteldə* olduğu kimi, kollektiv şəhər idarəçiliyi hesab olunurdu.

Fəzilətli hökmdar tərəfindən idarə olunan, insanların dostluğuna və qarşılıqlı köməyinə əsaslanan, zülm və müharibələrdən

lin elmi-fəlsəfi irsi ilə maraqlanmış, bu zəngin mənəvi sərvətə rəğbət bəsləmişdir. Şərq filosofları tərəfindən Aristotelin "Birinci təlim" adlandırılan əsərləri külliyyatının tərcüməsini redaktə edib, ona şərh yazmaqla *"İkinci təlim"i* yaratmış, nəticədə birinci müəllimdən (Aristoteldən) sonra *ikinci müəllim (əl-Müəllim əs-sani)* deyə məşhurlaşmışdır. *İbn Sina* (980-1037), *Bəhmənyar* (?-1066), *İbn Bəcca* (1070-1139), *İbn Tüfeyl* (1110-1185), *İbn Rüşd* (1126-1198), *Musa ibn Yunis* (1156-1242), *Əfzələddin Xunəci* (1193-1283), *Nəsirəddin Tusi* (1201-1274) və onlarca başqa məşhur filosoflar Fərabi məktəbinin yetirmələridir. Fərabinin zəngin irsi Avropa ölkələrində elmi-fəlsəfi fikrin inkişafına böyük təsir göstərmişdir. Bu mənəvi sərvətdən əsrlər boyu görkəmli alimlər, filosoflar bəhrələnmişdir.

uzaq, ədalətli bir cəmiyyət filosofun ictimai idealı idi. Əl-Fərabiyə görə, **adamlar ən yüksək səadətə və harmoniyaya, insan varlığının məqsədlərinə ancaq Fəzilətli Şəhərdə nail ola bilərlər. O, öz ideal Şəhərini insan orqanizmi ilə analogiya əsasında qurur, sonra kosmosun harmonik quruluşu ilə analogiya aparır və belə qənaətə gəlir ki, kosmos bu analogiyalar sayəsində başa düşülə bilər.** Vahid prinsiplər, - bütün mövcudat onların əsasında təşəkkül tapır, - Fəzilətli Şəhərin hökmdarının meydana gəlməsi vasitəsilə bu Şəhərin yaranmasında reallaşır, insanın başlanğıcı olaraq ürəyin ətrafında insan vücudu formalaşdığı kimi, Şəhər də hökmdarın ətrafında sanki, getdikcə böyüyür.

Geosiyasi ideyalar orta əsr Avropasında "Aliborono" adı ilə məşhur olan **Əbu-r-Reyhan Məhəmməd ibn Əhməd əl-Biruni əl-Xarəzminin**[1] (973-1048) əsərlərində də əksini tapmışdır. Biruni coğrafi determinizm geosiyasi ideyasından çıxış edərək insanlığın inkişafında təbii amillərin rolunu, təbiətin, iqlimin və coğrafi şəraitin insan cəmiyyətlərinə təsiri məsələlərini şərh etmişdir. Biruninin bu gün ən çox maraq doğuran əsərləri sözsüz ki, onun tarix və coğrafiya mövzusunda yazdıqlarıdır. *"Hindistan tarixi", "Qədim xalqların xronologiyası", "Keçmiş nəsillərdən qa-*

[1] Biruni Xarəzm vilayətinin Kət şəhərində doğulmuşdur. Dərin, hərtərəfli təhsil almış, elmin bir çox sahələrinə aid əsərlər yazmışdır. Astronomiya, geodeziya, riyaziyyat, coğrafiya, mineralogiya, fizika, farmakologiya, fəlsəfə, tarix, etnoqrafiya, ədəbiyyatşünaslıq və s. aid əsərləri uzun illər alimlərin stolüstü kitabları olmuşdur. *Ptolemeyin* geosentrik (Yeri kainatın sabit mərkəzi hesab edən təsəvvür) sistemini müdafiə etsə də riyazi mövqedən heliosentrizmin (Günəşi ətrafında hərəkət edən planetlərin mərkəzi hesab edən nəzəriyyə) mümkünlüyünü etiraf etmişdir. O, ilk dəfə tarixi prosesin dövriliyi ideyasını irəli sürmüşdür. *"Məsud cədvəli" əsərində başqa saysız coğrafi məntəqələrlə birlikdə Azərbaycanın Naxçıvan (Nəşəvə), Urmiya, Ərdəbil, Təbriz, Mərənd, Məyanic, Səlmas, Marağa, Xunəc, Bəzz, Bərdə, Beyləqan, Dərbənd, Şirvan, Bakuh (Bakı), Varsan şəhərlərinin adlarını da sadalamış, onların en dairələrini göstərmiş, maraqlı etnoqrafik məlumatlar vermişdir.* Biruni siyasi çəkişmələrin biri digərini əvəz etdiyi bir dövrdə yaşamış, nəzəri biliklərlə kifayətlənməyərək, hər şeyi empirik yolla dərk etməyə çalışmış, elmi işlə yanaşı siyasətlə də məşğul olmuş, *Xarəzmşahlar dövlətinin* (1097-1231) diplomatik fəaliyyətinə rəhbərlik etmişdir.

lan izlər" ("Xronologiya") əsərləri indi də öz əhəmiyyətini saxlamaqdadır.

Şərqin dahi mütəfəkkiri **Əbu Əli Hüseyn ibn Abdullah ibn Sina**[1] (980-1037) əsərlərində insanların xarakterini, cəmiyyətlərin inkişafını coğrafi təbiət fərqi ilə - yaşayış mənbələri, iqlim və digər təbii vəziyyətlə bağlayırdı. *Onun fikrincə, öz həyatlarının təminatı üçün insanlar cəmiyyət halında birləşməlidirlər; insanın yaşaması üçün onun başqaları ilə əməkdaşlığı zəruridir, belə əməkdaşlıq üçün isə qanun və ədalətin olması lazımdır; qanun və ədalət üçün onları yaradan və təmin edən adam lazımdır. Belə adam isə yalnız peyğəmbər ola bilər.* Beləliklə, qanuna, başqa sözlə, Peyğəmbərə tələbat təbii zərurətdən yaranır. Peyğəmbər elə qayda yaratmalıdır ki, özünün ölümündən sonra da onun davamçısı - xəlifə cəmiyyətdə qanun və ədaləti təmin etsin. Əgər Peyğəmbər özü belə bir davamçı təyin etməyibsə, onda xəlifəni seçməlidirlər.

İbn Sinanın siyasi baxışları insanların təbii bərabərsizliyi ideyası üzərində qurulub. Bu bərabərsizliyi o, belə əsaslandırmağa çalışırdı ki, bütün mövcudat öz varlığını saxlamağa çalışır; əgər hamı dövlətli olsaydı insanlar arasında qibtə və rəqabət hissi getdikcə qüvvətlənər, bu zəmində isə münaqişə qızışar və cəmiyyət dağıla bilər; əksinə, hamı kasıb olsaydı onda başlanan aclıq nəticəsində cəmiyyət məhv olardı.

Dünya (və islam) sosial-siyasi-coğrafi fikrinin ənənəsi ilə daha dərindən tanış olmaq baxımından böyük maraq doğuran **"Saflıq qar-**

[1] İbn Sina dünya elminin, bəşər fəlsəfi fikrinin inkişafında böyük xidmətləri olan parlaq şəxsiyyətdir. O, Buxara şəhəri yaxınlığındakı Əfşanə kəndində həyata göz açmış, çox erkən təhsilə başlamışdır. Mərkəzi Asiyada və İranda yaşamış, ömrünün axırlarında saray həkimi və vəzir olmuşdur. Fəlsəfədə *Fərabinin* davamçısı olan İbn Sina *Aristotel* təliminə əsaslanaraq antik fəlsəfi fikrin inkişafında mühüm rol oynamışdır. Ərəbdilli müsəlman filosofları *İbn Rüşd, İbn Xəldun, əl-Qəzali* (1059-1111) İbn Sinanı ateizmdə, dinlə fəlsəfəni qarışdırmaqda ittiham edirdilər. İbn Sinanın yaradıcılığı fəlsəfə ilə yanaşı riyaziyyat, astronomiya, botanika, geologiya, təbabət və s. sahələri əhatə edir. Onun 5 hissədən ibarət tibb ensiklopediyası, *"Tibb elminin qanunu"* əsəri geniş şöhrət qazanmış və bir çox dilə tərcümə edilmişdir. Həmin əsər latın dilinə tərcümə edildikdən sonra bir çox əsrlər boyu Şərqdə və Avropada tibb üzrə əsas dərslik olmuşdur.

daşları və vəfa munisləri"[1] *("İxvan əs-səfa və xüllan əl-vafa")* dini-siyasi hərəkatının üzvlərinin yaratmağa çalışdıqları Fəzilətli Şəhərin ideyasını müasir tədqiqatçılardan birinin sözləri ilə ifadə etmək olar: *"Müdriklər birləşərək həyat dənizini keçib gedirlər"*. "Saflıq qardaşları"nın siyasi idealı cahilliyin və müxtəlif dini etiqadlara mənsubluğun doğurduğu qarşılıqlı düşmənçiliyin olmadığı bir cəmiyyət idi. Qardaşlar insanların hər cəhətdən bərabər ola bilmədiyini mümkün hesab edərək, insan şəxsiyyətinin meyarı olaraq heç də var-dövləti, bilikləri, gücü, əsil-nəcabəti deyil, məhz yüksək əxlaqı, mərhəmət, səxavət, şəfqət kimi fəzilətləri irəli sürürdülər. Cəmiyyət üzvlərinin qarşılıqlı məhəbbəti, bilik və fəaliyyətdə birliyi - Yer üzündə Fəzilətli Şəhərdə ədalətli həyat quruculuğunun təməli bunlardır.

Öz traktatları ilə Qardaşlar düşünən insanlarda belə bir inamı möhkəmləndirirdilər ki, cəmiyyəti onun bütün üzvlərini maarifləndirməklə dəyişmək olar. Bu humanist ideya islam intibahının korifeyi **Əbülvalid ibn Rüşdün**[2] (1126-1198) yaradıcılığında mükəmməl şəkildə işlənilmişdir. O, özünün ictimai qanunlar konsepsiyasını, "elitaları" və "kütlələri" haqq-ədalət haqqında və "ədalətli xəlifələr" deyilən xəlifələrin dövrü - "ilk müsəlmanların kamil fəzilətə çatdıqları" dövr üçün səciyyəvi olan "ədalətsiz" zəmanənin gəlməsi haqqında arzu ilə əlaqələndirirdi *[Mehdiyev, 2008, səh. 42-44]*. İbn Rüşd hesab edirdi ki, cəmiyyətin müxtəlif zümrə və silklərə, ümumiyyət-

[1] "Saflıq qardaşları" hərəkatı X əsrin sonlarında Bəsrədə (İraq) yaranmışdır. Mərkəzi orqanı Bəsrədə yerləşsə də üzvləri bütün müsəlman Şərqi ölkələrində, o cümlədən Azərbaycanda gizli fəaliyyət göstərirdilər. "Saflıq qardaşları" özlərini "ədalət əhli və həmd övladları" adlandırırdılar. Onlar geniş xalq kütlələri arasında təbii-elmi biliklər yayır, dini fəlsəfiləşdirməyə çalışırdılar. Bu məqsədlə onlar müxtəlif elm sahələrini əhatə edən 50-dən çox risalə yazmış, orijinal fəlsəfi sistem yaratmışdılar. Hərəkatın konsepsiyasının əsasını antik fəlsəfi irs, *Platonun* dövlət haqqında risalələri, *Aristotelin* və *Pifaqorun* təlimləri, eləcə də *Quran* və *Məhəmməd Peyğəmbərin* hədisləri təşkil edirdi. "Saflıq qardaşları"nın dünyagörüşündə zərdüştiliyin, xristianlığın, hinduizmin və iudaizmin də təsiri duyulur.

[2] İbn Rüşd *Aristotel* nəzəriyyə və fikirlərinin ən məşhur şərhçisidir. O, Kordovada anadan olmuş, Ərəb İspaniyasında və Mərakeşdə yaşamış, qazı və saray həkimi işləmişdir. Ərəb fəlsəfəsində rasionalizmin banisi sayılır. Əsərlərinin əksəriyyəti *Aristotelin* əsərlərinə yazdığı şərhlərdir. Onun *"İkili həqiqət haqqında"* məşhur əsəri orta əsr Avropasında xüsusilə geniş şöhrət qazanmışdır. Əsərdə mütləq və nisbi həqiqətlər şərh olunur. *"Dini prinsiplərin isbat üsulları", "İlahiyyat kitabı", "Təkzibi təkzib"* filosofun başlıca əsərləri sayılır. Sonuncu əsər *əl-Qəzalinin "Filosofları təkzib"* traktatına qarşı yazılmışdır.

lə, sosial qruplara bölünməsi mütləq zərurətdən irəli gəlir. Filosofun ictimai idealları *Platonun* "Dövlət" əsəri ruhunda olmuşdur.

Orta əsrlərdə müsəlman Şərqində insan şüurlu, bütün yaranmışlardan üstün varlıq, Yer üzünün əşrəfi sayılmışdır. Böyük Azərbaycan filosofu, təbiətşünas alimi, ictimai-siyasi xadim **Siracəddin Mahmud Əbubəkr oğlu Urməvi**[1] (1198-1283) ailədə, cəmiyyətdə, ictimai-siyasi həyatda insanın mövqeyini məhz bu baxımdan səciyyələndirmişdir. Mütəfəkkir insanın hökmünə Allahın hökmünü nümunə göstərərək yazır: **"Hakimlər hökm verməkdə hakimlər hakimindən - aləmin Yaradıcısından öyrənməlidirlər"** *[bax: Məmmədov, 1994, səh. 218].*

S.Urməvinin fikrincə, insan hakim olmaqdan, hökm verməkdən qabaq bir fərd və ictimai varlıq kimi mövcud olub yaşamalıdır. Bu yerdə filosof insan həyatı üçün zəruri olan maddi və mənəvi amilləri ilk növbədə nəzərdən keçirir.

Urməvi yaşamaq üçün maddi ehtiyacların ödənilməsinin zəruriliyini söyləyərkən mülkiyyət münasibətinə toxunmuş, onun iki formasını qeyd etmişdir. **"İnsanın yaşaması üçün möhtac olduğu iki şey var: onlardan biri heç vaxt heç kəsə məxsus olmayan su, bitki, çöl ovu, dəniz ovu və buna bənzər mülkiyyətdir, digəri isə odur ki, şəxslərdən kiməsə məxsusdur"** (yəni xüsusi mülkiyyətdir - N.M.) *[yenə orada, səh. 219].*

Urməvi əsas diqqəti xüsusi mülkiyyətə, onun təbirincə, "şəxslərdən kiməsə məxsus şeyə" yönəltmişdir, çünki "dava-dalaş və düşmənçilik onun başındadır".

Mütəfəkkir cəmiyyətə başçı ilə rəiyyət timsalında baxaraq onun üzvi vəhdətini insan orqanizminə bənzətmişdir. O yazırdı: "Başçının rəiyyətə nisbəti başın bədənə nisbəti kimidir" *[yenə orada, səh.*

[1] Siracəddin Urməvi Azərbaycanın qədim şəhərlərindən olan Urmiya şəhərində anadan olmuş, uşaqlıq illərini həmin səfalı diyarda keçirmişdir. Mənbələrdən məlum olur ki, Urməvi Mosulda təhsil almış, bir müddət Dəməşqdə yaşamış, sonralar isə Konyaya köçüb orada baş qazı vəzifəsini tutmuşdur. Mənbələrdə Urməvinin fəlsəfə və məntiqə dair 10-dan çox əsərinin adı çəkilir. Filosofun kitabları içərisində daha geniş şöhrət tapan *"Nurların doğuluşları" ("Mətali əl-ənvar")* əsəridir. Bu kitaba, xüsusən onun məntiq hissəsinə orta əsrlərdə görkəmli filosoflar tərəfindən onlarla şərh və haşiyə yazılmışdır.

220]. Yəni baş ilə bədən kimi, başçı ilə rəiyyət də qarşılıqlı qırılmaz əlaqəli olub, vahid tamı təşkil edir.

Urməvi hesab edirdi ki, ölkənin firavanlığı, dövlətin möhkəmliyi, xalqın güzəranının yaxşılığı qayda-qanunların ədalətli, əksəriyyətin mənafeyinə uyğun olması ilə bağlıdır. Ölkə daxilində asayişin vəziyyəti, filosofun fikrincə, onun xarici siyasətinə də təsir göstərir. O, qeyd edir ki, ölkədə özbaşınalıq yaranıb cinayət halları artarsa və hökmdar onun öhdəsindən gələ bilməzsə, xarici düşmənin ona hücum etmək meyili artar.

S.Urməvi cəmiyyətdəki müxtəlif qruplar, təbəqələr arasında hüquq bərabərliyinə riayət edilməsini ədalətin bərqərar olması üçün mühüm amil saymışdır.

Göründüyü kimi, Urməvi birbaşa geosiyasi məsələlərdən bəhs etməsə də, səmərəli dövlət idarəçiliyi, idarəçilik və hüquq, müharibə və siyasət, dövlətin gücü ilə bağlı çoxsaylı məsələlərə toxunmuşdur. Azərbaycan aliminin fikirləri bu gün də siyasətşünasların heyrətinə səbəb olur.

Azərbaycanın böyük ensiklopediyaçı alimi, görkəmli filosof və dövlət xadimi **Nəsirəddin Məhəmməd Tusi**[1] (1201-1274) geniş elmi-təbii, fəlsəfi görüşlərlə yanaşı, siyasi və geosiyasi məsələlərə aid qiymətli ideyalar və fikirlər söyləmişdir. Onun siyasət və dövlət haqqında yazdıqları əsasən *"Əxlaqi-Nasiri"* əsərində toplanmışdır. N.Tusinin nəzəriyyələrində belə bir əqidə hökm sürür ki, **insan bütün varlığı ilə təbiətə bağlıdır, "onun elə xüsusiyyətləri var ki, onların bəzisi heyvanat, bəziləri nəbatat, bir qismi də cansız cisimlərlə şərikdir"** *[Rzayev, 1996, səh. 135].* Tusinin dediyinə görə, insanların iradi işləri iki yerə - xeyirlər və şərlərə bö-

[1] Nəsirəddin Tusi Həmədan, bəzi mənbələrə görə isə Tus şəhərində anadan olmuşdur. İlk müəllimi atası, sonrakı müəllimləri isə *Bəhmənyar* və *İbn Sina* məktəbinə mənsub alimlər olmuşdur. Mükəmməl təhsil görmüş Tusi zəngin yaradıcılıq yolu keçmiş, dəyərli əsərlər yazmışdır. Onun geniş mündəricəli əsərləri sonrakı təbiətşünas, məntiqçi filosoflar üçün örnək olmuş, peripatetik - *Aristotel* fəlsəfəsi ənənələrinin əsrlər boyu qorunub saxlanılmasında fəal rol oynamışdır. Mütəfəkkirin mədəniyyət tarixində ən böyük xidmətlərindən biri Marağa rəsədxanasını təsis edib, dövrün görkəmli alimlərini öz ətrafında birləşdirməsi, onların işləmələri üçün şərait yaratması olmuşdur. O, ictimai-siyasi həyatda fəal iştirak etmiş, Elxanilər dövlətinin (1256-1357) banisi *Hülaku* xanın (1217-1265) vəziri olmuşdur.

ləndüyündən icmalar da buna uyğun olaraq iki yerə bölünür: niyyəti xeyir olanlar və niyyəti şər olanlar.

Mütəfəkkir siyasətin aşağıdakı növlərini göstərir: 1) fəzilətli siyasət, buna imamət də deyilir. Belə siyasətin məqsədi xalqı kamilləşdirmək, nəticəsi isə səadətə çatdırmaqdır; 2) naqis (nöqsanlı) siyasət, buna zorakılıq da deyilir. Belə siyasətin məqsədi xalqı qul halına salmaq, nəticəsi isə bədbəxtlik olar.

Tusinin görüşlərində "dövlət" anlayışı mühüm yer tutur. Lakin onun sosial-siyasi konsepsiyasında "dövlət" və "cəmiyyət" anlayışları identik anlayışlar kimi işlədilir. Bununla belə, həmin anlayışların Tusi yaradıcılığındakı təsiri mütəfəkkirin **Azərbaycan siyasi fikri tarixində ilk dövlət nəzəriyyəçisi** olduğunu söyləməyə imkan verir. Tusinin dövlətin yaranması haqqında fikirləri maraqlıdır. O, yazır: **"Dövlətlərin bünövrəsi ittifaqdır. Bunun səbəbi odur ki, hər adamın gücü təklikdə az olar. Hamısı ittifaq bağlayıb çoxaldıqca onların qüvvələri ən azı hər adamın gücü qədər artır"** *[Tusi, 1980, səh. 210]*. Bir qrup adam qələbə çalıb hakimiyyəti ələ alsa, nizam-intizam yaradıb əhali ilə xoş rəftar etsə, ədalətli olsa, etibar qazansa, onların dövləti nisbətən çox yaşaya bilər, əks halda tez dağılar. Tusi inanırdı ki, əksər dövlətlər xeyirxah, iradəli, ədalətli hökmdarları olduqca, müttəfiqlik şərtləri yerinə yetirildikcə yaşamış və inkişaf etmişlər.

Tusi ilahi ədaləti ən yüksək ədalət hesab edirdi. İnsana ədalət ruhunu Allah verir. Ədalətin qüdrəti nəticəsində insan nəfsi ilahi nəfsə yaxınlaşır. İnsan bunun təsiri altında kamilləşir, müsbət fəaliyyət qüvvətlənir.

Alimin fikrincə, bəşəriyyəti ədalətsizlik təhlükəsindən yalnız "ortalıq" mövqeyi xilas edə bilər, çünki "ortalıq" birliyin mərkəzidir, çünki ədalət də həqiqətin ortasındadır. Aristotel kimi, Tusi də hesab edirdi ki, ədalətsizliyin yaranmasının başlıca səbəbi artıqlıqdır. Artıqlıq insani münasibətlərdə narazılığa, intizamsızlığa gətirib çıxarır. Tusinin ədalət ölkəsi (Fəzilət icması) insanların elə bir xüsusi birləşməsidir ki, burada ömür sürən insanların birgə səyləri yalnız xeyir işlər görməyə, mövcud olan bütün şər işləri və əməlləri aradan qaldırmağa yönəldilir *[Rüstəmov, 2000, səh. 103-104]*.

XIV əsrdə yaşamış böyük ərəb-müsəlman tarixçisi, filosofu və siyasi xadimi **Əbu Zeyd-Əbd ər-Rəhman ibn Xəlduna**[1] görə, insan birliklərinin (müasir terminlə desək, sosial birliklərin) mənəvi qüvvələri, onların qüdrətli imperiyanı qoruyub saxlamaq və fatehlik uğrunda mübarizədə birləşməyə qabil olub-olmaması və təbii mühitdən irəli gələn impuls arasında sıx əlaqə mövcuddur *[Arslan, 2009, səh. 185]*. Bu mənada böyük mütəfəkkirin *"İbrətlər kitabı, başlanğıc divanı və ərəblər, farslar və bərbərlərin günləri və onların ali hakimiyyət sahibi olan müasirləri haqqında məlumatlar"*[2] adlanan kitabını (1375) və "Müqəddimə" adlı risaləsini xüsusi qeyd etmək lazımdır. Hər iki əsərdə İbn Xəldun ərəblərin, farsların və bərbərlərin yaşadıqları ərazilərin coğrafiyası, təbii iqlimi, məskunlaşma prinsipləri, milli, sosial və mədəni fərqləri, tarixi, təbiəti və mədəniyyəti haqqında çoxsaylı məlumatlar vermiş, xalqların həyat tərzindəki fərqləri coğrafi mühitin müxtəlifliyi ilə bağlamışdır. **Məşhur coğrafiyaçı və demoqraf *V.P.Semyonov Tyan-Şanskinin* (1870-1942) ərazi məskunlaşması ilə bağlı yüzillər sonra irəli sürdüyü geocoğrafi nəzəriyyələrin bir çox elementlərini də İbn Xəldun əsaslandırmışdır.**

İbn Xəlduna görə, insanlar dünyanı məskunlaşdıraraq həmin ərazilərdə yaşayan başqa xalqlarla və insanlarla əməkdaşlıq qurur, bir-

[1] İbn Xəldun (1332-1406) Tunisdə doğulmuş, Tunis, Fas, Qranada, Becaiyə hakimlərinin sarayında müxtəlif vəzifələrdə çalışmış, sonra Misirə köçərək qazılıq etmiş, müəllimliklə məşğul olmuş, əl-Əzhar, əz-Zahiriyyə və s. mədrəsələrdə dərs demişdir. O, ilk dəfə olaraq cəmiyyəti birgə əməyə əsaslanan zəhmətkeş kollektiv hesab etmiş, hakimiyyət anlayışını cəmiyyətin təbii tələbatı ilə bağlamış, ona törəmə hadisə, tarixi kateqoriya kimi baxmışdır.

İbn Xəldun əmtəə istehsalının mövcud olduğu cəmiyyətdə əməyin ikili xarakter daşımasını göstərmişdir. O, dəyərin substansiyasını əməkdə görən ilk iqtisadçıdır. Filosofa görə, yenidə həmişə köhnənin ünsürləri mövcuddur. İbn Xəldun cəmiyyətin təbii yaranması və sadədən mürəkkəbə doğru inkişafını söyləmiş, insanı maddi aləmin təkamülünün nəticəsi hesab etmişdir. İbn Xəldun metafizikanı rədd edirdi. O, real gerçəkliyi, xarici aləmi idrak obyekti saymışdır. İbn Xəldun din ilə əlaqəni kəsməsə də, dünyanın ilk səbəbi məsələsində idealist mövqedə olsa da, tarixin, cəmiyyətin bir çox probleminin həllində materialist mövqedə durmuşdur.

[2] Əsər üç hissədən (giriş - "Müqəddimə", Müsəlman Şərqi xalqlarının tarixi, Məğrib xalqları tarixi) ibarətdir. Əsərdə ərəb qoşunlarının Azərbaycana hücumu, Azərbaycanda məskən salan ərəb tayfaları, xəlifə *Harun ər-Rəşid* (766-809) dövründə Azərbaycandan alınan vergilərin miqdarı, Sacilər, Müsafirilər, Salarilər, Rəvvadilər, Eldəgəzlər dövləti, həmçinin xarəzmlilərin, qıpçaq və monqolların basqınları və s. haqqında da məlumat verilmişdir.

gə qida və xarici istiladan qorunma vasitələrini bölüşür. O, bu prosesi daimi sayır, insanların birləşməsi və qarşılıqlı fəaliyyətini, dünyanın məskunlaşdırılması prosesini əbədi hesab edir, insanlığın inkişafının bəsitlikdən mürəkkəbliyə, sivilizasiyaya gedən yolunun məskunlaşma və əməkdaşlıqdan keçdiyini söyləyir, gələcək uğurları məhz bu yolda görürdü. **İbn Xəldunun sivilizasiyalar nəzəriyyəsi xüsusi tipli sosial birlik - qədim qohumluq münasibətləri (o, bu birləşməni Asabiy adlandırırdı) üzərində qurulsa da, müəllif digər yaxınlıq əlaqələrini də istisna etmirdi.** O, hesab edirdi ki, insanlar ən əvvəl nəsil birliyi və digər qohumluq əlaqələri üzrə münasibətlər yaradır, sonra digər insanları da cəmiyyətlərinə qataraq konkret məqsədlər uğrunda birləşirlər. İnsanların birləşməsinin əsas səbəbləri sırasında o, müdafiə olunma və yaşayış üçün birləşmənin üstün əhəmiyyətini göstərərək, birləşmələrin son məqamının vahid dövlət yaradılması ilə nəticələndiyini qeyd edirdi. Bu dövlətin tərkibi müxtəlif sosial qrupların və xalqların mövcudluğunu istisna etmirdi. İbn Xəldun dövlətin əmələ gəlməsini bir neçə mərhələyə ayırır. O, dövləti idarə edənləri də qruplara bölür, bunlar arasındakı münasibətlərin uzun tarixi proseslərini aydınlaşdırır və yeri gəldikdə ərəb və islam dövlətlərinin tarixindən misallarla əyaniləşdirir.

Avropada Böyük coğrafi kəşflər dövrü coğrafi determinizm ideyalarının inkişafında yeni mərhələ olmuşdur. Fransız alimi, maarifçi-hüquqşünas **Jan Boden**[1] (1530-1596) *"Dövlət haqqında altı kitab"* adlı əsərində (1577) coğrafi determinizm probleminə yenidən maraq

[1] Jan Boden *"Tarixin asan öyrənilməsinin metodu"*, *"Dövlət haqqında altı kitab"* adlı əsərlərində tarixi prosesin gedişini, eyni zamanda, müxtəlif coğrafi və iqlim şərtlərində dövlət institutlarının yaranmasını və qurulmasını nəzərdən keçirmişdir. Boden siyasi fikir tarixində ilk dəfə suverenliyi dövlətin ən vacib əlaməti kimi dəyərləndirmişdir. Onun iddiasına görə suverenlik və ya qanunları yaradıb həyata keçirmək hüququ, müəyyən edilmiş şəkildə dövlətə aiddir. Dövlət həm öz ölkəsi daxilində, həm də xarici ölkələrlə münasibətdə ali siyasi hakimiyyətin sahibidir. Suveren hakimiyyətin daşıyıcısından yuxarıda ancaq Allah və təbiətin qanunları vardır. Suverenlik qanunların adil olub-olmamasından deyil, onların gücündən və yaradılması imkanlarından asılıdır. Boden suverenliyin beş fərqli cəhətini ayırırdı. Bunlardan birincisi istisnasız olaraq hər bir təbəə və dövlət idarəsinə ünvanlanmış qanunların çıxarılmasıdır. İkincisi - hərb və sülh məsələlərinin həlli. Üçüncüsü - vəzifəli şəxslərin təyin olunması. Dördüncüsü - ali məhkəmə olaraq sonuncu instansiya məhkəməsinin fəaliyyəti. Beşincisi isə - əfv etməkdir. Bodenin görüşləri siyasi və hüquqi elmlərin inkişafına ciddi təsir göstərmişdir.

oyatmışdır. *O, dünyanın siyasi və dövlət quruluşunda müxtəlif fərq və dəyişiklikləri üç əsas səbəblə - Allahın hökmü, insan taleyi və təbiətin təsiri ilə izah edirdi. Təbiətin təsir qüvvəsində müəllif, ilk növbədə, coğrafi şərtlərə, bütün coğrafi amillər arasında isə daha çox iqlimə üstünlük verirdi* [*bax:* Михайлов, 1999, səh. 63].

Boden Yer kürəsini üç hissəyə bölürdü: isti-ekvatorial, soyuq-polyar və mülayim-orta. Qədim yunan mütəfəkkiri *Polibinin* yolu ilə gedərək o, əhalinin xarakterinin, ilk növbədə, yaşayış yerinin iqlim şəraitindən asılı olduğunu təsdiq etmişdir. Mütəfəkkir yazırdı ki, şimalda fiziki cəhətdən daha qüvvətli və döyüşkən, cənubda isə daha çox qabiliyyətli insanlar yaşayır. J.Bodenin fikrincə, tarixə nəzər saldıqda, görmək olar ki, ən böyük sərkərdələr şimalda yetişir, incəsənət, fəlsəfə və riyaziyyat isə cənubda yaranır.

Coğrafi determinizm ideyaları XVIII-XIX əsrlərdə geniş yayılmışdır. Bu ideyalar Fransada xüsusilə populyar idi. Fransada Bodendən sonra filosof, sosioloq, tarixçi, hüquqşünas, XVIII əsr maarifçilərinin yaşlı nəslinin görkəmli nümayəndəsi **Şarl Lui Monteskyö**[1] (1689-1755) *"Qanunların ruhu haqqında"* əsərində (1748)

[1] Monteskyö orta səviyyəli hərbiçi aristokrat ailəsində doğulmuşdur. O, Bordo və Paris universitetlərində yaxşı təhsil almış, vəkil işləmişdir. Monteskyö on iki il fasiləsiz olaraq öz doğma Bordo dairəsində "parlament"ə - yerli şura və məhkəməyə başçılıq etmişdir. Məhz bu illər onun siyasi elmlərə marağını müəyyən etmişdir. O, 1721-ci ildə bütün ətrafı üçün gözlənilməz olaraq *"İran məktubları"* əsərini yazır və tezliklə məşhurlaşır.

1726-cı ildə Monteskyö Parisə köçür və iki ildən sonra Fransa Akademiyasına seçilir. O, Avropa ölkələrinə çoxlu səyahətlər edir, müxtəlif ölkələrin dövlət hakimiyyətinin quruluşunu müşahidə edir və təhlillər aparır. Monteskyö dünyada ilk dəfə olaraq siyasi proseslərin inkişaf qanunauyğunluqları haqqında ümumiləşdirilmiş nəticələr almaq üçün müxtəlif ölkə hüquqlarının müqayisəli öyrənilməsindən şüurlu və sistematik şəkildə istifadə etməyə başlayır.

Monteskyö *"Qanunların ruhu haqqında"* məşhur əsərində siyasi sistemlərlə ölkənin mədəniyyəti, coğrafi və tarixi kontekst arasında əlaqələri təhlil edir. 1748-ci ildə yazılmış bu əsər bütün dünyada dövlət hakimiyyətinin demokratik sisteminin inkişafına böyük təsir göstərmişdir. "Qanunların ruhu haqqında" essesinin liberal və antiklerikal istiqaməti, parlaq siyasi təhlil onu tezliklə çox populyar edir və bu, katolik kilsəsini təşvişə salır. Nəticədə, 1751-ci ildə bu əsər qadağan olunur.

Monteskyö *Lokkun* ənənələrini davam etdirərək *Hobbsun*, sonralar isə *Russonun* güclü və totalitar sistemindən fərqlənən liberal-demokratik dövlət quruluşunun prinsiplərini formalaşdırmışdır. *Hobbs* İngiltərə inqilabını izləyərək cəmiyyətin vətəndaş iğtişaşlarından xilas edilməsi problemini həll etməyə çalışırdı, Monteskyö isə Avropada mütləq

dövlətlərin qanunverici quruluşundakı fərqlərin əsas səbəbini coğrafi amillə - iqlimlə əlaqələndirmişdir. ***Ümumiyyətlə, Avropa geosiyasətində ilk dəfə məhz Monteskyö dövlətin quruluşunu, idarəçilik formasını təbii-coğrafi mühitlə bağlamış və iqlim şəraitinin dövlət və cəmiyyət həyatına təsiri məsələlərini şərh etmişdir*** *[bax: Montesquieu, 1950-1955, cild 1, səh. 91]*. O, iddia edirdi ki, soyuq iqlimdə yaşayan insanlar mülayim iqlimdəkilərdən daha əxlaqlı olur, çünki mülayim iqlimdə yaşayanlar iqlimin müəyyən xüsusiyyətlərini əxz edərək daha dəyişkən olur. Monteskyönün fikrincə, isti iqlim insanların xarakterini daha çox zəiflətdiyindən, isti ərazilərdə köləliyin (quldarlığın) inkişafına yol açmışdır. İstilik cəsarətin zəifləməsinə, insanların qorxaqlığına səbəb olur və onlar hökmdarların istabdadına və zülmünə qarşı çıxış edə bilmir, kölə vəziyyətləri ilə razılaşırlar. Soyuq iqlimli ölkələrdə isə əksinə, insanlar cəsarətini qoruyurlar və belə iqlimli ölkələrdə daha çox respublikalar qurulur. Avropanın mülayim iqlimi monarxiyaların yaranmasına səbəbdir. Mütəfəkkir qanunların üç növünü ayırırdı: *millətlər qanunu* (beynəlxalq işlərə aid olan), *siyasi qanun* (hökumət və vətəndaşların münasibətlərini tənzimləyən) və *vətəndaş qanunu* (vətəndaşlar arasında münasibətləri tənzimləyir). Hakimiyyət bölgüsü nəzəriyyəsi Monteskyönün daha bir uğurudur. Bu nəzəriyyə, hələ *Aristotel* və *Siseronun* araşdırdıqları "qarışıq idarəçilik" ideyasından irəli gəlir. Monteskyö İngiltərə idarəçilik formasını ideallaşdırırdı. O, hesab edirdi ki, burada icra hakimiyyətində monarxiyanın,

monarxiyaları müşahidə edərək kral hakimiyyətinin vətəndaşa qarşı özbaşınalığını məhdudlaşdırmaq üçün səmərəli vasitələr axtarırdı. Bu məqsədlə Monteskyö hüquqi dövlət və hakimiyyətin bölünməsi konsepsiyasını irəli sürür.

Monteskyö yazırdı ki, hüquqi dövlətdə hamı qanun qarşısında bərabər olmalı və qanuna ciddi şəkildə riayət edilməlidir: "Azadlıq qanunun imkan verdiyi hər şeyi etmək hüququdur". Hakimiyyət tərəfindən özbaşınalığın qarşısını almaq üçün dövlət hakimiyyəti bir əldə cəmləşdirilməməlidir; hakimiyyət dövlətin qanunverici, icraedici və məhkəmə orqanları arasında bölünməlidir və qoy onlardan hər biri digərinə nəzarət etsin və yanlış addımlardan saxlasın.

Monteskyönün konsepsiyası dövlət hüququ nəzəriyyəsinə böyük təsir göstərdi. O, Böyük Britaniyada konstitusiyalı inkişafa təsir etdi, onun ideyaları ABŞ Konstitusiyasında öz parlaq əksini tapdı və daha sonralar müasir dünyanın, demək olar ki, bütün demokratik dövlətlərinin əsas qanunlarında öz yerini tutdu.

ali məhkəmə olaraq Lordlar palatasında aristokratların və icma palatalarının qanunvericilik hakimiyyətində demokratiyanın yaxşı cəhətləri uyğunlaşmışdır. Monteskyö hakimiyyət bölgüsü doktrinasının əsas müddəalarını ifadə etmişdir. Buna əsasən, hakimiyyətin hər qolu müəyyən funksiyaların yerinə yetirilməsinə görə cavabdehdir: qanunverici hakimiyyət bütün vətəndaşlar üçün mütləq olan qanunları qəbul edir, icra hakimiyyəti qanunların praktik olaraq həyata keçirilməsinə məsuldur, məhkəmə hakimiyyəti vətəndaşların təhlükəsizliyini təmin edir və insanlar arasında mübahisələri həll edir. Xalq hakimiyyəti tərəfdarı olan Monteskyö zənn edirdi ki, xalq özü təşkilatın mürəkkəbliyinə görə hakimiyyət üzərində davamlı nəzarəti həyata keçirmək iqtidarında deyil. Buna görə də, müxtəlif hakimiyyət qollarının bir-birini qarşılıqlı məhdudlaşdırması üçün hakimiyyət bölgüsü səmərəli olacaqdır.

Monteskyönün ardınca, fransız maarifçiliyinin digər tanınmış nümayəndəsi **Jan-Jak Russo**[1] (1712-1778) da Yer kürəsinin bu və

[1] Jan-Jak Russonun əsərləri Avropanın ictimai şüuruna böyük təsir göstərmişdir. Əgər *Con Lokk* Amerika inqilabının ilhamvericisi sayılırsa, Russonu haqlı olaraq Böyük Fransa inqilabının (1789) və hətta Rusiya bolşevik inqilabının (1917) intellektual atası hesab etmək olar.

Russo Cenevrədə saatsaz ailəsində doğulub və anasının vəfatından sonra atası onu tərbiyə etmişdir. O, sistemli şəkildə təhsil almamış, lakin özü klassik və müasir fəlsəfə ilə ciddi məşğul olmuşdur. Oymaçı emalatxanasında işə düzələn Russo 1728-ci ildə Cenevrəni tərk edir və madam Varensin yanında məskunlaşaraq onunla dostluq edir; onun köməyi ilə şəxsi qaydada öz təhsili ilə ciddi məşğul olmaq imkanı qazanır. 1742-ci ildə Russo Parisə - o vaxtkı dünyanın intellektual mərkəzinə köçür. O burada *Dalamber* və digər fransız ensiklopediyaçı filosofları ilə tanış olur. 1750-ci ildə Russonun *"İncəsənət və elm haqqında düşüncələr"* essesi Dijon şəhəri akademiyasının keçirdiyi müsabiqədə qalib gəlir. Onun sonrakı əsərləri, xüsusilə də *"İctimai müqavilə haqqında"* şah əsəri müəllifinə ümumavropa şöhrəti gətirir, eyni zamanda, həm Fransa, həm də İsveçrə hakimiyyətlərinin qəzəbinə səbəb olur. Russonun əsərləri yasaqlanır, o, Parisi tərk etməli olur və buraya bir də 1770-ci ildə qayıda bilir.

Russo ictimai müqavilə (contrat social) nəzəriyyəsini parlaq şəkildə populyarlaşdırmış və eyni zamanda, ona bir sıra xüsusi cizgilər əlavə etmişdir. Russo bütün insanların bərabərliyini tanımayan və insanı anadangəlmə xudbin və qüsurlu varlıq hesab edən *Aristotel* və *Hobbsu* kəskin tənqid edirdi. Russo bildirirdi ki, *"insan azad doğulur, lakin hər yerdə zəncirlənmişdir"*. Bu vəziyyətin səbəbi ədalətsiz ictimai quruluşda, konkret olaraq isə feodal qaydalarında və insanları bir-birinə düşmən etmiş xüsusi mülkiyyətdədir. Cəmiyyətdə mövcud ziddiyyətləri aradan qaldırmaq üçün insanlar arasında tarixəqədərki harmonik münasibətlərə qayıtmaq lazımdır.

ya digər məkanında idarəetmə formasının təşəkkülündə coğrafi determinizm qanununun müəyyənləşdirici rolu mövqelərindən çıxış edirdi. Russo göstərirdi ki, ***idarəetmə baxımından xalqın prioritetlərinin təşəkkülündə iqlimin çox böyük əhəmiyyəti var, bu isə istehlak dəyərləri ilə bağlıdır.*** Əkinçilik üçün əlverişli olan isti iqlim şəraitində əmək məsrəfi sıfıra bərabərdir, çünki əkin-biçin üçün az səylər və üsullar tətbiq edilir ki, bu da müstəbidliyə (despotizmə) meyilli təfəkkür tərzinin formalaşmasına təsir göstərir. Russo vurğulayır ki, *"iqlim xüsusiyyətləri ilə əlaqədar müstəbidlik isti, barbarlıq soyuq ölkələr üçün, ən yaxşı idarəetmə isə onların arasında yer tutan vilayətlər üçün yararlıdır" [bax: Rousseau, 1885-1905, cild 3, səh. 82].*

Russonun fikrincə, iqlim fərdlərin sosial fəaliyyətə münasibətini formalaşdırır. Onların yeməyə, dəbdəbəyə, paltara, davranış tərzinə münasibəti məskunlaşdıqları iqlim zolağının xüsusiyyətləri ilə bağlıdır. İsti ölkələrdə insanlar az yeyirlər, halbuki elə həmin ölkələrdə iqlim tez-tez dəyişmədiyinə görə, bu mötədillik geyimdə hiss edilmir. Avropalılar çoxyeyən olsalar da, geyimdə daha mötədildirlər, çünki burada iqlim dəyişkəndir.

Fransız geosiyasət məktəbində Monteskyödən və Russodan başqa ***Jan Batist Düpon*** (1670-1742), ***Ten İppolit*** (1828-1893),

Russo hesab edirdi ki, insanlar öz mülkiyyət və azadlıqlarını müdafiə etmək üçün ictimai müqavilə bağlayırlar. İctimai müqavilənin bağlanması nəticəsində vahid ictimai və mənəvi orqanizm - Dövlət meydana gəlir. Russoya görə, Suveren - xalqdır, onun iradəsi mütləqdir və dəyişikliyə məruz qala bilməz. Russo insanın fərdi təbiətindən başlayaraq sonda ictimai, kollektiv başlanğıcın insan hüquqlarından üstünlüyü ideyasına gəlib çıxır. Beləliklə, Russonun nəzəriyyəsi bəşəriyyətin tarixində ən totalitar doktrinalardan birini təmsil edir.

Russonun mütləq ümumi iradə haqqında tezisi sonralar *Hegel, Marks* və *Leninin* siyasi doktrinalarına ciddi təsir göstərmişdir. Russo bildirir ki, cəmiyyətin bütün üzvlərinin razılığı ilə yaradılan və ümumi iradəni ifadə edən ali hakimiyyət insanların maraqlarına zidd ola bilməz, ona görə də hakimiyyətə cəmiyyət tərəfindən nəzarət edilməsindən heç söhbət də gedə bilməz. Russonun ümumi iradə haqqında nəzəriyyəsi Fransa və Rusiya inqilablarının birpartiyalı diktaturası və qanlı terrorunun ideoloji əsasına çevrildi. Russo yazırdı ki, *"əgər kimsə ümumi iradəyə tabe olmaqdan imtina edərsə, bütün orqanizm tərəfindən o buna məcbur ediləcəkdir; bu, yalnız o deməkdir ki, onu zorla azad edəcəklər"*. Bunu kommunist və faşist ölkələrinin rəhbərləri artıq nümayiş etdirmişlər. Bu halı *Corc Oruell* öz antiutopik romanında ("1984") belə müəyyən etmişdir: *"Azadlıq köləlikdir"*.

Edmon Demolen (1852-1907) və ***Elize Reklü*** (1830-1905) da yerli şəraitin, iqlim və təbii mühitin insanların, xalqların və ictimai tiplərin formalaşmasına təsirini öyrənmiş, ölkənin iqlim şəraitinin xalqların mədəni inkişafında əsas amil olduğunu qəbul etmişlər.

İngiltərədə də bu ideyaların tərəfdarları olmuşdur. Məsələn, tarixçi ***Henri Tomas Bokl*** (1821-1862) bu qəbildən idi. Lakin Almaniyada bu ideyalar daha geniş yayılmışdır. Filosoflar ***İmmanuil Kant*** (1724-1804), ***İohann Qotfrid Herder*** (1744-1803), ***Georq Vilhelm Fridrix Hegel*** (1770-1831), coğrafiyaçı və təbiətşünas ***Aleksandr fon Humboldt*** (1769-1859) belə hesab edirdilər ki, dünyanın tam mənzərəsini yaradan coğrafiya, xüsusən ölkənin iqlim şəraiti, torpaq, coğrafi mövqe sivilizasiyanın inkişafına daha güclü təsir göstərir. Alman coğrafiyaşünası ***Karl Ritter*** (1779-1859) bildirirdi ki, **"insanın mövcudluğu bütünlüklə torpaqla bağlıdır. Kökündən çıxarılması mümkün olmayan minlərlə tellər onu torpaqla bağlayır"** *[bax: Гейден, 1960, səh. 33]*. Ritterin fikrinco, hər bir insan, xalq doğma təbiətinin, yaşadığı ərazinin övladıdır və onu əhatə edən təbii landşaft həmin insanın fiziki görünüşündə, xarakterində, milli və sosial davranışında, mədəniyyət və dilində, şüurunda mütləq şəkildə öz əksini tapır.

Alman alimi *Fridrix Ratsel* və isveçli *Rudolf Çellen* bu amilləri daha ətraflı və dərindən tədqiq etmişlər.

Klassik rus geosiyasətində "coğrafi determinizm" konsepsiyasının əsas tədqiqatçısı və mənbəşünası siyasi coğrafiya sahəsində tanınmış alim ***Lev İliç Meçnikov*** (1838-1888) olmuşdur. 1889-cu ildə onun ölümündən sonra dərc olunmuş *"Sivilizasiya və böyük çaylar. Müasir cəmiyyətlərin yaranmasının coğrafi mənzərəsi"* adlı əsəri rus geosiyasətində ilk dəfə olaraq, təbii-coğrafi amillərin insan həyatına və dövlətin inkişafına təsiri məsələlərinə həsr olunmuşdur.

Rus geosiyasət məktəbində coğrafi determinizm ideyaları *S.M.Solovyovun, B.N.Çiçerinin, A.P. Sapovun* və b. əsərlərində də geniş şərh olunmuşdur.

Tədqiqatçıların bir çoxunun fikrincə, geosiyasətin ikinci mənbəyi **hərbi-strateji nəzəriyyələr** olmuşdur. ***Sun-tszı***[1] (e.ə. VI-V əsrlər), ***N. Makiavelli*** (1469-1527), ***K. fon Klauzevits*** (1780-1831), ***H.İ. Moltke*** (1848-1916), ***D.A. Milyutin*** (1816-1912), ***V.M. Qolovin, Y.N. Kvaşnin-Samarin*** və başqaları bu nəzəriyyələrin tanınmış müəllifləri hesab edilir. Lakin bu nəzəriyyələrin işlənib hazırlanmasına və dərinləşdirilməsinə amerikalı hərbi dəniz nəzəriyyəçisi və tarixçi ***Alfred Mehen*** (1840-1914) daha güclü təsir göstərmişdir. 1890-cı ildə bu alim-admiralın "Dəniz qüdrətinin tarixə təsiri" adlı fundamental əsəri çapdan çıxmışdır. Bu kitabın məzmunu haqqında 2-ci fəsildə ətraflı məlumat veriləcəkdir. Burada isə yalnız onu qeyd edək ki, Mehen həm də "Asiya problemi və onun beynəlxalq siyasətə təsiri" adlı kitabın (1900) və hərbi-siyasi mövzulara həsr edilmiş çoxsaylı məqalələrin müəllifidir. *"Sahilboyu millətləri"* terminini elmi dövriyyəyə gətirən bu müəllif olmuşdur. Admiral yazırdı: *"Dünyada siyasət əsasən zamanın insanlara bəxş etdiyi enerji və ruh yüksəkliyindən asılı olaraq, ölkələri idarə edən rəhbərlərin xarakteri və təşəbbüsü ilə dəyişir: lakin sahilboyu millətlərin tarixi daha çox hökumətlərin bacarığı və səriştəsi ilə deyil, yerləşmə şərtləri, sahil xəttinin əlverişliliyi və uzunluğu, xalqın sayı və xarakteri, bir sözlə, təbii amillərlə müəyyən olunur" [Мэхен, 1941, стр. 23].*

A.Mehen dünya məkanında 30-cu və 40-cı paralellər arasındakı ərazini *"münaqişə zonası"* kimi xüsusi fərqləndirmişdir. Onun fikrincə, bu ərazidə okean sahillərinə nəzarət edən dövlətlərlə (ABŞ və İngiltərə nəzərdə tutulur), Avrasiya qitəsinin mərkəzində yerləşən ölkələrin (Rusiya, Almaniya və s.) maraqları siyasətçilərin istəyindən asılı olmayaraq daimi və məcburi toqquşma tələb edir. Mehenə görə, **"dəniz imperiyaları"nın maraqları və mövcudluğu üçün qitə dövlətləri daim Avrasiyanın daha dərinliyinə sıxışdırılmalıdır; dəniz imperiyası sahilboyu əraziləri zəbt etməli,** ***"sahilboyu millətləri nəzarət altında saxlamalıdır. Bunun üçün də düşməni hərbi dəniz bazalarının həlqəsi ilə dövrəyə almalıdır".***

[1] *Sun-tszı, Sunu* (e.ə. VI-V əsrlər) - Qədim Çin sərkərdəsi və hərbi nəzəriyyəçisi. E.ə. 514-496-cı illərdə padşahlığın sərkərdəsi olmuş, Çu, Si və Szin padşahlıqlarına qarşı yürüşlərə uğurla başçılıq etmişdi. Hərb sənətinə dair traktatın (müharibə ilə siyasətin əlaqəsi, qələbənin amilləri, strategiya və taktika haqqında) müəllifidir.

Hərbi-strateji nəzəriyyə tərəfdarlarının fikrincə, dövlət öz maraqlarını və təhlükəsizliyini hərbi güc tətbiq etməklə, yaxud məcbur etmə yolu ilə təmin edə bilər. Onlara görə, hər bir dövlətin daxili idarəçiliyinin və dövlətlərarası münasibətlərinin müəyyən normaları olmalı və bunlar dövlətin gücü ilə qorunmalıdır. Bu normaların qorunmasının təminatı da müharibə təhlükəsi olmalıdır *[Колосов, Мироненко, 2005, стр. 34-35].*

Hərbi-strateji nəzəriyyələr geosiyasətin metodologiyasına potensial düşmənin xeyli ərazisini nəzarətdə saxlamağa imkan verən mühüm məntəqələr və zonalar ideyasını daxil etmişdir. Kosmik texnologiyalar dövründə bu yanaşmalar keyfiyyətcə yeni məna kəsb edir.

Tarixi prosesə **sivilizasiya yanaşması nəzəriyyəsi**nin banisi rus alimi - bioloq, tarixçi, sosioloq, "Rusiya və Avropa" kitabının müəllifi ***Nikolay Yakovleviç Danilevski*** (1822-1885) hesab edilir. Onun fikrincə, tarix səhnəsində əsas iştirakçı-subyektlər dövlətlər və ya ayrı-ayrı millətlər deyil, nəhəng mədəni-dini birliklərdir. Alim həmin birlikləri *"mədəni-tarixi tiplər"* adlandırırdı. N.Y. Danilevskinin həmin kitabı 1868-ci ildə çapdan çıxmış və bu birliklər "sivilizasiyalar" adlanmağa başlamışdır.

Danilevski insanlığın yaranışından başlayaraq - XIX əsrə qədər planetdə mövcud olan bütün sivilizasiyaların (tarixi tiplərin) təsnifatını vermiş, ***onları artıq sıradan çıxmış iki sivilizasiya da (Peru və Meksika sivilizasiyası nəzərdə tutulur - N.M.) daxil olmaqla on üç tipə ayırmışdır. Bunların sırasına misir, çin, semit (assur-babil-finikiya), hind, iran, yəhudi, yunan, roma, ərəb (yeni semit), avropa (german-roman), slavyan tipi daxil idi. (Maraqlıdır ki, Danilevski bu təsnifatda türk sivilizasiyasına yer vermir).*** Danilevskinin fikrincə, bu tiplərin hər biri mədəni səviyyəsinə uyğun cəmiyyət və ictimai sistem yaratmış və onlar arasındakı siyasi, mədəni, psixoloji inkişaf fərqi daim qalacaqdır *[Данилевский, 2006, стр. 710-711].*

Danilevski sivilizasiyaların fərqləndirici meyarını göstərməklə yanaşı, həm də onların inkişafının beş əsas qanununu təqdim etmişdir. Bu qanunlara o, ***vahid dil birliyini, siyasi müstəqilliyi, qarşılıqlı təsiri, müxtəlif etnik köklərin birləşməsini və tədrici inkişaf mərhələsini aid edirdi.***

Danilevskinin "mədəni-tarixi tip" nəzəriyyəsi universal Avropa tarix konsepsiyalarına zidd idi. Məsələ burasındadır ki, Danilevskiyə qədər Avropa tarixində Rusiyanın özünün və Avrasiyadakı müstəmləkələrinin, qonşularının tarixinə, genezisinə, mədəniyyətinə ayrıca yer ayrılmırdı və bütöv Avrasiya regionunun tarixi "Şərq xalqları" adı ilə Avropa tarixinə əlavə kimi öyrənilirdi.

Rusiyalı tədqiqatçılar arasında ilk dəfə N.Y. Danilevski Rusiyanın Avropadan təcrid olunması tezisini ifadə etmiş və elmi cəhətdən əsaslandırmağa çalışmışdır. Onun fikrincə, bu yabançılığın səbəbi dünyada iki qüvvənin prinsipial sivilizasiya fərqindən ibarətdir: *"Avropa bizi özününkü hesab etmir. Avropalılar Rusiyanı və slavyanları nəinki yabançı, hətta düşmən element hesab edirlər" [Данилевский, 1991, стр. 50-51].*

O, Rusiyanın xarici siyasətini slavyan mədəni-tarixi tipinin inkişafı və möhkəmlənməsi ilə əlaqədar obyektiv vəzifələrə uyğunlaşdırmağın ən mühüm tələbini ifadə etmişdir. Bir sivilizasiyanın təsir zonası prinsipi xeyli sonradan *"Böyük məkan"* adı almışdır.

XIX əsrin sonu - XX əsrin əvvəlində N.Y. Danilevskinin konsepsiyası rus filosofu ***K.N. Leontyevin*** (1831-1891), alman filosofu ***O. Şpenglerin*** (1880-1936), avrasiyaçı rus alimi ***P.N. Savitskinin*** (1895-1968), onun şagirdi ***L.N. Qumilyovun*** (1912-1992) əsərlərində daha da inkişaf etdirilmişdir. Bu konsepsiyanı hərtərəfli araşdırıb inkişaf etdirən isə məşhur ingilis alimi, tarixçi və sosioloq ***Arnold Cozef Toynbi*** (1889-1975) olmuşdur. O, "Tarixin dərk edilməsi" ("A Study of history") adlı çoxcildli əsərində *"çağırış və cavab"* adlandırdığı nəzəriyyəsində sivilizasiyaların geniş təsnifatını vermiş və onun mənbələrinin, xalqların mədəni inkişafının özünəməxsus konsepsiyasını təklif etmişdir.

Sivilizasiyalar nəzəriyyəsi XX əsrin sonunda da geosiyasətçi alimlərin diqqətini cəlb edir. Məsələn, Harvard Universitetinin professoru ***Samuel Hantinqtonun*** (1927-2008) "Sivilizasiyaların toqquşması?" kitabı (1993) çoxsaylı mübahisələrə səbəb olmuşdur. Müəllif bildirir ki, **XXI əsrdə münaqişələrin əsas mənbəyi iqtisadiyyat və ya ideologiya deyil, sivilizasiya fərqləri olacaqdır.** Onun fikrincə, ***"münaqişələrin toqquşması dünya siyasətinin dominant amilinə çevriləcəkdir. Sivilizasiyalar arasında ayırıcı xətlər gələcək cəbhə xətləridir"*** *[Хантингтон, 1994, стр. 33-35].*

Sivilizasiya nəzəriyyəsini işləyib hazırlayan alimlərin çoxunun fikrincə, sivilizasiyaların coğrafi sərhədləri böyük dövlətlərin təbii təsirinin hüdudlarını, onların həyati maraq sahələrini və hərbi-siyasi nəzarət məsələlərini müəyyənləşdirir. Geosiyasətə bu metodoloji yanaşmada həmin elmi coğrafiya zonasından uzaqlaşdırmaq, onu universal fənnə çevirmək cəhdləri nəzərə çarpır.

1.2.1. Geosiyasətdə realist və idealist ənənə

Geosiyasi fikir tarixində iki əsas ənənə mövcuddur - **realizm** və **idealizm.** Birinci daha güclü mövqeyə malikdir. Realizm dövlət idarəçiliyində və dövlətlərarası münasibətlərdə klassik tədqiqatlara əsaslanır *[bax: Brayar, Cəlili, 2010, səh. 10].* XVI əsrdə ***N.Makiavellinin*** və XIX əsrdə ***K.Klauzevitsin*** əsərləri bu təmayülün əsasını təşkil edən tədqiqatlar içərisində daha məşhurdur. Hər ikisi dövlətin təhlükəli vəziyyətdən güc mövqeyi vasitəsilə çıxması ideyasını inkişaf etdirir. Onların fikrinə görə, *müharibə təhlükəsi - beynəlxalq münasibətlər üçün realist zəmanətin əsasıdır.* İdealistlər məhz buna görə realistləri əxlaqsızlıqda ittiham edirlər. İdealistlər isə beynəlxalq münasibətləri möhkəm "konstitusiyalı bünövrə" üzərinə qoymağa çalışırlar.

Əvvəlcə **realist ənənənin ideya və müddəalarını** nəzərdən keçirək. Geosiyasətçilərin əksəriyyəti realizm mövqeyində dayanır. Onlar *pozitiv geosiyasəti* yaratmışlar. XIX əsrin əvvəlində realistlər beynəlxalq münasibətlər qanunlarını, dünya tarixinin əhatəli geosiyasi izahını Yer kürəsi çərçivəsindəki tamlıq kimi formullaşdırmağa çalışırdılar.

Belə ki, alman coğrafiyaçısı *F.Ratsel* XIX əsrin axırlarında dövlətin siyasi inkişafının ümumi qanunlarının axtarışı problemini ortaya qoydu. *"Nəzərə çarpdırılan pozitivizm həmişə coğrafi fərqlərin güclü təsirini hiss edən bu baxışın təkrarlanan model və proseslərin meydana çıxmasından sonra əldə ediləcəyinə inamı artırırdı" [bax: Паркер, 1993, səh. 25].* Pozitivizmin əsasında beynəlxalq münasibətlərdə başlıca nəzəri istiqamətlərdən biri kimi *"real siyasət"* yarandı.

Real siyasətçilər öz təkliflərində beynəlxalq səhnədə dövlətlər arasında resursların mövcudluğu, kommunikasiyalara nəzarət və s. maraqlar uğrunda mübarizənin qaçılmazlığı tezisinə əsaslanırlar.

Qanunverici, icra və məhkəmə hakimiyyəti sistemləri formasında qabaqlayıcı vasitələrə malik olan dövlətdaxili münaqişələrdən fərqli olaraq, dövlətlərarası münaqişələr bu cür məhdudiyyətlərə malik deyil, çünki məhdudiyyətlər başlanğıc vəziyyətində olur. Buna görə beynəlxalq münasibətlər çox vaxt diplomatiyadan istifadə şəraitində qalır.

Real siyasi yanaşmalar "çevik reaksiya strategiyası", "Şərq siyasəti", "dəmir pərdə" nəzəriyyəsi, "qarşılıqlı əvəzçıxma" doktrinası, "yeni sərhədlər" proqramı, "əla təcrid" siyasəti, "qorxutma", "soyuq müharibə" doktrinası kimi nəzəriyyə və anlayışlarda öz əksini tapdı.

Real siyasət sahəsində əsas müasir nəzəri tədqiqatlar 1940-1960-cı illərə aiddir. Siyasi realizmin ən məşhur nümayəndələri - *Reynhold Nibur, Frederik Şuman, Corc Kennan, Corc Şvartsenberq, Kennet Tompson, Henri Kissincer, Edvard Karr, Arnold Volfers* və başqaları bu nəzəriyyənin inkişaf yollarını uzun müddət üçün müəyyən etmişlər. Bu istiqamətin mübahisəsiz liderləri isə *Hans Morqentau* və *Reymon Aron* idi.

ABŞ nəzəriyyəçisi **Hans Morqentau**nun (Hans Joachim Morgenthau, 1904-1980) ***"Millətlər arasında siyasət. Nüfuz və sülh uğrunda mübarizə"*** adlı əsərinin ilk nəşri 1948-ci ildə işıq üzü görmüşdür. Bu əsər ABŞ-da və digər Qərb ölkələrində siyasətşünas tələbələrin bir neçə nəsli üçün bir növ "Bibliya"ya çevrilmişdi. H.Morqentauya görə, beynəlxalq münasibətlər dövlətlərin kəskin mübarizə səhnəsidir. Onların bütün beynəlxalq fəaliyyətinin əsası-

nı öz hakimiyyətini və ya gücünü (Power) artırmaq və başqalarının hakimiyyətini azaltmaq cəhdi təşkil edir. *Bu halda "hakimiyyət" termini ən geniş mənada: dövlətin hərbi və iqtisadi qüdrəti, onun təhlükəsizliyinə və tərəqqisinə, şöhrətinə və nüfuzuna, onun ideoloji məqsədlərinin və mənəvi dəyərlərinin yayılması üçün imkan yaradılmasına zəmanət kimi başa düşülür.* Dövlətin öz hakimiyyətini təmin etməsinin iki əsas yolu və eyni zamanda, onun xarici siyasətinin bir-birini qarşılıqlı tamamlayan iki aspekti var: ***hərbi strategiya və diplomatiya.*** Bunlardan birincisi Klauzevits ruhunda - siyasətin zorakılıq vasitələri ilə davam etdirilməsi kimi şərh edilir. Diplomatiya isə əksinə, hakimiyyət uğrunda dinc mübarizədir. H.Morqentau belə hesab edir ki, müasir dövrdə dövlətlər özlərinin hakimiyyətə tələbatını "milli maraqlar" termini ilə ifadə edirlər. Hər bir dövlətin öz milli maraqlarını təmin etmək cəhdinin nəticəsi dünya səhnəsində hakimiyyətin (gücün) müəyyən tarazlığı (balansı) şəklində ifadə olunur. Bu, sülhü təmin etməyin yeganə realist üsuludur. Əslində, ***sülh elə dövlətlər arasında qüvvələr tarazlığı vəziyyəti deməkdir.***

Morqentauya görə, dövlətin hakimiyyətə can atmasını müəyyən çərçivələr daxilində saxlamağa qadir olan iki amil var: ***beynəlxalq hüquq və əxlaq.*** Lakin dövlətlər arasında sülhün təmin edilməsində bu amillərə həddən artıq etibar etmək idealizm məktəbinin bağışlanılmaz illüziyalarının təsirinə düşməyə bərabər olardı. Müharibə və sülh probleminin kollektiv təhlükəsizlik mexanizmlərinin köməyi ilə və ya BMT vasitəsilə həll edilməsində heç bir şans yoxdur. Dünya birliyinin və ya dünya dövlətinin yaradılması yolu ilə milli maraqların harmonikləşdirilməsi layihələri də utopiyadır. Dünyada nüvə müharibəsindən yaxa qurtarmağa ümid bəsləməyə imkan verən yeganə yol - diplomatiyanın yeniləşdirilməsidir.

H.Morqentau öz konsepsiyasında **siyasi realizmin altı prinsipi**ndən çıxış edir. Müəllif bu prinsipləri öz kitabının lap əvvəlində əsaslandırır *[Morgenthau, 1955, p. 4-12].* Onları qısa şəkildə aşağıdakı kimi şərh etmək olar.

1) **Bütövlükdə cəmiyyət kimi, siyasət də obyektiv qanunlarla idarə edilir.** Bu qanunların kökləri insanın əbədi və əzəli təbiətindədir. Buna görə də həmin qanunları nisbi və qismən də olsa əks etdirə biləcək rasional nəzəriyyə yaratmaq mümkündür. Bu cür nəzəriyyə beynəlxalq siyasətdə obyektiv həqiqəti onun barəsində subyektiv mühakimələrdən fərqləndirməyə imkan verir.

2) **Siyasi realizmin əsas göstəricisi "hakimiyyət termini ilə ifadə edilmiş maraq anlayışıdır".** Bu anlayış beynəlxalq siyasəti başa düşməyə çalışan zəka ilə dərk edilməli faktlar arasında əlaqə yaradılmasını təmin edir. O, siyasəti insanın həyat fəaliyyətinin etik, estetik, iqtisadi və ya dini sahələrinə aid edilə bilməyən müstəqil bir sahə kimi başa düşməyə imkan verir. Sözügedən anlayış iki xətadan yaxa qurtarmağa imkan verir. Əvvələn, siyasi xadimin maraqları barədə onun davranışı əsasında deyil, onun motivləri əsasında mühakimə yürüdülməli və ikincisi, siyasi xadimin maraqları onun "rəsmi vəzifələrindən" deyil, ideoloji və ya mənəvi baxımdan üstünlük verdiyi dəyərlərdən hasil edilməlidir.

Siyasi realizm təkcə nəzəri elementdən deyil, həm də normativ elementdən ibarətdir: o, rasional siyasətin zəruri olmasını israr edir. Rasional siyasət düzgün siyasətdir, çünki o, riskləri minimallaşdırır və səmərələri maksimallaşdırır. Eyni zamanda, siyasətin rasionallığı həm də onun mənəvi və praktiki məqsədlərindən asılıdır.

3) **"Hakimiyyət termini ilə ifadə edilmiş maraq" anlayışının məzmunu heç də sabit deyildir.** O, dövlətin beynəlxalq siyasətinin formalaşmasının siyasi və mədəni kontekstindən asılıdır. Bu, "güc" (Power) və "siyasi tarazlıq" anlayışlarına, eləcə də beynəlxalq siyasətin əsas simasını müəyyən edən "dövlət-millət" anlayışına da aiddir.

Siyasi realizm bütün başqa nəzəri məktəblərdən, ilk növbədə, müasir dünyanın necə dəyişdirilməli olması barədə əsas məsələdə fərqlənir. Siyasi realizm əsaslandırır ki, bu cür dəyişiklik siyasi reallığın keçmişdə qüvvədə olmuş və gələcəkdə də qüvvədə olacaq obyektiv qanunları tanımaqdan imtina edən hansısa mücərrəd ideala tabe edilməsi yolu ilə deyil, yalnız bu cür qanunlardan bacarıqla istifadə edilməsi yolu ilə mümkündür.

4) **Siyasi realizm siyasi təsirin mənəvi əhəmiyyətini qəbul edir, lakin, eyni zamanda, o, mənəvi imperativ ilə uğurlu siyasi təsirin tələbləri arasında labüd ziddiyyətin mövcud olmasını da dərk edir.** Əsas mənəvi tələblər mücərrəd və universal normalar kimi dövlətin fəaliyyətinə tətbiq edilə bilməz. Onlar konkret zaman və məkan şəraitində nəzərdən keçirilməlidir. Dövlət deyə bilməz: "Bütün dünya dağılsa da ədalət zəfər çalmalıdır!". Dövlət özü-özünü məhv edə bilməz. Buna görə də beynəlxalq siyasətdə ən ali mənəvi dəyər - mötədillik və ehtiyatlılıqdır.

5) **Siyasi realizm hər hansı millətin mənəvi istəklərini universal əxlaq normaları ilə eyniləşdirməkdən imtina edir.** Millətlərin öz siyasətində əxlaq qanununa tabe olduğunu bilmək bir şeydir, beynəlxalq münasibətlərdə nəyin yaxşı və nəyin pis olduğunu bilmək iddiasına düşmək isə tamam başqa şeydir.

6) **Siyasi realizm nəzəriyyəsi insanın təbiətinin plüralist konsepsiyasından çıxış edir.** Real insan, eyni zamanda, həm "iqtisadi insan", həm "əxlaqlı insan", həm "dindar insan"dır və s. Lakin siyasi insan heyvana oxşayır, çünki onun "mənəvi əyləcləri" yoxdur. Yalnız "əxlaqlı insan" axmaqdır, çünki o, ehtiyatlılıq hissindən məhrumdur. "Dindar adam" yalnız müqəddəs adam ola bilər, çünki onun adi arzuları yoxdur.

Siyasi realizm bunları qəbul etməklə sözügedən aspektlərin nisbi muxtariyyətini müdafiə edir və göstərir ki, bu aspektlərdən hər birinin dərk edilməsi başqalarının mücərrədləşməyi ilə baş verir və öz anlayışları çərçivəsində cərəyan edir.

Siyasi realizm nəzəriyyəsinin banisi H.Morgentau tərəfindən ifadə edilmiş, yuxarıda adlarını çəkdiyimiz prinsiplərin heç də hamısı bu istiqamətin başqa tərəfdarları və xüsusən onun əleyhdarları tərəfindən qəbul edilmir. Amma, bununla belə, siyasi realizmin konseptual tamlığı, ictimai inkişafın obyektiv qanunlarına əsaslanmaq cəhdi, mücərrəd ideallardan və onlara əsaslanan səmərəsiz və təhlükəli illüziyalardan fərqlənən beynəlxalq gerçəkli-

yin qərəzsiz və ciddi təhlili - bütün bunlar siyasi realizmin istər akademik mühitdə, istərsə də müxtəlif ölkələrin dövlət xadimləri arasında təsirinin və nüfuzunun artmasına şərait yaratmışdır.

Bir məqamı vurğulamaq vacibdir ki, dünyada beynəlxalq geosiyasi münasibətlərin tədqiqinə həsr edilmiş əsərlərin əksəriyyəti bu gün də Morqentau, başqa sözlə, Amerika ənənələrinin şəksiz üstünlüyü ilə seçilir. Eyni zamanda, keçən əsrin 80-ci illərinin əvvəlindən etibarən bu sahədə **Avropa nəzəri təfəkküründ**ən, o cümlədən **fransız məktəbi**nin təsiri getdikcə daha güclü hiss olunur. Tanınmış alimlərdən biri, Sorbon Universitetinin professoru *Marsel Merl* qeyd edirdi ki, Fransada beynəlxalq münasibətləri öyrənən elmin hələ gənc olmasına baxmayaraq üç əsas istiqamət formalaşmışdır. Bu istiqamətlərdən biri *"empirik-təsviri yanaşma"* prinsipini rəhbər tutur və *Şarl Zorqbib, Serj Dreyfyüs, Filip Moro-Defarj* və başqa müəlliflərin əsərləri ilə təmsil olunmuşdur. İkinci istiqamət *marksist müddəalar*dan ilham alır. *Pyer-Fransua Qonidek, Şarl Şomon,* eləcə də onların davamçıları bu müddəalara əsaslanır. Üçüncü istiqamətin fərqləndirici cəhəti *R.Aronun* əsərlərində daha əyani şəkildə təcəssüm olunmuş *sosioloji yanaşma*dır *[Merle, 1983].*

Bu tədqiqat kontekstində müasir fransız məktəbinin beynəlxalq münasibətlərin araşdırılmasında ən əhəmiyyətli xüsusiyyətləri bizə daha maraqlı görünür. Məsələ burasındadır ki, beynəlxalq münasibətlərin nəzəri cərəyanlarından hər biri - idealizm və siyasi realizm, modernizm və transnasionalizm, marksizm və neomarksizm Fransada da mövcuddur. Eyni zamanda, onlar Fransa məktəbini daha çox məşhurlaşdırmış *tarixi-sosioloji* yönümlü əsərlərdə əks olunur. Bu əsərlər Fransada bütövlükdə, beynəlxalq münasibətlər haqqında elmə təsir göstərmişdir. Tarixi-sosioloji yanaşmanın təsiri beynəlxalq münasibətlər problemləri ilə məşğul olan tarixçilərin və hüquqşünasların, filosofların, politoloqların və coğrafiyaşünasların əsərlərində hiss olunur. Yerli mütəxəssislər qeyd edirlər ki, beynəlxalq münasibətlər üzrə fransız nəzəri məktəbi üçün səciyyəvi olan əsas metodoloji prinsiplərin formalaşmasına XIX əsrin axırları - XX əsrin əvvəllərində Fransa fəlsəfi, sosioloji və tarixi təfək-

kür təlimləri, ilk növbədə, *Ogüst Kontun*[1] (1798-1857) pozitivizmi təsir göstərmişdir. Beynəlxalq münasibətlərin fransız nəzəriyyələrinə xas olan ictimai həyatın strukturuna diqqət, müəyyən tarixilik, müqayisəli-tarixi metodun üstünlük təşkil etməsi və tədqiqatın riyazi üsullarına münasibətdə skeptisizm kimi cəhətlərin mənbəyini məhz bu təlimlərdə axtarmaq lazımdır *[Тюлин, 1988, стр. 42].*

Eyni zamanda, konkret müəlliflərin əsərlərində artıq XX əsrdə qərarlaşmış sosioloji təfəkkürün iki əsas cərəyanından asılı olaraq sözügedən cəhətlər modifikasiya edilir. Bu cərəyanlardan biri *Emil Dürkheymin*[2] (1858-1917) nəzəri irsinə əsaslanır, ikincisi isə *Maks Veber*[3] (1864-1920) tərəfindən ifadə edilmiş metodoloji prinsiplərdən çıxış edir. Bu yanaşmaların hər biri beynəlxalq münasibətlərin

[1] Fransız filosofu, pozitivizmin banilərindən biri. "Sosiologiya" terminini elmə Kont daxil etmişdir.

[2] Fransız sosioloqu və filosofu; pozitivist, *O.Kontun* davamçısı. E.Dürkheym Fransanın Almaniya ilə sərhəd vilayətində, Epinal şəhərində anadan olmuşdur. Onun atasının ravvin olmasına baxmayaraq, Dürkheym özünün dinə olan münasibətində kifayət qədər aqnostik mövqe tuturdu. O, fəlsəfəni və siyasi nəzəriyyəni Parisdə öyrənmişdi, Bordo Universitetində pedaqogikadan və sosial elmdən dərs vermişdi, sonradan isə Parisdə professor olmuşdu, öncə pedaqogika, sonra isə sosiologiya üzrə. O, həmçinin siyasətdə də iştirak etmişdir. Dürkheym *Alfred Dreyfyüsü* (1859-1935) müdafiə etmiş və Birinci Dünya müharibəsi zamanı alman militarizminin əleyhinə mübarizədə iştirak etmişdir.

Dürkheym göstərirdi ki, sosiologiya cəmiyyətin qanunlarını fərdi psixikanın qanunlarından fərqli olan xüsusi ruhi reallıq kimi öyrənməlidir. Dürkheymə görə, hər bir cəmiyyət hamı üçün əhəmiyyətli olan kollektiv təsəvvürlərlə (hüquq, əxlaq, din, hisslər, vərdişlər və s.) iş görür. Bu təsəvvürlər guya insan şüuruna ictimai mühit tərəfindən zorla qəbul etdirilir. *İctimai inkişafı Dürkheym üç amillə - əhalinin sıxlığı, rabitə yollarının inkişafı, kollektiv şüurla izah edirdi.* Hər bir cəmiyyət sosial həmrəyliklə səciyyələnir. İbtidai cəmiyyətdə həmrəylik qan qohumluğuna əsaslandığından "mexaniki" olmuşdur. Müasir aləmdə həmrəylik "üzvi" xarakter alıb əmək bölgüsünə, yəni həyat nemətləri əldə edərkən sinfi əməkdaşlığa əsaslanır. Dürkheym dini ictimai həyatın mühüm cəhəti hesab etmişdir. Onun fikrincə, cəmiyyət din vasitəsilə özünü ilahiləşdirir. Dürkheym cəmiyyətin islahatlar vasitəsilə dəyişdirilməsinin tərəfdarı olmuşdur. Əsərləri: *"İctimai əmək bölgüsü haqqında"* (1893), *"Sosiologiyanın metodu"* (1895), *"İntihar"* (1897), *"Dini həyatın elementar formaları"* (1912).

[3] Alman sosioloqu, tarixçi, iqtisadçı və hüquqşünas. Neokantçılığa və pozitivizmə yaxın olmuşdur. *"Protestan etikası və kapitalizmin ruhu", "Xristianlığın tarixi", "Təsərrüfat və cəmiyyət"* adlı məşhur əsərlərin müəllifidir. Veber sosiologiyanı tarixin yardımçı elm sahəsi adlandırmışdır. Vebərə görə sosiologiyanın vəzifəsi konkret tarixi dövrün hakim ideyalarını dərk etməkdir. Veberin siyasət sosiologiyasının mərkəzində hakimiyyət problemi durur. Veber hakimiyyəti bir şəxsin sosial münasibətlər daxilində müqavimətə və bu

fransız sosiologiyasında iki əsas xəttin *R.Aron* və *Qaston Butul* kimi iri nümayəndələri tərəfindən son dərəcə dəqiq ifadə edilir.

Reymon Aron (Raymond-Claude-Ferdinand Aron, 1905-1983) öz memuarlarında yazır: *"Dürkheymin sosiologiyası mənim daxilimdə nə metafizik (metafizik görüş tərəfdarı olan idealist - N.M.) olmaq istəyimi, nə də cəmiyyətdə yaşayan insanların faciəsini və komediyasını başa düşməyi arzu edən yazıçı Prustun*[1] *obrazını oyada bilmədi" [Aron, 1984, p. 69].* Aron bildirirdi ki, "neodürkheymizm" marksizmin əksi kimi bir şeydir: marksizm sinfi cəmiyyəti hakim ideologiyanın hər şeyə qadir olması mövqeyindən təsvir edir və mənəvi nüfuzun rolunu azaldırsa, "neodürkheymizm" mənəviyyatın insan zəkaları üzərində itirdiyi üstünlüyü bərpa etmək ümidindədir. Lakin cəmiyyətdə hakim ideologiyanın mövcud olmasının inkar edilməsi də cəmiyyətin ideolojiləşdirilməsi kimi utopiyadır. Müxtəlif siniflər eyni dəyərlərə şərik ola bilməz, çünki totalitar və liberal cəmiyyətlər eyni nəzəriyyəyə söykənə bilməz [*bax:* yenə orada, səh. 69-70]. *Veber* isə əksinə, Aronu onunla cəlb edirdi ki, sosial gerçəkliyi obyektivləşdirməklə onu "əşyalaşdırmır", insanların öz praktiki fəaliyyətinə və öz təsisatlarına verdiyi rasionallığı təkzib etmirdi. Aron *M.Veberin* yanaşmasına sadiq qalmasının üç səbəbini göstərir: sosial gerçəkliyin mənasının immanentliyi barədə *M.Veberə* xas olan fikir, siyasətə yaxınlıq və ictimai elmlər üçün səciyyəvi olan epistemologiyanın qeydinə qalmaq [*bax:* yenə orada, səh. 71]. Veberin mülahizələrində ən mühüm məqam - çoxsaylı həqiqətəoxşar interpretasiyalarla bu və ya digər sosial fe-

imkanın nəyə əsaslandığını nəzərə almadan iradəsinin gerçəkləşdirilməsinin mümkünlüyü kimi müəyyən edirdi. Əmr və itaətə əsaslanmış hakimiyyəti Veber hökmranlıq adlandırırdı. Alim hər bir hakimiyyətin özünə haqq qazandırmağa, tanınmağa və dəstəklənməyə, yəni "legitim" olmağa ehtiyacı olduğunu göstərib. *Veber legitim hakimiyyətin üç əsas növünü ayırırdı. Bunlar ənənəvi, xarizmatik və leqaldır (rasional-bürokratik).* Legitim hökmranlığın problemi Veberin elmi yaradıcılığının əsas məsələlərindən biridir. Onun metodoloji yanaşmaları siyasət elminin xarakterinə və bütün sonrakı inkişafının istiqamətinə böyük təsir göstərmişdir. *Bürokratiya nəzəriyyəsi*nin işlənib hazırlanmasında Veberin əməyi çox böyük olmuşdur.

[1] Fransız yazıçısı, fransız dilinə və dünya ədəbiyyatına *"İtirilmiş zamanın sorağında"* epopeyasını bəxş etmiş *Marsel Prust* (1871-1922) nəzərdə tutulur.

nomenin yeganə düzgün izahı arasında tərəddüd Aronun gerçəkliyə baxışı üçün də əsas olmuşdur. Bu baxışlar skeptisizm və ictimai münasibətlərin, o cümlədən beynəlxalq münasibətlərin başa düşülməsində normativizmin tənqidi ilə səciyyəvidir.

Ona görə də tamamilə məntiqəuyğun haldır ki, R.Aron beynəlxalq münasibətləri siyasi realizm ruhunda - təbii və ya vətəndaşlıqdan əvvəlki vəziyyət kimi nəzərdən keçirir. O, vurğulayır ki, sənaye sivilizasiyası və nüvə silahı dövründə işğalçılıq müharibələri həm xeyirsiz, həm də həddən artıq risklidir. Lakin bu heç də o demək deyildir ki, beynəlxalq münasibətlərin əsas xüsusiyyəti - bu münasibətlərin iştirakçılarının zor tətbiq etməsinin qanuniliyindən və qanuniləşdirilməsindən ibarət olan əsas xüsusiyyəti kökündən dəyişmişdir. **Buna görə də Aron qeyd edir ki, sülhün bərqərar olması mümkün deyil, lakin müharibə də ağlasığmazdır.** Beynəlxalq və ictimai münasibətlərin spesifikası da buradan irəli gəlir: onun əsas problemləri cəmiyyətdaxili münasibətlər üçün səciyyəvi olan sosial konsensus ilə deyil, bu münasibətlərin "müharibənin kölgəsində yayılması" ilə müəyyən olunur, çünki beynəlxalq münasibətlər üçün münaqişənin olmaması deyil, məhz onun mövcud olması normal haldır. Buna görə də izah edilməli əsas məsələ sülh vəziyyəti deyil, müharibə vəziyyətidir.

R.Aron **beynəlxalq münasibətlərin ənənəvi (sənayeləşmədən əvvəlki) sivilizasiya şəraitinə tətbiq edilə bilən əsas problemlərinin dörd qrupu**nu göstərir. *Birincisi,* "orduların istifadə etdiyi silahlar, bu silahlara müvafiq ordunun təşkili və cəmiyyətin strukturu arasında münasibətlərin aydınlaşdırılması"; *ikincisi,* "müəyyən cəmiyyətdə işğaldan hansı qrupların səmərə əldə etməsinin öyrənilməsi"; *üçüncüsü,* "hər bir dövrdə, hər bir diplomatik sistemdə müharibələri və insan birliklərinin bir-birinə münasibətdə davranışını səciyyələndirən yazılmamış qaydalar, az-çox riayət edilən dəyərlərin məcmusunun tədqiq edilməsi"; *dördüncüsü,* "silahlı münaqişələrin tarixdə yerinə yetirdiyi dərk edilməyən funksiyaların təhlili" *[Цыганков, 1992, стр. 154-155].* Aron qeyd edir ki, beynəlxalq münasibətlərin müasir problemlərinin əksəriyyəti ehtimallar, rollar

və dəyərlər terminləri ilə qüsursuz sosioloji tədqiqat predmeti ola bilməz. Lakin beynəlxalq münasibətlərin mahiyyəti müasir dövrdə də prinsipial dəyişikliklərə məruz qalmadığından, yuxarıda göstərilən problemlər bu gün də öz əhəmiyyətini saxlayır. Onlara XX əsrin ikinci yarısı üçün səciyyəvi olan beynəlxalq qarşılıqlı fəaliyyət şəraitindən irəli gələn yeni problemlər də əlavə oluna bilər. Lakin əsas məsələ ondan ibarətdir ki, beynəlxalq münasibətlərin mahiyyəti hələlik əvvəlki kimi qalacaq və bu, suverenliklərin plüralizmi ilə müəyyən ediləcək, əsas problem isə qərarlar qəbul edilməsi prosesinin öyrənilməsi olacaqdır. Bunları əsas götürən Aron pessimist nəticə çıxarır. Ona görə, beynəlxalq münasibətlərin xarakteri və vəziyyəti əsasən dövlət rəhbərlərindən, "hökmdarlardan" asılıdır. "Onlara yalnız bunu məsləhət görmək və buna ümid etmək olar ki, onlar dəlilik etməyəcəklər". Bu isə o deməkdir ki, "beynəlxalq münasibətlərə tətbiqən sosiologiya, necə deyərlər, öz hüdudlarını aşkar edir" *[bax: yenə orada, səh. 158]*.

Eyni zamanda, Aron beynəlxalq münasibətlərin öyrənilməsində sosiologiyanın yerini müəyyən etmək cəhdlərindən imtina etmir. O, **"Millətlər arasında sülh və hərb"** adlı fundamental əsərində (1962) bu məsələnin öyrənilməsinin dörd aspektini göstərir və onları həmin kitabın "Nəzəriyyə", "Sosiologiya", "Tarix" və "Prakseologiya" adlı bölmələrində təsvir edir *[Aron, 1984]*.

Kitabın birinci bölməsində təhlilin əsas qaydaları və konseptual vasitələri müəyyən edilir. Aron beynəlxalq münasibətləri idmanla müqayisə edərək göstərir ki, ***nəzəriyyənin*** iki səviyyəsi mövcuddur. Bunlardan birincisi "oyunçular hansı fəndləri tətbiq edə bilər və hansıları tətbiq edə bilməz; onlar oyun meydançasının müxtəlif xətlərində hansı qayda üzrə yerləşdirilir; öz hərəkətlərinin effektivliyini artırmaq və rəqibin səylərini puç etmək üçün hansı tədbirlər görülür" kimi suallara cavab verməyə çalışır. Bu cür suallara cavab verən qaydalar çərçivəsində çoxsaylı vəziyyətlər yarana bilər. Onlar həm təsadüfi, həm də əvvəlcədən planlaşdırılmış ola bilər. Buna görə də məşqçi hər bir yarış üçün müvafiq plan işləyib hazırlayır, oyun meydançasında yarana biləcək bu və ya digər tipik vəziyyətlərdə hər bir oyunçunun vəzifəsini və hərəkətlərini həmin plana uyğun olaraq müəyyənləşdirir. Nəzəriyyənin ikinci səviyyəsində müxtəlif iştirakçıların (məsələn, qapıçının, müdafiəçinin və s.) bu və ya digər oyun şəraitində səmərəli davranış qaydalarını təsvir edən tövsiyələr işləyib hazırlayır. Beynəlxalq münasibətlərin iştirakçılarının davranışının tipik növləri kimi strategiya və diplomatiya seçilib təhlil edilir, istənilən beynəlxalq vəziyyət üçün səciyyəvi vasitə və məqsədlərin məcmusu, eləcə də beynəlxalq münasibətlərin nümunəvi sistemləri araşdırılır.

Bu əsasda qurulan beynəlxalq münasibətlər sosiologiyasının predmeti, ilk növbədə, beynəlxalq aktorların davranışıdır. ***Sosiologiya*** belə bir suala cavab verməlidir: nəyə görə bu dövlət beynəlxalq səhnədə özünü başqa cür deyil, məhz bu cür aparır. Onun əsas vəzifəsi dövlətlərin siyasətini və beynəlxalq hadisələrin gedişini müəyyən edən maddi və fiziki, sosial və mənəvi dəyişənlərin *determinantlarını və qanunauyğunluqlarını* öyrənməkdən ibarətdir. Burada, həmçinin siyasi rejimin və (və ya) ideologiyanın beynəlxalq münasibətlərə təsirinin xarakteri məsələləri də öyrənilir. Bu məsələlərin aşkar edilməsi sosioloqa imkan verir ki, həm beynəlxalq aktorların davranışı üçün müəyyən qaydalar çıxarsın, həm də beynəlxalq münaqişələrin sosial tiplərini aşkar etsin, bəzi tipik beynəlxalq vəziyyətlərin inkişaf qanunlarını ifadə etsin. Beynəlxalq münasibətləri idmanla müqayisə etsək, deyə bilərik ki, bu mərhələdə tədqiqatçı artıq təşkilatçı və ya məşqçi rolunda çıxış etmir. İndi o, başqa məsələləri həll edir: yarışlar oyun meydançasında deyil, sinif otağında, yazı lövhəsində necə cərəyan edir? Müxtəlif ölkələrin oyunçularının istifadə etdiyi fəndlərin spesifik xüsusiyyətləri nədən ibarətdir? Latın Amerikası, ingilis və ya amerikan futbolu mövcuddurmu? Komandanın qazandığı uğurda texniki virtuozluğun nisbi payı və komandanın mənəvi keyfiyyətlərinin nisbi payı nə qədərdir?

Aron bu fikri davam etdirərək göstərir ki, ***tarixi tədqiqatlara*** müraciət etmədən bu suallara cavab vermək mümkün deyil: konkret yarışların gedişini, onların "şəklinin" dəyişməsini, müxtəlif texniki priyomları və temperamentləri izləmək lazımdır. Tədqiqat-

çı daim həm nəzəriyyəyə, həm də tarixə müraciət etməlidir. Əgər o oyunun məntiqini başa düşmürsə, oyunçuların hərəkətlərini izləmək hədərdir, çünki o, oyunun taktiki mənasını başa düşə bilməyəcək. Aron öz əsərinin tarixə həsr edilmiş bölməsində dünya sisteminin və onun altsistemlərinin xarakteristikalarını təsvir edir, nüvə əsrində qorxutma strategiyasının müxtəlif modellərini təhlil edir, bipolyar dünyanın iki qütbü arasında və bu qütblərin hər birinin çərçivəsində diplomatiyanın təkamülünü izləyir.

Nəhayət, ***prakseologiyaya*** həsr edilmiş dördüncü hissədə daha bir simvolik personaj çıxış edir. Bu, arbitrdır (münsif, hakim). Oyunun qaydalarında yazılmış müddəaları necə interpretasiya etmək lazımdır? Bu və ya digər şəraitdə qaydalar doğrudanmı pozulmuşdur? Bu halda əgər hakim oyunçuları "mühakimə edirsə", onda oyunçular və tamaşaçılar da öz növbəsində dinməzcə və ya hayküylə, lakin labüd olaraq hakimin özünü "mühakimə edir", bir komandanın oyunçuları həm öz tərəfdaşlarını, həm də rəqiblərini "mühakimə edir" və s. Bütün bu mülahizələr oyunçunun effektivliyinin qiymətləndirilməsi ("o yaxşı oynadı"), cəzanın qiymətləndirilməsi ("o qaydalara uyğun hərəkət etdi") və idman əxlaqının qiymətləndirilməsi ("bu komanda özünü oyunun ruhuna uyğun apardı") arasında dəyişir. Hətta idmanda da belə qayda yoxdur ki, qadağan edilməyən hər şeyə mənəvi cəhətdən haqq qazandırılsın. Lakin bu qayda beynəlxalq münasibətlərə aiddir. Beynəlxalq münasibətlərin də təhlili təkcə müşahidə və təsvir ilə məhdudlaşa bilməz, burada mühakimə yürüdülməsi və qiymətləndirmə tələb olunur. Hansı strategiya mənəviyyata uyğun, hansı strategiya ağlabatan və ya rasional hesab edilə bilər? Qanunun aliliyinin müəyyən edilməsi yolu ilə sülhə nail olmaq cəhdlərinin güclü və zəif cəhətləri nədən ibarətdir? İmperiya qurulması yolu ilə sülhə nail olmaq cəhdlərinin üstünlükləri və nöqsanları nədən ibarətdir?

Beləliklə, R.Aron beynəlxalq münasibətlərin spesifikasının əsas başlanğıc nöqtəsi və mühüm elementlərindən biri kimi məhz bu münasibətlərin iştirakçılarını fərqləndirir. Arona görə, ***"beynəlxalq münasibətlər - siyasi vahidlər arasında münasibətlərdir. Bu anla-***

yış Yunan şəhər-dövlətlərini, Roma və ya Misir imperiyalarını, Avropa monarxiyalarını, burjua və ya xalq demokratiyası respublikalarını əhatə edir... Beynəlxalq münasibətlərin əsas məzmunu dövlətlər arasında münasibətlərdir. Məsələn, dövlətlərarası müqavilələr, heç şübhəsiz, beynəlxalq münasibətlərin nümunəsidir" *[Aron, 1984, p. 17]*. Dövlətlərarası münasibətlər də öz növbəsində, simvolik *diplomat* və *əsgər* personajlarının spesifik davranışında ifadə olunur. R.Aron yazır: ***"İki və yalnız iki insan mənsub olduğu birliklərin sadəcə üzvləri kimi deyil, bu birliklərin nümayəndələri kimi fəaliyyət göstərir: səfir öz funksiyalarını yerinə yetirərkən təmsil etdiyi siyasi vahidin adından çıxış edir; əsgər döyüş meydanında o siyasi vahidi təmsil edir ki, onun adından özünə oxşayan əsgəri öldürür"*** *[yenə orada]*. Başqa sözlə desək, beynəlxalq münasibətlərin mahiyyətində sülh və müharibə alternativi vardır. **Beynəlxalq münasibətlərin xüsusiyyəti ondan ibarətdir ki, onlar həm sülhün, həm də müharibənin ehtimal xarakterli olmasına əsaslanır və buna görə də onların risk elementi böyükdür.**

R.Aron xarici siyasətin və beynəlxalq münasibətlərin xüsusiyyətləri barədə öz anlayışını idmanla müqayisə edir. Bununla əlaqədar o, vurğulayır ki, ***"futbol ilə müqayisədə xarici siyasət daha artıq dərəcədə qeyri-müəyyəndir. Burada iştirakçıların məqsədi qol vurmaq kimi sadə deyildir. Diplomatik oyunun qaydalarının bütün incəlikləri yazılmamışdır və hər bir oyunçu bu qaydaları pozmaqla özünə mənfəət əldə edə bilərsə, onları pozur. Burada hakim yoxdur, hətta iştirakçıların müəyyən məcmusu (Birləşmiş Millətlər Təşkilatı) hakimlik iddiasında olduqda belə, milli iştirakçılar bu kollektiv hakimin qərarlarına tabe olmurlar, onun qərəzsizlik dərəcəsi diskussiya üçün əsas verir. Əgər millətlərin rəqabəti həqiqətən idmanın müəyyən növünü xatırladırsa, əksər hallarda bu, kətç (catch) idmanının qaydasız növüdür..."*** *[bax: yenə orada, səh. 22]*. Buna görə də R.Aron belə hesab edir ki, beynəlxalq münasibətlər cəmiyyətin "vətəndaşlıqdan əvvəlki" və ya "təbii" vəziyyətidir (Bəzi baxışlara, o cümlədən ictimai müqavilə nəzəriyyəsi tərəfdarlarının nöqteyi nəzərincə cəmiyyətdən və dövlətdən əvvəl tam anarxiya,

"hamının hamıya qarşı müharibəsi" *(T.Hobbs)*, yaxud insanların "təbii vəziyyətləri" - qeyri-məhdud şəxsi azadlıq mövcud olmuşdur). Beynəlxalq münasibətlər sahəsində "suverenliklərin plüralizmi" hökm sürür, ona görə də burada məcburiyyət və zorakılıq üzərində inhisarçılıq yoxdur və beynəlxalq münasibətlərin hər bir iştirakçısı öz davranışında digər iştirakçıların çox cəhətdən proqnozlaşdırıla bilməyən davranışı ilə hesablaşmağa məcburdur *[Aron, 1963]*.

Aronun "Millətlər arasında sülh və hərb" kitabı fransız elmi məktəbinin və xüsusən beynəlxalq münasibətlər sosiologiyasının təşəkkülündə və inkişafında mühüm rol oynamışdır və oynamaqda davam edir. Təbii ki, onun baxışlarının davamçıları (*Jan-Pyer Derryenik, Rober Bosk, Jak Untsinger* və b.) nəzərə alırlar ki, Aronun söylədiyi müddəaların çoxu onun öz dövrünə aiddir. Yeri gəlmişkən, Aron özü də memuarlarında etiraf edir ki, o, öz məqsədinin yarısına nail olmamışdır. Bu özünütənqid xeyli dərəcədə məhz sosiologiyaya aid bölməyə və xüsusən qanunauyğunluqların və determinantların konkret problemlərinin təhlilinə və tətbiqinə aiddir *[Aron, 1983, p. 457-459]*. Lakin beynəlxalq münasibətlər sosiologiyasının Aron tərəfindən başa düşülməsi və onun inkişafının zəruriliyinin əsaslandırılması çox cəhətdən bu gün də öz aktuallığını saxlayır.

J.-P.Derryenik öz mövqeyini izah edərək vurğulayır ki, sosial münasibətlərin təhlilinə iki əsas yanaşma mövcud olduğuna görə sosiologiyanın da iki tipi var: *E.Dürkheymin* ənənələrini davam etdirən determinist sosiologiya və *M.Veber* tərəfindən işlənib hazırlanmış yanaşmalara əsaslanan fəaliyyət sosiologiyası. Onların arasında fərq kifayət qədər şərti xarakter daşıyır, çünki aksionalizm kauzallığı (səbəbiyyəti) inkar etmir, determinizm də "subyektivdir", belə ki, o, tədqiqatçının niyyətlərinin ifadəsidir. O, tədqiqatçının öyrəndiyi insanların mühakimələrinə şübhə ilə yanaşmasını zəruri hesab edir. Konkret olaraq bu fərq ondan ibarətdir ki, fəaliyyət sosiologiyası nəzərə alınması zəruri olan xüsusi səbəblərin mövcud olmasından çıxış edir. Bu səbəblər qərarlarla bağlıdır, yəni çoxsaylı mümkün hadisələr arasında seçim informasiyanın mövcud vəziyyətindən və xüsusi qiymətləndirmə meyarlarından asılı-

dır. Beynəlxalq münasibətlər sosiologiyası fəaliyyət sosiologiyasıdır. Bu sosiologiya onu əsas götürür ki, faktların (şeylərin, hadisələrin) ən əhəmiyyətli xüsusiyyəti onların mənalı və qiymətli olmasıdır. Mənalılıq interpretasiya qaydaları, qiymətlilik isə qiymətləndirmə meyarları ilə bağlıdır. Bunların hər ikisi informasiyadan asılıdır. Beləliklə, beynəlxalq münasibətlər sosiologiyası problemlərinin mərkəzi anlayışı "qərar" anlayışıdır. Bununla belə, o, insanların can atmalı olduğu məqsədlərdən deyil, insanların özünün can atdığı məqsədlərdən (onların qərarlarından) asılıdır.

Siyasi realizm haqqında danışarkən bir məqama diqqət yetirmək lazım gəlir. Belə ki, siyasi realizm düşüncəsi siyasətşünaslıq elmində şəriksiz hökmranlıq edən paradiqmaya çevrilməmişdir. Siyasi realizmə xas olan ciddi nöqsanlar lap əvvəldən onun vahid nəzəriyyənin sementləyici qüvvəsinə çevrilməsinə mane olmuşdur.

Məsələ burasındadır ki, beynəlxalq münasibətlərin hakimiyyətə yiyələnmək uğrunda zor tətbiq edilməsinin "təbii vəziyyəti" olan siyasi realizm mahiyyət etibarilə, bu münasibətləri dövlətlərarası münasibətlərə bərabər tutur, bu isə onların anlayışını xeyli dərəcədə kasadlaşdırır. Üstəlik, siyasi realistlərin şərhində dövlətin daxili və xarici siyasəti sanki bir-biri ilə əlaqəli deyil, dövlətlər özləri isə xarici təsirlərə identik reaksiya verən, qarşılıqlı əvəzlənə bilən mexaniki cismlərə bənzəyir. Fərq yalnız bundadır ki, bəzi dövlətlər güclü, başqaları zəifdir. Heç də təsadüfi deyildir ki, siyasi realizmin nüfuzlu tərəfdarlarından biri olan *A.Uolfers* beynəlxalq münasibətlərin mənzərəsini qurarkən dövlətlərin dünya səhnəsində qarşılıqlı təsirini bilyard masası üzərində şarların toqquşması ilə müqayisə etmişdir *[Wolfers, 1962]*. Gücün rolunun mütləqləşdirilməsi və məsələn, mənəvi dəyərlər, sosiomədəni reallıqlar kimi başqa amillərin əhəmiyyətinin lazımınca qiymətləndirilməməsi beynəlxalq münasibətlərin təhlilini xeyli kasadlaşdırır, onun etibarlılıq dərəcəsini azaldır. Bu, xüsusən ona görə doğrudur ki, siyasi realizm nəzəriyyəsi üçün əhəmiyyətli olan "güc" və "milli maraq" kimi anlayışların məzmunu bu nəzəriyyədə kifayət qədər qeyri-müəyyən təqdim edilmiş, diskussiyalar və çoxmənalı şərhlər üçün əsas vermişdir. Nəhayət, siyasi rea-

lizm beynəlxalq qarşılıqlı fəaliyyətin əbədi və əzəli qanunlarına əsaslanmağa cəhd etməklə, əslində, bu yanaşmanın girovuna çevrilmişdir. O, getdikcə daha artıq dərəcədə müasir beynəlxalq münasibətlərin xarakterini XX əsrin əvvəlinə qədər beynəlxalq aləmdə hökm sürmüş münasibətlərdən fərqləndirən çox vacib meyilləri və artıq baş vermiş dəyişiklikləri nəzərdən qaçırmışdır. Eyni zamanda, daha bir məqam əldən verilmişdir: sözügedən dəyişikliklər beynəlxalq münasibətlərin elmi təhlili üçün həm ənənəvi, həm də yeni metodlar və vasitələr tələb edir. Bütün bunların nəticəsində məsələyə başqa yanaşmaların tərəfdarları, ilk növbədə isə, modernist istiqamətin, müxtəlif qarşılıqlı asılılıq və inteqrasiya nəzəriyyələrinin tərəfdarları siyasi realizmi kəskin tənqid etməyə başlamışlar. Mübaliğəsiz deyə bilərik ki, siyasi realizm nəzəriyyəsini faktiki olaraq onun ilk addımlarından başlayaraq müşayiət etmiş bu polemika beynəlxalq reallıqların siyasi təhlilini sosioloji təhlil ilə tamamlamağın zəruri olmasını daha dərindən dərk etməyə şərait yaratmışdır.

Beynəlxalq geosiyasi münasibətlərin təhlilində ***"modernizm"in və ya "elmi" istiqamətin nümayəndələri*** çox vaxt siyasi realizmin ilkin postulatlarına toxunmadan onun əsasən intuisiyaya və nəzəri interpretasiyaya əsaslanan ənənəvi metodlara sadiq qalmasını kəskin tənqid etmişlər. Ötən əsrin 60-cı illərindən başlayaraq elmi ədəbiyyatda "yeni böyük mübahisə" adlanan "modernistlər" və "tradisionalistlər" arasında polemika xüsusilə kəskinləşmişdir *[Bull, 1966, vol. XVIII]*. Bu mübahisənin mənbəyi yeni nəslə mənsub olan bir sıra tədqiqatçıların (*Kuinsi Rayt, Morton Kaplan, Karl Döyç, Devid Singer, Kalevi Holsti, Ernst Haas* və başqaları) klassik yanaşmaya xas olan nöqsanları aradan qaldırmaq və beynəlxalq münasibətlərin öyrənilməsinə əsl elmi status vermək cəhdləri olmuşdur. Buna görə də riyazi vasitələrdən, formal modelləşdirmədən, məlumatların toplanması və işlənməsi, nəticələrin empirik verifikasiyası, eləcə də dəqiq elmlərdən əxz edilmiş və tədqiqatçının intuisiyasına, analogiya üzrə mühakimələrə və başqa amillərə əsaslanan ənənəvi metodlara qarşı qoyulan başqa tədqiqat prosedurlarından istifadə edilməsinə diqqət artmışdır. ABŞ-da yaranmış

bu yanaşma təkcə beynəlxalq münasibətlər sahəsində deyil, sosial gerçəkliyin başqa sahələrində tədqiqatlara da tətbiq edilmiş, hələ XIX əsrdə Avropa zəminində yaranmış pozitivizm meyillərinin ictimai elmlərə daha geniş nüfuz etməsinin ifadəsi olmuşdur.

Doğrudan da, hələ *Sen-Simon* (1760-1825) və *O.Kont* sosial fenomenlərin öyrənilməsində ciddi elmi metodlar tətbiq etməyə cəhd göstərmişdilər. Sosiologiya və psixologiya kimi elmlərdə artıq sınaqdan çıxarılmış sanballı empirik ənənələrin və metodikaların, tədqiqatçılara yeni təhlil vasitələri verən müvafiq texniki bazanın mövcud olması *K.Raytdan* başlayaq bir sıra amerikalı alimləri beynəlxalq münasibətlərin öyrənilməsində bütün bu baqajdan istifadə etməyə yönəltmişdir. Bu cəhdlər beynəlxalq münasibətlərin xarakterinə bu və ya digər amillərin təsiri barədə apriori mühakimələrdən imtina edilməsi, istər hər hansı "metafizik xurafatın", istərsə də marksizm kimi determinist hipotezlərə əsaslanan müddəaların inkar edilməsi ilə müşayiət olunurdu. Lakin *M.Merlin* qeyd etdiyi kimi [*bax:* Merle, 1974, səh. 91-92), məsələyə bu cür yanaşma heç də o demək deyildir ki, qlobal izahat hipotezi olmadan da ötüşmək mümkündür. Təbii hadisələrin tədqiqatı nəticəsində bir-birinə zidd olan iki model yaranmışdır. Sosial elmlər sahəsində mütəxəssislər bu modellər arasında tərəddüd edir. Bir tərəfdən, növlərin amansız mübarizəsi və təbii seçmə qanunu haqqında *Ç.Darvinin* (1809-1882) təlimi və onun marksist interpretasiyası, digər tərəfdən, əsasını bioloji və sosial hadisələrin daimiliyi və sabitliyi konsepsiyası təşkil edən *H.Spenserin* (1820-1903) üzvi (orqanik) fəlsəfəsi modellərindən söhbət gedir. ABŞ-da pozitivizm ikinci - cəmiyyətin canlı orqanizmə bənzədilməsi yolu ilə getmişdir. Onun həyatı bu orqanizmin müxtəlif funksiyalarının diferensiasiyasına və əlaqələndirilməsinə əsaslanır. Bu baxımdan, ictimai münasibətlərin hər hansı başqa növündə olduğu kimi, beynəlxalq münasibətlərin də öyrənilməsi bu münasibətlərin iştirakçıları tərəfindən yerinə yetirilən funksiyaların təhlilindən başlamalı, sonra həmin funksiyaların daşıyıcıları arasında qarşılıqlı münasibətlərin tədqiqinə və nəhayət, sosial orqanizmin öz ətrafına adaptasiya etməsi ilə

bağlı problemlərə keçilməlidir. *M.Merlin* fikrincə, orqanizmin irsində iki cərəyan fərqləndirmək olar. Onlardan biri fəaliyyətdə olan şəxslərin davranışının öyrənilməsinə, digəri bu cür davranışın müxtəlif tiplərinin artikulyasiyasına diqqət yetirir. Buna müvafiq olaraq, birinci cərəyan biheviorizmin, ikincisi isə, beynəlxalq münasibətlər haqqında elmdə funksionalizmin və sistemli yanaşmanın təməlini qoymuşdur [*bax:* yenə orada, səh. 93].

Siyasi realizm nəzəriyyəsində tətbiq edilən beynəlxalq münasibətlərin öyrənilməsinin ənənəvi metodlarının nöqsanlarına bir növ reaksiya olan modernizm istər nəzəri, istərsə də metodoloji baxımdan yekcins cərəyan olmamışdır. Onun üçün əsas ümumi cəhət fənlərarası yanaşmaya tərəfdar çıxmaq, ciddi elmi metodların və prosedurların tətbiq edilməsinə, yoxlanması mümkün olan empirik məlumatların sayının artırılmasına çalışmaqdır. Onun nöqsanlı cəhətləri beynəlxalq münasibətlərin spesifikasının, beynəlxalq münasibətlərin bütöv mənzərəsinin əslində mövcud olmamasını şərtləndirən konkret tədqiqat obyektlərinin fraqmentarlığındadır. Bununla belə, modernist istiqamətin tərəfdarlarının çoxsaylı tədqiqatları çox səmərəli olmuş, elmi təkcə yeni metodikalarla deyil, həm də bu metodikalar arasında çıxarılmış sanballı nəticələrlə zənginləşdirmişdir. Onu da qeyd etmək lazımdır ki, onlar beynəlxalq münasibətlərin öyrənilməsində mikrososioloji paradiqmanın perspektivlərini aşkar etmişlər.

Modernizmin və siyasi realizmin tərəfdarları arasında polemika, əsasən, beynəlxalq münasibətlərin tədqiqat metodlarına aid idisə, *transnasionalizmin* (*Robert O.Kooheyn, Cozef Nay*), *inteqrasiya nəzəriyyəsinin* (*Devid Mitrani*) və *qarşılıqlı asılılıq nəzəriyyəsinin* tərəfdarları (*Ernst Haas, Devid Mours*) klassik məktəbin konseptual əsaslarının özünü tənqid etmişlər. 60-cı illərin axırları - 70-ci illərin əvvəlində şiddətlənmiş yeni "böyük mübahisə"nin əsas mövzusu beynəlxalq münasibətlərin iştirakçısı kimi dövlətin rolu, dünya səhnəsində baş verənlərin mahiyyətini anlamaq üçün milli marağın və gücün əhəmiyyəti məsələsi idi.

Şərti olaraq ***"transnasionalistlər"*** adlanan müxtəlif nəzəri cərəyanların tərəfdarları belə bir ümumi ideya irəli sürmüşdülər ki, siyasi realizm və ona xas olan etatist paradiqma beynəlxalq münasibətlərin xarakterinə və əsas meyillərinə uyğun deyildir və buna görə də onları bir kənara atmaq lazımdır. Beynəlxalq münasibətlər milli maraqlara və güc tətbiq etməklə mübarizəyə əsaslanan dövlətlərarası qarşılıqlı fəaliyyət çərçivəsindən kənara çıxır. Dövlət beynəlxalq aktor olmaqla öz təsir dairəsindən məhrum olur. Beynəlxalq münasibətlərdə dövlətlərdən əlavə fərdlər, müəssisələr, təşkilatlar, digər qeyri-dövlət birlikləri də iştirak edir. İştirakçıların müxtəlifliyi, onların arasında qarşılıqlı fəaliyyət növlərinin (mədəni və elmi əməkdaşlıq, iqtisadi mübadilələr və s.) və "kanalların" müxtəlifliyi (universitetlər, dini təşkilatlar, həmyerlilər cəmiyyətləri və assosiasiyaları və s.) dövləti beynəlxalq ünsiyyət mərkəzindən sıxışdırıb çıxarır, bu cür ünsiyyətin *"beynəlmiləl"* (bu terminin etimoloji mənasını yada salsaq, dövlətlərarası formadan) "transmilli" (yəni, dövlətin iştirakı olmadan həyata keçirilən) əlaqə formasına çevrilməsinə şərait yaradır. Amerikalı alimlər *C.Nay* və *R.O.Kooheyn* "Transmilli münasibətlər və dünya siyasəti" kitabının müqəddiməsində yazırlar: *"Üstünlük təşkil edən hökumətlərarası yanaşmanın qəbul edilməməsi və dövlətlərarası qarşılıqlı əlaqələr çərçivəsindən çıxmaq cəhdi bizi transmilli münasibətlər terminologiyası ilə düşünməyə məcbur etmişdir"* [sitat bu mənbədən gətirilir: *Haü, 1989, səh. 91-92]. C.Rozenau* tərəfindən 1969-cu ildə irəli sürülmüş, cəmiyyətin daxili həyatı ilə beynəlxalq münasibətləri arasında qarşılıqlı əlaqə haqqında, hökumətlərin beynəlxalq davranışının izahında sosial, iqtisadi və mədəni amillərin rolu, ilk baxışda xalis "daxili" hadisələrin malik ola biləcəyi "zahiri" mənbələr haqqında ideyalar bu yanaşmaya xeyli təsir göstərmişdir.

Rabitə və nəqliyyat vasitələri texnologiyasında inqilabi dəyişikliklər, dünya bazarlarında vəziyyətin dəyişməsi, transmilli korporasiyaların sayının və əhəmiyyətinin artması dünya səhnəsində yeni meyillərin yaranmasını stimullaşdırmışdır. Onların arasında üstünlük təşkil edən aşağıdakılardır: beynəlxalq istehsal ilə müqayi-

sədə dünya ticarətinin qabaqlayıcı sürətlə artması, modernləşmə, urbanizasiya və kommunikasiya vasitələrinin inkişafı proseslərinin inkişaf etməkdə olan ölkələrə nüfuz etməsi, kiçik dövlətlərin və özəl subyektlərin beynəlxalq rolunun güclənməsi, nəhayət, böyük dövlətlərin ətraf mühitin vəziyyətinə nəzarət etmək imkanlarının azalması. Bütün bu proseslərin ümumiləşdirici nəticəsi və ifadəsi beynəlxalq münasibətlərdə gücün rolunun nisbətən azalması və dünyada qarşılıqlı asılılığın artmasıdır *[bax: yenə orada]*. Transnasionalizm tərəfdarları çox vaxt transmilli münasibətlər sahəsini özünəməxsus beynəlxalq cəmiyyət kimi nəzərdən keçirməyə meyil edirlər. Bu cəmiyyətin təhlili üçün hər bir ictimai orqanizmdə baş verən prosesləri anlamağa və izah etməyə imkan verən eyni metodlar tətbiq edilir. Beləliklə, mahiyyət etibarilə beynəlxalq münasibətlərin öyrənilməsinə yanaşmada makrososioloji paradiqmadan söhbət gedir.

Transnasionalizm beynəlxalq münasibətlərdə bir sıra yeni hadisələri dərk etməyə imkan vermişdir. Ona görə də bu cərəyanın tərəfdarları onun bir sıra müddəalarını ötən əsrin 90-cı illərində də inkişaf etdirmişlər *[bax: Loard, 1990]*. Bununla bərabər, klassik idealizmlə, ona xas olan beynəlxalq münasibətlərin xarakterinin dəyişməsində müşahidə edilən meyillərin həqiqi qiymətini şişirtmək tendensiyası arasında müəyyən ideya qohumluğunun olması həmin cərəyana təsir göstərmişdir. Transnasionalizmin irəli sürdüyü müddəaların beynəlxalq münasibətlər haqqında neomarksist cərəyanın tərəfdar çıxdığı bir sıra müddəalarla oxşar olması nəzərə çarpır.

Transnasionalizm kimi ***neomarksizm*** də eyni dərəcədə qeyri-yekcins cərəyandır. Onun nümayəndələrini *(Pol Baran, Pol Suizi, Samir Amin, Arciri İmmanuel, İmmanuel Vallerstayn* və b.) dünya birliyinin bütövlüyü haqqında ideya və onun gələcəyinin qiymətləndirilməsində müəyyən utopiya meylləri birləşdirir. Bununla bərabər, onların konseptual mühakimələrinin çıxış nöqtəsi və əsası müasir aləmdə qarşılıqlı asılılığın qeyri-simmetrik olması və üstəlik, iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrin sənaye dövlətlərin-

dən real asılılığı, bunlardan birincilərin sonuncular tərəfindən istismar edilməsi haqqında fikirlərdən ibarətdir. Neomarksistlər klassik marksizmin bəzi tezislərinə əsaslanaraq, beynəlxalq münasibətlər məkanını qlobal imperiya şəklində təsəvvür edirlər. Bu imperiyanın periferiyası keçmiş müstəmləkə ölkələri siyasi müstəqillik qazandıqdan sonra da mərkəzin əsarəti altında qalır. Bu hal iqtisadi mübadilələrin qeyri-bərabər olmasında və onların qeyri-müntəzəm inkişafında təzahür edir *[Amin, 1973; Emmanuel, 1975]*.

Məsələn, bütün dünya üzrə iqtisadi əqdlərin təqribən 80 faizinin həyata keçirilməsinə nəzarət edən "mərkəz" öz inkişafında "periferiya"nın xammalından və resurslarından asılıdır. Periferiya ölkələri də öz növbəsində, onların hüdudlarından kənarda istehsal edilən sənaye mallarının və başqa məhsulların istehlakçılarıdır. Beləliklə, onlar mərkəzdən asılı vəziyyətə düşür, qeyri-bərabər iqtisadi mübadilənin, dünya bazarlarında xammalın qiymətinin dəyişməsinin və inkişaf etmiş dövlətlər tərəfindən göstərilən iqtisadi yardımın qurbanlarına çevrilirlər. Buna görə də, nəticə etibarilə "dünya bazarına inteqrasiyaya əsaslanan iqtisadi artım zəif inkişaf etmənin inkişafıdır" *[Amin, 1970, p. 30]*.

Ötən əsrin 70-ci illərində beynəlxalq münasibətlərin öyrənilməsinə bu cür yanaşma Üçüncü dünya ölkələri üçün dünyada yeni iqtisadi nizam yaradılmasının zəruriliyi ideyasının əsası olmuşdur. BMT-nin üzvü olan ölkələrin əksəriyyətini təşkil edən bu dövlətlərin təzyiqi altında BMT Baş Məclisi 1974-cü ilin aprel ayında müvafiq bəyannamə və fəaliyyət proqramı, yenə həmin ilin dekabr ayında isə Dövlətlərin İqtisadi Hüquqları və Vəzifələri Haqqında Xartiya qəbul etmişdir.

Beləliklə, baxdığımız nəzəri cərəyanların hər birinin özünəməxsus güclü tərəfləri və nöqsanları var, onların hər biri reallığın müəyyən aspektlərini əks etdirir, beynəlxalq geosiyasi münasibətlər praktikasında bu və ya digər şəkildə təzahür edir. Həmin cərəyanlar arasında polemika onların qarşılıqlı zənginləşməsinə və deməli, bütövlükdə, beynəlxalq münasibətlər haqqında elmin zənginləşməsinə gətirib çıxarmışdır. Lakin bunu da inkar etmək olmaz ki,

sözügedən polemika elmi ictimaiyyəti bu cərəyanlardan hər hansı birinin digərləri qarşısında üstün olmasına inandıra bilməmiş, eləcə də həmin cərəyanların qovuşmasına gətirib çıxarmamışdır. Bu nəticələrin hər ikisi *neorealizm* konsepsiyası nümunəsində nümayiş etdirilə bilər.

"Neorealizm" termini bir sıra amerikalı alimlərin (*Kennet Uolts, Robert Cilpin, Cozef Qreyko* və b.) klassik ənənələrin üstünlüklərini qoruyub saxlamaq və eyni zamanda, yeni beynəlxalq reallıqlar və başqa nəzəri cərəyanların nailiyyətləri nəzərə alınmaqla onu zənginləşdirmək cəhdlərini əks etdirir. Əlamətdar haldır ki, transnasionalizmin ən köhnə tərəfdarlarından biri olan *R.O.Kooheyn* 80-ci illərdə bu qənaətə gəlmişdir ki, siyasi realizmin mərkəzi anlayışları olan "güc", "milli maraq", "rasional davranış" və b. bu kimi anlayışlar beynəlxalq münasibətlərin səmərəli təhlili üçün mühüm vasitə və şərt olaraq qalmaqdadır *[Keohane, 1983]*. Digər tərəfdən, *K.Uolts* iddia edir ki, məlumatların elmi ciddiliyi və nəticələrin empirik yoxlanılmasının mümkünlüyü hesabına realist yanaşmanın zənginləşməsinə ehtiyac var. Halbuki, ənənəvi baxışların tərəfdarları bu zərurəti, bir qayda olaraq, təkzib edirdilər. Beynəlxalq münasibətlərin hər hansı nəzəriyyəsinin ayrı-ayrı məsələlərə deyil, dünyanın bütövlüyünə əsaslanmalı, qlobal sistemin ayrı-ayrı elementləri olan dövlətlərin deyil, sistemin özünün mövcud olmasından çıxış etmək lazım olduğunu israr edən *Uolts* transnasionalistlərlə yaxınlaşma istiqamətində müəyyən addım atır.

Bununla belə, *B.Koraninin* vurğuladığı kimi, *realizmin bu şəkildə dirçəlməsi* onun öz üstünlüklərindən daha çox hər hansı başqa nəzəriyyənin müxtəlifliyi və zəifliyi ilə izah edilməlidir. Klassik məktəblə müqayisədə varisliyin saxlanması cəhdi o deməkdir ki, neorealizmə xas olan nöqsanların əksəriyyəti yenə qalır *[bax: Korany, 1987, səh. 300-302]*.

O da həqiqətdir ki, hazırkı dövrdə də bir çox dövlətlər və siyasətçilər "siyasi realizm" prinsipinə söykənirlər. Belə ki, *real siyasətçilərdən diktatorları fərqləndirmək lazım gəlir,* diktatorlar üçün siyasi hakimiyyətin qəsb edilməsi və məhdudiyyətsiz hökmranlı-

ğın cəmiyyətin həyat fəaliyyətinin hər tərəfinə yayılması xarakterikdir. Bir sıra diktatorlar real qüvvələr nisbətini, özləri və bəşəriyyət üçün faciəvi nəticələri nəzərə almayaraq hədsiz hakimiyyət hərisliyi ilə dünya ağalığına can atırlar. Diktatorları realistlərdən daha çox idealistlərə aid etmək olar. Məsələn, *Adolf Hitler* (1889-1945) öz niyyətlərində idealist konsepsiyasına əsaslanırdı.

Geosiyasətdə ***idealist ənənəyə*** nəzər salmaq faydalı olardı. Sülh və təhlükəsizliyin müharibələrsiz təmin edilməsi və böyük dövlətlərin hökmranlığı kimi idealist problem yüz illər boyu qaldırılmışdır. Belə ki, Maarifçilik dövrünün filosofları beynəlxalq münasibətləri Kainatın nəhəng saat mexanizminin xırda dişli çarxlarına bənzədərək hesab edirdilər ki, bu mexanizmin xeyrinə işləyən vaxt həqiqətən bəşəriyyəti durmadan səadətə aparır. 1751-ci ildə *Volter* "xristian Avropası"nın bir hissəsini monarxik, digər hissəsini isə quruluşuna görə qarışıq olan, bir sıra dövlətlərə parçalanmış "nəhəng bir respublika kimi" təsvir edirdi. *"Lakin onların hamısı dünyanın başqa hissələrinə məlum olmayan ictimai-siyasi hüquq prinsiplərinə malikdirlər. Bu dövlətlər, ilk növbədə, birlikdə son dərəcə müdrik, yəni mümkün olduğu qədər bir-biri qarşısında qüvvələr tarazlığına nail olmaq siyasəti yürüdürlər".*

Monteskyö də elə həmin bu mövzu üzərində işləyirdi. Onun üçün qüvvələrin tarazlığı müxtəlifliyin birliyə çevrilməsi vasitəsi idi *[Кассинджер, 1997, стр. 56]*.

Məşhur Amerika alimi və siyasətçisi *H.Kissincer* qeyd edirdi ki, filosoflar nəticə ilə məqsədlərini dəyişirlər: *"XVIII əsrdə Avropa hakimləri saysız-hesabsız müharibələr aparırdılar və dünyanın nizama salınması prinsiplərinin nəzəri əsaslandırılması barədə düşünmürdülər. Beynəlxalq münasibətlərin gücə əsaslandığı həmin konkret məqamda o qədər yeni amillər meydana çıxırdı ki, ümidlər get-gedə puç olurdu" [yenə orada]*.

Geosiyasətdə idealist mövqedə dayanan XX əsrin görkəmli siyasətçilərindən biri ABŞ-ın 1913-cü ildən 1921-ci ilədək 28-ci Prezidenti olmuş *Vudro Vilson* (1856-1924) ölkəsinin Birinci Dünya mü-

haribəsinə qatılacağı görüntüsü yaratsa da, eyni zamanda, "On dörd bənd" adlanan liberal dünya nizamı proqramını irəli sürmüşdür.[1]

V.Vilson Paris sülh konfransında (Birinci Dünya müharibəsinin yekunu üzrə) şəxsən iştirak etmiş və "sülh konfransının ulduzu"na çevrilmişdir *[Кассиджер, 1997, стр. 56]*. Onun idealist proqramında realizmdən başlıca fərq bu idi. Realistlər hesab edirlər ki, beynəlxalq münasibətlər üçün güclü dövlətlər məsuliyyət daşıyır.

Vilsonun proqramı tələb edirdi ki, dünyaya nəzarət bütün dövlətlərin kollektiv fəaliyyətinin köməyi ilə həyata keçirilsin. *"Vilson beynəlxalq münaqişələrin struktur səbəblərinin mövcudluğu fikrini rədd edirdi. Harmoniyanın təbii bir şey olduğunu güman edən Vilson maraqlar münaqişəsi illüziyasını kənar edən institutların təsis edilməsini və dünya birliyi istəklərinin həyata keçirilməsini arzulayırdı" [yenə orada, səh. 206]*. Bu düşüncə tərzinin əsas nəticəsi özünü Birinci Dünya müharibəsi bitdikdən sonra **Millətlər Cəmiyyəti**nin (1920-1946) yaradılmasında göstərdi.

Maraqlıdır ki, Vilsonun müasiri *H.Makinder* öz ideyalarını Versalda həyata keçirən Vilsonun xeyirxah niyyətlərinə şübhə ilə yanaşırdı. O, Birinci Dünya müharibəsi qurtarandan dərhal sonra çıxmış "Demokratik ideallar və reallıq" əsərində (1919) misal çəkərək deyir ki, qalib bir Roma sərkərdəsi Romaya zəfərlə daxil olarkən öz cəng arabasında, vəzifəsi sərkərdənin qulağına onun da ölümə məhkum insan olduğunu pıçıldamaq olan, qul daşıyırmış. *Makinder* yazırdı: "Pis olmazdı, Versalda müzakirə zamanı hansısa "baş məlaikə" (ing.: cherub, rus.: херувим) müttəfiq ölkələrin dövlət xadimlərinin qulağına geosiyasətin danılmaz həqiqətlərini pıçıldayaydı. Bütün bunlar onların xəbərdar olması üçün lazımdır. ***Çünki coğrafi reallıqları qabaqcadan lazımınca nəzərə almadan idealist məqsədlər güdmək iflasa məhkumdur"*** *[bax:* Пархер, 1993, səh. 34-35]. Məlumdur ki, Versal sülh şərtləri yalnız iki onillik, İkinci Dünya müharibəsinədək mövcud olaraq birincidən daha böyük faciələrə yol açdı.

[1] "On dörd bənd"dən səkkizi mütləq adlandırılmışdır: açıq diplomatiya, sərbəst dəniz gəmiçiliyi, ümumi tərk-silah, ticarət məhdudiyyətlərinin aradan qaldırılması, müstəmləkə qarşıdurmalarının sülh yolu ilə həlli, Belçika dövlətinin yaradılması, Sovet Rusiyası ərazisindən xarici qoşunların çıxarılması, Millətlər Cəmiyyətinin təsis edilməsi. Daha çox "edilməlidir" yox, "edilməsi məsləhətdir" olan digər altı bənd: Elzas-Lotaringiyanın Fransaya qaytarılması, Avstriya-Macarıstan və Osmanlı imperiyalarının milli azlıqları üçün muxtariyyətin alınması, İtaliya sərhədlərinin yenidən nəzərdən keçirilməsi, xarici qoşunların Balkanlardan çıxarılması, Dardanelin beynəlmiləlləşdirilməsi və dənizə çıxışı olan müstəqil Polşanın yaradılması.

Geosiyasi düşüncənin idealist istiqamətindən söz açan görkəmli amerikan tədqiqatçısı *N.Spaykmen* iddia edirdi ki, güc siyasəti dünyasında yaxşı münasibətlərin guya liderlər və ya xalqlar arasında dostluq hissləri hesabına yaranmasına inam böyük səhvdir. Beynəlxalq münasibətlərin bütün beş min illik tarixi ərzində bu inamı heç olmasa bir az möhkəmləndirə bilən heç nə olmamışdır. *Spaykmen* deyirdi: ***"İttifaqlar hiss və emosiyalar hesabına deyil, coğrafi səbəb və qüvvə tarazlığı nəticəsində yaranır. Bununla yanaşı, əgər müttəfiqlə münasibətdə hansısa dostluq hissləri yaranırsa, bunlar siyasi əməkdaşlığın səbəbi yox, adətən, nəticəsidir"*** *[Spykmen, 1944]*.

P.Vidal dö la Blaş, A.Demanjon kimi fransız coğrafiyaçıları isə dünya təhlükəsizliyi probleminin həllini ümumi maraqlar çərçivəsində hərəkət edən dövlətlər birliyinin yaradılmasında görürdülər. Diplomatiya tarixində *"Brian Avropası"* adı çoxlarına məlumdur. *Russo, Kant, Madzini, Hüqo* və digər Qərbi Avropa mütəfəkkirlərinin ideyalarına əsaslanan Fransa xarici işlər naziri *Aristid Brian*[1] (1861-1932) 1930-cu ildə Millətlər Cəmiyyətindəki çıxışında **Avropa millətlərinin iqtisadi, siyasi və sosial federal ittifaqının zəruriliyi**ni bəyan etmişdir. Bu da indiki Avropa İttifaqının yaranması ilə həyata keçmişdir. Fransız coğrafiyaçıları *İ.Lakost* və *M.Fuşe*

[1] Fransanın dövlət və siyasi xadimi, diplomat. 1909-1931-ci illərdə 11 dəfə Baş nazir, 17 dəfə xarici işlər naziri olub. Fransanın Avropada hegemonluğunu bərqərar etmək məqsədilə Almaniyanın Birinci Dünya müharibəsində məğlubiyyətindən bəhrələnməyə çalışıb. 1925-ci il Lokarno sazişlərinin, 1928-ci il Brian-Kelloq paktının bağlanmasının təşəbbüsçülərindən biri olub. 1929-cu ildə Avropa Federal ittifaqının yaradılması təklifi ilə çıxış edib. Birliyin əsas vəzifəsi Lokarnoda əldə edilmiş sülhün qorunmasına qarant olmaq, Avropada "ümumi bazar" yaratmaq idi. Avropanın yeniləşməsini nəzərdə tutan bu birlikdə SSRİ və Türkiyədən başqa qitənin digər ölkələri iştirak edə bilərdilər. Lakin Avropanın bir sıra ölkələrində milli maraqlar üstün gəldiyindən Brianın "Pan-Avropa" ittifaqı yaratmaq layihəsi baş tutmadı. Xalqlar arasında yaxınlaşma və sülhün qorunmasında xidmətləri nəzərə alınaraq Brian 1926-cı ildə Nobel mükafatına layiq görüldü.

özünü Qərbi Avropadan dünyanın başqa regionlarına inteqrasiyada doğrultmuş "inteqrasiya siyasəti"nin mümkünlüyünü qeyd edirdilər. *Yeni Avropa modelinin həyat qabiliyyəti yekunda inteqrasiya prinsipinin tək-tək ölkənin digərləri üzərində ağalığı və nəzarəti doqmatik prinsipinə qalib gəlməsi ilə nəticələnə bilər.* "Əgər idealizm geosiyasi düşüncədə yerini qorumaq istəyirsə, yeni dünya nizamının yaranmasına töhfə vermək üçün ciddi bazaya malik olmalıdır. Bu baza davamlı olarsa, hələ də mövcud olan təhlükələr qarşısında davam gətirər. Bu cür model əgər "taleyə qarşı" mübarizədə insana real seçim təqdim edə bilirsə, tövsiyə verəndən qaydaqanun yaradana çevrilməlidir" *[Паркер, 1993, стр. 34].*

İdealizmin əsas təməli beynəlxalq münasibətlərin hüquqi tənzimlənməsi və demokratikləşməsi, mənəviyyat və ədalətlilik normalarının bu münasibətlərə şamil edilməsi yolu ilə dövlətlər arasında silahlı münaqişələrə və dünya müharibələrinə birdəfəlik son qoymağın zəruri və mümkün olması inamıdır. Bu istiqamətin tərəfdarlarının fikrincə, dünyanın demokratik dövlətlər birliyi ictimai rəyin dəstəyi və təzyiqi sayəsində bu birliyin üzvləri arasında yaranan münaqişələri dinc yolla, hüquqi tənzimləmə, qarşılıqlı faydalı əməkdaşlığın və mübadilənin genişlənməsinə şərait yaradan beynəlxalq təşkilatların sayının və rolunun artırılması yolu ilə tənzimləməyə tamamilə qabildir. Bu istiqamətin öncül mövzularından biri beynəlxalq siyasətin bir vasitəsi kimi könüllü tərk-silah və müharibədən qarşılıqlı imtina edilməsi əsasında ***kollektiv təhlükəsizlik sistemi*** yaratmaqdır. Siyasi praktikada idealizm Birinci Dünya müharibəsindən sonra ABŞ Prezidenti *V.Vilson* tərəfindən işlənib hazırlanmış Millətlər Cəmiyyətinin yaradılması proqramında *[bax: Международные отношения, 1993, fəsil 1],* dövlətlərarası münasibətlərdə güc tətbiq edilməsindən imtina olunmasını nəzərdə tutan *Brian-Kelloq paktı*nda (1928), eləcə də hər hansı dəyişiklik güc tətbiq edilməsi yolu ilə baş verdikdə ABŞ-ın həmin dəyişikliyi diplomatik mənada tanımaqdan imtina etməsi barədə *Staymson doktrinası*nda (1932) öz əksini tapmışdır. Müharibədən sonrakı illərdə idealizm ənənələri Amerika siyasətçilərindən dövlət katibi *Con*

Foster Dalles və ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi *Zbiqnev Bjezinski* (yeri gəlmişkən, o, öz ölkəsinin həm siyasi, həm də akademik elitasını təmsil edirdi), prezidentlər *Cimmi Karter* (1976-1980) və ata *Corc Buş* (1988-1992) kimi şəxslərin fəaliyyətində müəyyən dərəcədə təcəssüm etmişdir. Elmi ədəbiyyatda bu istiqamət amerikalı müəlliflər *R.Klark* və *L.B.Sohnun* "Dünya hüququ vasitəsilə sülhə nail olmaq" kitabında təmsil olunmuşdur. Bu kitabda 1960-1980-ci illər dövründə bütün dünya üçün mərhələlər üzrə tərk-silah və kollektiv təhlükəsizlik sistemi yaradılması layihəsi təklif edilmişdir. Müharibələrin aradan qaldırılmasının və xalqlar arasında əbədi sülhə nail olmağın əsas vasitəsi BMT tərəfindən rəhbərlik edilən və hərtərəfli işlənib hazırlanmış dünya konstitusiyası əsasında fəaliyyət göstərən dünya hökuməti olmalıdır *[Clark, Sohn, 1960].* Buna oxşar ideyalar avropalı müəlliflərin bir sıra əsərlərində də təklif olunur *[bax: Gürard, 1971; Püriller, 1974; Le Mondialisme, 1977].* Papa ensiklikalarında (Roma papasının siyasət, din, əxlaq və s. məsələlərə dair müraciətləri) da dünya hökuməti ideyasına rast gəlmək olar. Roma papası *II İohann Pavel* (1920-2005) "universal səlahiyyətlər verilmiş siyasi hakimiyyət" yaradılmasına tərəfdar olmuşdur.

Beləliklə, beynəlxalq münasibətlər tarixini əsrlər boyu müşayiət etmiş idealist paradiqma insanların zəkasına müəyyən təsirini bu gün də saxlayır. Üstəlik, son illərdə bu paradiqmanın beynəlxalq münasibətlər sahəsində nəzəri təhlilin və proqnozlaşdırmanın bəzi aspektlərinə təsiri artmış və bu münasibətlərin demokratikləşdirilməsi və humanistləşdirilməsi üçün dünya birliyi tərəfindən atılan praktiki addımların, eləcə də bütün bəşəriyyətin ümumi mənafelərinə cavab verən yeni, şüurlu şəkildə tənzimlənən dünya nizamı yaratmaq cəhdlərinin əsasına çevrilmişdir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, uzun müddət belə hesab edilirdi (müəyyən mənada hələ də hesab edilir) ki, idealizm hər cür təsirini itirmişdir və hər halda müasir dövrün tələblərindən ümidsiz dərəcədə geri qalmışdır. Həqiqətən, ötən əsrin 30-cu illərində Avropada gərginliyin artması, faşizmin təcavüzkar siyasəti və Millət-

lər Cəmiyyətinin iflası, 1939-1945-ci illərdə dünya miqyaslı münaqişə və sonrakı illərdə "soyuq müharibə" nəticəsində idealizmin əsasını təşkil edən normativist yanaşma tamamilə puç oldu. Nəticədə, Avropa klassik ənənələri Amerika zəminində dirçəldi və beynəlxalq münasibətlərin təhlilində "qüvvə" və "qüvvələr balansı", "milli mənafe" və "münaqişə" kimi anlayışlar ön plana keçdi.

Elmi istiqamət kimi idealist ideyaları tədricən **irenologiyaya** (yun. *eipynh* - sülh) daxil olmuşdur. Adı ilə eyniyyət təşkil edən elmi cərəyan - **polemologiya** (yun. *polemos* - müharibə) siyasətşünaslıqda istiqamət kimi müharibələri və hərbi münaqişələri tədqiq edir və sülhün öyrənilməsi, yəni irenologiya ilə sıx bağlıdır. 1959-cu ildə *Y.Qaltunq* tərəfindən Osloda yaradılmış Beynəlxalq Sülh Tədqiqatları İnstitutu aparıcı irenoloji müəssisə sayılır. Stokholm Sülh Tədqiqatları İnstitutu, həmçinin Vyanadakı Beynəlxalq Sülh İnstitutu da nüfuzlu elm ocaqlarıdır. ABŞ-da irenoloji mərkəzlər arasında *S.Medlovitsin* yaratdığı Dünya Nizamı İnstitutu da mühüm yer tutur.

Polemologiya İkinci Dünya müharibəsindən sonra fransız sosioloqu *Q.Butul,* holland politoloqu *B.Relling,* italyan politoloqu *F.Fornarinin,* belçikalı *V.Vernerin* əsərlərində inkişaf etdirilmişdir. Polemoloqlar **"Sülh istəyirsən - müharibəni dərk et"** prinsipinə əsaslanırlar. Onlar öz vəzifələrini müharibələrin, münaqişələrin və digər təcavüzkarlıq formalarının, onların qarşısının alınması məqsədilə öyrənilməsində görürlər.

Bəşəriyyətin təkamülü faktiki olaraq sonsuz müharibələr tarixidir. Salnamələrdə qeydə alınmış 14,500 müharibə bunun bariz sübutudur. Məşhur alman hərb nəzəriyyəçisi *Klauzevits* müharibəni "siyasətin hərbi zorakılıq vasitəsilə davamı" kimi müəyyən etmişdir. Müharibə o zaman və orada başlayır ki, siyasət bu və ya digər şəkildə hərbi münaqişəni tələb edir, qarşıduran tərəflər isə onun qarşısını ala bilmirlər.

Müasir beynəlxalq aləmdə münaqişələrə, əsasən, üç müxtəlif mövqedən yanaşmaq olar: strateji, münaqişənin səbəbləri, sülh. *Birinci mövqedə* münaqişənin mənbəyi və nəticələrinə etinasız ya-

naşan bir tərəf mövqeyini əvvəldən müəyyənləşdirərək nəyin bahasına olursa olsun rəqib üzərində üstünlük qazanmaq üçün çalışır. *İkinci variantda* sosioloji perspektiv ön plana çəkilir, münaqişənin səbəbləri və onu törədən amillər, eləcə də onun durumu təhlil obyektinə çevrilir. *Üçüncü variantda* isə sosioloji və əxlaqi dəyərləri birləşdirərək, sülhün ən mühüm nəticə kimi reallaşma yollarını axtarmağa üstünlük verilir [bu barədə daha müfəssəl məlumat üçün *bax: Brayar, Cəlili, səh. 99].*

Sonuncu, üçüncü variant özünü bir tərəfdən *İ.Kant* və abbat *Sen-Pyerin* ənənəvi fəlsəfi baxışları, digər tərəfdən XX əsrdə güclü inkişaf tapmış hüquqi modellər çərçivəsində göstərir. Yeri gəlmişkən, bu yanaşma XIX əsrin sonlarından başlayaraq formalaşmış pasifist (sülhpərvər) hərəkatlarla da üst-üstə düşür.

Bu baxımdan, sülh perspektivini iki müxtəlif bucaq altında şərh etmək mümkündür *[yenə orada, səh. 108]:*

Birinci halda əsas diqqət anqlosakson məktəbinin ("Münaqişələrin həlli") etdiyi kimi, münaqişədən əməkdaşlığa keçməyə imkan verən münaqişələrin həlli üsulları və onlara nəzarət mexanizminə yönəlir. *Burada söhbət müəyyən mənada münaqişə elementlərinin tədricən aradan qaldırılması ilə rəqiblərin münasibətlərini əməkdaşlıq üzərində qurmaqdan gedir.*

İkinci halda isə, Avropa məktəbinin qəbul etdiyi "Sülh axtarışı" (Peace Research) metoduna üstünlük verilə bilər. Bu metodun görkəmli nümayəndələrindən biri sosial ədalət prinsipini əsas götürərək sülh anlayışını daha geniş mənada müsbət amil kimi qəbul edən *Y.Qaltundur.* Bu yanaşmada münaqişələr obyektiv reallıq kimi qəbul edilir və onların mənbəyinin zor amili üzərində qurulmuş sosial strukturlar olduğu iddia edilir. Zor anlayışı geniş mənada götürülür, çünki bu halda, birbaşa zorakılıqla yanaşı mövcudluğun nəticəsi hesab edilən bilavasitə zorakılıq, sosial durumdan asılılıq, istismar münasibətlərindən doğan və subyektlərə potensial imkanlarını reallaşdırmağa mane olan zorakılıq da nəzərdə tutulur. Beynəlxalq münasibətlərə gəldikdə, ikinci metoda görə, durum zorakılığı asılılıq və istismar münasibətləri ilə səciyyələndiyi üçün, elə beynəlxalq siste-

min mərkəz və "periferiya"ya bölünmüş mahiyyətindən doğur, bir qayda olaraq, mərkəzə nisbətən "periferiya"nın inkişaf səviyyəsi çox aşağıdır. Sülh anlayışına bu maksimalist (ifratçı) baxış öz yeniliyi ilə sülh və zorakılıq ətrafında fikirləri, şübhəsiz ki, zənginləşdirir. Lakin bu metodun, bəzən durum zorakılığının haradan mənbə götürdüyünü empirik (təcrübi) yolla müəyyən etmək çətin, hətta qeyri-mümkün olduğundan, məhdud cəhətləri də üzə çıxır. Yeri gəlmişkən, durum zorakılığına qarşı mübarizəyə üstünlük verən bu metod birbaşa zorakılığa imkan yaratdığı üçün sülhə nail olma prosesinə zərbə vura bilər.

Sülh tədqiqatları, artıq deyildiyi kimi, polemologiya ilə sıx əlaqədardır. Polemologiya mövzusu İkinci Dünya müharibəsindən sonrakı illərdə, 1951-ci ildən Parisdə Fransa Polemologiya İnstitutunu yaratmış fransız sosioloqu və demoqrafı **Qaston Butulun** (1896-1980) əsərlərində geniş tədqiq edilmişdir. Q.Butul yazır ki, polemologiyanın əsasını dinamik sosiologiya təşkil edir. Sonuncu isə "cəmiyyətlərin variasiyalarını (dəyişməsini), onların kəsb etdiyi formaları, onları şərtləndirən və ya onlara müvafiq olan amilləri, eləcə də onların təkrar istehsal üsullarını öyrənən elmin tərkib hissəsidir" *[Bouthoul, 1970, p. 5]. E.Dürkheymin* sosiologiya barəsində dediyi "tarixin müəyyən şəkildə dərk edilməsi" müddəasından çıxış edən polemologiya bunu əsas götürür ki, *əvvələn,* **tarixi məhz müharibə yaratmışdır, çünki tarix məhz silahlı münaqişələr tarixi kimi başlanmışdır.** Tarixin haçansa "müharibələr tarixi" olmayacağı ehtimalı da azdır. *İkincisi,* müharibə **sosial dəyişikliklərdə mühüm rol oynayan kollektiv imitasiyanın, başqa sözlə desək, mədəniyyətlərin dialoqunun və qarşılıqlı zənginləşməsinin əsas amilidir.** Bu, ilk növbədə, "zorakı imitasiyadır": müharibə dövlətlərin və xalqların *avtarkiya,* özünütəcrid şəraitində özünə qapanmasına imkan vermir, buna görə də o, sivilizasiyaların təmasının ən fəal və ən səmərəli formasıdır. Bundan əlavə, müharibə həm də "könüllü imitasiyadır", xalqlar bir-birindən müxtəlif silah növləri, müharibələrin aparılması üsullarını və hərbi uniforma dəbinə qədər başqa dəyərləri mübadilə edirlər. *Üçüncüsü,* **müharibələr texniki tərəqqinin**

hərəkətverici qüvvəsidir. Məsələn, romalıların naviqasiya və gəmiqayırma sənətini öyrənməsinə stimul yaradan amil Karfageni yerlə yeksan etmək istəyi olmuşdu. Müasir dövrdə də bütün millətlər dağıdıcılığın yeni texniki vasitələrini və metodlarını mənimsəmək üçün özlərini əldən salır, bu məsələdə həyasızcasına bir-birini yamsılayırlar. Nəhayət, *dördüncüsü,* **müharibə sosial həyatda təsəvvür edilə biləcək keçid formalarının ən çox nəzərəçarpan növüdür.** O, bir tərəfdən, tarazlığın pozulmasının, digər tərəfdən, onun bərpa edilməsinin həm mənbəyi, həm də nəticəsidir.

Polemologiya siyasi və hüquqi yanaşmadan çəkinməli, yadda saxlamalıdır ki, siyasət həmişə özünə tabe etməyə, özünün qulluqçusuna çevirməyə çalışdığı "sosiologiyanın düşmənidir" - orta əsrlərdə teologiyanın fəlsəfəyə münasibətdə etdiyi kimi. Buna görə də polemologiya cari münaqişələri, əslində, öyrənməyə bilməz və deməli, onun üçün əsas məsələ tarixi yanaşmadır.

Polemologiyanın əsas məqsədi hər hansı başqa sosial fenomen kimi müşahidə edilməsi mümkün olan və eyni zamanda, bəşər tarixində ictimai inkişafda qlobal dəyişikliklərin səbəblərini izah edə bilən bir sosial fenomen kimi müharibələrin obyektiv və elmi cəhətdən öyrənilməsidir. Bu halda polemologiya müharibələrin psevdoaşkarlığı ilə; ilk baxışda onların tamamilə insanların iradəsindən asılı olması ilə (halbuki ictimai strukturların xarakterində və qarşılıqlı nisbətində dəyişikliklər haqqında söhbət olmalıdır); müharibələrin səbəblərini teoloji (Allahın əmri), metafiziki (suverenliyin qorunması və ya genişləndirilməsi) və ya antropomorf hüquq (müharibələrin fərdlər arasında mübahisələrə bənzədilməsi) kimi amillərlə izah edən hüquqi illüziyalarla əlaqədar metodoloji xarakterli bir sıra maneələri dəf etməlidir. Nəhayət, polemologiya müharibələrin sakrallaşdırılması və siyasiləşdirilməsi simbiozunu - *Hegelin* və *Klauzevitsin* təklif etdiyi fəaliyyət xətlərinin birləşdirilməsi ilə əlaqədar simbiozu dəf etməlidir.

Q.Butulun öz kitabında "sosiologiyada yeni fəsil" adlandırdığı **polemoloji istiqamətin pozitiv metodologiyasının əsas xüsusiyyətləri** nədən ibarətdir *[bax: Bouthoul, 1970, səh. 8]?* O, ilk növ-

bədə qeyd edir ki, polemologiya öz məqsədləri üçün həqiqətən çox zəngin mənbəşünaslıq bazasına malikdir. Sosiologiya elminin başqa sahələrinin sərəncamında bu cür zəngin bazaya çox nadir hallarda rast gəlmək olar. Ona görə də əsas məsələ bu tükənməz sənədlər toplusunun saysız-hesabsız faktlarını hansı **istiqamətlər** üzrə təsnif etməkdən ibarətdir. Butul səkkiz bu cür istiqamət göstərir: 1) maddi faktların obyektivlik dərəcəsinin azalması istiqamətində təsviri; 2) müharibələrin iştirakçılarının bu məqsədlər haqqında təsəvvürlərindən çıxış edərək onların fiziki davranış növlərinin təsviri; 3) izahın birinci mərhələsi: tarixçilərin və analitiklərin fikirləri; 4) izahın ikinci mərhələsi: teoloji, metafiziki, əxlaqi və fəlsəfi baxışlar və doktrinalar; 5) faktların seçilməsi, qruplaşdırılması və ilkin interpretasiyası; 6) müharibənin obyektiv funksiyaları barəsində hipotezlər; 7) müharibələrin dövriliyi barəsində hipotezlər; 8) müharibələrin sosial tipologiyası, yəni müharibənin əsas xarakteristikalarının bu və ya digər cəmiyyətin tipik xüsusiyyətlərindən asılılığı *[bax: Bouthoul, 1970, səh. 18-25]*.

Q.Butul sözügedən metodologiyaya əsaslanaraq riyaziyyat, biologiya, psixologiya və başqa elmlərin (o cümlədən etnometodologiyanın) imkanlarından istifadə etməklə **hərbi münaqişələrin səbəblərinin təsnifatını** təklif edir və onu əsaslandırmağa çalışır. Onun fikrincə, **səbəblər** kimi aşağıdakı amillər (ümumiliyin azalma dərəcəsinə görə) çıxış edir: 1) ictimai strukturlar (məsələn, iqtisadiyyat və demoqrafiya) arasında qarşılıqlı tarazlığın pozulması; 2) bu pozulma nəticəsində yaranan siyasi konyunkturlar *(Dürkheymin* yanaşmasına tam uyğun olaraq onlar "şeylər" hesab edilməlidir); 3) təsadüfi səbəblər və motivlər; 4) sosial qrupların psixosomatik vəziyyətlərinin psixoloji proyeksiyası kimi aqressivlik və davakar impulslar; 5) düşmənçilik və savaş kompleksləri ("Abraham kompleksi"; "Damokl kompleksi"; "Qurbanlıq qoyun kompleksi").

Polemoloqların tədqiqatlarında Amerika modernizminin, xüsusən beynəlxalq münasibətlərin təhlilinə amil (faktor) yanaşmasının təsiri aşkar hiss edilir. Bu o deməkdir ki, metodun nöqsanlarının çoxu həmin alimlərin özlərinə də xasdır. Çatışmazlıqların ən başlıca-

sı isə, haqlı olaraq hesab edildiyi kimi, mürəkkəb sosial fenomen olan müharibənin dərk edilməsində "elmi metodların" rolunun mütləqləşdirilməsidir. Bu cür reduksionizm labüd olaraq öyrənilən obyektin fraqmentasiyası ilə bağlıdır. Bu isə polemologiyanın makrososioloji paradiqmaya sadiq qalması barədə fikrə ziddir. Polemologiyanın əsasını təşkil edən ciddi determinizm, silahlı münaqişələrin səbəbləri arasında təsadüfiliyi istismar etmək cəhdləri [*bax*, məsələn: Bouthoul, 1970, səh. 5) elan edilən tədqiqat məqsədlərinin və vəzifələrinin dağıdıcı nəticələrinə gətirib çıxarır. *Əvvələn*, polemologiyanın müharibələrin yaranması mümkünlüyü və onların xarakteri barədə uzunmüddətli proqnozlar işləyib hazırlamaq imkanlarına inamsızlıq doğurur. *İkincisi*, cəmiyyətin dinamik vəziyyəti olan müharibə "qayda və asayiş vəziyyəti" olan sülhə qarşı qoyulur *[Bouthoul, Carrere, Annequin, 1980]*. Buna müvafiq olaraq polemologiya "irenologiyaya" (sülh sosiologiyasına) qarşı qoyulur. Hərçənd, mahiyyət etibarilə "irenologiya" ümumiyyətlə, öz predmetindən məhrum olur, çünki "sülhü yalnız müharibəni öyrənməklə tədqiq etmək olar" *[bax: yenə orada, səh. 535]*.

Eyni zamanda, polemologiyanın nəzəri üstünlüklərini, silahlı münaqişələr problematikasının işlənib hazırlanmasına, onların səbəblərinin və xarakterinin araşdırılmasına töhfəsini də nəzərdən qaçırmaq olmaz. Bu halda bizim üçün əsas məsələ ondan ibarətdir ki, polemologiyanın yaranması geosiyasətin sonrakı inkişafında mühüm rol oynamışdır. Bu, *J.-B.Dürozel və R.Bosk, P.Assner və P.M.Qallua, Ş.Zorqbib və F.Moro-Defarj, J.Untsinger və M.Merl, A.Samuel, B.Badi və M.-K.Smuts* və başqa müəlliflərin əsərlərində bilavasitə, yaxud dolayı şəkildə öz əksini tapmışdır.

1.2.2. Geosiyasətin təməl ideyaları

İntibah dövrünün məşhur tarixçisi və siyasi mütəfəkkiri **Nikkolo Makiavelli** (Niccolo di Bernardo dei Machiavelli, 1469-1527) Florensiyada hüquqşünas ailəsində anadan olmuşdur. Onun ömrünün xeyli hissəsi Florensiya Respublikası hökumətində siyasi-dövlət xidməti ilə bağlıdır. 1512-ci ildə Makiavellinin diplomatik məmur karyerası başa çatmışdır. O, 1513-1520-ci illərdə özünün üç

əsas siyasi əsərini yazmışdır: **"Hökmdar", "Hərb sənəti haqqında", "Tit Livinin[1] ilk dekadası haqqında düşüncələr".** Bu illər onun yaradıcılığının ən fəal dövrü idi.

Makiavellinin kitabları dövləti uğurla idarə etmənin təhlili və siyasi həyatın ümumi qanunauyğunluqlarının üzə çıxarılmasından bəhs edir. Makiavellinin düşüncələrindəki yenilik onun siyasi hadisələri qiymətləndirmədə teoloji ənənələrdən köklü surətdə fərqlənən metodunda idi. Onun metodu yayındırıcı təsəvvüf mühakimələrinə deyil, gerçəkliyin öyrənilməsinə söykənir. Makiavelli dövlətin ilahi təqdir olduğu haqqında orta əsr görüşlərinə qarşı çıxış edir, *fortuna (tale)* adlandırdığı tarixin vacibliyinin və qanunauyğunluğunun obyektiv ideyasını irəli sürür. Lakin Makiavelliyə görə tale qaçılmaz deyil: ***"Azad iradənin itirilməməsi üçün bizim hərəkətlərimizin yarısını taleyin müəyyən etdiyini, hisslərimizin o biri yarısını isə bizim idarəetməmiz üçün imkan yaradıldığı həqiqətini bilmək lazımdır".*** Taledən başqa Makiavelli siyasətin əsasını *virtu - şəxsi enerji* olaraq adlandırır. Bu enerji insanda öngörənlik və rəşadət gücünü bəlli edir. Məhz Makiavelli, yeni siyasi anlayış - *stato (dövlət)* ifadəsini dövriyyəyə buraxmışdır. Stato davamlı olaraq dəyişir, lakin dəyişikliklərin istiqaməti mübarizəyə aparan qüvvələrin - aristokratlar (zədəganlar) və xalqın nisbəti ilə müəyyən olunur. Onun fikrinə görə kütlələr, onlara əmr və zülm edilməsini istəmirlər. Varlılar isə əksinə, hakimiyyətə can atır, xalqı kölələşdirməyə çalşırlar. Makiavelli (*Aristotel* kimi) dövlət formalarını dövlətin məqsədlərindən və hökmdarlarının sayından asılı olaraq gözdən keçirir. Dövlət formalarının dəyişməsi prosesi dövri olaraq baş verir və ilahi iradə ilə deyil, müəyyən vəziyyətlərin təkrarlanması və mübarizə aparan qüvvələrin nisbəti ilə əlaqələndirilir.

Makiavelli əsərlərində siyasətdə müvəffəqiyyətlərin və məğlubiyyətlərin səbəblərini nəzərdən keçirir. Siyasət hakimiyyətin əldə saxlanılması vasitəsi kimi şərh edilir. Makiavellinin ən məşhur əsəri olan *"Hökmdar"* traktatı daxili və xarici düşmənlər qarşısında davam gətirə bilən mərkəzləşdirilmiş güclü dövlət yaratmaq haqda özünəməxsus dərslikdir. Makiavelliyə görə dövlətin rifahı naminə hər şeyə getmək lazımdır. *Manli Torkvat* (Roma sərkərdəsi, e.ə. IV əsr) bu səbəbdən hərbi intizamı pozmuş sevimli oğlunu ölümə təslim etdi. Vətənin xilası və müdafiəsi üçün Makiavelli yalanı da, qəddarlığı da məqbul sayırdı. ***"Söhbət vətənin qurtuluşu haqqında gedəndə nəyin xeyirxah və ya zorakı, nəyin yaxşı və ya pis olmasını bilmək o qədər də vacib deyil. Vacib olan hər şeyi unudaraq onun varlığını və azadlığını xilas etmək üçün fəaliyyət göstərməkdir".*** Başqa sözlə, əgər bunu vəziyyət tələb edirsə, hökmdar özünü əxlaq normaları ilə buxovlamayaraq hakimiyyətini möhkəm əllərlə gücləndirməlidir.

Bu cür sərt realizm sayəsində makiavellizm dövlət təhlükəsizliyi və ya vətənpərvər məqsədlərə çatmaq naminə ən məkrli mübarizə üsullarının (yalan, xəyanət, satqınlıq, ələalma, hətta qətl) bəraəti ilə sinonim oldu, "makiavellizm" ifadəsi əxlaq normalarını diqqətə almayan siyasi davranış modelinə çevrildi. Makiavellizmin fərqləndirici xüsusiyyətləri aşağıdakı fikirdə ifadə olunub: ***"Məqsədə çatmaq üçün bütün vasitələr doğrudur".*** *Burada qarşıya qoyulan məqsədə çatmaq üçün bütün vasitələrdən istifadə olunmasına bəraət qazandırılır və mümkün sayılır. Bununla belə, Makiavellinin əsərlərini diqqətlə oxuduqda onun bir çox halda soyuqqanlı təhlillərinin ötən yüzilliklərdə tənqidçilər tərəfindən mütləqləşdirildiyini, siyasi tarixdən gətirdiyi misalların bəzi makiavellizm mütəxəssisləri tərəfindən dövlət xadimlərinin siyasi davranış normalarına çevrildiyini anlamaq olur. Bu nöqteyi-nəzərdən makiavellizmi dövlət mənafeləri naminə qarşıya qoyulan məqsədə çatmağa əsaslanan ancaq bir siyasət kimi nəzərdən keçirmək lazımdır.*

Makiavelli *"Düşüncələr"* əsərində respublika quruluşunun ən yaxşı dövlət təşkili forması olduğu, bu idarəçilik formasının vətəndaşların azadlıq və təhlükəsizliyini daha yaxşı təmin etdiyi haqda mütərəqqi ideyaları inkişaf etdirir. Tiraniyalar, avtoritar rejimlər həmişə zəifləmə, səfalət və tənəzzüllə sona çatır.

[1] *Tit Livi* (e.ə. I əsr - b.e. I əsri) - Roma tarixçisi, məşhur "Roma tarixi" əsərinin (142 kitab, 35-i dövrümüzədək çatmışdır) müəllifi.

Makiavellinin zamanında İtaliyada fasiləsiz olaraq işğalçı müharibələr aparılırdı. Orada fransızlar, ispanlar, isveçrəlilər, alman landsknextləri[1] arasında gedən rəqabətdə, xırda sülalələr kimin çəkməsini öpəcəklərini bilmirdilər. İtaliya torpağı ardıcıllıqla, hissə-hissə viran edilirdi. Vəziyyət get-gedə daha da pisləşirdi. İtaliyanın müstəqil siyasi mövcudluğuna, bununla birlikdə, ticarət-sənaye burjuaziyasının təsərrüfatına və siyasi azadlığına təhlükə yaranırdı.

Tarixçilər İtaliyadakı vəziyyəti və Makiavellinin buna reaksiyasını qiymətləndirərkən qeyd edirlər: "İtaliya müdafiə oluna bilmirdi. Niyə? Nikkolo bu sualı özünə verdi. Biz onun cavabını bilirik. Birincisi, ona görə ki, İtaliyada siyasi birlik yoxdur, ikincisi, İtaliyanın muzdla tutulmuş deyil, öz milli ordusu yoxdur. Bəs nə etmək lazım idi? Cavab... qəddarcasına aydın idi: birlik və ordu yaratmaq".

Sərkərdə və alim, Fransa inqilablarının şahidi ***Karl fon Klauzevits*** (Carl Philipp Gottlieb von Clausewitz, 1780-1831) Prussiya və Rusiya ordularının tərkibində *Napoleona* qarşı döyüşdə böyük təcrübə qazanmışdı. Onun əsas əsəri **"Müharibə haqqında"** traktatıdır (1832-1834). Klauzevits Niderland burjua inqilabı (XVI əsr) hadisələrindən başlayaraq 180 müharibə və yürüşü tədqiq etmişdir. O, müharibənin siyasi mahiyyətini müəyyən etmiş və onu dövlətin adından icra olunan rasional akt adlandırmışdır. Onun fikrincə, bütün müharibələrin əsasında siyasi məqsədlər durur, buna görə də *müharibə siyasətin digər vasitələrlə davam etdirilməsidir.*[2] **Müharibə ilə siyasətin əlaqəsi** müddəası böyük elmi nailiyyət hesab olunur. Müharibələr başlanandan çox-çox əvvəl udulur və ya uduzulur. Müharibənin nəticəsi həmişə əvvəlki dövlət həyatı ilə bağlıdır *[Клаузевиц, 1994, стр. 41].*

[1] XV - XVII əsrlərdə əvvəllər Almaniyada, sonralar isə Qərbi Avropada muzdlu əsgərlər.

[2] Klauzevitsin müharibə ilə siyasətin əlaqəsi haqqında tezisi sonralar *Leninin* siyasi doktrinasına ciddi təsir göstərmişdir. *Lenin* Klauzevitsi yüksək qiymətləndirirdi. Rusiya generalı *V.N. Lobov* bununla bağlı bildirir ki, *Leninə* "müharibənin dövlət siyasətinin digər vasitələrlə davamı" olması barədə Klauzevitsin aparıcı fikrinin kifayət qədər gözəl təhrifi məxsusdur. Bu formuldan "dövlət" sözünü çıxararaq *Lenin* müharibə anlayışını son dərəcə genişləndirmiş, sinfi mübarizə mənasına gətirmişdir. Bununla o, vətəndaş müharibəsinə haqq qazandırmış və onun doğurduğu terrora bəraət vermişdir" *[Лобов, 1997, стр. 20-21].*

Klauzevits ən böyük müasir müharibə mütəfəkkiri hesab edilir. O, öz düşüncəsini, əsasən, Prussiya ordusunda, daha sonra isə Fransız inqilabı və *Napoleonun* təhrik etdiyi (və ya tərəfindən ortaya çıxan) müharibələrdə rus ordusu sıralarında qurur. Klauzevits o dövrdə üz-üzə gələn ordular (bir tərəfdən fransız respublika və daha sonra imperiya orduları, digər tərəfdən isə Avropa monarxlarının orduları) arasındakı uçurumdan təsirlənmişdir. Birincilər vətənpərvərlik gücü ilə hərəkət edirdisə, ikincilər muzdlulardan ibarət idi. Klauzevits xüsusən də *müharibə tanrısı* hesab etdiyi *Napoleona* heyran idi. Napoleonda kral ordularının generallarında çatışmayan bütün cəhətlər toplanmışdı: müharibəyə ümumi qlobal baxış, güclü təşkilatçılıq bacarığı, öz gücünü paylaşdırmaq və cəmləşdirmək qabiliyyəti, qəti döyüşlərdə iştirak etmək cəsarəti və nəhayət, rəqiblərini təəccübləndirərək səhvə təhrik edən manevr qabiliyyəti *[Moreau Defarges, 2009].*

Klauzevitsə görə müharibə etmək döyüşləri qazanmaq deyil, siyasi məqsədi izləməkdir (müstəqilliyi qorumaq, ərazini genişləndirmək, öz üstünlüyünü qəbul etdirmək). Lakin hərbin siyasətdən asılılığını daimi olaraq qeyd edən Klauzevits, öz axtarışlarını müharibənin səbəbləri və məqsədləri üzərində deyil, onun aparılması metodları və vasitələri üzərində cəmləşdirir.

Sun-tszıdan Makiavelliyə qədər, özündən əvvəl müharibə haqqında yazmış mütəfəkkirlərə sadiq olaraq Klauzevits müharibəni duel hesab edir. Vacib olan qabiliyyət, ağıl, duel iştirakçılarının və ya daha çox müharibə edən orduların cəsarətidir. Döyüş meydanı öz quruluşu ilə (çay, dağ və s.) maneə, çətinlik və ya üstünlük yarada bilər, ancaq mahiyyət üzrə o, demək olar ki, rəqiblər arasındakı qarşıdurma üçün bitərəf olan yarış meydanıdır *[yenə orada, 2009].*

Klauzevits müharibələrin məzmunu barədə yazanda, mahiyyət etibarilə, vaxtilə ***Sun-tszının*** və ***Fukididin*** söylədiyi belə bir ideyanı təkrarlayırdı ki, **müharibə dövlətin normal vəziyyətidir və insan təbiətində olduğu kimi, dövlətin də təbiətində daha çox məkan ələ keçirmək, ərazilərini genişləndirmək istəyi mövcud-**

dur. Ona görə də dünyanın vəziyyəti heç zaman sabit ola bilməz, bu və ya digər dövlət gücləndikcə daim bu vəziyyəti dəyişməyə səy göstərəcək və gücü ilə dünyanın strukturunu dəyişəcəkdir.

Sun-tszı (e.ə. VI-V əsrlər) *"Hərb sənəti"* traktatında yazır ki, müharibə kimi mürəkkəb xarakterli proses, hər şeydən əvvəl müharibə üçün vacib olan əsas *amillərin* müəyyənləşdirilməsi yolu ilə öyrənilməlidir. Onun fikrincə, beş amili fərqləndirmək lazımdır. Sun-tszı onları o dövrün oxucusu üçün sadə və anlaşıqlı adlarla təqdim edir. *Birinci amil* mənəvi durumdur. Sun-tszı onu *"Yol"* adlandırır. "Yol" anlayışı qədim dövrlərdə Çində yalnız sözün həqiqi mənasında "yol" kimi deyil, habelə məcazi mənada da işlənmiş və bu da çox geniş məna tutumuna malik olmuşdur. Sun-tszıda bu termin dar ixtisas mənası kəsb edir və müharibənin birinci şərtinin ifadə olunması üçün işlənir. "Yol - buna o zaman nail olmaq olar ki, xalq ilə hökmdarın fikirləri eyni olsun, şübhə və qorxunun nə olduğunu bilməsin".

Sun-tszının fikrincə, məhz bu birlik müharibənin qanunlarını öyrənən hər kəsin vacibliyini dərk etməli olduğu birinci şərtdir.

Sun-tszının terminologiyasına görə, *müharibənin ikinci əsas amili "Səma"* adını daşıyır. O, bu ad altında nəyin başa düşülməli olduğunu müəyyənləşdirir: "Səma - işıq və zülmət, isti və soyuq deməkdir; bu, zamanın qaydasıdır". Qısası, bu - müharibənin baş verdiyi vaxtdır: fəsil, gün və s. Bu amilin əhəmiyyətini anlmaq, yəni, müharibədə vaxt amilinin əhəmiyyətini nəzərə almaq, - müharibə qanunlarını öyrənənin ikinci vəzifəsidir.

Müharibənin üçüncü əsas amili - "Torpaq"dır. "Torpaq - yaxın və uzaq, düzənlik və dağlıq, geniş və dar, ölüm və həyat deməkdir". Burada söhbət yerdən, onun əlamətlərindən, döyüşən tərəfin nöqteyi-nəzərindən, müharibənin şəraitinə və vəzifələrinə münasibətdən gedir.

Strategiyanın dördüncü əsas amili - "sərkərdə", dəqiq desək, onun keyfiyyətidir. Müharibənin gedişi və nəticəsi ondan asılıdır. Ona görə də müharibəni öyrənən bu amili də dərk etməlidir.

Sun-tszı sərkərdənin malik olmalı olduğu beş keyfiyyəti sadalayır: o, ağıllı, qərəzsiz (və ya ədalətli), humanist, cəsarətli, ciddi olmalıdır.

Strategiyanın beşinci əsas amili - "Qanun"dur. Digər hallarda, "Yol", "Səma", "Torpaq" terminlərinə münasibətdə olduğu kimi, Sun-tszı burada da olduqca konkretdir; O, hansısa mücərrəd "qanun" anlayışından bəhs etmir, yalnız üç şeyə - hərbi nizam-intizam, ordu komandanlığı və onun təchizatına aid olan qaydaların məcmusundan söhbət açır. Müharibə qanunlarını öyrənən müharibənin yekununun əhəmiyyətli dərəcədə asılı olduğu bu şeylərin vacibliyini dərk etməlidir.

Beləliklə, Sun-tszıya görə, strategiyanın beş əsas elementi bunlardır: birlik, zaman, məkan, sərkərdənin keyfiyyəti, ordunun təşkili. Bu, Sun-tszının fikrincə, ümumi xarakterli müddəalar olmaqla, eyni zamanda, fəaliyyət zamanı rəhbər tutulan amillərdir. Bu beş müddəa müharibənin amilləri və tələbləridir: müharibə birliyi təmin edə bilən, zaman və məkan amillərini düzgün nəzərə alan, hərbi hissələri, komandanlığı və təchizatı lazımi qaydada təşkil etməyi bacaran sərkərdə tələb edir. Sun-tszı öz ikili xarakterə malik müddəalarını bu sözlərlə ifadə edir: "Bu beş amil barədə eşitməyən sərkərdə yoxdur, yalnız bunları nəzərə alan qalib gəlir".

Fukididin (e.ə. 460-401) iki min ildən çox bundan əvvəl yazılmış **"Peloponnes müharibəsinin[1] səkkiz cildlik tarixi"** əsəri suveren siyasi vahidlər arasında münasibətlərin dərindən təhlil edildiyi ilk yazılı mənbələrdən biri olmuşdur. Qədim yunan tarixçisinin irəli sürdüyü müddəaların, onun gəldiyi nəticələrin çoxu hələ də öz əhəmiyyətini itirməmiş, beləliklə, müəllifin öz sözləri ilə desək, onun tərtib etdiyi əsərin "müvəqqəti dinləyicilər üçün yarışma predmeti deyil, əsrlər boyu öz qiymətini saxlayacaq sərvət" /*Фукu-*

[1] Qədim Yunanıstanda Peloponnes ittifaqı ilə Delos ittifaqı (1-ci Afina dəniz ittifaqı) arasında ən böyük müharibə (e.ə. 431-404). Bütün Yunanıstanı, Cənubi İtaliya və Siciliyanın yunan şəhərlərini əhatə etmişdi. Yunanıstanın iri ticarət-sənətkarlıq mərkəzləri arasında (bir tərəfdə Afina, digər tərəfdə Korinf və Meqara) rəqabətin kəskinləşməsi və Afina ilə Sparta arasında siyasi hegemonluq uğrunda mübarizə Peloponnes müharibəsinin başlanmasına səbəb olmuşdu. Peloponnes müharibəsi şərti olaraq üç dövrə bölünür: 1. Arxidam müharibəsi (e.ə. 431-421); 2. Siciliya müharibəsi (e.ə. 420-413); 3. Dekeleya müharibəsi və ya İoniya müharibəsi (e.ə. 413-404). *Peloponnes müharibəsi nəticəsində Delos ittifaqı buraxıldı, Afinada "otuz tiran"ın oliqarxiya rejimi bərqərar oldu. Peloponnes müharibəsi Yunanıstanın beynəlxalq nüfuzunu itirməsinə və İranın yenidən qüvvətlənməsinə səbəb oldu. Yunanıstan Makedoniyanın hakimiyyəti altına keçdi.*

duð, 1987, cmp. 22] olması fikrini təsdiqləyir. Tarixçi, afinalılar ilə lakedemoniyalılar arasında uzun illər boyu davam edən üzücü müharibənin səbəblərini araşdırmağa çalışaraq bir məqama diqqət yönəldir ki, tərəqqi edən, qüdrətli olması ilə seçilən bu xalqların hər biri öz müttəfiqləri üzərində ağalıq edirdi. *"...Midiya müharibələri dövründən başlamış axırıncı müharibəyə qədər onlar gah bir-biri ilə və ya onlardan aralanmış müttəfiqləri ilə barışır, gah onlarla döyüşür, hər iki halda hərbi işdə mükəmməlləşir, təhlükələr qarşısında özlərini itirmir və getdikcə ustalaşırdı"* [*bax:* yenə orada, səh. 18]. Bu qüdrətli dövlətlərin hər ikisi bir növ imperiyaya çevrildiyi üçün onlardan birinin güclənməsi bu yolu davam etdirməyə sövq edir, öz nüfuzunu və təsirini saxlamaq üçün ətrafındakıların hamısını özünə tabe etməyə çalışırdı. Nisbətən kiçik şəhərdövlətlər və digər "imperiyalar" isə öz növbəsində, rəqibinin bu cür güclənməsindən get-gedə qorxuya düşərək, narahatlıq keçirərək öz müdafiəsini möhkəmlətmək üçün tədbirlər görür, bununla da son nəticədə müharibəyə çevrilməsi labüd olan münaqişələr dövrəsinə cəlb olunurdu. Ona görə də Fukidid Peloponnes müharibəsinin səbəbləri ilə bu müharibə üçün müxtəlif bəhanələr arasında lap əvvəldən fərq qoyur: *"Sözdə ən gizli təsir bağışlasa da, əslində, ən aşkar səbəb mənim fikrimcə, ondan ibarətdir ki, afinalılar özlərinin güclənməsi ilə lakedemoniyalıları vahiməyə salmış və onları müharibəyə sövq etmişlər"* [*bax:* yenə orada, səh. 24].

Fukidid təkcə suveren siyasi vahidlər arasında münasibətlərdə gücün hökmranlıq etməsi barədə danışmır. Onun əsərində dövlətin mənafeləri, eləcə də bu mənafelərin ayrıca bir şəxsin mənafelərindən üstün olması barədə söhbət açılır [*bax:* yenə orada, cild 1, səh. 91; cild 2, səh. 60]. Beləliklə, Fukidid beynəlxalq geosiyasi münasibətlər haqqında sonrakı dövrə aid təsəvvürlərdə və müasir elmdə ən nüfuzlu istiqamətlərdən birinin banisi olmuşdur. Sonradan **klassik** və ya **ənənəvi** istiqamət adı almış bu istiqamət *N.Makiavelli*, ***Tomas Hobbs*** (1588-1679), ***Emerik dö Vattelin*** (1714-1767) və başqa mütəfəkkirlərin baxışlarında təmsil olunmuş, *K.Klauzevitsin* əsərində daha dolğun forma kəsb etmişdir.

Məsələn, ingilis dövlət xadimi və filosofu **T.Hobbs**[1] bunu əsas götürür ki, insan öz təbiətinə görə xudbin (eqoist) varlıqdır. Onun daxilində qarşısıalınmaz hakimiyyət istəyi vardır. İnsanların qabiliyyətləri təbiətən bərabər olmadığına görə onların rəqabəti, qarşılıqlı etimadsızlığı, maddi nemətlərə, nüfuza və şan-şöhrətə malik olmaq həvəsi daim *"hamının hamıya qarşı müharibəsinə"*[2] gətirib çıxarır, bu, insanların qarşılıqlı münasibətlərinin *təbii vəziyyətinə* çevrilir. Bu müharibədə insanların bir-birini qırıb qurtarmasının qarşısını almaq üçün onlar *ictimai müqavilə* bağlamağın zəruri olması qənaətinə gəlir. *Leviafan*[3] - dövlət bu zərurəti dərk etməyin nəticəsidir. Bu, ictimai asayişin, sülh və təhlükəsizliyin təmin edilməsi müqabilində insanların öz hüquq və azadlıqlarını könüllü olaraq dövlətə verməsi yolu ilə baş verir. Lakin bu yolla ayrı-ayrı insanlar arasında münasibətlər süni və nisbi də olsa hər halda *mülki vəziyyətə* gətirib çıxarırsa, dövlətlər arasında münasibətlər təbii vəziyyətdə qalmaqda davam edir. Dövlətlər müstəqil olduqda heç bir məhdudiyyət onların əl-qolunu bağlamır. Hər bir dövlət nə qədər "qopara bilsə", hamısı ona məxsusdur və dövlət "qoparmış" olduğunu əldə saxlaya bilirsə, bu vəziyyət davam edəcəkdir. Beləliklə, dövlətlərarası münasibətlərin yeganə "tənzimləyicisi" güc, qüvvədir, bu münasibətlərin iştirakçıları özləri isə silahlarını hazır vəziyyətdə saxlayaraq bir-birinin davranışını izləyir.

Siyasi tarazlıq nəzəriyyəsi də bu paradiqmanın bir növüdür. Onun tərəfdarları arasında holland mütəfəkkiri *Benedikt Spinoza* (1632-

[1] T.Hobbs XVII əsr İngiltərəsində dramatik hadisələrin fəal iştirakçılarından olmuşdur. Monarxist olan Hobbs parlament tərəfdarlarından canını qurtararaq Fransaya mühacirət edib orada gənc *II Karlın* (edam edilmiş *I Karlın* oğlu) tərbiyəçisi olur. O, 1651-ci ildə vətənə qayıdır və *Kromvelin* respublikaçı hökuməti ilə barışır.

Hobbs özünün başlıca əsərlərində [*"Fəlsəfənin əsasları"* (1642); *"Leviafan"* (1651); *"Begemot"* (1668)] ictimai müqavilənin yeni nəzəriyyəsini irəli sürür. Bu yeni nəzəriyyə onun rədd etdiyi İngiltərə inqilabı hadisələrinin təhlili nəticəsində meydana gəlmişdi. Hobbsun ictimai müqaviləsi ədalətli ictimai quruluşa dair antik və orta əsr baxışları ilə müqayisədə irəliyə doğru böyük bir addım oldu və liberalizm nəzəriyyəsinin inkişafına təkan verdi.

[2] Bellum omnium contra omnes (lat.). Hobbsa görə bəşər cəmiyyətinin dövlət yaranana qədərki təbii vəziyyəti.

[3] 1) Bibliya mifologiyasında nəhəng timsaha bənzər çox iri dəniz əjdahası. Məcazi mənada: çox dəhşətli və nəhəng şey. 2) *T.Hobbsun* dövlət problemlərinə həsr olunmuş əsərinin adı [*"Leviafan, yaxud Materiya, kilsə dövlətinin və mülki dövlətin forma və hakimiyyəti"* (1651)].

1677), ingilis filosofu *Devid Hyum* (1711-1776), eləcə də yuxarıda adını çəkdiyimiz isveçrəli hüquqşünas ***Emerik dö Vattel*** qeyd edilə bilər. Məsələn, dövlətlərarası münasibətlərin mahiyyətinə Vattelin baxışı *Hobbsun* baxışları qədər dumanlı deyildir. Onun fikrincə, dünya dəyişmişdir və ən azı *"Avropa - hər şeyin dünyanın bu hissəsində yaşayan millətlərin münasibətləri və müxtəlif maraqları ilə əlaqədar olduğu müəyyən siyasi sistemdir. Bu sistem bir vaxtlar olduğu kimi, hər biri özünü başqalarının taleyində az maraqlı hesab edən və bilavasitə ona dəxli olmayan məsələlərin qeydinə çox nadir hallarda qalan ayrı-ayrı hissəciklərin nizamsız çoxluğu deyildir"*. Suverenlərin (hakimiyyəti təmsil edənlər) Avropada baş verənlərə daim diqqət yetirməsi, səfirlərin daimi mövcud olması, daimi danışıqlar müstəqil Avropa dövlətlərində milli maraqlarla yanaşı, burada asayişin və azadlığın qorunub saxlanmasında ümumi maraqların formalaşmasına şərait yaradır. Dö Vattel göstərir ki, *"məhz bu məqam siyasi tarazlıq, hakimiyyət tarazlığı barədə məşhur ideyanın yaranmasına səbəb olmuşdur. Bu halda elə qayda nəzərdə tutulur ki, heç bir dövlət başqa dövlətlər üzərində mütləq üstünlüyə malik olmasın və onlar üçün qanunlar müəyyən edə bilməsin" [Вattмелъ, 1960, cmp. 451].*

Eyni zamanda, *E.dö Vattel* klassik ənənələrə tam müvafiq olaraq belə hesab edirdi ki, ayrı-ayrı şəxslərin maraqları millətin (dövlətin) maraqları ilə müqayisədə ikinci dərəcəlidir. Öz növbəsində, *"əgər söhbət dövləti xilas etməkdən gedirsə, qonşu dövlətin güclənməsinin sizin dövlətin təhlükəsizliyinə qorxu yaradacağını güman etməyə əsas varsa onda həddən artıq ehtiyatlı olmağa dəyməz. Əgər təhlükə ehtimalının mövcud olmasına bu dərəcədə asanlıqla inanırlarsa, bunun təqsirkarı sizin qonşunuzdur, görünür, o, özünün məkrli niyyətlərinin müxtəlif əlamətlərini göstərmişdir"* [*bax:* yenə orada, səh. 448]. Bu o deməkdir ki, təhlükəli dərəcədə inkişaf edən qonşuya qarşı preventiv (önləyici) müharibə qanuni və ədalətlidir. Lakin əgər həmin qonşunun qüvvəsi başqa dövlətlərin qüvvəsindən xeyli artıqdırsa, onda necə etməli? Dö Vattel cavab verir ki, bu halda *"ən qüdrətli dövlətə qarşı davam gətirə biləcək və onun öz iradəsini diktə etməsinə mane ola biləcək koalisiyalar yaratmaq... daha sadə, daha münasib və daha düzgün olar. Hazırda Avropanın suveren dövlətləri bu cür hərəkət edirlər. Onlar bir-birini çəkindirməli olan, tərəzinin yüngül tərəfində pərsəng (çəki daşı) rolu oynamaqla tərəzinin hər iki gözünü bərabər səviyyədə saxlamaq üçün nəzərdə tutulan təbii rəqiblər olan iki əsas dövlətdən hansı daha zəifdirsə ona qoşulurlar" [bax: Вattмелъ, 1960, cmp. 451].*

Ənənəvi istiqamətə paralel olaraq daha bir istiqamət nəzəri maraq doğurur. Avropada bu istiqamətin yaranmasını stoisizm fəlsəfəsi ilə, xristianlığın inkişafı ilə, Dominikan mənşəli ispan ilahiyyatçısı ***Fransisko dö Vittorianın,*** hollandiyalı hüquqşünas ***Hüqo Qrotsinin,*** alman filosofu və alimi, klassik alman idealizminin banisi **İmmanuil Kantın,** ingilis filosofu, liberal demokratiyanın atası **Con Lokkun** və başqa mütəfəkkirlərin baxışları ilə əlaqələndirirlər. Bu yeni istiqamət bəşəriyyətin mənəvi və siyasi vəhdəti haqqında, eləcə də insanın ayrılmaz, təbii hüquqları haqqında ideyaya əsaslanır. Bu ideya müxtəlif dövrlərdə müxtəlif mütəfəkkirlərin baxışlarında müxtəlif formalar kəsb etmişdir *[Huntzinger, 1987, p. 30].*

Məsələn, **Fransisko dö Vittoria** (1480-1546) belə hesab edir ki *[Крамкий очерк.., 1993, cmp. 8-9; Пикте, 1993, cmp. 27-28; Huntzinger, 1987, p. 30],* dövlətlə insanın münasibətlərində üstünlük insana məxsusdur, dövlət isə insanın salamat qalması probleminin həllini asanlaşdıran adi zərurətdən başqa şey deyildir. Digər tərəfdən, bəşəriyyət vəhdət təşkil etdiyi üçün onun hər hansı şəkildə ayrı-ayrı dövlətlərə bölünməsi ikinci dərəcəli və sünidir. Buna görə də insanın sərbəst yerdəyişmə hüququ onun normal, təbii hüququdur. Başqa sözlə desək, ***Vittoria insanın təbii hüquqlarını dövlətin səlahiyyətlərindən üstün tutur, bu məsələnin liberal-demokratik şərhini də qabaqlayır.***

Hüquqşünas, sosioloq və dövlət xadimi **Hüqo Qrotsi**[1] (1583-1645) *"təbii hüquq"* konsepsiyasını inkişaf etdirərək, ayrı-ayrı dövlətlərin öz aralarındakı münasibətlərdə bunu rəhbər tutduqları

[1] Hüqo Qrotsi təbii hüquq nəzəriyyəsi və beynəlxalq hüquq elminin banilərindən biridir. Onun *"Azad dəniz"* (1609) adlı ilk iri əsərində dənizlərin azadlığı prinsipi müdafiə olunur. *"Müharibə və sülh hüququ haqqında"* (1625) əsəri beynəlxalq hüquq problemlərinə həsr edilmişdir, lakin əsərdə dövlət və hüququn ümumi məsələlərinə də toxunulmuşdur.

beynəlxalq hüququn əsasını qoymuşdur. Onun bu istiqamətdə səyləri bəyənilmiş və daha sonralar beynəlxalq hüquq ideyasına təsir göstərmişdi, bu ideya isə öz mücəssəməsini Millətlər Cəmiyyətinin və Birləşmiş Millətlər Təşkilatının yaranmasında tapmışdır.

Qrotsi, eyni zamanda, "təbii hüquq" konsepsiyasının formasını inkişafda olan stoisizmlə və xristian teologiyası ilə elə dəyişmişdir ki, o, özünün teoloji və konfessional köklərini itirmişdir. Bu şəkildəyişmə antiklerikal mövqenin ifadəsi deyil, "təbii hüquq"un yeni situasiyaya uyğunlaşmasını ifadə edirdi: bu situasiyada keçmişlə müqayisədə, siyasi və hüquqi aspektlər dini aspektlərdən kifayət qədər ayrı idi. Əgər beynəlxalq hüquq hər şeyə tətbiq edilərsə, onda onun təbii-hüquqi əsaslandırılması xristian dinindən asılı olmamalıdır. Buna görə də, siyasi və hüquqi razılıq üçün həm dövlətlərarası münasibətlərdə, həm də ayrıca dövlətin daxilində daha çox dünyəvi əsas tapmaq lazımdır. Qrotsi bu mənada "təbii hüquq" konsepsiyasını yeni situasiyaya uyğunlaşdırdı.

Onun "Müharibə və sülh hüququ haqqında" adlı əsəri daha çox məşhurdur. Adından göründüyü kimi, Qrotsi müharibə də daxil olmaqla, bütün şəraitlərdə tətbiq oluna bilən hüquq ideyasını işləyib hazırlamışdır. Allah insanlara birgə yaşamaq təbii ehtiyacını *(appetitus societatis)* vermişdir, bu, teologiyadan və xilaskara (məsihaya) olan inamdan asılı olmayaraq, bütün insanlar tərəfindən qəbul oluna bilər. Dinc yanaşı yaşama zərurəti fundamental xarakter kəsb edir və onun reallaşması üçün müəyyən qanunlara hamı riayət etməlidir. Məsələn, vədinə əməl etmək və bərabərliyə riayət etmək zəruridir.

Belə bir təbii-hüquqi mövqe Allahın normaların Yaradıcısı və Tərədicisi (Lüter) olaraq volyuntarist anlamının təkzibinə gətirib çıxarır. Allahın istədiyi hər bir şeyin düzgün olduğunu israr edən volyuntarist-

1598-ci ildə Qrotsi Orleanda hüquqşünaslıq doktoru, 1599-cu ildə isə Haaqada vəkil olmuşdur. Sonra o, 1613-cü ildə Rotterdamda çox yüksək mövqe tutana qədər müxtəlif dövlət vəzifələrində çalışmışdır. 1618-ci ildə o, dini-siyasi ittihamlar əsasında ömürlük həbs cəzasına məhkum olunmuşdu, ancaq Fransaya, *XIII Lüdovikin* (1601-1642) yanına qaça bilmişdi (kitab sandığında). Burada o, İsveç elçisi təyin edildi. Bir neçə müddət keçdikdən sonra, İsveç kraliçası *Kristina* (1629-1689) onu İsveçin şimalına göndərdi, buranın pis iqlimi və onun zəif səhhəti onun ölümünə səbəb oldu.

lər haqlı deyillər. Əksinə, Allah düzgün olan şeyi istəyir, çünki O, düzgündür. Buna görə də düzgünlük həmişə mövcuddur və ümumi xarakter daşıyır. O, hər bir kəs tərəfindən qəbul oluna bilər. Qrotsi, dövlətin dünya birliyində bərabərhüquqlu üzv olması üçün yerinə yetirməli olduğu şərtləri göstərir. Dövlətin ölçüləri burada heç bir məna kəsb etmir. Təkcə dövlətin sabitliyi və bağladığı müqavilələri dəstəkləyə bilməsi mühümdür. Bu meyarlar başqa sözlərlə ifadə olunaraq indi, bizim günlərdə də istifadə olunur (BMT nümunəsi). Zəif yer, əlbəttə ki, beynəlxalq hüququn yerinə yetirilməsini məcbur edən və hamı tərəfindən qəbul olunan təsisatların olmamasıdır. Müəyyən mənada, orta əsrlərdə onun funksiyasını kilsə yerinə yetirirdi. Ancaq Reformasiyadan[1] sonra, o, ayrı-ayrı dövlətlərlə inteqrallaşan iki hissəyə bölündü.

İngilis filosofu, liberalizmin banisi **Con Lokk**[2] (1632-1704) "İdarəetmə haqqında iki traktat" kitabında "təbii hüquq"un teoloji şərhinə qarşı çıxır. Bu şərhə əsasən, mütləqiyyətin sarsılmazlığı haqqında müddəa ortaya atılırdı. İnsanı eqoist varlıq hesab edən *Hobbsdan* fərqli olaraq, Maarifçilik dövrünün ideallarına sadiq olan Lokk inanırdı ki, insan xeyirin daha sərfəli olduğunu dərk etməyə qadirdir. Qorxu deyil, ağıl insanları dövlətdə birləşməyə məcbur edir. İnsanın "təbii vəziyyət"indən çıxaraq dövlətə verdiyi yeganə "təbii hüquq"u ümumi razılıqla qəbul olunmuş qanunlar əsasında öz vətəndaşını mühakimə etmək və cəzalandırmaq haqqıdır. Cəmiyyətdə insanların iradəsi ümumi razılıqla qəbul olunmuş qanunlardan başqa heç nə ilə əngəllənmir. Dövlət insanların həyatı, azadlığı və mülkiyyətini qorumalı, cəmiyyəti xarici təcavüzdən müdafiə etməlidir.

[1] XVI əsrin birinci yarısında Avropada protestantizmin əsasını qoymuş antifeodal və antikatolik hərəkatı. Reformasiyanı bəşəriyyət tarixində birinci burjua inqilabı sayırlar.

[2] Lokk orta səviyyəli protestant ailəsində doğulub. Atası əqidəli demokrat idi və Birinci İngiltərə inqilabında parlament tərəfində vuruşub. Lokk Oksfordda yaxşı təhsil alıb. Monarxiyanın bərpasından sonra *II Karlın* vaxtında diplomatik xidmətdə olub. Lakin o, həmişə Viqlər partiyasına (Britaniyanın gələcək Liberal partiyası) rəğbət bəsləmişdir. Bu partiya kral hakimiyyətinin məhdudlaşdırılmasının tərəfdarı idi. Viqlərin *II Karla* qarşı üsyanı amansızlıqla yatırılır və Lokk 1683-cü ildə Hollandiyaya qaçmalı olur. 1689-cu ildə Şanlı inqilabın qələbəsindən sonra Lokk yeni kral *Oranlı Vilhelmlə* birlikdə vətənə dönərək təntənə ilə qarşılanır və tezliklə viqlərin qəbul etdiyi intellektual liderə çevrilir. Avropa maarifçiliyinin formalaşmasında Lokk böyük rol oynayıb.

Dövlət qanunlara əməl olunmasına nəzarət etməli və insanların mübahisələrinin həllində yalnız münsif kimi xidmət etməlidir.

Lokk yazır ki, inkişaf və tərəqqi insana doğulduğu gündən təbiət tərəfindən verilmiş öz təbii hüquqlarını başa düşmək üçün əlverişli zəmin yaradır. Lakin insan avtarkiya vəziyyətində, onu əhatə edən hər şeydən təcrid olunmuş halda yaşaya bilməz. Sosial gerçəklik fərdi ittifaqlara və cəmiyyətlərə cəlb edir və burada o, fasiləsiz fəaliyyət göstərən dünya sisteminin bir hissəsinə çevrilir. Təbiətin özünün yaratdığı bu konstruksiyada insan ümumi prosesin yalnız bir hissəciyidir və hətta onun tərkib hissəsi olsa da, qərarların qəbul edilməsində və öz hərəkətlərində azaddır.

Lokka görə suveren xalqın özüdür. Hətta xalqın özünün yaratdığı dövlət hakimiyyəti də, *Hobbsun* iddia etdiyi kimi, mütləq deyil, o, insan haqları ilə məhdudlaşdırılmalıdır. Və insan dövlətin zorakılığına şərtsiz müqavimət göstərmək haqqına malikdir. Aydındır ki, bu nəzəriyyə mütləqiyyətlə ideoloji mübarizənin əsasını təşkil etmişdir. Lokku hətta o da çəkindirmirdi ki, bu nəzəriyyə vətəndaş müharibəsinə aparır. Onun fikrincə, bu halda öz haqlarını müdafiə edənləri yox, vətəndaşların haqlarını tapdalayaraq bu müharibəni törədənləri suçlandırmaq lazımdır.

Lokkun dəqiq və başadüşülən şəkildə əsaslandırdığı klassik liberalizm prinsipləri tezliklə Qərbdə populyarlıq qazanır və yüz ildən sonra Amerika və Fransa inqilablarının əsas sənədlərində öz əksini tapır.

Nəzərdən keçirdiyimiz istiqamət həmişə beynəlxalq münasibətlərin hüquqi və mənəvi tənzimlənməsi yolu ilə, yaxud tarixi zərurətin reallaşması ilə əlaqədar başqa yollarla - insanlar arasında əbədi sülhə nail olmağın mümkünlüyünə inamla müşayiət olunmuşdur. Məsələn, **İmmanuil Kanta**[1] (1724-1804) görə, ayrı-ayrı insanlar arasında ziddiyyətlərə və tamahkarlığa əsaslanan münasibətlər son nəticədə labüd olaraq hüquqi cəmiyyət yaradılmasına gətirib çıxa-

[1] İmmanuil Kant bütün həyatını Şərqi Prussiyada, Königsberqdə (indi Kaliningrad) keçirmişdir. Onun atası sənətkar idi. Kanta böyük təsir göstərən amil protestant pietizmi olmuşdur. Zahirən, o, ev müəllimliyi ilə başlayan və professorluqla başa çatan sadə həyat

racaqdır, gələcəkdə dövlətlər arasında münasibətlər əbədi və harmonik tənzimlənən dünya vəziyyəti ilə tamamlanmalıdır *[Философия Канта.., 1974, гл. VII]*. Kanta görə, beynəlxalq miqyasda "hamının hamıya qarşı mübarizəsi" baş verir. Müstəqil dövlətlər arasındakı münasibətlərdə qanunsuzluğun təbii vəziyyəti mövcuddur. Beynəlxalq siyasətdə "güclü hüququ" üstünlük təşkil edir. Kant bu vəziyyəti layiqsiz və ağılsız vəziyyət kimi nəzərdən keçirir. Bu sferada biz, həmçinin *"öz ağlımızdan istifadə etmək cəsarətinə malik olmalıyıq"*.[1] *"Əbədi sülh haqqında"* (1795) adlı kiçik bir essedə o, müstəqil dövlətlərin qarşılıqlı münasibətlərini tənzimlə-

sürmüşdü. Onun həyat tərzi düzgün idi və pedantizmə qədər ölçülüb biçilmişdi. Kantın bioqraflarından biri yazırdı ki, Kantın həyatı düzgün fellərin ən düzgününə köklənmişdi: "Durmaq, kofe içmək, yazmaq, mühazirə oxumaq, nahar etmək, gəzmək". *Heyne* yazırdı ki, bunların hər birinin öz müəyyən vaxtı vardı. O zaman ki, Kant özünün boz kostyumunda, əlində əl ağacı öz evinin qapısı ardında görünürdü və çökə ağacları ilə əhatə olunmuş xiyabana doğru gedirdi, qonşular bilirdilər ki, artıq saat dördün yarısıdır. Bunu camaat "filosofun gəzintisi" adlandırırdı. O, ilin bütün fəsillərində burada aşağı və yuxarı gəzişirdi. Onun bütün zehni və mənəvi enerjisi nəzəri tədqiqatlara həsr olunmuşdu. Onun əsərləri arasında *"Xalis zəkanın tənqidi"* (1781), *"Praktik zəkanın tənqidi"* (1788) və *"Mühakimə qabiliyyətinin tənqidi"* (1790) xüsusi yer tutur. Siyasi nəzəriyyəyə dair əsərlər arasında *"Kosmopolit nöqteyi-nəzərindən ümumdünya tarixi ideyaları"nı* (1784), *"Əxlaqın metafizikasının əsasları"nı* (1785) və *"Əbədi sülhə dair"* (1795) adlı əsəri qeyd edə bilərik. Kantın sosial-siyasi görüşlərinin təməl prinsipi ondan ibarətdir ki, hər bir şəxs mükəmməl ləyaqətə, mütləq dəyərə malikdir. İnsan - onu əhatə edən təbiətdən kökündən fərqli olan, əxlaqi şüurun subyektidir - davranışlarında əxlaq qanunlarının hökmlərini rəhbər tutmalıdır. Kant bunu "qəti imperativ" olaraq ifadə etmişdi. O, belə səslənir: "Elə et ki, davranışın əxlaq qaydası və ümumqanunvericilik prinsipləri ilə birlikdə olsun". Başqa sözlə: elə et ki, sənin davranışın hər kəs üçün nümunə olsun. Birinin başqalarına qarşı münasibətdə zorakılığını qanun vasitəsi ilə məhdudlaşdıran şərtlərin cəmini Kant hüquq adlandırmışdı. Hər bir qanun məcburi qanun kimi çıxmalıdır. Təkcə, məcburiyyətin ən qədim və birinci daşıyıcısı olan dövlət hüquqa bu cür vacib xassələrini verə bilər. Kant tərəfindən irəli sürülən və müdafiə edilən, dövlətin rifahı və təyinatı - mükəmməl hüquqda, dövlət quruluşunun və rejiminin hüquq prinsiplərinə maksimum uyğun olmasındadır tezisi, onu hüquqi dövlət nəzəriyyəsinin banilərindən biri saymağa əsas verir. *Kanta görə, hər bir dövlət üç gücə malikdir: qanunverici (ancaq suveren olan "xalqın kollektiv iradəsinə" məxsusdur), icraedici (qanuni rəhbərin əlində cəmləşmişdir və icraedici, ali hakimiyyətə tabedir), məhkəmə (icraedici hakimiyyət tərəfindən təyin olunur). Bu üç gücün subordinasiyası və uzlaşması despotizmi önləməyə və dövlətin firavanlığını təmin etməyə qadirdir. "Daimi dünya" adlı geosiyasi nəzəriyyəsində Kant respublika idarəçilik sistemi əsasında dünyada beynəlxalq və dövlətlərarası münasibətlər qurmağa və bu əsasda da bəhs olunan "sabit dünya"nı yaratmağa çağırırdı.*

[1] Sapere aude! (lat.) - öz ağlından istifadə etmək cəsarətinə malik ol! Bu ifadə *Horatsiyə* məxsusdur.

məli olan ümumdünya *"Millətlər Cəmiyyəti"* barədə ideyanı müdafiə edir. Millətlər Cəmiyyəti ideyası əsasən, elə onun hüquq fəlsəfəsinin əsasında yaranır: Millətlər Cəmiyyəti münaqişələrin tənzimlənməsi və dinc yanaşı yaşamanın universal prinsipləri üzərində qurulmalıdır. Başqa cür deyilsə, bütün tərəflər bu prinsipləri dəstəkləmək iqtidarında olmalıdır. Təcrübə, əlbəttə, göstərir ki, bunu demək etməkdən daha asandır: dövlətlərin bəzisi kiçik və zəifdir, digərləri isə böyük və güclüdür. Buraya da əlavə olunmalıdır ki, dövlətlər, məlum olduğu kimi, həmçinin əks mənafelərə də malik ola bilər. Onlar müxtəlif iqtisadi sistemlərə malikdirlər və çox vaxt müxtəlif siyasi ideologiyalara əsaslanırlar. Belə dövlətlər hansı prinsiplər barədə razılığa gələ bilərlər? Kanta görə, münaqişələrin tənzimlənməsi üçün ədalətin yalnız "kövrək" prinsipləri yararlıdır, məsələn: *"heç bir müstəqil dövlət (böyük və ya kiçik - bunun əhəmiyyəti yoxdur) başqa bir dövlət tərəfindən ələ keçirilə bilməz, nə miras yolu ilə, nə mübadilə yolu ilə, nə pulla alınma yolu ilə, nə də bağışlanma yolu ilə" [Кант, 1994, m.1, cmp. 359].*

Beynəlxalq münasibətlər prinsiplərinə yanaşmada, Kant üçün səciyyəvi olan cəhət odur ki, o, beynəlxalq münasibətlərə aid məsələlərin dini və ideoloji məsələlərdən ayrılmasına sistematik olaraq səy göstərir. Dövlətlərin bütün mübahisəli problemlər üzrə razılığa gəlməsi gərək deyildir. Kifayətdir ki, onlar *modus vivendi*[1] forması barədə razılığa gəlsinlər. Kant aşkar bir şəkildə vurğulayır ki, məqsəd heç də bütün xalqların qardaşlıq ailəsinin yaradılmasından deyil, sadəcə olaraq, dinc cəmiyyətin yaradılmasından ibarətdir. Kantın sülh fəlsəfəsi özünün ilk irimiqyaslı mücəssəməsini İkinci Dünya müharibəsindən sonra, BMT-nin yaranması zamanı tapdı.

Kant yazırdı ki, millətlər üçün elə bir vaxt gəlib çatmışdır ki, onlar vəhşi təbiətli dövlətlərdən xilas olmalı və sülh müqaviləsi bağlamalıdırlar *[bax: Dürant, 2006, səh. 272]*. O, militarizmə diqqətin çox olmasını Avropanın Amerikaya, Afrikaya və Asiyaya genişlənməsi ilə əsaslandırırdı. Kantın nöqteyi-nəzərincə, bunun nəticəsində yeni

[1] Modus vivendi (lat.) - mövcud olma, yanaşı mövcud olma şəraiti, müharibə edən tərəflərin müvəqqəti sazişi.

qənimət əldə etmək istəyən dövlətlər arasında qarşıdurmalar baş vermişdir. *"Əgər biz qonaqsevməzliyin bu barbar nümunəsini ...bizim qitənin sivilizasiyalı və ticari dövlətlərinin xarici dövlətlərlə və xalqlarla, hətta birinci təmas zamanı qeyri-insani rəftarı və törətdikləri ədalətsizliklə müqayisə etsək, içərimizi dəhşət hissi bürüyər. Belə xalqların, sadəcə, başqa ölkələrə baş çəkməsi onlar üçün işğalın ekvivalenti kimi başa düşülür. Amerikaya bir kölə, zənci ölkəsi, ədviyyat adaları, gözəl ümidlər mağarası kimi baxdılar, bu ölkə ilə elə rəftar etdilər ki, sanki bu, qarətə məruz qoyulmalı olan sahibsiz bir evdir. Aborigen əhali bir heçlik kimi tanındı... Bütün bunlar o millətlər tərəfindən törədildi ki, onlar öz möminlikləri barəsində böyük səs-küy yaratmışdılar və ədalətsizliyi, haqsızlığı, qanunsuzluğu sanki su kimi içirdilər, onlar öz dinindən, ortodoksal inamından olanlara belə münasibət göstərərdilərmi?"* [*bax:* Dürant, 2006, səh. 274-275].

Kant bu imperialist tamahkarlığı Avropa dövlətlərinin oliqarxik konstitusiyalarına aid edir. Qənimət seçilmiş azlığa qismət olur və hətta bölgüdən sonra da substansional olaraq qalır. Əgər demokratiya təsis olunubsa, siyasi hakimiyyətdə hər şey bölünübsə, beynəlxalq qarətin qəniməti də bölüşdürüləcəkdir. O vaxtdan da "Əbədi sülh konstitusiyalarında ilk müəyyənedici maddə" belə olacaqdır: *"Vətəndaş konstitusiyası dövləti respublikaya çevirəcək, müharibə yalnız o halda elan ediləcəkdir ki, buna bütün vətəndaşlar qərar vermiş olsun".*

Təəccüblü deyildir ki, Kantın siyasi fəlsəfəsinin bir çox aspektlərində onun zəmanəsinin problemlərinin izi görünür. Kant Maarifçiliyin övladıdır. Bu istiqamətin nümayəndələri, əslində, mövcud olanlardan daha çox olması ehtimal edilənlərə, müvafiq fəlsəfi ideyalara əsaslandığına görə, onlar **idealist** istiqamətin tərəfdarları adlanır.

XIX əsrin ortalarında **marksizmin** yaranması beynəlxalq geosiyasi münasibətlərə baxışlar barədə daha bir paradiqmanın yaranmasından xəbər verirdi. Bu sonuncu, nə ənənəvi istiqamətə aid idi, nə də idealist istiqamətə. *K.Marksa* görə, ümumdünya tarixi kapitalizmlə bir vaxtda başlayır, çünki kapitalist istehsal üsulunun əsası vahid dünya bazarı yaradan iri sənaye, rabitə və nəqliyyat vasitələrinin inkişafıdır. Burjuaziya dünya bazarını istismar etməklə

bütün ölkələrdə istehlakı və istehsalı kosmopolitləşdirir və təkcə ayrı-ayrı kapitalist dövlətlərində deyil, bütün dünya miqyasında hakim sinfə çevrilir. Öz növbəsində burjuaziya, yəni kapital hansı dərəcədə inkişaf edirsə, proletariat da eyni dərəcədə inkişaf edir *[Маркс, Энгельс, 1955, стр. 430]*. Beləliklə, iqtisadi baxımdan beynəlxalq münasibətlər istismar münasibətlərinə çevrilir. Siyasi mənada isə bu münasibətlər ağalıq və tabelik münasibətləri, nəticə etibarilə sinfi mübarizə və inqilablar arasında münasibətlərdir. Deməli, milli suverenlik, dövlət mənafeləri ikincidir, çünki obyektiv qanunlar elə bir ümumdünya cəmiyyətinin təşəkkül etməsinə şərait yaradır ki, orada kapitalist iqtisadiyyatı hökm sürür, sinfi mübarizə və proletariatın ümumdünya-tarixi missiyası hərəkətverici qüvvədir. *K.Marks* və *F.Engels* yazırdı: "Burjuaziya, azad ticarət, dünya bazarı inkişaf etdikcə, sənaye istehsalı və ona müvafiq həyat şəraiti vahid şəklə düşdükcə xalqların milli bənzərsizliyi və ziddiyyəti getdikcə sürətlə aradan qalxır" *[yenə orada, səh. 444]*.

V.İ.Lenin isə, öz növbəsində qeyd edirdi ki, kapitalizm öz inkişafında dövlət-inhisarçı mərhələyə daxil olduqdan sonra imperializmə (lat. *imperium* - hakimiyyət, hökmranlıq) transformasiya etmişdir. O, "İmperializm kapitalizmin ən yüksək mərhələsidir" adlı əsərində (1916) yazır ki, dünyanın imperialist dövlətlər arasında siyasi bölgüsü (*bax:* **cədvəl 2**) dövrü başa çatanda onun inhisarlar arasında iqtisadi bölgüsü problemi ön plana keçir. İnhisarlar daim kəskinləşməkdə olan bazarlar problemi və mənfəət normasının daha yüksək olduğu ölkələrdən daha az inkişaf etmiş ölkələrə kapital ixracı zərurəti ilə üzləşirlər. Lakin bu halda onlar bir-biri ilə çox sərt rəqabətlə üzləşdiyindən göstərilən zərurət dünyada siyasi böhranların, müharibələrin və inqilabların mənbəyinə çevrilir.

Leninin imperializm nəzəriyyəsi başda SSRİ olmaqla sosialist ölkələrinin qəbul etdiyi yeni təlimin, beynəlxalq münasibətlərə yeni yanaşmaların əsasını qoydu. Bu təlimə əsasən, dövlətin beynəlxalq aləmdə fəaliyyətini onun sosial-iqtisadi durumu müəyyənləşdirir. Başqa sözlə, xarici siyasət sinfi mənafeyə tabe olur, dövlətlər arasındakı münaqişələr kapitalist istehsalının ziddiyyətlərinin ifa-

Cədvəl 2

Dünyanın bölüşdürülməsinin nəticələri

"Özək" ölkələr	Koloniyalar				Metropoliyalar		Bütövlükdə	
	1876-cı il		1914-cü il		1914-cü il		1914-cü il	
	mln. kv.km	mln. nəfər	mln. kv.km	mln. nəfər	mln. kv.km	mln. nəfər	mln. kv.km	mln. nəfər
İngiltərə	22,5	251,9	33,5	393,5	0,3	46,5	33,8	440,0
Rusiya	17,0	15,9	17,4	33,2	5,4	136,2	22,8	169,4
Fransa	0,9	6,0	10,6	55,5	0,5	39,6	11,1	95,1
Almaniya	–	–	2,9	12,3	0,5	64,9	3,4	77,2
ABŞ	–	–	0,3	9,7	9,4	97,0	9,7	106,7
Yaponiya	–	–	0,3	19,2	0,4	53,0	0,7	72,2
6 böyük dövlətin məcmu göstəricisi	40,4	273,8	65,0	523,4	16,5	437,2	81,5	960,6
Digər dövlətlərin (Belçika, Niderland və b.) koloniyaları							9,9	45,3
Yarımkoloniyalar (Persiya, Çin, Türkiyə)							14,5	361,2
Digər ölkələr							28,0	289,9
Bütün Yer kürəsi							133,9	1657,0

Mənbə: Ленин В.И. Полн. собр. соч., т. 27, стр. 377.

dəsi və nəticəsidir. Burjua siyasi elmindən fərqli olaraq, marksizm-leninizm xarici siyasəti siniflərə bölünmüş cəmiyyətin ümumi maraqlarının abstrakt ifadəsi yox, hər şeydən əvvəl, cəmiyyətdəki hakim sinfin iqtisadi, siyasi, ideoloji və s. maraqlarının müəyyənləşdirdiyi siyasətdir. Belə bir şəraitdə, yalnız sosializmin qələbəsi dünyada daimi sülhü təmin edə bilər *[bax: Brayar, Cəlili, səh. 20]*.

1.3. Geosiyasətin predmeti

Hər bir elm kimi geosiyasətin də öz tədqiqat predmeti var. Daim dəyişməkdə olan bu predmetin əhatə dairəsi təbiətin və bəşəriyyətin yeni-yeni problemlərini geosiyasi müstəvidə araşdırmağa başlayır. Dünyamız çoxqütblü və çoxölçülü, qlobal dünya siyasəti çoxsəviyyəli olduğu kimi geosiyasət də çoxsəviyyəli kompleks

fənnə çevrilmişdir. Müasir geosiyasət dövlətlərin mənafelərini əks etdirən qlobal, regional, subregional və dövlətdaxili səviyyələrdə hadisələrin inkişafını təhlil edir. Yeni amillərin təsiri altında dünya daim dəyişir, onun bazası yeni elementlərlə zənginləşir. Lakin bu elementlər coğrafi amilləri istisna etmir, özləri onlara əlavə edilir və müasir dünyanın geosiyasi modelini formalaşdırırlar. Bu model statik vəziyyətdən daha çox dinamik vəziyyətdə olur.

XX əsrin ortalarından başlayaraq sürətli elmi-texniki inqilab nəticəsində ***geosiyasətin predmetinin yeni elementləri*** sırasına iqtisadi proseslər də əlavə olunmuşdur. XX əsrin sonunda bu proseslərin dünyada siyasi vəziyyətə təsiri kəskin şəkildə artmışdır. Elmi-texniki inqilab, faydalı qazıntıların çıxarılması, işlənməsi, tullantıların utilləşdirilməsi və başqa amillərlə bağlı olan ictimai əmək bölgüsü iqtisadi proseslərin real qloballaşmasına gətirib çıxarmışdır. Bu, təkcə texniki-texnoloji və təşkilati planda ifadə olunmur. Beynəlxalq ticarət, kapitalın, investisiyaların beynəlxalq hərəkətində, işçi qüvvəsinin, valyutanın və informasiya axınının yerdəyişməsində də qloballaşma aşkar görünür. Bu və digər proseslər beynəlxalq həyatın bütün sahələrinə təsir göstərir. XXI əsrdə iqtisadi amillərin təsiri daha da artmış, dövlətlərarası və millətlərarası münasibətlərin bütün növləri arasında iqtisadi münasibətlər birinci yerdə möhkəmlənmişdir. Ona görə də bu gün iqtisadi amillər təhlil edilmədən geosiyasi şəraitin hər hansı şəkildə təhlil edilməsi elmi cəhətdən əsaslandırılmış nəticələr çıxarmağa imkan verməyəcəkdir.

İqtisadi proseslər, elmi-texniki inqilab ətraf mühitə, ekoloji şəraitə, insanın özünə, cəmiyyətə (istehsalın yerləşdirilməsi, işçi qüvvəsinin yerdəyişməsi, yeni şəhərlər salınması və s.) getdikcə daha çox təsir göstərir. Beynəlxalq münasibətlərin bütün formalarının müəyyən edilməsində iqtisadi maraqlar ön plana keçir. Planetdə baş verən qlobal iqtisadi proseslər yüksək dərəcədə dinamikliyi ilə fərqləndiyinə görə onlar müasir geosiyasi şəraitin dəyişkən olmasını şərtləndirir.

Ölkələrin coğrafi şəraiti isə geosiyasətdə ikinci yerə keçmişdir. Lakin bu iki mühüm amil müasir dünyanın geosiyasi vəziyyətini, dövlətlər, xalqlar arasında münasibətlərin dinamikasını tam xarakterizə etməyə, beynəlxalq münasibətlərdə və beynəlxalq siyasətdə ayrıca bir ölkənin və ya ölkələr qrupunun yerini konkret müəyyən etməyə imkan vermir. Bundan əlavə, *geosiyasətə güclü təsir göstərən və onun tədqiqat predmeti olan bir sıra başqa məsələlər* də var:

1) Elmi-texniki inqilabın (ETİ) məhsulu olan hərbi-texniki vasitələr: kütləvi qırğın silahları və onlardan istifadə niyyəti, düşmənin silahının aşkar və məhv edilməsi, qoşunların və onların manevrlərinin idarə edilməsi və s. Hərbi sahədə müasir dövrdə elə vəziyyət yaranmışdır ki, bu, geosiyasət banilərinin "xarici aypara" ("Hartlənd") ölkələrinin toxunulmaz olması barədə əsas tezisini şübhə altına alır;

2) ETİ elektron və rəqəmsal rabitə vasitələrinin inkişafına mühüm töhfə vermişdir. Onlar "kommunikativ" dünya birliyini, o cümlədən internet şəbəkəsini formalaşdırmışdır. Əvvəllər çox böyük məsafələrlə bir-birindən ayrı düşmüş ölkələr və xalqlar indi elektron ünsiyyət müstəvisində əslində qonşu olmuşlar. Cəmiyyətin bütün sahələrində həyatın axarı çox cəhətdən elektron rabitənin vəziyyətindən asılıdır, lakin hərbi və iqtisadi sahələr birinci dərəcəli əhəmiyyət kəsb edir;

3) Yeni texnika və texnologiyaların işlənib hazırlanması ilə məşğul olan elmlərin, eləcə də beynəlxalq münasibətlərdə geosiyasi xəttin strategiya və taktikasını təmin edən ictimai-siyasi elmlərin inkişaf sürətinin əhəmiyyəti artmışdır;

4) Əhalinin təhsil və mədəniyyət səviyyəsi də bundan əvvəlki amilə yaxındır. Texnologiyaların praktikada tətbiqi, iqtisadi sahənin, elmin, hərb işinin inkişafı xeyli dərəcədə məhz bu keyfiyyətlərdən asılıdır;

5) Qeyri-hökumət təşkilatlarının (QHT) meydana gəlməsi və inkişafı İkinci Dünya müharibəsindən sonrakı beynəlxalq münasibətlər sisteminin və dünyanın müasir geosiyasi strukturunun vacib əlamətlərindən biri hesab olunur. Bəzi mütəxəssislər, hətta QHT-ləri "dünyanın yeni hakimləri" adlandırırlar *[Spiro, 1995, p. 45-56]*. Məsələn, BMT tərəfindən 1991-ci ildə İraqa və 1992-ci ildə Somaliyə hərbi müdaxiləyə imkan verən qətnamə-

lərin qəbul edilməsində üzv ölkələrin deyil, daha çox QHT-lərin məlumatlarının əsas götürülməsi bu fikri bilavasitə təsdiq edir.

6) Sinfi və soyuq müharibələrin başa çatması ilə beynəlxalq aləmin geosiyasi tarazlığına dinin təsiri getdikcə artmaqdadır;

7) Beynəlxalq səhnədə qeyri-dövlət aktorları olan beynəlxalq terrorçu qruplaşmalar, hərbi separatçı hərəkatlar, etnik və dini ekstremizm, mütəşəkkil cinayətkarlıq şəbəkələri, habelə qeyri-qanuni miqrasiya, narkotik maddələr və insan alveri, kütləvi qırğın silahlarının yayılması, vacib enerji və nəqliyyat infrastrukturunda sabotaj riski və son illərin fenomeni olan kiber hücumlar qlobal və regional təhlükəsizlik mühitinə ciddi təsir göstərən amillərə çevrilmişdir;

8) Dövlətin siyasi rejiminin fəaliyyət səmərəliliyinin, vətəndaşların təfəkkürü və hakim elitanın səriştəsinin, ölkə əhalisinin, cəmiyyətin qanunlara və ictimai davranış normalarına əməl etmə vərdişlərinin geosiyasi vəziyyətə təsiri artmışdır;

9) Elmi-texniki tərəqqi nəticəsində keçən əsrlərdə əsas kimi götürülən ayrı-ayrı geostrateji və coğrafi müdafiə elementlərinin - geniş ərazilərin, sərhədlərin qorunmasında okeanın, dəniz, dağ, çay, meşə və təpələrin rolu azalmışdır. Bununla yanaşı, elektron və rəqəmsal rabitə vasitələrinin inkişafı nəticəsində bir çox ənənəvi kommunikasiya növlərinin əhəmiyyəti ciddi şəkildə aşağı düşmüşdür. Əvəzində, enerji ehtiyatlarının daşınmasında boru kəmərlərinin, gəmiçilik və tankerlərin, dəmir yollarının, hava daşımasının rolu xeyli artmışdır. Beynəlxalq aləmdə artıq böyük ölkələrin deyil, daha çox ciddi elmi, informasiya, innovasiya potensialı, inkişaf etmiş texnologiyaları və geniş maliyyə vəsaiti olan ölkələrin rolu güclənmişdir;

10) Geosiyasi və regional problemlərin həllində son zamanlar hərbi qüvvə, "lokal müharibələr" (Əfqanıstan, İraq müharibələri və s.) daha çox tətbiq edilir. Planetin əsas ziddiyyətləri: dünyanın bölüşdürülməsi və xammal mənbəyi uğrunda rəqabət, iqtisadi qarşıdurma, satış bazarları uğrunda mübarizə getdikcə daha da kəskinləşir. Buna görə də silahlı qüvvələrin keyfiyyətinə: onların yaxşı təlim keçməsinə, təchizatına, idarə edilməsinə dair tələblər

artmaqdadır. Geosiyasətin yeni elementinin yaranması - nüvə dövlətlərinin sayının artması, onların beynəlxalq arbitr hüququnu mənimsəməsi bəşəriyyəti getdikcə daha çox narahat edir;

11) Asiya qitəsinin cənubunda - Cənub-Şərqi Asiya ölkələrində demoqrafik vəziyyət "böyük güclər"in dünyadakı geosiyasi tarazlığına güclü təsir göstərir. Burada iqtisadi, sosial, hərbi, ekoloji və başqa problemlər kompleksi yaranır *[Маринченко, 2009, стр. 7-8]*.

1.4. Geosiyasi dövrlər

Bəşəriyyətin tarixini geosiyasi dövrlərin (mərhələlərin) ardıcıl olaraq bir-birini əvəz etməsi kimi qəbul etmək olar. Hər bir geosiyasi dövrün (mərhələnin) özünəməxsus qüvvələr balansı, təsir zonaları, sərhədləri olmuşdur.

Dünyanın geosiyasi strukturunun formalaşması tarixinin çərçivələri ilə geosiyasi və beynəlxalq münasibətlərin dövrləşmə tarixi üst-üstə düşür. **Qərb tədqiqatçıları dünyanın geosiyasi strukturunun formalaşması, yaxud "dünya birliyi"nin yaranması və onun üzərində geosiyasi nəzarətin üç dövrünü xüsusi fərqləndirirlər** *[Gilpin, 1983]*.

Birinci dövr: Avropada milli dövlətlərin yaranması və dünya müstəmləkəçilik hərəkatının başlanması, Yer kürəsi üzərində imperiya nəzarət sisteminin bərqərar olması (bu, geosiyasi dövrləşmənin Vestfal (1648) və Versal (1919) mərhələlərini - 1648-1945-ci illəri əhatə edir);

İkinci dövr: İkiqütblü dünya sisteminin və geosiyasi nəzarətin tətbiqi dövrü - geosiyasi dövrləşmənin Potsdam (1945-1991) mərhələsini əhatə edərək SSRİ-nin dağılmasına və "yeni dünya nizamı" adlanan geosiyasi dövrə qədər davam etmişdir.

Üçüncü dövr: Güc tarazlığı və qarşılıqlı nəzarətə əsaslanan sistemin yaranması ("yeni dünya nizamı" adlanan dövr). Bu, Belovejsk anlaşmasından (1991) sonrakı dövrü, yəni müasir dövrü əhatə edir.

Ən qədim sivilizasiyaların yaranma tarixi, "kontinental" Roma ilə "dəniz dövləti" Karfagen arasında qarşıdurma sonrakı dövrlərin bir sıra geosiyasi reallıqlarını müəyyən etmişdir. **Lakin müasir dünya siyasətinin, beynəlxalq münasibətlərin əsas prinsipləri-**

nin təməli Otuzillik müharibə[1] başa çatandan sonra yaranmış Vestfal beynəlxalq münasibətlər sistemi (1648-1914) ilə qoyulmuşdur. O dövrdə Avropada milli dövlətlər formalaşırdı. Dünya ciddi mərkəzləşmiş sülalə hakimiyyətinə malik olan milli dövlətin təşəkkül tapması ilə sənaye inkişafı yoluna qədəm qoyurdu. Bu vaxtdan etibarən Avropa tarixi dünya tarixinə çevrilməyə başlayır.

Bu dövrdə İspaniya, Portuqaliya, Hollandiya Avropada əsas güc mərkəzlərinə çevrilir, İngiltərə, Fransa və İsveç isə dünyanın bölünməsi uğrunda mübarizəyə qoşulur. Yaranmış milli dövlətlər dil mənsubiyyəti və təbii-coğrafi hüdudlar nəzərə alınmaqla öz sərhədlərini müəyyən edirdi. Təxminən 150 il - Böyük Fransa inqilabına qədər davam edən bu dünya nizamı, qərarlaşmış geosiyasi məkan olan Fransanın direktoriyalarına, konsulluqlarına və *Napoleonun*[2] imperatorluğuna son qoydu. XVII əsrin sonu - XVIII əsrin

[1] *Otuzillik müharibə* (1618-1648) - İki böyük dövlət qruplaşması - bir tərəfdən xristian dünyasında hökmranlığı ələ keçirməyə çalışan papalıq, Almaniyanın katolik knyazları və Polşa-Litva dövlətinin müdafiə etdiyi *Habsburqlar ittifaqı* (İspaniya və Almaniya Habsburqları), digər tərəfdən isə bu ittifaqa qarşı çıxan və Almaniyada protestant knyazlarının köməyinə, Çexiyada, Transilvaniyada və İtaliyada antihabsburq hərəkatına arxalanan Fransa, İsveç, Hollandiya, Danimarka, Rusiya və müəyyən dərəcədə İngiltərənin daxil olduğu *antihabsburq ittifaqı* arasındakı *ilk Ümumavropa müharibəsi*. İmperator *II Rudolfun* (1576-1612) protestantlara qarşı hücumuna cavab olaraq protestant knyazlar Protestant uniyasını (1608; Fransa, İngiltərə və s. dövlətlər kömək edirdilər), alman katolik knyazları isə *Katolik comiyyətini (1609) təşkil etdilər (İspaniya və Papalıq yardım edirdi). Hər iki ittifaq* arasında toqquşmalar baş verirdi. 1618-ci ildə Çexiyada başlayan üsyan Otuzillik müharibənin (*Çexiya və Çexiya-Pfalts dövrü)* başlanğıcı oldu. Lakin 1620-ci il noyabrın 8-də çexlər Belaya Qora vuruşmasında məğlub oldular, 1621-1623-cü illərdə Pfaltsı Habsburqların işğal etməsi ilə müharibənin 1-ci dövrü başa çatdı. Otuzillik müharibənin 2-ci - *Danimarka dövrü* (1625-1629) 1629-cu ildə Danimarkanın məğlubiyyəti və Lübek sülhü ilə qurtardı. *Müharibənin 3-cü dövrü* 1628-1631-ci illəri əhatə edir və İtaliya dövrü adlanır. *Müharibənin 4-cü dövrü* İsveç və ya İsveç-Rus dövrüdür (1630-1635). Otuzillik müharibənin son, *Fransa-İsveç dövründə* (1635-1648) hərbi üstünlük antihabsburq ittifaqına keçsə də İngiltərə burjua inqilabının (XVII əsr) və Fransada fronda hərəkatının (fransızca *fronde,* hərfi mənada - *sapand;* 1648-1653-cü illərdə *Mazarini* hökumətinin timsalında mütləqiyyətə qarşı çevrilmiş ictimai hərəkat) müvəffəqiyyətlərindən qorxuya düşən Fransa hökuməti sülh bağlamağa tələsdi. Otuzillik müharibə *Vestfal sülhü* (1648) ilə qurtardı.

[2] *Napoleon I, Napoleon Bonapart* (1769-1821) - görkəmli sərkərdə, 1804-1814-cü illərdə və 1815-ci ilin mart-iyun aylarında Fransa imperatoru. Napoleon ordusu feodal-mütləqiyyətçi Avropanı darmadağın etmişdi. Napoleon Avropa məkanını yalnız silah gücünə deyil, həm də nəhəng hərbi qüvvə tətbiqinin mükəmməl strategiya və taktikasının köməyi ilə fəth etmişdi. Hamının qanun qarşısında bərabərliyini və təhkimçilik hüququnun ləğvini təsbit edən *"Napoleon kodeksi"nin* təsiri altında Avropanın geosiyasi məkanı böyük dəyişikliklərə məruz qalmışdı.

əvvəllərində İspaniya, Portuqaliya, Hollandiya, İsveç və Danimarkanın, XVIII əsrin sonlarından isə Polşanın qüdrəti sarsıldı. Əvəzində Fransa və İngiltərənin mövqeləri möhkəmlənir, Avstriya və Prussiya qüvvə toplayırdı. XIX əsrin əvvəllərinə yaxın Rusiya qitədə mühüm geosiyasi amilə çevrildi, Avrasiyadan tədricən Osmanlı imperiyası sıxışdırılmağa başlandı (*bax:* **cədvəl 3**).

Cədvəl 3

Böyük dövlətlərin rəqabətinin dinamikası

Dövlətlərin yeri	İllər				
	1750	**1800**	**1860**	**1900**	**1913**
1	Rusiya	Rusiya	İngiltərə	ABŞ	ABŞ
2	Fransa	İngiltərə	Fransa	İngiltərə	Almaniya
3	Yaponiya	Fransa	ABŞ	Almaniya	İngiltərə
4	Almaniya	Yaponiya	Rusiya	Rusiya	Rusiya
5	İtaliya	Almaniya	Almaniya	Fransa	Fransa
6	İngiltərə	İtaliya	Yaponiya	İtaliya	Yaponiya
7	ABŞ	ABŞ	İtaliya	Yaponiya	İtaliya

Mənbə: Kennedy P.M. The Rice and Fall of the Great Powers. Economic Changes and Military Conflicts from 1500 to 2000. London, 1988, p. 149.

XVII-XVIII əsrlərdə Avropada yeni sosial qüvvə - burjuaziya yarandı. Geniş imkanlara malik olan burjuaziya təbəqəsi getdikcə hakimiyyətə can atırdı. Fabrik və zavodlarda istehsal olunan mallara qoyulan aşağı qiymətlərə görə burjuaziya kral saraylarının, feodal qəsrlərinin divarlarını dəlib keçdi, Bastiliyanı[1] yıxdı, həmçinin 10 mindən çox katolik monastırını və kilsəsini yerlə-yeksan etdi, bütün Fransa üzrə gilyotinlərlə[2] yüzlərlə edam kürsüsünü qurdu. Burjuaziyanın pulları dünya hegemonluğuna can atan *I Napoleonu* hakimiyyətə gətirdi.

[1] Parisdə qala; 1370-1382-ci illərdə tikilmişdir. XV əsrdən həm də dövlət həbsxanası idi. XVI əsrin sonlarından Bastiliyada əsasən mütləqiyyətə (mütləq monarxiya) düşmən olan siyasi məhbuslar saxlanırdı. 1789-cu il iyulun 14-də Paris üsyançıları mütləqiyyət rəmzi olan Bastiliyanı hücumla aldılar. Bu, Böyük Fransa inqilabının başlanğıcı idi. Bastiliya 1790-cı ildə uçurdulmuşdur. Bastiliyanın alındığı gün Fransanın milli bayramı (1880-ci ildən) kimi qeyd olunur.

[2] Fransada Böyük Fransa inqilabı dövründə tətbiq edilmiş edam dəzgahı.

Fransanı "okean hegemonluğu" geosiyasi blokunun nüvəsinə çevirmək, Avropada formalaşmış Vestfal qayda-qanununa - "ortaq milli dövlət maraqları sisteminə" əsaslanan geosiyasi strukturu öz xeyrinə yenidən dəyişmək missiyası *I Napoleona* qismət olmadı. İmperatorun İngiltərəni blokada vasitəsilə, hərbi, iqtisadi, siyasi və digər yollarla boğmaq, Avropa və dünyada dənizlər üzərində geosiyasi və geostrateji üstünlüyü ələ keçirmək cəhdi baş tutmadı. Bu azmış kimi, beynəlxalq geosiyasi səhnəyə yeni bir ciddi rəqib - Rusiya daxil oldu. *Napoleon* əleyhinə fəaliyyətində Prussiya və Avstriya Rusiyaya kömək etdi və *Napoleon* məğlubiyyətə uğradı. 1815-ci ildə Avropa dövlətləri və Rusiyanın birgə səyi ilə məğlub edilmiş Fransa imperatoru Vyana konqresində Vestfal müqaviləsinə əsasən işğal etdiyi bütün torpaqlardan əl çəkməyə məcbur edildi, milli dövlətlərin (çoxmillətli imperiyaların) pozulmuş "suveren hüquqları" və "ərazi bütövlüyü" təmin edildi.

Geosiyasi qüvvələrin yeni konfiqurasiyası Vyana konqresində (1814-1815) öz həllini tapdı. Bu prosesin əsasını coğrafi məkana imperiya nəzarəti prinsipi təşkil edirdi. Rusiya və Avstriya-Macarıstan imperiyaları, Britaniya imperiyası (hərçənd, o, yalnız 1876-cı ildə imperiya elan edilmişdi), Almaniya imperiyası (1871-ci ildən) və XIX əsrin ortalarından əslində imperiya olan (lakin formal baxımdan respublika kimi qalmış) Fransa dünyanın güc mərkəzlərinə çevrildi. 1877-ci ildə Türkiyə sultanı "Osmanlı imperatoru" titulunu qəbul etdi. Türkiyə Yaxın Şərqdə və Cənub-Şərqi Avropada mühüm rol oynayırdı. XIX əsrin ortalarına qədər Avropada güclü mövqeləri olan Rusiya İngiltərəyə, Avstriyaya, Fransaya və əlbəttə, Türkiyəyə fəal müqavimət göstərirdi. 1853-1856-cı illərdə *Krım (Şərq) müharibəsi* dövründə faktiki olaraq bütün Avropa Rusiyaya qarşı çıxış edirdi. Geosiyasi baxımdan bu, tamamilə aydındır. Qara dəniz və Baltik dənizi daxili dənizlərə, rus göllərinə çevrilmişdi. Bu, iki mühüm geosiyasi regiona - Atlantik okeanı və Aralıq dənizi bölgələrinə çıxış imkanı yaratmışdı. İngiltərənin bu regionlara nəzarət etməsi Rusiyanın gücünü tarazlamağa imkan verirdi.

Vyana konqresinin müəyyən etdiyi dövlətlərarası münasibətlər sistemi *Müqəddəs ittifaqın*[1] yaradılması ilə tamamlandı. XIX əsrin 30-cu illərinin əvvəllərində Fransa, İspaniya, Portuqaliya və İtaliyanın cənubunda baş verən inqilablar Vyana danışıqları sisteminə böyük zərbə vurdu. Krım müharibəsi, İtaliyanın (1860-1861) və Almaniyanın birləşdirilməsi (1866-1871) ilə Vyana konqresində müəyyən olunmuş geosiyasi münasibətlər sistemi tamamilə dağıldı.

Rusiyanın Krım müharibəsindəki məğlubiyyəti nəticəsində onun Avropada üstün mövqeyi xeyli zəiflədi. XIX əsrin ikinci yarısı Rusiya üçün onunla səciyyələnir ki, o, "ikili siyasət" yürütməklə Avropa geosiyasi məkanında müvazinətini saxlamaq üçün gah Prussiyanın Fransa, gah da Fransanın Almaniya əleyhinə apardığı mübarizəyə dəstək verirdi. Əsrin 70-ci illərində Türkiyə ilə apardığı müharibədən sonra Rusiya Balkanlara daxil olub, Bolqarıstanı türklərdən azad etsə də, ən böyük arzusuna - İstanbula yiyələnmək arzusuna çata bilmədi.

XIX əsrin axırlarında ABŞ və Almaniya sənaye inqilabının nailiyyətlərini uğurla tətbiq etmək sayəsində gücləndilər. Ucsuz-bucaqsız kontinental ərazilərə malik olan amerikalılar ispanları Kubadan və Filippindən qovaraq xarici bazarları fəal mənimsəməyə başladılar. Almaniya "dəmir kansler" *Otto fon Bismarkın* (1815-1898) rəhbərliyi altında böyük kontinental dövlətə çevrildi və dünya siyasətində fəal rol oynamağa başladı. Almaniyanın rəhbərliyi ilə Almaniya özü, Avstriya-Macarıstan və İtaliyadan ibarət *Üçlər*

[1] *Napoleon* imperiyasının süqutundan sonra inqilabi hərəkata qarşı mübarizə və Vyana konqresi (1814-1815) qərarlarının toxunulmazlığını təmin etmək məqsədi ilə bağlanmış ittifaq. Müqəddəs ittifaq barədə sənədi 1815-ci il sentyabrın 26-da Parisdə Avstriya imperatoru *I Frans* (1768-1835), Prussiya kralı *III Fridrix Vilhelm* (1770-1840) və Rusiya imperatoru *I Aleksandr* (1777-1825) imzalamışdı. Noyabrın 19-da Fransa kralı *XVIII Lüdovik* (1755-1823), daha sonra əksər Avropa monarxları da Müqəddəs ittifaqa qoşuldular. İngiltərə Müqəddəs ittifaqa qoşulmasa da bir sıra məsələlərdə onun siyasətini müdafiə edirdi. Müqəddəs ittifaqın razılığı ilə Avstriya Neapol (1820-1821) və Pyemont (1821) inqilablarını yatırdı, Fransa qoşunları isə 1823-cü ildə İspaniyaya daxil olaraq mütləqiyyət rejimini bərpa etdilər. Avropa dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsi və inqilabi hərəkatın genişlənməsi Müqəddəs ittifaqı sarsıtdı. 20-ci illərin sonu - 30-cu illərin əvvəllərində Müqəddəs ittifaq süqut etdi.

ittifaqı[1] yaradıldı. Digər qüdrətli hərbi blok - *Antanta*[2] isə Fransa, İngiltərə və Rusiya tərəfindən yaradılmışdı. Bu blokların məqsədi nüfuz dairələrini yenidən bölmək və bu bölgünün gənc Avropa dövlətlərinin xeyrinə olmasına yol verməmək idi.

Üçlər ittifaqının Birinci Dünya müharibəsindəki (1914-1918) məğlubiyyətindən sonra Versal dövrü başlanır. Bu dövrdə qüvvələrin geosiyasi yerləşməsi əsaslı şəkildə dəyişdi. Müharibəyə qədər qüdrətli siyasi mərkəzlər hesab olunan Almaniya, Avstriya-Macarıstan, Rusiya və Osmalı imperiyaları dağıldı. Bu qüdrətli dövlətlərin xarabalıqları üzərində bir neçə kiçik dövlət yarandı. Versal sisteminin müəllifləri həmin kiçik dövlətləri öz nüfuz dairələrinə daxil etməyi nəzərdə tuturdular. 1919-cu il Versal sülh müqaviləsinə görə kontinental dövlət kimi birincilik Fransaya, dəniz dövləti kimi isə İngiltərəyə verildi. Müharibədə qalib gəlmiş ölkələrin siyasətçilərinin fikrincə, Rusiyaya Avropada ümumiyyətlə yer qalmamışdı, o artıq qüdrətli dövlət kimi mövcud olmamalı idi. Versal müqaviləsinin ayrılmaz tərkib hissəsi olan Millətlər Cəmiyyəti adından Almaniya və Türkiyənin müstəmləkələri bölündü.

İkinci Dünya müharibəsi (1939-1945) isə Versal sülhünə son qoydu. Bu müharibənin əsas ağırlığı Sovet İttifaqının üzərinə düşdü. Sovet dövləti çox böyük insan tələfatına və maddi itkilərə məruz qalsa da, müharibədən hərbi-strateji və geosiyasi baxımdan daha möhkəm vəziyyətdə çıxdı və Rusiya tarixində ilk dəfə özünün ətrafında güclü geosiyasi blok yaratdı.

[1] Almaniya, Avstriya-Macarıstan və İtaliyanın daxil olduğu hərbi-siyasi blok. 1879-1882-ci illərdə formalaşmışdır. Üçlər ittifaqının siyasəti bloka rəhbərlik edən Almaniya imperializminin təcavüzkarlığının artması ilə xarakterizə olunur. Bu təcavüzkar siyasət son nəticədə 1914-1918-ci illər Birinci Dünya müharibəsinə gətirib çıxartdı. Belə ki, Almaniya 1879-cu ildə Avstriya-Macarıstanla hərbi ittifaq bağlamışdı. 1882-ci il mayın 20-də isə Almaniya, Avstriya-Macarıstan və İtaliya arasında Üçlər ittifaqı haqqında gizli müqavilə imzalandı. Üçlər ittifaqına cavab olaraq Fransa, İngiltərə və Rusiya Antantanı yaratdılar. Üçlər ittifaqı 1915-ci ildə İtaliyanın Antanta bloku tərəfində müharibəyə qoşulması ilə dağılmışdır.

[2] Antanta (fr. *Entente* - razılıq) (Üçlər sazişi) - Fransa, Böyük Britaniya və Rusiyadan ibarət hərbi blok, 1907-ci ildə formalaşmış və Birinci Dünya müharibəsinin gedişində 25 dövləti birləşdirmişdi. Almaniya, Avstriya-Macarıstan və İtaliyadan ibarət digər hərbi bolka, Üçlər ittifaqına qarşı durmaq üçün yaradılmış və Birinci Dünya müharibəsində qalib gəlmişdi. 1917-ci il oktyabr çevrilişindən sonra Rusiya Antantadan çıxmışdır.

Potsdam dövrü 1945-ci ildən başlanır. Berlin yaxınlığındakı bu kiçik şəhərin kiçik zalında dəyirmi masa arxasında imzalanmış Potsdam müqavilələri sistemi Almaniyanın və onun müttəfiqlərinin üzərində qələbədən sonra Avropada yeni qüvvələr balansını təsbit etdi. Bu sistem yeni sərhədləri, yeni geosiyasi qüvvələrin yerləşməsini müəyyən etdi. Əslində, Potsdamda təsdiqlənirdi ki, çoxqütblü dünya indi bipolyar (ikiqütblü) dünyaya çevrilmişdir: SSRİ və onun müttəfiqləri kontinental ("tellurokratik") qüvvəni, ABŞ və onun müttəfiqləri isə əsasən dəniz ("talassokratik") qüvvəsini təmsil edirdi.

Potsdam geosiyasi dövrünün məzmununu müəyyən edən də bu qütblərin mübarizəsi idi. Həmin dövrün səciyyəvi cəhəti ondan ibarət idi ki, iki qüdrətli blok arasında qarşıdurma "soyuq müharibə" ilə nüvə müharibəsi arasında tərəddüd çərçivəsində cərəyan edirdi. Aviasiyanın təkmilləşdirilməsi, raket texnikasının, kosmik, lazer və digər silah növlərinin yaranması hava məkanının və kosmik məkanın rolunu kökündən dəyişmişdi. Planetdə xüsusən raket silahı, elektron kütləvi informasiya vasitələri, kompyuter sistemləri və başqa yeniliklər üçün Yer kürəsinin əlçatmaz nöqtəsi yox idi.

Lakin SSRİ iqtisadiyyatı elmi-texniki inqilabın ən yeni nailiyyətlərini kifayət qədər mənimsəyə bilmədi, İttifaqın siyasi liderləri isə ölkənin texnoloji baxımdan modernləşdirilməsi zərurətini başa düşmədilər. 1991-ci ildə SSRİ-nin dağılması, dünya sosializm sisteminin iflası ilə Potsdam dünya nizamı da pozuldu və dünyanın bipolyar strukturu başa çatdı. Bu, dünyanın geosiyasi həyatında və strukturunda, məkanlara nəzarət sistemində və s. məsələlərdə də ciddi dəyişikliklərə səbəb oldu. Bununla da dünya siyasətində və beynəlxalq geosiyasi münasibətlər sistemində ideoloji qarşıdurmadan yeni geosiyasətə keçid başlayır.

Belovejsk dövrü SSRİ-nin və sosialist düşərgəsinin dağılması, dünyada yeni-yeni müstəqil dövlətlərin yaranması, ABŞ-ın planetin yeganə fövqəldövlətinə çevrilməsi və onun dünya hegemonluğu üzərində qurulmuş "yeni dünya nizamı" adlanan beynəlxalq münasibətlər sisteminin yaradılması ilə səciyyəvidir. Belovejsk sazişindən sonra dünyanın bir qütbü çökdüyündən SSRİ və sosializm sisteminə daxil olan ölkələrin xalqlarının arzusuna uy-

ğun olaraq, bəzi ölkələrdə isə məxməri inqilablar sovet respublikalarına və Şərqi Avropanın sosialist dövlətlərinə müstəqillik gətirdi. Daha bu qurumlar Moskvadan idarə olunmurdular. Mütəxəssislər bu mərhələni Belovejsk mərhələsi adlandırmağa başladılar. Versal mərhələsində olduğu kimi, Belovejsk sazişindən sonra Rusiya yeni dünya nizamından uzaqlaşdırıldı. İndi yeni dövlətlər öz siyasətlərini, öz geosiyasi maraqlarını özləri formalaşdırmaqdadırlar.

1.5. Geosiyasətin əsas qanunları

Geosiyasət digər cəmiyyət və təbiət elmləri kimi özünəməxsus qanunauyğunluqlarla dövlətin sosial, iqtisadi, siyasi, hərbi və digər sistemlərinin təşəkkülü, fəaliyyəti və inkişafını tədqiq edir. Bu elmin özünəməxsus qanunları vardır.

Geosiyasətin əsas qanunlarından biri planetin coğrafi quruluşu və sivilizasiyaların tarixi tipologiyasında özünü büruzə verən **"fundamental dualizm" qanunudur.** Klassik Qərb alimlərinin demək olar ki, hamısı - *R.Çellen* və *A.Mehen, H.Makinder* və *K.Haushofer,* rus tədqiqatçılarından *N.Y.Danilevski* və *V.P.Semyonov-Tyanşanski, P.N.Savitski* (1895-1968) və *L.N.Qumilyov* (1912-1992) və b. bu qanuna müraciət etmiş və hər biri onun təzahürlərini arqumentləri ilə əsaslandırmağa çalışmışdır.

"Fundamental dualizm"ə görə, dövlətlər və xalqlar öz coğrafi ərazi xarakteristikasına görə iki qrupa - Quru və Dənizə ("tellurokratiya" və "talassokratiya") bölünür və bəşəriyyətin bütün inkişafı dövründə bu iki qrup arasında qarşıdurma və mübarizə getmişdir. Nəzəriyyə müəlliflərinin fikrincə, Quru dövlətləri qrupuna daxil olan qədim Sparta dövləti, Roma imperiyası ilə Dəniz qrupuna daxil olan qədim Afina, Karfagen arasında o dövrdə başlanan geosiyasi məkan və sərvət uğrunda mübarizə müasir dövrdə Avropanın, Qərbin dəniz dövlətləri ilə Avrasiyanın quru ölkələri arasında davam etməkdədir və gələcəkdə də davam edəcəkdir.

Klassik geosiyasətin banilərindən olan *A.Mehen* və *H.Makinderin* fikirlərinə görə, Quru və Dəniz qüvvələri arasındakı barışmaz ədavətin ciddi səbəbləri vardır. Onlar bunu möhkəm siyasi və hərbi bünövrə təşkil edən iki elementin - duru-axıcı (Dəniz) və bərk-

daimi (Quru) mədəni-tarixi sivilizasiyalarının iki fərqli tipi - demokratiya və ideokratiya arasında barışmaz düşmənçiliklə izah edirdilər.

Göründüyü kimi, "fundamental dualizm" Quru güclərini hərbi-avtoritar və ideokratik sivilizasiya daşıyıcısına, Dəniz ölkələri birliyini isə ticarət sivilizasiyasına və demokratiyaya aid edir. Belə hesab olunur ki, Quru ("tellurokratiya") özünün dəqiq hüdudu və sabit məkanı, əhalisinin mühafizəkar düşüncəsi və oturaq həyat tərzi, ciddi ictimai davranış normaları və nizam-intizamlı cəmiyyət həyatı ilə seçilir.

Quru - həmişə davamlı və möhkəm hesab olunur. Bu möhkəmlik həm qanunlara əməl etməkdə, adət-ənənələrdə, ictimai təfəkkürdə özünü göstərir və həm də nəsildən-nəslə ötürülür. Quruda yaşayan xalqlar, etnik qruplar oturaq həyat tərzinə malikdir, fərdiyyətçilikdən uzaqdır, kollektiv davranış normalarına əməl etməyə meyillidir. Quruda ciddi idarəçilik və davranış iyerarxiyası mövcuddur.

"Dəniz gücü" və ya "talassokratiya", geosiyasət klassiklərinin fikrincə, sivilizasiyanın tam əks tipinə aiddir (bu barədə 2-ci fəsildə daha ətraflı məlumat verilir). Ticarət sivilizasiyası adlandırılan bu qrup daha çox dinamik və texniki tərəqqiyə meyillidir, fərdi sahibkarlığa üstünlük verir. Bu cəmiyyətdə fərdin və ya qrupun əsas keyfiyyətlərini Dəniz müəyyənləşdirir. Təşəbbüskarlıq və qeyri-standart qərarlara qadir olan fərd böyük dəyər ifadə edir. Belə sivilizasiyada mənəvi və hüquqi normalar, prinsiplər və qanunlar nisbətən tez meydana gəlir. O, Quru sivilizasiyasına nisbətən daha aktiv inkişaf edir, mənəvi və mədəni dəyərlərini asanlıqla dəyişir, irəliyə, yeni kəşflərə, macəralara doğru öz cəhdini getdikcə artırır.

Belə hesab olunur ki, planetdə "Dəniz gücü"nün inkişafı Böyük coğrafi kəşflər dövründən başlayır. O öz qüdrətinin zirvəsinə XX əsrin sonlarında, anqlosaks kapitalizminin və sənayeçiliyinin vahid kompleks kimi formalaşdığı dövrdə çatır. ABŞ XX əsrin ortalarından başlayaraq "talassokratiya"nın əsas istinad mərkəzinə çevrilir.

XX əsrin ortalarında sosializm və kapitalizm dünyası arasında güclənən qarşıdurma və "soyuq müharibə" geosiyasi hədəfləri bir qədər də artırır. Geosiyasi dualizm qanununu zirvəyə yüksəldərək SSRİ Quru, ABŞ isə Dəniz qüvvələrinin başına keçir.

Klassik geosiyasətin ikinci əsas qanunu - bəşər cəmiyyətinin inkişafında ətraf mühitin xüsusi rolunu göstərən - **"məkan amili" qanunu** hesab olunur.

İctimai inkişafda məkan amilinin rolunu geosiyasətin ikinci əsas qanunu kimi ilk dəfə *A.Mehen* təqdim etmişdir. Mehen özünün "Dəniz qüdrətinin tarixə təsiri" adlı əsərində sübut etməyə çalışır ki, dövlətlərin və xalqların həyatında, inkişafında məkan amilinin rolu heç də şəxsiyyətin, insanların və xalqların rolundan az deyildir. Onun fikrincə, təbii-coğrafi şəraiti əlverişli olan (məkan amili) dövlətlər və xalqlar hansı xarakterdə olmasından, hansı idarəçiliyə malik olmasından asılı olmayaraq daha sürətlə inkişaf edir. O, öz fikrini İngiltərənin XIX əsrdəki inkişafı ilə əsaslandırır və belə hesab edir ki, onun inkişafının əsasında "malik olduğu məkanın üstünlükləri" dayanmışdır.

Müasir rus geosiyasətçilərinin bəziləri daha bir geosiyasi reallığı - **"Quru və Dənizin sintezi"**ni bu elmin **üçüncü qanunu** kimi təqdim edirlər.

Rus alimlərindən *A.Q.Duqin, N.A.Nartov* və b. hesab edirlər ki, geosiyasi məkan kateqoriyaları sırasında Quru və Dəniz ərazilərindən başqa, onların hər ikisinin əlamətlərini və üstünlüklərini özündə birləşdirən "sahil zonası" məkanı da mövcuddur. "Sahil zonası" və ya "Rimlənd" "talassokratiya"nın və ya "tellurokratiya"nın bir fraqmentidir. Dənizin təsiri "sahil zonası"nda inkişafın Quru ilə müqayisədə daha fəal olmasını şərtləndirir. Buna görə də "sahil zonası" daha mürəkkəb və mütəhərrikdir. "Rimlənd" eyni vaxtda bir tərəfdən "Ada və Dənizi", digər tərəfdən "İmperiya və Evi" xatırladır. ""Rimlənd" müstəqil məntiqə malik olan və həm "talassokratiya"ya, həm də "tellurokratiya"ya güclü təsir göstərən mürəkkəb reallıqdır" [*bax:* Дугин, 1997, səh. 23-24]. "Sahil zonası" özünün iradəsi və taleyi olan tarix subyekti kimi çıxış edir, lakin geosiyasi dualizm çərçivəsində reallaşır. Beləliklə, "Rimlənd" zolaq, sərhəd zonası və ya sərhəd rolunda çıxış edir. Geosiyasətdə bu termin dövlətlər arasındakı sərhədlər anlayışından fərqli məna kəsb edir. "Dənizdən gəlmələr" sahili materikin özünün bir xətti kimi deyil, kontinental kütlədən qoparılması, gələcəkdə quruya hü-

cum etmək üçün bazaya, ticarət və ya hərbi anklava çevrilməsi mümkün olan ərazi kimi görürlər. Bu nəzəriyyəni müəlliflər geosiyasətin "Quru və Dənizin sintezi" qanunu adlandırırlar. Lakin bəhs olunan ideyanın geosiyasi qanun kimi qəbul olunması hələ ki, Rusiyanın elmi mərkəzlərindən kənarda müşahidə olunmur.

Klassik geosiyasətdə dünyanın geosiyasi inkişafının, dövlətlərin planetar gücünün və dünyanın təsir dairələrinə sahib olmanın əsası kimi təqdim olunan geosiyasi qanunlar indiki praktiki geosiyasətdə demək olar ki, istifadə olunmur. Bu qanunlar yalnız akademik geosiyasətdə və geosiyasi tədqiqatlarda dünyanın geosiyasi inkişafının tarixinin, əsas mərhələlərinin və ümumi qanunauyğunluqlarının öyrənilməsində istifadə olunur.

1.6. Geosiyasətin kateqoriyaları

Hər bir elm sahəsi kimi, geosiyasətin də məzmunu onun əsas elmi anlayışlarında - kateqoriyalarında əksini tapır. Geosiyasət siyasi institutların, ilk növbədə, dövlət və dövlət birliklərinin məkan üzərində nəzarətinin əsaslarını, imkanlarını, forma və mexanizmlərini öyrənir. Dövlətin nəzarət etdiyi və ya nəzarət etməyə çalışdığı ərazi, ilk növbədə, onun mərkəz tərəfindən mənimsənilmə dərəcəsi və onların əlaqələrinin inkişaf səviyyəsi ilə xarakterizə olunur. Dövlət və ya dövlətlər ittifaqı tərəfindən nəzarət edilən məkan çox vaxt *geosiyasi sahə* adlandırılır. Rus alimi *K.V.Pleşakov* geosiyasi sahənin özünəməxsus təsnifatını vermişdir:

1) **Endemik sahə** (yunanca *"endemos"* - yerli deməkdir) - davamlı müddətdə dövlət tərəfindən nəzarətdə saxlanılan məkandır. Bu ərazinin bəhs olunan dövlətə, yaxud milli icmaya mənsubiyyətini əksər qonşular qəbul edir.

2) **Sərhəd sahəsi** - bəhs olunan dövlətin nəzarəti altındadır, lakin demoqrafik, etnodemoqrafik, iqtisadi, siyasi cəhətdən kifayət qədər uyğunlaşdırılmamış ərazi xarakteristikasına malikdir. Bu ərazilər daha çox milli azlıqların məskunlaşdığı məkanlardır. Həmsərhəd dövlətlər bu ərazilərin mənsubiyyətini tez-tez şübhə altına alsalar da, ona öz əraziləri kimi də baxmırlar. Belə ərazilərə Hindistanla Pakistan, Hindistanla Çin, Pakistanla Əfqanıs-

tan sərhədlərində, həmçinin Avrasiya Rusiyasının Şimal-Şərq, Uzaq Şərq bölgələrində, Qafqaz, Kalininqrad, Kareliya, Volqaboyu, müsəlman-türk ərazilərində və s. rast gəlmək olar.

3) **Çarpaz sahə** - bir neçə həmsərhəd dövlətlərin iddia etdiyi məkandır. Keçmiş SSRİ-nin əsasən ruslar və rusdilli xalqlar məskunlaşan, lakin Rusiya Federasiyasının tərkibinə daxil olmayan əraziləri bu cür məkanlara aiddir.

4) **Total sahə** - milli icmanın nəzarəti altında olan bütöv məkanı əhatə edir.

5) **Geosiyasi dayaq nöqtəsi** - total sahədən kənarda yerləşən, hər hansı bir dövlət tərəfindən nəzarətə alınan orazidir. Lakin bu ərazilərdəki kommunikasiyalara ayrı-ayrı dövlətlər nəzarət edir. Məsələn, Kalininqrad vilayəti hazırda Rusiyanın dayaq nöqtəsidir.

6) **Metasahə** - eyni zamanda bir neçə ölkə və yaxud dövlət tərəfindən mənimsənilən torpaqlar nəzərdə tutulur. Çox zaman bu mənimsəmə geosiyasi təzyiqlər altında həyata keçir *[Плешаков, 1994, стр. 32-34]*.

Geosiyasi məkan üzərində nəzarətin müxtəlif formaları ən qədim dövrlərdən məlumdur. Bu nəzarətin hərbi, siyasi, iqtisadi, demoqrafik, kommunikasiya, dini və s. növləri mövcuddur. XX əsrin sonlarından başlayaraq informasiya-ideoloji, texnoloji və mədəni-sivilizasiya nəzarəti getdikcə daha mühüm rol oynayır. Nəzarətin bu formalarından çox vaxt müxtəlif qaydada əlaqələndirilmiş şəkildə istifadə edilir, çünki geosiyasi yanaşma dövlətlərarası qarşılıqlı təsirdə bütün amillərin, ilk növbədə, coğrafi, iqtisadi, hərbi, demoqrafik, siyasi, mədəni-dini, etnik amillərin nəzərə alınmasını tələb edir.

Geosiyasi münasibətlər dünyada müxtəlif qüvvələrin nisbi vəhdəti və mübarizəsi deməkdir. Bu, çox vaxt əksliklərin - Quru ilə Dənizin, mərkəz ilə periferiyanın mübarizəsidir. Dünyada baş verən tarixi prosesdə vəhdət müvəqqəti haldır. Böyük Britaniyanın görkəmli siyasi xadimi *Henri Palmerston* (1784-1865) belə bir fikir söyləmişdir ki, *"dövlətin nə daimi dostları, nə daimi düşmənləri yox, yalnız daimi siyasi (geosiyasi) maraqları ola bilər"*. Buna görə də mütləq mənə daşıyan yalnız əksliklərin mübarizəsidir. Bu

mübarizə daimidir. Bu fikrin obyektivliyini belə bir misal təsdiq edə bilər. 1930-cu illərin *Stalin* repressiyalarından, 1939-cu il *Ribbentrop-Molotov paktından*, 1940-cı ildə *Hitler* və *Stalin* arasında ABŞ-ı Avropadan uzaqlaşdırmaq barədə kifayət qədər real məxfi danışıqlardan sonra Qərb üçün *Hitlerə* qarşı *Stalinlə* müttəfiqlik qeyri-mümkün görünürdü. Bununla belə, geosiyasi maraqlar balansı bunu qısamüddətli olsa da, qaçılmaz etdi.

Geosiyasətin növbəti mühüm kateqoriyası **qüvvələr tarazlığı** kateqoriyasıdır. Bu kateqoriya planetar məkanda sinfi və yaxud digər zəmində (milli, dini, iqtisadi, sosial, sivilizasiya fərqi və s.) qarşı-qarşıya duran, dünya siyasətində həlledici amilə çevrilmiş güclərin (ayrı-ayrı dövlət və dövlətlər birliklərinin) mövcudluğunu ehtiva edir. Planetin qüvvələr nisbəti tarixən dəyişkən olmuşdur. SSRİ-nin dağılmasından və sosializm sisteminin iflasından sonra dünyada qüvvələr tarazlığı köklü şəkildə dəyişdi. Dünyanın bipolyar (ikiqütblü) mövcudluğuna son qoyuldu və "yeni dünya nizamı" adlanan birqütblü dünya siyasəti ideyası ortaya atıldı.

"Sərhədləri bəlli olan siyasi məkan" anlayışı geosiyasətin mühüm kateqoriyasıdır. Siyasi məkan dövlətin əsas əlamətlərindən biridir. Dövləti dövlət edən onun təhlükəsizlik amili kimi çıxış edən müəyyən sərhədlərdir. Dövlətlər arasında məkan münasibətləri geosiyasətdə çox mühüm rol oynayır və bu münasibətlər sərhədlərlə müəyyən edilir. Siyasi məkana nəzarət, onun birləşdirilməsi, mənimsənilməsi uğrunda mübarizə başlayanda həmişə sərhədlərlə bağlı geosiyasi problem yaranır. Bu xüsusiyyəti qeyd edən *F.Ratsel* bildirirdi ki, *sərhəd dövlətin - canlı orqanizmin periferiya orqanıdır və onun inkişafına, bu orqanizmin gücünə və zəifliyinə, onda baş verən dəyişikliklərə dəlalət edir*. Almaniya geosiyasətində araşdırmaların əsas mövzusu sərhədlər problemidir. *Albrext Haushofer* (1903-1945) alman xalqına təkcə geosiyasi hisslər deyil, həm də "sərhəd hissi" təlqin edirdi. O, qeyd edirdi ki, sərhədləri əbədi hesab etmək olmaz, insan bədəninin dərisi və digər qoruyucu orqanları kimi sərhədlər də genişlənən və sıxılan canlı orqanlardır.

Sərhədlər problemi *Əhd-i Ətiqdə*[1] və *Arthaşastrada*[2], qədim yunan eposlarında öz əksini tapmışdır. Dövlətlər arasında, hətta ən yaxın dostlar olan dövlətlər arasında sərhəd həmişə onların mənafelərini ayıran siyasi-strateji xətdir. Sərhədlər problemini ilk dəfə araşdıranlardan biri britaniyalı lord *Corc Kerzon* (1859-1925) olmuşdur. Hindistanın vitse-kralı olmuş bu şəxs Asiyada sərhədlər təcrübəsini yaxşı öyrənmiş və qeyd etmişdi ki, Asiya xalqlarının çoxu dəqiq qeyd edilmiş sərhədlərdən yaxa qurtarmağa çalışırlar. Bu, onların köçəri həyat tərzi və hər hansı reqlamentləşdirici qaydaları qəbul etmək istəməməsi ilə bağlıdır. "Təsbit olunmuş xətt kimi" sərhəd əsasən Avropa ölkələri üçün səciyyəvidir. Dövlətlər arasında sərhəd mübahisələrini həll etmək üçün Kerzon bufer zona yaratmağı tövsiyə edirdi.

Geosiyasi xətt geosiyasi məkanın vacib strukturyaratma amili hesab olunur və quru, dəniz, hava xətləri, mühüm mal, xammal daşıma yollarını və kommunikasiyalarını birləşdirən strateji dəhlizlərə deyilir. Geosiyasi xətlər həmişə böyük dövlətlərin gizli geostrateji mübarizə obyekti olmuş və bu gün də olaraq qalır.

"Geosiyasi maraqlar" bu elmin əsas kateqoriyalarından biri hesab olunur. "Maraqlar" kateqoriyası geosiyasi tədqiqatların vacibliyini, onların milli, yaxud ideoloji istiqamətini müəyyən edir. Siyasətlə məşğul olan coğrafiyaçılar beyinlərində dolaşan milli, yaxud ideoloji fikirləri açıq-aşkar ortaya qoyduqları üçün geosiyasətdə mülahizələrin subyektivliyi ilə bağlı problem meydana çıxmışdır. Sual yaranır, *bir, yaxud bir neçə dövlətin təhlükəsizliyi baxımından onların yerinin qiymətləndirilməsi ümumiyyətlə mümkündürmü?*

Bu problemlə bağlı amerikalı siyasətçi *Vilyam Ceyms Fulbraytın* (1905) sözləri maraqlıdır: *"Ola bilsin ki, abstrakt mənada "milli maraq" adlandırılan obyektiv kateqoriya mövcuddur. Lakin insan fəaliyyəti abstraksiyalarla bağlı deyil... Bu yaxınlaradək Amerika leksikonunda milli maraqların ən azı 3 konsepsiyası mövcud idi: İdeoloji - yəni, antikommunist yanaşması olan "soyuq müharibə"; Geosiyasi - hansı ki, beynəlxalq münasibətləri son məqsəddə hakimiyyət uğrunda nəhayətsiz mübarizə kimi görür; İnstitusional-hüquqi - yəni, daxili məsələlər kimi beynəlxalq işlər qanunlar əsasında həyata keçirilməlidir. Hansı yanaşmanı qəbul edib-etməyəcəyinizdən asılı olaraq milli maraqlar konsepsiyanız digərlərindən seçiləcək və ya toqquşacaqdır"* [*bax:* Арин, 1997, səh. 216].

[1] Bibliyanın həcmcə daha böyük, birinci bölməsidir. 50 kitabdan ibarət olub, e.ə. III-II-ci əsrlərdə tamamlanmışdır. Əhd-i Ətiq iudaistlər və xristianlardan ötrü müqəddəs kanon hesab olunur.

[2] Arthaşastra (sanskritcə, hərfi mənada fayda, əməli həyat elmi) - siyasət və dövlət haqqında qədim hind traktatıdır. Yazıldığı vaxt dəqiq məlum deyil. E.ə. IV əsrin axırlarında yarandığı və sonralar təkmilləşdirildiyi güman edilir. Arthaşastra sanskrit dilində, əsasən, nəsr, qismən də şeirlərdir. Arthaşastra qədim hind dövlətinin idarə sistemi, iqtisadiyyatı, hərbi, ictimai təşkilatları, daxili və xarici siyasəti haqqında mühüm mənbədir.

Dövlətin, millətin maraqlarının nədən ibarət olduğunu bildikdə, ölkənin ümumi strateji kursunu müəyyən etmək çətin deyil. Maraqların aşağıdakı növləri ola bilər: *sinfi maraqlar, milli maraqlar, dövlət maraqları.* Əgər millət-dövlət mövcuddursa, bu maraqlar üst-üstə düşür.

Dövlətlərin ən mühüm maraqları beynəlxalq sənədlərdə: BMT-nin Nizamnaməsində, Helsinki Müşavirəsinin Yekun Aktında və başqa sənədlərdə ifadə edilmişdir. Beynəlxalq hüququn bu cür mənbələrində ölkənin, ölkələr qrupunun siyasi müstəqilliyi, onların fiziki mövcudluğunun şərtləri, dövlətin həyatına kənardan hər hansı şəkildə müdaxilənin yolverilməzliyi, onun sərhədlərinin toxunulmazlığı və başqa məsələlər təsbit olunur.

Ölkənin dövlət maraqları kimi resurs bazasının genişləndirilməsi, onun əsasında isə ölkənin iqtisadi, hərbi, maliyyə, elmi-texniki və digər qüdrətinin artırılması, onun geosiyasi təsirinin güclənməsi, əhalinin rifahının artması, cəmiyyətin mədəni, mənəvi, intellektual tərəqqisi kimi amillər çıxış edə bilər. Ölkənin geosiyasi mövqeyinin spesifikası, daxili siyasi, sosial-iqtisadi şəraiti, milli-mədəni və sivilizasiya xüsusiyyətləri, dünya birliyində ölkənin nüfuzunun səviyyəsi - bütün bunlar dövlət maraqlarının məzmununu formalaşdırır. Bu halda coğrafi, təbii-resurs, iqtisadi amillər xüsusi rol oynayır.

Əlbəttə, dövlət maraqlarının bütün kompleksini statikada deyil, dinamikada nəzərdən keçirmək lazımdır. Bu maraqların ən yüksək xüsusi çəkiyə malik olanları beynəlxalq hüquq normaları ilə təsdiq edilən maraqlardır. Əgər ölkənin maraqları başqa dövlətlərin ma-

raqlarını pozmursa, onlar ədalətli sayılır. "Dövlət maraqları" anlayışının məzmunu obyektivdir. Lakin avtoritar və demokratik dövlətlərdə məqsəd və vəzifələrə nail olma mexanizmləri müxtəlif olur.

Geosiyasət elminin digər baza anlayışı - **dövlət maraqlarının reallaşdırılması mexanizmi** də yuxarıda nəzərdən keçirdiyimiz kateqoriya ilə sıx bağlıdır. Bu maraqları müdafiə edərkən hansı prinsiplərə, hüququn, əxlaqın, siyasətin hansı normalarına üstünlük verilməlidir? Təcrübə göstərir ki, bəzən hər hansı əxlaq norma və prinsipləri nəzərə alınmadan, güc tətbiq edilməklə nail olunan praqmatik maraqlar ön plana keçir. Fərq bundan ibarət idi və indi də belədir ki, bəzi, geosiyasi baxımdan güclü dövlətlər və ya onların qrupu hər şeyə və dərhal, digərləri isə hissə-hissə və tədricən malik olmaq istəyir. Bəzi dövlətlər öz dövlət maraqlarını *fəal ekspansiya* yolu ilə, digərləri isə *"sürünən" ekspansiya* vasitəsilə həyata keçirməyə çalışır. Bu metodlar əsrlər boyu yaranmışdır, onların öz tarixi və metodologiyası var. Bəzi dövlətlər (Çin, Yaponiya) milli geosiyasi qüvvəni möhkəmlətmək yolu ilə, digərləri yeni koalisiyalar yaratmaq yolu ilə irəliləyir. Bu koalisiyaların daxilində - istər həmin koalisiyaların özündə, istərsə də dünyanın mühüm regionlarında liderlik uğrunda daimi gizli və ya aşkar mübarizə gedir.

Dövlətin qüdrəti tarixən ilk növbədə ölkələrin hərbi qüdrəti kimi başa düşülmüş və təqdim olunmuşdur. Çoxsaylı tarixi abidələrdən görünür ki, yaxşı silahlanmış və ciddi hərbi hazırlıq və təlim görmüş ordusu, səriştəli, intizamlı sərkərdələri, iradəli, qətiyyətli rəhbəri - çarları, kralları olan dövlətlər həmişə qalib gəlirdi.

Elmi-texniki tərəqqi və iqtisadi imkanlar genişləndikcə, hərbi təfəkkür inkişaf etdikcə, hərbi güc də artır. Bütün bunlar coğrafi amillərlə birlikdə dövlətin qüdrətinin təşəkkülünə və ya tənəzzülünə təkan verir. Geosiyasi münaqişələr çox vaxt dünyanın bölüşdürülməsi və yenidən bölüşdürülməsi, nüfuz dairəsinin genişlənməsi ilə bağlı olur.

Dövlətin iqtisadi, maliyyə, intellektual potensialı artdıqca onun qüdrətinə bu elementlər əlavə olunmağa başlayır. XX əsrin ikinci yarısından başlayaraq siyasətşünaslar hesab edir ki, dünyanın yenidən bölünməsi uğrunda mübarizə təkcə hərbi qüvvə tətbiq edilməsi

yolu ilə deyil, həmçinin iqtisadi, maliyyə, mədəni-ideoloji, informasiya ekspansiyası yolu ilə aparıla bilər. Bir çox müasir geosiyasətçilərə görə, ölkələrin qüdrəti sistem şəklində qarşılıqlı təsirdə olan amillərin kompleks göstəricisidir. O, hər hansı vahidlərlə ölçülən mütləq kəmiyyət deyil, dövlətlərin beynəlxalq münasibətlərində interaksiyalar prosesində təzahür edən və bu münasibətlərin nəticələrinə əsasən qiymətləndirilən nisbi kəmiyyətdir. Dövlətin qüdrətinin elementləri müəyyən mənada bir-birini qarşılıqlı əvəz edə bilər.

Geosiyasətin mühüm kateqoriyalarından olan **geosiyasi rəqabət** dövlətlər arasında qarşıdurma və maraqların toqquşmasından asılı olaraq yaranan geosiyasi halı göstərir. *Geosiyasi rəqabət üfüqi, paralel və ayrıca ocaq şəklində özünü göstərə bilər. Üfüqi rəqabət* hava və kosmik məkandakı silahlanma nəticəsində, *paralel rəqabət* quru və dəniz sahilində, *ocaq rəqabəti* isə böyük güclərin maraqlarının kəsişdiyi məkanlarda (məsələn, 1962-ci il Kuba, 1979-1989-cu illər Əfqanıstan, 1960-1970-ci illər Yaxın Şərq hadisələri və s.) baş verir. Geosiyasi münaqişələr çox vaxt dünyanın bölüşdürülməsi və ya yenidən bölüşdürülməsi, mübahisəli ərazilərdə nüfuz dairəsinin genişlənməsi uğrunda yaranır.

Dövlətlərin maraqları ölkələrin və xalqların bu və ya digər hərəkətlərinə səbəb olur. Bu hərəkətlər müdafiə və ya hücum, işğal və ya azadlıq xarakterli ola bilər. Geosiyasətdə çox işlədilən kateqoriyalardan biri də "dövlət maraqları kateqoriyasından törəyən **ekspansiya** kateqoriyasıdır" *[Сорокин, 1996, стр. 31-32]*. Ekspansiya dedikdə, adətən, hər hansı ərazilərin ələ keçirilməsi və ya hərbi-siyasi nüfuz dairələrinin müəyyən edilməsi başa düşülür. Təcrübə göstərir ki, ekspansiya yalnız hərbi xarakterli deyil, həmçinin iqtisadi (ticarət, maliyyə) və mədəni-ideoloji, informasiya xarakterli də ola bilər. Ərazilərin ələ keçirilməsi çox vaxt uzunmüddətli xarakter daşıyır, bu ərazilər "həyati məkan"a çevrilir.

Rusiya geosiyasətçisi *K.E. Sorokin* hesab edir ki, ekspansiya deyəndə, tarixdə baş vermiş hərbi təcavüzləri deyil, onun informativ, mədəni-sivilizasiya, dini və etnodini, siyasi və xüsusən müasir ekspansiyanın təməlini təşkil edən iqtisadi formalarını nəzərdə tutur.

Müasir geosiyasi və geoiqtisadi mühit bir tərəfdən mürəkkəb münaqişə və ziddiyyətlər düyünü olması, digər tərəfdən isə əməkdaşlıq və kooperasiya mühiti olması ilə fərqlənir. Transmilli korporasiyalar (TMK) irimiqyaslı regional və qlobal iqtisadi ekspansiya həyata keçirir, lakin bununla belə, TMK-ların müasir nəsli mədəni-sivilizasiya xüsusiyyətlərini nəzərə almağa çalışır. TMK-lar bir-biri ilə strateji ittifaqlar yaradır, bununla öz səmərəliliyini artırır və birbaşa xarici sərmayələrin köməyi ilə ölkələrin və regionların iqtisadi strukturlarının modernləşməsinə səbəb olur. Amma buna baxmayaraq, ayrı-ayrı ölkələr və onların bölgələrinin milli və transmilli sektorlarının iqtisadiyyatı arasında xeyli ziddiyyətlər yaranır. Məsələn, onlar TMK-lar və yerli istehsalat arasında resursların bölüşdürülməsi, cəmiyyətdə sosial təbəqələşmənin dərinləşməsi və sairlə əlaqəli olurlar.

Geosiyasətin yuxarıda təhlil olunan və kitabın sonundakı lüğətdə verilən digər özünəməxsus kateqoriyalarından başqa, geosiyasi tədqiqatlar zamanı bir çox yaxın elmlərin - siyasətşünaslığın, beynəlxalq münasibətlər nəzəriyyəsinin, hərbi nəzəriyyə və s. elmlərin də bəzi kateqoriyalarından istifadə edirlər. Bunların sırasına: *"təcavüz", "hərbi güc", "güc vasitəsilə müharibədən çəkindirmə", "nüvə tarazlığı və pariteti", "nüvə çəkindirməsi"* və s. aid etmək olar ki, bu anlayışlarla kitabın sonunda verilmiş lüğətdə tanış olmaq olar.

1.7. Geosiyasətin metodoloji paradiqmaları

Başqa elmlərdə olduğu kimi, geosiyasət elminin də inkişafı və xarakteri, onun paradiqmalarının[1] konkret zaman və məkana uyğun olaraq dəyişməsi ilə bağlı olmuşdur.

Konkret dövrün geosiyasi proseslərinin dinamikasının, mahiyyətinin, xalqlar və dövlətlər arasında baş verən məkan münasibətlərinin, mübarizələrin və münaqişələrin səbəblərinin, köklərinin dərk edilməsi, sistemli öyrənilməsi və qiymətləndirilməsi geosiyasi "idrak" və "dərketmə modeli"nin düzgün seçilməsindən və elmi paradiqmalarından asılıdır.

[1] Qeyd edək ki, paradiqma konkret zaman və məkan çərçivəsində cəmiyyət və təbiət hadisələrinin izahı və həllinin konseptual elmi-nəzəri yanaşmasının və qiymətləndirmə cədvəlinin (nümunəsinin, sxeminin) baza modelinə deyilir.

Tədqiqatçılar geosiyasi paradiqmaları:

- milli-dövlət, yaxud hüquq,
- ideoloji-sinfi,
- sivilizasiya və
- geoiqtisadi və informasiya məzmunlu olmaqla, dörd qrupa ayırırlar *[Василенко, 2006, стр. 37]*.

Milli-dövlət, yaxud hüquq paradiqması. Geosiyasətin elm kimi inkişaf etməyə başladığı XIX əsrin ikinci yarısından başlayaraq bütün klassik geosiyasi nəzəriyyələrin əsas qiymət meyarlarının, nəzəri yanaşmalarının, çoxsaylı tədqiqatlarının əsasında məhz milli-dövlət, onun yaranması və inkişafının amilləri (təbii, insan, sivilizasiya və s.), milli dövlətlərin hüquqları məsələsi dayanmışdır. Bunu tədqiqatçılar *geosiyasətin ilkin paradiqması* kimi xarakterizə etmişlər.

Millət-dövlət geosiyasi paradiqmasına görə, dünyanın geosiyasi strukturunun, gələcək xalqlar və dövlətlərarası beynəlxalq münasibətlərin əsasında böyük milli-dövlət institutlarının yaratdıqları və həyatda tətbiq etdikləri hüquq normaları dayanır və dayanmalıdır. Onlar bəşəriyyətin inkişafının qədim dövründən bu günə qədərki ən təkmil və məntiqi forması hesab etdikləri milli-dövlət institutunu bəşəriyyətin məkan və zaman məsələlərinin, gələcək birgəyaşayış normalarının, ictimai həyatın ehtiyaclarının həllində yeganə düzgün amil olduğunu aksiom kimi qəbul edir və bu institutu bütün geosiyasi nəzəriyyələrin əsası hesab edirdilər.

Milli-dövlət institutunun xarakteristikasına gəldikdə, bəhs olunan paradiqma tərəfdarlarına görə, tarixdə yalnız o milli dövlətlər daimi yaşayacaqdır ki, onun konkret məkanda yaradılmış sabit milli, yaxud çoxmilli insan ehtiyatı, siyasi elitanın köməyi ilə formalaşmış və fəaliyyət göstərən hakimiyyət strukturları, ictimai həyatının davranış normalarını təsbit edən qanunları və cəmiyyətinin daxili siyasi bütövlüyü olsun.

Milli-dövlət yanaşması müəyyən dəyişikliklərlə bu gün də beynəlxalq geosiyasi münasibətlərin aparıcı paradiqmalarından biri olaraq qalmaqdadır.

İdeoloji paradiqma. Bəşəriyyətin inkişafının "ideoloji qarşıdurma mərhələsinin başlanğıcı və beynəlxalq sinfi mübarizə dövrü" kimi qiymətləndirilən Rusiyada 1917-ci il oktyabr çevrilişi geosiyasətin milli-dövlət və hüquq paradiqmasında da ciddi keyfiyyət dəyişikliyi yaratdı.

İdeoloji qarşıdurma 1917-1991-ci illər ərzində bəşəriyyətin bütün geosiyasi nəzəriyyələrinin, elmi tədqiqatların, planetin güc strukturlarını əks etdirən qarşıdurma xətlərinin əsas və həlledici amilinə çevrildi.

Bu dövrün geosiyasi münasibətlərinin mərkəzi məsələsi sinfi maraq və sinfi mübarizə ideologiyasına söykənərək, "kim-kimi" mübarizəsindən qalib çıxmaq idi.

İdeoloji və sinfi qarşıdurma dövrünün birinci mərhələsində SSRİ-nin ideoloji üstünlüyü özünü göstərirdi. Marksizm-leninizm klassiklərinin uzun müddət işləyib hazırladığı cəlbedici sosializm ideyalarını Birinci Dünya müharibəsinin dəhşətlərini yaşamış o dövrün insanları arasında yaymaq, "utopik bərabərlik" ideologiyası ətrafında çoxsaylı tərəfdar toplamaq o qədər də çətin deyildi. Əlbəttə, Qərb də müvafiq olaraq sosialist düşərgəsinin ideoloji çağırışlarına özünün üstün dəyərləri hesab olunan "insan hüquqlarının qorunması", "azad dünya dəyərlərinin genişləndirilməsi", "xüsusi mülkiyyətin müdafiəsi" və s. kimi özünəməxsus ideoloji silahlardan istifadə etməklə cavab verməyə çalışırdı. 20-ci illərdən başlayaraq ABŞ başda olmaqla Qərb ölkələri qısa müddətdə səfərbər olaraq anti-sovet və anti-SSRİ bloku yaradırlar. Bu da düşərgələrarası ideoloji mübarizəni xeyli şiddətləndirirdi.

İkinci Dünya müharibəsinin gedişində və müharibədən sonra hər iki düşərgə dünyanın müxtəlif ölkə və xalqlarından öz ətrafına kifayət qədər tərəfdar toplayaraq, sonrakı 50 ilə yaxın müddətdə bəşəriyyəti təhdid edən ideoloji qarşıdurmanı davam etdirdi.

Sivilizasiya paradiqması. 1991-ci ildə sosializm-kapitalizm qarşıdurmasında SSRİ-nin çökməsi, ona qədər isə dünya sosialist sisteminin iflası geosiyasəti planetar səviyyədə ideoloji paradiqmalar çərçivəsindən çıxararaq, yeni - fərqli yanaşmaların əsasını qoydu.

Yeni dövrün geosiyasi paradiqmalarını geosiyasətçilər *"sivilizasiya yanaşması"* adlandırmağa başladılar. Bu yanaşmanın metodoloji əsasında hələ 1970-1980-ci illərdə Avropada bəzi tədqiqatçılar tərəfindən irəli sürülmüş, beynəlxalq hüquqa əsaslanan dövlətlərarası münasibətlər, insan amilinə, onun maraqlarına, sərbəst hərəkəti ideyasına söykənən "sivil dünya nizamı" konsepsiyası, transmilli vahid dünya məkanı və bəşəriyyəti təhdid edən qlobal təbiət və cəmiyyət problemlərindən birgə qurtulmaq ideyası və s. dayanırdı.

Əgər əvvəlki dövrlərdə, xüsusən klassik geosiyasət zamanında bəşəriyyətin tarixi inkişafının əsasına yalnız bir neçə böyük xalqı qoyurdularsa, hazırda tədqiqatçıların böyük qrupları sivilizasiya yaradıcıları sırasına çoxsaylı xalqları və dövlətləri aid edərək, dünyanın müasir inkişafının çoxşaxəli sivilizasiyaların inkişafı və bir-birini zənginləşdirməsi ilə xarakterizə olunduğu qənaətinə gəlirlər. Onlar müasir dünyada beş əsas sivilizasiya daşıyıcısının bəşəriyyət həyatında cərəyan edən bütün ictimai, siyasi, iqtisadi və mədəni proseslərin əsasında dayandığı və bəşəri dəyərlərin yönünü müəyyən etdiyi qənaətindədirlər.[1]

Geoiqtisadi və informasiya paradiqmaları. Bəhs olunan paradiqmalara görə, hazırkı beynəlxalq geosiyasi münasibətlərin əsasını artıq planetin əlverişli hərbi-siyasi əraziləri, coğrafi məkanları və s. təbii maraqları uğrunda böyük dövlətlərin milli mübarizəsi və onlara məxsus geosiyasətçi alimlərin elmi mübahisələri deyil, daha çox transmilli geoiqtisadi və informasiya amilləri (bu amillər haqqında kitabın müvafiq bölmələrində geniş danışılır), iqtisadi, biznes və informasiya maraqlarının təmin olunması və qorunması vəzifələri təşkil etməyə başlayır. Dünyanın müasir geosiyasi dinamikasının və inkişaf meyillərinin də məhz bu əsasda cərəyan etdiyi reallığı ortaya çıxır. Hər bir ölkənin daxili və xarici idarəçiliyi müasir dövrdə geoiqtisadi və informasiya paradiqmalarından nə dərəcədə məharətlə və səriştə ilə istifadə edilməsindən asılı olaraq dəyişir.

[1] Söhbət Qərbi Avropanın katolik xristianlarından, Şərqi Avropa və rus-pravoslav xristianlarından, islam dünyası - Afrika, Orta Şərq, Böyük Çin səddindədək olan geniş ərazilərə səpələnmiş islam sivilizasiyası daşıyıcılarından, tropik subkontinental Hindistan və induslardan və nəhayət, Asiya-Sakit okean bölgəsinin buddist-konfuist sivilizasiyası daşıyıcılarından gedir.

Geosiyasət elmində yuxarıda nəzərdən keçirdiyimiz əsas nəzəri paradiqmalar - milli-dövlət, yaxud hüquq, ideoloji, sivilizasiya, geoiqtisadi və informasiya paradiqmaları bütövlükdə bu gün də öz aktuallığını saxlayır. Eyni zamanda, qeyd etmək lazımdır ki, sözügedən elmin nisbətən müstəqil bilik sahəsi kimi təşkil edilməsi nəticəsində nəzəri yanaşmaların və öyrənmə metodlarının, tədqiqat məktəblərinin və konseptual istiqamətlərin sayı xeyli artmışdır. Onları bir qədər ətraflı nəzərdən keçirək.

1.8. Geosiyasətin tədqiqat metodları

Geosiyasi tədqiqatlarda digər sosial-humanitar elmlərin - siyasi coğrafiya, sosiologiya, politologiya, tarix, fəlsəfə və başqalarının ümumi metodlarından istifadə olunur. Bunlardan ən geniş istifadə olunanları aşağıdakılardır: ***sistemli yanaşma metodu, fəaliyyət metodu, müqayisəli metod, tarixi metod, normativ-dəyər metodu, funksional metod, bihevioristmetod, struktur-funksional təhlil metodu, institusional metod, antropoloji metod, ümummətiqi metodlar, empirik tədqiqat metodu, konkret məkan metodu və s.***

Struktur-funksional yanaşmanın əsas prinsipi **sistemli yanaşma metodu**dur. *K.Marks, Tolkott Parsons*[1] (1902-1979) və başqa iqtisadçılar, sosioloqlar, politoloqlar bu metodu yaxşı mənimsəmişdilər. Adətən, belə hesab edirlər ki, sosiologiya və politologiyada sistemli yanaşma XX əsrin 50-60-cı illərində T.Parsons tərəfindən ətraflı tədqiq edilmişdir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, ictimai həyatın, elmin, o cümlədən geosiyasətin hər hansı sahəsi bütöv, mürəkkəb, mütəşəkkil və özü-özünü tənzimləyən, sistemin girişləri və çıxışları vasitəsilə ətraf mühitlə fasiləsiz qarşılıqlı təsirdə olan orqanizm kimi nəzərdən keçirilir. Hər bir sistem özünü qorumağa çalışır (geosiyasi sistem də istisna deyil) və müəyyən funksiyalar yerinə yetirir. Bu funksiyaların ən əhəmiyyətlisi dəyərlərin və resursların bölgüsü, bölgü ilə əlaqədar qərarların vətəndaşlar tərəfindən məcburi qərarlar kimi qəbul olunmasının təmin edilməsidir.

[1] Amerika sosioloqu, funksional məktəbin başçısı. Müasir sosiologiyada "ümumi nəzəriyyə" axtarışlarını Parsonsun adı ilə bağlayırlar.

Elmdə (xüsusən politologiya, psixologiya, sosiologiya və başqa elmlərdə) **fəaliyyət metodu** psixoloji və ya sosial-psixoloji metod adlanır. Bu metod fərdlərin və ya qrupların davranışının onların daha qlobal birliklərə qoşulmasından asılılığının öyrənilməsinə, eləcə də millətlərin, siniflərin, kütlələrin, kiçik qrupların və s. psixoloji xarakteristikalarının tədqiqinə yönəlmişdir. Geosiyasətdə fəaliyyət metodu geosiyasi mənzərənin dinamikada təhlilinə istiqamətlənmişdir. Bu halda geosiyasi mənzərə canlı və əşyalaşmış fəaliyyətin spesifik növü, müəyyən mərhələlərə malik olan proses kimi nəzərdən keçirilir. Buraya fəaliyyətin məqsədlərinin müəyyən edilməsi; qərarlar qəbul edilməsi; onların həyata keçirilməsi üçün kütlələrin təşkil edilməsi və resursların səfərbər edilməsi; qrupların, kütlələrin fəaliyyətinin tənzimlənməsi, qarşıya qoyulmuş məqsədlərə nail olunmasına nəzarət; fəaliyyətin nəticələrinin təhlili; yeni məqsəd və vəzifələrin qoyuluşu daxildir. Fəaliyyət metodu geosiyasi qərarlar nəzəriyyəsinin metodoloji bazasını təşkil edir.

Bir sıra alimlərin fikrincə, fəaliyyət metodunun spesifik inkişafı və konkretləşdirilməsi olan tənqidi-dialektik metod geosiyasətdə mövcud hadisələrin, faktların, cərəyanların tənqidi təhlilinə, cəmiyyətin özünün hərəkətinə təkan verən mənbə kimi iqtisadi, sosial-siyasi, geosiyasi dəyişikliklərin mənbəyi olan ziddiyyətlərin araşdırılmasına yönəlmişdir. Marksistlər və neomarksistlər (*Yürgen Habermas,*[1] *Teodor Adorno*[2] və b.), həmçinin solçu-liberal və sosial-demokratik təfəkkürün nümayəndələri bu metoddan geniş istifadə etmişlər. Bu metod səmərəli olduğuna görə geniş tətbiq edilir.

Müqayisəli metod cəmiyyət haqqında elmlərin çoxunda: tarixdə, sosiologiyada, dilçilikdə, coğrafiyada, politologiyada və s. geniş yayılmışdır. Antik dünyanın və Qədim Romanın *Platon, Aristotel* və başqa mütəfəkkirləri bu metoddan istifadə etmişlər. Sosiologiyada bu metodu tətbiq edən fransız filosofu *O.Kont* olmuşdur. Sosiologiyanın bir şaxəsi kimi ayrılmış politologiya da bu metoddan istifadə edir. Sintetik elm olan geosiyasətdə də bu metoddan

[1] Alman filosofu və sosioloqu, Qərbi Almaniya sosial-demokratiyasının ideoloqu.
[2] Radikal istiqamətli alman filosofu və incəsənət sosioloqu.

geniş istifadə edilir. Müqayisəli metod eyni tipli həyat hadisələrinin ümumi cəhətlərini və spesifikasını ayırmaq, məsələlərin həllinin optimal yollarını tapmaq üçün müqayisələr aparılmasını nəzərdə tutur. Bu metod başqa xalqların və dövlətlərin təcrübəsindən səmərəli istifadə etməyə imkan verir. Təbii ki, bu halda geosiyasi məqsədlərə nail olmağın bu və ya digər üsullarının kor-koranə təkrarlanması deyil, konkret şərait, məkan və zaman nəzərə alınmaqla məsələlərin yaradıcılıqla həll edilməsi nəzərdə tutulur.

Tarixi metod da bütün ictimai elmlərdə çoxdan tətbiq edilir. O, bütün həyat hadisələrinin zaman etibarilə ardıcıl inkişafda öyrənilməsini, keçmişin, bu günün və gələcəyin əlaqələrinin aşkar olunmasını tələb edir. Fəlsəfə, sosiologiya, tarix və politologiyada olduğu kimi geosiyasətdə də bu metod ən mühüm metodlardan biridir. İlk peşəkar rus sosioloqu *Maksim Maksimoviç Kovalevski* (1851-1916) müqayisəli və tarixi metodlar əsasında *tarixi-müqayisəli metod* təklif etmişdir. Bu metod yaxşı məlumdur və xüsusi şərhə ehtiyacı yoxdur.

Normativ-dəyərlər metodunun mahiyyəti onun adından görünür. O, dövlət və şəxsiyyət üçün bu və ya digər faktların, hadisələrin mənasının aydınlaşdırılmasını; bu faktların və ya hadisələrin ölkənin, fərdin rifahı baxımından qiymətləndirilməsini qarşısına vəzifə kimi qoyur. Qiymətləndirmə ədalət və ya ədalətsizlik, başqa ölkələrin xalqlarının hüquqlarına hörmət və ya bu hüquqların pozulması mövqeyindən aparılır. Bu halda nəzərdə tutulur ki, siyasətçi, dövlət xadimi öz fəaliyyətində, qərarlar qəbul edərkən, etik dəyər və normaları nəzərə almalı və özünü onlara müvafiq şəkildə aparmalıdır. Şübhəsiz, bu metodun nöqsanları çoxdur. Real siyasət və əxlaq normaları çox vaxt müxtəlif müstəvilərdə yerləşir. Onun zəif cəhəti dəyərlər haqqında mülahizələrin nisbi olması, onların insanların sosial vəziyyətindən və fərdi xüsusiyyətlərindən asılı olmasıdır. Lakin bu metod geosiyasətə insan ölçüsü gətirir, ona müəyyən mənəvi başlanğıclar daxil edir.

Funksional metod ictimai həyatın müxtəlif sahələri və ya ölkələr, yaxud ölkə qrupları arasında münasibətlərin asılılıqlarının: onların iqtisadi, siyasi münasibətləri, hərbi əlaqələrin və ya qarşıdurmanın səviyyəsi, əhalinin urbanizasiya dərəcəsi, onun sıxlığı, siya-

si fəallığı, mənəvi-psixoloji ruh yüksəkliyi və başqa amillərin diqqətlə öyrənilməsini tələb edir. Bu metod geosiyasi qərarların etik qiymətləndirilməsindən uzaqdır və pozitiv-praqmatik məqsədlərə əsaslanır. Bu metodu geniş miqyasda ilk dəfə istifadə edənlərdən biri məşhur italyan siyasətçisi və mütəfəkkiri *N.Makiavelli* olmuşdur. O, özünün "Hökmdar" adlı kitabında real siyasətdə nəinki dini ehkamlardan, hətta etik dəyərlərdən də imtina olunmasını təklif etmişdir. Onun metodoloji məqsədi real həyatı və siyasəti onlara xas olan bütün ziddiyyətlərlə birlikdə təhlil etmək idi.

Bu metoda yaxın olan **bihevioristmetod** haqqında bir neçə kəlmə deməsək, funksional metod haqqında məlumatlar yarımçıq olar. Bihevioristmetoddan təbiət elmlərində və konkret sosioloji tədqiqatlarda geniş istifadə edilir. O biliklərin aydın, dəqiq, birmənalı olmasını və təcrübədə yoxlanıla bilməsini tələb edir. Bihevioristmetodun siyasətə tətbiqi ilə bağlı tələbləri *V.Vilson* 1880-ci ildə ifadə etmişdir. Həmin tələblərin mahiyyəti bundan ibarət idi:

- *Siyasət (və geosiyasət) şəxsiyyət ölçüsünə malikdir. İnsanların hərəkətlərini (onların mənafelərini) konkret şəxsiyyət fokuslaşdırır və ifadə edir. Əsas tədqiqat obyekti də həmin şəxsiyyətdir;*
- *İnsanların davranışının, hərəkətlərinin əsas motivləri psixoloji motivlərdir. Onlar sosial amillərlə şərtlənməklə yanaşı spesifik fərdi təbiətə də malik ola bilər;*
- *Təbiət elmləri metodlarından, o cümlədən riyazi, statistik məlumatlar, kompyuter texnikasının imkanları tətbiq edilə bilən hallarda kəmiyyət ölçülərindən geniş istifadə edilir.*

Struktur-funksional təhlil metodu da bu qəbildəndir. O cəmiyyəti, dövləti, dövlətlər ittifaqını mürəkkəb struktura malik olan bir sistem kimi nəzərdən keçirir. Bu sistemin hər bir elementi müəyyən tələbatı və sistemin gözləntilərini təmin edən spesifik funksiyalar yerinə yetirir. Sistemin elementləri təşkilatın özünün strukturu ilə təyin olunan müəyyən proqram əsasında fəaliyyət göstərir. Təşkilatın (ittifaqın) əsas vəzifəsi sistemin tarazlığını qoruyub saxlamaq, təşkilatın elementləri tərəfindən onların funksiyalarının (rollarının) dəqiq icra edilməsidir.

İnstitusional metod dövlətin, partiyaların, təşkilatların, birliklərin siyasi fəaliyyətinin həyata keçirilməsinə kömək edən təsisatların işinin öyrənilməsinə yönəlir. XX əsrin əvvəllərinə qədər bu metod politologiyada, sosiologiyada və geosiyasətdə aparıcı metod olmaqla geniş tətbiq edilirdi. "Sosial təsisat" anlayışı özü elmə sosiologiyadan gəlmişdir. Bu termini elmi dövriyyəyə daxil edən isə ingilis sosioloqu *H.Spenser* olmuşdur.

Antropoloji metod vaciblik dərəcəsinə görə sosial amilləri deyil, çox müxtəlif, ilk növbədə, maddi tələbata ehtiyacı (hava, su, qida, geyim, mənzil, təhlükəsizlik, mənəvi inkişaf və s.) olan insan təbiətini ön plana çəkir. Bu metodun tərəfdarları insanı xüsusi xarakterli varlıq hesab edir və bu anlayışa prinsipial əhəmiyyət verirlər. İnsan şüurlu və doğulduğu andan azad bioloji, sosial varlıqdır. İnsan övladı irqi, coğrafi, sosial və başqa fərqlərdən asılı olmayaraq vəhdət təşkil edir, bütün insanlar bərabər hüquqlara malikdir. Bu metod mühüm siyasi, iqtisadi, sosial, hərbi və başqa qərarların qəbul edilməsində sosial mühitin və ya rasional motivlərin öyrənilməsi ilə məhdudlaşmadan insan təbiəti ilə müəyyən edilmiş irrasional, instinktiv davranış metodlarının aşkar olunmasını və öyrənilməsini təklif edir.

Ümummətiqi metodlar daha çox geosiyasi hərəkətlər və dəyişikliklərlə əlaqədar idrak prosesinin təşkilinə və proseduruna aiddir. Bu qrupa analiz və sintez, induksiya və deduksiya, mücərrədləşdirmə və mücərrəddən konkretə keçid, tarixi və məntiqi təhlilin əlaqələndirilməsi, eksperimentin bütün növləri, kibernetik, riyazi, proqnostik modelləşdirmə və başqa metodlar aid edilir.

Empirik araşdırma metodu geosiyasətə sosiologiya, statistika, kibernetika və digər elmlərdən gəlmişdir. Bu metoda, bir qayda olaraq, sənədlərin öyrənilməsi və təhlili, sorğuların keçirilməsi, eksperimentlər aparılması, oyun nəzəriyyələri və sairəni aid edirlər.

Konkret məkan metodu bir qədər gənədir və geosiyasətə siyasi coğrafiyadan keçmişdir. Müasir geosiyasətdə ən çox tətbiq olunan bu metoddan geosiyasi, geostrateji və geoiqtisadi münasibətlərin, planetar, regional və ölkələrarası hadisələrin məkan xarakteristikasının öyrənilməsində istifadə edilir, vəziyyətin izahında, dövlətlərin konkret marağı və onun təmin edilməsinin qlobal, regional və subregional nəticələrinin öyrənilməsində tətbiq edirlər.

1.9. Geosiyasətin funksiyaları

Geosiyasət öz tədqiqat obyekti və predmeti olan ayrıca elm sahəsi kimi dünyada baş verən dövlətlər və bloklararası geosiyasi münasibətləri, geoiqtisadi, geostrateji prosesləri müxtəlif metodlarla öyrənir, real proseslərin obyektiv əlaqələrini və qanunauyğunluqlarını əks etdirir. Bu da müəyyən funksiyaları yerinə yetirməyə imkan verir. Həmin funksiyaların ən vacibləri qavrama, proqnozlaşdırma, idarəetmə və ideoloji funksiyalardır. Bəzi alimlər aksiologiya və qiymətləndirmə, tərbiyəvi və ya siyasi sosiallaşma, vətəndaşlıq hissinin, əhalinin siyasi mədəniyyətinin formalaşması funksiyalarını da müstəqil funksiyalar hesab edirlər. Lakin bizim fikrimizcə, bu funksiyalar *qavrama, proqnozlaşdırma, idarəetmə və ideoloji funksiyalara* üzvi şəkildə daxil edilə bilər.

Qavrama funksiyası, ilk növbədə, ölkələrin və xalqların geosiyasi inkişaf meyillərinin öyrənilməsi, müxtəlif hadisələrin, proseslərin, halların dəyişməsi ilə bağlıdır. Geosiyasətdə elmi idrak çox vaxt müqayisə, analogiya, ekstrapolyasiya metodları vasitəsilə dövlətlərin, ölkələrin və xalqların həyatına aid nəzəri biliklərin məcmusunu öyrənir, empirik tədqiqatlardan istifadə edir və nəticələr çıxarır. Bu araşdırmalar geosiyasi gerçəklik haqqında yeni, empirik baxımdan əsaslandırılmış biliklərin prioritetliyini təmin edir. Bu məqsədlə geosiyasi həyat amillərinin bütün məcmusunun dəyişməsi meyilləri və yeni faktlar aşkar edilir və təhlil olunur. Bu, dünyanın geosiyasi xəritəsində qlobal və regional dəyişiklikləri başa düşmək və izah etmək üçün mühüm ilkin şərtdir. Heç şübhəsiz, bu cür anlama və izah üçün ümumi məntiq metodları: analiz və sintez, induksiya və deduksiya, digər metodlar tətbiq edilməlidir. Konkret geosiyasi hadisələr, faktlar, proseslər haqqında çox böyük həcmdə informasiyanı işləmək və ümumiləşdirmək lazım gəlir. Başqa psixoloji, sosial və xüsusi metodlar da tətbiq edilə bilər: sənədlərin kontent-təhlili, testləşdirmə, sosiometriya və s. Buraya kiçik bir regionda, qlobal blokda və ya ittifaqda baş verən siyasi hadisələrin iştirakçılarının fəaliyyətinin,

hərəkətlərinin, davranışının, çıxışlarının, bəyanatlarının təhlili daxil ola bilər. Tədqiqatçı obyektiv və subyektiv göstəricilərlə ifadə edilən informasiya alır. İnformasiyanın birinci qrupu rəsmi statistika, dünyada baş verən dəyişikliklər haqqında məlumatlarla tamamlanır və dəqiqləşdirilir, ikinci qrupa isə dünya və regional miqyaslı geosiyasətin müxtəlif subyektlərinin fəaliyyətinin motivləri, niyyətləri və məqsədləri haqqında informasiya aiddir. Subyektiv informasiya çox böyük idrak dəyərinə malikdir. O, beynəlxalq və ya regional həyatda insan amilinin rolunu açıqlayır, kütləvi siyasi proseslərin subyektiv-psixoloji cəhətlərinə diqqəti cəlb edir, obyektiv geosiyasi inkişaf meyillərinin dünya və ya regional miqyaslı hadisələrdə iştirak edən dövlətlərin, ölkələrdən ibarət blokların, sosial və ya etnik qrupların və xalqların liderlərinin şüurunda adekvat əksolunma dərəcəsini qiymətləndirməyə imkan verir.

Siyasi hadisələrin iştirakçıları haqqında məlumatlar, onların sosial-mənəvi oriyentasiyalarının təfərrüatı, onların tələbatı və maraqları, mədəni səviyyəsi, real və verbal davranış faktları və hətta şəxsi həvəsləri (hobbiləri) haqqında məlumatlar da idrak və proqnoz baxımından maraq doğurur. Empirik araşdırmalar tədqiqatçını maraqlandıran regionda ictimai rəy, bu və ya digər qlobal regionların xalqlarının rəyi haqqında informasiya toplamağa, planetin müvafiq hissəsinin əhalisinin mənəvi-psixoloji əhvalını öyrənməyə imkan verir. Biz sırf informasiya funksiyasını qavrama funksiyasının ayrılmaz tərkib hissəsi hesab edirik. Bununla bərabər, empirik tədqiqatlar geosiyasi inkişafın yeni meyillərini aşkar etməyə imkan verir, bununla da nəzəriyyəni zənginləşdirirlər.

Geosiyasətin **proqnozlaşdırma funksiyası** qavrama funksiyasından irəli gəlir və onunla sıx bağlıdır. Əslində, nəzəri və empirik araşdırmalar çox vaxt geosiyasi qüvvələrin, məkanların inkişafı barədə az-çox düzgün proqnoz vermək, ölkələrin və ya ittifaqların konfiqurasiyasını, onların beynəlxalq və etnik münasibətlərin inkişafına təsirini göstərmək, ehtimal edilən lokal münaqişələri tənzimləmək və onların qarşısının alınması və dəf edilməsi ilə bağlı tövsiyələr işləyib hazırlamaq məqsədilə aparılır.

Konkret empirik tədqiqatlardan başlamış həmin empirik materialın təhlilinə əsaslanan nəzəri araşdırmalara qədər hər bir geosiyasi tədqiqatın dəyəri müxtəlif geosiyasi proseslərə xas olan meyillərin həmin tədqiqatlarda nə dərəcədə adekvat və dəqiq əks etdirilməsi ilə müəyyən olunur. Tədqiqatın dəyəri bir də onun elmi cəhətdən nə dərəcədə əsaslandırılmış proqnozlarla tamamlanmasından, eləcə də bu proqnozların insanın, ölkənin, regionun, bütövlükdə, bəşəriyyətin mənafeyi naminə mütərəqqi geosiyasi dəyişikliklərin həyata keçirilməsinə nə dərəcədə kömək edəcəyindən asılıdır. Regional və ya qlobal xarakterli geosiyasi dəyişikliklərin qısamüddətli və uzunmüddətli proqnozlarının işlənib hazırlanmasında monitorinq, yəni baş verən proseslərin müşahidəsi də mühüm rol oynayır. Müqayisə, analogiya və başqa metodların tətbiq edilməsi arzuolunmaz geosiyasi hadisələri qabaqlamağa imkan verir.

Geosiyasətin **idarəetmə funksiyası,** ilk növbədə, empirik informasiyanın toplanmasında və təhlilində, konkret idarəçilik qərarları və tövsiyələrinin işlənib hazırlanmasında istifadə olunur. Optimal həcmdə informasiya olmadan, bu informasiya lazımınca təhlil edilmədən, alimlərin çıxardığı nəticələr və tövsiyələr siyasi liderlərə, hərbi rəhbərlərə, iqtisadçılara təqdim edilmədən düzgün qərarlar qəbul etmək, geosiyasi prosesləri idarə etmək, ümumiyyətlə, ictimai, siyasi, maliyyə-iqtisadi həyatın konkret sahəsinə rəhbərlik etmək mümkün deyil. Hər hansı fəaliyyət növü idarə edilərkən, idarəçilik qərarları hazırlanarkən problemli vəziyyəti yaxşıca təhlil etmək, müxtəlif qüvvələrin, siyasi, coğrafi, iqtisadi, hərbi və başqa amillərin qarşılıqlı nisbətini düzgün qiymətləndirmək, bütün hadisələrin subyektlərinin təsir səviyyəsini bilmək, siyasi, hərbi, sosial, iqtisadi və başqa risklərin dərəcəsini müəyyən etmək, müxalif və düşmən qüvvələrə qarşı mübarizənin konkret tədbirlərini müəyyən etmək zəruridir.

Beləliklə, geosiyasətin idarəçilik funksiyası konkret olaraq onda təzahür edir ki, onun tətbiqi hissəsi geosiyasi hadisələrin idarə edilməsi, formalaşması və onlara rəhbərlik edilməsi üçün praktiki tövsiyələrin işlənib hazırlanmasında bilavasitə iştirak edir. Geosiyasətdə praktiki tövsiyələr çox vaxt iki qrupa bölünür: *obyektiv və subyektiv*

tövsiyələr. Birinci qrupa aid amillər insanın həyat fəaliyyətinin obyektiv şərtlərini nəzərdə tutur. Tədqiqatçı, alim, siyasi lider, sərkərdə və başqaları bu şəraitin konkret geosiyasi münasibətlər sisteminə təsirini təhlil edərək, tədqiqatın gedişində əldə edilən konkret informasiyaya, kəşfiyyat məlumatlarına və başqa informasiyaya əsaslanır. İnformasiya təhlil ediləndən sonra hadisələrin inkişaf meylləri ümumiləşdirilir. Daha sonra nəzəri tövsiyələr verilir. Lakin bu tövsiyələr sırf tətbiqi, utilitar-praqmatik, ötəri xarakterli olmaqla elm üçün ciddi əhəmiyyət kəsb etməyə bilər. Bu halda çox şey mütəxəssis-analitikin təhlil aparmaq bacarığından, onun hazırlıq səviyyəsindən asılıdır, yəni məsələnin subyektiv tərəfi böyük əhəmiyyət kəsb edir. Bundan əlavə, subyektiv amillər qrupuna maraqlar, motivlər, məqsədlər, niyyətlər, dəyər oriyentasiyaları, ideoloji və dünyagörüşü mövqeləri və başqa amillər də daxildir. Proqnozlaşdırılan idarəetmə qərarından kənarlaşmanın dərəcəsini təyin etmək üçün bunları bilmək çox vacibdir. Beləliklə, geosiyasət - idarəçilik və rəhbərlik elmidir.

Geosiyasətin **ideoloji funksiyası** da əvvəlki funksiyalar kimi çoxşaxəlidir. Bu fənn onilliklər ərzində ideoloji nifaq mövzusu olmuş və SSRİ-də yalançı elm, yüksək dərəcədə inkişaf etmiş ölkələrin dünyada ağalıq etmək kimi təcavüzkar niyyətlərinə haqq qazandıran imperializm, faşizm ideologiyası hesab edilmişdir. Geosiyasətin bu cəhəti sırf apologet xarakter daşıyırdı. Şərqi Avropa ölkələrinin kollektiv təhlükəsizlik sistemi dağılandan, Belovejsk sazişindən sonra SSRİ-nin çökməsi və birqütblü dünyanın yaranması bir daha təsdiq edir ki, geosiyasətin ideoloji funksiyası güclənmişdir.

Beləliklə, geosiyasət - böyük məkanlar, qlobal siyasi, iqtisadi və başqa proseslər və onların idarə edilməsi məharəti haqqında elmdir. Son vaxtlar geosiyasət elmi konkret məzmun ilə zənginləşərək müasir dünyada baş verən dəyişikliklərin başa düşülməsində fəal rol oynayır. Doğrudur, bu, ona görə belə olur ki, o müxtəlif elm sahələrinin bazasına istinad edir. Geosiyasət dünyada baş verən siyasi dəyişikliklərə reaksiya verən bir elm sahəsi olmaqla yanaşı, aparıcı dövlətlərin və regionların siyasətini proqnozlaşdıra bilən bir açar funksiyasını da uğurla yerinə yetirir.

1.10. Geosiyasətin aktorları

Geosiyasət sosial qrupların meydana gəlməsi və onlar arasında münasibətlər sisteminin yaranması ilə birgə təşəkkül tapmış və inkişaf etmişdir. Geosiyasətin mövcudluğu üçün *aktorların - bu və ya digər konkret məqsəd güdən, onu müəyyənləşdirən, ifadə edən və bu məqsədlə fəaliyyət göstərən, öz hərəkətliliyi ilə seçilən obyektlərin - fərdlərin və yaxud strukturların* - olması lazımdır. Dünya siyasətşünaslığında planetar geosiyasi məkanda mövcud olmuş və fəaliyyət göstərmiş bütün geosiyasi aktorları aşağıdakı kimi təsnif etmək olar:

1) **Klassik və ya ənənəvi geosiyasi aktorlar** - bunlara dövlət və dövlət birliklərini, ordunu, dini və milli təsisatları aid edirlər.

2) **Yeni geosiyasi aktorlar**ın sırasına siyasi partiyaları, qeyri-hökumət təşkilatlarını, davakar milli və sosial qrupları, müxtəlif geoiqtisadi aktorları (əsasən transmilli korporasiyaları), kütləvi informasiya və kommunikasiya vasitələrini aid edirlər.

3) **Millətçilik siyasəti yürüdən və bu əsasda xüsusi geosiyasi layihələr irəli sürən təşkilat və qrupları** da geosiyasi aktorlara aid edirlər. Bunların sırasında millətçi siyasi partiyaları, milli-mədəni assosiasiyaları və digər millətçi-davakar, separatçı təşkilatları xüsusi fərqləndirirlər.

Sözügedən aktorları *"siyasi qurumlar"* tipoloji termini altında qruplaşdırmaq olar *[Lorot, Thual, 1997, p. 71]*. Siyasi qurumlar tarixin başlanğıcından məlum olan hakimiyyətin təşkili formalarıdır. Siyasi qurumlar həm imperiyalar, krallıqlar, knyazlıqlar, modern dövlət-millətlər, həm də qədim şəhər-dövlətlər və s. ola bilər. Əgər qrup, qrup təşkilatı və ortamüddətli qrup niyyətləri varsa, siyasi qurum da var. Bəşər tarixi minlərlə siyasi qurum tanıyır. Formalarının müxtəlifliyinə baxmayaraq, tarixin hərəkətini müşayiət edən bu qurumların hamısı ərazi genişlənməsi iddialarını qidalandıran qurumlar idi. Bu, "məkan iradəsi", qrupun sərvətlərini və qüdrətini artırmaq iradəsi ilə izah olunur.

İddiaları təşviq etmək, eyni zamanda, başqa siyasi qurumların iddialarının təhlükəsi altında yaşamaq siyasi qurumların sosiyyəvi

cəhətidir. Bir qrupun iddialarının və onun rastlaşdığı təhlükələrin siyahıya alınmasından ibarət olan *"ikili açar"* vasitəsilə yanaşma üsulu geosiyasi təhlilin əsasını təşkil edir.

Siyasi qurumların morfogenezi (inkişafı prosesi) bir ölkənin, bir siyasi strukturun (imperiya, dövlət, şəhər-dövlət və s.) ərazicə formalaşmasını izləməyi nəzərdə tutur. Dövrdən asılı olmayaraq, bir siyasi vahidin ərazicə formalaşmasının təhlili onun ərazicə yaranması mərhələlərinin müqayisəsindən ibarətdir. Bu zaman onun məruz qaldığı ərazi parçalanmaları və itkiləri hesablanmalı və həm gerçəkləşməmiş ərazi ekspansiyası arzuları, həm də bəyan olunmuş məqsədlər unudulmamalıdır. Bu üç açarla silahlanaraq, bir ölkənin məkan anatomiyasının təkamülünü izləmək, onun ərazi yekununu müəyyənləşdirmək olar. Geosiyasi mənada tale mövcud olmadığından anatomiya və onun dəyişiklikləri siyasi qurumun geosiyasi mövqeyini anlamağın başlıca yoludur. Birinci mərhələdə ilkin zonanın, mərkəzi regionun köməyilə siyasi qurumun necə yarandığını görmək lazımdır. İtaliyanın qurulmasında Pyemontun rolu buna gözəl nümunədir. Eynilə, bəşər tarixində ən böyük davamlı ərazi qurumunun yaranması ilə nəticələnən Moskva knyazlığının meydana çıxmasından başlanan Rusiyanın inkişafını izləmək də xüsusi maraq doğurur. Eyni mülahizə ilə, Vəhhabilər sülaləsinin Nəcd əyalətindən başlayaraq Ərəbistan yarımadasını birləşdirməklə Səudiyyə Ərəbistanını yaratması geosiyasi anlamın mühüm elementlərini təqdim edir. Ərazi yekunu özünün dinamik prosedurunda qonşu ölkələrin ərazi yekunlarını da nəzərə almağa borcludur.

Ərazi yekunu tarixi və coğrafi amilləri inteqrasiya etməklə geosiyasi iddiaların və geostrateji məcburiyyətlərin sintezi ilə nəticələnir. Ərazi morfogenezini *etnogenezdən* (xalqların mənşəyi) fərqləndirmək lazımdır. Etnogenez, kimlik mövzuları ətrafında milli şüurun formalaşmasına aiddir, məsələn, alman birliyindən öncə alman milli hissinin formalaşması və s. Morfogenez və etnogenez üst-üstə düşmür, etnogenez xalqın, dövlətin morfogenezinin bəzi aspektlərini izah edə bilər və xalqın etnogenezi isə dövlətin morfogenezini izah edə bilər. Bunlar *təhlilin iki müxtəlif aspektidir.* Digər tərəfdən,

ərazi yekunu metodu, morfogenezdə regionların real çəkisinin təkamülünü nəzərə almalıdır. Burada söhbət daxili geosiyasətdən gedir.

Bütün siyasi qurumların istifadə etdiyi ərazi ekspansiyası strategiyaları arasında istila və işğal ən çox rast gəlinən formalardır. Paleolit dövründən başlayaraq basqın insanların ekspansiyasının sevimli formasıdır. Antik dövrdən etibarən bu ekspansiya mütəşəkkil silahlı yolla həyata keçirilmişdir. Danışıqlardan əvvəl və ya sonra baş verməsindən asılı olmayaraq, basqın - ərazini, onun sərvətlərini ələ keçirmək və oranın əhalisini tabe etmək məqsədilə başqasının ərazisinə kobud müdaxilədir.

Başqa bir ekspansiya strategiyası diplomatik danışıqlardır. Bu, zorakı təzyiq və rəqibin iradəsinin tabe etdirilməsi ilə həyata keçirilə bilər. Yaxın tarixdə, 1939-cu ilin yazında *Hitlerin* Bohemiya və Moraviyanı ələ keçirməsi buna misaldır. Danışıqlar silahlı aksiyadan əvvəl baş verə, hətta siyasi aktorları arzuolunan ərazini ələ keçirmək üçün hərbi yola əl atmaqdan azad edə bilər. Feodalizm dövründə danışıqlar strategiyaları arasında, xüsusilə sülalə ittifaqı uzun müddət əsas rol oynayıb. Buna misal kimi Fransa krallığının ərazisinin formalaşmasını və ya daha uzaq nümunə kimi, XIV əsrdə Baltik dənizindən Qara dənizə qədər uzanan geniş dövlətin yaranması ilə nəticələnən Litva və Polşa arasındakı sülalə ittifaqını göstərmək olar. Bizim günlərdə monarxiyalar nadir halda yaranır və buna görə də, artıq sülalə alyansı ərazi ekspansiyası vasitəsi deyildir.

Digər bir strategiya adi satınalmadır. Fransa krallığının Genuya Respublikasından Korsikanı almasını və yaxud daha son dövrdə, XIX əsrdə ABŞ-ın Çar Rusiyasından Alyaskanı almasını buna nümunə kimi göstərmək olar. Geosiyasi baxımdan çox nadir hal olan satınalmaya əl atmadan, mübadilə proseduruna daha tez-tez rast gəlinir. Söhbət nüfuz zonalarının mübadiləsindən gedə bilər. XIX əsrin sonunda Fransanın Misirdəki mənafelərinin Mərakeşdə nüfuz hüququ ilə mübadiləsi buna nümunədir.

Mübadilənin hərbi istila ilə bağlı olması məcburi deyil. Müstəmləkə dövründə bütün dövlətlər arasında nüfuz zonalarının mübadiləsi tez-tez baş verirdi, məsələn, İranda, Tibetdə, Əfqanıstanda,

Monqolustanda nüfuz zonalarının mübadiləsinə dair London və Sankt-Peterburq arasındakı 1907-ci il sazişi buna bir nümunədir. Ərazi ekspansiyası sadə ilhaq, yəni bir və ya bir neçə regionun artıq mövcud olan əraziyə qatılması və yaxud bir dövlətin başqa dövlətin bütün ərazisini, ya da onun bir hissəsini vassallaşdırması formasında da ola bilər. Vassallaşdırma siyasi və maliyyə qəyyumluğu, eyni zamanda, müəyyən geosiyasi nəzarət deməkdir. Daha müasir formada, SSRİ-nin 1945-ci ildən başlayaraq özünə sadiq rejimlər yaratmaqla Mərkəzi Avropanı satellitə çevirməsi həmin ekspansiya texnikasını nümayiş etdirir.

Həmçinin qeyri-hərbi və qeyri-diplomatik ekspansiya vasitələri də mövcud olub. Bunlara, xüsusilə dini missiyalar aiddir. Sibirdə rusların Sakit okeana qədər irəliləməsi çox vaxt illərlə şərqə doğru irəliləyən pravoslav missionerlərin və ovçularının birgə aksiyası ilə həyata keçirilirdi. Eynilə, Kanadanın genişlənməsi də belə oldu, burada çox vaxt ingilis ordusu ovçuların irəliləməsini müşayiət edirdi.

Ərazi irəliləyişinin başqa bir forması *pioner cəbhə* formasıdır. İmperiyaların hüdudlarında, sərhədləri pis müəyyənləşdirilmiş zonalarda əsgər kəndlilər, mühacirlər məskunlaşırlar və öz sahələrini genişləndirməklə imperiyanı möhkəmləndirərək onun sərhədini genişləndirirlər. Belə bir hal çox vaxt Avstriya imperiyasının Balkan hüdudlarında (indiki Xorvatiya regionları), həmçinin Osmanlı imperiyasının ziyanına olaraq, rus imperiyasının indiki Ukraynanın cənubundakı geniş çöldə istila etdiyi regionlarda baş verirdi *[Lorot, Thual, 1997, p. 73]. Məkan tələbatı, məkan arzusu, "ərazi libidosu" siyasi qurumlar arasındakı toqquşmaların əsas səbəblərindəndir.*

Geosiyasətdə iki ölkənin sadə qarşıdurması nadir haldır. Geosiyasi gərginliklərin çoxtərəfliliyi alyanslar və əks-alyanslar problemini gündəliyə gətirir. Bir ölkə özünün ərazi ekspansiyası istəyinə nail olmaq üçün çox vaxt bir, hətta iki ölkə ilə ittifaq yaratmağa meyil göstərir. Buna cavab olaraq, "qurban" ölkə "yırtıcı" ölkənin onu qarət etməsinə mane olmaq üçün başqa ölkələrlə ittifaq yaratmağa çalışır. Tarixdə alyanslar çoxdur. Bütün alyansların əsas səciyyəvi cəhəti onların qısamüddətli olmasıdır. Alyanslar şəraitə uyğun olmaqla kifayətlənmirlər, lakin onlar nadir hallarda strukturlu olurlar. Buna baxmayaraq, geosiyasi məqsədlər bir sıra hallarda alyansların müəyyən sabitliyinə kömək edir.

Başqa bir maraqlı nümunə *mühasirə və əks-mühasirə* cəhdləridir. Tarixdə *mühasirəyə* ən gözəl nümunə Sovet İttifaqı və satellit ölkələrdən, Monqolustan və Çindən ibarət olan kommunist blokuna qarşı ABŞ və Avropa müttəfiqlərinin həyata keçirdiyi mühasirədir. Şimal qütbündən Siciliyaya, Bosfordan Xəzər dənizinə və Pakistandan Vyetnama qədər Qərb dövlətləri bir sıra müqavilələrlə (NATO, SEATO, Bağdad paktı) Avrasiya kommunist blokunu dövrələməyə çalışdılar. Bu mühasirə sistemi artıq uzun müddətdir ki, aradan qalxmışdır. Bir ölkənin apardığı *əks-mühasirə* cəhdləri də maraqlıdır. Çin-sovet münasibətlərinin kəsilməsindən sonra kommunist Çini buna bir misaldır. Sovet İttifaqı özünün Çinlə ümumi sərhədindən əlavə, Monqolustana, Vyetnama və özünün kiçik Hind-Çin imperiyasına (Laos və Kamboca) nəzarəti təmin edirdi. Çin isə Pakistanla alyans vasitəsilə məngənədən çıxmağa çalışırdı. Bu da Sovet İttifaqının Pakistanla bağlı narahatlığı ilə üst-üstə düşürdü və SSRİ rəhbərlərini Hindistanla alyansı gücləndirməyə sövq edirdi. Bundan əlavə, Birma (Myanma) bitərəf mövqe tutmağa çalışırdı və Birma rəhbərlərini Moskvaya çox yaxınlaşmamağa inandırmağa cəhd etmək üçün çinlilər Birmanın şimalındakı etnik azlıqlardan təşkil olunmuş partizanları dəstəkləyirdilər. Şimali Koreyaya gəldikdə, o, dövrlərdən asılı olaraq rus və Çin nüfuzu arasında tərəddüd edirdi. Sovet İttifaqının bu birbaşa və dolayı mühasirəsindən narahat olan Çin amerikan alyansını qəbul etməyə tərəddüd etmədi və məngənədən çıxmaq üçün Yaponiyanı tanıdı. Bu diplomatik aksiyaları mühasirədən çıxma cəhdləri kimi anlamaq lazım gəlir.

Beləliklə, ərazi rəqabətlərinə xas olan proseslər: ittifaq yaratmaq, mühasirəyə almaq, zəiflətmək formasında kifayət qədər sadə görünsə də, əslində, çox mürəkkəb əməliyyatlar vasitəsilə həyata keçirilir [Lorot, Thual, 1997, p. 75].

Yalnız siyasi qurumların ərazi arzusu bütün rəqabətləri izah edə bilməz. Əlbəttə, böyümək və yenidən zəngin torpaqlar, kommunikasiya zonaları, strateji məntəqələr ələ keçirmək qayğısı özlüyündə geosiyasətin metodunu təşkil edir, lakin xüsusilə müasir dövrdə siyasi qurumlara *"təsəvvürlər"* adlandırılan fenomenlər də xasdır. *Təsəvvür - bir kollektivin və ya onun rəhbərlərinin yaratdığı "tarixi və coğrafi sxemlər" məcmusudur.* Təsəvvür geosiyasi niyyətlərin və davranışların əsasını qoyur. Təsəvvür hücum və ya müdafiə formasından asılı olmayaraq, qrupun fəaliyyətini legitimləşdirir. O, qrup vasitəsilə rəmzləşdirilən və gerçəkləşdirilməsi bu qrupun siyasətinin başlıca məqsədinə çevrilən tarixi-coğrafi mövzular şəbəkəsidir. Xarici əlaqələr sahəsində təsəvvürlər çox müxtəlifdir. Təsəvvür çox vaxt qaytarma məntiqindən irəli gəlir. Milli bütövlüyə nail olmaq üçün bir ərazini geri qaytarmaq lazımdır. Qrupların, insan cəmiyyətlərinin yaratdıqları bu təsəvvürlər, əsasən, bir-birinə rəqib təsəvvürlərdir. İddiaların formalaşdırılması və xarici hədələrin qavranılması ilə birlikdə, bir ölkənin başqalarına nisbətən mövqeyinin təsəvvürü çox vaxt şüarlar, xəritələr, məqalələr və s. rəmzlərdə kollektiv şəkildə sistemləşdirilir.

XX əsrin geosiyasi tarixində hərəkətverici rol oynamış təsəvvürlər arasında ideologiyaların, xüsusilə dövlət ideologiyalarının rolunu qeyd etmək lazımdır.

XIX əsrin sonundan başlayaraq bütün XX əsr ərzində geniş vüsət alan özünəməxsus kollektiv təsəvvür forması *milli fenomenlərə* aiddir. Əlbəttə, davamlı və minilliyə malik xalqlar olan Çin, yapon xalqları kimi "qədim xalqlar" həmişə mövcud olub. Avropada Fransa, Böyük Britaniya və İspaniya kimi ölkələrdə millətlər orta əsrlərdən formalaşıblar və dil rəngarəngliklərinin qalmasına baxmayaraq, onlar güclü dövlət sayəsində özlərini birləşdirməyə nail olublar. Lakin həqiqi milli fenomen sənaye cəmiyyətinin meydana çıxdığı XIX əsr üçün səciyyəvidir. Feodal dövlət və cəmiyyət formasının dağılması başqa kollektiv kimlik forması olan milli şüura meydan açmışdır. Xalqların milli şüuru strukturlaşaraq öz müstəqilliyinə nail olmağa, yəni suveren dövlət formasını almağa başlamışdır.

Beynəlxalq münasibətlərin aktorları kimi *dini kimlik* geosiyasi fenomenləri sürətləndirən faktordur. Dinlər bir-birindən fərqli fəaliyyət göstərirlər və bu fərq cəmiyyətlərdən və dövlətlərdən asılı olaraq, din ilə siyasətin qarşılıqlı münasibətlərindəki fərqləri əks etdirir. **Din geosiyasət ilə iki yolla: dinin beynəlxalq sahədə öz mövqeyi ilə bağlı baxışına əsasən və kollektiv kimlik strukturları olan dini kimliklərə aid olmaqla birləşir.**

Beynəlxalq münasibətlərin gerçəkliyini izah etmək üçün geosiyasətin *konseptual alətlərə* ehtiyacı var. *"Dispozitivlər"* anlayışı ölkənin geosiyasətindən qaynaqlanan gündəlik aksiyalar məcmusunu bir tipoloji termin altında qruplaşdırmağa imkan verir. *"Proses"* anlayışı dispozitivlərin yerləşməsinin və dəyişməsinin qısa, orta və uzunmüddətli tədqiqinə şərait yaradır.

Geosiyasi dispozitiv - dövlətin müəyyənləşdirdiyi məqsədlər və əks-məqsədlərlə ifadə olunan prioritetlərin iyerarxiyalı məcmusudur. "Geosiyasi dispozitiv" anlayışı prioritet fəaliyyət zonalarını, diplomatik mövqeləri, müxtəlif iddiaları və hədələri təsnif etməyə imkan verir.

Geosiyasət, iki səbəbə görə diplomatiya tarixi ilə eyniləşdirilə bilməz [Lorot, Thual, 1997, p. 81]. Bir tərəfdən, geosiyasət uzunmüddətli problemləri öyrənir, diplomatiya tarixi isə, praktik olaraq, millətlər arasındakı münasibətlərin "gündəlik" tarixidir. *Digər tərəfdən,* ölkənin diplomatik fəaliyyəti özünün geosiyasi niyyətlərindən fərqli tərzdə istiqamətlənə bilər. Diplomatiya siyasi qurumlar arasında gündəlik, həftəlik münasibətlərlə səciyyələnir. Geosiyasət, diplomatiya tarixinin məlumatlarından istifadə etməklə yanaşı, bu gündəlik fəaliyyətin fövqündə durur. Bu mənada, diplomatik dispozitivlər geosiyasi dispozitivlərin mümkün istiqamətlərindən biridir. Diplomatiya geosiyasi niyyətləri aydınlaşdırır, lakin onları bütövlükdə şərh etmir. O, ölkənin beynəlxalq davranışının yalnız bir aspektidir. Eynilə, hərbi dispozitivlər mövcud təhlükələri, habelə ölkənin perspektivlərini və layihələrini aydınlaşdırır.

Geosiyasətdə *proses* konsepsiyası sırf empirik xarakter daşımır. "Proses" anlayışı uzunmüddətli daxili məntiqin ifadəsi kimi başa

düşülür. Geosiyasi proses bəzən dövlətin uzun əsrlər ərzində davranışını izləməyi nəzərdə tutur.

Ölkənin geosiyasi tarixi onun proseslərinin məcmusundan ibarətdir. Bu proseslər əsas prosesə və onunla əlaqəli proseslərə bölünə bilər ki, bunların da ətrafında geosiyasi, diplomatik, hərbi dispozitivlər cərəyan edir. "Geosiyasi proses" anlayışı prioritetlərin təkamülünü göstərir. "Dispozitivlər" anlayışı isə bu prioritetlərin piramidasını müəyyənləşdirməklə kifayətlənir.

Geosiyasət iki qütb: ərazi və kimlik ətrafında bərqərar olsa da, geosiyasi dispozitivlərin formalaşmasında və icrasında iştirak edən aktorların təkamülünü də izləyir. Bu baxımdan, son yarım əsr ərzində "geosiyasət istehsalçısı" kimi çıxış edən dövlətlərlə yanaşı yeni geosiyasi aktorlar da meydana çıxmışdır.

XX əsr dövlətlərin zəfəri əsri sayıla bilər. XX əsr başlayanda təxminən qırxa yaxın dövlət var idi, bu gün isə onların sayı iki yüzə yaxındır. Proses XIX əsrdə Latın Amerikasının ispan və portuqal müstəmləkələrinin azad olması nəticəsində iyirmi üç qurumun yaranması ilə başlamışdı. Lakin Birinci Dünya müharibəsinin sonu və Osmanlı, Avstriya, Alman və Rus imperiyalarının parçalanması Mərkəzi Avropada, Balkanlarda və Yaxın Şərqdə çoxlu dövlətlərin meydana çıxması ilə nəticələndi. İkinci Dünya müharibəsinin sonunda da İngiltərənin (Hindistan, Şri-Lanka, Nepal, Banqladeş, Birma, Pakistan, Maldiv adaları) və Hollandiyanın (İndoneziya) müstəmləkəsizləşməsi nəticəsində bir sıra dövlətlər yarandı, eləcə də Orta Şərqdə İsrail dövləti, Livan və Suriya meydana çıxdı.

Sonra Afrikada yeni dövlətlərin yaranmasının mühüm dalğası müşahidə edildi. Daha sonra Sakit okeanda, Karib adalarında, eləcə də Fars körfəzində müstəmləkəsizləşmə prosesinin başa çatması 70-ci illərdə ada mikrodövlətlərinin, Körfəzdə isə neft mikrodövlətlərinin yaranması ilə səciyyələnir. Dövlətlərin yayılmasının sonuncu dalğası sovet blokunun dağılması ilə əlaqədardır. SSRİ-nin, Yuqoslaviyanın, eləcə də Çexoslovakiyanın dağılması 90-cı illərdə iyirmiyə yaxın yeni milli qurumun yaranması ilə nəticələndi (Mərkəzi Asiya, Qafqaz, Baltikyanı ölkələr, Çexiya, Slovakiya, Sloveniya və s.).

Beləliklə, planetin geosiyasi mənzərəsi çox güclü dərəcədə ayrı-ayrı hissələrə parçalandı. İki dünya müharibəsi arasındakı coğrafiya atlaslarının böyük ərazi vahidləri müxtəlif ölçülü dövlətlərin mozaikası ilə əvəzləndi.

Dövlətlərin çoxalması regional, hətta lokal miqyaslı mikrodispozitivlər olan geosiyasi dispozitivləri artırmaqla beynəlxalq proseslərin fəaliyyətini şaxələndirdi.

Siyasi dünyanın hissələrə bölünməsi bütün qitələrdə son dövrün fenomeni olan müxtəlif regional qruplaşma strukturlarının çoxalması ilə kompensasiya olunur. *Sırf iqtisadi, hərbi və ya siyasi xarakterli təşkilatlardan, yaxud hər üç qruplaşma motivini özündə birləşdirən strukturlardan asılı olmayaraq, artıq uzun illərdir ki, beynəlxalq münasibətləri regional baxımdan nizamlayan qurumlar fəaliyyət göstərir.*

İlk regional qurumlar Avropada yarandı. İkinci Dünya müharibəsindən sonra *Benilüks*[1] Avropa quruculuğu üçün laboratoriya rolunu oynadı. Sonra "Ümumi bazar" müqaviləsi keçmiş rəqib ölkələr arasında birliyin rüşeymini yaratdı. Avropa İttifaqına çevrilən Avropa İqtisadi Birliyinin yaranması bu qurumun genişləndirilməsi, eyni zamanda, onun əlaqələndirmə strukturlarının dərinləşdirilməsi ilə müşayiət olundu.

Bu gün Avropa İttifaqı fövqəlmilli orqana çevrilib və onun öz geosiyasətinin olduğunu söyləmək olar. Cənub-Şərqi Asiya ölkələrini birləşdirən ASEAN müxtəlif sivilizasiyalı (buddist, müsəlman, xristian) ölkələri qruplaşdırmaqla, gözəl iqtisadi uğura bir misaldır. Bu cizgilərə Braziliya, Argentina, Paraqvay və Uruqvayı, assosiasiyalı üzvlər olan Boliviya, Çili, Kolumbiya, Ekvador və Perunu birləşdirən MERKOSUR kimi, yaxud Meksika, ABŞ və Kanadanı birləşdirən NAFTA kimi başqa regional qruplaşma formalarında da rast gəlinir.

[1] Belçika, Niderland və Lüksemburqun iqtisadi ittifaqı. Benilüks, həmçinin hərbi-siyasi ittifaqdır. 1958-ci il fevralın 3-də Haaqada 50 il müddətinə bağlanmış müqaviləyə əsasən yaradılmışdır (1960-cı il noyabrın 1-də qüvvəyə minmişdir). Benilüks ölkələri NATO-nun və Aİ-nin üzvüdürlər.

Son illərdə bir sıra yeni regional təşkilatlar meydana çıxıb. Vişeqrad qrupu, Baltik Şurası, Şimal Şurası, GUAM regional əməkdaşlıq strukturlarıdır.

Ərəb ölkələrini birləşdirən Körfəz Dövlətləri Əməkdaşlıq Şurasını da qeyd etmək lazımdır. Körfəz Şurasının əməkdaşlıq strukturları kifayət qədər inkişaf edib. Başqa strukturlar daha çox hərbi təmayüllüdür. Təbii ki, söhbət NATO və Qərbi Avropa İttifaqından gedir. Əlaqələndirmə və dəyişiklik strukturları olan bu regional təşkilatlar dövlətlərin yaranmasına əks-ağırlıq mərkəzi kimi çıxış edirlər.

Dövlətlərin yayılması regional qruplaşmalarla tarazlaşdırılır. Hər bir ölkədə eyni vaxtda iqtisadi qüdrəti, siyasi gücü və dövlətmillətin işlərinə ümumi idarəçiliyi özündə cəmləşdirən həlledici regionlar var. *Regionlar iki formada tam geosiyasi aktor kimi meydana çıxır.* Biz, demək olar ki, mərkəzi hakimiyyətdən azad olan və nəinki özünün iqtisadi inkişafını, müəyyən mənada həm də diplomatiyasını, xarici fəaliyyətini həyata keçirən böyük iqtisadi regionların yaranmasının şahidiyik. Misal kimi Şimali İtaliyanı, Silikon vadisini[1] (ABŞ), Şanxay regionunu (Çin) və ya Kansay regionunu (Yaponiya) göstərmək olar.

Əgər region dövlətdaxili fenomendirsə, *diasporlar* transmilli fenomendir. Yoxsulluqdan yaranan iqtisadi diasporlar, təqibdən yaranan siyasi diasporlar beynəlxalq münasibətlər aləminin siyasi amilidir. Bununla belə, onlar eyni zamanda geosiyasi amildir.

Geosiyasətin müəyyən ərazisizləşməsinə yardım edə bilən yeni aktorlar arasında *cinayətkar təşkilatlar, mafiya, kartel və üçlüklər* də var. Nəzarət etdikləri maliyyə vasitələrinin qüdrətinə, ultramodern kommunikasiya texnikalarına malik olduqlarına və mövcud olduqları cəmiyyətin daxilində törətdikləri sarsıntılara görə cinayətkar təşkilatlar geosiyasi amil kimi çıxış edirlər.

[1] Yüksək texnologiyaların dünya qütbü, dünyada birinci və ən iri *texnopolis*. XX əsrin 50-ci illərində ABŞ-ın Kaliforniya ştatının San-Fransisko şəhərinin yaxınlığında yaradılmışdır. Burada elektron və aviakosmik məhsullar buraxan universitet elmi (Stenford Universiteti) və şirkətlərin müştərək fəaliyyəti təşkil edilmişdir. Silikon vadisində ABŞ-ın ümumi milli məhsulunun əhəmiyyətli hissəsi formalaşır.

II Fəsil

GEOSİYASƏTİN BANİLƏRİ

F.Ratsel (Almaniya), R.Çellen (İsveç), H.Makinder (İngiltərə), A.Mehen (ABŞ), K.Haushofer (Almaniya), K.Şmitt (Almaniya), Vidal dö la Blaş (Fransa), İ.Boumen (ABŞ), N.Spaykmen (ABŞ), F.Konoye (Yaponiya), C.Due (İtaliya) və P.Savitski (Rusiya) kimi müəllifləri XIX əsrin sonu - XX əsrin birinci yarısında klassik geosiyasətin baniləri sırasına daxil etmək olar. Həmçinin L.S.Emeri, lord Kerzon, Y.Parç və başqaları XX əsrin ilk onilliyində dünyaya geosiyasi baxışlarını təqdim etmişlər. Baxmayaraq ki, onların əsərləri ümumən daha çox epiqonçu (təqlidçi) xarakter daşıyırdı və geosiyasət klassikləri ilə müqayisədə keyfiyyətcə yeni heç nə demirdi.

Beynəlxalq münasibətlər haqqında ənənəvi təsəvvürlərin təməli üç əsas prinsipə, - ərazi, suverenlik və dövlətlərin təhlükəsizliyi prinsiplərinə, - yəni beynəlxalq siyasətin əsas amillərinə əsaslanırdı. Geosiyasətin banilərinin şərhində isə bu və ya digər dövlətin beynəlxalq siyasətinin izahında mərkəzi yer onun coğrafi vəziyyətinə ayrılırdı. Məkan, yəni ərazi başlanğıcının ön plana çəkilməsi geosiyasətin mənası kimi görünürdü. İlk əvvəl geosiyasət tamamilə münasib ərazilər üzərində birbaşa (hərbi və siyasi) nəzarəti ələ almaq terminləri ilə dərk edilirdi. Təsadüfi deyil ki, ilk dəfə siyasəti və coğrafiyanı öz aralarında birləşdirməyə, bu və ya digər dövlətin yerləşdiyi məkanda coğrafi mövqeyindən asılı olaraq onun siyasətini öyrənməyə cəhd göstərənlərdən biri alman coğrafiyaşünası, XIX əsrin sonu - XX əsrin əvvəllərində siyasi coğrafiyanın yaradıcısı F.Ratsel olmuşdur.

2.1. FRİDRİX RATSEL. GEOSİYASƏTİN ATASI



Fridrix Ratsel
(1844-1904)

2.1.1. Təhsili: alman "orqanik məktəbi"

Klassik geosiyasət meydana gəlməsinə görə alman alimi Fridrix Ratselə *(Friedrich Ratzel)* borcludur. *Otto Maull* yazırdı: *"Fridrix Ratseli geosiyasətin əsl "atası" hesab etmək olar. Ratselsiz geosiyasətin inkişafı ağlasığmaz olardı. Ona görə, məsələn, Çellen, yaxud başqa kimsə geosiyasətin atası adlandırıla bilməz. Geosiyasətin atası Ratseldir" [bax:* Maull, 1929, səh. 617]. Bununla belə, Ratselin özü əsərlərində bu termindən istifadə etməmiş, "siyasi coğrafiya"dan yazmışdır. Qeyd edilməlidir ki, Ratsel bu elmin mahiyyətinin müasir izahında həqiqətən siyasi coğrafiyanın banilərindən biridir.

Politexnik universitetini Karlsruedə bitirən Ratsel geologiya, paleontologiya və zoologiya kurslarını keçmişdir. O, öz təhsilini məşhur Heydelberq Universitetində başa çatdırmışdır. 1870-ci ildə könüllü olaraq müharibəyə yollanmış və cəsurluğa görə "Dəmir Xaç" ordeni almışdır. Müharibədən sonra artıq demoqrafiya sahəsində akademik məşğələlərini davam etdirmişdir. 1876-cı ildə Ratsel Çində mühacirət haqda dissertasiya müdafiə etmişdir. O, bu dövrdə Avropaya və Amerikaya bir sıra səyahətlər etmişdir ki, bunun da nəticəsi etnologiya sahəsindəki tədqiqatlar olmuşdur. Ratsel Münxenin texniki institutunda coğrafiyadan dərs demiş, 1886-cı ildə isə Leypsiqdə coğrafiya kafedrasına keçmişdir. Ratsel 1886-1904-cü illərdə Leypsiq Universitetinin professoru olmuşdur *[Dictionary.., 1994, p. 205].* Ratsel elmlə yanaşı, millətçi mövqe tutaraq siyasətlə maraqlanmışdır. O, 1890-cı ildə *Karl Petersin* "Panalmaniya ittifaqı"na daxil olmuşdur *[Рамцель, 1893, стр. 3].*

Ratsel Heydelberqdə professor *Ernst Hekkelin* (1834-1919) dostu və şagirdi olmuşdur ("ekologiya" terminini ilk dəfə *Hekkel* işlətmişdir). Ona görə qəribə deyil ki, **Ratsel öz nəzəriyyəsini işləyərkən, məlum olduğu kimi, "sosial darvinizm" formasında ictimai elmlərə böyük təsir göstərmiş *Darvinin* ideyalarından istifadə etmişdir. Bu ideyaların təsiri altında Ratsel dövləti öz mövcudluğu uğrunda mübarizə aparan canlı orqanizm kimi qiymətləndirirdi** [*bax:* Ratzel, 1899, səh. 31]. Bu planda Ratsel, həmçinin alman "orqanik" sosiologiya məktəbinin birbaşa davamçısıdır. Həmin məktəbin ən parlaq nümayəndəsi *Ferdinand Tönnis* (1855-1936) olmuşdur (Tönnis irqçiliyi "müasir barbarlıq" adlandırmış və nasistlərin hakimiyyətə gəlişindən sonra Alman Sosioloji Cəmiyyətinin prezidenti vəzifəsindən nümayişkaranə şəkildə istefaya getmişdir).

İki əsrin qovuşuğunda yaşayıb yaradan Ratsel bir çox halda öz sistemini XIX əsrdə populyar olan təkamül prinsipləri və ümumiyyətlə, təbiət elmləri ilə əsaslandırırdı. Coğrafi determinizm ideyalarını *Karl Ritter* və ingilis pozitivist sosioloqu *Herbert Spenser* (1820-1903) ruhunda inkişaf etdirən Ratsel heyvanlar və bitki aləminin qanunauyğunluqlarını, - məsələn, *Moris Vaqnerin* (1813-1887) miqrasiya nəzəriyyəsini sosial sahəyə tətbiq edirdi. Ratselin bir çox ideyaları fiziki mühitə və onun ictimai-tarixi inkişafa təsirinə böyük diqqət ayıran *İmmanuil Kantın, Aleksandr fon Humboldtun, Karl Ritterin* və digər alman alimlərinin baxışları ilə uzlaşırdı.

Məsələn, *Humboldta* görə, landşaft elementləri saysız variasiyalarda təkrarlanaraq Yer üzünün bu və ya digər regionlarında yaşayan xalqların xarakterinə əhəmiyyətli təsir göstərir. **Bu ideyalara müvafiq olaraq Ratsel Yer kürəsini vahid tam, insanı isə onun ayrılmaz hissəsi kimi qiymətləndirir. O hesab edirdi ki, insan öz mühitinə eynən flora və faunaya xas olan kimi uyğunlaşmalıdır.**

Artıq deyildiyi kimi, Ratselin bir çox sələfləri - *Monteskyö* də, *Herder* də, *Ritter* də dövlətin ölçüləri və gücü arasındakı asılılığı qeyd edirdilər. Lakin **Ratsel birinci olaraq məkanın daha vacib**

siyasi-coğrafi amil olması nəticəsinə gəlmişdir. Onun konsepsiyasını digərlərindən fərqləndirən başlıca amil, məkanın sadəcə olaraq dövlətin tutduğu ərazi və onun gücünün atributlarından biri olmadığı qənaətidir. Məkan özü siyasi gücdür. Beləliklə, məkan Ratselin konsepsiyasında fiziki-coğrafi anlayışdan daha böyük anlama gəlir. O, özündə xalqların ekspansiyasının baş verdiyi təbiət çərçivələrini ifadə edir. Hər bir dövlət və xalq öz "məkan konsepsiyası"na, yəni öz ərazilərinin mümkün hüdudları ideyasına malikdir. Ratsel hesab edirdi ki, dövlətin tənəzzülü zəifləmiş "məkan konsepsiyası"nın və zəifləmiş "məkan hissi"nin nəticəsidir *[bax:* Gyorgy, 1944, səh. 152]. **Məkan xalqın təkcə fiziki təkamülünü deyil, həm də onu əhatə edən dünyaya münasibətini şərtləndirir. İnsanın dünyaya baxışı onun yaşadığı məkandan asılıdır.**

Şimali Amerika ilə tanışlıq Ratselə güclü təsir göstərmişdir. Bu materiki hərtərəfli öyrənmiş müəllif ona iki kitab həsr etmişdir: *"Şimali Amerika şəhərlərinin və sivilizasiyalarının xəritəsi"* (1874) və *"Şimali Amerika Birləşmiş Ştatları"* (1878-1880). Ratsel amerikalılarda "məkan hissi"nin yüksək dərəcədə inkişaf etdiyini sezmişdir, belə ki, Avropa tarixinin böyük "siyasi-coğrafi" təcrübəsinə yiyələnən amerikalıların qarşısında "boş" məkanların istifadəsi vəzifəsi durmuşdur. Bu səbəbdən Köhnə Dünyanın intuitiv və tədricən gəldiyi nəticəni amerikalılar düşünülmüş şəkildə həyata keçirirdilər.

Beləliklə, **Ratseldə biz ilk dəfə mühüm geosiyasi konsepsiya - "dünya dövləti" (Weltmacht) konsepsiyası ilə qarşılaşırıq.** Ratsel müşahidə etmişdir ki, böyük dövlətlər öz inkişaflarında tədricən planetar səviyyəyə çıxan maksimal coğrafi ekspansiyaya meyilli olurlar. Bu səbəbdən, gec ya tez coğrafi inkişaf öz kontinental fazasına yaxınlaşmalıdır. Ratsel Amerika təcrübəsindən götürülmüş, kontinental məkanların bu siyasi və strateji birləşdirilməsini Almaniyaya tətbiq edərək onun kontinental dövlət gələcəyini qabaqcadan xəbər verirdi.

1882-ci ildə Ştutqartda Ratselin *"Antropocoğrafiya"* ("Anthropogeographie") adlı fundamental əsəri çap olundu. Bu əsərdə müəllif özünün əsas ideyalarını - **xalqların təkamülü və demoq-**

rafiyasının coğrafi məlumatlarla əlaqəsi, məhəllin relyefinin xalqların mədəni və siyasi təşəkkülünə təsiri və s. qısaca və dürüst ifadə etdi.

Geosiyasi nəzəriyyənin formalaşmasını nəzərdən keçirərkən, məhz təsviri siyasi coğrafiyanın siyasətçiləri, belə demək olarsa, dövlətin inkişafının coğrafi asılılığı məsələsinə yönləndirməsi böyük maraq doğurur. *A.Hettner* tərəfindən irəli sürülmüş nəzəriyyə Ratsel tərəfindən onun, nəinki dövlətin təşəkkülü və tərəqqisi, həmçinin bütün siyasi təzahürlərin coğrafi asılılığı tezisində inkişaf etdirilmişdir. Öz baxışlarını müdafiə edərək Ratsel "Antropocoğrafiya"nın ikinci nəşrinin ön sözündə yazırdı: **"Fiziki coğrafiya məsələlərinin elmi şərhi və siyasi coğrafiyanın qeyri-elmi şərhi arasındakı fərqin gələcək mövcudluğuna dözmək olmaz"** *[bax: Ratzel, 1899, səh. 7].*

"Antropocoğrafiya"da Ratselin müfəssəl metodologiyası üçün bilavasitə insanla coğrafi mühit, dövlətlə torpaq arasındakı münasibətlər haqda iddialar xarakterikdir. Ratselə görə, siyasi həyat coğrafi mühitin bilavasitə təsiri ilə şərtlənir, dövlət isə "elə ailə və cəmiyyət kimi qədimdir" və "xalqın birliyi ilə məlum məkan zəminini" və xüsusi bioloji orqanizmi özündə ehtiva edir.

Ratsel növbəti *"Xalqşünaslıq"* əsərində (1893) tədqiqat mərkəzinə siyasi həyatın coğrafi asılılığını qoymuş və dövlətin xarici siyasətinin coğrafi məkana münasibətini izləmişdir. O, dövləti orada yaşayan etnosun xüsusiyyətləri, qismən torpağın əlamətləri və ümumən təbii şəraitlə sıx və ayrılmaz əlaqədə olan bioloji orqanizm kimi nəzərdən keçirir. **"Coğrafi baxış (xarici şərtlərin öyrənilməsi) və tarixi izah (inkişaf amillərinin öyrənilməsi) bir-biri ilə əl-ələ getməlidir. Yalnız bunun və o birinin birləşməsindən predmetin əsl qiymətləndirilməsi yarana bilər"** *[Рамцель, 1893, стр. 3].* Sonra o yenə seçdiyi metodu əsaslandırır: **"Bəşəriyyət göylərə nə qədər can atsa da, ayaqları torpağa dəyir... Onun mövcudluğunun coğrafi şərtlərinin öyrənilməsi, ilk növbədə, bununla izah olunur.**

Tarixi nöqteyi-nəzərə gəldikdə isə, xalqlar göstərə bilərik ki, minilliklər boyu nə gəldikləri yeri, nə dillərini, nə fiziki gö-

rünüşlərini, nə də həyat tərzini dəyişməyərək olduqları kimi qalmış və yalnız etiqad və biliklərini səthi dəyişmişlər" *[Рацель, 1893, стр. 3].* Ratsel bu cür etnosların inkişafında dinamikanın mövcud olmamasını onların Yer kürəsində məskunlaşdıqları yerin coğrafi şərtləri ilə izah edir. Əsla psixi, yaxud mental gerilikla yox, - bu da bir çox opponentlərinin irəli sürdüyü irqçilik ittihamını onun üzərindən götürür. Ratselə görə, xalqın yerləşdiyi yerlə yanaşı, *sivilizasiyanın gələcək inkişafı* üçün, həmçinin məkan amilinə aid olan, əhalinin sıxlığı böyük əhəmiyyət daşıyır. Alim qeyd edir ki, **"...əhalinin böyük sıxlığı təkcə xalqın sabit və fəal inkişafına zəmanətlə bərabər, həm də mədəniyyətin inkişafına bilavasitə stimul yaradır"** *[yenə orada, səh. 9].*

2.1.2. Dövlətlər canlı orqanizmlər kimidir

Ratselin əsas əsəri olan *"Siyasi coğrafiya"* ("Politische Geographie") 1897-ci ildə işıq üzü görmüşdür. Bu əsərdə **Ratsel torpağın (Boden) başlıca dəyişməz varlıq olduğunu və xalqların (Volk) mənafeyinin onun ətrafında formalaşdığını göstərir.** Tarixin gedişi torpaq və ərazi ilə əvvəlcədən müəyyənləşmişdir. Ratsel ona əsaslanırdı ki, **bəşəriyyət tarixi - insanların ətraf mühitə uyğunlaşması tarixidir.** Sonra "dövlətin canlı orqanizm", lakin "torpaqda kök salmış" orqanizm oması barədə evolyusionist nəticəyə gəlinir.

Ratsel "Siyasi coğrafiya"da bir vaxt *Boklun* etdiyi kimi dövləti əvvəllər məşhur olan və "təkmilləşdirilmiş" coğrafi iqlim amili ilə deyil, dövlət və Yer baxımından nəzərdən keçirməyə cəhd göstərmişdir. Onun əsas şüarı - **"Dövlətin yaşamaq üçün torpağa ehtiyacı var"** - buradan doğur. Ratselin fikrini aydınlaşdırmaq üçün görək o, bu iki komponentin qarşılıqlı əlaqəsini necə başa düşür?!

O yazır: **"Ərazinin siyasi təşkili dövləti elə orqanizmə çevirir ki, burada Yer səthinin müəyyən hissəsi daxil olarkən dövlətin xüsusiyyətləri xalqın və ərazinin xüsusiyyətlərindən ibarət olur. Bu xüsusiyyətlərdən mühümləri ölçülər, qanun və sərhədlər, sonra bitki örtüyü və suları ilə ərazinin görünüşü və forması, nəhayət, onun səthin digər hissələri ilə əlaqəsidir"** [*bax:* Ratzel, 1897, səh. 4]. Beləliklə, dövlət özlüyündə həm də

onun siyasi təşkilini müəyyən edən Yer, yaxud, daha dəqiq desək, Yerin səthidir, - sərt coğrafi amil irəli sürülür. Dövlətin inkişafı və onun forması müəyyən boş hissələr olmadan bilavasitə ərazi, sərhədlər və digər dövlətlərlə məkan münasibətlərindən asılıdır.

Ratselin fikrincə, dövlət mütəşəkkil dövlət cəmiyyəti ilə uyğundur, o, bütün cəmiyyətin maraqlarının ifadəçisidir. Ratsel yazır: **"Dövlət bütün cəmiyyətin ümumi məqsədlər naminə birləşdiyi yerdə yaranır, bunlar bütün cəmiyyətin məqsədləridir və yalnız birgə səylər nəticəsində müəyyən zaman kəsiyində həyata keçə bilər. Biz burada bilavasitə bütövün üstünlüyü ilə üzləşirik..."** *[Ratzel, 1897, səh. 115-116].*

Ratselə görə, dövlət ona görə yaranmışdır ki, bütün cəmiyyət öz ümumi maraqlarının qorunması üçün ona ehtiyac duymuşdur: **"Orqanik xarakterli dövlətin təzahürü onun bir tam kimi hərəkət etməsi və böyüməsidir"** *[yenə orada, səh. 19].* Dövlət ərazinin relyefindən, miqyasından və onların xalq tərəfindən dərk edilməsindən yaranır. Beləliklə, dövlətdə obyektiv coğrafi məlumatlar və bu məlumatların siyasətdə ifadə olunmuş subyektiv milli dərki əks olunur. Millətin coğrafi, demoqrafik və etnik mədəni parametrlərini daha üzvi surətdə birləşdirən dövləti Ratsel "normal" dövlət hesab edir. O yazır: **"Dövlətlər öz inkişaflarının bütün mərhələlərində torpaqları ilə əlaqəni vacibliklə saxlayan orqanizmlər kimi nəzərdən keçirilir və buna görə coğrafi nöqteyi-nəzərdən tədqiq edilməlidir. Etnoqrafiya və tarixin göstərdiyi kimi, dövlətlər məkan bazasında inkişaf edərək, get-gedə onunla daha çox bağlanır və qarışır, ondan daha çox enerji alır. Beləliklə, dövlətlər məkanla idarə olunan, canlanan məkan hadisəsidir və onları coğrafiya elmi təsvir, müqayisə etməli, ölçməlidir. Dövlətlər həyatın ekspansiya hadisələri siyahısına daxil edilir və bu hadisələrin yüksək nöqtəsi hesab olunur".**

Bu "orqanik" yanaşmadan aydın görünür ki, dövlətlərin məkan ekspansiyası Ratsel tərəfindən canlı orqanizmlərin böyüməsinə bənzər təbii canlı proses kimi anlaşılır. Bioloji orqanizm kimi göz-

dən keçirilən dövlət bütün canlıların məruz qaldığı təsirlərə tuş gələ bilər *[Рамцель, 1893, стр. 3]*.

Beləliklə, "Siyasi coğrafiya"da Ratsel dövlətin bioloji qanunlara müvafiq hərəkət edən bioloji orqanizm olduğu haqda tezisi əsaslandırır. Ratsel hətta dövlətdə, ağac kimi torpaqda kök atmış orqanik təkamül məhsulu görürdü. Dövlətin mahiyyət göstəriciləri buna görə onun ərazisi və yerləşdiyi yerlə müəyyən edilir və onun çiçəklənməsi dövlətin mühitin şərtlərinə nə qədər uyğunlaşmasından asılıdır. Ratsel hesab edirdi ki, bu orqanizmin gücünün artırılmasının başlıca yollarından biri ərazi ekspansiyası, yaxud, **"həyati məkan"**ın (Lebensraum) genişləndirilməsidir. O, bu anlayışın köməyi ilə Almaniyanın əsas iqtisadi və siyasi problemlərinin ədalətsiz, onun dinamik inkişafını məhdudlaşdıran çox dar sərhədlər səbəbindən əmələ gəldiyini əsaslandırmağa çalışırdı.

Ratselin "orqanik" yanaşması məkanın (Raum) özünə münasibətdə də təzahür edir. Bu "məkan" maddi kəmiyyət kateqoriyasından yeni keyfiyyətə keçərək "həyat sferası"na, "həyati məkan"a (Lebensraum), müəyyən "geobiomühit"ə çevrilir. Buradan Ratselin iki digər mühüm terminləri meydana çıxır: **"məkanın mənası", "məkan hissi"** (Raumsinn) və **"həyat enerjisi"** (Lebensenergie). Bu terminlər bir-birinə yaxındır və coğrafi sistemlərə xas olan yeni, xüsusi keyfiyyət və onların, xalqların və dövlətlərin tarixində müəyyənedici siyasi təşəkkülünü bildirirlər.

Ratselin fikrincə, **"...dövlətin orqanizm kimi yaradılmasında Yer məkanının müəyyən hissəsi elə iştirak edir ki, dövlətin xüsusiyyətləri sanki xalqın və yerin xüsusiyyətləri olur. Bunlardan mühümləri - ölçülər, qanunlar və sərhədlər, sonra torpağın forması, onun bitki örtüyü və suları ilə və nəhayət, torpaq səthinin digər hissələri ilə münasibətləri"** *[yenə orada, səh. 5]*. Ratsel təhlilində əsas kimi məhz məkan xarakteristikalarını götürürdü. Lakin məkan, Ratselə görə fiziki-coğrafi anlayışdan daha genişdir. O, təkcə bu, yaxud digər dövlətin tutduğu ərazi deyil. Məkan həm də insana təsir göstərən, onun ətraf aləmə baxışlarını və davranışlarını müəyyən edən siyasi qüvvədir.

Bütün bu tezislər sonradan Ratselin ardıcılları tərəfindən inkişaf etdirilərək geosiyasətin əsas prinsiplərinə çevrilmişlər. Bundan əlavə, dövlətə "torpağa kök atmış məkan orqanizmi" kimi münasibət geosiyasi üsullar sisteminin (metodikanın) ideyası və bel sütunudur. Belə yanaşma onun bəşəri, yaxud qeyri-bəşəri sferaya məxsus olmasından asılı olmayaraq, bütün hadisələr kompleksinin sintez halda araşdırılmasına istiqamətlənmişdir. Məkan təbiətin konkret ifadəsi kimi etnosun fasiləsiz həyatının yarısı kimi görülür, o, burada yerləşənlərin məkanıdır.

2.1.3. Raum - torpağın siyasi təşkili kimi

Etnos ilə məkanın qarşılıqlı nisbəti barədə Ratselin təsəvvürləri "Siyasi coğrafiya" əsərinin aşağıdakı fraqmentindən aşkar görünür: *"Dövlət Yer səthinin müəyyən hissəsinə bağlı olan orqanizm kimi təşəkkül edir, onun xarakteristikaları isə xalqın və torpağın xarakteristikaları əsasında inkişaf edir. Ən mühüm xarakteristikalar - ölçülər, yerləşmə ərazisi və sərhədlərdir. Daha sonra torpağın tipləri, bitki örtüyü, irriqasiya və nəhayət, Yer səthinin qalan konqlomeratları, ilk növbədə, ona bitişik dənizlər və məskunlaşmamış torpaqlar ilə qarşılıqlı münasibətlər nəzərə alınmalıdır. İlk baxışda xüsusi siyasi maraq doğurmayan bütün bu xarakteristikaların məcmusu ölkədir (das Land). Lakin "ölkəmiz" barədə söhbət gedəndə buraya insanın yaratdıqlarının hamısı və torpaqla bağlı bütün xatirələr də əlavə olunur. Beləliklə, başlanğıcda sırf coğrafi məna daşıyan anlayış ölkə sakinlərinin və onların tarixinin mənəvi və emosional əlaqəsinə çevrilir.*

Dövlət orqanizmdir. Təkcə ona görə yox ki, o, xalqın həyatını qeyri-mütəhərrik torpaq üzərində artikulyasiya edir, həm də ona görə ki, bu əlaqə qarşılıqlı möhkəmlənir, onun iki tərkib hissəsindən birini digərindən təcrid olunmuş şəkildə təsəvvür etmək mümkün olmur. Dövləti dolandırmağa qabil olmayan məskunlaşmamış məkan tarixi meydandan başqa bir şey deyildir. Məskunlaşmış məkan isə xüsusən təbii sərhədlərlə əhatə edilmiş olduqda dövlətin inkişafına şərait yaradır. Əgər xalq öz ərazisində özünü təbii (təhlükəsiz) hiss edirsə, o, daim eyni xarakteristikaları təkrar istehsal

edəcək və onlar torpaqdan yarandığı kimi torpağa da qayıdacaqlar" [Политическая география.., 1898, № 1-2, № 3].

2.1.4. Ekspansiya qanunu

Ratselin anlamında dövlət canlı orqanizm kimi doğulur, böyüyür və ölüb gedir. Bu səbəbdən dövlətin məkan etibarilə genişlənməsi və sıxılması onun daxili həyat dövrəsi (tsikli) ilə bağlı təbii proseslərdir. Ratsel, əlbəttə, anlayırdı ki, özgə ərazilərinin zəbt edilməsi harmonik, dinc yolla, hərbi toqquşma olmadan baş verə bilməz. Ona görə o, iddia edirdi: **"Dövlətlərin mahiyyəti elədir ki, onlar inkişaf edir, qonşu dövlətlərlə yarışırlar, özü də yarışın mükafatı əksər halda ərazilərin hissələri olur"** *[bax: Ratzel, 1897, səh. 247]*. Niyə məsələ məhz bu cürdür? **"Xalq sayca çoxalaraq, ölkə ərazisini genişləndirərək böyüyür. Elə ki, böyüyən xalq öz sayını artırmaq üçün yeni torpaqlara ehtiyac duydu, o, ölkə hüdudlarından kənara çıxır. İlk əvvəl, o, özünün və dövlətin istifadəsi üçün ölkə daxilində bu vaxta qədər məskunlaşdırılmamış torpaqlardan yararlanır - daxili müstəmləkəçilik. Bu kifayət etmədikdə xalq kənara üz tutur və onda yekunda torpaq əldə edilməsinə gətirib çıxaran məkan böyüməsinin bütün formaları meydana çıxır - xarici müstəmləkəçilik. Hərbi irəliləyiş, işğal çox zaman bununla bağlıdır"** *[yenə orada, səh. 129]*. Ratsel bu nəticəyə gəlir ki, Almaniyanın müstəmləkələr tələbi, guya bütün cavan və güclü orqanizmlərə xas olan təbii bioloji inkişafın nəticəsidir *[yenə orada, səh. 8-10]*. "Məkansız xalqın" mövcud olması, Ratselə görə, mütləq torpaq əldə etmək meyilinə, yəni müharibəyə gətirib çıxarır. Beləliklə, Ratsel müharibəyə təbii qanun xarakteri verib.

Bir çox tənqidçilərin Ratseli "imperialistlər üçün katexizis" yazdığına görə təqsirləndirməsi təəccüblü deyildi. Bununla yanaşı, **Ratsel özü millətçi əqidəyə tərəfdar olduğunu gizlətmirdi. Onun üçün dövlətlərin və xalqların məkanla münasibətlərini adekvat dərk etmək üçün konseptual vasitə yaratmaq zəruri idi. O, əməldə isə quru akademik elmi məlumatları çox vaxt xalis abstraksiya kimi təsəvvür edən Almaniyanın rəhbərlərində "məkan hissi" oyatmağa çalışırdı.** Ratsel hesab edirdi ki, böyük

məkan həyatı təmin edir. O, əmin idi ki, insanın böyük məkana ehtiyacı və bundan səmərəli istifadə etmək bacarığı XX əsrdə beynəlxalq siyasətin siyasi prinsipi olacaqdır. Ratsel inanırdı ki, gələcəkdə Şimali Amerika, Avrasiya Rusiyası, Avstraliya və Cənubi Amerikaya bənzər böyük kontinental məkanda yerləşən iri dövlətlər hakim olacaqlar.

Ratselin fikrincə, **"dövlətdə təbii qapalı məkanlara qovuşmaq ənənəsi mövcuddur"** *[bax: Zeitschrift für Geopolitik, 1927, № 9, səh. 813]*. Dövlətlərin bu təbii sərhədlərə meyil göstərməsi yalnız kontinentlər çərçivəsində təmin edilə bilər. Dinc xarakterli məkan böyüməsinin qeyri-mümkünlüyünü anlayan Ratsel qeyd edirdi ki, dövlətin mahiyyəti elədir ki, o, qonşu dövlətlərlə yarışaraq inkişaf edir, özü də bu mübarizənin çox hallarda mükafatı məkanın hissələri olur. Ratselə görə, əgər dövlət "əsl" böyük məmləkət olmaq istəyirsə, öz məkan təməlinin qismində təqribən 5 milyon kvadratkilometr əraziyə malik olmalıdır *[Ratzel, 1897, səh. 321]*. "Xalqın kök saldığı yeni məkan isə sanki dövlət hissinin yeni qüvvə aldığı mənbəyə çevrilir" *[yenə orada, səh. 346]*.

Ratsel inandırmağa çalışırdı ki, insanların cəmiyyət içində də "mövcudiyyət uğrunda mübarizə" aparmalarının günahı torpaqdadır. Ratsel yazırdı: **"Kiçik torpaq sahəsində insanlar çox sıx olur. Müstəmləkəçilik yeni məkan gətirmədikdə onlar bir-biri ilə çox yaxın təmasda olur, mübarizə aparır və bir-birini əldən salırlar"** *[yenə orada, səh. 359]*. **"Xaricdə iş nə qədər çox aparılsa, daxili ixtilaflar bir o qədər arxa plana çəkilər. Xalqın kök saldığı yeni məkan dövlət hissinin yeni qüvvə aldığı mənbəyə çevrilir"** *[yenə orada, səh. 346]*. Təcavüzkar müharibələr və orazi ələ keçirməkdən imtinanın alman xalqını məhvə aparacağını oxucularına təlqin edən Ratsel yazırdı: **"Hər bir xalq kiçik və böyük ölkələrin inkişafı konsepsiyalarında tərbiyələndirilməlidir, xalqı kiçik məkanlar konsepsiyalarına qayıtmaqdan qorumaq üçün bu proses daim gücləndirilməlidir. Hər bir dövlətin məhvi onun böyük məkan konsepsiyasından imtinası ilə baş verir"** *[yenə orada, səh. 262]*.

Ratsel mahiyyət etibarilə geosiyasətin vacib mövzularından birini - sivilizasiyanın inkişafı üçün dənizin əhəmiyyətini hamıdan əvvəl görmüşdür. O, insanların dənizləri fəth etməsini **"bəşər tarixinin başlanğıcı"** hesab edirdi. Ratselin fikrincə, **dəniz xalqları insanların orijinal qrupunu təşkil edir: onların yayılması, yaşayışı, fəaliyyəti özünəməxsusluğu ilə seçilir. Dəniz xalqları köçərilik edərək adadan adaya, bir sahil xəttindən digərinə doğru hərəkət edir.** "Dənizlərin kənarında yaşayan xalqların inkişafı sıçrayışvari olmuş, yəni bir adadan digərinə, bir sahildən digərinə köçmək hesabına baş vermişdir. (...) Qapalı materik ərazilərdə ancaq yarımmədəniyyət inkişaf edə bilər. Tam mədəniyyət isə dənizlərə sahib olmuş ərazilərdə, məsələn, Qədim Roma, İspaniya, İngiltərə kimi ölkələrdə olub" *[Рамцель, 1906, m. 2, cmp. 2-5].*

Özünün *"Dəniz - xalqların qüdrət mənbəyidir"* kitabında (1900) hər bir güclü dövlətin xüsusən hərbi dəniz qüvvələrini inkişaf etdirməli olduğunu göstərmişdir, belə ki, bunu mükəmməl ekspansiyanın planetar miqyası tələb edir. Bəzi xalqların və dövlətlərin (İngiltərə, İspaniya, Hollandiya və s.) spontan (kortəbii) həyata keçirdiklərini quru dövlətləri (təbii ki, Ratsel Almaniyanı nəzərdə tuturdu) düşünülmüş şəkildə etməlidirlər, donanmanın inkişafı "dünya dövləti" (Weltmacht) statusuna yaxınlaşmaq üçün zəruri şərtdir.

Ratsel Dəniz ilə "dünya dövləti" anlayışlarını əlaqələndirir, hərçənd, bu mövzu yalnız xeyli sonrakı dövrə aid geosiyasətçilər *(Mehen, Makinder, Haushofer* və xüsusən *Şmitt)* tərəfindən tamamlanmış və mərkəzi mövzuya çevrilmişdir.

Ratselin əsərlərində sonralar müxtəlif dəyişiklik və əlavələrlə populyar geosiyasi ideya olmuş **"okeanik silsilə"** başlanğıc götürür. **Burada xüsusi əhəmiyyət dünyanın çox mühüm strateji rayonları kimi Aralıq dənizi hövzəsi və Atlantikaya verilir.** Ratsel onu "gələcəyin okeanı" adlandırırdı. Onun fikrincə, bu nəhəng okeanik rayon dünyanın bir çox aparıcı dövlətlərinin maraqlarının aktiv fəaliyyət və toqquşmalar yeri olacaqdır, bu səbəbdən ki, o, əlverişli strateji mövqeyə, unikal resurslara və nəhəng ölçülərə malikdir. Sakit okeanda birincilik əldə etmiş dövlət dünyada da hökmranlıq edəcək. Buna görə Ratsel məhz Sakit okean zonasında beş aparıcı dünya dövlətləri - İngiltərə, Birləşmiş Ştatlar, Rusiya, Çin və Yaponiya arasında mürəkkəb güc münasibətlərinin ayırd və həll ediləcəyinə şübhə etmirdi. Ratsel və onun şagirdləri bu nəticəyə gəlmişdilər ki, dəniz və kontinental dövlətlər arasında həlledici münaqişə hardasa deyil, məhz Sakit okean zonasında baş verəcək və öz katastrofik finalında bəşəriyyət tarixinin dövri təkamülünü sona çatdıracaqdır *[sitat: Gyorgy, 1944, səh. 159].* Bununla yanaşı, bu münaqişədə kontinental dövlətlər zəngin resursları ilə öz geosiyasi bazaları qismində kifayət qədər məkana malik olmayan dəniz dövlətləri qarşısında tamamilə müəyyən üstünlüyə malikdirlər.

Ratsel *"Dövlətlərin məkanca inkişafının və ərazi ekspansiyasının qanunları haqqında"* adlı kitabında (1901) **ekspansiyanın, yaxud "dövlətlərin ərazicə böyüməsinin" yeddi qanunu**nu irəli sürmüşdür. Bu böyümə onunla izah olunur ki, "böyüyən xalq öz sayını artırmaq üçün yeni torpaqlara ehtiyac duyur", "xalqın ali vəzifəsi isə öz coğrafi vəziyyətini yaxşılaşdırmaqdır". Qanunlar bunlardır:

1) Dövlətin ərazisi onun mədəniyyəti ilə birlikdə genişlənir və inkişaf edir.

2) Dövlətin ərazisinin genişlənməsi onun həyatının başqa sahələrinin - ideya dünyasının, ticarətin, istehsalın, missionerliyin, müxtəlif fəaliyyət sahələrində fəallığın yüksəlişi və inkişafı ilə müşayiət olunur.

3) Dövlətin inkişafı və genişlənməsi kiçik dövlətlərin və xalqların birləşdirilməsi hesabına gedir.

4) Sərhəd - dövlətin hissiyyat orqanıdır, o, dövlətin inkişafı, qüdrəti, zəifliyi və onun orqanizmində baş verən digər dəyişikliklərin nişanəsidir.

5) Dövlət ətraf ərazilərin ən qiymətli elementlərini - sahil xətlərini, çay yataqlarını, düzənlikləri, təbii ehtiyatlarla zəngin rayonları cəmləşdirməyə çalışır.

6) Dövlətlərə öz ərazilərini genişləndirməyin başlanğıc impulsu onunla qonşu olan xalqların mədəni inkişafındakı fərqlərin nəticəsi kimi kənardan daxil olur.

7) Zəif xalq və dövlətlərin birləşdirilməsi və işğalının meyili dövlətlərin birindən digərinə keçərək daha da güclənir, getdikcə daha çox ərazilərin işğalı ilə nəticələnir [bax: Ratzel, 1988, səh. 203].

Bu qanunlar ərazilərin işğalının qaçılmazlığını sərt şəkildə əsaslandırmalı idi. Bu "əsas qanunlardan" biri bildirirdi: *"Böyümə prosesində dövlət ətraf ərazilərin ən qiymətli elementlərini tutmağa can atır"*. İndi Ratselin dövləti, siyasi baxımdan qiymətli yerləri "əhatə" etdiyi zaman artıq dövlətin böyüməsinin sona çatdığı təəssüratı yaranmasın deyə, yeddi "əsas qanundan" digəri istifadə olunur. Burada deyilir: *"Siyasi məkanların miqyasları daim dəyişir"*. Beləliklə, şəraitə uyğun olaraq istənilən istiqamətdə istənilən ekspansiyaya bəraət qazandırılır. Bu qanunların mahiyyəti ondan ibarətdir ki, dövlət böyüdükcə daha çox məkana sahib olsun. Ratselin geosiyasət sahəsində daha sonrakı ardıcıllarından biri bu mətləbi çox aydın ifadə etmişdir: "Dövlət təbii qapalı məkanlara kök buraxmaq meyilinə malikdir... Görünür, dövlətin təbii sərhədlərə bu kök buraxmaq meyili yalnız qitələrin sərhədləri çərçivəsində təmin ediləcəkdir" [*bax:* Zeitschrift für Geopolitik, 1927, № 9, səh. 813]. Burada onun baxışları Almaniya imperiyasının "qara-ağ-qırmızı dirəklərdən o yana, dənizlərdən o yana bütün Yer kürəsi boyu" genişlənməsini tələb edən panalmaniyaçı professor *Heykin* baxışları ilə səsləşir.

Ratselin irəli sürdüyü "qanunlar" XIX əsrin sonlarında beynəlxalq münasibətlərdəki reallıqları, dövlətin güc və sərvətinin onun nəzarət etdiyi ərazinin ölçüsü ilə eyniləşdirildiyi dünya nizamı formasını əks etdirirdi.

Almaniya Ratselin dövründə vahid milli dövlət kimi yenicə formalaşmışdı. 1871-ci ildə Prussiyanın Fransa-Prussiya müharibəsində qələbəsindən sonra Almaniya imperiya elan edilmişdi. Möhkəmlənmiş Almaniya Vyana konqresinin 1815-ci ildə Napoleon müharibələrini bitirərək Avropada yaratdığı geosiyasi tarazlıq sistemini qəti olaraq dağıtdı (Elzas və Lotaringiyanı ilhaq etdikdən sonra). Konqresdən sonrakı mərhələ unikal idi. 80 ildən artıq bir dövr-

də Avropada böyük müharibələr olmamışdı, vaxtaşırı çağırılan beynəlxalq konqreslər isə əmin-amanlığı poza bilən dövlətlərarası mübahisələri yoluna qoyurdu.

Ümumavropa güc balansı sistemində bütün digər ölkələri sənayenin inkişafı və müstəmləkə əldə etmək baxımından geridə qoyan Böyük Britaniya hakim rolunu itirməyə başlamışdı. Bu ölkə nəhəng Avropadankənar əraziyə malik idi, lakin Avropanın sahibi deyildi. Avropa tədricən iki cəbhəyə bölünmüşdü. Dünyanı təzədən bölmək, yeni müstəmləkələr əldə etmək uğrunda mübarizələr başlanmışdı. Almaniya da daxil olmaqla aparıcı Avropa ölkələri arasındakı rəqabət məhz buna yönəlmişdi.

Almaniya kifayət qədər gec, yalnız XIX əsrin 80-ci illərində müstəmləkə siyasəti meydanına daxil olmuşdu. O vaxta qədər yalnız Afrika müstəmləkə dövlətləri arasında çox da bölüşdürülməmişdi. Fəqət, Birinci Dünya müharibəsi öz müstəmləkələrini genişləndirməyə ümid bəsləyən Almaniyanın arzularını puç etdi. O, əlindəki nisbətən az gücü də itirdi. Bununla yanaşı, Almaniya Avropa ərazilərində də itki verdi, onun siyasi sərhədləri deformasiyaya məruz qaldı.

Aydındır ki, Ratselin nəzəriyyəsində, özü də əsasən təsviri xarakter daşıyan aksent başlıca olaraq coğrafiyadan, ətraf fiziki mühitin dövlət və xalqların həyati fəaliyyətlərinə, o cümlədən həm də siyasi, coğrafi amilin, ilk növbədə, məkanın rolu və təsiri aspektinə qarışacaqdır. Tarixi inkişafın bütün fəlsəfi nəzəriyyələrinin dövlət inkişafının yaxın şərtlərini nəzərdən qaçırmaları və coğrafi mühitin təsirini göstərməmələri Ratseli hiddətləndirirdi. O, bu qüsuru aradan qaldırmaq qərarına gəldi və öz tədqiqatlarının mərkəzinə siyasi həyatın coğrafi asılılığını, torpaqla dövlət arasındakı münasibətləri, dövlətin xarici siyasətinin coğrafi məkana münasibətini qoydu. Bu ideyalar həm Almaniyanın özündə, həm də ondan kənarda Ratselin şagirdləri və davamçıları tərəfindən əsas kimi götürülmüş və inkişaf etdirilmişdir.

Başlanğıcda Ratsel davamçılarının Almaniyada sayı onun ən yaxın şagirdləri ilə məhdudlaşırdı *(Helmolt, Ekkart, Henş)*. Yalnız Bi-

rinci Dünya müharibəsi illərində alman elmi dünyasında, ən əvvəl isə coğrafiyaçılar sırasında vəziyyət dəyişdi. Ratselin əsərləri, xüsusilə "Siyasi coğrafiya", "Antropocoğrafiya" və "Yer və həyat. Müqayisəli yerşünaslıq" alman coğrafiya məktəbinin formalaşmasında böyük əhəmiyyətə malik idi. Bu əsərlərin xüsusiyyəti ondan ibarət idi ki, onlarda Ratsel əvvəlkilərdən biri kimi başqa ölkələrin coğrafiyaçılarının əsas müddəalarını Almaniyanın tarixi inkişafına uyğunlaşdırmağa çalışmışdır. Burada ilk dəfə dövlətin ərazicə böyüməsi və qüdrəti problemləri məkan xarakteristikası nöqteyi-nəzərindən qaldırılır.

Ratsel ilk realist geosiyasətçi alim olmuşdur. Onun əsərləri bütün geosiyasi tədqiqatlar üçün zəruri bazadır. Bu elmin əsasını təşkil edən bütün əsas tezislərin demək olar ki, hamısı onun əsərlərində yığcam şəkildə verilmişdir. İsveçli *Çellen* və alman *Haushofer* öz konsepsiyalarında Ratselin kitablarına əsaslanırlar. Fransız *Vidal dö la Blaş,* ingilis *Makinder,* amerikalı *Mehen* və avrasiyaçı ruslar (*P.Savitski, L.Qumilyov* və b.) onun ideyalarını nəzərə alırdılar. Nasist geosiyasətinin Ratsel konsepsiyası ilə varisliyini Hitler Almaniyasında geniş populyarlığa malik olmuş *Karl Haushofer* "Siyasi coğrafiya"nın ön sözündə qeyd etmişdir. Bu varisliyi Nürnberq prosesində Fransadan olan ittihamçı da vurğulayaraq demişdir: *"Həyati məkan nəzəriyyəsi XIX əsrin əvvəllərində meydana gəlmişdir. Bu yaxşı məlum olan coğrafi və tarixi nəzəriyyəyə sonralar ratsellər, artur dikslər və lamprextlər müraciət edəcək, tarixin gedişinin dünyanı alman geosiyasətinə istiqamətləndirdiyini bəyan edərək xalqların münaqişəsini konsepsiyaların qızğın mübarizəsinə və onların həyata keçməsi mübarizəsinə bənzədəcəklər" [Нюрнбергский процесс.., 1952, стр. 200].*

Qeyd edilməlidir ki, Ratselin siyasi rəğbət obyektləri heç də təsadüfi deyildir. Demək olar ki, bütün geosiyasətçilər aşkar ifadə olunmuş milli hisslərə malikdir. Bu hissin demokratik (anqlosaks geosiyasətçiləri *Makinder, Mehen*), yoxsa "ideokratik" (*Haushofer, Şmitt,* avrasiyaçılar) forma kəsb etməsi əhəmiyyətli deyildir.

2.2. RUDOLF ÇELLEN. GEOSİYASƏT ANLAYIŞININ MÜƏLLİFİ

2.2.1. Dövlət həyatın forması kimi və Almaniyanın maraqları



Rudolf Çellen
(1864-1922)

"Geosiyasət" anlayışı ilk dəfə isveçli Yohan Rudolf Çellen *(Johan Rudolf Kjellen)* tərəfindən elmə gətirilmişdir. Çellen Höteborq (1901-1916) və Uppsala (1916-1922) universitetlərində tarix və siyasi elmlər üzrə professor olmuşdur. O, güclü dövlət yaradılmasının yollarını müəyyən etmək məqsədilə idarəetmə sistemlərini öyrənmişdir. Bundan əlavə, o, aşkar hiss edilən germanofil (almanpərəst) oriyentasiyalı parlament üzvü kimi siyasətdə fəal iştirak edirdi. Çellen peşəkar coğrafiyaşünas deyildi və o, Ratselin əsərlərindən bəhrələnərək geosiyasəti politologiyanın bir hissəsi kimi inkişaf etdirmişdir. Çellen *Ratseli* özünün müəllimi hesab edirdi.

Çellenin əsərlərində, mahiyyət etibarilə, geosiyasətin bütün prinsipial müddəaları mövcuddur. Ratsel kimi o da hesab edirdi ki, ayrı-ayrılıqda hər bir dövlətin hərtərəfli öyrənilməsinin əsasında bütün zamanlarda bütün dövlətlər üçün münasib olan bəzi ən ümumi prinsiplər və qanunlar deduksiya yolu ilə tətbiq oluna bilər. Bunlardan biri dövlətin gücüdür. **Dövlətlər güclü olduqları üçün yüksəlirlər.** Çellen hesab edir ki, **güc dövlətin mövcudluğunu saxlamaq üçün qanundan daha vacib amildir, çünki qanun özü yalnız güc vasitəsi ilə təmin edilə bilər.** Çellen gücdə, - dövlət canlı orqanizmdir, - öz əsas tezisinin sübutunu tapır. **Əgər qanun dövlətə mənəvi-rasional element gətirirsə, güc ona təbii üzvi impuls verir.** Dövlət öz vətəndaşlarının rifahını yaxşılaşdırmaq məqsədlərinə xidmət edən təşkilat yox, özü-özlüyündə məqsəddir iddiası ilə Çellen öz baxışlarını aşkar surətdə dövlətin rolunu ikin-

ci dərəcəli xidməti rola, "gecə gözətçisi", "passiv polis" roluna çevirən liberal konsepsiyalara qarşı qoyurdu.

1910-cu ildə çap olunmuş *"Qüdrətli dövlətlər"* kitabında Çellen sübut etməyə çalışırdı ki, kiçik ölkələr "coğrafi taleləri" üzündən "qüdrətli dövlətlərə boyun əyməyə məhkumdurlar", hansılar ki, yenə də öz "coğrafi taleləri" üzündən onları böyük coğrafi və təsərrüfat "komplekslərində" birləşdirməlidirlər. Çellen göstərirdi ki, bu qəbil ayrı-ayrı komplekslər, - məsələn, ABŞ, Britaniya imperiyası, Rusiya imperiyası, - böyük Avropa "kompleksinin", yaxud birliyinin yaradılması Almaniyanın məqsədini təşkil etdiyi zaman - hələ XVII-XIX əsrlərdə meydana çıxmışdır.

Çellenin **"Avropanın Almaniyanın himayəsi altında birləşməsinin zəruriliyi"** barədə bu son qeydi elə, mahiyyət etibarilə, onun geosiyasi nəzəriyyəsinin başlıca ideyası idi. Çellen *Ratselin* geosiyasi prinsiplərini onun üçün müasir Avropada konkret tarixi vəziyyətə münasib olaraq inkişaf etdirmişdir. O, *Ratselin* "kontinental dövlət" haqda ideyalarını Almaniyaya uyğun şəkildə məntiqi sonluğa çatdırmış və göstərmişdir ki, Avropa kontekstində Almaniya ox (məhvər) dinamizminə malik və özü ətrafında digər Avropa dövlətlərini strukturlaşdırmağa qabil həmin məkandır. O, Skandinaviya ölkələrinin potensial xarici təhlükə qarşısında zəifliyini anlayaraq, Almaniya imperiyasının başçılığı altında alman-Şimal xalqları ittifaqını yaratmağı təklif edirdi.

Çellen Birinci Dünya müharibəsini Almaniyanın ("ox ölkəsi") dinamik ekspansiyası ilə ona müqavimət göstərən Avropa (və Avropadan kənarda yerləşən) dövlətləri (Antanta) arasında yaranmış təbii geosiyasi münaqişə kimi şərh edirdi. Qüvvələrin paylanmasını müəyyənləşdirən əsas amil Fransa və İngiltərə üçün azalan, Almaniya üçün artan geosiyasi inkişaf dinamikasındakı fərqlər idi. Bu halda, onun fikrincə, Birinci Dünya müharibəsində müvəqqəti məğlubiyyətinə baxmayaraq, geosiyasi baxımdan Almaniyanın Avropa ilə eyniləşdirilməsi labüd və zəruridir.

Çellen *Ratselin* müəyyən etdiyi geosiyasi ifratçılığı möhkəmləndirir: Almaniyanın maraqları Qərbi Avropa dövlətlərinin (xüsusilə

Fransa və İngiltərənin) maraqlarına qarşı qoyulur. Lakin Almaniya - "gənc" dövlət, almanlar isə "gənc xalqdır". (Rusların və almanların hesab olunduqları "gənc xalqlar" ideyası Çellenin dəfələrlə sitat gətirdiyi *F.M.Dostoyevskidən* (1821-1881) gəlir). "Orta Avropa məkanı"ndan vəcdə gəlmiş "gənc" almanlar "qoca xalqlar"ın, - fransızlar və ingilislərin, - nəzarət etdikləri ərazilər hesabına planetar miqyaslı kontinental dövlətlərə sarı hərəkət etməlidirlər. Bununla yanaşı, Çellen geosiyasi qarşıdurmanın ideoloji aspektini ikinci dərəcəli sayırdı.

Mühafizəkarlar partiyasının milliyyətçi sağ qanadının fəal üzvü kimi, Çellen Almaniyanı dəstəkləyir və onun simasında, ilk növbədə, Böyük Britaniya və Fransa ilə təmsil olunan "dağıdıcı liberal kosmopolit qüvvələr"dən müdafiəni vacib sayırdı. **Ratsel kimi, o da hesab edirdi ki, böyük dövlətlər əhalisinin sayını sabit saxlamalı, ərzaq və təbii resurslar sarıdan avtarkiyaya çatmaq məqsədilə həyati məkan genişliyinə can atmağı proqramlaşdırmalıdırlar.**

Qeyd etmək lazımdır ki, Çellenə faşist ideologiyasının irqçi və antiintellektual elementləri yad idi, lakin avtoritar ideyalarla müəyyən qədər şərik idi. O, həmçinin hesab edirdi ki, müharibə qocalmış xəstə millətləri yox edən, döyüşən ölkələr içərisində həyat qabiliyyətini və gücü tərbiyə edən mütərəqqi bəşəri alətdir.

Sözsüz, Çellenin dünyaya baxışı sosial darvinizmə əsaslanırdı. Hansı ki, təbii seçmənin bioloji prinsipləri, daha çox uyğunlaşanların mövcudiyyət və sağqalma uğrunda mübarizəsini ictimai həyatın müəyyənedici amili kimi qiymətləndirirdi. Çellenin baxışları sonralar toplanılan faktlarla bəşəriyyət tərəfindən qəbul edilmədi. Beləliklə, *avtarkiya* (Volkhemmef ideyası) iqtisadiyyatı elmi-texniki tərəqqidən geri qoyur və nəticə etibarilə, ölkəni zəifləməyə məhkum edir. Müharibələrdə, bir qayda olaraq, millətin daha məhsuldar hissəsi məhv olur və deməli, heç bir sağlamlaşdırma müşahidə olunmur.

Bununla belə, Çellenin qaldırdığı bir sıra problemlər aktual olaraq qalır. Məsələn, qlobal dəyişikliklər xüsusən iqtisadi aspektdə dövlətlərin ənənəvi suverenliyini şübhə altına alır. Fundamentalistlər yenə də liberallarla toqquşurlar. Hətta ənənəvi demokratik ölkələrdə qloballaşma proseslərinə qarşı duran millətçi dairələr qüvvətlənir.

Çellen **böyük dövlətlər nəzəriyyəsini yaratmağa cəhd** göstərmişdir. Onun fikrincə, **ən fəal geosiyasi subyekt olduqlarına görə böyük dövlətlər məntiqi olaraq geosiyasətin əsas tədqiqat predmeti kimi öyrənilməlidir. O, bütün dövlətləri dünya dövlətlərinə və böyük dövlətlərə ayırmışdır.** Çellen Birinci Dünya müharibəsinə qədər dünya dövlətləri qismində Böyük Britaniyanı, ABŞ-ı, Rusiyanı və Almaniyanı görürdü. Böyük dövlətlərə isə Fransa, Yaponiya, Avstriya-Macarıstan imperiyasını və İtaliyanı aid edirdi.

2.2.2. Ağılın və ürəyin dəlilləri. Geoelm sistemi

"Geosiyasət" termini Çellen tərəfindən ilk dəfə onun *Fridrix Nitsşe*[1] (1844-1900) və *Verner Zombartın*[2] (1863-1941) təsiri ilə yazdığı və 1916-cı ildə Stokholmda çapdan çıxmış *"Dövlət həyatın forması kimi"* əsərində ("Staten som Lifsform", alman tərcüməsində "Der Staat als Lebensform") işlədilmişdir. Özünün bu başlıca əsərində Çellen əsası *Ratsel* tərəfindən qoyulmuş tezisləri inkişaf etdirmişdir. Çellen də *Ratsel* kimi özünü, dövlətə və cəmiyyətə mexaniki yanaşmanı rədd edən, alman orqanisizminin davamçısı sayırdı. Araşdırılan predmetləri "cansız obyektlərə" (fon) və "insan subyektlərinə" (xadimlər) sərt bölgüdən imtina geosiyasətçilərin əksəriyyətini fərqləndirən cəhətdir. Bu mənada Çellenin əsas əsərinin adının özü səciyyəvidir. Ratsel kimi Çellen əsas diqqəti dövlətin təbiətində cəmləşdirmişdir. Onun başlıca əsərinin adı bir növ *Ratselin* "dövlət canlı orqanizmdir" ideyasını əks etdirməyə xidmət edir. "Dövlət - qanunşünasların bir yerdə yalnız formulalarla tutub saxladığı insan həyatının müxtəlif tərəflərinin təsadüfi, yaxud süni konqlomeratı deyil, o, tarixi və konkret reallıqlarda dərin kök bağlamışdır, ona üzvi böyümə xasdır, o, insanın özü kimi elə həmin fundamentalist tipin ifadəsidir. Bir sözlə, o, bioloji törəmə, yaxud canlı varlıqdır". Öz-özlüyündə o, böyümə qanununa riayət edir: **"...məhdud məkana malik güclü, həyat qabiliyyətli dövlətlər öz məkanlarını müstəmləkəçilik yolu ilə genişləndirmək qəti im-**

[1] Alman filosofu, irrasionalizm və volyuntarizmin nümayəndəsi, şair.
[2] Alman iqtisadçısı, sosioloqu və tarixçisi, mədəniyyət filosofu.

perativinə tabe olurlar" *[sitat bu mənbədən gətirilir: Dorpalen, 1942, səh. 52]*, - Çellenin əsas ideyalarından biri belədir.

Dövlət özlüyündə imperiyada - bu ərazi və məkan birliyində daha tam ifadə edilmişdir. Buradan məlum olur ki, **geosiyasət siyasi elm kimi, ilk növbədə, dövlət birliyini nəzərdə tutur və onun vəzifələrindən biri - dövlətin mahiyyətinin izahına töhfəsini verməkdir. Geosiyasətdən fərqli olaraq siyasi coğrafiya insan birliklərinin yaşadığı yerləri onlarla Yerin digər elementlərinin əlaqəsində öyrənir** *[bax: Kjellen, 1917, səh. 46]*. Çellen geosiyasətlə siyasi coğrafiya arasındakı fərqi bu cür görürdü, yeri gəlmişkən, bu barədə mübahisələr indiyədək kəsilmir.

Çellenə görə dövlət "ilk növbədə özünüqoruma instinktinə, böyümə tendensiyasına, hökmranlıq meyilinə malikdir". O, iddia edirdi ki, **bütün bəşəriyyət tarixi məkan uğrunda mübarizədir** və o, bu nəticəyə gəlirdi ki, **"qüdrətli dövlət öz hərbi gücünə söykənərək tələblər irəli sürür və nüfuzunu sərhədlərindən uzaqlara yayır".** O "qüdrətli dövlətlərin ekspansionist ölkələr olduğunu" bəyan edərək "artıq bölüşdürülmüş dünyanın məkanını yalnız bir dövlət digərindən müharibə ilə geri ala bilər" nəticəsinə gəlirdi.

Əgər Ratsel dövləti yosun və süngərlərlə eyni səviyyədə olan *[bax: Ratzel, 1897, səh. 4]*, aşağı tipli orqanizm *[yenə orada, səh. 46]* kimi görürdüsə, Çellen iddia edirdi ki, **"dövlətlər, bizim tarixdə müşahidə etdiyimiz kimi insantək hiss edən və düşünən varlıqlardır"** *[bax: Kjellen, 1917, səh. 31-32]*. O, hər cür orqanizmi "mövcudiyyəti uğrunda mübarizə"də müəyyən etdiyi üçün, Çellenə görə, **dövlətlər "həyatın daha əzəmətli formaları" kimi, həmçinin "mövcudiyyət uğrunda mübarizə"nin qaydalarına müvafiq olaraq inkişaf etməlidirlər.** Çellen yazırdı: **"Onlar da həyat qüvvələrinin, əlverişli şəraitin sayəsində, bir-biri ilə daim rəqabət vəziyyətində, mübarizədə və təbii seçmə nəticəsində mövcudluqlarını sürürlər. Biz onların yaranmalarını və böyümələrini görürük, biz, həmçinin onların digər orqanizmlər kimi zəifləmələrini və məhv olmalarını da görürük. Beləliklə, onlar Yer üzündəki bütün həyat formaları içərisində ən əzəmətlisidirlər"** *[yenə orada, səh. 37-38]*.

Lakin Çellen bu nəticələrlə kifayətlənməmişdir. Müstəmləkələr uğrunda imperialist mübarizə şəraiti, ölkələr daxilindəki böhranlar dövlətin inkişafı probleminin, ilk növbədə, onların münasibətlərinin sonrakı araşdırılmasını tələb edirdi. Başqa sözlə, bu nəzəriyyəyə siyasi rəng vermək zəruri idi. Bax, elə burada ön plana coğrafi amil, yəni məkan, daha doğrusu, ərazinin ölçüləri və onun məhdudluğu çıxarılmışdır. **"Dövlət torpaq hesabına yaşamalıdır" (Ratsel) və "dövlət... qida götürdüyü müəyyən torpaq sahəsi ilə bağlıdır"** *[bax: Kjellen, 1917, səh. 51]* **bəyanatlarına "mövcudiyyət uğrunda mübarizə" və "təbii seçmə", yəni sosial darvinizm haqqında faza əlavə olunur.** Onun dövlətlərin "mövcudiyyət uğrunda mübarizə"si haqda nəzəriyyəsi xüsusən Çellenin nəzəri düşüncələrindən gələn siyasi nəticələrdə üzə çıxır. Çellenə görə dövlətin həyatında "mövcudiyyət uğrunda mübarizə" məkan uğrunda mübarizədir. Böyük dövlətlər kiçiklərin hesabına böyüyür. Təbii seçmə zamanı mövcudiyyət mübarizəsi hansı formalarda aparılmalıdır sualına cavab verərək Çellen yazırdı: *"Məkanı məhdud olan həyat qabiliyyətli dövlətlər qəti siyasi imperativə tabedirlər: öz ərazilərini müstəmləkəçilik, birləşdirmə, yaxud müxtəlif cür işğal yoluyla genişləndirmək. İngiltərə bu vəziyyətdə idi, hazırkı zamanda isə Yaponiya və Almaniya bu vəziyyətdədirlər. Gördüyümüz kimi, burada kortəbii ələ keçirmək instinkti yox, özünüqoruma məqsədi ilə zəruri və təbii böyümə vardır" [yenə orada, səh. 75].* Mövcudolma uğrunda mübarizə Çellenə görə, hər cür orqanizmin mahiyyətidir, müharibə isə dövlətlər arasında mövcudluq uğrunda mübarizənin konkret forması kimi təzahür edir, bu, məkan uğrunda mübarizədir və təbiətin əbədi qanunlarına tabe olur.

Çellen "dövlətlərin qaçılmaz böyüməsi" zamanı kiçik dövlətlərin gələcəyinin dumanlı olduğunu inkar etmirdi, zira "nə qədər çox qüdrətli dövlət yaranırsa, kiçik dövlətlərin məzənnəsi bir o qədər düşür" *[yenə orada, səh. 74].* Təbiətin bu qanununa görə, "kiçik dövlətlər... ya periferiyaya sıxışdırılır, ya sərhəd rayonlarda saxlanılır, ya da yox olurlar" *[yenə orada, səh. 81-82].* Təbii zərurətlə baş verən bu cür inkişaf, əlbəttə, "ədalətdən və ədalətsizlikdən o

yanda" baş verir *[bax: Kjellen, 1917, səh. 87].* Çellenə görə, siyasi xadim bu təbii zərurətə yalnız yol açmaq azadlığına malikdir. Onun bunu nə cür etməsi ilə o özü də "ədalətin və ədalətsizliyin o yanındadır" və heç bir xalq onu quldur müharibəsini hazırladığı və tətbiq etdiyinə görə cani kimi mühakimə edə bilməz.

Dövlətdə istehsal nə sırf aqrar, nə də sırf sənaye yönlü olmamalıdır. Axı bu və ya digər yönə ifratçılıq zamanı dövlət həmişə digər dövlətlərlə dinc münasibətlərə ehtiyac duyar. Sülhə ehtiyacı olan dövlət isə yeni xammal mənbələri və satış bazarları uğrunda müharibələr aparmaq imkanında deyil. Belə dövlət "zərurət yarandığı zaman özbaşına bağlı qapılar arxasında mövcud ola bilməz" *[yenə orada, səh. 142].* Çellenə görə bu problemin həlli avtarkiya, yəni hər iki ifratçılıq arasında müvazinətdir. Lakin qeyd edilməlidir ki, söhbət gömrük sədləri ilə bağlanmış sərhədlər mənasında avtarkiyadan yox, "açıq qapılar" sistemini "maraqların bağlı sferaları" sistemi ilə əvəz edən avtarkiyadan gedir *[yenə orada, səh. 143].*

Ratselin, "dövlətin yerləşdiyi torpaq onunla bir bütövdə birləşmiş inteqral hissəsidir", - baxışını bölüşən Çellen bu fikri inkişaf etdirir. Alman coğrafiyaçısı dövlətin yaranması, böyüməsi və inkişafında xarici ətrafın fiziki şərtlərindən başqa, həmçinin digər elementlərin iştirak etməsini ya nəzərdən qaçırmış, ya da bunda xüsusi dayanmağı vacib saymamışdır. Çellen dövlət təşəkkülünün və inkişafının mədəniyyət, iqtisadiyyat, xalq, idarəçilik forması və s. kimi aspektlərinin də vacibliyini qeyd edərək öz müəlliminin yanlışlığını düzəltmişdir.

Çellen "Dövlət həyatın forması kimi" əsərində gücün anatomiyası və onun coğrafi əsaslarını təhlil etməyə cəhd göstərmişdir. O, sözün ən geniş mənasında siyasətin öz aralarında qarşılıqlı əlaqədə olan beş elementinin üzvi surətdə birləşməsinin zəruriliyi haqda yazırdı. **Həyat formalarının birliyi kimi dövlət beş həyati sferadan ibarətdir:**

1) dövlət - vahid coğrafi məkan kimi;
2) dövlət - bütöv bir xalq kimi;
3) dövlət - vahid təsərrüfat sistemi kimi;

4) dövlət - normaları olan formalaşmış cəmiyyət kimi;

5) dövlət - hamı üçün məcburi olan vahid idarəçilik kimi.

Çellen və *Ratselə* qədər dövlətin və xalqın mövcudluğu üçün tarixdəki üç vacib amil[1] (bu barədə *Monteskyö* və başqaları da fikir söyləmişdi) və Vestfal müqaviləsində göstərilən dörd əsas əlamət[2] mövcud idi. Lakin bu iki *geosiyasətçi bəşəriyyətin o dövrə qədərki dövlət anlayışını ciddi şəkildə genişləndirərək, tamamlayaraq və sistemləşdirərək əsl dövlət təlimi yarada bildilər.*

Dövlətin fiziki-coğrafi əlamətlərini əsas kimi qəbul edən Çellen, eyni zamanda, onun mövcudluğu üçün dörd şərtin olmasını vurğulayır. Onun fikrincə, həmin şərtlər siyasət elminin əsas bölmələrini təşkil etməli idi.

Beləliklə, Çellenə görə dövlət fiziki-coğrafi xüsusiyyətləri ilə yanaşı, özünü dörd ipostasda ifadə edir: özünəməxsus iqtisadi fəallığı ilə seçilən müəyyən təsərrüfat forması kimi; milli və etnik xüsusiyyətləri ilə seçilən xalq kimi; müxtəlif sinif və peşələrin sosial birliyi kimi və nəhayət, öz konstitusiyalı və administrativ quruluşu ilə dövlət idarəçiliyi forması kimi. Birlikdə götürdükdə onlar Çellenin ifadəsinə görə "tək əldəki beş barmaq kimi sülh zamanı çalışan və müharibə zamanı döyüşən eyni gücün beş elementini təşkil edir" *[bax: Kjellen, 1917, səh. 53]*.

Əslində, **geosiyasəti Çellen bu cür müəyyən etmişdir:** "Bu, məkanda coğrafi orqanizm kimi təcəssüm etdirilmiş dövlət haqqında elmdir" *[yenə orada, səh. 53]*. Çellen "geosiyasətlə" yanaşı, **siyasət elminin əsas bölmələrini təşkil etməli olan daha dörd neologizm** təklif etmişdir:

1) ekosiyasət ("dövlətin iqtisadi güc kimi öyrənilməsi");

[1] Bunlar: legitim hakimiyyət strukturlarının mövcudluğu, cəmiyyətin və əsas əhalinin tam idarə edilməsi və formalaşmış, nəzarət olunan, coğrafi cəhətdən bütöv və suveren ərazinin olmasıdır.

[2] Vestfal sülhünə (1648) görə, geosiyasətin əsas kateqoriyalarından hesab olunan milli dövlət (hüquqi subyekt) anlayışının mahiyyətini dörd əsas təşkil edirdi. Bunlar: 1. ərazi; 2. ərazidə kompakt yaşayan əhali; 3. əhalinin suveren idarə edilməsi - legitim və əhali tərəfindən qəbul edilən hakimiyyət və 4. başqa dövlətlər tərəfindən tanınma prinsiplərindən ibarət idi.

2) demosiyasət ("xalqın dövlətə ötürdüyü dinamik impulsların tədqiqi; Ratselin "antropocoğrafiya" anlayışının analoqudur);

3) sosiosiyasət ("dövlətin sosial aspektinin öyrənilməsi");

4) kratosiyasət ("idarəetmə və hakimiyyət formalarının hüquq problemləri və sosial-iqtisadi amillərlə qarşılıqlı münasibətdə öyrənilməsi" [Kjellen, 1917].

Lakin Çellenin geosiyasətə paralel inkişaf etdirdiyi bütün bu fənlər geniş miqyasda qəbul edilmədi, yalnız "geosiyasət" termini ən müxtəlif dairələrdə möhkəm bərqərar oldu.

Yuxarıda qeyd etmişdik ki, Çellenə görə geosiyasət - məkanda coğrafi orqanizm olan dövlət haqqında elmdir. *Çellenin fikrincə, geosiyasətin tərkibinə aşağıdakılar daxildir:*

- *Toposiyasət - nəzərdə tutulan dövlətin siyasi əhatəsini öyrənir.* Onun üçün əsas məsələ kənar əhatənin dövlətə göstərdiyi təzyiqdir. Bu təzyiq siyasi ittifaqlar və digər bu kimi sazişlərlə güclənir, yaxud zəifləyir. Çellenə görə, coğrafi vəziyyət bütün mənalarda "siyasətə mötəbər açar ola bilər". O hesab edirdi ki, dövlətin bufer, yaxud periferik vəziyyəti siyasi təzyiq üçün həmişə cazibəli olur.
- *Morfosiyasət - dövlət ərazisinin forması haqqında elmdir.* Çellenə görə, dövlət ərazisinin ideal forması kimi çevrə qəbul edilir, ərazisinin forması çevrədən uzaqlaşan və uzunsov şəkil alan dövlətlər isə (məsələn, Norveç) geosiyasi nöqteyi-nəzərdən itkiyə məruz qalırlar. Dövlətin ölçüsü onun gücünün təməlini təşkil edir.
- *Fiziosiyasət - dövlətin ərazisinin məzmunu və ya Çellenin dediyi kimi, "dominium" haqqında elmdir.* Fiziosiyasətin predmeti dövlət sərhədləri hüdudlarında yerləşmiş ərazilərin fiziki doldurulmasıdır. Bu məsələdə dövlətin siyasətinə təsir göstərən bütün fiziki-coğrafi xüsusiyyətlər mühüm əhəmiyyət kəsb edir [*bax:* Колосов, Мироненко, 2005, səh. 41-42].

Əgər digər Qərbi Avropa ölkələrində, elə bu nəzəriyyənin yaradıcısının vətəni İsveçin özündə haqqında söhbət etdiyimiz geosiyasi ideyalar müəyyən dərəcədə nəzərdən kənarda qalmışdısa, Al-

maniyada onlar dərhal məşhurlaşmışdı. Çellenin 1917-ci ildə alman dilində çapdan çıxmış "Dövlət həyatın forması kimi" əsəri sayəsində geosiyasi ideyalar, xüsusilə Almaniyada geniş yayıldı, Üçüncü reyxin yaranması ilə isə onların "təntənəli dirilməsi" baş verdi *[bax: Karl Haushoferin kitaba yazdığı ön söz: Ratzel, 1940, səh. 9]*. Onlar *K.Haushoferin* ifadəsinə görə, "alman füreri *Adolf Hitlerin* və onun müavini *Rudolf Hessin* nitqlərində milyonlarla həmvətənləri üçün doğma kəlmələr (Volksgenossen) kimi səslənirdi" *[bax: Колосов, Мироненко, 2005, səh. 26]*. *Haushofer* Çellenin "Dövlət həyatın forması kimi" kitabını "geosiyasət nəzəriyyəsinin daha aydın inkişaf etdirildiyi əsər" kimi xarakterizə etmişdir. Çellenin bütün kitabları alman dilinə tərcümə olunmuş, ali və orta nasist tədris müəssisələrində geniş təbliğ edilmişdi. Çellenin əsərlərindən biri *K.Haushoferin* arvadı - *Marta Haushofer* tərəfindən tərcümə edilmiş və onun ön sözü ilə çapdan çıxmışdır.

2.2.3. "Orta Avropa" konsepsiyası barədə

Ratsel və Çellenin ideyaları XX əsrin əvvəlində Almaniyada geosiyasi nəşrlərin çoxalmasına şərait yaratdı. XIX əsrin sonlarında *"coğrafiyaçılar vətəni"*[1] qlobal hüdudlarla düşünürdü və onun dünya ağalığına can atması coğrafi və geosiyasi düşüncə ənənələrinə söykənirdi. Kontinental və dəniz siyasəti formalaşmışdı. Baxışların haçalanması bunun nəticəsi idi. Kontinental baxışlar Şərqə yönəldilirdi. Dənizə çıxışı olan dövlətlərin kontinentallardan üstün olmasını düşünənlər isə dəniz siyasətini gerçəkləşdirirdilər. Əsas ideya hamını birləşdirirdi: dövlət - öz həyati məkanı uğrunda mübarizə aparan sosial orqanizmdir.

Bu zaman müstəmləkə torpaqlarının yenidən bölüşdürülməsini, həmçinin Almaniyanın kontinentallığının mənfi xüsusiyyətlərini Böyük Britaniya timsalında donanma yaratmaq hesabına dəf edən *dünya siyasəti ideyası (Weltpolitik)* yaranmışdı. Almaniya geosiyasətinin bu istiqamətlərinə kayzer *II Vilhelm* (1859-1941) və admi-

[1] XVIII əsrdən başlayaraq coğrafi tədqiqatlara ciddi diqqət yetirildiyindən (coğrafiya "tarixin gözləri kimi") Fransa coğrafiyaçısı *M.Korinman* Almaniyanı "coğrafiyaçılar vətəni" adlandırmışdı [*bax:* Parker, 1998].

ral *Alfred Tirpits* (1849-1930) başçılıq edirdi. *Tirpits* Birinci Dünya müharibəsinin lap əvvəlindən bütün Atlantika boyu fəal hərəkət edən sualtı donanmanın inkişafına xüsusi diqqət yetirirdi.

Weltpolitiklə yanaşı, Almaniyanın qonşuluğunda olan dövlətlərin həyati məkanlarını ələ keçirmək, Aralıq dənizi və Asiya ölkələrinə çıxış əldə etmək cəhdlərini əks etdirən *"Orta Avropa"* konsepsiyası, yəni *Mitteleuropa* konsepsiyası meydana çıxmağa başladı.

Qeyd etmək vacibdir ki, Çellen özü isveçli idi və İsveçin siyasətini Almaniyanın siyasətinə yaxınlaşdırmağı təkid edirdi. Lakin Almaniya məkanının müstəqil inteqrasiya əhəmiyyəti barədə onun geosiyasi təsəvvürləri **Fridrix Naumann** (1860-1919) tərəfindən inkişaf etdirilmiş "Orta Avropa" (Mitteleuropa) nəzəriyyəsi ilə tam üst-üstə düşür.

Naumann *"Mitteleuropa"* adlı kitabında (1915) Çellenin konsepsiyasının tam eyni olan geosiyasi diaqnoz vermişdi. Onun mövqeyinə görə İngiltərə (və müstəmləkələri), ABŞ və Rusiya kimi mütəşəkkil geosiyasi qurumlarla rəqabətə davam gətirmək üçün Mərkəzi Avropada məskunlaşmış xalqlar birləşməli və inteqrasiya edilmiş yeni siyasi-iqtisadi məkan təşkil etməlidirlər. Təbii ki, bu məkanın mərkəzi almanlar olacaqdır.

Xalis "pangermanist" layihələrdən fərqli olaraq *Mitteleuropa* artıq milli anlayış deyil, sırf geosiyasi anlayış idi. Burada əsas əhəmiyyət etnik birliyə deyil, coğrafi talenin ümumi olmasına yönəldilirdi. Naumannın layihəsində Almaniya, Avstriya, Dunayətrafı dövlətlər və uzaq perspektivdə Fransanın da inteqrasiyası nəzərdə tutulurdu.

Geosiyasi layihə mədəni paralellərlə təsdiqlənirdi. Almaniya özü bir üzvi qurum kimi *"Mittellage"* ("orta mövqe") anlayışı ilə eyniləşdirilirdi. Bunu alman şairi, publisist və tarixçi *Ernst Arndt* (1769-1860) hələ 1818-ci ildə belə ifadə etmişdi: *"Allah bizi Avropanın mərkəzində yerləşdirib, biz (almanlar) dünyanın bizə aid hissəsinin ürəyiyik"*.

Göründüyü kimi, *Ratselin* "kontinental" məzmunlu ideyaları Çellen və Naumann vasitəsilə tədricən hiss olunan cizgilər kəsb etmişdir.

2.3. HELFORD MAKİNDER. GEOSİYASƏTÇİLƏR ARASINDA ƏN PARLAQ SİMA



Helford Makinder
(1861-1947)

2.3.1. Alim və siyasətçi. Makinderin həyat və fəaliyyətindən sətirlər

Ser Helford Con Makinder *(Halford John Mackinder)* klassik anqlosaks geosiyasət məktəbinin əsas nümayəndələrindən biri və onun banisidir. O, coğrafiya təhsili aldıqdan sonra 1887-ci ildən ta London İqtisadiyyat məktəbinin direktoru təyin edilənə qədər Oksfordda dərs demişdir. 1899-cu ildə alim Oksford Coğrafiya məktəbinin əsasını qoymuşdur. 1910-cu ildən 1922-ci ilədək İcmalar palatasının üzvü, bu arada bir müddət (1919-1920) Britaniyanın Cənubi Rusiya üzrə ali komissarı olmuşdur. 1922-ci ildən 1947-ci ilədək Britaniya imperiyasının bir neçə komitəsinə başçılıq etmişdir *[Dictionary.., 1994, p. 155]*.

Makinder elmi görüşlərini *"Demokratik ideallar və reallıq"* ("Democratic Ideals and Reality", 1919) kitabında və *"Yer kürəsinin coğrafi tamamlanması və sülhə nail olma"* ("The round world and the winning of the peace", 1943) adlı məqaləsində inkişaf etdirmişdir. Makinderin nəzəri mühakiməsi **dünya inkişaf sisteminin ilk qlobal geosiyasi modelini** əks etdirirdi. Onun əsasında dünyanın geosiyasi təsnifatı dayanırdı, bunun içindən də Makkinder 3 bölgəni fərqləndirirdi. Birincisi - *"tarixin coğrafi oxu"* və ya *"mərkəzi areal"* (pivot area), buranı o, ilk növbədə Rusiya və ona bitişik ərazilər ilə eyniləşdirirdi. Makinderin təsnifatına görə, ikinci bölgəyə - Almaniya, Avstriya-Macarıstan, Türkiyə, Hindistan və Çin, yəni Avrasiyanın qərb, cənub və şərq sahillərində yerləşən əsas ölkələr daxildir. Bu region *"daxili və ya kənar aypara"* (inner or marginal crescent) olaraq adlandırılmışdır. Və nəhayət, üçüncü

bölgə - *"xarici və ya ada ayparası"* (outer or insulat crescent), buraya ingilis geosiyasətçisi Britaniyanı, Cənubi Afrikanı, Avstraliyanı, Birləşmiş Ştatları, Kanada və Yaponiyanı, yəni aparıcı dəniz dövlətlərini daxil etmişdir.

Makinder, həmçinin *"Dünya adası"* (World Island) adlandırılan bölgəni də fərqləndirirdi. Bu bölgəyə o, *"Hartlənd"i* (Heartland) və "daxili aypara"nı, yəni Avrasiya və ona yaxın olan Afrikanı aid edirdi **(xəritə 1).** Tarix "Dəniz" və "Qitə" dünyasının üstünlük uğrunda daimi mübarizəsindən ibarətdir.



Xəritə 1. ***Makinderə görə dünya***
Mənbə: Spykman N.J. The Geography of the Peace. N.Y., 1944

Makinder "Hartlənd"in - Avrasiyanın quru hissəsinin *(indiki Şərqi və Qərbi Avropa, Asiyanın quru və Rusiyanın Avropa hissəsi, Afrika və s. əraziləri nəzərdə tuturdu - N.M.)* bütün dünyaya nəzarət etmək üçün ən əlverişli ərazi olması fikrini əsaslandırmağa çalışırdı *[Макиндер, 1995, стр. 162]*. Avrasiyanın geniş ərazilərinin *XII Karl*[1] (1682-1718) və *Napoleon* tərəfindən zəbt edilməsi cəhdlərinin uğursuzluqla başa çatmasını, dəniz dövlətlərinin qoşunları-

[1] İsveç kralı (1697-ci ildən), sərkərdə.

nın, donanmasının bu zonaya daxil ola bilməməsini və bütövlükdə "Hartland"in alınmazlığının səbəblərini Makinder məhz onun əlverişli hərbi-strateji vəziyyəti ilə izah edirdi.

1904-cü ildə Kral Coğrafiya Cəmiyyətində etdiyi *"Tarixin coğrafi oxu"* ("The Geographical Pivot of History") adlı qalmaqallı çıxışında Makinder qeyd edirdi ki, "Mərkəz ərazi" və ya "Hartland" olaraq, tarixin ox bölgəsi kimi, ilk dəfə Mərkəzi Asiya seçilmişdi. Buradan tatar-monqollar, atlılarının hərəkətliliyi sayəsində, öz nüfuzlarını Asiya və Avropanın xeyli hissəsinə yaymışlar. Böyük coğrafi kəşflər dövründən etibarən isə güc nisbəti okeanyanı ölkələrə, xüsusilə də Böyük Britaniyanın xeyrinə dəyişmişdir. Lakin Makinder düşünürdü ki, yeni nəqliyyat-kommunikasiya sistemləri, ilk növbədə dəmir yolları, güc balansını təkrarən qitə ölkələrinin xeyrinə dəyişdirəcəkdir. O, mövqeyini sonralar məşhur olan tezisdə ifadə etmişdi: ***"Şərqi Avropaya nəzarət edən, "Hartland"ə hakim olur; "Hartland"ə hakim olan, "Dünya adası"na hakimdir; "Dünya adası"na hakim olan isə, dünya üzərində üstünlüyü ələ alır".*** ("Who rules East Europe commands the Heartland; Who rules the Heartland commands the World Island; Who rules the World Island commands the World").

Makinder iki (və ya daha çox) dövr arasında ortaya çıxan və öz düşüncəsini bir dünyadan digər dünyaya keçidlə formalaşdıran şəxsiyyətdir. O, İngiltərənin siyasət aləmində böyük xidmətləri ilə məşhurdur və bu siyasətin beynəlxalq oriyentasiyasına çox ciddi təsir göstərmişdir. Bundan əlavə, dünyanın siyasi tarixi barədə ən cəsarətli və inqilabi sxem Makinderə məxsusdur. Öz tarix hissi ilə, Makinder dünya üzərindəki bizə məlum olan daimi ziddiyyətləri (Sparta və Afina, Roma və Karfagen, Fransa və İngiltərə arasında) müəyyənləşdirir. Amma o, eyni zamanda, qarşıdurmaların əhatə dairəsini bütün planetə yayaraq dəyişkənlik amillərini, yəni texnikanı və onun istifadəsini müəyyən edir.

Bir elmi fənn kimi geosiyasətə xas olan tipik paradoks Makinderin timsalında daha aşkar təzahür edir. Makinderin təkcə siyasətdə deyil, elmi mühitin özündə də yüksək mövqe tutmasına

baxmayaraq, elmi ictimaiyyət onun ideyalarını qəbul etməmişdi. Hətta dünyanın siyasi və coğrafi tarixinin özünəməxsus interpretasiyası əsasında beynəlxalq məsələlərdə ingilis strategiyasının yaradılmasında təqribən yarım əsr müddətində fəal və uğurlu iştirak etməsi faktı da skeptikləri geosiyasətin bir elmi fənn kimi qiymətli və effektiv olmasını etiraf etməyə məcbur edə bilməmişdir.

2.3.2. Makinderin geosiyasi modeli, onun əhəmiyyəti və inkişafı

Makinderin nəzəriyyəsi uzunömürlüyünə görə geosiyasi fikrin fövqəladə nailiyyətidir. Nəzəriyyənin ilk dəfə 1904-cü ildə şərh edildiyinə baxmayaraq, indiyədək geosiyasətçilərin mübahisə predmeti olaraq qalır.

Bu geosiyasətçinin bütün fəaliyyəti məkan münasibətlərinin və tarixi səbəbiyyətin qarşılıqlı əlaqəsinin izahına həsr edilmişdir. Makinder XIX əsrin sonunda Britaniyada yeni coğrafiyanın pioneri olmuşdur. *Ratsel* kimi, o da dünyada böyük dövlətlərin hakim olduğu siyasi coğrafiyanın xüsusi zəruriliyini anlayırdı. Onun *"Britaniya və Britaniya dənizləri"* ("Britain and the British Seas", 1902) kitabında geosiyasətdə ilk dəfə Britaniyanın dünya geosiyasət strukturundakı yerinin qiymətləndirilməsinə cəhd göstərilmişdir.

İki il sonra Makinder *"Tarixin coğrafi oxu"*[1] adlı məqaləsini (1904) dərc etdirmişdir. **Bununla da o, *Ratsel* və *Çellenin* bacarmadıqlarını etməyə müvəffəq olmuş, dünyanın avromərkəzçilik zamanında planetar miqyaslı geosiyasi ssenari təklif etmişdir** [Parker, 1998]. Makinderin *K.Ritter* ənənələrində tədqiqatı bu təsəvvürə əsaslanırdı ki, **dünya coğrafi nöqteyi-nəzərdən rasional izahı olan vahid fəaliyyət göstərən tamdır. Alim ilk dəfə**

[1] Bu məqalədə Makinder tarix və coğrafiya barədə öz təsəvvürlərinin əsaslarını şərh etmiş, sonrakı əsərlərində bu ideyaları inkişaf etdirmişdir. Makinderin bu məqaləsini geosiyasət elminin tarixində ən mühüm mətnlərdən biri hesab etmək olar, çünki həmin məqalədə siyasi coğrafiyanın inkişafının bütün əvvəlki istiqamətləri ümumiləşdirilməklə yanaşı, bu elmin əsas qanunu ifadə edilir.

olaraq dövlətlər arasında təkrar olunan qarşılıqlı əlaqələrin mövcudluğu haqda təsəvvür yaratmışdır.

Makinder ***"Kolumb erası"***[1] ("Columbian Age") anlayışını elmə daxil etmişdir. O, eyni zamanda, bu eranın başa çatdığını anlayır və bundan sonra əvvəllər Avropanın dəniz dövlətlərinin kölgəsində qalmış dünyanın digər bölgələrinin inkişafını ehtimal edirdi. Onun nəzəriyyəsinin mərkəzində duran ideya ondan ibarət idi ki, **dəniz dövlətlərinin hökmranlığının vaxtı bitmək üzrədir, bununla əlaqədar kontinental dövlətlər yeni, daha yüksək geosiyasi status əldə etməyə hazırlaşırlar.**

Makinderin başlıca geosiyasi iddiasına görə, **dünya tarixinə kontinental və okean dövlətləri arasında qarşıdurma kimi baxmaq olar.** O, bunu məkan-zaman aspektində tədqiq etmiş və bu fikrə gəlmişdir ki, beynəlxalq münasibətlərin mürəkkəb kompleksinin əsasında qüvvələr tarazlığındakı daimi dəyişikliklər dayanır.

1904-cü ildə Makinder qlobal qarşıdurmanın iki başlıca obyekti qismində Britaniya və Rusiya imperiyalarını müəyyənləşdirərək bu yanaşmanı XX əsrin əvvəlində yaranmış situasiyaya tətbiq etdi. O, bu qarşıdurmada "dar" dünya məkanında mübarizənin kulminasiyasını görürdü. O, bu mübarizənin qəti nəticəsi kimi üstünlüyün kon-

[1] Makinderin Avropada məkan genişlənməsi və dünya hökmranlığının yaranması kimi izah olunan, zaman etibarilə çox böyük mərhələ təşkil edən "Kolumb erası" nəzəri baxışları özünəməxsus, dolğun və bitmiş bir geosiyasi konsepsiya kimi tarixşünaslığa daxil edilmişdir. *Makinder dünyanın bütün geosiyasi tarixini üç mərhələyə bölürdü:*

1) *Kolumbdan əvvəlki dövr.* Bu dövrdə "Dünya adası"nın periferiyasına mənsub olan xalqlar, məsələn, romalılar daim "torpağın nüvəsi" sayılan qüvvələr tərəfindən işğal edilmək qorxusu altında yaşayırlar. Romalılar üçün bu qüvvələr german, hun, alan tayfaları, parfiyalı və başqa tayfalar idi. Orta əsrlərdə oykumenlər (Yer kürəsinin insan tərəfindən məskunlaşmış ərazisi) üçün müvafiq qüvvə Qızıl orda dövləti (XIII əsrin 40-cı illəri - XV əsr) idi.

2) *Kolumb dövrü.* Bu dövrdə "daxili aypara" (sahil zonaları) nümayəndələri heç yerdə ciddi müqavimətlə qarşılaşmadan planetin naməlum ərazilərini işğal etməyə yola düşürlər.

3) *Kolumbdan sonrakı dövr.* Artıq fəth edilməmiş torpaq yoxdur. Sivilizasiyaların dinamik pulsasiyaları Yer kürəsi xalqlarını ümumi vətəndaş müharibəsinə sövq etməklə toqquşmaya məhkumdur *[Mackinder, 1919, p. 92]*.

Makinderin tarixi bu cür dövrlərə bölməsi və müvafiq geosiyasi transformasiyalar geosiyasətdə ən yeni meyillərə zəmin yaratmışdır.

tinental dövlətlərin tərəfinə keçəcəyindən ehtiyat edirdi. Xatırladaq ki, *Ratsel* öz diqqətini Almaniya üzərində cəmləşdirirdisə, Makinder daha geniş düşünürdü, çünki Britaniya nəhəng imperiya idi. O, birinci olaraq həmin dövrün müfəssəl geosiyasi mənzərəsini təqdim etmişdir. **Sonralar onun *"Hartlənd"* (Yerin mərkəzi) adlandırılan nəzəriyyəsi ingilisdilli dünyanın geosiyasətinin formalaşmasına, *Ratsel* və *Çellenin* əsərləri ilə birlikdə isə alman geosiyasətinin sonrakı inkişafına daha çox təsir göstərmişdir.**

Beləliklə, "Hartlənd" nəzəriyyəsi Makinder tərəfindən 1904-cü ildə "Tarixin coğrafi oxu" məruzəsində ortaya qoyulmuşdur. Makinder hələ o zaman "Hartlənd" istilahını işlətməmişdi. Bu istilah 1915-ci ildə Britaniya coğrafiyaçısı *C.Feyqriv* tərəfindən səsləndirilmişdir. Hesab olunur ki, o, bir sıra əsas oxşar ideyalara Makinderdən asılı olmayaraq gəlmişdir *[Fairgrieve, 1915]*.

Sonra Makinder "Hartlənd" nəzəriyyəsini iki dəfə - 1919-cu ildə "Demokratik ideallar və reallıq" adlı əsərində, 1943-cü ildə isə "Yer kürəsinin coğrafi tamamlanması və sülhə nail olma" məqaləsində yenidən nəzərdən keçirmişdir. Göründüyü kimi, alim öz nəzəriyyəsini dünya tarixinin ən ağır dövrlərindən birində işləyib hazırlamışdır. Dörd onillik ərzində iki bəşəri müharibə dünyanı sarsıtmış, Böyük Britaniya öz iqtisadi və siyasi hegemonluğunu itirərək onu Amerikanın okean dövlətləri arasında güzəştə getmişdir.

Makinder dünya nizamındakı radikal dəyişikliklərin təsiri altında öz baxışlarını tənqidi olaraq yenidən nəzərdən keçirmişdir. O, əvvəlcə azad ticarət partiyası - Liberal partiyanın aparıcı üzvlərindən biri olmuş, lakin 1903-cü ildə ağır sənayesinin inkişafında sərt sıçrayış baş vermiş Almaniyanın meydan oxuması ilə üz-üzə qalmış Britaniya sənayesini dəstəkləmək niyyəti ilə proteksionist mövqeyə keçmişdir.

Hesab olunur ki, Makinderin dünyabaxışına *Mehenin* dəniz və kontinental gücün nisbəti konsepsiyası böyük təsir göstərmişdir. Lakin bəlkə də Makinderin mövqeyi əks mahiyyətli olmuşdur və o, potensial dünya gücünü Avrasiyanın simasında görmüşdür. **Makinder XIX əsrin sonu - XX əsrin əvvəllərində dünyanın geosiyasi**

tamlığının formalaşmasının başa çatmasına xüsusi əhəmiyyət vermişdir. Bununla o, birincilərdən olaraq qlobal düşüncə tərzindən, yəni təkcə beynəlxalq münasibətlərin "atomları" məcmusu olan dövlətlərdən deyil, böyük miqyasda ümumiləşdirilmiş və qarşılıqlı əlaqəyə malik məkan strukturlu törəmələrin axtarışının səbəbiyyətindən söz açmışdır. Həqiqətən, XIX əsrin sonuna doğru dünyada coğrafi kəşflər praktik olaraq sona çatmışdır. Həmçinin hesab olunur ki, coğrafiya son dərəcə mükəmməl baxışdan keçirilməli və fəlsəfi sintezə müncər edilməlidir *[Маккиндер, 1995, стр. 162]*.

Makinderə görə Yer kürəsi qlobal miqyaslı qapalı siyasi sistemə çevrilmişdir. Yəni hər bir ictimai partlayış ətrafdakı naməlum məkanda və vəhşilik xaosunda aradan qalxmaq əvəzinə, Yer kürəsinin o biri tərəfində güclü əks-səda verəcəkdir. Odur ki, nəticədə Yer kürəsi orqanizmindəki bütün zəif siyasi və iqtisadi elementlər dağıntıya məruz qalacaqlar *[yenə orada, səh. 162]*. **Qeyd edilməlidir ki, artıq Makinder yalnız ayrıca bir dövlətin orqanizmindən deyil, Yer kürəsi orqanizmindən danışır.** Makinderə görə, qlobal bütövlük gətirib o yerə çatdırıb ki, bəşəriyyət ilk dəfə geniş coğrafi və tarixi ümumiləşmələr arasında əlaqə yaratmağın mümkün olduğu vəziyyətdədir. *"Biz ilk dəfə dünya səhnəsində baş verən hadisələrə münasibətdə bəzi real uyğunluqlar hiss edə və hər halda dünya tarixinin coğrafi səbəbiyyətinin müəyyən aspektlərini əks etdirən düsturu müəyyənləşdirə bilərik. Əgər bəxtimiz gətirsə, bu düstur praktik əhəmiyyət kəsb edəcəkdir. Onun köməyi ilə hazırkı beynəlxalq həyatın rəqabətdə olan bəzi qüvvələrinin inkişaf perspektivini hesablamaq mümkün olacaqdır" [yenə orada, səh. 163]*.

Bəşəriyyətin ilk dəfə Yerin coğrafiyası və tarixi arasındakı əlaqəni ümumiləşdirmək imkanı əldə etməsindən danışan Makinder bildirir ki, o, bəşəriyyət tarixini coğrafi determinizmə (materializmə) varmadan dünya orqanizmi həyatının bir hissəsi kimi göstərmək istəyir. *"Təşəbbüsü təbiət yox, insan göstərir, lakin məhz təbiət nizama salır. Mənim marağım ümumi tarixin səbəblərinin öyrənilməsi sferasından çox, ümumi fiziki nizamlamanı öyrənmək sahəsindədir" [yenə orada, səh. 163]*.

"Hartlənd" modelinə əsasən dünya iki geosiyasi yarımkürəyə bölünüb: kontinental və okeanik ***(xəritə 2)***. Dünyanın bu ikihədli (kontinental və okeanik) bölgüsü öz təməlində ziddiyyətlidir və Makinder burada *Mehenə* istiqamətlənir. Başqa sözlə, tarixi planda Yerin bu iki yarımkürəsindəki güclər dəyişə bilər, lakin qarşıdurma qaçılmazdır.



Xəritə 2. *H.Makinderin geosiyasi modeli, 1904-cü il*
Mənbə: A Strategic Atlas, 1990

Yarımkürələr arasındakı qüvvələr nisbəti Yer məkanının fiziki xüsusiyyətlərini dəyişmək bacarığına malik olan texnologiyaların, ilk növbədə, nəqliyyat texnologiyalarının inkişafından asılıdır. Nəqliyyat texnologiyalarının əvəzlənməsi prosesində "tarixin təməl sahələri" dəyişir. Əvvəlcə Mərkəzi Asiya seçilir, hansı ki, monqollar bir vaxt (XIII əsrdən) süvari dəstələrinin qeyri-adi hərəkətliliyi sayəsində Asiyanın və Avropanın xeyli hissəsini ələ keçirdilər. Sonra, Böyük coğrafi kəşflər dövründən (XV-XVII əsrlər) geosiyasi qüvvələr balansı qəti surətdə okeansahili ölkələrin,

ilk növbədə, XVIII əsrdən Böyük Britaniyanın xeyrinə dəyişdi. Makinder hesab edirdi ki, XX əsrin əvvəllərində *Kolumbun* okeanik yarımkürəsinin üstünlüyü erası sona çatır, yeni, nəqliyyat texnologiyaları, xüsusən də dəmir yolları geosiyasi qüvvə vektorunu kontinental yarımkürənin xeyrinə dəyişir. Makinder yazırdı: *"Hələ bir nəsil qabaq elə görünürdü ki, buxar maşınının yaradılması və Süveyş kanalının çəkilişi quru dövlətləri ilə müqayisədə dəniz dövlətlərinin mobilliyini artıracaq. Lakin indi transkontinental dəmir yolları quru dövlətlərinin vəziyyətini dəyişmişdir və heç yerdə onlar Avrasiyanın qapalı mərkəzi bölgələrindəki səmərəliliklə işləmirlər. Bunların tikilməsi üçün ucsuz-bucaqsız genişliklərdə nə münasib tir, nə də daş tapmazsan. Dəmir yolları səhrada görünməmiş möcüzələr yaradır, çünki onlar bilavasitə at və dəvələri əvəz etmişlər. Odur ki, inkişafın zəruri mərhələsi əldən verilmişdir. Rusiyanın dəmir yolları 6000 mil şərqdən qərbə uzanır. Rus ordusu Mancuriyada mobil quru qoşunları qüdrətinin göstəricisidir, necə ki, Britaniya Cənubi Afrikada dəniz dövləti nümunəsidir. Transsibir magistralı əvvəlki kimi yeganə və heç də təhlükəsiz olmayan əlaqə xəttidir, lakin hələ bu yüzillik bitməmiş, bir də gördün, bütün Asiya dəmir yolları şəbəkəsi ilə örtüləcəkdir. Rusiya imperiyası və Monqolustan ərazilərindəki məkan elə böyükdür, onların əhaliyə görə buğda, pambıq, yanacaq və metal potensialı o qədər yüksəkdir ki, burada mütləq, bir qədər uzaqda olsa da, okeanik ticarət üçün əlçatmaz olan nəhəng iqtisadi dünyalar yaranacaqdır" [Маккиндер, 1995, стр. 168].*

Geosiyasi güc balansı quru, kontinental yarımkürəyə doğru əyilmişdir. *"Tarixin əsas tendensiyalarına ötəri nəzər salarkən coğrafi planda açıq-aşkar nə isə daimi bir şey görmürükmü?! Məgər gəmilər üçün əlçatmaz, keçmişdə isə köçərilər üçün keçilən olub, indi yollar şəbəkəsi ilə örtüləcək Avrasiyanın bu geniş ərazisi dünya siyasətində təməl region deyilmi?! Burada çox şeylər vəd edən və bununla belə, hərbi və sənaye dövlətlərinin mobilliyi üçün məhdud olan şərait mövcud idi və mövcud olmaqda davam edir. Rusiya monqol imperiyasını əvəz edir. Onun Finlandiyaya, Skandinaviya-*

ya, Polşaya, Türkiyəyə, İrana, Hindistana və Çinə təzyiqini köçərilərin bir mərkəzdən edilən basqınları əvəz etmişdir. O, bu dünyada, Avropada Almaniyaya məxsus olan mərkəzi strateji mövqeyə malikdir. Rusiya şimal istisna olmaqla bütün istiqamətlərdən zərbə vura və ya ala bilər. Əlbəttə, heç bir sosial inqilab onun mövcudluğunun böyük coğrafi sərhədlərinə münasibətini dəyişməyəcək. Öz qüdrətinin hüdudlarını ayıq surətdə anlayan Rusiya hakimiyyəti Alyaska ilə üzülüşdü. Belə ki, rus siyasəti üçün dənizdən o yana heç bir əraziləri tutmamaq faktiki olaraq qanuna çevrilmişdir. Eynilə Britaniya üçün okean genişliklərində hökmranlıq etmək kimi" [бах: Маккиндер, 1995, стр. 169].

Beləliklə, Makinder üçün əsas ideyalardan biri planetin ox (özək) regionunu və ya "Hartlənd"i seçməkdir. Onun sərhədləri prinsipcə dəniz dövlətlərinin gəmiləri üçün əlçatmaz olan zonalarla müəyyən edilmişdir. O, "Hartlənd"in dəqiq sərhədlərini çəkməmişdir, bu sərhədlər hətta müəllifin hər yeni əsərində dəyişmişdir. Lakin həmişə "Hartlənd"in əsasında Rusiyanın Ağ və Baltik dənizlərindən, Xəzər, Baykal və Şimal-Şərqi Sibirəcən olan böyük bir hissəsi dayanmışdır.

"Demokratik ideallar və reallıq" kitabında "Hartlənd"in ərazisi şərqdə Tibet və Monqolustan, qərbdə isə Mərkəzi-Şərqi Avropanın hesabına genişləndirilmişdir. Makinder izah edir ki, "Hartlənd"in yeni sərhədləri quru və hava nəqliyyatının inkişafındakı tərəqqi, əhalinin sayının artması və sənayeləşməni nəzərə alması səyəsində yaranmışdır. O, ümumi şəkildə bunu əsas gətirib ki, "Hartlənd" qərbdə Baltik, Qara dənizlərini, Dunay çayını və Kiçik Asiyanı əhatə edir. Müəllif daim münaqişədə olan bu regionun sərhədini müəyyən etmək cəsarətini üzərinə götürmüşdür.

O, 1943-cü ildə "Yer kürəsinin coğrafi tamamlanması və sülhə nail olma" əsərində Yeniseydən şərqdə yerləşən az məskunlaşmış ərazini Lena çayının adı ilə *"Rusiya Lenaland"i* adlandıraraq "Hartlənd"in tərkibindən çıxarmışdır **(bax: 3-cü və 4-cü xəritələr).** Təbii resurslarla zəngin olan "Lenaland"in seçilməsi dəniz dövlət-



Xəritə 3. ***H.Makinderin geosiyasi modeli, 1943-cü il***
Mənbə: A Strategic Atlas, 1990

ləri tərəfindən "Hartlənd"ə qarşı istifadə oluna bilən bu ərazinin sahil məkanına, zonasına daxil edilməsini ehtimallaşdırırdı.

Beləliklə, Makinderin əsərlərində "Hartlənd"in coğrafi hüdudları özünəməxsus təkamül yolu keçmişdir. Əgər 1904-cü və 1919-cu illərdə (müvafiq surətdə, "Tarixin coğrafi oxu" məqaləsində və "Demokratik ideallar və reallıq" kitabında) "Hartlənd"in hüdudları ümumi şəkildə Rusiya imperiyasının, sonralar SSRİ-nin sərhədləri ilə üst-üstə düşürdüsə, 1943-cü ildə Makinder özünün "Yer kürəsinin coğrafi tamamlanması və sülhə nail olma" adlı əsərində öz əvvəlki mövqelərinə yenidən nəzər salır və Yenisey çayının arxasında Şərqi Sibirdə yerləşən sovet ərazilərini "Hartlənd"dən ayırır. Makinder yeni reallıqları - SSRİ və onun yeni müttəfiqlərini, Böyük Britaniya və ABŞ-ın geostrateji birlik maraqlarını və onların reallaşma imkanlarını nəzərə almağa məcbur olur. Onun yeni formulunda "Hartlənd" artıq Şimali Atlantikanı (Atlantik okeanın şimal hissəsini) da özünə daxil edirdi. Buraya Qərbi Avropa, İngiltərə və Karib hövzəsi ölkələri ilə birlikdə Amerika da daxil edilirdi.



Xəritə 4. ***H.Makinder "Hartlənd" nəzəriyyəsini iki dəfə - 1919 və 1943-cü illərdə nəzərdən keçirmişdir***
Mənbə: Дугин А.Г. Основы геополитики. Геополитическое будущее России. М., 1997.

"Demokratik ideallar və reallıq" əsərində Makinder Amerika Prezidenti *V.Vilsonu* və "On dörd bənd" proqramını tənqid edərək növbəti dünya müharibəsinin qarşısının alınması üçün Almaniya və Rusiyanın arasında yerləşən müstəqil ölkələrin blokunun yaradılmasını təklif etmişdir. Bu, praktik olaraq 1919-cu ilin fevralından 1933-cü ilin əvvəlinə qədər mövcud olmuş Veymar Almaniyasının bolşevik inqilabının qalib gəldiyi Rusiya ilə birləşəcəyi qorxusundan irəli gəlirdi. Lakin Qərbi "daha böyük təhlükədən" qorumaq üçün yaradılmış Finlandiya, Estoniya, Latviya, Litva, Polşa, Çexoslovakiya və Rumıniyadan ibarət bu "orta yarus" 1938-1939-cu illərdə tamamilə dağıldı. İkinci Dünya müharibəsi sanki Avropanın qərb və şərq hissələri arasında "ədalətli və pozulmaz" sərhədlərin yaradılması ilə sona yetmişdi və bunları "Hartlənd"in sərhədləri kimi qəbul etmək olardı. Lakin 1989-1990-cı illərdə bu ayırıcı xətt də dağıldı.

Makinderin əsas ideyası Almaniyanın Rusiya ilə ittifaqa girərək "Hartlənd"ə nəzarət etməsinə mane olmaq cəhdi idi. Belə ittifaq ideyası o dövrdə Almaniyanı mərkəzləşmiş dövlətə çevirən, "dəmir kansler" ləqəbi almış Bismarkın arzusu idi. O, hesab edirdi ki, Rusiya ilə ittifaq Almaniyaya dünyanın geniş təbii ehtiyatlarına, işçi qüvvəsinə, ötürücü texnologiyalara çıxış əldə etmək, gələcəkdə isə Britaniya imperiyasını darmadağın etmək üçün şərait yarada bilər.

Almaniya-Rusiya ittifaqı ideyasının təhlükəsi haqqında Makinder qısa və dəqiq ifadə söyləmişdir. O məhz bu ittifaqı nəzərdə tutaraq qeyd edirdi ki, *"Şərqi Avropaya nəzarət edən qüvvə elə dünyanı idarə edəcəkdir"*. Makinderin bu tezisi sonradan, xüsusən 1917-ci ildən sonra Qərb ölkələrində Rusiya ətrafında "sanitar sədd" ideyasının yaranmasına səbəb olmuşdur.

Ən maraqlısı budur ki, Makinder sadəcə nəzəri hipotezlər qurmur, almanpərəst əhval-ruhiyyəli bolşevik avrasiyaçıların zəifləməsinə yönəlmiş Atlantik tendensiya hesab etdiyi "ağlar hərəkatı"na Antanta tərəfindən beynəlxalq dəstəyin təşkil olunmasında fəal iştirak edirdi. O, İngiltərə hökumətindən dəstək əldə etməyə

çalışaraq "ağlar hərəkatı"nın rəhbərlərinə şəxsən özü məsləhət verirdi. Makinder Avrasiyanın mərkəzinə müqavimət göstərən *Kolçakın*[1] tarixi presedentini onun nəzarəti altında olan ərazilərə potensial "sahil zonası" kimi baxmaq üçün kafi əsas hesab edirdi. Belə düşünmək olar ki, o, nəinki Brest sülhünü, hətta Ribbentrop-Molotov paktını da peyğəmbərcəsinə uzaqgörənliklə sezirdi...

Makinder yazırdı: *"Əgər günlərin bir günü böyük qitə "məğlubedilməz armada"nın[2] əsasına çevrilmək üçün birləşərsə, onda dəniz qüvvələrinin aqibəti necə olacaq?"*

Makinder Versal sülh müqaviləsinin (1919) hazırlanmasında iştirak etmişdir.[3] Bu müqavilənin əsas geosiyasi ideyası Makinderin baxışlarının mahiyyətini əks etdirir. Müqavilə elə tərtib olunmuşdur ki, Qərbi Avropa dəniz qüvvələri (anqlosaks dünyası) üçün sahil bazası xarakteri daşıyır. Bununla bərabər, müqavilədə germanları və slavyanları bir-birindən ayıran, onların arasında strateji alyans bağlanmasına əngəl törədən limitrof (sərhəd) dövlətlər yaradılması nəzərdə tutulurdu.

Makinder modelində (*bax:* **xəritə 2**) "Hartlənd" - bu planetar məkan elementi Avropa və Asiya materikində yerləşən "daxili aypara"nı (Almaniya, Avstriya, Türkiyə, Hindistan və Çini) əhatələyir. Məhz bu geniş ərazilər "Hartləndi" qalxan kimi qoruyurlar, ancaq dəniz dövlətləri tərəfindən təcavüz obyekti də ola bilərlər. "Daxili aypara"dan sonra Britaniya, Cənubi Afrika, Şimali və Cənubi Amerika, Yaponiyadan ibarət "xarici aypara" gəlir.

[1] Kolçak Aleksandr Vasilyeviç (1874-1920) - Rusiyada əksinqilab rəhbərlərindən biri, admiral.

[2] İngiltərə 1588-ci ildə ispanların "məğlubedilməz armada" adlı gəmi donanmasını məhv etdikdən sonra dünyanın ən güclü dövlətinə çevrildi.

[3] Makinderin bütün cəhdlərinə baxmayaraq Versal sülh müqaviləsindən sonrakı şərait, ölkələrin maraqları xatirinə həyata keçirdikləri uğursuz manevrlər, yaradılan yeni dövlətlərarası münasibətlərin səmərəsizliyi XX əsrin 30-40-cı illərində faşizmin yeni dünya hökmranlığı uğrunda mübarizəyə başlaması ilə nəticələndi. Qərb dövlətləri *Hitleri* məmnun etmək üçün hakim mövqelərini 1938-ci ilin sentyabrında Münxendə Almaniyaya təslim etdilər və bütün planeti lərzəyə gətirən İkinci Dünya müharibəsinə rəvac verdilər. Fürerin əsas məqsədi də elə həmin Makinderin geosiyasi nəzəriyyəsindən çıxış edərək yeni torpaqlar ələ keçirməkdən və dünya hökmdarına çevrilməkdən ibarət idi.

Makinderə görə, daxili və xarici aypara dövlətləri, hər nə olursa olsun, həmişə böyük olan, lakin onu əhatələyən sərhədyanı və ada dövlətləri ilə müqayisədə məhdud mobilliyə malik məhvər dövlət ətrafında dövri hərəkət edirlər.

Makinder kəşf etdiyi qanunun universallığını sübuta yetirərək deyirdi ki, hətta "Hartlənd"in sahibi Rusiya deyil, ancaq, məsələn, Çin də olsa belə, əgər o, Yaponiyanın köməyi ilə Rusiya imperiyasını darmadağın edib ərazilərini tutsa, "Hartlənd"də, planetin məhvər regionu hüdudları çərçivəsində onun coğrafi mövqe üstünlüyü qalacaqdır.

Makinderin modelində digər çox mühüm struktur element Avropa, Asiya və Afrikadan ibarət olan və Dünya okeanı (World Ocean) ilə əhatələnən bütöv kontinental massivdir. Bu "Dünya adası" öz coğrafi mövqeyi hesabına mütləq insanlığın planetdə yerləşdiyi əsas yer olmalı idi. Buradan çıxan nəticəyə görə, "Dünya adası"nda hakim mövqeyə malik olan dövlət bəşəriyyətə hökmranlıq edəcəkdir. "Dünya adası"na hakim olmağın yolu isə "Hartlənd"ə sahib olmaqdan keçir. Makinder 1919-cu ildə yazırdı ki, "Hartlənd" "Dünya adası"nın istehkamıdır, fırtına isə "Hartlənd"in hüdudlarından başlayır. Lakin "Hartlənd" Avrasiya qitəsinin istehkamı içərisindən dünyanın azadlığına təhlükə yaratmaq məqsədi ilə qüvvəsini cəmləşdirmək üçün kifayət qədər möhkəm təmələ malikdir. Dəniz dövlətləri bu istehkama soxula bilmirlər, kənar ölkələrin cəhdləri isə həmişə uğursuzluqla yekunlaşmışdır.

Makinder "Dünya adası" hüdudlarında dünyanı idarə edəcək universal dövlətin yaranmasından qorxurdu. O həmin dövləti *T.Hobbsdakı,* Bibliya əjdahası *Leviafana* bənzədilmiş (İcvanın kitabında deyilir ki, dünyada ondan güclü heç nə yoxdur) mütləq hakimiyyətə malik dövlət kimi təsəvvür edirdi.

Nəhayət, Makinder öz məkani-struktur düzümündən çıxış edərək üç nəticə çıxarmışdır:

- ***Kim Şərqi Avropaya nəzarət edirsə, o, "Hartlənd"ə nəzarət edir;***

- ***Kim "Hartlənd"ə nəzarət edirsə, o, "Dünya adası"na nəzarət edir;***
- ***Kim "Dünya adası"na nəzarət edirsə, o, bütün dünyanı idarə edir.***

Makinderin tədqiqatları ənənəvi Britaniya siyasətinin Avropada qüvvələri saxlamaq məqsədlərinin korrektəsinə xidmət edirdi. Bu, onunla bağlı idi ki, heç bir kontinental dövlət Böyük Britaniyaya təhlükə yarada bilməsin. O yazırdı: **"Rusiya Dardaneli tutub, Osmanlı imperiyasını tabe etdirib Britaniya imperiyasının "mirvarisi" Hindistana çıxa bilər. Həmçinin Rusiya ilə ərəb ölkələrinin ittifaqına imkan vermək dəniz dövlətləri üçün olduqca təhlükəlidir"** [*bax:* Колосов, Мироненко, 2005, səh. 60].

Makinder okeanik yarımkürə ölkələrinin "okeanik azadlıq" ideyaları ilə "Hartlənd" hüdudlarına daxil olmasının modelini təklif edirdi. Bu cəhətdən strateji planda daha perspektivli ölkələr qismində, o, Türkiyənin və Fələstinin adını çəkərək, bunu həmin məkandan Avrasiyaya nəqliyyat əlaqələrinin mümkünlüyü ilə əsaslandırırdı. Makinder bu iki məkanda okeanik yarımkürənin kontinentə təsir dayaqlarını görürdü.

1943-cü ildə alim öz modelini xeyli dərəcədə yenidən işləyir. "Yer kürəsinin coğrafi tamamlanması və sülhə nail olma"[1] əsərində geosiyasi məsələlərə, xarici siyasət və blokdaxili qüvvələrin hərbi bölgüsündəki dəyişikliklərə yenidən qiymət verir. Gələcək qlobal geosiyasi münaqişələri, artıq deyildiyi kimi, o, "Mərkəzi materik" ilə "daxili aypara" ölkələri arasındakı ziddiyyətlərdə görürdü. *Yeni model SSRİ, ABŞ, Böyük Britaniya və Fransanın ittifaqını əks etdirirdi* (*bax:* **xəritə 3).** "Hartlənd" indi SSRİ ilə oxşarlıq kəsb edir, yəni "Qitələrarası okean" (Atlantik okeanın şimal

[1] İlk dəfə "Foreign affairs" jurnalında çap olunmuş bu tədqiqat əsərini siyasətşünaslar Makinderin vəsiyyətnaməsi və ya əqli irası *(Filip Moro-Defarj)* kimi də qiymətləndirirdilər. Burada o, bütün Qərb dövlətlərini həm sözdə, həm də əməldə "Atlantik sivilizasiya" konsepsiyasını müdafiə etməyə çağırırdı. Praktik olaraq Makinderin vəsiyyətləri Qərb dövlətlərinin sonrakı illərdə NATO hərbi-siyasi blokunu yaratması ilə həyata keçirildi.

hissəsi) və onun "hövzəsi" Karib hövzəsi ölkələri ilə birlikdə Qərbi Avropanın və Anqlo-Amerikanın (Makinderin terminologiyasında belə işlədilir) tərkibinə qatılaraq Şimali Atlantikaya birləşdirilir. O, bu məkanı planetin digər dayaq elementindən uzaqda və gələcəkdə Hindistan və Çinlə birlikdə digərinə müqabil ola bilən dayaq elementi kimi nəzərdən keçirirdi. Maraqlısı odur ki, Makinder artıq kontinental və dəniz dövlətlərini qarşı-qarşıya qoymurdu. Doğrudan da hər iki dünya müharibəsində bu dövlətlər qısamüddətli qarşılıqlı ittifaqlara qoşulurdular.

1943-cü ildə alim tərəfindən SSRİ-yə inamsızlıqla əlaqədar, ilk dəfə olaraq şimali atlantizm konsepsiyası irəli sürülmüşdür. Bununla yanaşı, o, yenidən özünün "Hartlənd" geosiyasi ideyasına qayıdır, yəni SSRİ-nin İkinci Dünya müharibəsindən sonrakı vəziyyətindəki proseslərdə ehtimallardan çıxış edirdi. Makinder qeyd edirdi ki, qitələrarası (Orta) okean ölkələri birləşərək "Hartlənd" hüdudlarında hakim vəziyyətdə olan dövlətin (SSRİ-nin) gücünü balanslaşdıra biləcəklər. Bir qədər sonra bu ideya müharibədən sonrakı mərhələnin strategiyasında, məsələn, NATO-nun yaradılması ilə həyata keçirilmişdir.

Tənqid dalğasına baxmayaraq, "Hartlənd" nəzəriyyəsi çoxsaylı geostrateji tədqiqatlarda mərkəzi rol oynayır.[1] *Z.Bjezinski, K.Qrey* və *R.S.Klayn* bu nəzəriyyənin təhlilinə xüsusi əsərlər həsr etmişlər. Makinderin ""Hartlənd"in möhkəmliyi tezisi" çox vaxt nüvə silahı daşıyan uzaqmənzilli ballistik vasitələrin meydana çıxması ilə əlaqədar tənqid edilmişdir.

[1] Müharibə tarixindən bu və digər ittifaqlar "Hartlənd" nəzəriyyəsinin başlıca müddəaları ilə ziddiyyət təşkil edirdi, bununla əlaqədar Makinderin ideyaları sərt tənqidə məruz qalırdı və sağlığında elmi ictimaiyyətin əksəriyyəti tərəfindən qəbul edilməmişdi.

2.4. ALFRED MEHEN. HƏRBİ STRATEGİYA NƏZƏRİYYƏÇİSİ VƏ SİYASƏTÇİ

2.4.1. "Dəniz qüdrəti" konsepsiyası



Alfred Mehen
(1840-1914)

Geosiyasətin yaradıcıları arasında ömrünün son illərində Nyuportdakı (ABŞ) hərbi dəniz kollecində hərbi donanma tarixi müəllimi işləmiş Amerika tarixçisi və dəniz donanması admiralı ser Alfred Tayer Mehen *(Alfred Thayer Mahan)* fərqlənirdi.

Mehen "geosiyasət" terminini işlətməmişdi, lakin onun dünya gücləri nisbətinin təhlili metodları geosiyasi yanaşmaya ciddi şəkildə uyğun gəlirdi. Mehen ilk dəfə olaraq dənizə çıxışı olan və kontinental dövlətlərin tarixdəki rolunu müfəssəl təhlil etmişdir. Praktiki olaraq onun bütün kitabları bir mövzuya - *"dəniz qüdrəti"* (Sea Power) mövzusuna həsr olunmuşdur. Mehenin adı isə bu terminin sinonimə çevrilmişdir. Əgər *Ratsel, Makinder* və *Hushofer* adətən kontinental dövlətlərə əhəmiyyət verirdilərsə, Mehen, əksinə, dəniz və ya okeanik dövlətlərin üstünlüyü konsepsiyasını irəli sürmüşdür.

Dəniz silahlı qüvvələrinin müharibələr tarixinə və dövlətlərin taleyinə birinci dərəcəli təsirini etiraf edərək Mehen dövlətlərin coğrafi vəziyyəti, "xalqın xarakteri" və "dəniz qüdrəti" arasında birbaşa əlaqəni müəyyən etməyə çalışmışdır. Mehen iddia edirdi ki, "sahilboyu millətlərin tarixi", ilk növbədə, "sahil xəttinin vəziyyəti, onun uzunluğu və keçdiyi şərtlərlə", həmçinin "əhalinin sayı və xarakteri ilə" müəyyən olunmuşdur. Sonuncu, "dəniz" və "quru" millətlərini müqayisə etdikdə rol oynayır: "əgər ispanlar "sərt simiclikləri" ilə seçilirdilərsə, ingilislər və hollandlar "öz təbiətlərinə görə işgüzar insanlar idi"; "müstəmləkələr yaratmaq bacarığı" ingilislərin "milli dahiliyi ilə" izah olunur.

Mehen üçün siyasətin əsas elementi ticarətdir. Hərbi əməliyyatlar yalnız planetar ticarət sivilizasiyası yaratmaq üçün daha əlverişli şəraiti təmin etməlidir. Mehen iqtisadi dövrəni 3 aspektdə görürdü:

1) məhsul istehsalı və onların mübadiləsi tələbatı;

2) bu mübadiləni yerinə yetirmək üçün gəmiçiliyin inkişafı;

3) müstəmləkələrin ələ keçirilməsi məqsədilə gəmiçilik əməliyyatlarının genişlənməsi və gəmi limanları üçün təhlükəsizliyin təmin edilməsi [Mahan, 1890, p. 60].

Mehen belə hesab edir ki, dövlətin mövqeyi və geosiyasi statusu 6 meyar əsasında təhlil edilməlidir:

1) Dövlətin coğrafi mövqeyi, onun dənizlərə açıqlığı, digər dövlətlərlə dəniz kommunikasiyalarının mümkünlüyü. Quru sərhədlərinin uzunluğu, strateji əhəmiyyətli regionlara nəzarət etmək imkanı. Öz donanması ilə düşmən ərazisinə təhlükə yaratmaq qabiliyyəti.

2) Dövlətin "fiziki konfiqurasiyası", yəni dəniz sahillərinin fiziki-coğrafi quruluşu (təbii sərvətləri və iqlim şəraiti) və orada yerləşən limanların sayı. Ticarətin inkişafı və strateji baxımdan müdafiə olunma dərəcəsi bundan asılıdır.

3) Ərazinin ölçüləri. Bu kəmiyyət sahil xəttinin uzunluğuna bərabərdir.

4) Əhalinin sayı. Bu, dövlətin gəmilər tikmək və onlara xidmət etmək qabiliyyətinin qiymətləndirilməsi üçün zəruridir.

5) Milli xarakter. Xalqın ticarətlə məşğul olmaq qabiliyyəti, belə ki, "dəniz qüdrəti" dinc və genişmiqyaslı ticarətə əsaslanır.

6) Hökumətin siyasəti və milli idarəçiliyin xüsusiyyətləri. Ən yaxşı təbii və insan resurslarının qüdrətli dəniz qüvvələri yaradılmasına istiqamətləndirilməsi bundan asılıdır [yenə orada].

Bu bəndlərin siyahısından aşkar görünür ki, Mehen öz geosiyasi nəzəriyyəsini yalnız "dəniz qüdrəti"ndən və onun maraqlarından çıxış edərək qurur. Mehen bildirirdi ki, **"dənizə sahib olmaq, onu nəzarətdə saxlamaq və ondan səmərəli istifadə etmək indi və**

həmişə dünya tarixində böyük amil olacaqdır" *[Mahan, 1890].* O yazırdı ki, romalıların dənizdə hökmranlığı *Hannibalı* Qalliyanı keçmək üçün təhlükəli və uzun yürüşə məcbur etmişdi. Bu yürüşdə o öz qoşununun yarısını itirmişdi.

Mehen üçün "dəniz qüdrəti"nə nümunə qədim Karfagen, bizə zaman etibarilə yaxını isə - XVII və XIX əsrlərin Britaniyası idi. "Dəniz qüdrəti" anlayışı onun üçün "dəniz ticarəti"nin sərbəstliyinə əsaslanır, hərbi dəniz donanması isə yalnız bu ticarətin təminatına xidmət edir. Mehen daha irəli gedərək "dəniz qüdrəti"ni sivilizasiyanın xüsusi - ən yaxşı və ən səmərəli tipi, buna görə də dünya ağalığına layiq sivilizasiya hesab edir.

1890-cı ildə Mehen özünün ilk, demək olar ki, dərhal hərbi strategiya sahəsində klassik əsərə çevrilən *"Dəniz qüdrətinin tarixə təsiri, 1660-1783"* kitabını çap etdirdi. Kuba və Filippinin Birləşmiş Ştatlar tərəfindən ilhaqına gətirib çıxaran Havay adalarının ilhaqı və İspaniyaya qarşı müharibə dövründə Mehen öz əsəri ilə ABŞ-da çıxış etmişdir. Mehen hələ o zaman ABŞ hərbi dəniz donanmasının kapitanı idi. Sonra kiçik fasilələrlə digər əsərləri ərsəyə gəldi: *"Dəniz qüdrətinin Fransız inqilabına və imperiyaya təsiri, 1793-1812", "Amerikanın hazırda və gələcəkdə dəniz qüdrətində marağı", "Asiya problemi və onun beynəlxalq siyasətə təsiri"* və *"Dəniz qüdrəti və onun müharibəyə münasibəti"*. İlk iki kitab dəniz müharibələri mühazirələrindən yaranmışdır.

"Dəniz qüdrətinin tarixə təsiri" kitabında Mehen sübut etməyə çalışmışdır ki, Avropanın və Amerikanın tarixi, ilk növbədə, hərbi dəniz donanmasının inkişafı ilə şərtlənmişdir. O yazırdı: ***"Dünyada siyasət əsasən zamanın insanlara bəxş etdiyi enerji və ruh yüksəkliyindən asılı olaraq, ölkələri idarə edən rəhbərlərin xarakteri və təşəbbüsü ilə dəyişir: lakin sahilboyu millətlərin tarixi daha çox hökumətlərin bacarığı və səriştəsi ilə deyil, yerləşmə şərtləri, sahil xəttinin əlverişliliyi və uzunluğu, xalqın sayı və xarakteri, bir sözlə, təbii amillərlə müəyyən olunur"*** *[Məxəu, 1941, cmp. 23].*

Bu "təbii şərtlər" öz növbəsində, "milli tale" baxımından həlledici əhəmiyyəti olan güclü hərbi dəniz donanması yaradılmasını tələb edir. Mehenin bütün əsərlərində israrla irəli sürülən əsas ideyanın mahiyyəti, "dəniz qüdrəti"nin ölkə və xalqların tarixi taleyində həlledici əhəmiyyətindən ibarət idi. Böyük Britaniyanın XIX əsrin sonlarında digər dövlətlər üzərində üstünlüyünü "dəniz qüdrəti"ylə izah edən Mehen yazırdı: **"Dənizlərdən lazımi şəkildə istifadə, onlar üzərində nəzarət və bunun köməyi ilə [ölkələrin] zənginliyi akkumulyasiya etməsi (yığması, toplaması - *N.M.*) mübadilə zəncirinin yalnız bir halqasıdır... Lakin bu, mərkəzi halqadır".**

Mehen dəniz qüdrətinin əsas parametrlərini müəyyən edən şərtləri ayırırdı: ölkənin coğrafi vəziyyəti, onun təbii resursları və iqlimi, ərazinin uzunluğu, əhalinin sayı, milli xarakter və dövlət quruluşu. Mehen hesab edirdi ki, bu amillərin əlverişli birliyi zamanı N+MM+NB=SP formulu meydana çıxır, yəni hərbi donanma + ticarət donanması + hərbi dəniz bazaları = dəniz qüdrəti. O, öz fikrini bu şəkildə yekunlaşdırırdı: **"Böyük sayda olsa da, düşmənin ayrı-ayrı gəmilərinin və konvoylarının ələ keçirilməsi yox, dənizdə böyük üstünlük, onun səthindən düşmən qüvvələrinin qovulması və onları qaçmağa sövq etmək millətin maliyyə qüdrətini laxladır. Bu cür üstünlük okean üzərində nəzarətə və düşmən sahillərindən bizə sarı hərəkət edən ticarət gəmilərinin yolunu kəsməyə imkan verir. Bu cür üstünlük yalnız böyük donanmalar olduqda əldə edilə bilər"** *[bax: Мэхэн, 1941, səh. 110]*. Mehen bu cür postulatlardan çıxış edərək Amerikanın o dövrün ən böyük və güclü dövlətləri ilə bərabər rəqabət apara bilən qüdrətli hərbi dəniz dövlətinə çevrilməsinin zəruriliyini əsaslandırırdı.

2.4.2. ABŞ-ın dünyanı fəth etməsi. "Manifest Destiny"

Mehen 1823-cü ildə Amerika və Avropa ölkələrinin bir-birinin işlərinə müdaxilə etməməsi prinsipini bəyan etmiş, eləcə də ABŞ-ın qüdrətinin artmasının yaxınlıqdakı ərazilərə ekspansiyadan asılı olduğunu bəyan etmiş Amerika Prezidenti *C.Monronun* (1758-1831) alovlu tərəfdarlarından idi. Mehen hesab edirdi ki, Amerikanın taleyi "dəniz taleyidir" və bu "Manifest Destiny" ("özünü göstərən tale", yəni "tale yazısı") *[Weinberg, 1935]* birinci mərhələdə bütün Amerika qitəsinin strateji inteqrasiyasından, sonra isə dünyada onun hökmranlığının bərqərar olmasından ibarətdir.

Mehenin az qala peyğəmbər uzaqgörənliyinə haqq qazandırmaq lazımdır. Onun zamanında ABŞ hələ qabaqcıl dünya dövlətləri sırasına çıxmamışdı, onun hətta "sivilizasiyalı dəniz tipi" də bəlli deyildi. Hələ 1904-cü ildə Makinder "Tarixin coğrafi oxu" məqaləsində ABŞ-ı yalnız dəniz İngiltərəsinin strateji müstəmləkə davamı kimi "xarici aypara" tərkibinə daxil olan "quru dövlətlərinə" aid etmişdi. Makinder yazırdı: "ABŞ təzəlikcə Şərq dövlətinə çevrilmişdir. Avropada güc balansına ABŞ bilavasitə deyil, Rusiya vasitəsilə təsir göstərir". Makinderin həmin əsərinin yaranmasından on il əvvəl admiral Mehenin məhz Amerika üçün planetar gələcək, dünyanın taleyinə birbaşa təsir göstərən aparıcı dəniz dövləti rolu vəd etməsi səciyyəvidir.

"Amerikanın hazırda və gələcəkdə dəniz qüdrətində marağı" kitabında Mehen iddia edirdi ki, **Amerikanın dünya dövləti olması üçün o, aşağıdakıları yerinə yetirməlidir:**

1) Britaniya dəniz dövləti ilə fəal əməkdaşlıq etməli;

2) Almaniyanın dəniz iddialarına mane olmalı;

3) Yaponiyanın Sakit okeandakı ekspansiyalarını diqqətlə izləməli və ona əks-təsir göstərməli;

4) Avropalılarla birlikdə Asiya xalqlarına qarşı birgə fəaliyyətləri koordinasiya etməli" [Mahan, 1897, p.92].

Mehen ABŞ-ın taleyini "xarici aypara"nın periferiya dövlətlərinin ümumi kontekstində passiv iştirakda yox, iqtisadi, strateji və hətta ideoloji münasibətlərdə aparıcı mövqe tutmaqda görürdü.

Makinderdən asılı olmayaraq, Mehen də **"dəniz sivilizasiyaları" üçün başlıca təhlükə** barədə həmin nəticələrə gəlmişdir. Bu təhlükəni Avrasiyanın kontinental dövlətləri - ilk növbədə, Rusiya və Çin, ikinci növbədə, Almaniya təşkil edir. Rusiya ilə - "Qərbdə Kiçik Asiyadan Şərqdə Yaponiyaya qədər geniş bir ərazini tutan

Rusiya imperiyasının bütöv kontinental kütləsi ilə mübarizə" əsas uzunmüddətli strateji vəzifə idi.

Mehen 1861-1865-ci illərdə Şimali Amerikada vətəndaş müharibəsi dövründə amerikalı general *Mak-Klellanın* tətbiq etdiyi "anakonda" prinsipini planetar səviyyəyə keçirmişdir. Bu prinsip düşmən ərazilərinin dənizdən sahil xətləri boyunca mühasirəsindən ibarətdir ki, bu da tədricən rəqibi strateji taqətsizliyə gətirib çıxarır. Mehen hesab edirdi, madam ki, dövlətin qüdrəti onun dəniz gücünə çevrilməsi potensialı ilə müəyyən olunur, onda qarşıdurma zamanı bir nömrəli strateji vəzifə bu çevrilmənin rəqib düşərgəsində baş verməsini önləməkdir. Bu səbəbdən tarixi qarşıdurmada Amerikanın vəzifəsi 6 əsas bənd üzrə (yuxarıda sadalananlar) öz mövqelərini gücləndirmək və elə həmin bəndlər üzrə rəqibi zəiflətməkdən ibarətdir. Amerikanın özünün geniş sahilləri nəzarət altında olmalıdır, düşmənin müvafiq zonalarını isə bütün vasitələrdən istifadə etməklə kontinental hissədən təcrid etməyə çalışmaq lazımdır. Sonra isə Monro doktrinasına (ərazi ekspansiyası hissəsində) əsasən dövlətin qüdrətini artırdığına görə düşmənin analoji inteqrasiya qurumları yaratmasının qarşısını almaq məqsədəuyğundur. Mehenə görə, kontinental kütləni onun nəzarətindən çıxarılmış sahil zonaları hesabına sıxaraq və mümkün qədər dəniz sularına çıxışlarını bağlayaraq Avrasiya dövlətlərini (Rusiya, Çin, Almaniya) "anakonda"nın halqalarında boğmaq lazımdır.

Mehen planetar geosiyasi strukturları ayıranlar içərisində birincilərdəndir. O, cənub sərhədi Süveyş və Panama kanalları ilə üst-üstə düşən "kontinental Şimal yarımkürəsi"nin dünya siyasətində və nüfuz mübarizəsində hakim olmasını yaxşı bilirdi. Mehenə görə, bu yarımqitənin içərisində Avrasiya hüdudları çərçivəsində məkan elementi hakim olan kontinental dövlət Rusiyadır. O, Avrasiya daxilində şimal yarımkürəsinin daha mühüm tərkib hissəsi qismində Rusiyanın - Asiyanın bu hökmran kontinental dövlətinin mövqeyini qəbul edirdi. Asiyada 30-cu və 40-cı paralellər arasındakı zonanı Rusiyanın quru gücü ilə İngiltərənin dəniz qüdrəti arasında münaqişə zonası kimi görürdü. Onun fikrincə, bu

regionda hakimlik Avrasiyanın periferiyası boyu vacib bazalar sırası vasitəsilə saxlanıla bilər. Mehen ehtimal edirdi ki, nə zamansa Birləşmiş Ştatlar, Böyük Britaniya, Almaniya və Yaponiya Rusiya və Çinə qarşı birləşəcəklər - ehtimal Amerika admiralının uzaqgörənliyini göstərir. Bütövlükdə isə, Mehen Birləşmiş Ştatları Avropa sivilizasiyası və gücünün qərbə uzanmış avanpostu (ön mövqe, səndənə) kimi görürdü. O, ABŞ-ı gələcəyin dünya dövləti hesab edərək yorulmadan, şövqlə Amerikanı imperiya təyinatına müvafiq olan hərbi dəniz qüdrətinə malik olmasına çağırırdı: *"Hücum əməliyyatlarına qabil donanma ABŞ-a Karib hövzəsində və Sakit okeanda danılmaz üstünlük təmin edəcəkdir"*.

Mehen təkcə hərbi strategiya nəzəriyyəçisi deyildi, o həm də siyasətdə fəal iştirak edirdi. Məsələn, o, dəfələrlə ona məsləhət üçün müraciət etmiş *Henri Kebot Loc* (1850- 1924) və Amerika prezidentləri *Uilyam Mak-Kinli* (1843-1901) və *Teodor Ruzvelt* (1858-1919) kimi siyasətçilərə güclü təsir göstərmişdir. *Teodor Ruzvelt* hətta onunla həmrəyliyini nəzərə çarpdıraraq özünü Mehenin şagirdi sayırdı. "Dəniz qüdrətinin tarixə təsiri" əsəri isə Üçüncü reyxin hərbi dəniz strategiyasının formalaşmasında rol oynamışdır.

Bundan başqa, əgər bütün XX əsr boyu Amerika hərbi strategiyası nəzərdən keçirilsə, görərik ki, bu, Mehen ideyalarına bilavasitə müvafiq qurulmuşdur. Özü də əgər Birinci Dünya müharibəsində bu strategiya ABŞ-a nəzərəçarpacaq uğur gətirmişdisə, İkinci Dünya müharibəsində effekt çox böyük idi. SSRİ ilə "soyuq müharibə" isə "dəniz qüdrəti" strategiyasının uğurunu qəti şəkildə möhkəmləndirdi. 1981-ci ildə ABŞ-ın hərbi-siyasi rəhbərliyi *"ön sərhədlər"* konsepsiyasını hazırladı, qəbul etdi, sonra isə həyata keçirdi. Onun əsas məqsədi "anakonda" prinsipinin tətbiqindən, yəni SSRİ-nin kontinental gücünü təcrid etməkdən, onun silahlı qüvvələrini ərazisinin bütün perimetri boyu sıxışdırmaqdan, daxili halqada isə daimi nüvə-raket təhlükəsi yaratmaqdan ibarət idi.

Eyni zamanda, Mehen ABŞ akademik dairələrinin bir çox nümayəndələri barədə şikayətlənərək deyirdi ki, onlar onu anlamır

və "köhnəlmiş" - ABŞ-ın coğrafi mövqeyinin yalnız müdafiə üçün əlverişli olduğu haqda baxışlara sadiqdirlər. Buna baxmayaraq, 1951-ci ildə Nyuportda (Roud-Aylend) hərbi dəniz akademiyasında hərbi tarix kafedrası yaradılmışdır və bu akademiya admiral Mehenin ideyaları arxasınca gedərək onun "dəniz qüdrəti" elminin davamçısı olmuşdur.

Mehenin ideyaları bütün dünyada qəbul edilmiş və bir çox Avropa strateqlərinə təsir göstərmişdir. Hətta kontinental Almaniya da admiral *Tirpitsin* şəxsində Mehenin tezislərini nəzərə almış və öz donanmasını fəal surətdə inkişaf etdirməyə başlamışdır. 1940 və 1941-ci illərdə Mehenin iki kitabı SSRİ-də çap edilmişdir.

Mehenin 1890-cı ildə çapdan çıxmış "Dəniz qüdrətinin tarixə təsiri, 1660-1783" kitabı böyük uğur qazanmışdır. O, təkcə ABŞ və İngiltərədə 32 dəfə nəşr edilmiş və bütün Avropa dillərinə tərcümə olunmuşdur. İngilis resenziyaçıları Mehenin əsərlərini "Britaniya əzəmətinin İncili", "dəniz tarixinin fəlsəfəsi" adlandırırdılar. Almaniya imperatoru *II Vilhelm* iddia edirdi ki, Mehenin əsərlərini əzbərləməyə çalışır və onları Almaniyanın bütün hərbi və gəmiçilik kitabxanalarına göndərmək sərəncamı vermişdir. Bu kitablar Yaponiyada çox böyük uğur qazandı. Rusiyada da Mehen ideyalarının tətbiqinə cəhd edilmişdir.

Qeyd etmək lazımdır ki, Birinci Dünya müharibəsi illərində "anakonda" strategiyasından Antantanı dəstəkləmək, İkinci Dünya müharibəsi illərində "Mərkəzi Avropanı" və Yaponiyanı boğmaq, "soyuq müharibə" illərində isə SSRİ, Kuba, Varşava Müqaviləsi Təşkilatı ölkələrinə qarşı mübarizə aparmaq üçün geniş istifadə olunmuşdur.

Faktiki olaraq, NATO-nun, eləcə də SSRİ-ni çəkindirməyə yönəlmiş başqa blokların strategiyasının əsas cizgiləri ("qabağınalma" konsepsiyası strateji və geosiyasi baxımdan "anakonda" konsepsiyasının eynidir), ASEAN, ANZYUS, CENTO, SEATO kimi blokların konsepsiyaları admiral Mehenin əsas tezislərinin bilavasitə inkişafıdır və onu bu səbəbdən ***müasir atlantizmin "atası"*** *adlandırmaq olar.*

2.5. KARL HAUSHOFER. ALMAN DİRÇƏLİŞİNİN CARÇISI

2.5.1. Müharibə və təfəkkür



Karl Haushofer
(1869-1946)

Geosiyasətin uzun müddət təkcə "yalançı elm" deyil, həm də "insana nifrət elmi", "faşist", "adamyeyən" nəzəriyyə hesab edilməsi məhz Karl Haushoferin "xidmətidir".

Karl Ernst Haushofer *(Karl Ernst Haushofer)* Münxendə professor ailəsində anadan olmuşdur. Peşəkar hərbiçi olmağı qərara almış Haushofer iyirmi ildən çox orduda zabit kimi xidmət etmişdir. 1908-1910-cu illərdə o, Yaponiyada və Mancuriyada Almaniyanın hərbi attaşesi olmuşdur. Burada yapon imperatorunun ailəsi və ən yüksək kübar dairələrin nümayəndələri ilə tanış olmuşdur. Səhhətinin zəif olması üzündən Haushofer uğurlu hərbi karyerasını (o, 50 yaşında ikən general-mayor, İkinci Dünya müharibəsi zamanı briqada generalı rütbəsi almışdı) yarımçıq kəsməyə məcbur olmuş və 1911-ci ildə Almaniyaya qayıdaraq ömrünün sonuna qədər orada yaşamışdır. Elmlə məşğul olan Haushofer Münxen Universitetində doktorluq dərəcəsi almışdır. Bu vaxtdan etibarən o, bütövlükdə, geosiyasətə, o cümlədən Sakit okean regionunun siyasətinə həsr edilmiş əsərlər yazır və müntəzəm olaraq nəşr etdirir. Onun ilk kitabı *"Day Nihon"* ("Böyük Yaponiya") Yaponiyanın geosiyasətinə həsr edilmişdir. Kitabda alimin əsas fikirləri yer almışdır.[1] Müəllifin *"Sakit okeanın geosiyasəti"* (1925),

[1] Bioqrafların fikrincə, Haushoferin coğrafiyaçı və geosiyasətçi kimi yetişməsində Cənub-Şərqi Asiyadakı müxtəlif diplomatik tapşırıqlar və Bavariya Hərbi Nazirliyi tərəfindən Yaponiyadakı xidməti böyük rol oynamışdır. Yaponiya mərhələsi onun birinci kitabının (1913) və professor *Erix fon Driqalskinin* (1865-1949) rəhbərliyi altında Münxen Universitetində hazırladığı doktorluq dissertasiyasının yazılması ilə bitmişdir. Hər iki əsər Yaponiya imperiyasının, yəni Haushoferin ifadəsi ilə "Şərqin Prussiyası"nın inkişafının coğrafi əsaslarını açmış və Almaniya-Yaponiya ittifaqının zəruriliyini göstərmişdir.

"Panideyaların geosiyasəti" (1931), *"Sərhədlərin coğrafi və siyasi əhəmiyyəti"* (1939), *"Kontinental blok"* (1941) adlı fundamental əsərləri elmdə və siyasət aləmində güclü rezonans doğurmuşdur.

1924-cü ildən başlayaraq 20 il müddətində Haushofer çox böyük beynəlxalq əhəmiyyət kəsb edən "Geopolitik" adlı mühüm geosiyasi jurnal nəşr etmişdir. Sonralar bu nəşrin adı dəyişdirilərək "Zeitschrift für Geopolitik" adlandırılmışdır. Haushofer öz məqalələrinin çoxunu məhz bu jurnalda çap etdirirdi.

Haushoferin kifayət qədər geniş nasist əlaqələri var idi. Məsələn, *Rudolf Hesslə* ("üç nömrəli nazi") sıx münasibətləri var idi, *Ribbentropla, Göbbelslə, Himmlerlə,* az-az olsa da *Hitlerin* özü ilə əlaqə saxlayırdı. **Onun "Mayn Kampf" ("Mənim mübarizəm") əsərinin yazılmasında *Hesslə* yanaşı iştirakı barədə dəqiq olmayan dəlillər mövcuddur. Lakin konseptual təhlil göstərir ki, Haushoferin geosiyasi baxışları ilə *Hitlerin* bəsit irqçi təbliğat passajları arasında ciddi fərq vardır.**

1923-cü ildə uğursuz "pivə qiyamından"[1] sonra *Hess Hitlerlə* birlikdə Alp dağı ətəyində Haushoferin şəhərkənarı evində gizlənirdilər. Sonra isə Münxen həbsxanasında cəza çəkən zaman Haushofer tez-tez onlara baş çəkmişdir. Hitler elə onların uzun-uzadı söhbətləri zamanı geosiyasətlə tanış olmuş, hakimiyyətə gəldikdə isə bunu alman ideologiyasının bir hissəsinə çevirmişdir.

Ədəbiyyatlarda belə fikir dolaşır ki, 1930-cu illərdə Haushoferin nasist siyasi elitası ilə bütün əlaqələri 1934-cü ildən Xarici İşlər Nazirliyində ştatdankənar tədqiqatçı işləyən böyük oğlu *Albrext* vasitəsilə həyata keçirilirdi.

Haushoferin nasist rejiminə siyasi təsiri iki sınaqdan keçərək nəticədə əhəmiyyətini itirmişdir. Əvvəla, *R.Hessin* İngiltərəyə uğursuz

Bu, Haushofer "avrasiyaçılığının" ("kontinental blok" nəzəriyyəsi) başlanğıc ideyaları idi. O, Yaponiyanı kontinental düşüncə tərzinə malik ölkələrə aid edərək, onu digər ada dövləti - özünü həmişə qitədən ayırmağa çalışan Böyük Britaniyanın tam əksi kimi nəzərdən keçirmişdir. Haushoferə görə, Yaponiya mədəniyyət və yazısına görə qitəyə borcludur.

[1] Pivə qiyamı və ya Hitler-Lüdendorf qiyamı (alm. Hitler-Ludendorff-Putsch) - Münxendə 1923-cü il noyabrın 9-da Hitlerin rəhbərliyi altında nasional sosialistlərin "Kampfund" təşkilatı və general *Lüdendorfun* birgə səyi ilə təşkil edilmiş hakimiyyəti ələ keçirmək uğrunda uğursuz qiyam (putç).

iki missiyası olmuşdur. Birincisi, iki "Şimal milləti"ni birləşdirmək məqsədilə 1941-ci ildə Böyük Britaniyaya uçuş həyata keçirmək ideyası, - onun iddia etdiyi kimi, Haushoferə məxsusdur,[1] ikincisi, K.Haushoferin oğlu *Albrextin* iştirak etdiyi Hitlerə iyul (1944) qəsdinin pozulması. Nəticədə, Albrext müharibənin qurtarmasına bir neçə gün qalmış, 1945-ci il aprelin 23-də Moabit həbsxanasından çıxarılmış və yolda öldürülmüşdür. Haushofer özü iyul qəsdindən sonra hökumət orqanları tərəfindən həbs edilmiş və bir müddət Dahau ölüm düşərgəsinə salınmışdır. Haushofer oğlunun güllələnməsindən sonra nasizmlə əlaqədar illüziyalarını tamamilə itirmiş, Nürnberqdə dindirmələr nəticəsində ağır ruhi sarsıntı keçirmişdir. **1946-cı ildə taleyin zərbələrinə və bütün ümidlərinin puç olmasına dözməyən Karl Haushofer və onun arvadı *Marta* intihar etdilər.**

Bütövlükdə, onun nasizm ilə münasibətləri mürəkkəb idi. **Baxışları bəzi məqamlarda nasional-sosialistlərin baxışları ilə yaxın olsa da, bəzi məqamlarda onlardan əsaslı şəkildə fərqlənirdi.** Nasistlərin hakimiyyətdə olduğu dövrlərdən və şəxsi münasibətlərdən asılı olaraq Haushoferin Üçüncü reyxdə mövqeyi də dəyişirdi.

1936-cı ilə qədər ona xoş münasibət bəslənirdi (yaşca ondan kiçik olan dostu *Hessin* himayəsi özünü göstərirdi), lakin sonra bu münasibətlərdə soyuqluq yarandı. *Hess* İngiltərəyə köçüb gedəndən sonra Haushofer arzuedilməz şəxslər sırasına düşdü, oğlu *Albrext* Hitlerə sui-qəsddə iştirak etməkdə ittiham üzrə edam edilməndən sonra isə Haushofer özü az qala "xalq düşməni" hesab edilirdi.

Vəziyyətinin bu cür ikimənalı olmasına baxmayaraq, müttəfiqlər Haushoferi "görkəmli nasistlərdən" biri hesab edirdilər.

Geosiyasətə aid dərslik və monoqrafiyalarda Haushoferi elmdən imtina etdiyi və Üçüncü reyxin təcavüzkar xarici siyasətini əsaslandırmaq və buna bəraət verməklə məşğul olduğu üçün qeyd-şərtsiz

[1] Konformizm *(mövcud sosial qaydanın, hakim fikirlərin passiv şəkildə qəbul edilməsi)* və siyasi məqsədlərə uyğunlaşma K.Haushoferdə elmi ideyaların dəyişməsi ilə özünü göstərir. Lakin Avropa "qardaş xalqları" ideyası 1941-ci ildən çox-çox əvvəl inkişaf etmişdir. Məsələn, geosiyasətçi *Erix Obst* (1886-1981) Anqlo-saksiyanı Almaniya, Böyük Britaniya və ABŞ kimi şərh edərək nəzəri cəlb edən "Anglosaxia contra mundum" şüarını elmi cəhətdən (lakin daha çox rasistcəsinə) əsaslandırmağa cəhd göstərmişdir *[Ebeling, 1997, p. 108].*

ittiham etmək qəbul olunub. Bu yanaşma qanunauyğundur. Lakin alman geosiyasətçilərinin yaratdıqları ideyanın qiymətləndirilməsi üçün qətiyyən kifayət deyildir.

Almaniyanın geosiyasəti nəzəriyyə kimi əsasən, yaradıcısı və redaktoru K.Haushofer olan "Zeitschrift für Geopolitik" jurnalında əks etdirilmişdir. Onun üçün hakim anlayışlar *Ratselin* "həyati məkan"ı (Lebensraum) və "məkan güc amili kimi" ideyası idi, bunlara görə Almaniyanın başlıca iqtisadi və siyasi problemləri Versal müqaviləsindən (1919) qalmış "ədalətsiz və dar sərhədlər"lə bağlıdır. Haushofer bir çox müasirləri kimi sosial-darvinist oriyentasiyaya bağlı idi, geosiyasəti isə dövlətin zəkası (idrakı) sayırdı.

Lakin bu geosiyasətçinin yaradıcılığının müəyyən mərhələsində aparıcı nasist siyasətçiləri ilə şəxsi münasibətlərindən uzaqlaşmaq, Haushofer ideyalarının Üçüncü reyxin hərbi strategiyasında həlledici roluna şübhə ilə yanaşmaq üçün səbəblər aşkar etmək olar.

İlk növbədə, Haushoferin tərəfdar olduğu *Ratsel* materializmi ilə nasional-sosializmin uydurma irqi üstünlük ideyasından qaynaqlanan idealist dünyagörüşü arasında prinsipial fərq olduğu qeyd edilməlidir.

Haushoferin həyat və yaradıcılığını tədqiq edən *F.Ebelinq* bildirir ki, Haushofer özünü idraka (mənəvi fəaliyyyət sahəsi və düşüncəyə) həsr etmişdir və qazandığı biliklərdən istila, müharibə və imperializm üçün istifadə etməyə cəhd göstərmirdi. Amma geosiyasətin təmiz elm ola bilməməsi, onun tədqiqat obyektlərinin eyni zamanda siyasət, hakimiyyət uğrunda mübarizə elementləri olması səbəbindən Haushofer nasist hökumət nümayəndələri ilə münasibətdə lazımi məsafə saxlaya bilməmişdir *[Ebeling, 1997, p. 243-244]*.

İngilis geosiyasətçisi *C.Parker* Haushoferin öz sözlərinə əsasən deyir ki, sırf elmi və tətbiqi elmlərin sərhədləri asanlıqla kəsişir və o, bəzən bu sərhədləri keçmişdir *[Parker, 1998, p. 33]*. Sözsüz, nasional-sosialist və geosiyasət ideyalarının əsaslandıqları başlıca müddəalar əhəmiyyətli dərəcədə fərqlənirlər. Lakin, Haushoferin geosiyasəti nasist rejim tərəfindən xüsusilə təbliğat məqsədilə istifadə edilmişdir. *Ebelinq* qeyd edir ki, *Hitler* 1938-ci ilin payızınadək Haushofer ideyalarını əldə rəhbər tutmuş, sonra isə alimin yaratdığı əsaslardan tamamilə geri çəkilmişdir *[yenə orada, səh. 243]*.

Haushoferin və onun tərəfdarlarının ideologiyalarının obyektiv çıxış nöqtələrini ümumi şəkildə xarakterizə edərkən, hələ İkinci reyxdə Prussiya geosiyasi nöqteyi-nəzərdən düşmən əhatəsi mərkəzində özünəməxsus silahlı düşərgə kimi görünür. *O.Bismark* deyirdi ki, Almaniyanın yeganə təsirli tərəfi onun ordusudur. Artıq Almaniyanın başçılıq edəcəyi geniş və qüdrətli Mərkəzi (Orta) Avropa (Mitteleuropa) konsepsiyası formalaşmışdı. Digər xalqlara xarici təhlükədən almanlar tərəfindən müdafiə olunma təklif edilirdi. "Kiçik Almaniyanın" *(Kleindeutschland)* Almaniya imperiyasına birləşdirilməsi ideyasına əsaslandıqda 1871-ci ildə ölkənin xarici siyasətində mühüm element Almaniya hökumətinin "Böyük Almaniyanın" (Grossdeutschland) tərkibinə qatmaq istədiyi ərazilər arasında əlaqələrin gücləndirilməsi olmuşdur. "Böyük Almaniya" Mərkəzi Almaniya və Avstriya-Macarıstan hesab olunurdu. Geosiyasi doktrina bundan ibarət idi ki, Almaniya yalnız Mərkəzi Avropa dövlətləri koalisiyasının əsas hissəsi olduqda təhlükəsiz qala bilər.

Məlum olduğu kimi, *Ratsel* və onun davamçıları üçün milli dövlətçiliyin inkişafı ilə kifayət qədər məkana malik olmaq arasında müəyyən bağlılıq mövcud idi. Avropada bu məqsədə çatmağın yeganə üsulu ərazi ekspansiyası hesab olunurdu. Bu doktrina son nəticədə *"Drang nach Osten"*ə[1] çevrildi. Lakin, Haushoferin nöqteyi-nəzərinə görə, Almaniyanın Birinci Dünya müharibəsindəki məğlubiyyətindən sonra "Orta Avropa" konsepsiyası alman imperiyasının məqsədlərinin həyata keçməsi üçün kifayət deyildi.

Almaniya real həyatda Quru və Dəniz münaqişəsi ilə yox, onların gözlənilməz alyansı (SSRİ, ABŞ, Böyük Britaniya) ilə qarşılaşdı. Onun qarşısında, əslində, həyata keçirilə bilməyən məsələ - eyni vaxtda suda və quruda üstünlük qazanmaq istəyi dururdu. Haushofer hesab edirdi ki, buna nə qüdrətli Dəniz dövlətləri, nə qüdrətli Quru dövlətləri heç vaxt nail ola bilməyiblər.

[1] "Dranq nax Osten" (alm. *"Drang nach Osten"* - Şərqə hücum) - alman feodallarının, sonra isə burjua-mülkədar və imperialist Almaniyasının Mərkəzi, Şərqi və Cənub-Şərqi Avropa ölkələri barəsində işğalçılıq siyasətini xarakterizə edən ifadə. IX əsrdən İkinci Dünya müharibəsinin sonunadək davam edən bu işğalçılıq siyasətinin gah kəskin şəkildə güclənən, gah da müvəqqəti tənəzzülə uğrayan dövrləri, müxtəlif formaları olmuşdur.

"Çöl piratları və dəniz piratları" yalnız öz şəxsi (daimi) elementlərinin hesabına üstünlük qazanırdılar. Alman geosiyasətçiləri isə "Orta Avropa"da uğurlu yolu həm kontinental, həm də dəniz qüvvələri ilə axtarırdılar. Nəticədə məlum oldu ki, *"Drang nach Osten"* yeganə doktrinadır və *Lebensraum* Şərqdə axtarılmalıdır.

Lakin alman geosiyasətində ideyaların əvəzlənməsi baş verirdi və bunlara növbə ilə nəzər salınmalıdır. Haushofer "Orta Avropa" regional ideyalarını deyil, *Makinderin* və *Mehenin* planetar ideyalarını kifayət qədər qiymətləndirirdi. O, *Makinderin* Kral Coğrafiya Cəmiyyətində "Tarixin coğrafi oxu" məruzəsini (1904) dünya siyasətinin bir neçə səhifəyə yerləşdirilmiş möhtəşəm izahı kimi xarakterizə etmişdir.

2.5.2. Yeni Avrasiya nizamı

Haushofer *Ratselin, Çellenin, Makinderin, Blaşın, Mehenin* və başqa geosiyasətçilərin əsərlərini diqqətlə öyrənmişdi. **O, dövlətin geosiyasi fəaliyyətinin əsasını zəruri "həyati məkan" uğrunda daimi mübarizədə görürdü.** Onun nəzəriyyəsinə görə, güclü dövlət daim sərhədlərini genişləndirməlidir. Bu genişlənmə xarici sərhədləri dəyişməz hala salmaq və ona hüquqi status vermək istəyən zəif dövlətlərin, daha kiçik xalqların ələ keçirilməsi hesabına baş verməlidir. Haushofer bu nəzəriyyədən çıxış edərək Almaniyanın kiçik qonşu dövlətlər üzərində hökmranlığa can atmasına qaçılmaz hal kimi baxır, onların üzərində hökmranlıq uğrunda mübarizəyə əvvəlcədən bəraət qazandırırdı *[bax:* Тихонравов, 2006, səh. 117-125; Геополитика: Антология, 2006, səh. 256-324].

XX əsrin 30-40-cı illərində Avrasiyada və dünyada qarşı duran iki böyük geosiyasi quruluşun meydana gəlməsi planetin qüvvələr nisbətini tamamilə dəyişmişdi. Haushofer bu şəraiti - Sovet İttifaqı və onun hərbi blokunun ABŞ və Qərb ölkələrinə qarşı apardığı mübarizənin geosiyasi cəhətlərini tədqiq edərək belə qənaətə gəlmişdi ki, ABŞ planetdə açıq-aşkar geosiyasi ekspansiya siyasəti yürüdür. Bu da nəticə etibarilə dünya üçün ciddi təhlükə yaradır. Müəllifə görə, bu hal gələcəkdə bütün planetin ABŞ tərəfindən əsarət altına alınmasına aparıb çıxara bilər.

"Dəniz qüvvəsinin" "kontinental qüvvələrə" qarşı və ya *"talassokratiya"*nın (dəniz qüdrəti) *"tellurokratiya"*ya (qitənin qüdrəti)

qarşı dayandığı planetar dualizm mənzərəsi Haushoferin bilavasitə iştirakçısı olduğu beynəlxalq siyasətin bütün sirlərini açan bir açara çevrilmişdi. (Məsələn, Yaponiyada Haushofer məkan mənzərəsi barədə ən məsul qərarlar qəbul edən qüvvələrlə işləyirdi). Maraqlıdır ki, nasistlərin, müasir dövrdə isə amerikalıların "yeni dünya nizamı" formasında fəal istifadə etdikləri "yeni qayda" termini ilk dəfə məhz Yaponiyada Sakit okean regionunda nüfuz dairəsinin yenidən bölüşdürülməsi üçün yaponlar tərəfindən təklif edilən geosiyasi sxem barəsində işlədilmişdir.

"Dəniz qüvvəsi" ilə "Quru qüvvələri" arasında planetar dualizm Almaniyanı geosiyasi özünüidentifikasiya problemi ilə üzləşdirmişdi. Millətçilik ideyasının tərəfdarları (Haushofer isə heç şübhəsiz, onlara mənsub idi) alman dövlətinin siyasi qüdrətini artırmağa çalışırdılar. Bu isə sənayenin inkişaf etdirilməsini, mədəni yüksəliş və geosiyasi ekspansiyanı nəzərdə tuturdu. Lakin Almaniyanın özünün Mərkəzi Avropada vəziyyəti, məkan və mədəni baxımdan "aralıq" vəziyyəti onu Qərbin dəniz dövlətlərinin - İngiltərə, Fransa, perspektivdə isə həm də ABŞ-ın təbii rəqibinə çevirmişdi. "Talassokratik" geosiyasətçilər özləri də Almaniyaya mənfi münasibət bəslədiklərini gizlətmir və onu (Rusiya ilə yanaşı) Dəniz Qərbinin əsas geosiyasi rəqiblərindən biri hesab edirdilər.

Bu vəziyyətdə Almaniyanın "xarici aypara" dövlətləri ilə güclü alyans yaratmağa ümid etməsi asan məsələ deyildi. Xüsusən ona görə ki, İngiltərə və Fransa tarixən Almaniyaya ərazi iddiaları irəli sürürdü. Buna görə də millətçi Böyük Almaniyanın gələcəyi Qərblə, xüsusən anqlosaks dünyası ilə geosiyasi qarşıdurma vəziyyətində idi. Dəniz qüvvələri isə faktiki olaraq bu aləmlə eyniləşdirilmişdi.

Karl Haushoferin və onun davamçılarının bütün geosiyasi doktrinası bu təhlilə əsaslanır. Bu doktrina **"kontinental blok"** və ya **Berlin-Moskva-Tokio oxu**nun yaradılması zərurətindən ibarətdir. Belə bir blok yaradılmasında heç bir təsadüfilik yox idi: bu, analoji Avrasiya alyansının yaradılmasını özü üçün ən böyük təhlükə hesab etdiyini gizlətməyən qarşı tərəfin strategiyasına yeganə tamdəyərli və adekvat cavab idi. Haushofer Almaniya və Rusiyaya bu blokun nü-

vəsi kimi baxaraq, onu - "Dünya adası" kimi dəyərləndirirdi. O hesab edirdi ki, gələcəkdə bu bloka Yaponiya və Çini də qoşmaqla **"transkontinental blok"** yaratmaq olar *[Хаусхофер, 2001, стр. 372-375]*. Haushofer "Kontinental blok" əsərində yazırdı: *"Avrasiyanın iki ən iri xalqı - almanlar və ruslar tayfalararası münaqişədən hər vasitə ilə uzaq olmağa çalışdığı şəraitdə Avrasiyanı Krım müharibəsində və ya 1914-cü ildə olduğu kimi boğmaq mümkün deyil. Bu, Avropa siyasətinin aksiomudur" [Haushofer, 1941]*.

Haushofer elə həmin məqalədə amerikalı *Homer Lin*in aşağıdakı fikrini sitat gətirmişdi: *"Almanlar, ruslar və yaponlar birləşsə anqlosaks siyasətinin ömrü başa çatacaq" [Дугин, 1997]*.

Haushofer öz məqalələrində və kitablarında bu fikri müxtəlif formalarda təlqin edirdi. Bu fəaliyyət xətti *"Ostorientierung"*, yəni *"Şərqə oriyentasiya"* adı almışdı, çünki Almaniyanın, onun xalqının və onun mədəniyyətinin Avrasiya, Asiya ənənələrinin Qərbdə davamı kimi özünü identifikasiya etməsini nəzərdə tuturdu. Təsadüfi deyildir ki, İkinci Dünya müharibəsi dövründə ingilislər almanları təhqiramiz şəkildə "hunlar" adlandırırdılar. Haushoferin məktəbinə mənsub olan geosiyasətçilər üçün bu, tamamilə məqbul idi.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, *"Şərqə oriyentasiya"* konsepsiyası Haushoferin nəzərində heç də "slavyan torpaqlarının işğal edilməsi" demək deyildi. Burada söhbət iki kontinental dövlətin - *"Yeni Avrasiya nizamı"* yaratmalı və "Dünya adası"nın kontinental məkanını "Dəniz qüvvələri"nin təsirindən tam xilas etmək üçün bu məkanın strukturunu dəyişməli olan Rusiya və Almaniyanın birgə sivilizasiya səylərindən gedirdi. Haushofer Almaniya "Lebensraum"unun genişlənməsini Rusiya torpaqlarının müstəmləkəyə çevrilməsi hesabına deyil, Asiyadakı ucsuz-bucaqsız məskunlaşmamış məkanların mənimsənilməsi və Şərqi Avropa torpaqlarının yenidən bölüşdürülməsi hesabına həyata keçirməyi nəzərdə tuturdu.

2.5.3. Talassokratiya ilə kompromis

Lakin praktikada hər şey heç də belə birmənalı deyildi. Haushoferin xalis geosiyasi məntiqi Moskva ilə "kontinental blok" yaratmağın zəruri olması qənaətinə gəlməyə əsas versə

də, bəzi maneələrlə üzləşirdi. Burada *Hitlerin* özünün zəif yeri olan tarixə xalis irqçilik mövqeyindən yanaşmaqdan söhbət gedirdi. Bu yanaşmaya görə, ən mühüm amil coğrafi və ya geosiyasi spesifika deyil, irqi yaxınlıq idi. Anqlosaks xalqları - İngiltərə və ABŞ bu halda almanlara etnik baxımdan daha yaxın olduqlarına görə onların təbii müttəfiqləri hesab edilirdi. Slavyanlar, xüsusən ağbəniz olmayan Avrasiya xalqları isə almanların irqi düşmənlərinə çevrilirdi. Buraya çox cəhətdən elə həmin irqi prinsiplə əlaqədar olan ideoloji antikommunizm də əlavə olunurdu. Marks və kommunistlərin çoxu yəhudi idi. Deməli, antisemitlərin nəzərində kommunizm özü antigerman ideologiya idi.

Millətçi sosialist irqçiliyi geosiyasətlə daban-dabana zidd idi. Daha dəqiq desək, o, almanları əks strategiyaya - antiavrasiya, "talassokratiya" strategiyasına sövq edirdi. Ardıcıl irqçilik konsepsiyası baxımından Almaniya lap əvvəldən İngiltərə və ABŞ ilə ittifaq bağlamalı idi ki, onlar birgə səylə SSRİ-yə qarşı davam gətirə bilsinlər. Lakin, digər tərəfdən alçaldıcı Versal müqaviləsinin təcrübəsi hələ yaddan çıxmamışdı. Üçüncü reyxin beynəlxalq siyasətinin tamamilə ikimənalı olması bu ikili vəziyyətdən irəli gəlirdi. Bu siyasət daim "talassokratiya" ilə, zahirən haqq qazandırılan irqçiliklə antikommunizm (SSRİ üzərinə hücum, Balkanlarda katolik Xorvatiyanın şirniklərdirilməsi və s.) və xalis geosiyasi prinsiplərə əsaslanan Avrasiya "tellurokratiya"sı (İngiltərə və Fransa ilə müharibə, Ribbentrop-Molotov paktı və s.) arasında tərəddüd edirdi.

Müəyyən dərəcədə konkret siyasi problemlərin həllinə cəlb edildiyindən Karl Haushofer nəzəriyyələrini birbaşa siyasi şəraitə uyğunlaşdırmağa məcbur idi. İngiltərənin yüksək dairələrində onun əlaqələri bununla bağlı idi. Bundan əlavə, Haushofer *Antikomintern paktının*[1] bağlanmasını, yəni Berlin-Roma-Tokio oxunun

[1] Antikomintern paktı (1936) - Faşist Almaniyası və militarist Yaponiyası arasında Berlində imzalanmış və 5 il müddətində nəzərdə tutulmuşdu. Kommunist İnternasionalına (Komintern) qarşı mübarizə aparan bu pakta 1937-ci ildə İtaliya, 1939-cu ildə Macarıstan və İspaniya qoşuldu. 1941-ci ildə pakt daha 5 il uzadılmış və bir sıra Avropa dövlətləri də ona qoşulmuşdu.

yaradılmasını zahirən alqışlayır, bunu tamdəyərli "Avrasiya bloku" yaradılması yolunda ilk addım kimi təsəvvür etməyə çalışırdı. O, başa düşməyə bilməzdi ki, bu ittifaqın antikommunist istiqaməti və "Hartlənd"in mərkəzinin (Moskvanın) əvəzinə "Rimlənd"ə məxsus yarımada dövlətinin peyda olması həqiqi kontinental bloka ziddiyyətli karikaturadır.

Lakin bununla belə, siyasi konformizmin diktə etdiyi bu cür addımlar Haushoferin geosiyasətinin bütün məcmusu üçün əlamətdar deyildir. Onun adı və ideyaları Almaniyanın möhkəm və uzunmüddətli Avrasiya ittifaqına əsaslanan "Şərq taleyi" konsepsiyalarında daha mükəmməl təcəssüm olunmuşdur.

Haushoferə görə Almaniya böyük dövlət, Avropanın əsas dövləti olmalıdır. Bunun ilkin şərti məkan istilasıdır. O, buna sərhədlər dəyişməz qalmadıqda nail olacaq, bu da məhdud və qəbul etdirilmiş sərhədlərdə özünü çox darısqal hiss edən alman xalqının təhlükəsizliyi, iqtisadi inkişafı və yaşaması üçün zəruridir. Alman əhalisinin mövcudluğunu təmin etmək üçün bu məsələnin həlli ərazi xətlərinin yenidən çəkilməsindən, deməli, müharibədən sonrakı nizamın təhlükə altına qoyulmasından və bütün germanların özünə kifayət edəcək geniş mərkəzi ərazidə inteqrasiyasından keçir. Alman geosiyasəti tərəfdarlarının beynəlxalq birliyin Millətlər Liqası modelinə uyğun təşkilini rədd etməsi də buradan irəli gəlirdi.

Haushofer Bismark kimi dəniz dövlətlərinin strategiyasına cavab verməyə imkan tapmışdır. Bu münasibətlə o yazır: "Almaniyanı ittiham edirlər ki, biz Hindistanın və Hind-Çinin aborigen əhalisini avropalı ağalarına qarşı qızışdırmaq siyasəti yeridirik. Əslində, biz ingilis Makinderin fikirlərinə istinad edərək bütün dünyaya bəyan etmək istəyirik ki, ancaq ox üzərində yerləşmiş dövlətlərin - Almaniya, Rusiya və Yaponiyanın ittifaqı bütün millətlərin ayağa qalxmasına və "anakonda metodu"nun tərəfdarı olan anqlosakson dünyasına qarşı dözümlü olmasına səbəb ola bilər *[Элементы. 1997, стр. 32]*.

Haushoferin geosiyasətində *"Böyük məkanlar"* ideyası xüsusi yer tutur, burada geosiyasi makrostrukturların formalaşması dünya dövlətlərinin ekspansiyalarında en dairəsi boyu və meridional ənənənin üstünlüyü və ya dəyişməsi üzərində qurulmuşdur (*bax:* **xəritə 5).**



Xəritə 5. *"Böyük məkan" konsepsiyası*
Mənbə: A Strategic Atlas, 1990

a) Avrasiya böyük məkanlarının təbii geosiyasi ekspansiyasının vektorları
b) üç Avrasiya arealı:
1. Qərb arealı (Avroafrika)
2. Ox arealı (Avrasiya)
3. Şərq arealı (Sakit okean)

• O, hesab edirdi ki, Antik dünyada Aralıq dənizi ətrafı, Cənub səhraları və dağ silsilələrinin coğrafi oriyentasiyası paralellər boyu *Böyük məkanın* - Şərq və Qərbin yaranmasına səbəb olurdu. Meridian istiqamətində axan çayların hərəkəti istisna təşkil edirdi, lakin onlar da en dairəsi boyu ekspansiyaların təzyiqinə tuş gəlirdilər.

• Sonra bir-birini əvəz edən en dairəsi boyu ekspansiyalar üstünlük təşkil etdi - bu ekspansiyaları finikiyalılar, ellinlər, romalılar, ərəblər, çöl xalqları, franklar, iberiyalılar həyata keçirdilər. En dairəsi boyu qlobal inkişaf ənənəsi Portuqaliya və İspaniyanın ekspansiyaları nəticəsində yüksək nöqtəsinə çatdı. Portuqal və ispanların ardınca Böyük Britaniya getdi. Sanki onun taleyinə en dairəsi boyu Aralıq dənizi ətrafında olmaq və Asiyadakı torpaqlarını qorumaq zərurəti yazılmışdı.

• Şimali Avrasiyaya gəldikdə, onun hüdudları daxilində eninə ekspansiya nəticəsində imperiya (Rusiya) yarandı.

• XX əsrin 40-cı illərində meridian xətti boyu oriyentir götürmüş iki geosiyasi makrostruktur - Şərqi Asiya bloku və Panamerika bloku demək olar ki, eyni vaxtda en dairəli dinamikanın geosiyasi sahəsinə, Avrasiyaya soxuldular. Geosiyasi qüvvələrin belə inkişafı Yer səthində "qüvvə sahəsi"nin tamamilə dəyişməsini müəyyən etdi *[Haushofer, 1931]*. Avrasiyada ənənəvi en dairəli strategiyadan meridional strategiyaya keçid reallaşdı. Məsələn, Haushofer Avro-Afrika layihəsinin reallaşmasını, SSRİ-nin "isti dənizlər strategiyası"na keçməsini, Hindistanın Sakit okean adalarını öz təsir dairəsinə daxil etməsi planlarını real sayırdı.

Dünyanın bu yeni geosiyasi bölünməsi *Makinderin* modelindən köklü surətdə fərqlənirdi və *panregionçuluq* (panregionalizm) adını aldı. O, bu yanaşmanın məqsədlərini "anakonda" metodunun istifadəsinin mümkünlüyü sayəsində en dairəli amerikan ekspansiyası ilə izah edirdi.

Belə ki, əgər Şərqi Asiyanın Böyük məkanı artıq formalaşıbsa və öz kontinental sərhədləri çərçivəsində tələbatını məhdudlaşdırmağa cəhd edirsə, Latın Amerikasını nüfuz dairəsinə daxil edən

ABŞ geosiyasi panamerikançılıq (panamerikanizm) planlarını tamamlayaraq, en dairəli ekspansiyanın geosiyasi sahəsinə keçmişdir. Buradan Haushofer dünyanın meridianlar boyu bölüşdürülməsinin vacib olması qənaətinə gəlirdi. *Nəticədə, onun tərəfindən qlobal iqtisadi regionlar anlayışının interpretasiyası kimi panregionçuluq inkişaf etdirilmişdir.* Haushoferin panregionları sadəcə iqtisadi bloklar deyildi. Onlar sosial-siyasi və iqtisadi problemlərin birgə həllini planlaşdıran dövlətlərin birləşməsini nəzərdə tutan *panideyalara* əsaslanırdılar. Halbuki təcrübədə bir qisim ölkələrin digərləri üzərində hökmranlığı həyata keçirilirdi.[1]

• Özünün ilk panregionçuluq modelində Haushofer dünyanı hər biri *nüvə* (core) və *əyalətdən* (periphery) ibarət olan, şimaldan cənuba istiqamətlənmiş 3 panregiona ayırmışdır. Nüvəsi ABŞ-da olmaqla *Panamerika,* nüvəsi Almaniyada olmaqla *Avroafrika* və nüvəsi Yaponiyada olmaqla *Panasiya;* əyalətə Avstraliya da daxil edilirdi **(***bax:* **xəritə 6A).** Hər panregion potensial olaraq özü-

A



Xəritə 6. *K.Haushoferin geosiyasi panregionlarının modelləri*
Mənbə: A Strategic Atlas, 1990:

A - Rusiyanı (SSRİ-ni) nəzərdə tutmayan üç dünya panregionu.

[1] Monro doktrinası (1823) ilk geosiyasi panideyalardan hesab olunur. Doktrinada dünyanın Avropa və ABŞ arasında nüfuz dairələrinə bölünməsi prinsipi əks olunmuşdu.

nü təmin etmək gücünə malikdir. Bu coğrafi struktur onunla maraqlı idi ki, dünyanı geniş əhatə etmiş təbii resurslarla zəngin regionlarla çarpaz kəsişərək hər mərkəzi dövlət ətrafına nəhəng funksional regionları daxil edirdi. Hər panregion arktik məkanın bir hissəsindən, mülayim və tropik iqlim zonalarından ibarət idi. Modeldə SSRİ-nin orada oynadığı rol qətiyyən məlum deyildi.

• Sonralar Haushofer geosiyasi hadisələrin inkişafı variantlarından biri kimi dünyanın dörd üzvə bölünməsini təklif etdi (*bax:* **xəritə 6B).** Dördüncü panregion özünün İranda, Əfqanıstanda və Hindistandakı təsir dairəsi ilə *Panrusiya* oldu. SSRİ-nin şərqinin böyük hissəsi bu sxemdə Şərqi Asiya orta rifah sferasına daxil idi.



Xəritə 6. *K.Haushoferin geosiyasi panregionlarının modelləri*
Mənbə: A Strategic Atlas, 1990:

B - Bölünmüş Rusiya ilə dünyanın dörd panregionu.

Panregionçuluq ideyası, əslində, fəaliyyət göstərən, lakin artıq tənəzzüldə olan "metropoliya-müstəmləkə" modelinə zidd idi. Britaniya imperiyasına və ABŞ-ın Avrasiyada olmasına qarşı çıxış edən Haushofer hinduist, ərəb ölkələrinin, fars və digər xalqların müstəqillik uğrunda mübarizəsini dəstəkləyirdi.

Dünya iqtisadiyyatında və geosiyasətində ABŞ və SSRİ-nin nüfuzu panregionlar anlayışını müvəqqəti olaraq tutarsız etdi. Lakin ABŞ-ın dünya iqtisadiyyatında mütləq hakim mövqeyə nail ola bilməməsi, sonra isə dünya sosialist sisteminin dağılması ilə əvvəlcə iqtisadi bloklar, sonra isə panregionlar dünya təcrübəsinə qayıtdılar.

Şəraitin dəyişməsindən asılı olaraq Haushofer öz ideyalarını nasist hökumətinin konkret siyasətinə uyğun qururdu. O, 1930-cu ilin sonlarında panregionçuluq konsepsiyasından əl çəkib başqa istiqamət götürdü.

Hazırlıq zamanında və Ribbentrop-Molotov paktı bağlandıqdan sonra Haushofer öz əsərlərində "Ostorientierung" (kontinental blok) xəttini, yəni Almaniyanın "Şərqə oriyentasiya"sını həyata keçirirdi *[Haushofer, 1941].* O, Berlin-Moskva-Tokio oxu ideyasını əsaslandırırdı. Həmin ideya Yaponiyanın Baş naziri *F.Konoye*nin dərin rəğbətini qazanmışdı.

Bu, mahiyyət etibarilə böyük kontinental Avrasiya ittifaqı ideyası idi. Alman mədəniyyətinin Asiya ənənələrinin Qərbdə davamı olduğu nəzəri cəhətdən sübut edilirdi. Görünür, bütün bu ibarələrin arxasında Rusiyanın resursları və Avrasiyanın digər məskunlaşmamış yerləri ilə bağlı niyyətlər dayanırdı.

Haushofer Ribbentrop-Molotov paktı çərçivəsində Almaniyanın "talassokratik" dövlətlər və "Hartland" arasında son dərəcə əlverişsiz, "sıxılmış" vəziyyətinin aradan qaldırılmasını görürdü. Bunun üçün, "kontinental blok" ideyasına əsasən, Rusiyanın dünyadakı geosiyasi vəziyyətindən istifadə etmək lazım idi. Haushoferin ayrı-ayrı müəlliflər tərəfindən *"daxili xətt konsepsiyası"* adlandırılan konsepsiyasına görə, Almaniyanın Rusiya ilə ittifaqı Almaniyanı Reyndən Amur və Yanszıya qədər anqlosaks təsirindən azad transkontinental kommunikasiyalarla təmin edə bilərdi. Yəni Almaniya açıq okeana çıxış əldə edər və həm kontinental, həm də okeanik dövlət qüdrətinə malik olardı.

Haushofer dövlətin kontinentallığının dənizlərə və okeanlara tərəf irəliləməklə aradan qaldırılmasını "millətin məkan iradəsi"nin" təzahürü hesab edirdi. O, bu cür iradə təzahürünün nümunəsi kimi, Rusi-

yanın bir sıra dövlətlərin sərt müqavimətini dəf edərək Baltik dənizinə, Qara dənizə və Sakit okeana çıxmasını göstərirdi. Bununla yanaşı, Haushofer *Makinder* kimi dənizlərə doğru irəliləməni məqsəd yox, qitələrin öyrənilməsi vasitəsi sayırdı. Dəniz dövlətlərinin zəifliyi elə özünü onda göstərir ki, onlar əsas etibarilə sahil zolağından istifadə edir və materikə doğru irəliləmirlər. Haushoferin fikrincə, "kontinental blok" konsepsiyasının həyata keçirilməsi Almaniyanın Böyük Britaniya üzərində üstünlüyünü təmin edərdi. Bundan başqa, Almaniya *"üçüncü məkanda"* (Haushoferin anlayışı), yəni hava (aviasiya) məkanında üstünlüyə malik olardı. Aviasiyanın inkişafı məkan üzrə nailiyyətlərin imkanlarını inqilabiləşdirərdi. Bu yeni hərbi-texnoloji amil guya "talassokratik nəzəriyyələr"in mənən qocalmasına, bir çox hərbi dəniz bazalarının əhəmiyyətini itirməsinə gətirmiş və kontinental dövlətlərin üstünlüyü üçün yeni imkanlar açmışdır.

Haushofer kontinental birləşmə və geosiyasətdə *"üçüncü məkanın"* rolu konsepsiyasına əsaslanaraq, 1939-cu il hücum etməmək haqda alman-sovet paktını tarixi mərhələ kimi qəbul etmişdir. Müasir Britaniya coğrafiyaçısı *P.Teylor* yazır ki, bu saziş çərçivəsində Haushofer 1940-cı ildə *Hitler* Almaniyasını, Franko İspaniyasını, Vişi Fransasını, faşist İtaliyasını, SSRİ-ni, Yaponiyanı Britaniya imperiyasına və Birləşmiş Ştatlara qarşı birləşdirəcək böyük kontinental blok yaradılması planını hazırlamışdı *[Taylor, 1993]. Makinderin* düzümündə bu blok belə ölçülərdə "Dünya adası" məkanına yaxın idi. Bu cür "Böyük məkan" çərçivəsində universal dövlət ideyasını həyata keçirmək, onu "xarici aypara"nın təsirindən çıxarmaq və Almaniyanın dünya hökmranlığını yaratmaq olardı.

Lakin Haushoferin əsas "kontinental blok" ideyasını həyata keçirmək baş tutmadı. Belə ki, Almaniya 1941-ci ildə SSRİ-yə hücum etdi. Bir sıra müəlliflər bütün bu hadisələri geosiyasi amilin texnoloji üstünlük vasitəsilə sıxışdırılması kimi qiymətləndirir. Guya elə bu da Almaniyanın talleyinə katastrofik təsir göstərmiş qərarın qəbuluna səbəb olmuşdur. Bundan əlavə, əgər bu blokun yaradılması baş versəydi belə, bu, bir sıra səbəbdən çətin ki, yaşamağa

qabil və uzunmüddətli olardı. Səbəblərdən biri isə ondan ibarət idi ki, SSRİ-yə ikinci dərəcəli dövlət rolu verilirdi.

SSRİ ilə müharibənin qarşısının alınmasının mümkün olmadığını anlayan Haushofer iki cəbhədə müharibədən qaçmağa cəhd göstərmişdir. *Hitlerdə* isə əksinə, inam yaranmışdı ki, Almaniyanın xüsusən aviasiyadakı hərbi-texniki üstünlüyü onun geosiyasi məhdudiyyətlərini dəf edəcək və o, həm Qərbdə, həm də Şərqdə qalib gələcəkdir. Haushoferin bəzi tərəfdarları da bu fikirdə idilər. Məsələn, *R.Nibur* hesab edirdi ki, aviasiya Almaniyanın geosiyasi vəziyyətindəki çatışmazlıqları aradan qaldıracaq. Lakin təcrübə göstərdi ki, aviasiya məkanının əhəmiyyəti, nəhayətdə, ifrat qiymətləndirilmişdir. Almaniyanın texnoloji üstünlüyü onun ekspansionist imkanlarını əhəmiyyətli dərəcədə artırdı və o, Avropanın nəhəng ərazisini müvəqqəti olaraq işğal etdi.

Planetin gələcək geosiyasi vəziyyətinə qiymət verən Haushofer belə nəticəyə gəlir ki, planetin gələcəyi iki tendensiyanın mübarizəsi ilə bağlı olacaq. Bu mübarizədə ya ingilis-amerikan, ya da Şərqi Asiya (ilk növbədə Çin və Yaponiya) təcavüzü qalib gəlməlidir.

Haushoferin fikrincə, dünya, hər biri birinci dərəcəli dövlətin ətrafında cəmləşmiş üç-dörd ekspansiya və nüfuz zonası ətrafında formalaşmalıdır. Bütövlükdə, bu, ideal beynəlxalq sistemdir. Öz təbii sərhədlərinə qayıdan Almaniyanın təbii vəzifəsi Avropaya və bundan başqa, Afrika və Orta Şərqə ağalıq etməkdir. Almaniya dost dövlətlərə arxalanmaqda maraqlıdır. Yaponiya aydın olaraq bu cür dövlətlərdəndir və Haushofer Çin də daxil olmaqla, bütün Şərqi Asiyanı onun nüfuz zonasına aid edir. Hindistan yarımadasının aqibəti qeyri-müəyyəndir. Faktiki olaraq, hər şey Rusiyadan asılıdır. Əgər o, kommunist ekspansionizmindən əl çəksə, Hindistan, İran və Cənubi Asiyanın bir sıra başqa ölkələri üzərində hökmranlıq edə bilər. Əgər bu hal baş verməsə, Hindistan Yaponiyaya qayıdacaq, Sovet İttifaqının özü isə, əsasən, Almaniyanın və az dərəcədə Yaponiyanın nüfuzu altında olan bir neçə dövlətə bölünəcək. Nəhayət, Amerikanın şimalını və cənubunu əhatə edən nüfuz zonası ABŞ-a məxsus olacaq.

2.6. KARL ŞMİTT. BÖYÜK İNTELLEKTUAL, NÜFUZLU GEOSİYASƏT XADİMİ

2.6.1. Mühafizəkar inqilabçı



Karl Şmitt
(1888-1985)

Alman Karl Şmitt *(Carl Schmitt)* görkəmli hüquqşünas, filosof, tarixçi, dövlətşünas, nəzəriyyəçi və mütəfəkkir kimi məşhurdur. Lakin onun bütün ideyaları geosiyasi konsepsiyalarla ayrılmaz şəkildə bağlıdır və onun əsas əsərləri - *"Quru və Dəniz"* (1942), *"Torpağın Nomosu"* (1950), *"Torpaq və Dənizin qarşıdurması və Şərq-Qərb planetar mübarizəsi"* (1959) və b. məhz geosiyasi amillərin və onların sivilizasiyaya və siyasi tarixə təsirinin dərk edilməsinə həsr olunmuşdur.

Şmitt Prussiyada kiçik Plettenberq şəhərində katolik ailəsində anadan olmuşdur. Onun atası kilsə kassasına müdirlik etmişdir. Şmitt Berlin Universitetində hüquqşünaslıq ixtisasına yiyələnmiş, 1933-cü ildə nasist partiyasına daxil olmuşdur. Faşist rejimi illərində antisemit ideyalar yaymışdır.

Şmitti *"mühafizəkar inqilabçılara"* aid etmək kimi sarsılmaz ənənə mövcuddur, halbuki bu, onun baxışlarına uyğun gəlmir. Şmittin bu siyasi cərəyana aidiyyətini eyni zamanda alman tədqiqatçısı *F.Ebelinq* də əsaslandırır *[Ebeling, 1997]*. Bu paradoksal cərəyan həm milli-mühafizəkar, həm də sosial-inqilabi elementləri özündə birləşdirirdi. Şmittin taleyi onun kitablarının, onun hüquqi-fəlsəfi məktəbinin taleyidir. Başqa mühafizəkar inqilabçıların çoxu kimi onun da nasional-sosialist rejimi ilə münasibətləri ikili xarakter daşıyırdı. Bir tərəfdən, onun nəzəriyyələri, heç şübhəsiz, nasist ideologiyasına təsir göstərirdi. Onun politologiyaya aid *"Siyasi teologiya"* (1922) və *"Siyasi anlayış"* (1927) kitabları xüsusi uğur qazanmışdı. Şmitt həmin kitablarda liberal hüququ və "hüqu-

qi dövlət" ideyalarını kəskin tənqid etmişdi. Bu mətnlərdə Şmittin bütün sonrakı intellektual yaradıcılıq cizgiləri aşkar görünür. Burada yüksək siyasi realizm, politoloji problemləri humanitar ritorikadan, sentimental pafosdan, sosial demaqogiyadan xilas etmək cəhdləri nəzərə çarpır. Bu isə nasional-sosialistlərin ruhuna tam uyğun idi.

Bununla bərabər, Şmittin bütün konsepsiyası fundamental *"xalqların hüququ"* (Volksrechte) ideyasına əsaslanırdı. Şmitt bu ideyanı liberal "insan hüquqları" nəzəriyyəsinə qarşı qoyurdu. Onun təsəvvüründə hər bir xalqın mədəni suverenlik hüququ, özünün mənəvi, tarixi və siyasi identikliyini qoruyub saxlamaq hüququ vardır. Məsələyə bu cür yanaşma bu ideologiyanı universal və Yer kürəsinin bütün xalqları üçün tətbiq edilməsini mümkün sayan bəzi nasional-sosialistlər üçün də səciyyəvi idi. Lakin mövcud rejimin əsas fəaliyyət xətti məhz şovinizmə və məhdud millətçi yanaşmaya əsaslanan pangermanizm olduğu üçün, Şmitt və onun "xalqların hüququ" nəzəriyyəsi xüsusən SS (təhlükəsizlik təşkilatı) ideoloqları tərəfindən kəskin tənqidə məruz qalmışdı (1936-cı ildə SS-çilərin "Das Schwarze Korps" adlı nəşrində Şmittə ünvanlanmış hədə-qorxu ilə dolu məqalə dərc edilmişdi).

Şmittin ideyaca formalaşması *Ratsel* və *Çellendə* olduğu kimi eyni "orqanik sosiologiya" ideyaları atmosferində baş vermiş, lakin ona romantik *"Şimal dünyası"* (Nordlicht) nəzəriyyələri də təsir göstərmişdi. Həmin nəzəriyyələrə görə, sosial-siyasi formaların və dövlət qurumlarının kökü riyazi konqlomeratlar şəklində birləşmiş atomar şəxsiyyətlərin mexaniki fəaliyyətində deyil, mifologiyada, "stixiyaların və ruhların" sakral dünyasındadır *[Schmitt, 1916]*. Şmittin nəzəriyyələrində "siyasi realizm" və "ciddi rasionalizm" ideyaları addımbaşı paradoksal şəkildə birləşir. Cilalanmış mental aparat mənəvi mifologemlərin ifadə olunmasına xidmət edir.

Nürnberq prosesində Karl Şmittin *Hitler* rejimi ilə əməkdaşlıq etməsi əsasında onu "hərbi canilər" sırasına aid etməyə cəhd göstərilmişdi. Məsələn, o, "hərbi təcavüzün legitimliyini nəzəri cəhətdən əsaslandırmaqda" təqsirləndirilirdi. Lakin ha-

kimlər bu məsələnin mahiyyəti ilə ətraflı tanış olduqdan sonra bu ittiham götürüldü. Bununla belə, *Haydegger*,[1] *Yunger*[2] və başqa "mühafizəkar inqilabçılar" kimi Şmitt də dünya elmi birliyində "persona non qrata"ya çevrildi və onun əsərlərinə osla məhəl qoyulmadı *[Филиппов, 2000]*.

Yalnız ötən əsrin 70-ci illərində bəzi solçu sosialist mütəfəkkirlərin hüquqi təfəkküre çox güclü təsiri sayəsində Şmittin əsərlərinə tədricən bəraət verməyə başladılar. **Hazırda o, politologiyanın, dövlətşünaslığın və yurisprudensiyanın klassiki hesab edilir.**

2.6.2. Torpağın nomosu

Şmitt tam geosiyasi yanaşma ruhunda siyasi mədəniyyət ilə məkan arasında lap əvvəldən güclü əlaqə olmasını iddia edirdi. Təkcə dövlət deyil, bütün sosial reallıq və xüsusən hüquq - məkanın keyfiyyətli təşkilinin məhsuludur. Şmittin *"nomos"* konsepsiyası buradan irəli gəlirdi. Yunan sözü olan *"nomos"* termini məkan mənasında *"götürülmüş, tərtib olunmuş, tənzimlənmiş, təşkil edilmiş"* deməkdir. Bu termin *Ratselin "relyef"* və rus avrasiyaçılarının *(Savitski) "inkişaf yeri"* anlayışlarına yaxındır. Şmitt göstərir ki, "nomos" varlığın təşkilinin elə formasıdır ki, həm sosial ansamblın daxilində, həm də bu ansambllar arasında ən harmonik münasibətlər yaradır. "Nomos" siyasi və hüquqi sistemlərin yaradılmasında üzvi şəkildə təzahür edən subyektiv və obyektiv amillərin xüsusi sintetik əlaqəsinin ifadəsidir. İnsan kollektivinin və ətraf mühitin təbii və mədəni xüsusiyyətləri "nomos"da təzahür edir. Yer üzündə bu və ya digər məkanın spesifikasının həmin məkanda inkişaf etmiş mədəniyyətlərə və dövlətlərə hansı şəkildə təsir etməsini "Torpağın Nomosu" kitabında şərh edən Şmitt müxtəlif tarixi nomosları müqayisə edərək köçəri və oturaq xalqların məkana münasibəti arasında fundamental dualizmi xüsusi vurğulayır. Lakin "torpağın nomosu"nun təhlilindən çıxarılan ən mühüm nəticə ondan ibarət idi ki, *Şmitt Quru si-*

[1] Haydegger Martin (1889-1976) - alman ekzistensializminin banilərindən biri və başlıca nümayəndəsi.

[2] Yunger Ernest (1895-1998) - yazıçı, publisist və nəzəriyyəçi.

vilizasiyaları ilə dəniz sivilizasiyaları arasında qlobal tarixi və sivilizasiya qarşıdurması anlayışına lap yaxınlaşmışdı. O, "torpağın nomosu"nu tədqiq edərkən onun "dənizin nomosu"na keyfiyyətcə, mahiyyətcə zidd olması ilə üzləşmişdir. Bu, dünyanın siyasi tarixini dərk etmək üçün xüsusi geosiyasi metodologiya yaratmaq ilə nəticələndi.

2.6.3. Quru və dəniz

1942-ci ildə Şmitt özünün "Quru və Dəniz" adlı ən mühüm əsərini çap etdirmişdir. Bu əsər və bir qədər sonra dərc edilmiş "Şərq ilə Qərb arasında planetar gərginlik və Quru ilə Dənizin qarşıdurması" əsəri geosiyasət elminin mühüm sənədləridir.

Şmittə görə, *Quru ilə Dənizin bir-birinə qarşı qoyulmasının* mənası ondan ibarətdir ki, burada söhbət vahid sivilizasiya kompleksinin variantlarından deyil, tamamilə müxtəlif, biri digərinə çevrilə bilməyən və bir-birinə düşmən sivilizasiyalardan gedir. Bu bölgü *Makinderin* təsvir etdiyi mənzərə ilə demək olar ki, üst-üstə düşür, lakin Şmitt bu bölgünün əsas elementləri olan talassokratiya (dəniz qüdrəti) və tellurokratiyaya (qitənin qüdrəti) baza əhəmiyyətli hüquqi və etik sistemlərlə bağlı dərin fəlsəfi məna verir. Maraqlıdır ki, Şmitt "Quru qüvvələri" barəsində *"Begemot"*, *"Dəniz qüvvələri"* barəsində isə *"Leviafan"* adlarından istifadə etməklə Əhdi-Ətiqdə adları çəkilən iki yırtıcını xatırladır. Onlardan biri quruda yaşayan bütün heyvanları, digəri isə suda, dənizdə yaşayan bütün canlıları özündə təcəssüm etdirir.

"Torpağın nomosu" bəşər tarixinin böyük bir hissəsində alternativsiz mövcuddur. Bu nomosun bütün müxtəlif növləri qurunun, torpağın qeyri-mütəhərrik və sabit olmasını əks etdirən ciddi və davamlı leqislativ (və etik) formanın mövcud olması ilə səciyyəvidir. Məkanını asanlıqla strukturlaşdırmaq mümkün olan (sərhədlərin müəyyən edilməsi, kommunikasiya yollarının sabitliyi, coğrafi və relyef xüsusiyyətlərinin dəyişməzliyi) yer ilə bu cür əlaqə sosial, mədəni və texniki sahələrdə mahiyyət etibarilə mühafizəkarlığa səbəb olur. "Ənənəvi cəmiyyətin tarixi" adlandırılan məqam yerin nomosu versiyalarının məcmusunu təşkil edir.

Bu vəziyyətdə Dəniz, Su "etik" sahəyə müdaxilə etmədən və ya yalnız epizodik şəkildə müdaxilə etməklə yalnız periferiyaya aid sivilizasiya hadisələrinə çevrilir. Yalnız XVI əsrin axırlarında Dünya okeanı kəşf edilməndən sonra radikal dəyişikliklər baş verir. Bəşəriyyət (ilk növbədə Britaniya adası) dənizdə mövcud olmağa adət etməyə, özünü suların əhatəsində bir Ada, *Gəmi* kimi hiss etməyə başlayır. Lakin su məkanı quru məkanından kəskin fərqlənir. O, sabit deyildir, yabançı, düşməndir, daim dəyişikliklərə məruz qalır. Su məkanında yollar qeyd edilməmişdir, istiqamət fərqləri aşkar görünmür. Dəniz nomosu şüurun qlobal transformasiyasına səbəb olur. Sosial, hüquqi və etik normativlər "axıcı" xarakter kəsb edir. Yeni sivilizasiya yaranır. Şmitt belə hesab edir ki, bəşəriyyətin Dəniz nomosuna keçməsi fenomeni yeni dövr və sənayeləşmə erasının başlanğıcı olan texniki sıçrayış sayəsində baş vermişdir.

Beləliklə, "xarici aypara" və anqlosaks dünyasının geosiyasi qarşıdurması Şmittə görə sosial-siyasi məna kəsb edir. Dəniz nomosu ənənəvi cəmiyyətə düşmən olan reallıqdır. Quru dövlətləri ilə dəniz dövlətləri arasında geosiyasi qarşıdurma çox mühüm tarixi, ideoloji və fəlsəfi məna kəsb edir.

2.6.4. Grossraum

Şmitt daha bir mühüm geosiyasi nəzəriyyə - *"Böyük məkan"* (Grossraum) nəzəriyyəsini işləyib hazırlamışdır. Bu konsepsiyaya görə, dövlətin inkişafı prosesi ən böyük ərazi fəth etmək cəhdi hesab edilir. İmperiya inteqrasiyası prinsipi insanın sintez aparmaq məntiqinin və təbii meyilinin ifadəsidir. Beləliklə, dövlətin ərazi etibarilə genişlənməsi mərhələləri insanın universalığa doğru hərəkətinin mərhələlərinə müvafiqdir.

Bu geosiyasi qanun həm texniki, həm də iqtisadi sahələrə şamil edilir. Şmitt göstərir ki, müəyyən andan etibarən dövlətin texniki və iqtisadi inkişafı onun ərazilərinin həm kəmiyyətcə, həm də keyfiyyətcə artmasını tələb edir. Bu halda söhbət heç də həmişə başqa dövlətləri müstəmləkəyə çevirmək, anneksiya, hərbi müdaxilə barədə getmir. "Grossraum"un təşəkkülü başqa qanunlar üzrə - bir neçə dövlətin və ya bir neçə xalqın vahid dini və ya mədəni forma

qəbul etməsi əsasında da baş verə bilər. Şmittə görə, "Torpağın nomosu"nun inkişafı qitə-dövlətin yaranmasına gətirib çıxarmalıdır. Qitə-dövlətə doğru hərəkət şəhər-dövlətlərdən və ərazi-dövlətlərdən keçir. Quru qitə-dövlətin, materik "Grossraum"un yaranması tarixi və geosiyasi zərurətdir.

Şmitt 1940-cı ildə yazdığı *"Xalqların hüququnda məkan və böyük məkan"* adlı əsərində "Böyük məkan"a belə tərif vermişdir: *"İnsan fəaliyyətinin gələcək inkişafının aktual və tutumlu meyilinə əsaslanan planifikasiya, təşkilat və fəaliyyət sahəsi" [Freund, 1987, p. 15].* Bir qədər qeyri-müəyyən olan bu ifadəni dəqiqləşdirərək o, "Monro doktrinası" əsasında Şimali və Cənubi Amerikanın birləşdirilməsinin həyata keçirilməsini şüurlu şəkildə "Böyük məkan" yaradılmasına nümunə kimi göstərmişdir.

"Grossraum" müəyyən mənada dövlət ilə, daha doğrusu imperiya (das Reich) ilə eyniləşdirilə bilər, lakin bu konsepsiya adi dövlət çərçivəsindən kənara çıxır. Bu, strateji, geosiyasi və ideoloji amilə əsaslanan fövqəlmilli birliyin yeni formasıdır.

Hitlerin unifikasiya edilmiş (vahid şəklə salınmış) "pangermanizm" (*pangermanizm* - alman burjuaziyasının alman əhalisi olan yerləri birləşdirmək bəhanəsilə başqa dövlətin torpaqlarını işğal etmək məqsədi güdən imperialist siyasət) modelindən və sovet beynəlmiləlçiliyindən fərqli olaraq, Şmittin "Grossraum"u mədəni və etnik plüralizmə, yalnız strateji mərkəzçilik və ali hakimiyyət instansiyasına total loyallıq ilə məhdudlaşan geniş muxtariyyətə əsaslanır. Bu halda Şmitt xüsusi vurğulayırdı ki, yeni "Böyük məkan" yaradılması doktrinanın özünün elmi dəyərindən, mədəni soriştəlilik səviyyəsindən, inteqrasiyaya təkan vermiş mərkəzin tərkib hissələrindən və hətta onun ərazi və etnik mərkəzindən də asılı deyildir. Hər şey yalnız belə bir geosiyasi addımın tarixi zərurət olmasını dərk edən siyasi iradədən asılıdır. Şmitt bu doktrinada müasir inteqrasiya siyasətinin əsas cizgilərini qabaqlamışdır.

2.6.5. Total müharibə və "partizan" fiquru

Şmittin nəzərdən keçirdiyi mövzuların demək olar ki, hamısında geosiyasi motivlər seçilir. Məsələn, o, üç konsepsiyanın - *"total*

düşmən, total müharibə və total dövlət" konsepsiyalarının əlaqəsini tədqiq etmişdir. Onun mövqeyinə görə, "total dövlət" ənənəvi dövlət tipinin ən mükəmməl forması, yəni "Quru nomosu"nun inkişafının zirvəsidir. Bu cür dövlətin tarixi təkamülünün "Grossraum" dərəcəsinə çatmasının mümkünlüyünə baxmayaraq, onun mahiyyəti dəyişməz qalır. "Total dövlət" - "total düşmən" və "total müharibə" prinsiplərini istisna edir, çünki bu dövlət rəqib haqqında, düşmən haqqında təsəvvürləri (Şmitt "dost"/"düşmən", "amicus/hostis" anlayışlarının mənasına çox böyük əhəmiyyət verirdi) əsas kimi götürür və beləliklə, *Jus bellum* (müharibə hüququ) qaydasının mövcudluğu və yalnız peşəkar hərbiçilərin məhdud kontingentinin iştirak etdiyi müharibə konsepsiyasını irəli sürür. Dinc əhali və xüsusi mülkiyyət qanunla mühafizə olunur və onlar (ən azı nəzəri baxımdan) hərbi əməliyyatların gedişindən kənarlaşdırılır.

Şmittin birmənalı olaraq yeni dövr və "Dəniz sivilizasiyası", "Dəniz nomosu" ilə əlaqələndirdiyi liberal doktrina "total dövləti" inkar edir, bununla da "total müharibə"yə və "total düşmən" konsepsiyasına yol açır. Şmitt 1941-ci ildə "Dövlət suverenliyi və açıq dəniz" adlı məqaləsində yazırdı: *"Quruda müharibə hüquqi normalara tabe edilmişdi, çünki o, dövlətlər arasında, yəni bir-biri ilə düşmənçilik edən dövlətlərin silahlı qüvvələri arasında müharibə idi. Onun rasionallaşması onun məhdudlaşdırılmasında və dinc əhalini, xüsusi mülkiyyət obyektlərini onun hüdudlarından kənara çıxarmaq cəhdlərində təzahür etmişdi. Dənizdə müharibə isə, əksinə, ciddi müəyyən edilmiş və hüquqi normativlərə tabe olan düşmənlər arasında müharibə deyildir, çünki o total düşmən konsepsiyasına əsaslanır".*

Şmittin təsvir etdiyi ümumi geosiyasi mənzərə gərgin sivilizasiya dualizmindən, iki anqlosaks "Grossraum"unun (İngiltərə+Amerika) və kontinental Avropa, Avrasiya "grossraum"larının qarşıdurmasından ibarət idi. Bu iki "Böyük məkan" (talassokratik və tellurokratik) universallaşmaya doğru son addım atmaq və kontinental hökmranlıqdan dünya hökmranlığı səviyyəsinə keçmək uğrunda öz

aralarında planetar miqyasda vuruşurlar. Bu halda Şmitt həmin münaqişəni hər hansı ciddi hüquqi bazaya aid etməyin mümkünlüyünə pessimist mövqedən yanaşırdı, çünki hər iki "Böyük məkanın" sivilizasiya makrokonsepsiyaları bir-birini qarşılıqlı istisna edən nomoslara - "Torpaq nomosu"na və "Dəniz nomosu"na əsaslanır. Havada uçma imkanı (uçan aparatların, kosmik gəmilərin kəşfi) inkişaf etdikcə sonuncu dağıdıcı element yaranır, çünki hava məkanı dəniz məkanı ilə müqayisədə etik-hüquqi strukturlaşmaya daha az müvafiqdir.

Şmitt ömrünün son illərində *"partizan"* fiquruna diqqət yetirirdi. Şmittə görə, bu fiqur "Torpaq nomosu"nun özünün əzəli məqsədinə - "sivilizasiyaların durulaşması" və hüquqi-mədəni əsasların əriyib getməsi ideyasına rəğmən, öz məqsədinə sədaqətli qalan "Torpaq nomosu"nun sonuncu təmsilçisidir. "Partizan" doğma torpaqla qeyri-formal tellərlə bağlıdır və bu bağlılığın tarixi xarakteri daha ümumi və mücərrəd normativlərdən kəskin fərqlənən müharibə etikasının əsaslarını diktə edir. Şmittin fikrincə, hərbi əməliyyatlar sahəsini də əhatə edən "dəniz modeli" və "ticarət etikası" universallaşdıqca "partizan" fiqurunun sivilizasiya baxımından əhəmiyyəti daha da artır, çünki "partizan" talassokratiyanın total hücumu qarşısında bütün vasitələrdən istifadə etməklə quru qaydasını müdafiə edən sonuncu iştirakçı kimi qalır. Beləliklə, "partizan"ın demək olar ki, soteroloji (xilaskarlıq) tarixi funksiyası yaranır.

Qeyd etmək lazımdır ki, siyasət, siyasətçi və müharibələr haqqında Avropada *Haushofersdən* sonra ən çox əsər yazan və çoxsaylı ideyalar irəli sürmüş geosiyasətçi K.Şmitt olmuşdur. O, xalqlar və dövlətlər arasında müharibələri planlaşdırmağı, müvəffəqiyyətlə həyata keçirməyi və müsbət nəticələr əldə etməyi dövlət rəhbərlərinin, siyasətçilərin əsas vəzifəsi və fəaliyyətlərinin meyarı hesab etmişdir.

2.7. VİDAL DÖ LA BLAŞ. FRANSIZ GEOSİYASƏT ELMİNİN PATRİARXI

2.7.1. Fransanın coğrafi mənzərəsi



Vidal dö la Blaş
(1845-1918)

Pol Vidal dö la Blaş *(Paul Vidal de la Blache)* fransız coğrafiya məktəbinin banisi hesab edilir. O, ali məktəbi Parisdə bitirmiş (Ecole Normale Superieure) və bir müddət Afinada fransız məktəbində oxumuşdur. Sonra Nansi Universitetində dərs demiş, 1898-ci ildən ömrünün sonuna kimi Sorbonda coğrafiya kafedrasına rəhbərlik etmişdir *[Dictionary.., 1994, p. 232]*.

Bu "çox böyük, bəsirətli coğrafiyaçı alim" özünü inamsız hiss edirdi və nəzəri konsepsiya sahəsində bir qədər yöndəmsiz idi" *[Февр, 1991, стр. 160]*. Blaşın ölümündən sonra həmkarı, kürəkəni və Sorbon Universitetinin professoru *Emmanuel dö Martonn* (Emmanuel de Martonne, 1873-1955) görkəmli coğrafiyaçının arxivindən, geosiyasət haqda düşüncələri daxil olmaqla, coğrafiyanın nəzəri və metodiki problemləri barədə qeyd və məqalələrini seçib *"İnsan coğrafiyasının prinsipləri"* ("Principes de geographie humaine") başlığı altında çap etdirmişdir (1922). Tədqiqatçının geosiyasi yanaşmaları haqda fikir söyləmək mümkün olan digər əsəri, onun son kompleks tədqiqatı - *"Şərqi Fransa"* ("La France de l'Est") adlanır (1917).

Fransada müasir geosiyasi düşüncənin yarandığı vəziyyət bu ölkənin iki ümumavropa məğlubiyyəti - *Napoleonun* Vaterloo ətrafındakı (1815, 18 iyun) və fransız qoşunlarının Sedan ətrafındakı məğlubiyyətləri (1870, 1 sentyabr) ilə şərtləndirilir. Sonuncuya xeyli dərəcədə Almaniyanın iqtisadi və hərbi yüksəlişi səbəb olmuşdur. 1871-ci ildə Paris yaxınlığındakı Versal sarayında Hohensollern sülaləsindən olan *I Vilhelm* (1797-1888) Almaniya imperiyasının yaranmasını elan etmişdir.

Fransanın Almaniya ilə rəqabəti fransız geosiyasətçilərinin düşüncələrində özünü göstərməyə bilməzdi. Onların inkişaf etdirdikləri başlıca prinsiplərdən biri *alman geosiyasi düşüncəsinə müxalif prinsip idi.*

Vidal dö la Blaş alman müasiri *Ratseldən* fərqli olaraq, geosiyasi tədqiqatların mərkəzinə dövlətin coğrafi vəziyyəti və məkan ideyasını deyil, insanı qoymuşdur. Fransız klassikinə görə insan ərazinin passiv təbii amilindən fərqli olaraq, aktiv coğrafi amildir.

Böyük alman coğrafiyaşünaslarının, xüsusilə də *Ratselin* oxucusu olan Blaş elmi coğrafiyanı tərənnüm edir: *"Coğrafiyanın xüsusi məqsədi dünyanı idarə edən fiziki və bioloji qanunların Yer kürəsinin müxtəlif hissələrinə tətbiq olunaraq necə uyğunlaşdıqlarını və necə dəyişdiklərini tədqiq etməkdir"*. Eyni zamanda, fransız ruhuna bağlı Blaş ehkamçılığı yaxına buraxmır, məşhur fransız tarixçisi *Lüsien Fevrin* (Lucien Febvre, 1878-1956) "katexizis[1] müəllimi" adlandırdığı *Ratselin* determinizminə etiraz edir, alman geosiyasət klassiklərinin bir sıra fikirlərini ciddi tənqid edirdi. Özünün *"Fransa coğrafiyasının mənzərəsi"* ("Tableau de la gйographie de la France", 1903) adlı kitabında alman geosiyasətçiləri üçün çox vacib olan torpaq nəzəriyyəsinə müraciət edir: *"Fransada torpaq ilə insan arasında münasibətlər orijinal qədimlik və fasiləsizlik xarakteri ilə fərqlənir (...). Bizim ölkədə tez-tez müşahidə etmək olar ki, insanlar ən qədim dövrlərdən eyni ərazidə yaşayırlar. Bulaqlar, kalsium süxurları ilə zəngin qayalar yaşamaq və müdafiə olunmaq üçün münasib yerlər kimi insanları ta qədimdən cəlb edirdi. Bizim ölkədə insan torpağın sədaqətli şagirdidir. Torpağın öyrənilməsi əhalinin xarakterini, xasiyyətini və hansı dəyərlərə üstünlük verdiyini aydınlaşdırmağa kömək edər" [Blache, 1903, p. 73]*.

Lakin coğrafi amilə və onun mədəniyyətə təsirinə bu cür xalis almansayağı münasibət bəsləməsinə baxmayaraq Blaş belə hesab edirdi ki, *Ratsel* və onun davamçıları təbii amili müəyyənedici amil hesab etməklə aşkar mübaliğəyə yol verirlər.

Blaş alman geosiyasət klassiklərinin realist coğrafi mühit nəzəriyyəsinə tənqidi yanaşaraq insanın formalaşmasında ətraf

[1] Hər hansı bir dini etiqadla bağlı olan qaydalar toplusu.

mühitin və təbii landşaftın rolu üzərində xüsusi dayanmış, tarixdə dövlətlərin və cəmiyyətlərin inkişafındakı fərqi məkanla, yaxud ölkənin coğrafi mühiti ilə deyil, lokal təbii şəraitlə, ətraf mühitin yaratdığı imkanlar çərçivəsində formalaşan insan amili ilə əlaqələndirmişdir.

Blaşa görə, insan həm də *"mühüm coğrafi amil"*dir, lakin insan təşəbbüs göstərmək qabiliyyətinə malikdir. O, təkcə dekorasiyanın (səhnə tərtibatı) bir fraqmenti deyil, həm də tamaşanın baş aktyorudur.

İnsan ətraf mühitlə qarşılıqlı təsirə girərək böyüyür, inkişaf edir. Blaş qeyd edirdi ki, *"coğrafi fərdilik insana təbiət tərəfindən qabaqcadan verilən mücərrəd bir şey deyildir, o yalnız ehtiyat mənbəyidir, bu mənbədə təbii enerji yatır, onu yalnız insan oyada bilər" [Blache, 1922, p. 46-47].*

Lokal ətraf mühitin əsasını bir-biri ilə qarşılıqlı əlaqədə olan ayrı-ayrı *yaşayış ocaqları* təşkil edir. Bu ocaqlar insan cəmiyyətində əsas və ilkin rolu oynamaqla, müəllifə görə, böyük sivilizasiyanın elementlərini yaradır ki, bu da sonradan inkişaf etdikcə yeni əraziləri əhatə edir. Blaşın nəzəriyyəsinə görə, qarşılıqlı əlaqələr Şimal yarımkürəsində Aralıq dənizindən Çin dənizinə qədər uzanır. Qərbi və Mərkəzi Avropada *sivilizasiya ocaqlarının* qarşılıqlı əlaqəsi demək olar ki, daimi olduğundan siyasi institutlar bir-birini əvəz edə-edə bu və ya digər konfiqurasiyalar üzərinə qalanırlar.

Belə müxtəlif mənbəli elementlərin yaxınlaşması və bir-biri ilə əlaqəsi imperiyaların, dinlərin, dövlətlərin yaranmasına səbəb olmuşdur. Məhz bu ayrı-ayrı kiçik ocaqların (Blaşın təbiri ilə desək, kərpiclərin) sayəsində Roma imperiyasında, sasanilərin, farsların və d. yaratdığı imperiyalarda həyat xəfif-xəfif davam edirdi *[Blache, 1921, p. 211-213].* Blaşın qeyd etdiyi kimi, bu proses Avropada özünəməxsus xüsusiyyətlərə malik şəkildə gedirdi. Çünki burada coğrafi mühit - dənizlər, dağlar, çöllər, meşə massivləri, Şimal və Cənubu birləşdirən iri çaylar, müxtəlif landşaft zonaları, məhsuldar torpaqlar bir-biri ilə əlaqəli idi.

Blaşa görə, Avropanın sivilizasiya prosesinin ardıcıllığına təkan verən spesifikası onun coğrafi fərqliliyindən və iqliminin stimullaşdırıcı xarakterindən irəli gəlir. Bu, nə insan enerjisini iflic edən kifayət qədər sərt, nə də tüfeyli həyat tərzi keçirməyə imkan verən üzücü

amil olmamışdır. Bu, daim qarşılıqlı əlaqədə olan çoxsaylı müxtəlif sivilizasiya ocaqlarının formalaşmasına gətirib çıxarmışdır. Təbii ki, mədəni inkişaf prosesində kommunikasiyalar əsas rol oynamışdır. Əlaqələrin sıxlığı təqlidçiliyə, faydalanmalara yol açmışdır. Yaradıcı qavrama və xarici təsirləri öyrənmək bacarığı Avropa sivilizasiyasının zənginliyinin və dinamizminin əsasını təşkil etmişdir. *Avropa əlaqələrinin genişləndirilməsi, xüsusən ticarətin inkişafı, işğal ediləcək ərazilər üzərində nəzarətin bərqərar edilməsinə zəmin yaratmışdır.*

2.7.2. Possibilizm

Ratselin məkan amilini həddən artıq şişirtməsini tənqid edən Blaş *"Possibilizm"* ("possible" - "mümkün" sözündən) adlanan geosiyasi konsepsiya işləyib hazırlamışdır. Bu konsepsiyaya görə, siyasi tarixin iki aspekti var - məkan (coğrafi) və zaman (tarixi) aspektləri. Coğrafi amil ətraf mühitdə, tarixi amil insanın özündə ("təşəbbüsün daşıyıcısında") əks olunmuşdur. Blaşın fikrincə, almaniyalı "siyasi coğrafiyaçılar"ın səhvi ondadır ki, onlar relyefi dövlətlərin siyasi tarixinin müəyyənedici amili hesab edirlər. Beləliklə, Blaşın fikrincə, insanın azadlığı və tarixilik amilinin rolu azaldılır. O özü isə coğrafi məkan mövqeyini "potensiallıq", "mümkünlük" kimi nəzərdən keçirməyi təklif edirdi. Bu imkan aktuallaşaraq həqiqi siyasi amilə çevrilə də bilər, aktuallaşmaya da bilər. Bu, əsas etibarilə, subyektiv amildən - ətraf mühitin və təbiətin inkişaf üçün insanlara bəxş etdiyi *mümkün* imkandan (possibilizmdən) və insanın enerjisindən, sosiomədəni kodundan asılıdır.

Buradan göründüyü kimi, ***Ratseldən* fərqli olaraq Blaş sərt coğrafi determinizm ideyasından imtina edərək birinci yerə coğrafi, ərazi amillərini deyil, insanın təşəbbüsünü və azadlığını qoyurdu.** *Ratsel* və digər alman nəzəriyyəçilərinin baxışlarının əsasını *Məkan kateqoriyası,* dövlətin coğrafi vəziyyəti, "ərazi tələbatı", "məkan hissi" və s. realist geostrateji kateqoriyalar təşkil edirdisə, Blaşın və digər fransız nəzəriyyəçilərinin diqqət mərkəzində əsasən *ideal İnsan amili* və humanist, *liberal xalqlararası münasibətlər* dururdu.

Geosiyasi məktəblərin əksəriyyəti Blaşın "possibilizm" konsepsiyasını əvvəlki geosiyasətçilərin sərt *coğrafi determinizminin təshihi* kimi qəbul etmişdir.

Blaş sivilizasiyaların tarixi inkişaf prosesində dövlətlərin, siyasi birliklərin yaranmasına da bir qədər başqa səpkidə yanaşır. Ratselə görə dövlət orqanik bir varlıq və məkan genişlənməsi qanunu ilə əlaqədar inkişaf edən bir varlıq idisə, **Blaşın fikrincə, dövlət xarici, ikinci dərəcəli, müəyyən olunmuş, ilkin sivilizasiya ocaqlarının (ilk kərpiclər) qarşılıqlı əlaqələrindən yaranmışdır.**

Belə qarşılıqlı əlaqələr o yerlərdə özünü büruzə verir ki, orada lokal yaşayış ocaqları - çaylar, dənizlər, şose və dəmir yolları arasında kommunikasiyalar hərtərəfli inkişaf etsin. Blaş əsərlərində əlaqələndirici kommunikasiyaların mövcudluğuna xüsusi diqqət yetirir və təkidlə qeyd edirdi ki, gələcəkdə kommunikasiyaların genişlənməsi, bir-birini tamamlaması və insan təmaslarını artırması müxtəlif sivilizasiya ocaqlarının aktiv qarşılıqlı təsirini gücləndirməklə, həm də vahid dünya dövlətinin yaranmasını şərtləndirə bilər. İnsan burada özünü "dünya vətəndaşı" kimi dərk edəcəkdir.

Blaş Avropada mahiyyətcə gələcək *"sivilizasiya geosiyasəti"* məktəbinin əsasını qoyaraq, əvvəlcə fransız-alman, daha sonra isə bütünlükdə Avropa İttifaqı geosiyasi məkanının inkişafının yeni tarixi modelini təklif etmişdir.

Fransız geosiyasətçisinin nəzəriyyəsində maraqlı cəhət həm də qitə və dəniz dövlətləri arasında ziddiyyətlərin "daimi və əbədi olması" ilə bağlı alman geosiyasətçilərinin fikirlərinə qarşı çıxmasından ibarətdir. Onun fikrincə, belə ziddiyyətlər keçicidir və onlar arasında yeni, daha sivil münasibətlərin yaranması yolu ilə aradan qalxacaqdır. Bununla əlaqədar o, belə bir tezisi vurğulayır ki, *"Quru və Dənizin qarşılıqlı təsiri qarşısıalınmaz universal bir prosesdir" [Blache, 1922, p. 272-273].*

2.7.3. Fransa "Dəniz qüdrəti"nin tərəfdarı kimi

Blaş o dövrdə Fransanın əsas siyasi rəqibi olan Almaniyaya xüsusi diqqət yetirirdi. O belə hesab edirdi ki, Almaniya Avropada yeganə qüdrətli dövlətdir ki, onun geosiyasi ekspansiyası Avropanın digər inkişaf etmiş dövlətləri tərəfindən bilərəkdən əngəllənir. İngiltərə və Fransanın Afrikada və bütün dünyada geniş müstəmləkələri olduğu halda, ABŞ Cənuba və Şimala doğru demək olar ki, sərbəst hərəkət edə biləcəyi halda, Rusiyanın Asiyası olduğu halda Almaniya hər tərəfdən sıxılmışdır və öz enerjisini çıxarmaq imkanı yoxdur. Blaşın fikrincə, bu fakt Avropada sülh üçün əsas təhlükə mənbəyi idi. Buna görə də o, bu təhlükəli qonşunun inkişafına hər vasitə ilə mane olmağı zəruri hesab edərək, Avropada vahid birliyin *"xarici çıxış imkanları məhdud olan, hər tərəfdən əhatəyə alınmış Almaniya kimi ölkənin deyil"*, ətrafı və kommunikasiya çıxışları azad olan Fransa, yaxud İngiltərə kimi dövlətlərin rəhbərliyi altında yarana biləcəyini yazırdı *[Желтов, 2009, стр. 168-169].*

"Şərqi Fransa" (1917) adlı fundamental əsərində Blaş Fransa və Almaniya arasında geosiyasi rəqabət problemini - Elzas və Lotaringiya məsələsini və bütövlükdə Şərqi Fransa problemini təhlil edir.[1] O, Elzas və Lotaringiyanın tarixən Fransaya məxsus olmasını və Almaniyanın bu vilayətlər barəsində iddialarının əsassız olduğunu qeyd edir. Bu zaman Blaş Fransa inqilabına istinad edir, onun yakobin ölçüsünü öz dövlətini coğrafi inteqrasiya vasitəsilə unifikasiya etməyə və mərkəzləşdirməyə çalışan fransız xalqının geosiyasi meyillərinin ifadəsi hesab edirdi. O, siyasi liberalizmi də insanların torpağa bağlılığı və onu xüsusi mülkiyyətə çevirmək kimi təbii arzuları ilə izah edir. Beləliklə, Blaş geosiyasi reallıqları özünəməxsus bir tərzdə ideoloji reallıqlarla əlaqələndirir: Qərbi Avropanın (Fransanın) məkan siyasəti "demokratiya" və "liberalizm" ilə çox sıx bağlıdır. Onun geosiyasi baxışlarını *Makinderin* və *Mehenin* baxışları ilə müqayisə etmək olar. Blaşın məhz dəniz oriyentasiyasını seçməsi bu sxemə tam uyğundur.

Onun geosiyasi baxışlarındakı maraqlı xüsusiyyət, dəniz və qitə dövlətləri arasındakı ziddiyyətin aradan qaldırılacağının qaçılmazlığını mümkün hesab etməsi idi. Bu aradanqalxmanın əsasında Quru və Dəniz (Okean) arasında prinsipial olaraq yeni münasibətlər dayanır. Kontinental ərazilər kommunikasiyalar şəbəkəsi ilə dolduqca daha çox nüfuz edilən olur və öz inkişaflarında dəniz yollarına tərəfə istiqamətlənirlər. Okean, öz növbəsində, kontinental rayonlarla əlaqələrdən daha çox asılı vəziyyətə düşür. *Quru və Dənizin qarşılıqlı nüfuz etməsi universal prosesə çevrilir.*

[1] "Şərqi Fransa" alman coğrafiyaşünaslarının etirazı ilə qarşılanır. Onlar üçün Reyn bir sərhəd, ayırıcı xətt ola bilməzdi: "Baden ölkəsi Elzasın güzgüsüdür" *(Fridrix Mets).*

2.8. İSAYYA BOUMEN. LİBERAL BEYNƏLMİLƏLÇİLİK GEOSİYASƏTİNİN NƏZƏRİYYƏÇİSİ



İsayya Boumen
(1878-1950)

2.8.1. Təftişçi geosiyasi düşüncənin sələfi

İkinci Dünya müharibəsi dövründə və ondan sonra daha çox Amerika geosiyasi fikri inkişaf edirdi. ABŞ-ın dünya iqtisadiyyatında kəskin üstünlüyü, *Haushoferin* qabaqcadan söylədiyi kimi, onun Qərb yarımkürəsi hüdudları xaricinə ekspansiyasını şərtləndirirdi. Demək lazımdır ki, ABŞ-ın Birinci Dünya müharibəsindən başlayaraq geosiyasi tarixi Avrasiyada hegemonluq ideyasını dərk etməsi və praktik olaraq həyata keçirməsidir. *Z.Bjezinski* ABŞ-ı dünyada ilk mükəmməl hegemon kimi qiymətləndirir. Belə ki, yalnız ABŞ bütün tarix boyu Avropa üzərində hegemonluğu həyata keçirməyi bacarmışdır. Hazırda, "soyuq müharibə"dən sonra isə ABŞ-ın məqsədi əsas geosiyasi səhnə kimi bütün Avrasiyanı nəzarətdə saxlamaqdan ibarətdir. *Bjezinski* "Böyük şahmat lövhəsi. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri" əsərində (1997) yazırdı: "İndi artıq Avrasiyanın hansı hissəsinin qitəyə hökmranlıq üçün mühüm yer olmasından, yaxud nəyin: quruda və ya dənizdə hökmranlığın daha vacib olmasından söz getmir. Geosiyasət regional düşüncədən qlobal düşüncəyə irəliləmişdir, bununla yanaşı, bütün Avrasiya qitəsi üzərində üstünlük qlobal liderlik üçün əsas təməl rolunu oynayır" *[Brzezinski, 1997, p. 53]*.

Bu baxımdan, amerikalı coğrafiyaşünas İsayya Boumeni *(Isaiah Bowman)* bir qədər şərtiliklə ötən əsrin geosiyasətinin ilk təftişçisi adlandırmaq olar. Boumenin "Yeni dünya" adlı kitabında (1921), P.Teylorun yazdığı kimi, köhnə üslubda realizm coğrafiyadan "azad edilmişdir" *[Taylor, 1993]*. Bu kitab *Vilsonun* "On dörd bən-

di"nin (1918) təsiri altında yazılmışdır. Bununla belə, Boumenin *Vilsona* təsirini də istisna etmək olmaz. Belə ki, bu, onun xidməti mövqeyi ilə asanlaşırdı - Prezident *Vilson* Boumeni 1919-cu il Paris sülh konfransının hazırlanması prosesinə cəlb etmişdi.[1] Alim, həmçinin uzun müddət (1917-1950) Qərbin ən nüfuzlu politoloji mərkəzlərindən biri olan Xarici Əlaqələr Şurasına (Council on Foreign Relations) rəhbərlik etmişdir. Bu, Vilsonun liberal beynəlmiləlçilik ideyasından doğan, dünya geosiyasi məkanında hakimiyyət fəlsəfəsi haqda təsəvvürünün şərhi idi.

Bütövlükdə, siyasi baxışlarına görə Boumen liberal olub, buna görə də Birinci Dünya müharibəsi ərəfəsində, 1918-ci il yanvarın 8-də ABŞ-ın liberal-mütərəqqi Prezidenti Vilsonun elan etdiyi və müharibə bitdikdən sonra açıq diplomatiya, azad ticarət, silahsızlanma üzərində qurulan dünyanın ədalətli, mütərəqqi düzənini nəzərdə tutan "On dörd bənd" proqramını dərhal dəstəkləyib. Bu o demək idi ki, Avstriya-Macarıstan imperiyasının xalqları muxtariyyət almalı, yeni Rusiyanın xalqları, hətta dövlətin müharibə ərəfəsində götürdüyü öhdəliklərin bolşeviklər tərəfindən rədd olunmasına baxmayaraq, beynəlxalq miqyasda bütün hüquqlardan və azadlıqlardan istifadə etməliydilər. Almaniya nəinki Fransaya Elzas və Lotaringiyanı təslim etməklə kifayətlənirdi, həmçinin qəsbkarlıq ilə əlaqədar ziyanı ödəməli, Belçikanın suverenliyini və Polşaya dənizə çıxışı təmin etməli idi. Bu proqrama arxalanaraq ABŞ müharibəyə başladı (1918). Artıq həmin il oktyabrın 3-də Almaniya məğlubiyyətini etiraf etdi və "On dörd bənd" əsasında sülh şərtlərini qəbul etdi.

Zahiri idealizminə baxmayaraq, Boumen nəzəriyyəni praktik fəaliyyətlə uzlaşdıra bilən məşhur ABŞ geosiyasətçilərindən biri hesab olunur. Alim var qüvvəsini və vaxtını praktik fəaliyyətə sərf edirdi.

Boumen Ontarioda, Kanadada doğulmuş, təhsil almışdır. O, bir vaxtlar Amerika Coğrafiyaçıları Assosiasiyasının prezidenti, bir

[1] 1917-1950-ci illərdə Boumen bütün ABŞ prezidentlərinin əsas məsləhətçisi olmuşdur.

çox universitetlərin, o cümlədən Harvard Universitetinin müəllimi olmuşdur. Boumen ABŞ, Böyük Britaniya, Fransa, İtaliya və Yaponiyadan (o zamanın nəhəng dövlətləri) olan mütəxəssislərlə birlikdə 1919-cu il Paris sülh konfransında sərhədlər üzrə mütəxəssis qismində fəal iştirak etmişdir. Konfrans Birinci Dünya müharibəsinə yekun vurmuş, Avropa və dünyada bəzi sərhədləri dəyişmiş və beynəlxalq münasibətləri tənzimləmək üçün təşkilat - Millətlər Cəmiyyətini yaratmışdı. "Versal sülhü" adı almış və Millətlər Cəmiyyətinin Xartiyasında əksini tapmış yeni dünya nizamına uyğun olaraq, Almaniya bütün müstəmləkələrindən məhrum oldu və Millətlər Cəmiyyətinin mandatına əsasən onlar qalib ölkələrin idarəçiliyinə verildilər. Eyni zamanda, ABŞ Senatı Versal müqaviləsini (1920) ratfikasiya etmədi, deməli, Amerika Versal sülhünün təminatçısı olmaqdan imtina etdi. Bu, müharibədən sonrakı bütün Versal sistemini ciddi surətdə sarsıtdı.

Paris sülh konfransından sonra Boumen Avropanın yenicə yaranan və "köhnə" dövlətlərinin, o cümlədən Almaniya və Polşa, İtaliya və Yuqoslaviyanın praktiki sərhədlərinin müəyyənləşdirilməsi ilə məşğul idi. O, nəinki Avropa sərhədlərini, həmçinin qitənin siyasi məsələlərini dərindən öyrənmişdi. Bir müddət sonra, artıq Amerikada olarkən və "Münxen sövdələşməsi"ni (1938) müşahidə edərkən, Boumen ABŞ Prezidenti *Franklin Ruzveltə* (1882-1945) məşhur məktubu göndərdi və gələcək hadisələr, o cümlədən Almaniyanın SSRİ-yə hücumunu əvvəlcədən xəbər verdi və əsaslandırdı. "Yeni dünya" kitabında Boumen, Vilsonun liberal beynəlmiləlçilik ideyaları əsasında dünyada hakimiyyətin bölüşdürülməsi, dünya dövlətlərinin mövqeyi, onların dünya nizamının tənzimlənməsində rolu haqda öz mülahizələrini əks etdirdi. O, ABŞ-ın ənənəvi təcridolunma siyasətindən imtina etməsinin zəruriliyi qənaətinə gəldi. Boumen-siyasətçinin gəldiyi bu nəticə Boumen-coğrafiyaçının ABŞ-ın unikal coğrafi mövqeyi (iki okeana - Atlantik və Sakit okeanlara məhdudiyyətsiz çıxış və deməli, praktiki olaraq bütün qitələrə məhdudiyyətsiz nəzarət imkanları; Avropa və bütün dünya ölkələrindən nisbi uzaqlığı və deməli, ən yüksək səviyyəli

təhlükəsizlik və sarsılmazlıq, hərçənd, texniki tərəqqi nəticəsində sonuncu get-gedə əhəmiyyətini itirir) haqda düşüncələrinə əsaslanırdı. Bu, onun fikrincə, praktiki olaraq Amerikanın Birinci Dünya müharibəsində iştirakını sübuta yetirdi, o zaman ABŞ tərəzinin gözünü strateji müttəfiqlərinin lehinə əyə bildi və böyük mənfəət əldə etdi. Boumenin fikirlərindən istifadə edən Prezident *Ruzvelt* Konqresə hərbi sənayenin inkişaf etdirilməsinin (çünki yaxınlaşmaqda olan dünya müharibəsi ABŞ-a döyüşən ölkələrdən təhlükəsiz məsafədə gizlənməyə imkan vermirdi), silahlı qüvvələrin möhkəmlənməsinin, təcridçilik siyasətindən imtinanın zəruriliyini sübuta yetirirdi.

2.8.2. Liberal beynəlmiləlçilik "Realpolitik"lə ahəngdə

Boumenin ideyalarından biri - artıq deyildiyi kimi - ABŞ-ın təcridçilik siyasətindən imtina etməsidir. Yəni nadir coğrafi mövqeyi və Avropa hərbi əməliyyatlar meydanından uzaqlığı ABŞ-ın təhlükəsizliyi üçün kifayətedici şərt deyil. Odur ki, Boumen ABŞ-ı okean vasitəsilə dünyadan təcridolmadan çıxmağa çağıraraq, Avropa və dünyaya açılmağa, Avropa, Asiya, Sakit və Atlantik okeanı sahili dövlətlərlə hərtərəfli ticari-iqtisadi münasibətlər qurmağa və digər bu tipli liberal fəaliyyətə səsləyirdi. Bütövlükdə, *Boumenin geosiyasi nəzəriyyəsinin əsasını ABŞ-ın hərbi dəniz gücünün artırılması yolu ilə dünya okeanlarına çıxış, başqa quru və dəniz dövlətlərinin ərazisi yaxınlığında hərbi-ticarət və s. bazaların yaradılması və ABŞ-ın həmin ərazilərə təsirinin artırılması təşkil edirdi.* Mahiyyət etibarilə bu, metodoloji nöqteyi-nəzərdən Amerika geosiyasətçiləri və siyasətçilərinin qlobal təfəkkürün *Mehen* və *Makinder* tipinə qayıtması demək idi. Bundan sonra ABŞ Prezidenti Ruzvelt daim müasir texniki infrastruktur şəraitində Sakit və Atlantik okeanlarında dəniz və aviasiya bazaları şəbəkəsinin yaradılmasının ABŞ-ın özünü təhlükəsizlikdə hiss etməsi üçün heç də kifayətedici şərt olmadığını Konqresə bəyan edirdi.

Nəticədə Boumenin bəhs olunan liberal xarici siyasət ideyaları qəbul edilir. 1933-cü ildə SSRİ-nin tanınması və onunla diplomatik

münasibətlərin yaradılması da həmin liberal xarici siyasətin və Prezident *Ruzveltin* iradəsinin nəticəsi idi.

Ruzveltin təsiri ilə ABŞ-da, 1939-cu ilin ortalarında Amerika iqtisadiyyatını depressiyadan çıxarmış hərbi sənaye sürətlə inkişaf etməyə başlayır. İkinci Dünya müharibəsinin başlanması ilə ölkəyə Böyük Britaniyadan hərbi sifarişlər daxil olurdu. Maraqlıdır ki, artıq *Ruzvelt* ABŞ üçün Avrasiyanın vacibliyini anlayırdı. Özü də *Makinderin* izah etdiyi interpretasiyada.

Ruzvelt, mahiyyət etibarilə, 1933-1945-ci illərdəki dövr üçün Amerika geosiyasi strategiyasını müəyyənləşdirmişdi. Əvvəla, o, ənənəvi Amerika təcridçiliyini qəbul etmirdi. İkincisi, "təcrid" olunmuş Amerikanın ərazisini çox təhlükəli edən aviasiya kimi güclü texnoloji amilin rolunu anlayanlar arasında birincilərdən olmuşdur. ABŞ-ın geosiyasi problemlərini artıq bu zaman yalnız *Mehenin* "dəniz" ideyalarına söykənərək həll etmək olmazdı. Aviasiyanın inkişafı, alman geosiyasətinin aqressivliyi, ABŞ-ın get-gedə Avropa işlərinə daha çox cəlb olunması yeni nəzəriyyələr tələb edirdi. O zaman Amerika geosiyasətini işləyib hazırlayanlar içərisində Boumendən başqa, *H.Uaydqert, R.Straus-Hyupe, V.Stefanson, O.Latimor, D.Uilsi* seçilirdi.

Alman geosiyasətçiləri ABŞ-ı hegemon dövlət deyil, 3 üstün dövlətdən biri kimi qəbul edirdilər. Həqiqətən, əgər texnoloji üstünlük kimi mühüm geosiyasi amilə müraciət edilsə, onda İkinci Dünya müharibəsi ərəfəsində üstünlük Almaniya tərəfində olmuşdur. Onun elmi potensialı amerikalıları xeyli üstələyirdi. Almaniyanın məğlubiyyətindən sonra ABŞ obyektiv olaraq ən güclü dövlət oldu. Onun dünya iqtisadiyyatında qəfil hökmranlığı (demək olar ki, dünyanın ümumi daxili məhsulunun ÜDM 1/2-i bu dövlətin payına düşürdü) ABŞ-ın Qərb yarımkürəsi hüdudlarından mütləq çıxacağını göstərirdi. Maraqlıdır ki, bu nəzarət dairəsi ona alman panregionalizmi tərəfindən ayrılmışdı.

2.9. NİKOLAS SPAYKMEN. AMERİKANIN QƏLƏBƏSİNİN MEMARI

2.9.1. Coğrafiya dövlətlərin siyasətinin əsas amili kimi



Nikolas Spaykmen
(1893-1943)

Yeni Amerika geosiyasətinin görkəmli nəzəriyyəçisi, holland mənşəli amerikalı Nikolas Con Spaykmen *(Nicholas John Spykman)* admiral *Mehenin* təklif etdiyi xəttin birbaşa davamçısıdır. Spaykmen Yel Universitetində Beynəlxalq Münasibətlər İnstitutunun professoru, sonradan həmin institutun direktoru olmuşdur. *"Rimlənd" nəzəri konsepsiyasının banisi kimi tanınır. Alimlər onu "Amerikanın Haushoferi"* adlandırırlar. İlk geosiyasətçilərdən fərqli olaraq onun üçün coğrafiya o qədər də maraqlı deyildi, xalqın torpaq ilə əlaqəsi, relyefin milli xarakterə təsiri və sair problemlər isə onu daha az narahat edirdi. Spaykmen geosiyasəti beynəlxalq siyasətin ən mühüm vasitəsi, səmərəli strategiya işləyib hazırlamağa imkan verən analitik metod və müvafiq formullar sistemi hesab edirdi. Bu mənada o, alman geosiyasət məktəbini (xüsusən özünün *"Dünya coğrafiyası"* kitabında) kəskin tənqid edir, ədalətli və ya ədalətsiz sərhədlər haqqında təsəvvürləri "metafizik cəfəngiyat" adlandırırdı *[Spykman, 1942, p. 41]*.

Spaykmen *Mehenin* "dəniz qüdrəti" barədə ideyasını və *Makinderin* "Hartlənd" nəzəriyyəsini ABŞ-ın təhlükəsizlik maraqları mövqeyindən birləşdirmişdir. O, nəzəri düşüncələrində elm kimi geosiyasətin mərkəzində təhlükəsizlik problemini qoyurdu. Düşünürdü ki, geosiyasət ölkənin coğrafi amilləri baxımından praktik təhlükəsizlik siyasətinin formalaşdırılmasında istifadə olunmalıdır.

"Coğrafiya dövlətin xarici siyasətində ən fundamental amildir, çünki bu amil daimidir. Hökumətlər gəldi-gedərdi, hətta

diktatorlar da ölürlər, dağların düzümü isə sarsılmazdır" *[Spykman, 1942, p. 41].*

Əgər *Makinder* bütün dünyanın hakim zonası kimi "Hartlənd"i götürürdüsə, Spaykmen əksinə, Avrasiyada buna "Rimlənd"i aid edirdi ("Rimlənd" - ingilis sözü olub, rim - haşiyə, lend - yer deməkdir). Bu zona coğrafi mövqeyinə görə *Makinderin* daxili ayparasına uyğun gəlir (*bax:* **xəritə 7**). Spaykmenin fikrincə, bu, köçəri tayfaların qitə özəyindən hücumu nəticəsində yaranmış sahilboyu Avrasiya dövlətlərini özündə birləşdirir. Bu nəhəng "materik haşiyəsi" - "mübahisəli qurşaq", "kontinental və dəniz dövlətləri arasında münaqişənin bufer zonası" inteqrasiyalı nəzarətə aid olmalıdır. Belə ki, burada hegemon okean dövləti (ABŞ) və "Hartlənd"in sahibi (SSRİ) arasında qarşıdurma həyata keçirilir.



Xəritə 7. ***N.Spaykmenin geosiyasi modeli***
Mənbə: A Strategic Atlas, 1990

Spaykmen üçün utilitar (praktiki, tətbiqi) yanaşma, ABŞ-ın ən qısa müddətdə "dünyada hegemonluğa nail olması" vasitəsi kimi çıxış edə biləcək ən səmərəli geosiyasi formulu təklif etmək arzusu səciyyəvi idi. Bu praqmatik yanaşma Spaykmenin bütün tədqiqatlarının ana xəttini müəyyən edirdi.

Spaykmenin görüşləri həm alman *F.Ratselin* coğrafi müəyyənlik (determinizm), həm də fransız *L.Fevrin* mümkünlüyündən (possibilizm) fərqlənir. *Ratselə* görə dövlətlərin siyasəti yalnız coğrafi məcburiyyətlərə (məkanın yerləşməsi, dağ, çay, dəniz və oxşar təbii müdafiənin olub-olmaması, etibarlı ərazi axtarışı və s.) əsasən müəyyən edilir. Fevrin fikrincə isə, coğrafiya insanlara müxtəlif cür istifadə edilən (və ya edilməyən) fürsətlər və imkanları təklif edir. Məsələn, Reyn çayı həm ticarət yolu kimi, həm də sahilyanı dövlətləri ayıran sərhəd kimi nəzərdən keçirilə bilər *[Philippe Moreau Defarges, 2009].*

Napoleonun məşhur düsturunu, - *"Dövlət öz coğrafiyasına uyğun siyasət yürüdür"*, - fikrinin əks-sədası kimi, Spaykmenin fikrincə, *coğrafiya ilkin meyil* yaradır.

Deməli, orta ölçülü ada olaraq zəif kənd təsərrüfatı potensialına malik olmaq və Avropa qitəsinin kənarında yerləşmək İngiltərəni öz təhlükəsizliyini, tələbatını, zənginliyini və gücünü okeanlarda axtarmağa təhrik edir. Eləcə də Avropanın mərkəzində yerləşərək dənizə ensiz çıxışı olan, Fransa və slavyan dünyası arasında sıxılmış Almaniyanı XIX əsrin sonları - XX əsrin əvvəllərində daim narahat edən fikir (qonşular tərəfindən mühasirəyə alınmaq və boğulmaq) onun Avropanın mərkəzindəki bu mühasirəni yararaq həyati məkana iddiasını doğurur *[yenə orada].*

2.9.2. Paradiqmaların əvəzlənməsi: Makinderi təshih

Makinderin əsərlərini diqqətlə öyrəndikdən sonra Spaykmen onun geosiyasi sxeminə öz variantını təklif etmişdir (*bax:* **xəritə 7**). *Makinderin* modelindən bir qədər fərqlənən bu variantda Spaykmenin əsas ideyası ondan ibarət idi ki, *Makinder,* onun fikrincə, "Hartlənd"in geosiyasi əhəmiyyətini çox şişirtmişdir. Bu mübaliğə təkcə dünya xəritəsində qüvvələrin aktual mövqeyini, o cümlədən SSRİ-nin qüdrətini deyil, həm də tarixi sxemi şübhə altına alırdı. Spaykmen belə hesab edirdi ki, "daxili aypara"nın, "Rimlənd"in, "sahil zonaları"nın coğrafi tarixi *Makinderin* iddia etdiyi kimi "quru köçəriləri"nin təzyiqi altında deyil, təbii şəkildə cərəyan etmişdir. Onun fikrincə, "Hartlənd" yalnız potensial məkandır və bütün mədəni tə-

kanları sahil zonalarından alır, onun özünün heç bir müstəqil geosiyasi missiyası və ya tarixi impulsu yoxdur. Onun fikrincə, dünya ağalığının mənbəyi "Hartlənd" deyil, məhz "Rimlənd"dir. Beləliklə, göründüyü kimi, **Spaykmen *Makinderin* "Hartlənd" nəzəriyyəsini və formulunu özünün "Rimlənd" formulu ilə əvəz edərək: *"Kim "Rimlənd"də hökmranlıq edirsə, o, Avrasiyada hökmranlıq edir; kim Avrasiyada hökmranlıq edirsə, o, dünyanın taleyini əlində saxlayır", - yazmışdır*** *[Spykmen, 1944, p. 43]*.

Avrasiya qitəsinin qərbindən şərqinə uzanan *"haşiyədaxili aypara"* zolağını Spaykmen "Avrasiya "Rimləndi"" adlandırmışdır. Yer kürəsinin İngiltərədən başlayıb, Yaponiyada - Oxot dənizində bitən böyük quru hissəsini əhatə edən və Şimal qütbü ilə Cənub qütbü arasında uzanan ərazini o, dünyanın böyük dəniz yollarına nəzarət etməyə imkan verən *geostrateji məkan* kimi qiymətləndirirdi *[Spykmen, 1942, p. 41]*.

Prinsip etibarilə Spaykmen heç bir yenilik etməmişdi. *Makinderin* özü üçün də "sahil zonası", "xarici aypara" və ya "Rimlənd" qitə üzərində nəzarətdə mühüm strateji mövqe idi. **Lakin *Makinder* bu zonanı müstəqil və özünü idarə edə bilən geosiyasi qurum kimi deyil, iki impulsun - Dəniz və Quru impulslarının qarşıdurma məkanı kimi başa düşürdü.** O, "Hartlənd" üzərində nəzarəti heç vaxt Rusiya və ona bitişik qitə əraziləri üzərində hökmranlıq mənasında başa düşmürdü. Şərqi Avropa "tarixin coğrafi oxu" ilə "Rimlənd" arasında orta bir məkandır. Buna görə də dünyada ağalıq probleminin açarı məhz "Hartlənd" periferiyasında qüvvələr nisbətidir. Amma Spaykmen öz geosiyasi doktrinasında *Makinderin* baxışları barədə aksentlərin dəyişməsini radikal bir yenilik kimi təsəvvür edirdi, halbuki burada söhbət yalnız bəzi anlayışların nüansları barədə idi.

2.9.3. Qüdrətin müəyyən edilməsi şkalası

Spaykmen dövlətin geosiyasi qüdrətini 10 əsas meyarla fərqləndirirdi. Bunlar:

1) ərazinin relyefi (səth quruluşu);
2) sərhədlər;

3) əhalinin sayı;
4) faydalı qazıntıların mövcudluğu;
5) iqtisadi və texnoloji inkişaf səviyyəsi;
6) sosial inteqrasiyanın səviyyəsi;
7) maliyyə qüdrəti;
8) etnik bütövlük;
9) siyasi sabitlik;
10) milli ruhdan ibarət idi [Spykmen, 1942, p. 41].

Müəllifin fikrincə, əgər dövlətin geosiyasi imkanlarının məcmu qiymət ölçüləri bu meyarlara cavab vermirsə, onda həmin dövlət qlobal strateji geosiyasi proteksiya xatirinə öz suverenliyinin bir hissəsini güzəşt etməklə daha ümumi strateji ittifaqa daxil olmağa məcburdur.

2.9.4. "Orta okean"

Spaykmen "Rimlənd" anlayışını yenidən qiymətləndirməklə yanaşı, dünyanın "dəniz qüdrəti" konsepsiyası mövqeyindən görünən geosiyasi mənzərəsinə daha bir mühüm əlavə etmişdir. **O, son dərəcə əhəmiyyətli olan *"Orta okean"* (Midland Ocean) anlayışını tətbiq etmişdir.** Bu geosiyasi təsəvvürün əsasını Avropanın, Yaxın Şərqin və Şimali Afrikanın qədim tarixində Aralıq dənizinin rolu ilə Qərb sivilizasiyasının ən yeni tarixində Atlantik okeanın rolu arasında aşkar analogiya təşkil edir. Spaykmen məhz "sahil zonası"nı, "Rimlənd"i sivilizasiyaların əsas tarixi ərazisi hesab etdiyinə görə, qədim dövrdə Aralıq dənizi arealını sonradan qitənin daxilinə (quru ərazidəki barbarların mədəniləşdirilməsi) və yalnız dəniz yollarının köməyi ilə çatmaq mümkün olan uçqar ərazilərə (dəniz barbarlarının mədəniləşdirilməsi) yayılmış mədəniyyət nümunəsi kimi təsəvvür edirdi. Aralıq dənizi modelinin oxşarı kimi, ən yeni dövrdə eyni hadisələr daha geniş, planetar miqyasda Atlantik okeanı ilə əlaqədardır. Atlantik okeanın Amerika və Avropa sahilləri texnoloji və iqtisadi baxımdan ən çox inkişaf etmiş Qərb sivilizasiyası arealıdır.

Bu perspektivdə "Orta okean" ayırıcı deyil, birləşdirici amilə, "daxili dəniz"ə (marc internum) çevrilir. Beləliklə, Spaykmen şər-

ti olaraq *"Atlantik qitə"* adlandırıla biləcək məxsusi geosiyasi reallığı nəzərdə tutur. Atlantik okeanı quru ərazidəki göl kimi həmin qitənin mərkəzində yerləşir. Bu nəzəri "qitə", "yeni Atlantida" Qərbi Avropa mənşəli mədəniyyətin ümumiliyi, liberal kapitalizm ideologiyası və demokratiya, siyasi, etnik və texnoloji tale ümumiliyi ilə bağlıdır.

Spaykmen *"Atlantik qitə"də* intellektual amilin rolunu xüsusi israrla vurğulayırdı. Qərbi Avropa və Şimali Amerikanın Şərq sahil zolağı (xüsusən Nyu-York) yeni *"Atlantik birliyi"nin* mərkəzinə çevrilir. ABŞ və onun ticarət və hərbi-sənaye kompleksi bu kontinentin sinir mərkəzi və qüvvə mexanizmini təşkil edir. Avropa ABŞ-ın təfəkkür əlavəsinə çevrilir. ABŞ-ın geosiyasi maraqları və strateji fəaliyyət xətti bütün Qərb dövlətləri üçün yeganə və əsas olur. Beləliklə, tədricən Avropa dövlətlərinin siyasi suverenliyi də azalmalı, hakimiyyət isə bütün Atlantik məkanlarının nümayəndələrini birləşdirən və ABŞ-ın liderliyinə tabe olan xüsusi instansiyaya keçməlidir.

Spaykmenin doktrinasının praktiki mahiyyəti ABŞ-ın bütün Avrasiya sahil rayonlarına - Avropaya, müsəlman dünyasına, Hindistana (Spaykmen gələcəkdə Hindistanın Şimali Amerikanın Atlantik okeanı sahilləri, Avropa sahilləri, Avrasiyanın Uzaq Şərqi ilə yanaşı dünya qüdrətinin dördüncü mərkəzinə çevrilə biləcəyini güman edirdi), Çinə, Cənub-Şərqi Asiya və sair ölkələrə güclü nəzarətinin yaradılmasından ibarət idi. Onun fikrincə, bu mühüm əhəmiyyətli geosiyasi zolaq üzərində güclü nəzarətin qoyulması ilə qitə və dəniz qüvvələrinin mübarizəsində qələbəyə nail olmaq olar.

***Makinderin* təsəvvüründə planetar duallıq əbədi, dəyişməz hesab edildiyi halda, Spaykmen elə güman edirdi ki, dəniz dövlətləri tərəfindən "Rimlənd" üzərində mükəmməl nəzarət quru dövlətləri üzərində tam və qəti qələbə ilə nəticələnəcək, həmin dövlətlər bundan sonra tamamilə quru dövlətlərini nəzarət altına keçirəcəklər. Bu, əslində, *Mehenin* əsaslandırmış olduğu "anakonda" siyasətinin inkişafının ən yüksək həddi idi. Spaykmen bu konsepsiyanı tamamlamışdı.**

Spaykmen, ümumiyyətlə, beynəlxalq münasibətlərdə zor tətbiq edilməsinin tərəfdarı idi. Onun fikrincə, güc, qüvvə planetar geosiyasətdə siyasi qayda-qanunun tərkib hissəsidir. Beynəlxalq iyerarxiya dünyasında xarici siyasət ya dövlətin vəziyyətinin, mövqelərinin yaxşılaşdırılmasına, ya da heç olmasa, dövlətin müqayisəli güc, qüvvə mövqeyinin saxlanmasına xidmət etməlidir. Ən nəhayət, müəllifə görə, dövlətin gücü, qüdrəti onun uğurlu müharibə aparmaq qabiliyyətini təşkil edir.

2.9.5. Fövqəldövlətin qarşıdurmasına doğru

Amerika geosiyasətçisinin çıxardığı *nəticələr* yalnız *Mehen* və *Makinderin* konsepsiyalarına deyil, həm də alman-yapon blokunun müharibə təcrübəsinə söykənirdi. O hesab edirdi ki, İkinci Dünya müharibəsinin hansısa anında alman-yapon bloku "Hartlənd"i dəniz dövlətlərindən - Böyük Britaniya və ABŞ-dan təcrid etmək məqsədilə "Rimlənd" üzərində nəzarəti həyata keçirməyə yaxın idi. Əslində isə, məlum olduğu kimi, İkinci Dünya müharibəsində vəziyyət Makindersayağı inkişaf etmişdir. "Hartlənd"dən qərb, şərq və cənub istiqamətlərinə güclü təzyiq onun Avrasiya üzərində daha böyük nəzarətinə gətirib çıxarmışdır. İkinci Dünya müharibəsinin nəticələrindən biri, kontinental dövlətlərin "Hartlənd"in nəzarəti altında sahə etibarilə *Çingiz xan* imperiyasından böyük nəhəng blokunun yaranması olmuşdur.

Lakin geosiyasi modellərdə reallığın dəqiq, yaxud tamamilə qeyri-dəqiq əks olunması heç də həmişə vacib hesab olunmur. Mental amil böyük rol oynayır. Kifayət qədər çoxlu sayda siyasətçi "Hartlənd-Rimlənd" modelinin doğruluğuna inanırdı, nəticədə o, xarici siyasət yaradıcılarının ideoloji silahına çevrildi.

1947-ci ildə diplomat *Corc Frost Kennanın* (1904-2005) "İks" təxəllüsü ilə Amerika jurnalı "Foreign Affairs"də məqaləsi dərc edilmişdir *[Kennan, 1947, p. 566-582]. "Sovet davranışının mənbəyi"* adlı düşündürücü məqaləni "SSRİ-ni çəkindirmə siyasəti"nin Bibliyası adlandırırlar. *Kissincer* yazır ki, *"Amerika düşüncəsinin bütün müharibədən sonrakı istiqamətləri bu əvəzsiz məqalədə bir yerə toplanmışdır" [Киссинджер, 1997, стр. 408].* Qeyd et-

mək yerinə düşər ki, Spaykmenin tədqiqatları olmasaydı, bu məqalə çətinki yaranardı. *Kennan* SSRİ-nin Qərb dövlətləri ilə müharibədən sonrakı danışıqlarda yolagəlməzliyinin təbiətini izah etmişdir. O, bunun əsas səbəbini kommunist dünyagörüşünün və sovet sisteminin əzəli xüsusiyyətində - xarici dünyaya düşmənçilikdə görürdü. Bu əsasda qurulmuş strategiyaya isə yalnız dinc və sabit dünyanın maraqlarına qəsd təzahürlərinin özünü göstərdiyi, istənilən nöqtədə həmişə qarşı duran qüvvənin əlində olan, "qabaqcadan ruslara müqavimət üçün müəyyən edilən "sərt çəkindirmə siyasəti" vasitəsilə qalib gəlmək olar" *[Kissincerdən sitat, 1997, səh. 409].*[1]

"Hartlənd-Rimlənd" modelinə müvafiq olaraq ABŞ-da "çəkindirmə" adlanan siyasət həyata keçirilirdi və Trumen doktrinası SSRİ-nin təzyiqinə müqavimət siyasəti kimi buna əsaslanırdı. Amerika tədqiqatçısı Q.Alperovits *"kontrfaktual tarix"* anlayışını gündəmə gətirmişdir. O, bu yanaşma nöqteyi-nəzərdən yazırdı: *"Birləşmiş Ştatlar çəkindirmə siyasətini qəbul etməsəydi, Sovet İttifaqı mütləq öz ekspansiyasını bütün Avropaya yayacaqdı" [Алперовиц, 1994, стр. 32].*

İkinci Dünya müharibəsindən sonra dünyanın geosiyasi məkanı kifayət qədər sürətlə ikihədli (binar) quruluşa, yəni iki fövqəldövlətin qarşıdurmasına doğru sadələşdi. "Rimlənd"də hərbi-siyasi ittifaqlar yaranırdı və burada ABŞ-la SSRİ arasında Koreyadakı müharibədən (1950-1953) tutmuş Əfqanıstandakı müharibəyə (1979-1989) qədər həqiqətən ciddi qarşıdurma var idi.

"Hartlənd"in (SSRİ və onun müttəfiqləri) "izolyatorları" qismində hərbi bloklar yaranmışdı:

[1] C.Kennan hakimiyyətin qanunsuz dəyişilməsi səbəbindən meydana gəlmiş SSRİ-nin fundamental transformasiyasının mümkünlüyünü qabaqcadan söyləyən az sayda adamlardandır. O yazırdı ki, hansısa anda müxtəlif hakimiyyət iddiaçıları "müəyyən tələbatlarına dəstək tapmaq üçün siyasi cəhətdən kütbeyin və təcrübəsiz kütlənin təkinə enə bilər. Bu nə vaxtsa baş versə, buradan Kommunist Partiyası üçün qeyri-adi nəticələr meydana çıxacaq. Onda üzvlük geniş planda kompromis və qarşılıqlı uyğunlaşma bacarığına yox, dəmir intizam və itaətə əsaslanır. Əgər deyilənlərin nəticəsində partiyanın yekdilliyini və siyasi alət kimi effektivliyini pozan nə isə baş versə, sovet Rusiyası bir gecədə ən güclü milli birliklərin birindən ən zəif miskin birliyə çevrilər" [Kissincerdən sitat, 1997, səh. 409].

Avropada - *NATO (ing. North Atlantic Treaty Organization) - Şimali Atlantika Müqaviləsi Təşkilatı.* Ona 16 üzv-dövlət daxil oldu - ABŞ, Almaniya, Belçika, Böyük Britaniya, Danimarka, Fransa (bu ölkə 1966-cı ildə təşkilatın inteqrasiya olunmuş hərbi strukturundan çıxdı), İslandiya, İspaniya, İtaliya, Kanada, Lüksemburq, Niderland, Norveç, Portuqaliya, Türkiyə və Yunanıstan;

Qərbi Asiyada - *SENTO (ing. The Central Treaty Organization) - Mərkəzi Müqavilə Təşkilatı* (1955-1979). İraq onun tərkibindən çıxanadək (1958) "Bağdad paktı" adlanırdı. Böyük Britaniya, Türkiyə, İran, Pakistan rəsmən təşkilata daxil idilər. ABŞ formal olaraq bu təşkilatın üzvü olmasa da, onun əsas komitələrinə daxil idi və əslində, fəaliyyətində rəhbər mövqe tuturdu;

Şərqi Asiyada - *SEATO (ing. South-East Asia Treaty Organization) - Cənub-Şərqi Asiya Müqaviləsi Təşkilatı* (1954-1977). Avstraliya, Yeni Zelandiya, Tailand, Pakistan, Filippin, həmçinin bu regionda yerləşməyən ölkələri - Böyük Britaniya və Fransanı birləşdirirdi.

Beləliklə, "Hartlənd" demək olar ki, tamamilə qurşaqla əhatələnmiş, artıq bizə məlum olan "anakonda"nın halqalarında olmuşdur.

1945-ci ildən sonra, müharibədən sonrakı illər izolyasiya pozulan yerdə böyük və kiçik münaqişələr, yaxud lokal müharibələr formasında toqquşmalar baş verirdi. Məsələn, 1950-ci ildən 1953-cü ilədək Koreyada müharibə, 1953-cü il iyunun 17-də Berlində üsyan, 1956-cı ildə Polşada və Macarıstanda üsyan, 1961-ci il avqustun 13-də Berlin böhranı və Berlin divarının tikilməsi, 1948/49, 1956 (Süveyş böhranı), 1967 və 1973-cü illər ərəb-İsrail müharibələri; Varşava müqaviləsi ölkələri qoşunlarının 1968-ci ildə Çexoslovakiyaya yeridilməsi, 1946-1956-cı illərdə Fransanın Vyetnama qarşı müharibəsi, 1965-1974-cü illərdə ABŞ-ın Vyetnama qarşı müharibəsi, həmçinin hələ *Makinderin* ingilis-amerika tarixinin Asiyada forpostu adlandırdığı İsrailə ABŞ tərəfindən daimi hərbi yardım, 1967-ci ildə Kambocada, 1975-ci ildə Laosda, 1979-1989-cu illərdə isə Əfqanıstanda hadisələr və s.

"Rimlənd" zonasında Amerika siyasəti tamamilə sovet hökmranlığının Avrasiyada və bütövlükdə, Dünya-Adada qarşısının alınmasına yönəlmişdi. Mərkəzi-Şərqi Avropa ölkələrinin NATO-ya qəbul edilməsini bir çox geosiyasətçilər Qərbin "Rimlənd" zonasına irəliləməsi kimi qiymətləndirirlər. Qeyd edilməlidir ki, SSRİ-nin geosiyasəti yalnız ideoloji baxımdan anti-imperializm kimi əsaslandırılırdı, ABŞ isə özünü azad dünya müdafiəçisi elan edirdi. "Qərb" və "Şərq" anlayışları ideoloji mahiyyət daşıyırdılar. Bu prinsipə görə, Uzaq Şərqdə yerləşən Yaponiya Qərbin bir hissəsi idi. SSRİ NATO-ya müqabil olaraq Varşava Müqaviləsi Təşkilatı hərbi blokunu yaratmış, blok 1991-ci il aprelin 1-də dağılmışdır.

"Çəkindirmə siyasəti" məhdud, lakin sadə məkan modellərinin yaranmasına gətirib çıxarmışdır. Bunların köməyi ilə "Rimlənd"in ayrı-ayrı sektorlarında geosiyasi vəziyyət izah olunur, həmçinin Üçüncü dünyanın digər bölgələrinə yayılırdı. Belə modellərin klassik analogiyası *U.Rostou, M.Teylor* və *R.Maknamara* tərəfindən adlandırılmış *"domino nəzəriyyəsi"*dir [Dictionary.., 1994, p. 64]. Bu nəzəriyyəyə görə, bir ölkənin "süqutu" qonşu ölkələrdə mütləq ABŞ-ın maraqlarının ziyanına gətirib çıxaracaq, necə ki, Kambocanın itirilməsi Tailandda, Malayziyada və qonşu ölkələrdə riskin artması ilə müşayiət olunmuşdur.

Qərbi Avropada "domino nəzəriyyəsi" 1966-cı ildə *R.Lyovental* tərəfindən işlədilmiş *"finlandizasiya"* istilahı ilə əvəzlənmişdir *[Dictionary.., 1994, p. 80]*. Onun məğzi belədir: Məlum olduğu kimi, Finlandiya Almaniya ilə SSRİ-yə qarşı koalisiyada olub. Lakin 1944-cü ildə SSRİ bu ölkəni siyasi kursu dəyişməyə və Almaniyaya qarşı mübarizəyə qoşulmağa məcbur etdi. Paris sülh müqavilələrinin (1947) şərtləri Finlandiyaya münasibətdə mülayim idi. O, bəzi ərazilərini SSRİ-yə güzəştə getməli, öz ordusunun sayını məhdudlaşdırmalı və SSRİ-yə əmtəə ilə 300 milyon dollar həcmində təzminat ödəməliydi *[Европа, 1998, стр. 95]*. Finlandiyanı kommunistlərin mühüm rol oynadığı hökumət koalisiyaları idarə edirdi. Finlandiya daxili işlərində tam müstəqillik naminə antisovet fəaliyyətdən imtina edirdi. Bu cür modelin digər Qərbi Avropa ölkələrinə şamil edil-

məsi mümkün idi. Eyni zamanda, düşünülürdü ki, SSRİ ölkələrin hərbi yolla zəbt edilməsini həyata keçirməz, lakin təsir dairəsinə daxil olan ölkələr üzərində nəzarət siyasəti onun mövqelərini gücləndirər. Hesab olunurdu ki, Finlandiya bu cür prosesin nümunəsidir.

Bu konsepsiya *R.Leybovits* tərəfindən şiddətli tənqidə məruz qaldı *[Leibowitz, 1983]*. O, əslində, Finlandiyanın "finlandizasiya nəzəriyyəsi"nin şərhi ilə müqayisədə kifayət qədər muxtariyyətə malik olduğunu göstərdi.

"Domino nəzəriyyəsi"nə əsaslanan ABŞ siyasətçiləri dəfələrlə ifrata vararaq hətta NATO üzrə nüfuzlu tərəfdaşlarını kifayət qədər alçaldıcı vəziyyətə qoymuşlar. *Şarl dö Qollun* 1960-cı illərin ikinci yarısında Fransanın SSRİ ilə qarşıdurmada ABŞ-ın plasdarmı vəziyyətinə düşməsi ilə razılaşmayaraq ölkəsini NATO hərbi təşkilatından çıxarması bunu aydın göstərir.

Qeyd etməliyik ki, "soyuq müharibə"də ABŞ-ın Dəniz qüvvəsi kimi qalib gəlməsi göstərdi ki, liberal-demokratik ölkələrin Avrasiya üzərində dünya miqyasında qələbəsinin memarı adlandırıla biləcək Spaykmen geosiyasi baxımdan tamamilə haqlı imiş.

İndiki dövrdə bizə belə gəlir ki, "Rimlənd"in strateji üstünlüyü və "Orta okean"ın vacibliyi barədə Spaykmenin tezislərini tarix özü sübut etmişdir. Lakin Avrasiyanın mərkəzinin daim siyasi dirçəlişə və kontinental ekspansiyaya cəhd göstərməsi barədə *Makinderin* nəzəriyyəsinin üstündən xətt çəkmək də hələ tezdir.

Digər tərəfdən, Spaykmenin (xüsusən onun davamçısı, "Rimlənd" nəzəriyyəsini daha da inkişaf etdirmiş *V.Kirkin*) bəzi ideyaları avropalı siyasətçilərin bir qismi tərəfindən dəstəklənmişdir. **Onlar Spaykmenin sahil ərazilərinə çox yüksək strateji qiymət verməsini Avropanı yenidən dünyanın taleyini həll edən ölkələr sırasına çıxarmaq imkanı hesab edirdilər.** Lakin bundan ötrü "Orta okean" konsepsiyasını bir kənara atmaq lazım gəlirdi. Bəzi avropalı geosiyasətçilərin bu nəzəri gedişinə (hərçənd, bu gediş ikimənalıdır) baxmayaraq, heç şübhəsiz, Spaykmen ən ardıcıl atlantistlər sırasına məxsusdur. **Üstəlik, admiral *Mehenlə* bərabər onu da "atlantizmin atası" və *"NATO-nun ideya ilhamçısı"* hesab etmək olar.**

2.10. YAPON GEOSİYASƏTİ - FUMİMARO KONOYE



Fumimaro Konoye
(1891-1945)

2.10.1. Yapon geosiyasi təfəkküründün qaynaqları

1868-ci ildən başlayaraq iqtisadiyyatını ciddi şəkildə modernləşdirən və qapılarını Avro-Amerika tacirləri üçün açıq elan edən Yaponiya, *Meydzinin*[1] "maarifçi idarəçilik rejimi" adlanan hakimiyyəti dövründə qısa müddət ərzində Cənub-Şərqi Asiyanın ən güclü iqtisadi və hərbi-sənaye dövlətinə çevrilir, regionda geosiyasi mövqelərini gücləndirməyə başlayır.

Yapon imperializminin və iri kapitalist müəssisələrinin artan ehtiyacları və getdikcə yeni xammal və müstəmləkələr əldə keçirmək cəhdləri tezliklə bu ölkəni Uzaq Şərq, Cənub-Şərqi Asiya və Cənub dənizləri regionunda həm ABŞ və İngiltərə müstəmləkəçiləri, həm də yerli dövlət və xalqlarla üz-üzə qoydu.

XIX əsrin sonunda Yaponiyanın xarici siyasətində iki başlıca istiqamət yer aldı ki, tədqiqatçılar bunu Yaponiyanın dünyanın imperialist bölüşdürülməsi mübarizəsinə (1894-1904-cü illər)[2] qatılması kimi müəyyən edirlər:

1) İmperialist dövlətlərin Cənub-Şərqi Asiyanın bölüşdürülməsi məqsədilə həyata keçirdikləri birgə hərbi əməliyyat nəticəsində bağlanmış qeyri-bərabər hüquqlu müqavilələrin anti-yapon nəticələrinin ləğv edilməsi və Yaponiyanın bölgədəki itirilmiş mövqelərinin, pozulmuş maraqlarının bərpa edilməsi. Geosiyasətdə bu istiqamət *asiyaçılıq* kimi rəsmiləşdirilir;

[1] İmperatorun əsl adı Mutsuxitodur (1852-1912), lakin ölümündən sonra tarixə Meydzi adı ilə daxil olmuşdur.

[2] 1904-1905-ci illərdə Yaponiya faktiki olaraq qüdrətli dövlətlərə aid edilirdi.

2) Çin, SSRİ və digər Qərb ölkələrinin Cənub-Şərqi Asiyada, o cümlədən Uzaq Şərqdəki müstəmləkələrinin əldə keçirilməsi, Yaponiyanın bölgənin təkbaşına hakiminə çevrilməsi.

Yapon geosiyastrategiyası Almaniyadan asılı olması və yaxud müstəqilliyinə görə iki cəbhəyə ayrılırdı. Onlardan biri ***Kioto geosiyasət məktəbi*** idi. "Yapon geosiyasətinin manifesti" kitabının müəllifi Sanesiga Komakinin (1898-19--)rəhbərliyi ilə bu nəzəriyyə Kioto imperator universitetində hazırlanmışdı və Birinci Dünya müharibəsinə qədər Yaponiyanın aparıcı nəzəriyyələrindən biri hesab olunurdu.

Bu istiqamət Tokuqava[1] dövrünün sonunda formalaşmış *"milli elm məktəbi"*nə əsaslanırdı. "Milli elmin" bünövrəsində o zaman dini nəzəriyyə kimi anti-syoqun ideologiyasının dayağı olmuş sintoizm dururdu. İmperatora ehtiram göstərmə mükəmməl imperator hakimiyyətinin qaytarılması uğrunda mübarizənin proqramına çevrilmişdi. Meydzinin bərpası qədim ənənə kimi özündə imperator üsul-idarəsinin qayıdışını əks etdirirdi. Belə ki, 1868-ci ildən sonra modernləşmə dövlət siyasətinin prioriteti olmuşdu ki, bunun da nəticəsində cəmiyyətdə öz milli özünəməxsusluğunu itirmək qorxusu yaranmışdı. Kioto geosiyasət məktəbi tradisionalistlər məktəbi idi. İki min ildən artıq dövrü əhatə edən yapon dini ənənələrinin mistifikasiyasına (fövqəltəbii, ilahi qüvvəyə inanış) böyük diqqət ayrılırdı. Günəş ilahəsi *Amaterasu*nun xələfi, guya III-IV əsrlərdə yaşamış, bütün yapon imperatorlarının əcdadı, Yaponiya dövlətinin əfsanəvi yaradıcısı olan birinci imperatorun - *tenno* (göylər padşahı), yaxud mikadonun şəxsiyyəti mədh edilirdi.

Kioto geosiyasətçiləri iddia edirdilər ki, tennoçu xüsusiyyət Yaponiyanı əbədi ilahi soyad tenno ilə idarə edilən dünyada unikal və yeganə ölkə kimi fərqləndirir. Tennoya pərəstiş vasitəsilə, əsasında təbiətin və əcdadların ilahiləşdirilməsi duran bütpərəst sintoizm ideologiyası yapon xalqının ümumi siyasi dünyagörüşünün təməli elan edilirdi.

[1] Tokuqava - feodal Yaponiyasında ölkənin birləşməsini sona çatdıran və 1603-dən 1867-ci ilədək mövcud olan syoqunlar sülaləsi

Tennoya pərəstiş ölkənin ali birliyini, onun aşkar millətçi xarakterli uzağa hesablanmış iddialarını simvolizə edirdi. 1868-ci il restavrasiyasından sonra sintoizm rəsmi dövlət ideologiyası, əxlaq norması və şərəf kodeksi oldu. Rəsmi yapon millətçi təbliğatında iddia edilirdi ki, qədim müqəddəs mətnlərə görə Yamato (ölkənin qədim adı) "Böyük Asiya" yaratmalı və "Hakko İchiu" prinsipini ("səkkiz küncü bir damın altına toplamaq") həyata keçirməlidir, yəni dünya Yaponiyanın və Amaterasu ilahəsinin hakimiyyəti altında birləşməlidir *[Dictionary.., 1994, p. 131]*.

Kioto Universitetində inkişaf etdirilən istiqamətlərdən biri vesternizasiya (Qərbləşmə) probleminə toxunurdu. Şərqi Asiyada Qərb imperializminin tarixi və perspektivləri əsasən neqativ interpretasiyada öyrənilirdi. Kioto coğrafiyaçıları yapon siyasətçiləri və inzibati dairələri ilə əlaqəyə malik deyildilər və onların məktəbi intellektual sahə ilə məhdudlaşırdı.

Yaponiyanın ikinci əsas geostrateji nəzəriyyəsi almanlardan asılı və ***"alman tipli"*** *(German-type geopolitics)* hesab olunurdu. Bu istiqamətin tərəfdarları arasında coğrafiyaçılar, siyasətçi-alimlər və görkəmli siyasi xadimlər olub. 1920-ci illərin sonlarından alman geosiyasətçilərinin əsərləri Yaponiyada çap olunub, *Çellenin* "Dövlət həyatın forması kimi" əsəri isə buraya 1925-ci ildə gəlib. Yapon geosiyasətçilərinin metodologiyasının əsasını *Lebensraum* nəzəriyyəsinin Yaponiyaya münasib interpretasiyası təşkil edirdi. Həmçinin daxili Yaponiyada və onun müstəmləkələrində - Mancuriyada, Koreyada və Formozada[1] *Raumordnung* (məkan planlaşdırması) prinsip və metodları inkişaf etdirilirdi. Bu istiqamətin geosiyasətçiləri 1941-ci ildə yaradılmış Yaponiya Geosiyasəti Cəmiyyətinin özəyini təşkil edirdilər. Bundan bir qədər əvvəl, 1940-cı ilin oktyabrında isə total müharibənin problemlərini araşdıran institut açılmışdı. Bununla belə, dövlətin geosiyasətinin formalaşmasında və həyata keçirilməsində əsas rolu alim-

[1] Tayvan adasına XVI əsrdə Portuqaliya dənizçilərinin verdiyi ad. Portuqal dilində formosa (ilha) - çox gözəl (ada) mənasında işlədilir.

intellektuallar və ictimaiyyət deyil, siyasətçilər və dövlət xadimləri oynayırdılar. Onların geosiyasi baxışlarının geniş spektrində o zaman aparıcı olan iki konsepsiyanı ayırmaq olar: ***panasiyaçılıq*** və ***"yapon avrasiyaçılığı"***.

Panasiyaçı geosiyasət doktrinası qismində "Böyük Şərqi Asiya ortaq rifah sahəsinin" *("Greater East Asian Co-prosperity Sphere")* yaradılması ideyası yayılırdı.

Bəhs olunan panasiyaçılıq ideyası yapon millətçi-sosializminin lideri *İkki Kitanın* (1883-1936) (o, *Hitlerin* "Mein Kampf" - "Mənim mübarizəm" kitabının yapon variantını yazmışdır) 1923-cü ildə nəşr etdirdiyi kitabında əksini tapmışdır. Kitabda Kita Yaponiyanın yenidən qurulması və gələcək inkişafının geostrateji planını əsaslandırır və cəmiyyətə təqdim edir. Bu kitab müharibə illərində "yapon nasistlərinin" Bibliyasına çevrilmişdi *[Желтов, 2009, стр. 188]*.

Kitanın geosiyasi planına görə Yaponiyada, Almaniyada olduğu kimi, nasional-sosialist rejim qurulandan sonra, bu ölkə Almaniya ilə birlikdə dünyanın yenidən bölüşdürülməsi mübarizəsinə qoşulmalı idi. Yaponiyanın gözlənilən müharibədə missiyası, əsasən, *"Cənub-Şərqi Asiya xalqlarını imperialistlərdən azad etməkdən"* və dünyanın yeni, "ədalətli bölgüsündə" iştirak edərək "Avrasiya Yapon imperiyası"nı yaratmaqdan ibarət idi. 1936-cı il fevralın 26-da faşist qiyamı uğursuzluqla bitdikdən sonra İkki Kita digər 17 sui-qəsdçi zabitlə birlikdə edam edilmişdir.

Kita öz hərbi geostrateji doktrinasını yaradarkən 1920-ci illərdə yapon hökumətinə rəhbərlik etmiş general *Tanaka Qiitinin* (1863-1929) ideyalarından bəhrələnmişdir. Giiti Yaponiyanın Asiya qitəsindəki ərazilər hesabına "həyati məkanı"nı genişləndirməsini zəruri sayırdı. Onun adı ilə bağlı olan "Tanaka memorandumu" (1927) Yaponiyanın dünyaya hakim olmaq proqramı idi və bunun üçün o, "ABŞ-ı məhv etməli" idi. 1940-cı ildə Baş nazir *Fumimaro Konoye* "Böyük Şərqi Asiya ortaq rifah sahəsi" yaratmaq niyyətini açıqlayır. Lakin artıq, Yaponiyanın 1941-ci ilin dekabrın-

da Havay adalarındakı Pyorl-Harbor hərbi dəniz bazalarını bombardman etməsindən və nəticədə Amerikanın Sakit okean donanmasının əsas qüvvələrinin sıradan çıxmasından sonra, panasiyaçılıq və dünyaya hakim olmaq cəhdinin acı taleyi irəlicədən müəyyən edilmişdi.

Bununla belə, 1942-ci ilin əvvəlində ölkə tarixində ən ekstremist Baş nazir hesab olunan general Todze Xideki (1884-1948) "müqavimət sahəsi" doktrinasına rəsmi siyasət statusu verir. Böyük məkanlarda möhkəmlənməyin zəruriliyi Böyük Britaniyanın, ABŞ-ın, Rusiyanın (SSRİ) Şərqi Asiyada təcavüzkar təsiri ilə əsaslandırılırdı. Yaponiyanın "qarşılıqlı inkişaf sahəsi" yaratmaq siyasəti 1942-1943-cü illərdə Cənub-Şərqi Asiyadakı ölkə və ərazilərin ələ keçirilməsi, Çinin, Cənub dənizi ətrafındakı ölkələrin işğalı ilə müəyyən nəticələr vermişdi. Lakin yaponlaşdırma və işğal edilmiş ərazilərin iqtisadi qarəti ələ keçirilmiş ölkələrdəki əhalinin kütləvi müqavimətinə gətirib çıxardı.

2.10.2. Konoye haqqında qeydlər

Yaponiyanın ikinci əsas geosiyasi nəzəriyyəsi olan avrasiyaçılıq konsepsiyası daha çox ingilis-amerikan Atlantik geosiyasətinə alternativlik yaratmaq məqsədi daşıyırdı. Bu geosiyasi nəzəriyyənin banisi yapon siyasətçisi şahzadə Fumimaro Konoye *(Kyujitai Shinjitai,* 1891-1945) idi.

Konoye Kiotoda doğulmuş, XIX-XX əsrlərdə ölkənin taleyini həll edən, Yaponiyada ən nüfuzlu ailələrdən birinin böyük oğlu olmuşdur. Qeyd etmək maraqlıdır ki, çox mühüm dövlət vəzifələrinə sahib olmuş atası Yaponiyanın digər Asiya dövlətləri ilə sıx əməkdaşlığının vacibliyini önə çəkirdi. O, SSRİ ilə möhkəm siyasi münasibətlərin tərəfdarı idi.

Konoye Çin və Koreyaya yönəlik və Rusiya, Amerika və İngiltərənin maraqları ilə toqquşan yapon ekspansiyası mühitində tərbiyə alıb. İqtisadi ekspansiya hərbi təzyiqlə dəstəklənirdi. Bütün bunlar Yaponiyanın fövqəladəliyinin təbliğatı, Yaponiya imperiyasının böyüklüyü, həyat məkanının istilasının və sərhədlərin genişlənməsinin

davamının zəruriliyi ilə qızışdırılırdı. 1905-1907-ci illər Rusiya-Yaponiya müharibəsini Konoye 14 yaşlı yeniyetmə olaraq qarşıladı, Yaponiyanı faktiki olaraq böyük dövlətə çevirən qələbəni isə artıq 16 yaşlı gənc kimi qeyd etdi. Bütün həmyaşıdları kimi o, yapon ordusunun qələbələrinə valeh olaraq, ərazilərin qazanılmasını (Kuril adaları, Saxalinin cənub hissəsi) məmnuniyyətlə qəbul etdi, Böyük Britaniya, ABŞ, Hollandiya kimi Cənub-Şərqi Asiyada hökmranlıq edən dövlətlərə də müqavimət göstərməyin mümkünlüyünü anladı. Konoye həyatı boyu mühafizəkar milliyyətçi və qatı antikommunist olaraq qaldı.

Konoye Kiotoda İmperator Universitetinin hüquq bölməsində oxumuşdu. (O zamanlar bu təhsil ocağı Yaponiyanın ən qabaqcıl universitetlərindən idi, onun geosiyasi məktəbi isə ölkədə aparıcı mövqelərdə dayanırdı). 1916-cı ildə hələ tələbə ikən şahzadə titulu sayəsində parlamentin yuxarı palatasında yer almışdı. 1917-ci ildə universiteti bitirmişdir. 1918-ci ildə Konoye "Pasifizmin Böyük Britaniya və ABŞ üslubunun tənqidi" sərlövhəli ilk geosiyasi məqaləsini çap etdirmişdir. Burada o, Britaniyanı və ABŞ-ı onların iqtisadi imperializminə görə tənqid edir və sarı irqə qarşı irqi diskriminasiya və müstəmləkəçiliyin aradan qaldırılmasına çağırırdı. O, bu prinsipləri bir çox illərdə, həmçinin *"Şərqi Asiyada yeni nizam"*[1] (1938) əsərində inkişaf etdirirdi *[Dictionary.., 1994, p. 143-145].*

Üç dəfə (1937-1939; 1940-1941; 1941-ci illərdə) Yaponiyanın Baş naziri olmuş **Konoye üç geosiyasi doktrinanı həyata keçirirdi:**

1) Daxili siyasətdə "yeni struktur"un realizə edilməsi nəticəsində bütün siyasi partiyaların buraxılması və onların "Vahid İmperator Assosiasiyası" ilə əvəz edilməsi. (Bu, əslində, Hitlerin "bir millət-bir fürer-bir partiya" ideyasına əsaslana-

[1] "Yeni nizam" istilahı məhz Fumimaro Konoyeyə məxsusdur və yalnız sonralar alman ideoloqları tərəfindən istifadə olunmuşdur.

raq, yapon nasional-sosialist hökumətinin qurulmasını nəzərdə tuturdu).

2) "Böyük Cənub-Şərqi Asiya təsir dairəsi" zonasının yaradılması.

3) Amerika və Böyük Britaniyaynın mövcud və gələcək dünya hökmranlığına qarşı dəniz və quru ölkələrinin yeni geostrateji blokunun formalaşdırılması.

Konoyenin fikrincə, vahid və monolit millətin enerjisini Sakit okean bölgəsindən ABŞ, Böyük Britaniya və Hollandiyanın sıxışdırılması üçün xarici ekspansiyaya qarşı yönəltmək, buna nail olmaq üçünsə ehtiyatları yapon millətinin xidmətinə yönələcək Çin, Birma (müasir Myanma), Hind-Çin (Vyetnam, Kamboca, Laos), Tailand, Filippin, Malayyanın (Malayziya) daxil olacağı "Böyük Şərqi Asiya ortaq rifah sahəsi"nin yaradılması lazım idi. Göstərilən məmləkətlərin darmadağın edilməsi üçün Asiya və bütün dünyada "yeni nizam"ın yaradılmasına yardım edə biləcək Almaniya və İtaliya ilə geosiyasi ittifaq qurmaq nəzərdə tutulurdu.

Beləliklə, artıq qeyd edildiyi kimi, "yeni nizam" termini Almaniyada yaranmayıb, bu anlayış milliyyətçi Konoye tərəfindən təklif edilmiş, faşistlər və sosial-demokratlar tərəfindən istifadə edilmişdir. Konoyenin geosiyasi doktrinası gələcəkdə nəhəng müstəmləkəçi imperiyanın yaradılmasını nəzərdə tutan ölkənin mərhələlərlə hərbiləşdirilməsi və totalitarlaşmasından ibarət idi. O, bu proqramı hökumət rəhbəri vəzifəsində olarkən yerinə yetirirdi. Konoyenin yalnız ABŞ-a hücum etməyə cürəti çatmadı. Bunu, Konoyeni Baş nazir postunda əvəzləyən, Konoye hökümətində müdafiə naziri, yaponların Meydzi dönəminin ən təcavüzkar siyasətçisi hesab etdikləri *Todze Xideki* etdi. O, Konoyenin doktrinasının ən cəsarətli və avantür planlarını tərəddüd etmədən reallaşdırırdı. Lakin kobud hərbi təzyiq və "rifah sahəsi" ölkələrinin iqtisadi qarəti müqavimət reaksiyası (o cümlədən silahlı) yaratdı.

1940-cı ildə Konoye Almaniya və İtaliya ilə "Üçlər paktı" adlı hərbi ittifaq və bitərəflik haqqında sovet-yapon sazişini bağladı. O, müharibəyə qədər yapon-amerikan ziddiyyətlərinin həll edilməsi üçün *F.Ruzveltlə* şəxsi danışıqların yollarını axtarır, lakin buna müvəffəq ola bilmir və ondan sonra üzünü tamamilə Almaniyaya çevirir *[История Японии.., 1999, т. 2, стр. 390-391; 397-398].*

Yaponiyanın geosiyasi kursunun formalaşmasında Berlin-Roma-Moskva-Tokio konsepsiyasını əsaslandırmış alman geosiyasətçisi *Haushoferin* təsiri hiss olunur. Haushofer və Konoye arasında mühüm əlaqələndirici həlqə Haushoferin zəmanət məktubları ilə Tokioya gəlmiş və onun "Zeitschrift für Geopolitik" jurnalı ilə fəal əməkdaşlıq etmiş əfsanəvi kəşfiyyatçı *Rixard Zorge* olmuşdur *[Молодяков, 1995, стр. 34].*

Almaniya, İtaliya və Yaponiyanın "Üçlər paktı" Yaponiyanın Şərqi Asiya məkanında "yeni nizam" yaratmaq hüququnu qəbul edərək, üç dövlətin təsir dairələrinin bölüşdürülməsini təsbit etdi.

Bu geosiyasətçinin və dövlət xadiminin taleyi maraqlıdır. 1941-ci il oktyabrın 16-da, yəni Pyorl-Harborun bombardmanından iki ay əvvəl, Konoye öz hərbi naziri *Todze Xidekinin* ultramilitarist fraksiyasına qarşı durmaq gücündə olmadığından istefa vermişdi. 1944-cü ildə o və imperatora yaxın olan siyasətçi və hərbiçilər Todze Xidekinin kabinetindən kənarda qaldılar. 1945-ci ilin fevralında Konoye imperatora kommunist təsirinin yayılması təhlükəsi barədə məktub təqdim etmişdir. İmperator onu sülh danışıqları üçün SSRİ-yə göndərmək qərarına gəlmiş, lakin plan həyata keçməmişdir. Belə ki, Yaponiya kapitulyasiyanı qəbul etmişdir. Yeni Nazirlər Kabinetində Konoye Baş nazir müavini statusu almışdır. Lakin Amerikanın işğalçı qoşunları komandanı onun mümkün hərbi cani kimi həbsi haqda fərman vermişdi. Həbsinə bir gün qalmış, o, zəhər içib, özünü öldürmüşdür *[Dictionary.., 1994, p. 143-145].*

2.11. CULİYO DUE. GENERAL, NƏZƏRİYYƏÇİ VƏ STRATEQ

2.11.1. Zirvəyə aparan yol



Culiyo Due
(1869-1930)

XIX əsrin sonu - XX əsrin əvvəlləri italyan klassik geosiyasət məktəbinin formalaşması dövrü hesab olunur. Bu məktəbin yaranmasında mühüm rolu tanınmış general, nəzəriyyəçi və strateq Culiyo Due *(Giulio Douhet)* oynamışdır. Due İtaliyanın hərbi-strateji strukturlarında xüsusi nüfuz sahibi idi. Onun *"Fəaliyyətdə olan orduda avtomobillərin istifadəsi", "Mühərriklər haqqında", "Soyuq haqqında"* və digər hərbi-strateji əsərləri İtaliya ordusunun əsas fəaliyyət proqramları kimi qəbul edilirdi.

Duenin hərbi-texniki və hərbi aviasiya haqqında təlimlərindən və təkliflərindən həm də 1910-1920-ci illərdə Türkiyə ilə müharibədə, Liviyanın və digər Məğrib ərazilərinin İtaliya tərəfindən zəbt edilməsi uğrunda gedən döyüşlərdə istifadə olunmuşdur.

Birinci Dünya müharibəsindən sonra İtaliya ordusunun qərargah rəisi olan Due Aralıq dənizi və Adriatik sahillərində hərbi-siyasi və hərbi-strateji dəyərləndirmələri ilə Antantanın Üçlər İttifaqı üzərindəki qələbəsinin təmin olunmasına mühüm töhfə vermişdir.

O, 1921-ci ildə briqada generalı vəzifəsindən istefa verərək *Benito Mussolininin* (1883-1945) hərbi-strateji qərargahına keçib və onun şəxsi strateqi olur. Bütün fəaliyyətini hərbi-strateji tədqiqatlara yönəldən Due özünün məşhur *"Havada hakimlik"* adlı kitabını buraxdırır və müasir müharibələrdə aviasiyanın rolunun geostrategiyasını işləyib hazırlayır. Ümumiyyətlə, Almaniyanın İkinci Dünya müharibəsindəki hərbi hava qüvvələrinin bütün strateji məsələlərinin Due tərəfindən işlənib hazırlanması tədqiqatçıların diqqətindən yayınmamışdır.

Peşəkar geosiyasətçi kimi onun nəzəriyyəsinə görə, dövlətlərin əhalisinin sosial-psixoloji vəziyyəti onun gücünə uyğun formalaşır və onun dünyagörüşü dövlətinin gücünə uyğun gəlir. O, hər hansı dövlətin quru ərazilərini, dəniz sahillərini və hava məkanını işğal edəndən sonra, onun sakinlərinin vəziyyətini təhlil edərək belə qənaətə gəlirdi ki, insanların psixi vəziyyətinə, əhval-ruhiyyəsinə və fəaliyyətinə ən güclü təsiri hava məkanlarını ələ keçirməklə etmək mümkündür. Duenin nəzəriyyəsində gələcək müharibələr artilleriya, quru, dəniz qüvvələri ilə deyil, daha çox aviasiya ilə aparılmalı idi: **"Hava məkanının ələ keçirilməsi ölkənin əsas əhalisinin kütləvi psixologiyasına sahib olmanın əsasını təşkil edir".**

2.11.2. Hərbi aviasiya geosiyasəti

Demək olar ki, *Duenin hərbi aviasiya üzərində yaratdığı geostrategiyası o dövrün yeni hərbi və geostrateji doktrinalarının əsasını qoyub.* Çünki Birinci Dünya müharibəsinin sonuna kimi Avropa ölkələrinin hərbi strategiyasında quru hücumu doktrinası tam üstünlük təşkil edirdi. Bunun da əsasına daha çox quru qoşunları, quru ordu hissələri və növləri qoyulurdu. Due isə sübut edirdi ki, *odlu silah və quru qoşun növləri hücum deyil, daha çox müdafiə üçün lazımdır. Onlar yalnız müdafiədə üstünlük şansı verir. Hücum ordusu isə daha çox aviasiya və strateji silah növləri (raket və s.) ilə silahlanmalı və müharibə də onların vasitəsilə getməlidir. Müəllifə görə, yalnız bu yolla uğurlu hücum əməliyyatı həyata keçirmək olar [Bomье, 1937].*

Tanınmış generalın Avropa ordularının hücum strategiyasına gətirdiyi yenilik o dövrdə Almaniya tərəfindən geniş tətbiq edilmiş və müharibədə istifadə edilmişdir.

Due milli təhlükəsizliyin təmin olunmasında da dövlətin hərbi hava qüvvələrinin rolunu xüsusi dəyərləndirirdi. O hesab edirdi ki, havada hərbi-strateji üstünlük qazanan dövlət bütövlükdə döyüşdən qalib çıxır. O, sonralar özünün geostrateji qanunu kimi elan etdiyi bu tezisi *Mussolini* və onun hərbi müttəfiqlərinə təkidlə qəbul etdirməyə cəhd edirdi. Təsadüfi deyil ki, faşist Almaniyası və onun hərbi bloku İkinci Dünya müharibəsini Avropada demək olar, hərbi hava qüvvələri və hərbi aviasiya vasitəsilə apararaq, Fransanı təslim olmağa məcbur etmiş, İngiltərənin isə bir çox iri yaşayış

məntəqəsinə aviazərbələr endirərək onu müharibədən çıxarmağa cəhd göstərmişdir.

Bəşəriyyətin geostrategiyasında hərbi hava qüvvələrinin rolu və ondan istifadənin yollarını ilk dəfə əsaslı şəkildə məhz Due formalaşdırmışdır. Onun hərbi-strateji konsepsiyasına görə, hərbi hava qüvvələri müstəqil bir ordu strukturuna çevrilməli, onun özünün strategiyası olmalı, aparıcı və köməkçi sahələri vahid rəhbərlik altında fəaliyyət göstərməlidir. O təklif edirdi ki, hərbi hava qüvvələri hücumçu-bombardmançı və köməkçi-təminedici aviasiyadan təşkil olunmalıdır. Bu köməkçi aviasiyalar əsas qüvvələrin maskalanmasını təşkil etməli və onlara məqsədlərinə çatmaq üçün lazımi imkan verməli və şərait yaratmalıdır.

Duenin fikrincə, hərbi təyyarələri - bombardmançıları, hücum təyyarələrini və qırıcıları təkcə hərbi hava qüvvələrinin tərkibində deyil, o cümlədən digər hərbi qüvvələrin, həmçinin dəniz qüvvələrinin tərkibində də istifadə etmək lazımdır.

1928-ci ildə Due *"Gələcək müharibələrin mümkün formaları"* adlı məqalə hazırlayır. O, burada *hərbi strategiya haqqında* özünün *dərin məzmunlu və geostrateji əhəmiyyətli fikirlərini* meydana atır. Bu məqalədə quru, dəniz və hava qüvvələrindən müharibədə istifadənin yollarını təklif və şərh edir, müharibələrin əsas vəzifə və xarakteristikasının təhlilini aparır.

Tədqiqatçılar belə hesab edir ki, *Duenin aviasiya strategiyasından nəinki təkcə İkinci Dünya müharibəsində Almaniyanın hərbi əməliyyatlarında, həmçinin ABŞ-ın Yaponiyanı atom silahı ilə bombalaması zamanı da istifadə edilmişdir. Hətta ötən əsrin 50-ci illərindən sonra "soyuq müharibə" dövründə NATO və Varşava müqaviləsi ölkələrinin hərbi hava qüvvələri atom bombalarının rəqiblərin ərazilərinə çatdırılması, raket texnologiyasının istifadəsi və digər məsələlərdə də Duenin geostrateji ideyalarından yararlanılmışdır.*

İndiki dövrdə ABŞ, NATO və digər ölkələrin Koreya, Vyetnam, keçmiş Yuqoslaviya, Əfqanıstan və İraqda həyata keçirdiyi hərbi əməliyyatlarda əsasən hava qüvvələrindən və hava bombardmançılarından istifadə mexanizmləri Duenin təklif etdiyi "Gələcək müharibələrdə hava qüvvələrinin rolu" nəzəriyyəsinə əsaslanır [Желтов, 2009, стр. 189-193].

2.12. PYOTR SAVİTSKİ. AVRASİYAÇILIĞIN İDEOLOQU

2.12.1. Avrasiyalının taleyi



Pyotr Savitski
(1895-1968)

Pyotr Nikolayeviç Savitski *(Пётр Николаевич Савицкий) sözün həqiqi mənasında geosiyasətçi* adlandırıla biləcək ilk və bəlkə də yeganə rus müəllifidir *[Дугин, 1997].* İqtisadçı təhsili almış Savitski *Q.Vernadskinin* və *P.Struvenin* şagirdi olmuşdur. Müharibədən əvvəl kadetlərlə yaxın idi (oktyabr inqilabından əvvəl Rusiyada liberal burjua konstitusiyaçı-demokratik forumun üzvü). İnqilabdan sonra Bolqarıstana mühacirət etmiş, sonra Çexoslovakiyaya köçmüşdür. 1921-ci ildə o, knyaz *N.S.Trubetskoy* ilə birlikdə "Avrasiyaçılıq hərəkatına" başçılıq etmişdir. Bu hərəkatda geosiyasi amillər mərkəzi rol oynayırdı. Bütün avrasiyaçılar arasında geosiyasətlə hamıdan çox maraqlanan məhz Savitski idi. Başqa avrasiyaçıların əksəriyyəti kimi, Savitskinin də dünyagörüşü slavyanofillərin (slavyanpərəstlik tərəfdarları), *N.Y.Danilevskinin* və xüsusən *K.N.Leontyevin* (1831-1891) əsərlərinin təsiri altında formalaşmışdır. Onun dünyagörüşü "velikorusların" tarixi identikliyi, məxsusiliyi barədə mərkəzi ideya ilə əlaqədar olan, əslində isə slavyançılığın mahiyyətinə heç bir dini və ya etnik aidiyyəti olmayan inqilabi slavyanofilliyin bir növü idi. Bu baxımdan, onlar *"slavyançılıq var, slavizm yoxdur"* tezisini ifadə etmiş *K.Leontyevə* daha yaxın idilər. Leontyev deyirdi ki, "slavyan xalqları arasında etnik və linqvistik yaxınlıq onların mədəniyyətinin və xarakterinin vahid olması barədə danışmaq üçün kifayət qədər əsas vermir". Avrasiyaçılıq hərəkatı öz "sevimli" mövzularına və konsepsiyalarına görə mühafizəkar alman inqilabçılarına heyrətamiz dərəcədə yaxın idi. Mühafizəkar inqilabçılar kimi, avrasiyaçılar da

öz soyköklərinə sadiqliyi yaradıcı gələcək eşqi ilə, rus milli ənənələrinə köklənməni sosial modernizmlə, texniki inkişafı qeyri-ənənəvi inkişaf siyasəti ilə əlaqələndirməyə çalışırdılar. Avrasiyaçıların sovet dövlətinə və oktyabr inqilabına münasibətdə ehtiyatlı-pozitiv mövqeləri də buna əsaslanır.

Avrasiyaçıların açıq-aşkar sovetpərəst cinahının ("Avrasiya" adlı qəzet dərc edən Paris dərnəyi), hətta mötədillər və mühafizəkar elementlərin özləri üçün də səciyyəvi olan sovetlərə rəğbət hissinə baxmayaraq, Savitski sovetlərlə münasibətləri rəsmən pozmuşdu. Təsadüfi deyil ki, 1945-ci ildə Praqanın sovet qoşunlarının əlinə keçməsindən sonra Savitski həbs edilmiş və 10 il müddətinə azadlıqdan məhrum olunmuşdu. Həbs düşərgəsində olduğu dövrdə o, şair *Nikolay Qumilyovun* oğlu *Lev Qumilyovla* tanış olmuşdur. Qumilyov Savitskinin şagirdi olmuş, sonralar isə ən məşhur müasir rus etnoloqlarından və tarixçilərindən birinə çevrilmişdi.

1956-cı ildə Savitski bəraət qazanaraq Praqaya qayıtmış və 12 ildən sonra orada dünyasını dəyişmişdir.

Savitskinin əsas ideyası ondan ibarətdir ki, Rusiya "əlaqələndirici mərkəz" keyfiyyəti vasitəsilə təyin edilən xüsusi sivilizasiya qurumudur. Onun *"Avrasiyaçılığın coğrafi və geosiyasi əsasları"* adlı məqaləsi (1933) bu sözlərlə başlanır: "Rusiyanın "Mərkəzi dövlət" adlanmağa Çindən qat-qat artıq əsası var" *[Савицкий, 1997. стр. 51].*

Almaniyanın "məzrkəzi dövlət" (mittellage) olması Avropa konteksti ilə məhdudlaşdığı, Avropanın özü isə yalnız Avrasiyanın *"Qərb burnu"* olduğu halda, Rusiya bütün kontinent çərçivəsində mərkəzi mövqe tutur, yəni planetin tam mərkəzində yerləşir. Savitskiyə görə, Rusiyanın "mərkəzi dövlət" olması onun tarixi identikliyinin əsasıdır. Rusiya Avropanın bir hissəsi və Asiyanın davamı deyildir. O özü müstəqil bir dünyadır. Müstəqil və xüsusi mənəvi-tarixi geosiyasi reallıqdır. Savitski bu reallığı "Avrasiya" adlandırır *[Савицкий, 1997, стр. 224-226].*

Bu anlayış materiki və ya kontinenti deyil, rus məkanında və rus mədəniyyətində əks etdirilmiş tarixi paradiqmanı, xüsusi sivilizasiyanı ifadə edir. Savitski rus qütbündən çıxış edərək *Makinderin* geo-

siyasi mənzərəsinin tam eyni olan bir konsepsiya irəli sürür. Lakin mücərrəd "quru quldurları" və ya "tarixin coğrafi oxu"ndan yaranan mərkəzəqaçma impulsları Savitskidə dəqiq ifadə olunmuş rus mədəniyyəti, rus tarixi, rus dövlətçiliyi, rus ərazisi abrisi (çevrə, kontur) kəsb edir. *Ratselin* nəzərində Raum, daha dəqiq desək, *Şmittin* nəzərində Grossraum nə məna daşıyırsa, Savitskinin nəzərində Rusiya-Avrasiya da eyni məna daşıyır *[Савицкий, 1997, стр.283].*

Makinder belə hesab edir ki, "Hartlənd"in səhralarından baş qaldıran mexaniki təkan sahil zonalarını ("daxili aypara") mədəniyyət və tarix yaratmağa məcbur edirsə, Savitski iddia edir ki, Rusiya-Avrasiya (*Makinderin* "Hartlənd"i) dünya mədəniyyətinin və dünya tarixinin zamanda və məkanda yayılmış sintezidir.

Savitski Rusiyanı geosiyasi baxımdan milli dövlət kimi deyil, ari-slavyan mədəniyyətinin, türk köçərilərinin, pravoslav ənənələrinin bir neçə tərkib hissəsi əsasında yaranmış sivilizasiyanın xüsusi bir tipi kimi başa düşür. Onlar hamısı birlikdə dünya tarixinin sintezi olan unikal "mərkəzi" qurum yaradır.

Savitski velikorusları Şərq slavyanlarının sadəcə bir şaxəsi deyil, slavyan və türk substratlarını (vəhdətin, eyniyyətin əsası) özündə birləşdirən ayrıca etnik imperiya qurumu hesab edir. Bu məqam onu Turançılıq mövzusuna istiqamətləndirir.

2.12.2. Turan

Savitski *"Çöl və oturaq həyat"* adlı məqaləsində rus mədəniyyəti ilə bağlı *Danilevskinin* və onun bəzi davamçıları da daxil olmaqla, bütövlükdə rus millətçilərinin ciddi etirazına səbəb olan Turançılıq mövqeyindən çıxış etmiş və monqol-tatarların Avrasiyadakı rolunu geostrateji, dövlətçilik və mədəni inkişaf baxımından yüksək qiymətləndirmişdir. O yazırdı ki, ***"monqol-tatar əsarəti sayəsində Rusiya geosiyasi müstəqillik əldə etmiş və irticaçı roman-alman dünyasından mənəvi müstəqilliyini qoruyub saxlaya bilmişdir".***

"Tatar əsarəti olmasaydı, Rusiya da olmayacaqdı" - Savitskinin "Çöl və oturaq həyat" məqaləsindən götürülmüş bu tezis avrasiyaçılığın əsas formulu idi. *(Savitski fikrini onunla əsaslandırırdı ki, monqol-tatarlar Avrasiya məkanının meşəliklərlə əhatə olunmuş*

Avropa hissəsi ilə, səhralardan ibarət Asiya ərazilərini, bu ərazilərdə məskunlaşan çoxsaylı xalq və cəmiyyətləri geosiyasi və geostrateji anlamda birləşdirdi, formalaşdırdı və gələcək üçün bütöv bir tam halına gətirdi. Bundan başqa, Qərbi avropalıların dəniz hissiyatına qarşı monqol-tatarlar kontinental hisslərini qoyaraq, bölgədə birlik missiyası formalaşdırdı. Bu missiya da sonradan tamamilə rusların əlinə keçdi). Buradan xalis geosiyasi məzmunlu aşağıdakı hökmə birbaşa keçid vardı: *"Açıq deyək: ümumdünya tarixi məkanında dənizin Qərbi Avropa anlamına zidd də olsa onunla bərabər hüquqlu, monqol-tatarlara xas olan yeganə kontinent anlayışı vardır; rus səyyahlarının, rus işğallarının və fəthlərinin ruhu ilə onların (monqol-tatarların) kontinent duyumu eynidir".* Daha sonra: ***"Rusiya böyük tatar xanlarının varisi, Çingizin[1] və Teymurun[2] işlərinin davamçısı, Asiyanı birləşdirən qüvvədir (...) Rusiyada, eyni zamanda, həm tarixi "oturaqlıq" stixiyası, həm də "çöl" stixiyası birləşir"*** *[Савицкий, 1997, стр.232].*

[1] Çingiz xan (əsl adı Temuçin) (1155-1227) - vahid monqol dövlətinin banisi, sərkərdə. Monqol qəbilələrini bir bayraq altında birləşdirərək, insanlıq tarixində ən böyük dövlət olmuş Büyük Monqol imperiyasını (1206-1368) qurmuşdur. *Yesugey* baturun nəslindəndir. 1206-cı ildə monqol feodallarının qurultayı onu Çingiz xan (türkcə *tengiz* - dəniz, okean) adı ilə bütün tayfaların böyük xanı seçmişdi. Çingiz monqol tayfalarını birləşdirmək və mərkəzi hakimiyyəti möhkəmlətmək siyasəti yeritmiş, Böyük Yasa (qanunlar məcəlləsi) elan etmiş, güclü ordu yaratmış, müharibə aparılması və hərbi xidmətin təşkil olunması qaydalarını işləyib hazırlamışdı. Çingiz xan xarici siyasət sahəsində ona tabe olan ərazilərin hüdudlarını genişləndirmək xətti yeritmişdi. Dəqiq kəşfiyyat məlumatları toplamaq, düşmənin qüvvələrini parçalamaq, çoxsaylı süvari dəstələri ilə qəflətən hücuma keçmək Çingiz xanın strategiya və taktikasının səciyyəvi xüsusiyyətləri idi. 1207-1227-ci illərdə Anadoludan Ukrayna düzənliklərinə, Cənubi Çin cəngəlliklərindən Sibir ətəklərinə qədər sonsuz əraziləri və böyüklü-kiçikli qırx dövləti tabe etmişdi.

[2] Əmir Teymur (1336-1405) - Mərkəzi Asiya dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının (1370-1507) banisi. Türk kökənli Barlas soyundandır. Nəsil şəcərəsinə görə əmir *Taraqay Bahadurun* oğludur. 1336-cı ildə Qaşqadərya vilayətinin Keş, indiki Şəhrisəbz kəndində dünyaya gəlib. 7 yaşından babası *Hacı Əlimin* yanında 5 il ərzində mədrəsə təhsili alıb. 1361-ci ildə *Tuğluq Teymurun* yanında xidmətə girmiş və Qaşqadərya vilayətini idarə etmişdir. Sağ dizindən və çiynindən aldığı yaradan ayağı qatlanmadığına görə ona "Teymurləng" (topal Teymur) ləqəbi verilmişdi. Səmərqənd və Bəlx hakimi *Hüseynlə* ittifaq bağlayıb, uzun müddət Tuğluq Teymura və onun oğlu *İlyas Xocaya* qarşı mübarizə aparmışdır. 1366-cı ildə Teymur və Hüseyn Səmərqənddə sərbədarlər

Savitskidə Rusiya-Avrasiyanın geosiyasi mənası bu iki gerçəkliyin - *Avropa meşəsinin* və *Asiya çölünün* simbiozu (birləşməsi) kimi çıxış edir. Lakin bu sintez iki geosiyasi sistemin sadəcə üst-üstə qoyulması deyil, xüsusi qiymətləndirmə meyarı və metodologiyası olan bütöv və orijinal anlayışdır.

2.12.3. İnkişaf yeri

"İnkişaf yeri" konsepsiyası Savitskinin nəzəriyyəsində ən mühüm rol oynayır. Bu termin *"Raum"* anlayışının dəqiq analoqu olub, *Ratselin* "siyasi coğrafiyasında" və almanların (+Çellen) geosiyasətində şərh edildiyi mənanı daşıyır. Bu anlayışda alman "orqanik" məktəbinə tam müvafiq olan və anqlosaks geosiyasətçilərinin praqmatizmi ilə kəskin təzad təşkil edən avrasiyaçıların orqanisizmi əks olunur. Əgər *Spaykmen* Savitskinin əsərləri ilə tanış olsaydı, onun "metafizik nonsens"lə bağlı təəccübü *Haushofer* ilə əlaqədar təəccübündən daha güclü olardı. Məsələn, Savitski "Rusiya-Avrasiyanın coğrafi icmalı" adlı əsərində yazır: *"Sosial-siyasi mühit və onun ərazisi bizim üçün vahid tam, coğrafi individuum* (xüsusi, ayrıca, müstəqil mövcud olan canlı orqanizm - *N.M.) və ya landşaft şəklində birləşməlidir" [Савицкий, 1926, стр. 219-232].*

Obyektiv ilə subyektivin ayrılmaz vəhdət təşkil etdiyi "inkişaf yeri"nin (məkanın) mahiyyəti bundan ibarətdir. Bu, konseptual sintezdir. Savitski həmin əsərində daha sonra yazır: *"Sintez zəruridir. Sosial-tarixi mühitə və onun tutduğu əraziyə dərhal nəzər salmaq bacarığı mütləqdir" [yenə orada].*

üsyanını yatırdılar. Hakimiyyət uğrunda mübarizədə 1370-ci ildə Hüseynə qalib gələn Teymur əmir titulu qəbul edərək *Çingiz xanın* nəsli adından Mavəraünnəhri tək idarə etməyə başladı. Səmərqənd dövlətin paytaxtı oldu. Teymur hakimiyyətini möhkəmləndirməkdə köçəri əyanlara, oturaq feodallara, xüsusən müsəlman ruhanilərinə arxalanırdı. 1380-ci ildən Teymurun hərbi yürüşləri daha da genişləndi. 1386-cı ildə o, Sultaniyyəni tutub Təbrizə, Naxçıvana, Qarsa, Tiflisə, Şəkiyə, Qəbələyə, Qarabağa hücum etmiş, 1387-ci ildə Salmas, Urmiya və Marağadan keçib Gilana, oradan isə Səmərqəndə qayıtmışdı. Teymur sonralar "beşillik" (1392-ci ildən) və "yeddiillik" (1399-cu ildən) yürüşlər zamanı da Azərbaycana hücum etmişdi. Uzun mübarizədən sonra Qızıl Orda xanı *Toxtamışa* (1342-1405/08) qalib gəlib xanlığın paytaxtı Saray Bərkəni və s. şəhərləri ələ keçirmiş, 1398-ci ildə Hindistana hücum edərək Dehlini tutmuşdu. Teymur 1400-1401-ci illərdə Sivas, Dəməşq və Bağdadı işğal etmiş, Anqara vuruşmasında (1402) Osmanlı sultanı *İldırım Bəyazidə* (1360-1403) qalib gəlmişdi. 1404-cü ildə Teymur Səmərqəndə qayıtmış, Çinə hücum əməliyyatında xəstələnib ölmüşdür.

Savitski belə hesab edir ki, *"Rusiya-Avrasiya inkişaf məkanı, vahid tam, coğrafi individuum, eyni zamanda, coğrafi, etnik, iqtisadi, tarixi və s. mənalarda landşaftdır"[Савицкий, 1997, стр.219-232].*

Rusiya-Avrasiya çoxsaylı daha xırda inkişaf məkanlarının mövcudluğunun inteqral forması olan inkişaf məkanıdır. O, daha kiçik Raumların bütöv bir iyerarxiyasından ibarət olan *Şmitt* Grossraumudur.

Avrasiyaçılar "inkişaf yeri" anlayışını tətbiq etməklə tarixi fenomenləri analitik şəkildə parçalamaq zərurətindən yaxa qurtarır, onları, təkcə təbii hadisələrə deyil, həm də mədəni hadisələrə tətbiqi ən mexaniki sistemlər şəklində hissələrə bölürdülər. İnkişaf məkanına, coğrafi individuuma müraciət sayəsində avrasiyaçılar milli, irqi, dini, mədəni, linqvistik və ideoloji problemlər barəsində hədsiz konkret reseptlərdən imtina edə bilirdilər. "Tarixin coğrafi oxu"nun bütün sakinlərinin geosiyasi vəhdəti intuitiv duyması Qərb rasionalizminin qeyri-adekvat, fraqmentar, analitik konsepsiyalarına gətirilə bilməyən yeni sintetik dil xassələri kəsb edirdi.

Savitskinin "İnkişaf yeri" nəzəriyyəsində Avrasiya-Rusiyanın mədəni və sivilizasiya əsasları, onun mədəni inkişafının xarakteristikası özünəməxsus şəkildə və orijinal formada təqdim olunur. Savitskinin **Avrasiyada etnik geosiyasi əlaqələr** konsepsiyasında sivilizasiyalar arasındakı sərhədlər donmuş və bitmiş bir reallıq deyil, hərəkətli, dəyişkən və dinamik idi. Bu sərhədlər bir çox amillərdən - sosial-iqtisadi, mədəni, siyasi, hərbi, təbii-iqlim və sairədən asılı olaraq formalaşır və dəyişir. Avrasiyanın mərkəz hissəsinin təbiəti sabit olduğu üçün buranın mədəniyyəti özünün sistemliliyi və bütövlüyü ilə seçilirdi. Burada yaşayan etnoslar birgə təsərrüfat fəaliyyətində, bir-biri ilə sıx təmasda olduğundan mədəni sintez də güclü olmuşdur.

Savitski yazırdı ki, qitənin coğrafi xüsusiyyəti Hinqandan Dunayadək uzanan geniş çölün olması idi. Bu da bir çox köçəri tayfalar (hunlar, alanlar, peçeneqlər, monqollar və s.) üçün keçid rolunu oynamış, müxtəlif geosiyasi kombinasiyaların yaranmasına, geniş çöllükləri böyük izdihamla aşan etnosların qarşılıqlı təsirinə təkan vermişdir... Avrasiya ərazisinə xarici müdaxilələr çox nadir hallarda baş verirdi. Xarici müdaxilələr heç zaman ciddi və uğurlu nəticə

verməmişdir. Məsələn, çinlilər XVIII əsrin sonlarınadək Böyük Çin səddinin şimalına doğru ərazilərdə məskunlaşa bilmədi. VII əsrdə ərəblər Mərkəzi Asiyanı ələ keçirsələr də, burada möhkəmlənə bilmədilər və torpaqlarına qayıtdılar, qalanlar isə assimilyasiyaya uğradı. Tarix bizə xatirə olaraq nəhəng dövlətlər olan skif, hun, monqol və rus dövləti haqqında çoxlu arxeoloji, salnamə və digər mənbələri çatdırmışdır. Geniş mənada Rusiya, bir çox etnosların ərazisidir. Slavyanlar bu ərazidə aparıcı etnos idilər. Onlar daha təşəbbüskar və başqa xalqların mədəniyyətinə, hərbi təliminə, dövlət quruluşuna qarşı həssas idilər. Bizans mədəniyyəti, monqol dövlətçiliyi slavyanları digər superetnoslarla qarşıdurmaya çəkirdi. Bir çox hallarda slavyanların keyfiyyətlərinə görə, həmçinin Avrasiyanın genişliyi səbəbindən Avrasiya daim siyasi birliyə can atırdı.

Savitski yazırdı ki, "Avrasiya ərazisi xüsusi keyfiyyətlərə görə ümumi işə", siyasi birliyə sövq edir. Bu mənada müəllif, ölçüsünə görə Roma imperiyasını və Ərəb xilafətini ötmüş, qüdrətli dövlət yaratmış Çingiz xanın Avrasiyadakı rolunu xüsusi qeyd edirdi. Savitski deyirdi: ***"Monqol-tatarlar Avrasiyanın tarixi yerini, rolunu və vəzifələrini formalaşdırmış, geosiyasi birliyinin və siyasi quruluşunun başlanğıcını qoymuşlar".***

2.12.4. İdeokratiya

"İdeokratiya" prinsipi Savitskinin nəzəriyyəsinin çox mühüm aspekti idi. Savitski belə güman edirdi ki, Avrasiya dövləti ilkin mənəvi təkanın təsiri ilə yuxarıdan aşağıya doğru qurulmalıdır. Deməli, bu dövlətin bütün strukturu aprior ideya ilə uzlaşdırılmalı və bu strukturun ən yuxarı hissəsində xüsusi "mənəvi rəhbərlər" sinfi durmalıdır. Bu mövqe "Böyük məkan" nəzəriyyəsinin (təcrübədən və təcrübənin nəticəsindən asılı olmayaraq) yaranma mənbələrinə təkan vermiş *Şmittin* iradi, mənəvi impuls haqqında fikirlərinə çox yaxındır.

İdeokratiya dövlət quruculuğuna qeyri-praqmatik, qeyri-maddi və qeyri-ticarət yanaşmaların üstün olmasını nəzərdə tuturdu. Savitskiyə görə, "coğrafi şəxsiyyət"in üstünlüyü maddi zərurətdən yüksəyə ucalmaq, qlobal tarixi bölgünün mənəvi yaradıcılıq impulsunu fiziki dünyaya daxil etməkdir.

"İdeokratiya" termini qeyri-maddi və qeyri-utilitar dəlillərə əsaslanan qeyri-demokratik, qeyri-liberal idarəetmənin bütün formalarını özündə birləşdirir. Maraqlıdır ki, Savitski bu anlayışı dəqiqləşdirməkdən şüurlu şəkildə imtina edir. O, həm teokratik kilsə hakimiyyətində, həm xalq monarxiyasında, həm milli diktaturada, həm də sovet tipli partiya dövlətində təcəssüm edə bilər. Bu terminin bu qədər geniş məna daşıması ucsuz-bucaqsız tarixi və coğrafi ölçüləri əhatə edən avrasiyaçılığın geosiyasi üfüqlərinə müvafiqdir. Bu, kontinentin intuitiv iradəsini ən dəqiq şəkildə ifadə etmək cəhdidir.

Aşkardır ki, ideokratiya *Makinder, Mehen* və *Spaykmenin* doktrinalarında üstünlük təşkil edən praqmatik-ticarət yanaşma la tamamilə ziddir. Beləliklə, avrasiyaçılar Dəniz və Quru arasında tarixi qarşıdurmanı təzahür etdirən ideoloji terminlərə tam aydınlıq gətirmiş oldular. Dəniz - liberal demokratiya, ticarət quruluşu, praqmatizm, Quru isə ideokratiya (onun bütün növləri), "iyerarxik idarəetmə", dini idealın hökmranlığı deməkdir.

Savitskinin ideokratiyaya baxışı bütün sosial modelləri və tipləri iki ümumi sinfə - "qəhrəmanlar" və "alverçilər" şəklində bölmüş alman sosioloqu və iqtisadçısı *Verner Zombartın* (1863-1941) ideyalarına uyğundur. Geosiyasi səviyyədə "qəhrəman" və "qəhrəmanlıq" terminləri metaforik, patetik maraqlarını itirir və ideokratik idarəetmənin hüquqi və etik özünəməxsusluğunu bildirən texniki terminə çevrilir.

Pyotr Savitskinin və daha geniş mənada desək, avrasiyaçıların geosiyasətin bir elm kimi inkişafında çox böyük rolu olmuşdur. Savitskinin geosiyasi doktrinası *Mehenin, Makinderin, Spaykmenin, Vidal dö la Blaşın* və başqa talassokratların baxışlarına tam ziddir. Burada ideoloji, iqtisadi, mədəni və etnik amilləri hərtərəfli araşdıran alternativ doktrinanın bitmiş və hərtərəfli şərhindən söhbət gedir. *Karl Şmittin* terminologiyası ilə desək, Savitski və avrasiyaçılar "Torpağın nomosu"nun aktual vəziyyətində onun ifadəçiləri, tellurokratiyanın ardıcıl ideoloqları, anqlosaks "Grossraum"un alternativi olan "Grossraum" mütəfəkkirləridir.

2.13. GEOSİYASƏT MİLLİ SİYASƏTİN VASİTƏSİ KİMİ

Geosiyasət elminin banilərinin ideyaları ilə qısa tanışlığa yekun vuraraq bəzi **ümumi nəticələr** çıxarmaq olar.

Bu məsələyə baxışların müxtəlifliyinə baxmayaraq, hər halda biz dünyanın müəyyən vahid mənzərəsi ilə üzləşirik. Dünyanın mənzərəsinə geosiyasi adlandırılan bu baxış tarixi proseslərin, beynəlxalq və dövlətlərarası münasibətlərin təhlilinə eyni vaxtda bir neçə elmin - coğrafiya, politologiya, ideologiya, etnologiya, iqtisadiyyat və sair elmlərin sintezi ilə yanaşmanı əhatə edir.

Bütün geosiyasi doktrinaların əsas xarakteristikası olan elmlərarası sintez cəhdi bundan ibarətdir. Bir tərəfdən Quru, "tellurokratiya", torpağın "nomosu", Avrasiya, "Hartlənd", "aralıq torpaq", ideokratik sivilizasiya, "tarixin coğrafi oxu", digər tərəfdən Dəniz, "talassokratiya", "Dəniz qüdrəti", dəniz "nomosu", Atlantika, Anqlosaks aləmi, ticarət sivilizasiyası, "xarici və ya ada ayparası" arasında fundamental tarixi dualizm iddiası ən ümumi və bütün geosiyasətçilərin şərik çıxdığı metodoloji formuldur. Ona geosiyasətin əsas qanunu kimi yanaşmaq olar. Bu dualizm postulatlaşdırılmazsa bütün başqa nəticələri öz mənasını itirir. Bu halda xüsusi aspektlər bir-birindən nə qədər fərqli olsa da, geosiyasət elminin banilərindən heç biri bu cür qarşıdurma faktına şübhə etməmişdir. O, öz əhəmiyyətinə görə fizikada ümumdünya cazibə qanunu ilə müqayisə edilə bilər.

Geosiyasətin banilərinin baxışlarının daha bir xüsusiyyəti onların siyasi güzəştlərə getməməsidir. Praktiki olaraq heç bir geosiyasətçi öz dövlətinin siyasi həyatından kənarlaşdırılmamışdır. Deməli, istisnasız olaraq bütün geosiyasətçilər "qərəzlidir". Elmi tədqiqatlarla məşğul olmağa başlayan geosiyasətçi hökmən geosiyasi qütblər xəritəsində öz yerini müəyyən etməlidir. Onun dünyada gedən bütün prosesləri hansı mövqedən təhlil etməsi bundan asılı olacaqdır. Geosiyasətin tarixində öz dövlətinin və öz xalqının taleyinə biganə olan, onun əsas etik və tarixi dəyərlərinə şərik olma-

yan müəllifə rast gəlmək mümkün deyil. Bu, ifrat qütblərdə daha aşkar görünür. *Anqlosaks müəlliflər* "Dəniz qüdrəti" məntiqinə və onun dəyərlər sisteminə, "talassokratiya"ya birmənalı şəkildə riayət edir, öz nəzəriyyələrini atlantizm mövqeyindən ifadə edirlər; *Rus avrasiyaçılar* "Hartlənd" ideallarına sədaqətdə eyni dərəcədə ardıcıldırlar və onlar ideokratiyanın və Rusiya-Avrasiyanın mütləq etik və tarixi üstünlüyünə əsla şübhə etmirlər.

Fransızların işi daha mürəkkəbdir. Onların "talassokratiya" və "tellurokratiya" arasında nəzəri seçim etmək imkanı var. Birinci halda anqlosaks dünyası ilə, "Dəniz qüdrəti" ilə həmrəylikdən, ikinci halda germanofiliyadan (almanpərəstlikdən) söhbət gedir. Hər iki model şərtsiz milli rəğbət hissini nəzərdə tutur. Fransız geosiyasətçiləri arasında bu meyillərin hər ikisi nəzəri cəhətdən mövcuddur, lakin bu sahədə mərkəzi fiqur hesab edilən *Vidal dö la Blaşın* davamçıları olan "atlantistlər" qrupu daha dolğun geosiyasi konsepsiya yaratmışdır. Blaşın geosiyasi rəqibləri - *Laval* və *dö Qoll* nəzəri cəhətdən ondan xeyli geridə qalırlar.

Almaniya da ikili vəziyyətdədir. Onun geosiyasi təfəkküru, əsasən, kontinental və Avrasiya yönümlü olsa da bu istiqamət slavyan dünyasına, Asiyaya və xüsusən Rusiyaya mürəkkəb münasibətlə məhdudlaşır. Bu məhdudiyyət o qədər ciddidir və Almaniyanın öz orta Avropa mövqeyini orta Asiya mövqeyi ilə volyuntaristcəsinə (iradi şəkildə) bərabərləşdirmək, bununla da Avrasiyanın tarixi əhəmiyyətini inkar etmək cəhdləri o qədər birmənalıdır ki, Almaniya hər iki dünya müharibəsində təkcə "talassokratik" dövlətlərə qarşı deyil, özünün Avrasiyadakı məntiqi müttəfiqi Rusiyaya (SSRİ-yə) qarşı da müharibə aparmağa məcbur olmuşdu. Deyə bilərik ki, Almaniya geosiyasəti üçün "qeyri-Avrasiya" kontinentalizmi səciyyəvidir. Bu mövqe Almaniyanın bütün tarixini geosiyasi formulda yekunlaşdırır və Almaniya milli şüurunun strukturunu əvvəlcədən müəyyənləşdirir.

Geosiyasətçi üçün dünyanın geosiyasi xəritəsində və onun qurşaqlarında öz mövqeyini əvvəlcədən müəyyən etmək zərurəti (bu mənada *Makinderin* sxemi son dərəcə aydın illüstrasiyadır) nəticə-

sində bu elm demək olar ki, yalnız dünyanın ağasına, fövqəldövlətə çevrilmək, planetar hökmranlığa nail olmaq ambisiyaları ilə yaşayan böyük dövlətlərin nümayəndələrinin konsepsiyalarında inkişaf etmişdir.

Amerikalılar - Mehen və *Spaykmen,* ingilis *Makinder* "ada aypara-sı"nı təmsil edirlər. Onlar atlantizmin, "talassokratiya"nın "spikerləri" - hökumətdir.

Blaş və onun məktəbi atlantist Fransanı təmsil edir, Pyer Laval, *Şarl dö Qoll* kontinentalizmə, avropaçılığa, antiatlantizmə meyil edirlər. Buna görə də onların hər ikisini germanofil hesab etmək mümkündür. Bu xüsusiyyət onları yaxınlaşdırır, hərçənd, onlar iki düşmən düşərgəyə mənsub idi: *Laval* Vişinin kollaborasionist hökumətinin rəhbəri, *dö Qoll* isə antifaşist fransız ordusunun başçısı olmuşdur.

Almanlar - Ratsel, Haushofer və *Şmitt* Almaniyanı Quru oxu, "tellurokratiya" ilə eyniləşdirir və Almaniyadan anqlosaks "talassokratiya"ya qarşı mübarizə aparmalı olan "Böyük məkan" yaratmağa çalışırlar. İsveçli *Rudolf Çellen* də onlara yaxın mövqe tutur, lakin o, məhdud İsveç millətçisi kimi deyil, "Orta Avropa"nın, german Avropası məkanının nümayəndəsi kimi düşünür. Ən radikal kontinentalistlər olan *Ernst Nikiş, Fridrix Georq Yunger, Artur Müller van den Bruk* və başqaları daha irəli gedir və Almaniyanın gələcəyini yalnız Avrasiya Rusiyası ilə strateji inteqrasiyada görürlər.

Nəhayət, *rus avrasiyaçılar (Savitski, Trubetskoy* və b.) kontinentalizmin ən yetkin versiyasını ifadə edir, Quru "nomosu"nun, "tellurokratiya"nın ən radikal mövqeyini təmsil edirlər.

Digər ölkələrin geosiyasətçiləri arasında az-çox sanballı adların olmaması (hərçənd, İtaliyada, İspaniyada, Belçikada, Rumıniyada, Hollandiyada və s. bələləri olmuşdur) onunla izah edilir ki, miqyasına görə ikinci dərəcəli dövlətlərin geosiyasi dualizmi yalnız dolayı şəkildə təzahür edir, onların qlobal qarşıdurmaya təsiri və deməli, geosiyasətin mahiyyəti, onun kəskinliyi, aktuallığı cüzidir, geosiyasətin taleyüklü ölçüsü həmin dövlətlər üçün əsla aktual deyildir.

Geosiyasətçi alimlərin vətəndaşlığı onların dünyagörüşlərinə bilavasitə təsir göstərir. Burada məntiqi əlaqə olması aşkardır. Mahiyyət etibarilə geosiyasətçilər o insanlara deyilir ki, onlar məkanda qlobal inkişafın tarixi meyillərini ən yüksək məsuliyyətlə dərk edir, bu kontekstdə öz dövlətinin və öz xalqının yerini düzgün başa düşməkdə iddialı olurlar. Ona görə də bu insanlar çox vaxt dünya tarixinə birbaşa və ya dolayı şəkildə təsir göstərirlər.

Lakin belə bir yanaşma maraq doğurur. Geosiyasətçilərin hakimiyyətə birbaşa təsirinin dərəcəsi, dövlətlərin beynəlxalq münasibətlərində elmi araşdırmalarla siyasi kurs arasında əlaqə kəskin fərqlənir.

Mehen, Spaykmen və *Makinder* öz dövlətlərində yüksək vəzifələr tuturdu. Onların siyasi fəallığı bilavasitə nəticələr verirdi, onların anqlosaks siyasətinə birbaşa təsiri aşkar və çox güclüdür. Öz ölkələrinin elmi dairələri ilə müəyyən ziddiyyətlərə və bütövlükdə, dəniz sivilizasiyası üçün onların ideyalarının əhəmiyyəti müəyyən taktiki mənada etiraf edilmədiyinə baxmayaraq, onlar sağlığında hörmət qazanmış, hərtərəfli dəstəklənmişdi, onların taleyi və karyerası uğurlu idi.

Kontinental geosiyasətçilərin vəziyyəti bir qədər başqadır. Məsələn, *Vidal dö la Blaş* yalnız öz tədqiqatlarının əhatə dairəsini siyasi miqyasa qədər genişləndirməyə çalışan coğrafiyaşünas hesab edilirdi. Hökumət ona hörmətlə yanaşırdı, lakin bütövlükdə ona laqeyd idi, hərçənd, onun bir sıra (xüsusən "Şərqi Fransa" əsərində şərh edilmiş) prinsiplərindən istifadə edilirdi. Blaş ingilis-amerikalılar kimi nüfuz sahibi deyildi, lakin onun nəzəri irsi ilə hesablaşırlar.

Almanların, xüsusən *Haushofer* və *Şmittin* vəziyyəti daha ciddidir. İstər Veymar Respublikasında (1918-1933), istərsə də *Hitler* dövründə onlara münasibət dalğavarı olur, hakimiyyətin müəyyən qədər diqqət yetirməsindən birbaşa repressiyalar səviyyəsinə qədər dəyişir. "Talassokratik" geosiyasətçilərlə müqayisədə onların taleyi faciəlidir, karyeraları ziqzaqlı olduğundan müəyyən anlarda onlar hətta milli məqsədləri ümumən özlərinin məqsədləri ilə üstüstə düşən rejimlərin qurbanı olurlar. Burada söhbət hörmətdən və

ya ehtiramdan getmir, onlara münasibət gah isterik diqqətə, gah da aşkar təqiblərə çevrilir.

Avrasiyaçıların vəziyyəti daha faciəlidir. Burada geosiyasətçilərə birbaşa diqqətdən əsər-əlamət yoxdur, rəsmi mənbələrdə bir dəfə də olsa onların adları çəkilmir, onların mülahizələri tamamilə inkar edilir, özləri təqiblərə məruz qalır, sürgün edilir, həbs olunurlar. Sovet tarixinin müəyyən dövrünə qədər belə təsəvvür yaranır ki, beynəlxalq səviyyədə əsas qərarlar özlərinin hər bir addımını avrasiyaçıların çap olunmuş əsərləri ilə müqayisə edən *Pyotr Savitskinin* davamçıları tərəfindən qəbul edilir. Lakin keçid anında - 1989-cu ildə məlum olur ki, sovet rəhbərliyində heç kəs ənənəvi xarici siyasətin məntiqini ağlabatan şəkildə izah edə bilmir və bunun nəticəsində müharibələrə, məhrumiyyətlərə, əzab-əziyyətə, ağlasığmaz çətinliklərə sinə gərmiş üç nəslin gərgin zəhməti bahasına yaradılmış nəhəng Avrasiya orqanizmi bir göz qırpımında dağılır.

Geosiyasətçilərin hakimiyyətə təsiri mənasında onların şəxsiyyətinin rolu Qərb-Şərq oxu boyunca sürətlə dəyişir. *Mehenə* və *Spaykmenə* ehtiram hissi ilə təzad yaradan vəziyyət müşahidə olunur. SS-çilər *Şmitti* daim hədələyir, *Haushofer* təqib edilir (onun oğlunu güllələmişdilər), *Savitski* və *Karsavin* tərəfdarları isə daha ciddi təqiblərə məruz qalır. Çox təəccüblüdür ki, nəticə etibarilə məhz özlərinin geosiyasətçilərinə daha çox qulaq asan və onları qiymətləndirən ölkələr heyrətamiz nəticələrə nail olmuş və dünyada yeganə hakim dövlətə çevrilmək həddinə yaxınlaşmışdılar. Almaniya isə *Haushoferin* "kontinental blok" haqqında tezislərinə diqqət yetirməməyin cəzası kimi yarım əsr müddətində tarixdən kənarda qaldı. Ən məsuliyyətli, dərin zəkalı və uzaqgörən vətənpərvərlərin əsərlərinə əhəmiyyət verməyən SSRİ müharibədən sonrakı dövrdə Almaniya ilə demək olar ki, eyni vəziyyətə düşdü. O, savaşsız, müqavimətsiz bir vəziyyətdə dünyada nüfuzunu itirdi, onun tutduğu məkan kəskin şəkildə azaldı, iqtisadiyyatı və sosial sahəsi bərbad vəziyyətə düşdü və tarix səhnəsindən silindi.

III F ə s i l

MÜASİR GEOSİYASİ NƏZƏRİYYƏLƏR VƏ MƏKTƏBLƏR

(XX əsrin ikinci yarısı və müasir dövr)

3.1. Ümumi icmal
Müasir Avropada geosiyasət və geosiyasətçilər

XX əsrin ikinci yarısında geosiyasi fikrin inkişafı bütövlükdə bu elmin baniləri tərəfindən açılmış yollarla gedirdi. *Haushofer* və onun məktəbi Üçüncü reyx ilə intellektual əməkdaşlıq etdiyinə görə ümumi nifrət obyektinə çevrilmişdi. Onların təcrübəsi bu elmi fənlə məşğul olan müəllifləri məcbur edirdi ki, faşizmdə ittiham olunmamaq üçün dolayı yollar axtarsınlar. Məsələn, amerikalı *Kolin S.Qrey* ümumiyyətlə geosiyasət haqqında danışanda iki terminдən - ingiliscə "geopolitics" və almanca "geopolitik" terminlərindən istifadə olunmasını təklif edirdi. Bu anlayışlardan birincisi geosiyasətin anqlosaks və praqmatik versiyasını, yəni *Mehen, Makinder* və *Spaykmenin* yanaşmalarını qəbul edən müəlliflərin əsərlərini, ikincisi isə kontinental modeli, Haushofer məktəbinin bəzi "mənəvi" və ya "metafizik" amilləri nəzərə alan irsini nəzərdə tutmalı idi. Əlbəttə, bu cür bölgü tamamilə şərtidir və "siyasi korrektlik" mülahizələrindən irəli gələn yanaşmadan başqa bir şey deyildir.

Bu müddət ərzində geosiyasətdə Amerika xətti və daha geniş mənada isə atlantist (talassokratik) xətt praktiki olaraq öz inkişafını ənənəvi çərçivədə davam etdirirdi. Amerikalıların dünya dövləti kimi təşəkkül etmək layihələri həyata keçdikcə müharibədən sonrakı dövrdə atlantist geosiyasətçilər yalnız nəzəriyyənin ayrı-ayrı aspektlərini dəqiqləşdirir və detalları araşdırmaqla tətbiqi sahələrini inkişaf etdirirdilər. "Dəniz qüdrəti"nin və onun geosiyasi perspektivlərinin əsas modeli ayrı-ayrı hərbi-coğrafi

məktəblərin elmi araşdırmalarından ABŞ-ın rəsmi beynəlxalq siyasətinə çevrilirdi.

Bununla bərabər, ABŞ-ın fövqəldövlət kimi təşəkkülü və talassokratiyanın planetar miqyasda qəti hegemonluğuna keçid mərhələsi amerikalı geosiyasətçiləri məcbur edirdi ki, onlar iki deyil, yalnız bir əsas qüvvənin iştirak etdiyi tamamilə yeni geosiyasi modeli nəzərdən keçirsinlər. Bu halda hadisələrin inkişafının prinsipcə müxtəlif iki variantı vardı: ya Şərq ilə geosiyasi dueldə Qərbin qəti qələbəsini, ya da iki ideoloji düşərgənin vəhdət şəklində konvergensiyası və dünya hakimiyyətinin bərqərar olmasını (bu layihə fransızca "dünya" mənası verən "monde" sözündən yaranmış *"mondializm"* adı ilə məşhurdur) əsaslandırmaq lazım idi. Hər iki halda sivilizasiyaların tarixinin ehtimal edilən bu nəticəsini yeni geosiyasi mənada dərk etmək tələb olunurdu. Bununla əlaqədar geosiyasətdə *"mondializm geosiyasəti"* adlanan ayrıca bir istiqamət formalaşmışdır. Bu nəzəriyyəni *"yeni dünya nizamı"* doktrinası da adlandırırlar. Amerikalı geosiyasətçilər tərəfindən keçən əsrin 70-ci illərindən başlayaraq tədqiq edilən bu doktrina haqqında ilk dəfə 1991-ci ildə Fars körfəzində müharibə dövründə ABŞ Prezidenti ata *Corc Buş* (1924) bəyan etmişdir.

İkinci Dünya müharibəsi başa çatanda Avropa geosiyasəti müstəqil bir siyasət kimi əslində mövcud deyildi. Yalnız qısa bir tarixi dövrdə - 1958-1969-cu illərdə "kontinentalist" *Şarl dö Qoll* Fransanın Prezidenti olduğu vaxtda vəziyyət bir qədər dəyişmişdi. Dö Qoll 1963-cü ildən başlayaraq antiatlantik xarakteri aşkar görünən bəzi tədbirlər həyata keçirmiş, nəticədə, Fransa NATO-dan çıxmış və özünün geosiyasi strategiyasını işləyib hazırlamağa cəhd göstərmişdi. Lakin bu dövlət təkbaşına bütün "talassokratiya" dünyası qarşısında davam gətirə bilməzdi. Ona görə də Avropadaxili Fransa-Almaniya əməkdaşlığı və SSRİ ilə əlaqələrin möhkəmləndirilməsi məsələsi gündəmə gəldi. Beləliklə, dö Qollun məşhur *"Atlantikdən Uraladək Avropa"* tezisi yarandı. Şarl dö Qoll Avropanı tam suveren bir strateji kontinental ərazi, burada mövcud olan ölkələri isə vahid blok tərkibində görürdü. Onun bu

düşüncəsi sonralar geosiyasi ədəbiyyatda *"Avropa kontinentalizmi"* geosiyasi nəzəriyyəsi adını almışdır *[Колосов, Мироненко, 2005, стр.131-132].*

Bununla bərabər, 70-ci illərin əvvəlində ABŞ-da geosiyasi tədqiqatlar çox populyarlaşanda avropalı alimlər də bu prosesə qoşulmağa başlayır, lakin əksər hallarda onların müharibədən əvvəlki geosiyasi məktəblə əlaqələri qırılır və anqlosaks yanaşma normaları ilə hesablaşmağa məcbur olurdular. Məsələn, avropalı alimlər NATO, BMT və başqa beynəlxalq təşkilatların texniki ekspertləri kimi çıxış edir, tətbiqi geosiyasi araşdırmalarla məşğul olur və konkret məhdud məsələlərin əhatə dairəsindən kənara çıxmırdılar. Bu tədqiqatlar tədricən Fransada kifayət qədər inkişaf etmiş müstəqil "regional geosiyasət"ə çevrilirdi ("Herodot" jurnalının naşiri *İv Lakostun* məktəbi). Bu məktəbin nümayəndələri *Makinder, Mehen* və yaxud *Haushoferin* mücərrəd qlobal sxemlərindən çıxış edir, təməl ideyalara lazımınca diqqət yetirmirdi, eyni zamanda, geosiyasi metodikaları yalnız etnoslararası və dövlətlərarası münaqişələrin, demoqrafik proseslərin və hətta *"siyasi seçimlər geosiyasəti"nin* təsvir olunması üçün istifadə edirdi.

Müharibədən əvvəlki dövrdən Avropada qorunub saxlanmış yeganə geosiyasi ənənə müharibədən sonrakı dövrün millətçi partiya və hərəkatları ilə bu və ya digər dərəcədə bağlı olan marginal qrupların sərvəti idi. Bu dairələrdə inkişaf edən geosiyasi ideyalar bilavasitə kontinentalizmə, *Haushoferin* məktəbinə müvafiq idi. Bütövlükdə, bu hərəkat avropalı *"yeni sağlar"* adı almışdı. İctimai rəy müəyyən məqama qədər onları faşizm qalıqları hesab edərək sadəcə rədd edirdi. Yalnız sonrakı illərdə, xüsusən fransız filosofu *Alen dö Benuanın* maarifçilik və jurnalistlik fəaliyyəti sayəsində ciddi elmi dairələrdə də bu istiqamətin nümayəndələri ilə hesablaşmağa başladılar. Avropanın hakimiyyət instansiyalarından onları ayıran böyük məsafəyə və ideya baxımından müxalifətdə olmalarına baxmayaraq, "yeni sağlar" deyilən intellektual dairələrin əsərləri nəzəri baxımdan geosiyasətin inkişafına böyük töhfədir. Onların siyasi konformizm çərçi-

vəsində qapanıb qalmayan təfəkkürü nisbətən müstəqil və qərəzsiz inkişaf edirdi. 90-cı illərdə elə vəziyyət yaranmışdı ki, avropalı rəsmi geosiyasətçilər (əsasən solçu və ya ifrat solçu partiyaların nümayəndələri) "yeni sağlar"a, onların əsərlərinə, tərcümələrinə və tədqiqatlarına müraciət edərək geosiyasi mənzərənin tamlığını bərpa etməyə məcbur idilər.

SSRİ-də isə geosiyasət "faşist" və "burjua psevdoelmi" hesab edilirdi. Ona görə də belə bir elm qəbul edilməmişdi. Onun funksiyalarını bir neçə fənn - strategiya, hərbi coğrafiya, beynəlxalq hüquq və beynəlxalq münasibətlər nəzəriyyəsi, coğrafiya, etnoqrafiya və başqa elmlər yerinə yetirirdi. Bununla bərabər, SSRİ-nin planetar miqyasda ümumi geosiyasi davranışı kifayət qədər səmərəli model sayıla bilərdi. SSRİ-nin Avrasiyanın cənubunda, "sahil zonası"nda öz mövqelərini möhkəmlətmək cəhdləri, onun Afrikaya nüfuz etməsi, ABŞ tərəfindən Monro doktrinasına əsasən nəzarət edilən məkanda nifaq salmaq məqsədilə Cənubi Amerikada sabitliyi pozan hərəkətləri və hətta sovet qoşunlarının Əfqanıstana soxulması (talassokratiyanın strateji sərhədlərini "tarixin coğrafi oxu"nun cənub sərhədlərinə yaxınlaşdırmağa çalışan Amerika "anakondası"nı parçalamaq məqsədi ilə) və başqa hərəkətlər timsalında SSRİ-nin ardıcıl və geosiyasi cəhətdən əsaslandırılmış siyasəti o dövrdə müəyyən "qərarlar mərkəzi"nin mövcud olmasını göstərir. Ehtimal edilirdi ki, bir sıra ənənəvi elmlərin çıxardığı nəticələr həmin mərkəzdə ümumiləşdirilir və sintez əsasında mühüm strateji addımlar atılırdı **(***bax:* **xəritə 8).** Lakin bu kripto-geosiyasi mərkəzin sosial lokallaşması bir qədər problemli təsir bağışlayır. Bir versiyaya görə, söhbət sovet Baş Kəşfiyyat İdarəsinin bir məxfi şöbəsindən gedirdi.

Əslində isə geosiyasət yalnız marginal dissident dərnəklər tərəfindən inkişaf etdirilirdi. Bu istiqamətin ən parlaq nümayəndəsi tarixçi *L.N. Qumilyov* idi. Lakin o özünün əsərlərində heç vaxt "geosiyasət" və "avrasiyaçılıq" terminlərindən istifadə etməmiş və üstəlik, sosial-siyasi gerçəkliklərə birbaşa müraciət etməkdən hər vasitə ilə uzaq olmağa çalışmışdır. Məsələyə bu cür ehtiyatlı yanaş-



Xəritə 8. ***Sovet İttifaqının cənub istiqamətində növbəti uğursuz həmləsi. Əfqanıstana müdaxilə Moskvanın "anakonda halqası"nı qırmaq və "isti dənizlər"ə yol açmaq cəhdinin diqtəsi ilə baş verirdi.***

ma sayəsində o, hətta sovet rejimi dövründə etnoqrafik tarixə həsr edilmiş bir neçə kitab dərc etdirə bilmişdi.

Varşava müqaviləsi ləğv ediləndən və SSRİ dağılandan sonra geosiyasət yenidən aktuallaşdı. İdeoloji senzuranın ləğv edilməsi sayəsində axır ki, hər şeyi öz adı ilə adlandırmaq mümkün oldu. Yenidənqurma deyilən dövrdən az sonra geosiyasət bütün postsovet cəmiyyətlərində ən populyar mövzulardan birinə çevrildi. Müasir dövrdə geosiyasətə və geosiyasi irsə maraq çox güclüdür.

3.2. Müasir atlantizm

Spaykmenin ardıcılları - Donald Meyninq, Vilyam Kirk, Saul Kohen, Henri Kissincer, Kolin Qrey, Qar Alperovits

İkinci Dünya müharibəsindən sonra Amerikada geosiyasətdə atlantik xəttin inkişafı əsasən *N.Spaykmenin* tezislərinin inkişafından

ibarət idi. *Spaykmen* özü vaxtilə *Makinderin* nəzəriyyəsinə təshihlərdən başladığı kimi, onun ardıcılları da *Makinderin* baxışlarına düzəliş edirdilər.

Spaykmenin şagirdi **Donald Meyninq** (1924) ABŞ geosiyasətinin *"iki blok - iki mədəniyyət"* kulturoloji aspektini inkişaf etdirmişdir *[Meining, 1956]*. ABŞ Üçüncü dünyada milli dövlətlərin və onların xalqlarının müqaviməti ilə rastlaşırdı. Bu zaman dekolonizasiyanın (müstəmləkəsizləşdirmə) fəal prosesləri baş verirdi. SSRİ-nin ideoloji nüfuzu artırdı. Bununla əlaqədar Meyninq hesab edirdi ki, ABŞ öz praktik geosiyasətinə daha cəlbedici mədəni komponent daxil etməlidir. Geosiyasətçi bildirirdi ki, *insanların düşüncə və ruhu uğrunda mübarizə geosiyasətin tərkib hissələri arasında hərbi qüvvədən az olmayan, hələ bəlkə ondan da mühüm amildir.*

Modelləşdirmə baxımından Meyninq iki "Rimlənd"i fərqləndirməyə üstünlük verirdi: dəniz və kontinental. Sonuncunu dövlətin dənizə çıxışının formal meyarı ilə müəyyən etmək düzgün deyil. Daha mühüm substansiya ictimai sistemdir. Məsələn, o, Çini, Vyetnamı (Şimali), Banqladeşi, Baltikyanı dövlətləri dənizə çıxışı olan ölkələr kimi kontinental mədəni məkanlara daxil edirdi. Hindistanı, Cənubi Koreyanı, Birmanı geosiyasi cəhətdən bitərəf sayırdı. Eyni zamanda, Qərbi Avropa ölkələrini, Türkiyəni, Pakistanı və Tailandı "talassokratik" bloka meyilli hesab edirdi. Meyninqə görə, mədəniyyətlərin təşəkkülündə birinci mərhələ kontinental inkişafla əlaqədar olmuşdur, dəniz oriyentasiyası isə inkişafın daha sonrakı pilləsidir.

Bu ideyanı 1965-ci ildə çap etdirdiyi kitabda *Makinderin* "Tarixin coğrafi oxu" məruzəsinin adını yenidən gündəliyə gətirən *Spaykmenin* digər davamçısı **Vilyam Kirk** inkişaf etdirmişdir. O, *Meyninqin* "sahil zonaları"nın təsnifatını mükəmməl şəkildə sona çatdıraraq tarixi model qurmuşdur. Onun sözlərinə görə, burada əsas rolu "talassokratik oriyentasiyalı" sivilizasiyalar oynayır, onlardan gələn impulslar bu və ya digər intensivliklə "tellurokratik" ölkələrin daxilinə sirayət edir.

Məşhur Amerika coğrafiyaşünası **Saul Bernard Kohen**[1] geostrateji zonaların və onlara uyğun geosiyasi regionların modelini hazırlamışdır. *"Bölünmüş dünyada coğrafiya və siyasət"* adlı məşhur əsərində (1963) Kohen yazırdı ki, *Makinderin baxışları artıq öz qüvvəsini itirmişdir.* O, Spaykmenin ideyalarını təftiş edirdi və SSRİ-nin malik olduğu hərbi potensialı, onun nüvə başlıqlı raketlərini, o cümlədən okeanlarda üzən atom raketləri ilə silahlanmış dəniz qüvvələrini, Karib dənizi rayonundakı hərbi bazalarını nəzərdə tutaraq deyirdi ki, "Rimlənd"də (Avrasiyanın sahil zonasında) Sovet İttifaqının "çəkindirilməsi siyasəti" at çıxıb qaçdıqdan sonra tövlənin qapılarının bağlanmasına bənzəyir. O, bipolyar (ikiqütblü) dünya nizamının dağılmasının mümkünlüyünü və oxşar iqtisadi, siyasi və mədəni əlamətlərə malik regionların rolunun artmasını əsaslandıran ilk alimlərdən biri idi. "İnkişafın üsulu" anlayışı Kohen tərəfindən əsaslandırılmışdır. Burada regional geosiyasətin əhəmiyyətinin artması və müxtəlif sosial şkalalarda siyasi, sosial və iqtisadi proseslər arasında asılılığın olmaması qeyd olunur və izah edilir.

Kohenin təqdim etdiyi model polisentrik və iyerarxikdir. Demək lazımdır ki, onun bəzi struktur vahidləri *Makinderdən* gəlir, baxmayaraq ki, bu modeldə Qurunun və Dənizin sərt qarşıqoyulması yoxdur və burada müharibə geosiyasətindən sülh geosiyasətinə addım atılmışdır. Lakin bu modelləşdirilmədə klassik elementlərdən istifadə olunur, amma onlar, xüsusən "Rimlənd" parçalanır *(bax:* **xəritə 9**).

Beləliklə, Kohenin modeli iyerarxik xarakter daşıyır və aşağıdakı *səviyyələrə* bölünür.

• **Birinci səviyyə** "geostrateji sferalar"la təqdim edilmişdir. Yəni *Dəniz* - ticarətdən asılı olan dəniz dövlətləri dünyası və *Avrasiya* kontinental dünyası. Bu, sanki iki yarımkürədir və onları prinsipcə *Makinder* də ayırırdı.

[1] S.Kohen 1989-1990-cı illərdə Amerika Coğrafiyaçıları Assosiasiyasının prezidenti olmuşdur.



Xəritə 9. ***Dünyanın geosiyasi rayonlaşdırılması***
Mənbə: S.Kohen, 1994

• **İkinci səviyyə,** birinci iyerarxik səviyyəyə (sferalara) daxil olan geosiyasi regionlardır. *Dəniz sferasına* dörd region daxildir: Anqlo-Amerika və Karib ətrafı; Qərbi Avropa və Məğrib ölkələri; ada Asiyası və Okeaniya; Cənubi Amerika və Cənubi Afrika. *Avrasiya sferasına* isə iki geosiyasi region daxildir - "Hartlənd" və Şərqi Asiya.

İkinci iyerarxik səviyyədə geostrateji sferalardan daha üç əlavə törəmə seçilmişdir:

Cənubi Asiya - öz geosiyasi kodu ilə müstəqil region;

Orta Şərq - bölən, daha doğrusu bölünmüş qurşaq;

Mərkəzi-Şərqi Avropa - "qapı" rolunu oynayan region; bu, potensial olaraq Qərb və kontinental (Avrasiya) geostrateji sferası arasındakı əlaqələrə təkan verir.

Regionun mühüm strateji mövqeyi çoxdan məlumdur. Hələ *Makinder* bu regionun müstəqilliyi və sabitliyini Avrasiya və hət-

ta dünya tarazlığının həlledici amili hesab edirdi: Mərkəzi-Şərqi Avropadakı regional münaqişələr dünya dövlətləri arasında münasibətləri kəskinləşdirərək mövqelərindəki ziddiyyətləri aşkara çıxarır. Beləliklə, geosiyasi regionlar iqtisadi, siyasi və mədəni xüsusiyyətlərinə görə geosiyasi sferaların nisbətən iri bölmələridir.

• **Üçüncü səviyyə,** milli dövlətlərlə - beş qüdrətli ölkəylə təmsil olunmuşdur: ABŞ, Avropa İttifaqı, Rusiya, Çin və Yaponiya. *Kohen qüdrətli dövlətlərin hüdudlarında hakim əraziləri ayırmışdır: ABŞ-da - Atlantik sahilləri-Böyük Göllər bölgəsi, Avropa İttifaqında - "İnkişafın mərkəzi oxu"-Şimal dənizi akvatoriyası, Yaponiyada - Sakit okean qurşağının konurbasiyaları, Rusiyada - Rostov-Don-Sankt-Peterburq-Kuzbas sənaye-aqrar üçbucağı, Çində - Mərkəzi çay vadiləri və Şimal-Şərq. Bununla da fövqəldövlətlərin inkişafı və qarşılıqlı fəaliyyəti dünya geosiyasi sisteminin varisliyini təmin edir.*

• **Dördüncü səviyyə** - 1970-ci illərdə formalaşmış, müvafiq regionlar çərçivəsində üstünlük qazanmış, bununla belə, qlobal nüfuza malik olmamış bir neçə ikinci dərəcəli dövlətlərdir (ilk növbədə, regiondankənar iqtisadi və siyasi münasibətlərdə məhdud iştirakları nəticəsində).

• **Beşinci səviyyə** - submilli ərazi - "qapı"lardır (əlaqələrin fokusları) ki, Kohenin ehtimalına görə, onlar gələcəkdə dövlətlər arasında əlaqə bələdçisi olacaqlar.

1980-1990-cı illərdə sosialist düşərgəsinin parçalanmasından, nəhəng geosiyasi dağıntılardan sonra *dünya sistemi yeni tarazlıq axtarışı vəziyyətinə daxil oldu.* Bu, ziddiyyətlərin və hətta "hiddətin" olmaması demək deyil; keçmiş SSRİ-də millətlərarası münaqişələr və terrorizm, keçmiş Yuqoslaviyada qanlı müharibələr, İraq ətrafındakı vəziyyət, Kəşmirdə dini icmaların mübarizəsi, Afrikada etnik toqquşmalar və s. buna misaldır. Lakin bu separatçı və dağıdıcı proseslər inteqrasiya meyilləri ilə kompensasiya olunur. Qlobal inteqrasiya daşıyıcıları qismində birbaşa xarici investisiyalar, texnologiyaların transferi, istehsalatın müfəssəl ixtisaslaşdırılmasını həyata keçirən transmilli korporasiyalar çıxış edirlər.

Praktik olaraq, bütün geosiyasi bölgələr regional inteqrasiya proseslərinə cəlb olunublar ki, bu da onların hüdudları çərçivəsində iqtisadi və siyasi əməkdaşlığın genişlənməsinə təkan verir.

Geosiyasi regionlar müxtəlif inkişaf mərhələsindədir, buna görə onların regionlararası qarşılıqlı fəaliyyətdəki rolları uyuşmur. Kohen geosiyasi regionların daxili və xarici əlaqələrinin balanslaşdırılmasının təhlili üçün *entropiya* (yun. *en* - da, də və *trope* - dönüş, çevrilmə) anlayışından istifadəni təklif etmişdir. Entropiya anlayışı fizikadan götürülmüşdür. O, təcrid olunmuş sistemin tarazlıq vəziyyətinə yaxınlıq dərəcəsini xarakterizə edir. Statistik fizika entropiyanı sistemin mövcud vəziyyətdə qalması ehtimalının ölçüsü kimi qiymətləndirir. Entropiyanın yüksəlməsi daxili enerjinin, yaxud istehsal bacarığının tükənməsinə dəlalət edir. İnformasiya nəzəriyyəsində entropiya qeyri-müəyyənlik *(uncertainty)* ölçüsü kimi şərh olunur.

Qeyri-müəyyənlik - qabaqcadan proqnozlaşdırıla bilinməyən hadisələrin baş verməsi ehtimalı olan vəziyyətdir. O, mürəkkəb sistemlərin labüd cığırdaşıdır. Sistem nə qədər mürəkkəbdirsə, onun inkişafında qeyri-müəyyənlik amili bir o qədər çox əhəmiyyətə malik olur. Bütün qapalı sistemlər kollapsa (tibb. ürək fəaliyyətinin qəfildən dayanması) məhkumdurlar, belə ki, insan və fiziki resurslar tükənir, entropiyanın səviyyəsi isə sürətlə yüksəlir. Lakin müasir dünyada praktik olaraq bütün geosiyasi regionlar enerji axını, əmtəə, kapital, insan və ideyaların yerdəyişməsi ilə bağlı açıq sistemləri təşkil edirlər.

Müəllif ölkələr və regionlar arasındakı mübadiləni dünya sistemi dinamikasının əsas elementi sayır. Mübadiləni şərtləndirən mexanizm ərazinin siyasi təşkili, iqtisadi strukturu və sosial quruluşu və ya xarici qüvvələrin təsiri vasitəsilə daxili inkişafıdır. Kohen xüsusi olaraq qeyd edir ki, dövlətin qüdrətini göstərən ərazisinin sahəsi, məhsuldar torpaq, mineral və su ehtiyatlarına malik olması, nəqliyyat və digər növ kommunikasiya şəbəkəsinin inkişafı, əhali-

sinin sayı, təhsil səviyyəsi və hərbi arsenalı kimi standart əlamətlərlə yanaşı, millətin yekdilliyinin səviyyəsi, ideoloji gücü (ideologiyanın təsir səviyyəsi), milli məqsədləri, mentaliteti, beynəlxalq nüfuzunu qorumaq üçün məqsədləri, strategiyası və yeniləşmə qabiliyyəti də nəzərə alınmalıdır.

Kohen ərazilərin entropiya səviyyəsini müəyyən etmək üçün bu göstəricilərdən istifadə etməyi təklif edir: maddi səviyyəsi, kənd təsərrüfatı məhsulları, əmək məhsuldarlığı, borcların ödənilməsi, ödəmə balansının saldosu, alimlərin sayı, patent, yanacaq və enerji xərclərinin azaldılması.

O, entropiyanın səviyyəsinə görə regionları dörd kateqoriyaya ayırmışdır:

- *entropiyası aşağı səviyyəlilər (Anqlo-Amerika və Karib ölkələri; Qərbi Avropa və Məğrib ölkələri; ada Asiyası və Okeaniya);*
- *entropiyası orta səviyyəlilər ("Hartlənd"; Mərkəzi-Şərqi Avropa; Orta Şərq);*
- *entropiyası yüksək səviyyəlilər (Cənubi Asiya; Şərqi Asiya);*
- *entropiyası son dərəcə yüksək səviyyəlilər (Cənubi Afrika; Cənubi Amerika).*

Kohenə görə, hüdudları arasında dünya fövqəldövlətlərinin yerləşdiyi geosiyasi regionlar entropiyanın səviyyəsi aşağı və orta əhəmiyyətə malik olmaqla xarakterizə edilir, dünya geosiyasi sistemində tarazlığı və sonrakı inkişafı müəyyənləşdirir. Zəruri həcmdə qlobal əhəmiyyət daşıyan potensial enerjiyə malik olaraq onlar təsirlərini sərhədlərindən kənara yayırlar. Bu qəbil nüfuzetmə xarici ticarət vasitəsilə həyata keçirilir. İxrac və idxalın nisbətindən daha çox, hər regionun bir-biri ilə xarici ticarətdə xüsusi çəkisi, xarici kapital qoyuluşu axını, diplomatik əlaqələr mühüm əhəmiyyətə malikdir. Bu regionların öz aralarında bir qayda olaraq entropiya balansı, digərləri üzərində isə üstünlükləri var.

Kohenin fikrincə, Hindistan entropiyası yüksək səviyyəli ölkələrə nümunədir. Belə ki, Hindistanda etnolinqvistik parçalanma böyükdür, Qərbin demokratik modeli üzərində qurulmuş siyasi sistem sosialist tipinə yaxın olan iqtisadi sistemlə ziddiyyətdədir, hinduistlər və müsəlmanlar arasında açıq və barışmaz toqquşmalar baş verir, məhdudlaşdırıcı demoqrafik siyasətin tutarsızlığı göz qabağındadır.

Böyük millətlərin həyatına əhəmiyyətli dəyişikliklər gətirən *keçid dövlət və qurşaq tiplərinin* Kohen tərəfindən fərqləndirilməsi diqqətəlayiqdir. Bu, ilk növbədə, Böyük Səhradan (Sahara) cənubdakı Afrikanı və Cənubi Amerikanı əhatə edən, dünya sistemində lokal və regional münaqişələrlə qeyri-sabitlik yarada bilən, *qeyri-sabit qurşaqlar, marginal sferalardır.*

O, bundan başqa, arzuolunmaz entropiyalar yeritmək yolu ilə iri regional strukturlarda hiddət mənbəyi yaradan "asimmetrik" əraziləri ayırır: Kuba, İsrail, keçmiş Yuqoslaviya, Liviya, İraq, İran və bəzi digər dövlətlər.

Uzun müddət ərzində "okeanik" və "kontinental" geostrateji sferaların ("Rimlənd") ayrılma zolağı daha çox qeyri-sabit və dünya geosiyasi sistemində risk amili olmuşdur. Kohenə görə, 1970-ci illərdə başlamış bölünmə nəticəsində, həmçinin dünyada yeni tarazlıq vəziyyətinin yaranmasından, sosialist sisteminin dağılmasından sonra "Rimlənd"in ayrı-ayrı sahələri nisbətən müstəqil geosiyasi vahidlər kimi formalaşdı. Belə ki, Cənubi Asiya ölkələri müstəqil, potensial geosiyasi sfera yaratdılar; Vyetnam, Laos və Kamboca Şərqi Asiyanın tərkibinə daxil oldu; beynəlxalq geosiyasi nizamın bir çox problemlərinin cəmləşdiyi Yaxın Şərq "bölünmüş qurşaq" kimi qaldı.

"Rimlənd"in Mərkəzi-Şərqi Avropa sektorunda radikal dəyişikliklər baş verdi. Kohenin fikrincə, Mərkəzi-Şərqi Avropa get-gedə "qovğa-nifaq ocağından" sabitliyi möhkəmlədən və dünya sistemində əlaqələrin yaradılmasına təkan verən "qapı"ya aparan yola çevrilə bilər. Lakin başlıca məqsəd Qərbi Avropa və "Hartlənd", yəni əks geostrateji sferalara aid olan geosiyasi regionlar arasında qarşılıqlı fəaliyyəti stimullaşdırmaqdır.

Kohenin modelində Mərkəzi-Şərqi Avropa unikal tərəmə qurum kimi göstərilir. Belə ki, o, bütöv bir geosiyasi regionu əhatə

edən yeganə "qapı"dır. Müəllif 20-dən çox ayrı-ayrı "region-ölkə və qapı-nöqtə" göstərir **(cədvəl 4).**

Cədvəl 4

Dünya geosiyasi məkanında perspektivli "qapılar"

Məkanlar	"Qapılar"
İnterstrateji sferalar	
Mərkəzi-Şərqi Avropa - "Hartlənd"	Estoniya, Latviya, Litva, Sloveniya
"Hartlənd" - Şərqi Asiya - ada Asiyası	Rusiya Uzaq Şərqi
"Hartlənd" - Anqlo-Amerika	Alyaska
Şərqi Asiya - ada Asiyası	Honkonq/Şençjen/Quandun, Tayvan
Şərqi Asiya - Cənubi Asiya	Kəşmir
İntergeosiyasi regional sərhədlər	
Ada Asiyası - Cənub-Şərqi Asiya	Qərbi Avstraliya
Cənubi Asiya - Orta Şərq	Puştunistan, Pəncab
Orta Şərq - sahilboyu Avropa	Kipr (birləşmiş)
Subsahara Afrikası - sahilboyu Avropa	Eritreya, Azor adaları, Madeyra adaları
Anqlo-Amerika/Karib ətrafı - Cənubi Amerika	Puerto-Riko
Anqlo-Amerika - ada Asiyası	Havay adaları
İntrageosiyasi regionlar	
Anqlo-Amerika/Karib ətrafı - Britaniya Kolumbiyası	Kvebek
Anqlo-Amerika/Karib ətrafı	Şərqi Nikaraqua, Şimali Meksika
Sahilboyu Avropa	Şimali İrlandiya, Baskoniya, Kataloniya
Orta Şərq	Qəzzə/Qərb sahili/Dağlıq Livan
Cənubi Asiya	Tamil-İlam

Mənbə: Cohen, 1994, səh. 41.

"Qapı"lar, bir qayda olaraq, geostrateji sferaların, regionların sərhədləri boyu lokallaşmışdır. Ərazinin kiçik, əhalinin az saylı, xarici məkanlara açıq çıxışın olması onlar üçün xarakterikdir (dəniz vasitəsilə və/və yaxud quruyla). Sosial baxımdan, bu, özünəməxsus mədəni-tarixi mərkəzlər, xüsusi etnolinqvistik vahidlərdir. Bunların bəziləri köhnə ticari-vasitəçilik ənənələrinə və sahibkarlıq potensialına malikdir. Miskin və məhdud ixtisaslaşdırılmış təbii

resursları olan "qapı"lar xarici xammal mənbələrindən və hazır məhsulların satış bazarlarından asılı vəziyyətdədir.

Kohenin qeyd etdiyi kimi, burada xidmət sferasını (maliyyə xidmətləri, ticarət, turizm) inkişaf etdirmək, yaxud ixraca hazır olan məmulatların quraşdırılması üçün qabaqcıl müəssisələr yerləşdirmək daha məqsədəuyğundur. Hərbi nöqteyi-nəzərdən "qapı"lar qonşu dövlətlər üçün təhlükə törətmir, lakin onlar üçün mühüm strateji əhəmiyyət daşıyır.

"Qapı"ların əsas funksiyası qlobal iqtisadi, sosial və siyasi qarşılıqlı fəaliyyətin stimullaşdırılmasından ibarətdir. Müəllifin ideyasına görə, müstəqil geosiyasi vahidlər kimi formalaşan "qapı"lar bir çox hallarda münaqişələr zolağından kompromisli inkişaf zonasına, qarışıq region və sferaların təkamülünə, beynəlxalq əməkdaşlığa transformasiya olunur. Kohenin orijinal, praktik olaraq əhəmiyyətli ideyası, əlbəttə, inkişaf edə bilər. Tədqiqatçılar "qapı"nın digər, bundan az əhəmiyyətli olmayan nöqtə və areallarını da əsaslandıra bilərlər.

Məşhur alim və siyasətçi, ABŞ-ın sabiq dövlət katibi **Henri Kissincer** (1923) də atlantizmin geosiyasi nəzəriyyəsinin tərəfdarlarından olmuşdur. O, atlantizm ideyalarına söykənərək ABŞ-ın dünyanın təhlükəsizlik məsələlərindəki rolunu xüsusi dəyərləndirirdi [Киссинджер, 2002]. Kissincer təklif edirdi ki, ABŞ öz geosiyasi strategiyasına pərən-pərən düşmüş "sahil zonaları"nın dövlət və xalqlarını "bütöv birlik" şəklində birləşdirmək, onlara dinc fəaliyyətlə məşğul olmaq üçün lazımi şərait yaratmaq və kənar müdaxilələrdən qorumaq vəzifəsini əlavə etməlidir. Onun fikrincə, bu missiya Avrasiya və SSRİ üzərində tam nəzarəti əldə etmək işində həmin dövlət və xalqları ABŞ-ı dəstəkləməyə sövq edəcəkdir. Kissincerə görə, "bütöv birlik" həm də bloklararası mübarizədə bitərəfliyini saxlayan Avrasiyaya meyilli digər "sahil sektorları"nı da ABŞ-ın sıralarına cəlb edə bilərdi.

Linkage" (ingiliscə "rabitə", "halqa" mənasında işlədilən *"link"* sözündən) adlanan "anakonda" strategiyasının sona qədər uğurlu olması üçün Avrasiyanın ya öz bitərəfliyini qoruyub saxlamış, ya

da qitənin daxili məkanlarına yönəlmiş sahil sektorlarına xüsusi diqqət yetirilməsi zəruri idi. Bu siyasət praktikada Vyetnam müharibəsi, Amerika-Çin münasibətlərinin fəallaşması, İranda Məhəmməd Rza şah Pəhləvi rejiminin, Ukrayna və Baltikyanı ölkələrdə millətçilərin dəstəklənməsi və başqa vasitələrlə həyata keçirilirdi.

Kissincerin geosiyasi ideyaları ABŞ və Avropada sonralar *"humanist geosiyasət"* adı almışdır. Əslində, ABŞ və NATO-nun müharibədən sonra kütləvi qırğın silahlarının yeni-yeni növləri ilə silahlanması və reallaşdırdığı nüvə vasitəsilə müharibədən çəkindirmə doktrinası da "sülh və humanizm" ideyaları ilə izah edilirdi. ABŞ və NATO ölkələrinə məxsus nüvə silahları və hərbi bazaları "bütöv birliyin" ərazilərinin kənar təhlükələrdən (SSRİ-dən və Çindən) qorunmasını təmin etmək üçün yerləşdirilmişdi. Regionların geosiyasi və coğrafi xüsusiyyətlərini nəzərə alaraq Kissincer Avrasiya və SSRİ üzərində gələcək nəzarəti məhz atom-raket texnologiyası və hərbi üstünlük yolu ilə həyata keçirməyi təklif edirdi.

Əvvəlki dövrlərdə olduğu kimi, müharibədən sonrakı dövrdə də Amerikanın atlantist geosiyasi məktəbi hakimiyyətlə daim sıx əlaqə saxlayırdı.

Həmin məktəbin digər nümayəndəsi Milli İctimai Siyasət İnstitutunun (Vaşinqton) direktoru **Kolin S.Qreyin** (1943) yaradıcılığında geosiyasi baxışların nüvə dövrünə tətbiqi ilə inkişaf etdirilməsi müşahidə olunur. O, özünün *"Nüvə erasının geosiyasəti"* adlı kitabında ABŞ-ın və NATO-nun hərbi strategiyasının oçerkini təqdim edir. Onun fikrincə, nüvə obyektlərinin planetdə yerləşməsi regionların coğrafi və geosiyasi xüsusiyyətlərindən asılıdır *[Gray, 1977]*.

K.Qrey *Spaykmenin* modelləşdirmə nəzəriyyəsinə əhəmiyyətli düzəlişlər etmişdir. Qreyə görə, *SSRİ dünya ekspansiyası həyata keçirərək qabağınalma xəttini "atlanıb keçmiş" və "Rimləndin" o biri tərəfində kök salmışdır.* Bununla bağlı Kissincer yazırdı: "...Kuba raket böhranından sonra Sovetlər Birliyi səylərini inkişaf etdirməkdə olan ölkələrə yönəltmişdi. Nəticəsi Avropada bipolyar

sabitlik oldu ki, bunun paradoksal xarakteri 1958-ci ildə böyük fransız filosofu və siyasətşünas alimi *Reymon Aron* tərəfindən xülasə edilmişdir" *[Киссинджер, 1997, стр. 537]*. Qrey hesab edirdi ki, ABŞ "Rimlənd"də "qabağınıalma siyasəti"nə yenidən baxmalı və onu "Rimləndə" daxil olmayan regionlara yönəltməlidir. Bununla belə, ABŞ üçün əsas region yenə də Avrasiya olmalıdır. Belə geosiyasəti Qrey "dinamik qabağınıalma" anlayışı ilə ifadə etmişdir. Ümumiyyətlə, *Qrey bipolyar dünyadan multipolyar (çoxqütblü) dünyaya keçid tendensiyasını ilk qeyd edən geosiyasətçilərdəndir.* "Soyuq müharibə" qurtardıqdan sonra Qrey Rusiyada demokratik hakimiyyətin totalitara qəfil mümkün dəyişməsi nəticəsində Amerika infrastrukturunun demontaj olacağı xəbərdarlığını edirdi.

"Soyuq müharibə" dövründəki dünyanın bipolyarlığı ideyası dünya nizamında yeni element kimi təqdim olunmuş "Üçüncü dünya" ideyası ilə pozuldu. "Üçüncü dünya" ideyasının meydana çıxmasının əsası 1955-ci ildə Bandunq konfransında qoyuldu. Konfransda inkişaf etməkdə olan ölkələrin Şimala alternativ hərəkatı yaradıldı. Hərəkatın əsasını təşkil edən ideyalar hind siyasətçiləri *Krişna Menon* və *Cəvahirlal Nehru* tərəfindən inkişaf etdirilmişdir. Sonralar ABŞ coğrafiyaşünası S.Kohen Hindistanı inkişaf edən ölkələrin lideri kimi deyil, potensial geostrateji region kimi qiymətləndirirdi.

R.Uolters dünyanın "Şimal"a və "Cənub"a bölünməsini əsaslandırırdı ki, bu da qəbul olunmuş "Şərq-Qərb" təsəvvürü ilə ziddiyyət təşkil edirdi [Walters, 1974]. İkiqütblülüyün əvəzinə, üçqütblülük təklif edilirdi - Qərb-Şərq-Cənub. Cənubun problemləri artıq bütövlükdə planetin problemləri kimi qəbul olunurdu. Bu, nəzəri cəhətdən dünya geosiyasi sisteminin təbiəti barədə sual doğururdu. Bəs, görəsən, dünya sistemində dördüncü, beşinci və s. geosiyasi aktor varmı. Beləliklə, dünya nizamının izahına dair yeni yanaşma problemi meydana çıxdı.

Hələ İkinci Dünya müharibəsindən əvvəl *A.Eynşteyn* ehtimal edirdi ki, nasist Almaniyası nəhəng dağıdıcı gücə malik olan nüvə silahı yaratmağa cəhd göstərəcəkdir. Bu təhlükə ilə qarşı-qarşıya

qalan *F.Ruzvelt* hökuməti 1942-1945-ci illərdə ən yaxşı Qərb mütəxəssislərinin iştirakı ilə, həyata keçirilməsi üçün 2 milyard dollar tələb edilən *"Manhetten layihəsi"ni* reallaşdırmağa başladı *[Soppelsa, 1994]*.

ABŞ atom bombasının ilk sınağını 1945-ci il iyulun 16-da, Potsdam konfransının başlanmasına cəmi bir gün qalmış keçirdi. Bu zaman İkinci Dünya müharibəsinin əsas qalib dövlətlərinin başçıları Almaniyanın demilitarizasiyası və denasifikasiyası, alman monopoliyalarının məhvi, təzminatlar, Polşanın qərb sorhədləri və s. haqqında qərarlar qəbul edirdilər. Qeyd etmək maraqlıdır ki, bir neçə gün sonra Hirosima və Naqasakiyə atom bombası atılmasına əmr vermiş ABŞ Prezidenti *H.Trumen* Potsdamda sovet nümayəndə heyətinə başçılıq edən *İosif Stalinə* Alamaqordodakı (Nyu-Meksiko ştatı) sınaq haqqında heç nə deməmişdi.

Atom bombası ABŞ-a böyük geosiyasi üstünlük verirdi və bu, əslində, dünyaya nəzarət iddiasını nümayiş etdirirdi. Bu münasibətlə amerikan siyasətşünası *Qar Alperovits* 1965-ci ildə *"atom diplomatiyası"* anlayışını işlətmişdi *[Alperoviz, 1965]*. SSRİ atom bombasını 1949-cu ildə sınaqdan keçirdi, bundan sonra isə "Atom klubu" formalaşdı ***(cədvəl 5)***.

Cədvəl 5

"Atom klubu"nun formalaşması

Ölkələr	Atom bombasının sınaqdan keçirildiyi tarixlər	Hidrogen bombasının sınaqdan keçirildiyi tarixlər
ABŞ	iyun, 1945	noyabr, 1952
SSRİ	avqust, 1949	avqust, 1953
Böyük Britaniya	oktyabr, 1952	may, 1957
Fransa	fevral, 1960	avqust, 1968
Çin	oktyabr, 1964	iyul, 1967
Hindistan	may, 1974	–
Pakistan	may, 1998	–

Mənbə: Колосов, Мироненко, 2005, səh. 99.

SSRİ rəhbərliyinin ABŞ-dan fərqli olaraq 1962-ci ilə qədər öz hərbi strategiyasını nüvə silahı kimi amilin təsiri altında dəyişməməsi səciyyəvi haldır. "Yeni strategiya" *V.D.Sokolovskinin* (1897-1968) doktrinası kimi məşhurdur.

Sokolovski doktrinası üç prinsipə əsaslanır:

- İki fövqəldövlət arasındakı istənilən münaqişədə müharibənin lap əvvəlindən nüvə silahından istifadə olunacaq, deməli, əsas olan gözlənilməzlik amilidir.
- İkinci faza zamanı həm arxa cəbhəyə, həm də taktiki hərbi hissələrdəki hədəflərə endirilən nüvə zərbələri bütün döyüş vasitələri kompleksinin istifadəsi ilə, o cümlədən, həmlə edən sualtı qayıqların mütləq üstünlüyü olan dəniz donanması ilə möhkəmləndirilir.
- SSRİ bütün mümkün səylərini ilk gözlənilməz zərbədən yayınmağa sərf edir; taktika rəqibə onun zərbə endirməyə hazırlaşdığı ehtimal anında hücum etməkdən ibarətdir.

Beləliklə, *Sokolovski doktrinasına görə nüvə qüvvələri mütləq prioritetə malikdir. Hərbi sursat kompleksi isə onları möhkəmləndirir.* Bu doktrina 1980-ci illərin əvvəllərinə qədər əsas olaraq qalırdı.

Eyni zamanda, siyasətçilər və tədqiqatçılar düşünürlər ki, nüvə silahı (nüvə çəkindirməsi siyasəti) qarşı duran ideologiyaların siyasi məqsədlərinə hərbi yolla çatmasını istisna edən siyasi-psixoloji mövqe formalaşdırmışdır.

ABŞ-ın atom bombasını sınaqdan keçirməsi ilə bağlı "soyuq müharibə" prosesinin inkişafında mühüm olmayan digər aspekt də var. Bu, ABŞ hakimiyyət dairələrinin məğlub Almaniyanın yenidən silahlandırılmasına münasibəti idi. *Ruzveltin* simasında ABŞ-ın Almaniya hərbi potensialının dirçəlməsi barədə dərin narahatlığı var idi. Ruzvelt məğlub Almaniya üzərində Amerika-sovet əməkdaşlığının möhkəmləndirilməsi tərəfdarı kimi çıxış edirdi. ABŞ-ın atom bombası kimi güclü silah-arqumentə malik olduqdan sonra, 1945-ci ilin axırı və 1946-cı ilin yazında Almaniya üzərində nəzarəti *Ruzvelt* strategiyasından uzaqlaşmağa başladı. ABŞ siyasəti sənaye tərk-silahından alman iqtisadi qüdrətinin

bərpasına təkamül edirdi. "Amerika liderləri anlayırdılar ki, alman iqtisadi potensialının əhəmiyyətli bərpası Sovet İttifaqına təhlükə kimi qəbul ediləcəkdir... Almaniya yenidən silahlandırılan kimi Şərqi Avropanın "yatırılması" nəinki qaçılmaz, həm də davamlı oldu" *[Алперовиц, 1994, стр. 29]*.

Sürətlə silahlanma nüvə silahının səmərəliliyi ilə bağlı hərbi texnologiyaların inkişaf xətti boyunca baş verirdi ***(cədvəl 6)***. Qarşı

Cədvəl 6

"Soyuq müharibə" dövründə hərbi texnologiyaların sürətlə yayılması

Kəşfin növü	İllər	
	ABŞ	SSRİ
Qitələrarası bombardmançılar	1945	1949
Termonüvə döyüş başlığı	1954	1955
Nüvə yanacaqlı sualtı qayıq	1954	1958
Qitələrarası ballistik raketin (QBR) ilk sınağı	1958	1957
Fəaliyyətdə olan QBR	1960	1959
Sualtı qayıqlardan buraxılan qitələrarası ballistik raketin (SQBR) ilk sınağı	1960	1957
QBR bərk yanacaqda	1962	1968
Fərdi yönəltməsiz parçalanan döyüş başlıqlı raketlərin ilk sınağı	1968	1973
Fərdi yönəltməklə parçalanan döyüş başlıqlı raketlərin ilk sınağı	1970	1974
Qanadlı strateji silahın ilk sınağı ("yer-yer", "hava-hava" dərəcəli)	1976	1979
Yüksək dəqiqliklə yönəldilən QBR	1980	1975
Peyk əleyhinə silah	1984	1984

Mənbə: Колосов, Мирошенко, 2005, səh. 101.

durmuş iki qütb real və ya potensial böhran şəraitində bir neçə dəfə nüvə silahından istifadə (əsas etibarilə taktiki) astanasında dayan-

mışdılar. *Nüvvə xəttinin kəsişmə ehtimalı aşağıdakı dövrlərdə olmuşdur:*

- Misir Prezidenti *Camal Əbdül Naser* (1918-1970) Süveyş kanalını milliləşdirdikdən sonra Fransa, Böyük Britaniya və İsrail üçlüyünün Yaxın Şərqə müdaxiləsi zamanı SSRİ raket silahından istifadənin mümkünlüyü barədə bəyanat vermişdir.
- Karib böhranı zamanı (1962-ci ilin oktyabrı).[1]
- 1969-cu ildə sovet-Çin münasibətlərinin kəskinləşdiyi dövrdə.

1980-ci ilin payızında Amerikanın yüksək dairələrində işğal olunmuş Əfqanıstan ərazisindən İrana girəcəyi təqdirdə sovet qoşunlarına nüvə zərbələrinin endirilməsi planları müzakirəyə çıxarılmışdır.

Nüvə silahına baxış və onun tətbiqinin mümkünlüyü bu silahın təkmilləşdirilməsi və çoxalmasından asılı olaraq dəyişirdi. Onun yaradılmasından sonra ilk onilliklər qələbənin mümkünlüyü inkar edilmirdi, lakin bununla belə qalibin son dərəcə ağır itkilər verəcəyi etiraf edilirdi.

Sonra 1960-cı illərdə aparılmış tədqiqatlar nüvə müharibəsi zamanı atmosferin ozon qatının deşilmə təhlükəsini və baş verəcək bioloji fəlakəti üzə çıxardı. Sonrakı nəticələr *"nüvə qışı"* fenomeni adlandırılmışdır.

Üçüncü nəsil nüvə silahları (neytron bombası) "nüvə qışı"nın yaranması mövqeyindən əhəmiyyətli dərəcədə az təhlükəlidir. Bununla belə, o, indiyə qədər geosiyasi mübahisələrdə aparıcı alət olaraq qalır.

ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çin "Atom klubu"na daxildirlər. CAR nüvə silahına malik olmaqdan imtina etdi və yaratdığı nüvə qurğularını sökdü. Bütöv Cənub yarımkürəsi planetin

[1] İ.Bergenin yazdığına görə, "1962-ci ilin 14 oktyabrında U-2 kəşfiyyatçı təyyarəsi (ABŞ təyyarəsi - N.M.) Kuba üzərində uçuş edirdi. Səhərsi gün şəkillər çıxarıldıqda məlum olmuşdur ki, Sovet İttifaqı Kubada 48 CC-4 (yaxın fəaliyyət radiuslu) və 18 CC-5 tipli (orta fəaliyyət radiuslu) raketlər üçün təyin edilmiş buraxıcı qurğular hazırlayır... Kubada nə vaxtsa nüvə başlıqlarının yerləşdirilib-yerləşdirilməməsi sual olaraq qalır *[Бергер, 1998, стр. 152-153]*.

nüvəsiz zonası elan edildi. Fars körfəzində məğlubiyyətindən sonra İraq BMT-nin Təhlükəsizlik Şurası tərəfindən kütləvi qırğın silahı yaratmaq üçün təyin etdiyi sənaye potensialını demontaja məcbur edildi.

Latın Amerikası və Sakit okeanın cənub hissəsinin ardınca Afrika və Cənub-Şərqi Asiyada da nüvəsiz zonalar yarandı. 100-dən çox ölkə nüvəsiz zonanın iştirakçısı oldu *[Давыдов, 1997, стр. 52]*. Yaxın zamanlaradək nüvə dövlətlərinin əsas diqqəti ona yönəlmişdi ki, "Atom klubu"na əsas namizədlər olan Hindistan, Pakistan və İsrailin nüvə silahından imtina etmələrinə nail olsunlar.

Hindistan və Pakistan 1998-ci ilin mayında nüvə sınağı keçirdilər. İsrail, ümumiyyətlə, onun nüvə proqramı üzərində beynəlxalq nəzarətə neqativ yanaşır. Hazırda İranda və KXDR-də atom silahının yaradılmasına nəzarətdə problemlər yaranmışdır.

Gizli nüvə fəaliyyəti ilə məşğul olan ölkələr dünya üçün böyük təhlükə yaradır. Fransız coğrafiyaçısı *Jak Soppelsanın* (1943) qeyd etdiyi kimi, 25-dən 30-dək dünya ölkəsi nüvə silahı yaratmaq imkanlarına malikdir *[Soppelsa, 1994, p. 11]*. Nüvə təhlükəsi, həmçinin terrorçu təşkilatlardan da gələ bilər.

Q.Alperovits İkinci Dünya müharibəsi qurtardıqdan sonra geosiyasi hadisələrin mümkün inkişafi ssenariləri barədə fikrini açıqlamışdır:

- Nüvə silahlarının mövcudluğu müəyyən mənada böyük müharibənin qarşısının alınmasına kömək etmişdir. Onların istifadəsinin mümkünlüyü böyük deyil - "soyuq müharibə" dövründə siyasətçilərin öyrəndiyi bu dərs geosiyasətin gələcəyi üçün böyük əhəmiyyətə malikdir.
- "Kiçik hərbi müdaxilələr" (Vyetnam, Əfqanıstan, Fars körfəzi regionu) maddi, mənəvi və siyasi baxımdan nüvə silahının məhdud faydasını nümayiş etdirmişdir.
- Qərbin böyük dövlətləri tərəfindən bir yerə toplanmış hərbi potensialın saxlanması elə də əhəmiyyətli hərbi çəkisi olmayan ölkələrlə müqayisədə onların beynəlxalq rəqabətə davamlılığının azalmasına gətirib çıxarır. Eyni zamanda, əlbəttə, düşünüləsiz dövlətin əlində nüvə silahı milli təhlükəsizliyə real və birbaşa təhlükədir *[Алперовиц, 1994, стр. 32-33]*.

Ötən əsrin 90-cı illərinin əvvəlində atlantizmin geosiyasi inkişafı özünün kulminasiya nöqtəsinə çatır. "Anakonda" strategiyası mütləq effektivlik nümayiş etdirir. Bu dövrdə ilk anqlosaks geosiyasətçiləri *Makinder* və *Mehenin Spaykmen* tərəfindən təshih edilmiş baxışlarının peyğəmbərcəsinə haqlı olmasını müşahidə edirik.

Varşava müqaviləsi blokunun və SSRİ-nin dağılması bütün XX əsr ərzində həyata keçirilmiş atlantist strategiyasının təntənəsidir. Qərb Şərqlə "soyuq müharibə"də qalib gəlir, Dəniz qüvvəsi "Hartland" üzərində öz qələbəsini bayram edir.

Bu hadisə geosiyasi baxımdan belə izah edilir:

NATO ilə sovet blokunun qarşıdurması Quru ilə Dənizin, Begemotla Leviafanın qarşıdurmasının ilk və misli görünməmiş nümunəsi idi. Bu halda geosiyasi balans təkcə ideoloji sabitləri (konstanta) deyil, həm də geosiyasi sabitləri əks etdirirdi.

SSRİ "Hartland" kimi, Avrasiya kimi sovet tipli ideokratiyanı təcəssüm etdirirdi. Coğrafi baxımdan bu, kifayət qədər inteqrasiya edilmiş, çox zəngin təbii ehtiyatlara və inkişaf etmiş strateji silahlara malik olan "Böyük məkan" idi. SSRİ-nin əsas üstünlüyü onun ucsuz-bucaqsız ərazisində və sovet sərhədlərinə bitişik ərazidə yaşayan əhalinin mədəni-funksional meyilləri, eləcə də qitə daxilində etibarlı müdafiə və texnoloji təyinatlı meydanlar yaratmağa imkan verən, lakin gediş-gəlişin çətin olduğu ərazilərin mövcud olması idi. Bundan əlavə, SSRİ-nin iki tərəfdən - şimaldan və cənubdan dəniz sərhədlərini qorumaq quru sərhədlərinin qorunması ilə müqayisədə qat-qat asan idi.

SSRİ mərkəzləşdirilmiş iqtisadiyyat hesabına əmtəə-ərzaq avtarkiyasına və hərbi fövqəldövlət statusuna nail olmuşdu. O, imkan daxilində öz təsirini başqa qitələrə də şamil etməyə çalışırdı.

Lakin Şərq blokunun bir neçə prinsipial nöqsanı vardı. Onun əsas çatışmazlığı quru sərhədlərinin həddindən artıq uzun olması idi. Ölkənin cənub sərhədləri Avrasiyada Mancuriyadan başlamış Tyan-Şan, Pamir və Qafqaza qədər uzanan dağ silsiləsi ilə üst-üstə

düşürdü, qərbdə sərhəd Avropa düzənliyinin ortasından keçirdi. Bu düzənlik atlantizmin strateji əhəmiyyətli plasdarmı idi. Ölkənin mərkəzi bazası isə "Orta okean"ın (Midland Ocean) qərb sahilində yerləşirdi. Lakin cənub istiqamətindəki dağlar təkcə müdafiə vasitəsi deyil, həm də maneə idi: onlar ehtimal edilən ekspansiyanın yolunu bağlayır və cənub dənizlərinə çıxışa mane olurdu *(bax:* **xəritə 10).**



Xəritə 10. ***SSRİ başda olmaqla Şərq bloku - Varşava müqaviləsi ölkələri***

Şərq bloku özünün hərbi-strateji, iqtisadi, intellektual, istehsal qüvvələrini və təbii ehtiyatlarını eyni geosiyasi mərkəzdə cəmləşdirməyə məcbur idi.

Mərkəz ABŞ olmaqla Qərbin geosiyasi vəziyyəti Şərq blokunun mövqeyi ilə kəskin təzad təşkil edirdi (*bax:* **xəritə 11**). Bu, xüsusilə vacibdir, çünki qüvvələrin bu şəkildə paylandığı şəraitdə Qərbi Avropanın mövqeyi heç də həsəd aparılmalı deyildi: o, ABŞ üçün qarşı düşərgənin sərhədlərinə bitişik quru qoşunları bazası,



Xəritə 11. ***Qərb məkanına, əsasən, demokratiya və vətəndaş cəmiyyəti prinsiplərinin hökm sürdüyü inkişaf etmiş ölkələr daxildir***

bir növ *"sanitar sədd"* rolunu yerinə yetirməli idi. Amerika *"dəniz sərhədləri"* ilə tamamilə müdafiə olunmuşdu. Üstəlik, o, öz kontingentini strateji baxımdan inteqrasiya etməklə Avrasiya sahillərinin, "Rimləndin" çox böyük hissəsi üzərində nəzarəti ələ keçirmişdi. Atlantistlərin nəzarəti Qərbi Avropadan Yunanıstan və Türkiyə (NATO-nun üzvü olan ölkələr) vasitəsilə Uzaq Şərqə (Tailand, Cənubi Koreya, Yaponiya) qədər geniş bir ərazini əhatə edirdi. Bu zona Hind okeanında və Sakit okeanda yerləşən San Diyeqo adasında, Filippində, daha sonra Quam, Karib və Haiti adalarındakı mühüm hərbi bazaları əhatə edirdi. Beləliklə, potensial münaqişələrin hamısı əsas strateji məkanın ərazisindən kənara çıxarılmışdı.

Atlantistlər güc "nüvələri"nin çox mürəkkəb və diferensiasiya edilmiş geosiyasi bölgü sistemini yaratmışdılar. Hərbi-strateji qüdrəti bilavasitə ABŞ təmin edirdi. İntellektual, maliyyə və istehsal strukturları, eləcə də yüksək texnologiyaların yaradılması üzrə

mərkəzlər xüsusi hərbi təhlükəsizliyin təmin edilməsi zərurətindən (polisin və sırf dekorativ xarakterli silahlı qüvvələrin saxlanmasından başqa) azad olan Qərbi Avropada cəmləşmişdi.

Təbii ehtiyatlar Üçüncü dünyanın iqtisadi cəhətdən az inkişaf etmiş ölkələrindən daxil olurdu. Həmin ölkələrdən həm də xeyli ucuz işçi qüvvəsi gəlirdi. İkinci Dünya müharibəsindən dərhal sonra yaranmış status-kvonun saxlanması əslində hücum mövqeyi idi, çünki atlantist geosiyasətçilərin proqnozlarına görə, bu vəziyyət tam avtarkiyaya məhkum olan və bütün strateji istiqamətləri eyni vaxtda təkbaşına inkişaf etdirməyə məcbur olan kontinental blokun imkanlarının tükənməsi ilə nəticələnməli idi.

Bu şəraitdə "Hartlənd"in yalnız iki çıxış yolu vardı. Birinci yol Atlantikaya qədər Avropanı fəth etmək məqsədi ilə qərbə hərbi ekspansiya etməkdən ibarət idi. Bundan sonra SSRİ-nin səyləri onun dəniz sərhədlərinin sakitliyini, sənaye, intellektual və texnoloji potensialını təmin edə bilərdi. Bununla paralel isti dənizlərə yol açmaq və *"anakonda halqası"*nı axır ki, qırmaq üçün cənub istiqamətində analoji səylər göstərmək lazım idi. Bu çətin yol uğurla nəticələnəcəyi təqdirdə kontinentdə sülhə və uzaq olmayan perspektivdə "Rimlənd"dən məhrum olmuş Amerikanın iflasına gətirib çıxarmalı idi.

İkinci yol isə əksinə, SSRİ-nin və onun silahlı qüvvələrinin Şərqi Avropadan çıxarılması, əvəzində NATO qüvvələrinin Qərbi Avropanı tərk etməsi və tam bitərəf olan vahid Avropa bloku yaradılmasından ibarət idi (ola bilsin ki, məhdud "dissuaziv" nüvə potensialına malik olmaqla). *Dö Qollun* hakimiyyəti dövründə bu variant ciddi müzakirə edilirdi.

Nəhayət, bu iki variantı kombinasiya etmək və Qərbdə dinc yolla, Şərqdə isə zor işlətməklə (və ya əksinə) öz məqsədinə çatmaq olardı. Əsas məsələ bu iki geosiyasi yanaşmanın sinxron şəkildə başlanması idi. Yalnız bu halda planetar balansın Qurunun aşkar mövqe məğlubiyyətindən onun qələbəsinə doğru dəyişəcəyinə ümid etmək olardı. Nəyin bahasına olur-olsun "çəkindirmə" mövqeyini qırmaq lazım idi ("soyuq müharibə" dövründə "anakonda" geosiyasi taktikası *"çəkindirmə"* adlanırdı).

Lakin SSRİ bu radikal geosiyasi addımı atmağa cəsarət etmədiyinə görə atlantist dövlətlər özlərinin hərtərəfli düşünülmüş və geosiyasi baxımdan yoxlanılmış uzunmüddətli mövqe strategiyasının nəticələrindən bəhrələnməyə üstünlük verdilər.

Sovet dövləti qlobal gərginliyin artmasına davam gətirməyib süqut etdi. Qərbi Avropada paralel (dinc və ya qeyri-dinc) strateji addım atılmadığı halda, Əfqanıstana hərbi müdaxilə isə SSRİ-nin vəziyyətini yaxşılaşdırmaq əvəzinə gərginləşdirdi.

Ənənəvi atlantist geosiyasət öz konsepsiyasının mərkəzində "dəniz geosiyasəti" ideyasını əsas götürür. Bu geosiyasətə əsaslanan qlobal strategiya sayəsində Qərb bütün planet miqyasında öz qüdrətini bərqərar etdi. Texnikanın inkişafı nəticəsində hava məkanı mənimsənildi, bu isə *"hava geosiyasəti"*nin işlənib hazırlanmasını aktual vəzifəyə çevirdi.

Tam və hərtərəfli araşdırılmış "dəniz geosiyasəti"ndən fərqli olaraq tamdəyərli hava geosiyasəti mövcud deyildir. Havada uçma amili ümumi geosiyasi mənzərəyə əlavə olunur. Lakin hava mühiti və onunla əlaqədar yeni silah tipləri, strateji aviasiya, qitələrarası raketlər və nüvə silahının aktuallaşması ilə əlaqədar münasibətlər xeyli dəyişmişdir.

Hava məkanının mənimsənilməsi Quru ilə Dənizi müəyyən dərəcədə bərabərləşdirirdi, çünki təyyarələr və raketlər üçün bu məkanlar arasındakı fərq o qədər də əhəmiyyətli deyil. Təyyarədaşıyan gəmilərin yaradılması çox mühüm addım idi, belə ki bundan sonra hava bazaları qurudan tam təcrid olunur, onlar Yer səthinin keyfiyyətindən asılı olmurdu.

Digər tərəfdən, aviasiyanın inkişafı nəticəsində planetar miqyaslı nisbətlər dəyişmiş, Yer kürəsi xeyli "kiçilmiş", məsafələr isə "qısalmışdı". Eyni zamanda, raketqayırma və strateji aviasiyanın inkişafı ənənəvi geosiyasi amilləri, dəniz və quru sərhədlərini, qitədaxili bazaları xeyli relyativləşdirmişdi (nisbiləşdirmişdi).

Silahların Yer orbitinə daşınması və kosmik fəzanın strateji baxımdan öyrənilməsi planetin "daralması"nın və məkanlar arasında fərqlərin tam relyativləşdirilməsinin sonuncu mərhələsi oldu.

Aktual geosiyasət Quru və Dəniz ilə yanaşı daha iki stixiyanı - hava və efiri (kosmik fəzanı) nəzərə almağa məcburdur. Hərbi səviyyədə stixiyalara nüvə silahı (hava) və "ulduz müharibələri" proqramı (kosmos) müvafiqdir. "Tellurokratiya" (Qurunun hakimiyyəti) və "talassokratiya" (Dənizin hakimiyyəti) ilə analoji olaraq geosiyasi sistemlərin bu iki ən yeni modifikasiyası *aerokratiya* (Havanın hakimiyyəti) və *efirokratiya* (Kosmik fəzanın hakimiyyəti) adlana bilər.

K.Şmitt bu iki yeni sahənin eskiz qaralamasını tərtib etmişdir. Onun ən mühüm və prinsipial qeydi bundan ibarətdir ki, aerokratiya və efirokratiya məhz Dəniz "nomosu"nun "talassokratiya" fazasının inkişaf etmiş variantlarıdır, çünki yeni sahələrin mənimsənilməsindən ibarət bütün texniki proses mühitin "mayeləşməsi" istiqamətində gedir. Bu isə, *Şmittin* fikrincə, müvafiq mədəni və sivilizasiya prosesləri ilə, Quru "nomosu"ndan təkcə strateji mənada deyil, həm də etik, mənəvi, sosial-siyasi mənalarda mütərəqqi şəkildə uzaqlaşma ilə müşayiət olunur.

Başqa sözlə desək, hava mühitinin və kosmik mühitin mənimsənilməsi xalis "talassokratiya" meyillərinin davamıdır və deməli, xalis atlantik strategiyanın ən yüksək mərhələsi hesab edilə bilər. Bu baxımdan, "soyuq müharibə"də blokların nüvə qarşıdurması Dəniz qüvvəsi tərəfindən "Hartlənd"ə zorla qəbul etdirilmiş şərtlər daxilində rəqabət təsiri bağışlayır. "Hartlənd" əks tərəfin diktə etdiyi strateji mövqe mübarizəsinin şərtlərini qəbul etməyə məcburdur. Stixiyaların bu cür aktiv "mayeləşməsi" prosesi texnoloji və strateji mənada Qərb aləminin inkişaf məntiqi ilə tamamlandıqda atlantistlərin sahil zonalarını kontinental mərkəzdən təcrid etmək siyasətində tutduğu mövqeyə paralel inkişaf edir. Hər iki halda bir geosiyasi düşərgənin hücum təşəbbüsü və digər düşərgənin müdafiə reaksiyası göz qabağındadır. İntellektual səviyyədə bu fakt onda ifadə olunur ki, atlantistlər geosiyasət elmi ilə açıq və planlı şəkildə məşğul olmaqla

"aktiv geosiyasəti" tədqiq edirlər. Qərbdə geosiyasət beynəlxalq strategiyanın ümumi konturlarını diktə edən bir elm kimi çıxış edir.

Şərq blokunda isə uzun müddət rəsmən tanınmamış geosiyasət potensial düşmənin atdığı addımlara reaksiya kimi mövcud olmuşdur. Bu, atlantizmin strateji təhdidlərinə daha çox ətalət üzrə cavab verən *"passiv geosiyasət"* idi. Aviasiyada və nüvə silahı məsələsində (aerokratiya sahəsində) SSRİ bütün daxili ehtiyatlarını səfərbər edərək nisbi paritetə (bərabərliyə) nail olmuşdu, lakin növbəti mərhələdə, efirokratiya sahəsində struktur sarsıntıları baş verdi və "ulduz müharibələri" ilə əlaqədar texnologiyalar sahəsində rəqabət geosiyasətdə tam uduzmağa və "soyuq müharibə"də məğlubiyyətə səbəb oldu.

Nüvə əsrində və orbital fəzaların mənimsənilməsi şəraitində geosiyasi proseslərin mahiyyətini anlamaq üçün aerokratiya və efirokratiyanın müstəqil sivilizasiya sistemləri deyil, yalnız Dəniz "nomosu"nun inkişafının davamı olması barədə *K.Şmittin* qeydi fundamental əhəmiyyət kəsb edir.

3.1.1. Ən yeni atlantizmin iki versiyası

Atlantistlərin SSRİ ("Hartlənd") üzərində qələbəsi orijinal geosiyasi modellər tələb edən, radikal mənada yeni dövrün başlanğıcı demək idi. Bütün ənənəvi ərazilərin, regionların, dövlətlərin və ittifaqların geosiyasi statusu kəskin şəkildə dəyişmişdi. "Soyuq müharibə" dövrü başa çatandan sonra planetar reallığın dərk edilməsi atlantist geosiyasətçiləri iki prinsipial sxemlə üzləşdirdi.

Bu *sxemlər*dən biri *atlantizm üçün "pessimist" sxem* adlana bilər. O, SSRİ-nin dağılması ilə birlikdə başa çatmış, lakin gündəmdən çıxarılmış hesab edilməyən atlantizm üçün ənənəvi "Hartlənd" ilə qarşıdurma xəttini mənimsəyir və Avrasiyada sivilizasiya ənənələrinə və davamlı etnik arxetiplərə əsaslanan yeni bloklar yaranacağından xəbər verir. "Neoatlantizm" adlana biləcək bu variantın mahiyyəti nəticə etibarilə dünyanın geosiyasi mənzərəsinin əsaslı dualizm rakursunda nəzərdən keçirilməsinin davam etdirilməsindən ibarətdir. Bu, Avrasiyadan əlavə geosiyasi zonaların ayrılması ilə səciyyəvidir. Gələcəkdə həmin zonalar Qərb ilə qarşı-

durma mənbələrinə çevrilə bilər. Bu neoatlantist yanaşmanın ən parlaq nümayəndəsi *Samuel Hantinqtondur.*

Elə həmin ilkin geosiyasi mənzərəyə əsaslanan *ikinci sxem isə atlantizm üçün optimist sxem*dir: o, "soyuq müharibədə" Qərbin qələbəsi nəticəsində yaranmış vəziyyəti qəti və dönməz hesab edir. Mondializm nəzəriyyəsi, *"tarixin sonu"* və *"vahid dünya"* konsepsiyaları bu sxemə əsaslanır. *"Vahid dünya"* konsepsiyasına görə, geosiyasi diferensiasiyanın bütün siyasi, mədəni, milli, dini, ideoloji, dövləti və başqa formaları tezliklə tamamilə aradan qaldırılacaq və liberal demokratiya prinsiplərinə əsaslanan vahid ümumbəşəri sivilizasiya erası başlanacaqdır. Lap əvvəldən tarixə əsas təkan verən geosiyasi qarşıdurma ilə birlikdə tarix də başa çatacaqdır. Bu geosiyasi layihə "Tarixin sonu" adlı proqram xarakterli məqalənin müəllifi, amerikalı geosiyasətçi *Frensis Fukuyamanın* adı ilə assosiasiya edilir. Bu mondialist nəzəriyyə barədə kitabın növbəti bölməsində bəhs edəcəyik.

Hantinqtonun konsepsiyası Qərb üçün ənənəvi atlantist geosiyasətin ultramüasir inkişafıdır. Bir mühüm məqamı qeyd edək ki, Hantinqton özünün proqram əhəmiyyətli *"Sivilizasiyaların toqquşması"* adlı məqaləsini Fukuyamanın *"Tarixin sonu"* haqqında tezisinə cavab kimi yazmışdır. Əlamətdar haldır ki, siyasi səviyyədə bu polemika ABŞ-ın iki aparıcı siyasi partiyasının strateji xəttinə müvafiqdir: *Fukuyama* demokratların qlobal strateji mövqeyini ifadə etdiyi halda, *Hantinqton* respublikaçıların ruporu olmuşdur. Bu fakt ən yeni geosiyasi layihələrin mahiyyətini kifayət qədər dəqiq ifadə edir. Neoatlantizm mühafizəkar xətt seçdiyi halda, mondializm tamamilə yeni yanaşmaya üstünlük verir. Burada bütün geosiyasi reallıqlar tamamilə yenidən nəzərdən keçirilməlidir.

3.1.2. Sivilizasiyaların toqquşması: Hanqtinqtonun neoatlantizmi

Harvard Universiteti nəzdində Strateji Tədqiqatlar İnstitutunun rəhbəri olmuş **Samuel F.Hantinqton**un (1927-2008) mövqeyi *"Sivilizasiyaların toqquşması?"* məqaləsində (1993) ifadə edilmişdir. Bu məqalə "Qlobal təhlükəsizlikdə dəyişikliklər və Amerikanın

milli mənafeləri" adlı böyük bir geosiyasi layihənin xülasəsi kimi yaranmışdır. Həmin nəzəriyyənin mahiyyəti haqqında aşağıdakıları demək olar.

SSRİ-nin dağılması ilə əlaqədar atlantizmin bütün planetdə geosiyasi qələbəsi sivilizasiyanın dərin laylarına nüfuz etsə də, Hantinqton iddia edir ki, strateji qələbə sivilizasiya qələbəsi deyildir; Qərb ideologiyası, liberal demokratiya, fərdiyyətçilik, insan hüquqları, bazar iqtisadiyyatı və başqa anlayışlar yalnız müvəqqəti alternativsiz anlayışlardır, çünki yaxın vaxtlarda qeyri-Qərb xalqlarının sivilizasiya və geosiyasi xüsusiyyətləri, *Savitskinin* bəhs etdiyi "coğrafi individuum"un analoqu yaranacaqdır.

Kommunizm ideologiyasından imtina edilməsi və ənənəvi dövlətlərin strukturunda dəyişikliklər, bəzi qurumların parçalanması, yeni qurumların yaranması bütün bəşəriyyəti mexaniki surətdə atlantist dəyərlərin universal sisteminə yönəltməyəcək, əksinə, bəsit ideoloji klişelərdən (standartlardan) azad, yeni, daha dərin mədəni layları aktuallaşacaqdır.

Hantinqton Corc Veygelin aşağıdakı sözlərini sitat gətirir: *"Desekulyarizasiya XX əsrin axırlarında hökmranlıq edən sosial amillərdən biridir"*. Buna görə də *Fukuyamanın* göstərdiyi vahid dünyada dini identifikasiya əvəzinə xalqlar özlərinin dini mənsubiyyətlərinə daha çox meyil edəcəklər. *Hantinqton iddia edir ki, Şimali Amerika və Qərbi Avropanı əhatə edən Qərb (atlantist) sivilizasiyası ilə yanaşı daha yeddi-səkkiz potensial sivilizasiyanın geosiyasi mənada sabitləşəcəyi gözlənilir:*

1. *Qərb;*
2. *slavyan-pravoslav;*
3. *konfusiçilik (Çin);*
4. *yapon;*
5. *islam;*
6. *buddist;*
7. *hinduist;*
8. *latın amerikan* və hətta ola bilsin ki,
9. *Afrika sivilizasiyaları* (*bax:* **xəritə 12**) *[Huntington, 1993, p. 25].*



Xəritə 12. ***Hantinqtona görə, XIX əsrdə bəşəriyyət məkanlara, XX əsrdə ideologiya fərqlərinə görə üz-üzə dayanaraq toqquşurdusa, XXI əsrdə sivilizasiya fərqinə görə toqquşacaqdır. O, XXI əsrin dünya mənzərəsini yeddi-səkkiz iri sivilizasiyaların qarşıdurması və onlar arasında rəqabətin güclənməsi kimi görürdü. Müəllifin fikrincə, "sivilizasiyaların toqquşması" dünya siyasətinin üstünlük təşkil edən əsas amili, gələcək cəbhələrin qarşıdurma xətti isə sivilizasiyalar arasında ayırıcı xətt olacaqdır. Hantinqtonun qənaətinə görə, insanların sivilizasiya fərqi onların milli fərqlərindən daha möhkəm və dayanıqlı əsaslara söykənir. Onları aradan qaldırmaq milli fərqləri aradan qaldırmaqdan çox-çox çətindir.***

Əlbəttə, bu potensial sivilizasiyalar əsla bərabər əhəmiyyətə malik deyildir. Lakin onların hamısına xas olan cəhət ondan ibarətdir ki, bu sivilizasiyaların inkişaf və təşəkkül vektoru atlantizmin və Qərb sivilizasiyasının trayektoriyasından fərqli istiqamətə yönələcəkdir. Beləliklə, Qərb yenidən qarşıdurma vəziyyətinə düşəcəkdir. Hanqtinqtonun fikrincə, bu, praktiki olaraq labüddür və mondialist dairələrin eyforiyasına baxmayaraq artıq indidən *"Qərb və yerdə qalanların hamısı" ("The West and The Rest")* realist formulunu əsas götürmək lazımdır *[Huntington, 1993, p. 39]*.

Problemə bu cür yanaşmanın geosiyasi nəticələri aşkardır. Hantinqton belə hesab edir ki, atlantistlər öz sivilizasiyalarının strateji

mövqelərini hərtərəfli möhkəmlətməli, qarşıdurmaya hazırlaşmalı, strateji səylərini birləşdirməli, başqa geosiyasi qurumlarda antiatlantist meyilləri qabaqlamalı, onların Qərb üçün təhlükəli kontinental alyans şəklində birləşməsinə yol verməməlidir. **Hantinqton tövsiyə edir:**

"Qərb öz sivilizasiyası çərçivəsində və onun Avropa və Şimali Amerika hissələri arasında daha sıx əməkdaşlığı və birləşməni təmin etməli;

Şərqi Avropada və Latın Amerikasında mədəniyyətləri, Qərb mədəniyyətinə yaxın olan cəmiyyətləri Qərb sivilizasiyasına inteqrasiya etməli;

Yaponiya və Rusiya ilə daha sıx qarşılıqlı əlaqələri təmin etməli;

sivilizasiyalar arasında lokal münaqişələrin genişlənərək qlobal müharibələrə çevrilməsinin qarşısını almalı;

konfusiçi və islam dövlətlərinin hərbi ekspansiyasını məhdudlaşdırmalı;

Qərbin hərbi qüdrətinin azalmasını dayandırmalı və Uzaq Şərqdə və Cənub-Qərbi Asiyada hərbi üstünlüyü təmin etməli;

konfusiçi və islam ölkələrinin qarşılıqlı münasibətlərində yaranan çətinliklərdən və münaqişələrdən istifadə etməli;

başqa sivilizasiyalarda Qərb dəyərlərinə və Qərb maraqlarına meyil edən qrupları dəstəkləməli;

Qərb mənafelərini və Qərb dəyərlərini əks etdirən və onları qanuniləşdirən beynəlxalq təsisatları gücləndirməli və bu təsisatlara qeyri-Qərb dövlətlərinin cəlb olunmasını təmin etməlidir" [Huntington, 1993, p. 49].

Neoatlantizm doktrinasının qısa və tutumlu ifadəsi belədir.

Xalis geosiyasət baxımından, bu, *Mehen* və *Spaykmenin* prinsiplərinə ciddi riayət edilməsi deməkdir. Hantinqtonun mədəniyyətə və sivilizasiyaların fərqlərinə ən mühüm geosiyasi amillər kimi xüsusi diqqət yetirməsi onun "orqanik" fəlsəfədən qaynaqlanan klassik geosiyasi məktəbə mənsub olmasını göstərir. Bu fəlsəfənin səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, sosial qurumlar və dövlət-

lər mexaniki və ya xalis ideoloji strukturlar deyil, "həyat formaları" hesab edilirdi.

Hantinqton Qərbin ən çox ehtimal edilən düşmənləri kimi Çinin və islam dövlətlərinin (İran, İraq, Liviya və s.) adını çəkir. Burada *Meyninq* və *Kirkin* doktrinalarının birbaşa təsiri özünü göstərir. Onlar belə hesab edirdilər ki, "sahil zonası" ölkələrinin "Rimləndə" oriyentasiya etməsi, konfusiçi və islam sivilizasiyalarının geosiyasi cəhətdən əsasən məhz "Rimlənd"ə mənsub olması "Hartlənd" mövqeyindən daha vacibdir. Buna görə də neoatlantizmin başqa nümayəndələrindən, o cümlədən *Pol Volfovitsdən* fərqli olaraq, Hantinqtonun fikrincə, əsas təhlükə Rusiya-Avrasiyanın, "Hartlənd"in və ya hər hansı yeni kontinental Avrasiya qurumunun geosiyasi baxımdan dirçəlməsi ilə bağlı deyildir.

Amerikalı P.Volfovitsin 1992-ci ilin mart ayında ABŞ hökumətinə təqdim etdiyi məruzəsində Avropa və Asiya qitələrində ABŞ ilə qarşıdurmaya qabil olan strateji qüvvə yaranmasına yol verilməməsinin zəruri olmasından bəhs edilir və daha sonra izah edilir ki, burada nəzərdə tutulan ən ehtimallı qüvvə Rusiyadır və ona qarşı Baltikyanı ölkələrdən "sanitar dəhliz"i yaratmaq lazımdır. Amerikalı strateq Volfovits bu halda *Spaykmendən* daha çox *Makinderə* yaxındır. Onun baxışlarını Hantinqtonun nəzəriyyəsindən fərqləndirən əsas cəhət də budur.

Bütün hallarda potensial düşmənin müəyyən edilməsindən asılı olmayaraq neoatlantistlərin mövqeyi mahiyyətcə dəyişmir: "soyuq müharibə"də qələbə Qərbə qarşı başqa (indiki və ya gələcək) geosiyasi qurumlardan təhlükə yaranmasını istisna etmir. Buna görə də "vahid dünya" haqqında danışmaq hələ tezdir və "talassokratiya" ilə "tellurokratiya" (aerokratiya və efirokratiya) arasında planetar dualizm XXI əsrdə də əsas geosiyasi sxem kimi qalır. Hantinqtonun tezisi isə bu dualizmin yeni və daha ümumi formuludur.

Müasir atlantist geosiyasətin transformasiya olunmuş, dünyanın yeni geosiyasi konsepsiya və yanaşmaları sırasında xüsusi diqqət cəlb edən digər nəzəriyyələr də mövcuddur.

3.1.3. Geosiyasi praqmatizm nəzəriyyəsi

Bu nəzəriyyə daha çox geoiqtisadi mahiyyət kəsb edir. Əsasında İngiltərənin keçmiş Baş nazirlərindən biri olmuş *H.Palmerstonun* məşhur *"Dövlətin daimi dostu yoxdur, daimi maraqları var"* - ifadəsi dayanan geosiyasi praqmatizm nəzəriyyəsi müasir dünya geosiyasətində, xarici siyasətin realist düşüncəsi kimi, dövlətin praqmatik və eqoist maraqlarının təmin olunmasında çox geniş tətbiq olunur. Geosiyasi ədəbiyyatda əsasını ABŞ Prezidenti *V.Vilsonun* qoyduğu *idealist nəzəriyyəyə*[1] tamam zidd olan bu fikir dövlətlərin dünyanın mövcud iqtisadi, sosial, əmək, enerji, nəqliyyat-kommunikasiya və digər ehtiyatlar uğrunda reallaşdırdığı əbədi mübarizə məntiqinə söykənir.

Geosiyasi praqmatizm tərəfdarları müasir beynəlxalq münasibətlərin bütün məsuliyyətini böyük dövlətlərin üzərinə qoyur. Hal-hazırda geosiyasi praqmatizm böyük dövlətlərin təmsil olunduğu BMT Təhlükəsizlik Şurasının fəaliyyətində özünü göstərir. Dünya nizamına görə məsuliyyəti yalnız ABŞ-a həvalə edən müasir Amerika geosiyasəti praqmatizmin ifrat təzahürüdür. Bu, "preventiv intervensionizm" doktrinasında öz əksini tapmışdır.

3.1.4. Açıq (liberal-demokratik) cəmiyyət nəzəriyyəsi

Bu nəzəriyyə filosof, məntiqşünas və sosioloq ***Karl Raymund Popper*** (1902-1994) tərəfindən işlənib hazırlanmışdır. Vyanada anadan olmuş Popper 1945-ci ildən Böyük Britaniyada yaşamış, London Universitetinin məntiq professoru (1949-1969), London İqtisadiyyat və siyasi elmlər məktəbində fəlsəfə, məntiq və elmi metod fakültəsinin dekanı (1945-1969) olmuşdur. O, ***tənqidi rasionalizm fəlsəfi konsepsiyasının banisidir.*** Marksizmi və tarixilik prinsipini tənqid edən məqalələrlə çıxış etmişdir. 1938-1943-cü illərdə Yeni Zelandiyada yazılmış *"Açıq cəmiyyət və onun düşmənləri"* adlı əsərin (London, 1945) müəllifidir. Açıq cəmiyyətə "himnə"

[1] Vilsonun nəzəriyyəsinə görə, dünyanın mövcud vəziyyəti, ölkələrarası münasibətlər, münaqişəli məsələlər kollektiv şəkildə Millətlər Cəmiyyəti tərəfindən həyata keçirilməli və ölkələrarası münasibətlərin və planetar siyasətin əsasını liberal dəyərlər təşkil etməli idi.

çevrilmiş bu kitab nasizmə və kommunizmə qarşı yönəlmişdi. **Qapalı cəmiyyətdən açıq cəmiyyətə keçid bəşər tarixində ən dərin inqilablardan biri kimi səciyyələndirilir.** Alim qapalı kollektivist cəmiyyətdən fərqli olaraq açıq cəmiyyətdə şəxsi qərarlar qəbul etməyə məcbur olan fərdlərin səciyyəvi xüsusiyyətlərini göstərir. **Açıq cəmiyyətin "atası" xələflərinə bunları vəsiyyət etmişdir:** ***Tarix bu gün qurtarır. Biz ondan ibrət dərsi ala bilərik, lakin gələcək heç də keçmişin davamı və ekstrapolyasiyası deyildir. Gələcək hələ mövcud deyildir və məhz bu vəziyyət bizim üzərimizə çox böyük məsuliyyət qoyur, çünki biz gələcəyə təsir göstərə, onun daha yaxşı olması üçün əlimizdən gələni edə bilərik. Bunun üçün biz keçmişdə öyrəndiklərimizin hamısından istifadə etməliyik. Keçmişin ən mühüm dərslərindən biri isə bundan ibarətdir ki, biz təvazökar olmalıyıq.***

3.1.5.İqtisadi liberalizm nəzəriyyəsi

Bu nəzəriyyənin dünyada əsas yaradıcısı iqtisadçı və filosof **Fridrix Avqust fon Hayek** (1899-1992) idi. O, Avstriyada anadan olmuş, Böyük Britaniyada, ABŞ-da, Almaniyada, Avstriyada işləmiş və Nobel mükafatına layiq görülmüşdür. *"Köləliyə gedən yol"* (1944), *"Qanun, qanunvericilik və azadlıq"* (1973-1979) kitablarının müəllifidir. Hayekin fikrincə, müvəffəqiyyət təkcə varlanma həvəsi, birjalar və banklarla deyil, həm də mənəviyyat və ənənəvi əxlaqla müəyyən edilir. O, mənəviyyatı insani ləzzətlərə can atmağın ənənəvi məhdudlaşdırılması kimi qəbul edirdi. Mənəviyyat bizi öz istədiyimiz yerə aparmır, o yalnız xəbərdarlıq edir ki, arzu etdiyimiz məqsədə qısa yollarla çatmağa çalışmaq lazım deyil. **Ənənəvi əxlaqın ən mühüm qaydaları və iki şüuraltı qütb var. Bunlar xüsusi mülkiyyət və ailədir. Xüsusi mülkiyyət maddi nemətlərin yaradılmasına xidmət edir, ailə isə özünüqoruma və təkrar istehsal instinktidir.** Kommunizm qurucuları da daxil olmaqla, islahatçılar heç vaxt xüsusi mülkiyyəti və ailəni inkar edən davamlı cəmiyyət quruculuğunda uğur qazana bilməmişlər. Kommunizmin məqsədi ənənəvi əxlaqı hörmətdən salmaq idi.

Lakin şəxsiyyətin azadlığını dövlətin qəsbindən qorumağa kömək edən **Qərbi Avropa sivilizasiyasının sosial təsisatları başqa mədəniyyətlər üçün məqbul olmadı. Bu mədəniyyətlərdə liberallaşma heç də həmişə demokratikləşmə demək deyildir, dövlətin şəxsiyyət üzərində ənənəvi üstünlüyü mövcuddur.**

Fridrix fon Hayekin "Köləliyə aparan yol" adlı kitabında **ictimai həyatın təşkilinin iki alternativ üsulu** aşağıdakı kimi interpretasiya edilir. İqtisadi fəaliyyət insanın tələbatının kiçik marginal hissəsinə aiddir. Bu, insanların çoxunu mərkəzləşdirilmiş planlaşdırmanın fundamental həyati dəyərlər üçün qorxulu olmamasına inanmağa məcbur edir. Lakin iqtisadi nəzarət insanların bütün həyatına nəzarətdən ayrılmazdır. Hər bir azadlığın zəruri ilkin şərti olan iqtisadi azadlıq olmayan yerdə hər hansı fəaliyyəti seçmək hüququ olduqca məhduddur və bununla əlaqədar risk və məsuliyyət olmayan yerdə siyasi azadlıq da mümkün deyil. **Xüsusi mülkiyyət azadlığın başlıca təminatıdır, bərabərliyə can atmaq isə dünyaya haçansa bəxş edilmiş imkanların ən yaxşısı olan bu azadlığı məhv edir. Bazar mexanizmlərinə təsir göstərilməsi yolu ilə ümumi iqtisadi müdafiəni təmin etmək cəhdləri nə qədər çox olsa, insanların real müdafiə dərəcəsi bir o qədər az olur.**

3.1.6. Etnomərkəzçilik nəzəriyyəsi

Bu nəzəriyyənin əsasını bir vaxtlar klassik rus mütəfəkkirləri qoymuş, sonrakı dövrlərdə isə o, Qərb ölkələrində bəzi geosiyasətçilər tərəfindən inkişaf etdirilmişdir. Ruslar, Avrasiya məkanında yaşayan digər xalqlar və dövlətlər tərəfindən irəli sürülmüş "panslavizm", "pantürkizm", "panərəbizm", "panislamizm" və başqalarına oxşar nəzəriyyələr müasir dövrdə xristian dünyasında Avropa və ABŞ-da "panpravoslavizm", "pankatolisizm", "avromərkəzçilik", "atlantizm" və başqa cərəyanlar adı altında inkişaf etdirilmiş və bu gün də etdirilir. Bu nəzəriyyələrin əksəriyyətinin əsasında millətçi, etnik, dini ayırıcı ideyalar, "məxsusi üstünlük" fəlsəfəsi dayanır.

3.1.7. Vahid dünya geoiqtisadiyyatı nəzəriyyəsi

Bu nəzəriyyəni də İkinci Dünya müharibəsindən sonrakı dövrdə ABŞ-ın mütəxəssisləri irəli sürmüşlər. Müharibə başa çatdıqdan sonra ABŞ beynəlxalq münasibətlərdə geoiqtisadi yanaşmanın liderinə çevrilir. Böyük dövlətlərin antihitler koalisiyasının müttəfiqlik münasibətləri fonunda vahid dünya geoiqtisadiyyatı doktrinası yaranır. Bu doktrinanın müəllifi amerikalı diplomat və tarixçi **Corc Frost Kennan** (1904-2005) idi. **Prinston Universitetinin məzunu (1925) olan Kennan ABŞ-ın diplomatik və konsul nümayəndəliklərində müxtəlif vəzifələrdə çalışmışdır.** 1947-ci ildə ABŞ-ın dövlət katibi *C.Marşall* Kennanı Dövlət Departamentinin siyasətinin planlaşdırılması üzrə direktoru vəzifəsinə təyin etmişdir. 1952-ci ilin mart ayında o, SSRİ-yə səfir göndərilmiş, lakin elə həmin ilin oktyabr ayında Sovet İttifaqının ünvanına "düşmənçilik xarakterli" çıxışları ilə əlaqədar sovet hökumətinin tələbi ilə Moskvadan geri çağırılmışdır. Sonradan Prinston Universitetinin professoru, 1961-1963-cü illərdə ABŞ-ın Yuqoslaviyadakı səfiri olmuşdur. **O, Sovet İttifaqının nəinki parçalana biləcəyini, hətta bu prosesin ən real ssenarisini də qabaqcadan söyləmiş azsaylı Qərb ziyalılarından biridir.**

Vahid dünya geoiqtisadiyyatı doktrinası yeni dünya nizamına Sovet İttifaqının cəlb edilməsini nəzərdə tuturdu. Kennanın iştirakı ilə işlənib hazırlanan Marşall planında[1] Sovet İttifaqına iqtisadi yardım göstərilməsi nəzərdə tutulurdu. Bu, iqtisadiyyatda daha çox aşkarlıq yaranmasına və bazar münasibətlərinin inkişafına kömək etməli idi. Lakin *"inteqrasiya yolu ilə çəkindirmə"* planı uğursuz oldu. Kennan Amerikanın yeni, geoiqtisadi yanaşmaya üstünlük verən geosiyasətinin əsas təşəbbüsçülərindən biri idi. Dost dövlətlərin dəstəklənməsi və iqtisadi qüdrət geosiyasəti "soyuq müharibə"-də mühüm rol oynamışdır.

[1] Marşall planı maliyyə yardımı göstərərək Avropa dövlətlərinin müharibədə dağıdılmış təsərrüfatlarını bərpa etmək və iqtisadi yolla ABŞ-ın təsiri altına salmaq məqsədi güdürdü.

3.1.8. Dünya sistemi geosiyasi məktəbi

Bu məktəbin təməli Brodelin əsərlərində qoyulmuş, sonralar bu məktəb amerikalı mütəfəkkir, tarixçi, sosioloq və iqtisadçı **İmmanuel Vallerstaynın** (1930) təlimində inkişaf etdirilmişdir. Onun nəzəriyyəsinə görə, dünyanın iqtisadi inkişafı son beş-altı əsr ərzində əsasən bir neçə *"iqtisadi məkan çərçivəsində"* baş vermişdir. Bu əraziləri (məkanları) müəllif xüsusi *"iqtisadi dünya sistemi"* kimi səciyyələndirmiş və müvafiq nəticə çıxararaq müasir dünya iqtisadi siyasətinin özünəməxsus konsepsiyasını təklif etmişdir.

Özünün *"Müasir dünya sistemi"* (1974), *"Kapitalist dünya iqtisadiyyatı"* (1979), *"Siyasi iqtisadi dünya"* (1984) və s. əsərlərində Vallerstayn dünya sistemi yanaşması əsasında **sosial tarixi sistemlərin üç tipini** ayıraraq aşağıdakı şəkildə şərh etmişdir. Mini sistem ibtidai icma cəmiyyəti üçün səciyyəvi olub qəbilə və ya tayfanın analoqudur. Sonra ikitipli **dünya sistemi** dövrü başlanır ki, buraya həm də hərbi-bürokratik rejimlərin, imperialist dövlətlərin yaratdığı iqtisadiyyat daxil idi: burada əsas üstünlük kənd təsərrüfatına verilirdi. Nəhayət, **kapitalist dövrünün mövcud iqtisadi dünyası** - yeni istehsal üsulu ilə fərqlənir. Vallerstayn ***kapitalizmin dünyada hegemonluğunun üç dövrəsi***ni müəyyən etmişdir. 400 il ərzində hegemonluğun (dünya dövlətlərinin liderliyinin) Hollandiya, Britaniya və Amerika dövrələri bir-birini əvəz etmişdir. Hər dövrə, müəllifə görə, üç fazadan keçmişdir: **dünya müharibəsi, böyük dövlət hegemonluğu** və **onun iflası.** Hollandiyanın hegemonluq dövrəsi 1618-ci ildən 1672-ci ilə qədər, Britaniya dövrəsi 1792-1896-cı illərdə davam etmiş, Amerika dövrəsi 1914-cü ildən başlamışdır. Dünya hegemonluğu beynəlxalq münasibətlərdə, o cümlədən hərbi-siyasi və iqtisadi sahədə dövlətlərdən birinin geosiyasi hökmranlığı ilə şərtlənir.

Vallerstayn, həmçinin üçhalqalı iyerarxik struktura əsaslanan **dünya sistemi nəzəriyyəsini** təklif etmişdi: **nüvə-yarımperiferiya-periferiya.** Kapitalizmin təşəkkülü dövründə dünyada siyasi nəzarəti təkbaşına həyata keçirməyə qadir olmayan iqtisadi cəhətdən güclü bir neçə dövlət fərqlənirdi. Vahid bazarın formalaşması

çoxsaylı dövlətlərin mallarının rəqabəti sayəsində mümkün olmuşdur. Dünya iqtisadiyyatının struktur yenidənqurması və transformasiyaya müvafiq siyasi xəritənin dəyişməsi "yarımperiferiya" hesabına baş verir. Bəzi ölkələr buradan yuxarı pilləyə (nüvəyə) keçir, digərləri deqradasiyaya uğrayaraq periferiya vəziyyətinə düşürlər.

Dünya sistemi nəzəriyyəsi ənənəvi güc geosiyasətinin məhdudluğuna reaksiya kimi yaranmışdı və əsas diqqəti geosiyasi yanaşma üzərində cəmləşdirirdi. Bu nəzəriyyənin tərəfdarları vahid dünya iqtisadiyyatını beynəlxalq münasibətlərin xüsusi, dövlətlərin siyasi davranışını müəyyən edən subyekti hesab edirlər.

3.1.9. Dünya inkişafının dövrələri haqqında təlim

Rus iqtisadçısı, sovet hakimiyyəti tərəfindən repressiyaya məruz qalmış və məhv edilmiş **Nikolay Dmitriyeviç Kondratyevin** (1892-1938) dünya inkişafı dövrələri haqqında təlimi beynəlxalq iqtisadi münasibətlər nəzəriyyəsi üçün böyük əhəmiyyət kəsb edirdi. Dünya inkişafı dövrələri nəzəriyyəsinin unudulmaması çox cəhətdən Kondratyevin dostu, Qərbdə böyük sosioloqlardan biri *Pitirim Sorokinin* (1899-1968) sayəsində mümkün olmuşdur. Kondratyev dünyanın iqtisadi və texnoloji inkişafının qanunauyğunluğunu şərh edir. Dövrələr (tsikllər) dünya təsərrüfat sisteminin aparıcı sahələrinin yüksəliş və tənəzzül mərhələlərini əks etdirir. Dövrilik xassəsi, ilk növbədə, dünya sisteminin "mərkəzini" təşkil edən, yüksək dərəcədə inkişaf etmiş ölkələrin təsərrüfatına aiddir. Dünyanın nüvəsi beynəlxalq əmək bölgüsü vasitəsilə başqa dövlətlərə də təsir göstərir. Dövrənin davametmə müddəti 40-60 il olur *(bax: **cədvəl 7**)*.

3.1.10. Kondratyev-Vallerstayn modeli

Dünya inkişafının dövrələri haqqında təlim geosiyasəti iqtisadiyyatla əlaqələndirmiş Kondratyev-Vallerstayn modelinin yaradılmasına kömək etmişdir. Dünyada geosiyasi hegemoniyaların tənəzzülü və tərəqqisi *N.Kondratyevin* böyük inkişafın iqtisadi dövrələrində təsvir etdiyi dünya təsərrüfat sisteminin strukturunun yenidən qurulması ilə uzlaşır. Amerikalı alim *İ.Vallerstayn* **"hegemonist dövrə"**nin aşağıdakı **mərhələlərini** göstərmişdir.

Cədvəl 7

Kondratyevin dünya inkişafı dövrələrinin tarixi

Dövrələrin[1] sıra nömrəsi	Yüksəliş fazası	Eniş fazası
I	1780-ci illərin sonlarından 1810-1817-ci illərə qədər olan mərhələ	1810-1817-ci illərdən 1844-1845-ci illərə qədər olan mərhələ
II	1844-1851-ci illərdən 1870-1875-ci illərə qədər olan mərhələ	1870-1875-ci illərdən 1890-1896-cı illərə qədər olan mərhələ
III	1891-1896-cı illərdən 1914-1921-ci illərə qədər olan mərhələ	1914-1921-ci illərdən 1940-cı illərin ortalarına qədər olan mərhələ
IV	1940-cı illərin ortalarından 1960-cı illərin sonlarına qədər olan mərhələ	1960-cı illərin sonlarından 1980-ci illərin ortalarına qədər olan mərhələ

"Yüksəlməkdə olan hegemonluğun" ***birinci mərhələsində*** geosiyasi qarşıdurma üzə çıxır, böyük dövlətlər liderlik hüququ uğrunda yarışırlar. İstehsalın səmərəliliyini yüksəldən yeni texnoloji nailiyyətlər hansı dövlətdə cəmləşirsə, uzunmüddətli iqtisadi üstünlüyü həmin dövlət əldə edir. ***İkinci mərhələdə*** dünya iqtisadiyyatında ümumi tənəzzül baş verir, ekspansiya imkanları məhdudlaşır. Lakin irəliləməkdə olan böyük dövlətin sərəncamında texnoloji, istehsal və ticarət üstünlükləri olduğuna görə o, öz mənafelərini qoruya bilir və hegemon kamilliyə nail olur. Dünyanın maliyyə mərkəzi həmin dövlətə tərəf dəyişir və "həqiqi hegemonluq" başlanır. Xarici bazarda yüksək rəqabət qabiliyyətinə malik olan hegemon dövlət dünya iqtisadiyyatının açıq və ticarətin azad olması tərəfdarıdır. ***Sonuncu mərhələ*** - "hegemonluğun tənəzzülü" istehsalın effektivliyinin azalması və güclənməkdə olan rəqiblərlə qarşıdurmada proteksionist tədbirlərin sərtləşməsi ilə bağlıdır. *Vallers-*

[1] Kondratyevin dünya inkişafı dövrələri - dünyanın iqtisadi və texnoloji inkişafının qanunauyğunluqlarını bildirir. Dövrələr dünya təsərrüfatının aparıcı sahələrinin yüksəlişini və enişini əks etdirir. Hər dövrə, artıq deyildiyi kimi, 40-60-ıl çəkir.

tayn üçhalqalı modeli dünya təsərrüfat sisteminin inkişafının "uzun dalğaları" üzərinə qoymaqla (*Kondratyev* dövrələri) son 200 ildə dünya nüvəsinin yerdəyişməsini aşkar etmişdir. Dünya iqtisadiyyatının ağırlıq mərkəzi Böyük Britaniyadan Almaniyaya, sonra isə "qlobal sivilizasiya" dövründə ABŞ-a doğru dəyişmişdir. Müasir dünyada "nüvə" Amerikanın qərbinə, Kaliforniyaya, yəni Asiya-Sakit okean regionuna tərəf dreyfini (hərəkətini) davam etdirir. *Vallerstayn* nəzəriyyəsi bütün ölkələrin gec ya tez keçməli olduğu dünya tarixinə vahid irəliləmə trayektoriyası nəzəriyyəsi çərçivəsində baxışın səhv olmasını sübut etmişdir.

Sonralar ABŞ politoloqları *C.Modelski* və *V.Tompson* ***dünya siyasətinin uzun dövrələrini və ya liderlik dövrələrini*** işləyib hazırlamışlar *(bax:* ***cədvəl 8).*** Bu dövrələrin vaxtaşırı bir-birini əvəz etməsi dünyanın geosiyasi strukturunu (dünya nizamını) dəyişir, yeni böyük dövlətlərin və onların təsir zonalarının üzə çıxmasına şərait yaradır. ***(9-cu və 10-cu cədvəllərdə*** aparıcı dövlətlərin birinci sənaye inqilabının başlanmasından XX əsrin "Böyük depressiya"sının bitməsinədək olan dövrdə dünya sənaye istehsalındakı payının dinamikası ilə bağlı rəqəmlər verilmişdir. Bu rəqəmlərin təhlili inkişafın qeyri-müntəzəmliyini, böyük dövlətlərin yüksəlişi və tənəzzülünü, dünyanın iqtisadi lideri rolunda "coğrafi seçmə"nin dövriliyini göstərir). Dünya siyasətinin hər uzun dövrəsi təxminən 100 il davam edir. Dünya siyasətinin hər dövrəsi *Kondratyevin dünya inkişafının iki ardıcıl dövrəsinə* müvafiqdir.

Bir qayda olaraq, geosiyasi proses aşağıdakı şəkildə gedir: Kondratyevin *birinci dövrəsində* (K-I) yüksəliş mərhələsi "əsas dünya problemlərinin müəyyənləşdirilməsi" və "müttəfiqlərin koalisiyasının təşkili" fazalarından keçir. *İkinci dövrədə* (K-II) "makrosəviyyədə qərarların qəbul edilməsi" və "onların həyata keçirilməsi" mərhələsi gerçəkləşir *(bax:* ***cədvəl 11).***

Bu nəzəriyyədə geosiyasət dünya iqtisadiyyatının inkişafı ilə bağlanır və belə bir fikir əsaslandırılır ki, planetdə bu və ya digər dövlətin iqtisadi inkişaf dövrünün iflası ilə onun geosiyasi hegemonluğu dövrü də bitir *(bax:* ***cədvəl 12).***

Cədvəl 8

Dünya siyasətinin uzun dövrələrinin xarakteristikası

Yüzillik dövrələr (№/əsr)	Dünya dövlətləri - hegemonlar (digər böyük dövlətlər)	"Böyük (dünya miqyaslı) müharibələr"	Dünya dövləti statusunun qanuniliyini təsdiq edən müqavilələr	Dünya hökmranlığının əsas institutları	Tənəzzülə doğru dönüş məqamı
1/XVI əsr	Portuqaliya (İspaniya, İngiltərə, Fransa)	Müqəddəs Roma imperiyasının italyan müharibələri (1494-1517; 1559)	Tordesilyas müqaviləsi (1494); Saraqosa müqaviləsi (1529)	Qlobal nöqtəvi bazalar şəbəkəsi (hərbi dayaq məntəqələri, faktoriyalar, kontorlar, bölmələr)	Portuqaliyanın İspaniya tərəfindən işğalı (1581-1640)
2/XVII əsr	Niderland (İngiltərə, Fransa, İspaniya)	Holland və ispan müharibələri (1579-1609)	İspaniya ilə atəşkəs (1609)	Hərbi və ticarət bazalarının qlobal şəbəkəsi	İngiltərə inqilabı (1642-1660)
3/XVIII əsr	Britaniya (Niderland, Fransa, İspaniya, Rusiya)	XIV Lüdovikin müharibələri (1688-1713)	Fransa və Britaniya arasında İspaniya irsi üstündə müharibəyə son qoymuş Utrext sülhü (1713)	Dəniz üstünlüyü (komandanlığı)	ABŞ-ın müstəqilliyi (1783)
4/XIX əsr	Britaniya (Rusiya, Fransa, Niderland, İspaniya)	Napoleon müharibələri (1799-1815)	Paris və Vyana konqresləri (1814, 1815)	Sərbəst ticarət erası	İmperializmin dünyanı metropoliyalar arasında son olaraq böl(üşdür)məsi
5/XX əsr	ABŞ, (Böyük Britaniya, Fransa, Rusiya, Almaniya, Yaponiya)	İki dünya müharibəsi (1914-1918; 1939-1945)	Versal (1919) və Potsdam (1945) müqavilələri	BMT	Vyetnam müharibəsi

Mənbə: Modelski G., Thompson W., 1988, səh. 97-132.

Cədvəl 9

Dünya sənaye istehsalında ölkələrin payı (%-lə)

Dövlətlər	İllər							
	1750	1800	1830	1860	1880	1890	1900	1913
Avropa (bütövlükdə)	23,2	28,1	34,2	53,2	61,3	...	...	...
İngiltərə	1,9	4,3	9,5	19,9	22,9	21,5	18,5	13,6
Almaniya	2,9	3,5	3,5	4,9	8,5	10,1	13,2	14,8
Fransa	4,0	4,2	5,2	7,9	7,8	7,3	6,8	6,1
Rusiya	5,0	5,6	5,6	7,0	7,6	7,9	8,8	8,3
Avstriya-Macarıstan	2,9	3,2	3,2	4,2	4,4	4,5	4,7	4,7
İtaliya	2,4	2,5	2,3	2,5	2,5	2,5	2,5	2,4
ABŞ	0,1	0,8	2,4	7,2	14,7	17,0	23,6	32,0
Çin	32,8	33,3	29,8	19,7	12,5	...	...	...
Hindistan	24,5	19,7	17,6	8,6	2,8	...	...	...
Yaponiya	3,8	3,5	2,8	2,6	2,4	...	...	...

Mənbə: Kennedy P.M., 1988, səh. 149, 200-201.

Cədvəl 10

"Böyük depressiya"nın (dünya iqtisadi böhranı) başlanğıcında və sonunda aparıcı dövlətlərin dünya sənaye istehsalındakı payı (%-lə)

Dövlətlər	İllər				
	1920	1929	1932	1937	1938
ABŞ	45,0	43,3	31,8	35,1	28,7
SSRİ	3,0	5,0	11,5	14,1	17,6
Almaniya	4,4	11,1	10,6	11,4	13,2
İngiltərə	8,0	9,4	10,9	9,4	9,2
Fransa	5,2	6,6	6,9	4,5	4,5
Yaponiya	2,0	2,5	3,5	3,5	3,8

Mənbə: Kennedy P.M., 1988, səh. 330.

Cədvəl 11

Dünya siyasətinin uzun dövrələri və ölkələrin liderliyinin iqtisadi amilləri arasında qarşılıqlı əlaqə

Dünya siyasətinin uzun dövrəsi	Liderliyin iqtisadi amilləri	Kondratyev dövrəsinin təxmini başlama fazası (illər)	Kondratyev dövrəsinin təxmini sürətli inkişaf fazası (illər)
Portuqaliya			
K-I K-II	Xarici ölkələrdən gətirilən qızıl Hind ədviyyatı	1430-1460	1460-1494
Niderland			
K-I K-II	Baltik və atlantik ticarəti Şərq ticarəti	1540-1560 1580-1609	1560-1580 1609-1640
Britaniya - I			
K-I K-II	Amerikanın Asiya ilə (şəkər) ticarəti Amerikanın Asiya ilə ticarəti	1640-1660 1688-1713	1660-1688 1713-1740
Britaniya - II			
K-I K-II	Pambıq, dəmir filizi Dəmir yolları, buxar mühərriki	1740-1763 1792-1815	1763-1792 1815-1850
ABŞ - I			
K-I K-II	Polad, kimya, elektrik enerjisi Avtomobilqayırma və aviasiya sənayesi, elektronika	1850-1873 1914-1945	1873-1914 1945-1973
ABŞ - II			
K-I K-II	İnformasiyanın yenidən işlənməsi və emalı	1973-2000 2026-2050	2000-2026 2050-2080

Mənbə: Колосов, Мироненко, 2005, səh. 206.

Cədvəl 12

Hegemonluq və rəqabətin dinamik modeli (Britan və amerikan yüzilliklərinin təhlili)

Hegemonluğun mərhələləri	Böyük Britaniya	ABŞ
Yüksələn hegemonluq	**Kondratyevin birinci dövrəsi** *Faza A* Fransa ilə rəqabət (Napoleon müharibələri). İstehsal sahələrinin səmərəliliyi: sənaye inqilabı	**Kondratyevin üçüncü dövrəsi** *Faza A* Almaniya ilə rəqabət. İstehsal sahələrinin səmərəliliyi: fordizm, texnikanın kütləvi istehsalı; "Çiçəklənmə dövrü"
Hegemonluğun qələbəsi	**Kondratyevin birinci dövrəsi** *Faza B* Latın Amerikasında ticari qələbə və Hindistan üzərində nəzarətin təmin edilməsi; dünya emalatxanası	**Kondratyevin üçüncü dövrəsi** *Faza B* Britaniya sərbəst ticarət sistemi üzərində qələbə; Almaniyanın hərbi məğlubiyyəti; "Böyük depressiya"
Həqiqi hegemonluq	**Kondratyevin ikinci dövrəsi** *Faza A* Sərbəst ticarət erası; London dünya təsərrüfatının mərkəzinə çevrilir; "Viktorian çiçəklənməsi"	**Kondratyevin dördüncü dövrəsi** *Faza A* Dollara əsaslanan Bretton-Vuds liberal iqtisadi sistemi; Nyu-York - dünyanın yeni maliyyə mərkəzidir; "İqtisadiartımın qızıl əsri" (hər şeydən əvvəl ABŞ üçün)
Hegemonluğun tənəzzülü	**Kondratyevin ikinci dövrəsi** *Faza B* İmperializmin klassik mərhələsi; Avropa dövlətləri və ABŞ Böyük Britaniyaya qarşı birləşirlər. Yeni sənaye inqilabı; "Böyük depressiya"	**Kondratyevin dördüncü dövrəsi** *Faza B* Yaponiya-Avropa dövlətləri rəqabətinə müqavimət məqsədilə proteksionizm elementlərinə qayıdış

3.1.11. P.C.Teylorun geoiqtisadi monosentrizm təlimi

Dünya-sistem yanaşması əsasında *geosiyasətin "iqtisadiləşdirilməsi"* ideyası britaniyalı coğrafiyaşünas, geosiyasətdə geoiqtisadi istiqamətin banilərindən olan *P.C.Teylorun geoiqtisadi monosentrizm təlimində* təklif edilmişdir. Alim dövlətlərin geosiyasi hegemonluğunu tədqiq etmişdir. Bu, iqtisadi, siyasi və ideoloji sahələrdə beynəlxalq münasibətlər sisteminin mütləq dominantlığından ibarətdir. **Hegemonluq, ilk növbədə, iqtisadi üstünlük əsasında əldə edilir. Bu halda bir dövlətin istehsal, ticarət və maliyyə fəaliyyəti başqa dövlətlərlə müqayisədə daha səmərəli olur. Rəqiblər üzərində üstünlük yeniliklərin tətbiq edilməsi və tələbin genişlənməsi vasitəsilə yeni inhisarçı (rəqabətə davamlı) məhsullar yaradılması hesabına əldə edilir. Bu, istehsal, ticarət, gələcəkdə isə həm də maliyyə üstünlüyünə şərait yaradır və dövlət dünya hegemonuna çevrilir.** Alim dünya nizamlarının dəyişməsində *"geosiyasi dinamika"* anlayışını tətbiq etmiş, *Vallerstaynın* "dünya-sistem" yanaşmasını dərinləşdirmiş, siyasətin qlobal, milli-dövlət və lokal məkan səviyyələrini üzvi şəkildə əlaqələndirmişdir. Teylor yeni tarixdə **hegemonluğun üç geoiqtisadi dövrəsi**ni fərqləndirir: **Hollandiya** (XVII əsrin ortaları), **Britaniya** (XIX əsrin ortaları) və **ABŞ** (XX əsrin ortaları).

Teylor dövlətin tarixi boyunca dəyişən **"geosiyasi kod"** anlayışından geniş istifadə edir. **Geosiyasi kod dövlətin milli maraqlarını, təsir dairəsini, qonşu ölkələrlə münasibətlərini, yəni ətraf aləmlə qarşılıqlı əlaqənin münasibət və üsullarının bütün coğrafi spektrini ehtiva edir.**

Alim **elektoral (siyasi) coğrafiya**nın tədqiqinə töhfələr vermiş, *"Siyasi coğrafiya"* adlı beynəlxalq jurnalın (1982-ci ildən çıxır) həmtəsisçisi və ilk redaktoru olmuşdur. Teylorun fikrincə, iqtisadi inkişafın kifayət qədər yüksək səviyyəsində (dünyanın nüvəsində) olan ölkələrdə sosial-demokratik prinsiplər daha artıq səmərə verir. Periferiya və yarımperiferiya ölkələrində sosial siyasət üçün vəsaitin məhdud olması və iqtisadi imkanı olmayan vətəndaşların üstünlük təşkil etdiyi şəraitdə siyasi baxışların sərbəst ifadə edil-

məsi üçün real sistem yoxdur. Yoxsul elektoratın səslərini pul gücünə almaq olar.

Teylor dünyaya "nüvə" ölkələrinin və "əsas" böyük dövlətin dominantlıq etdiyi ciddi iyerarxik sistem kimi baxır. O, aparıcı dövlətin hökmranlığı ilə səciyyəvi olan nisbi geosiyasi sabitlik dövrlərini iqtisadi inkişafın *Kondratyev* dövrələri ilə əlaqələndirir. **Bir geosiyasi dünya nizamından başqalarına keçid dünya müharibələri, epidemiyalar və aclıq kimi həyəcanlı, ağır dövrlər ərzində baş verir.** Teylorun konsepsiyasının uzun dövrlər nəzəriyyəsinin iqtisadi təməlinə əsaslandığına baxmayaraq, **o, dövlətin qüdrətinin səbəblərini, ilk növbədə, onun daxili və xarici siyasətinin əsasını təşkil edən ideyaların cəlbedici olmasında görür.** Teylor Şimal ilə Cənub arasında münaqişənin mümkünlüyünü təkzib edir, lakin **islam dininin inteqrasiya rolu**nun artacağını istisna etmir. O, güclənməkdə olan millətçilik dalğası və dövlətin gələcəkdə parçalanması ilə əlaqədar narahatlığını bildirir. Alimin fikrincə, **milli dövlətçilik ideyası** dünyada sabitliyi poza biləcək *avromərkəzçiliyin* mirasıdır.

XX əsrin 70-ci illərinin əvvəlində formallaşdırılmış metodlardan və elektron hesablama maşınlarının imkanlarından istifadə etməklə dünyanın uzunmüddətli inkişafı proseslərinin sistemli təhlili məqsədilə *qlobal modelləşdirmə metodu* inkişaf etmişdir. Bu illərdə ***"Roma klubu"*** adlanan beynəlxalq qeyri-hökumət təşkilatı qlobal inkişafın perspektivlərini araşdırmaqla məşğul olmağa başladı. 1968-ci ildə Romada təsis edilmiş bu təşkilat onlarca alimi (iqtisadçıları, kibernetikləri, riyaziyyatçıları və b.), ictimai və siyasi xadimləri, iri beynəlxalq korporasiyaların və maliyyə təsisatlarının rəhbərlərini birləşdirirdi. "Roma klubu"nun məruzələrində cəmiyyətin inkişafının mövcud meyillərinin davam edəcəyi təqdirdə ***"qlobal fəlakət"in labüd olması konsepsiyası*** əsaslandırılırdı. Həmçinin ***Şimal-Cənub geosiyasi konsepsiyası*** ifadə edilmişdi. Sənaye cəhətdən inkişaf etmiş Şimal ilə inkişaf etməkdə olan ölkələrin və Çinin daxil olduğu Cənub arasında münaqişə qlobal miqyaslı çoxsaylı ziddiyyətlərin və böhranların əsas səbəbi hesab edilir. "Roma klubu"nun

iştirakçıları müxtəlif sosial-iqtisadi sistemlərə mənsub olan dövlətləri konvergensiyaya (yaxınlaşmaya) çağırırdılar.

Məşhur amerikalı mühəndis **Cey Forresterin** *"Dünya dinamikası"* adlı ilk əsərindən (1971) sonra Forresterin şagirdi **D.Medousun** rəhbərliyi ilə Massaçusets Texnoloji İnstitutunun (ABŞ) bir qrup əməkdaşı tərəfindən *dünya inkişafının daha şaxələnmiş modeli* işlənib hazırlanmışdı. Bu model "Roma klubu"nun birinci məruzəsi olan *"Artım hüdudları"* əsərində sadə şəkildə şərh edilmişdir. Hesablamaların əsasını bərpa edilə bilməyən və məhdud mühitdə qeyri-məhdud artımın mümkün olmaması ideyası təşkil edirdi. Medous xammal resurslarının təsdiqlənmiş ehtiyatlarının dinamikasının təhlili əsasında pessimist bir nəticəyə gəlmişdi. 1974-cü ildə klubun üzvləri **M.Mesaroviç** və **E.Pestelin** "Roma klubu" üçün hazırladığı *"Bəşəriyyət yol ayrıcında"* adlı ikinci məruzə yayıldı. *"Beynəlxalq nizamın dəyişməsi"* adlı üçüncü kollektiv məruzə beynəlxalq iqtisadi münasibətlərin yenidən qurulması problemlərinə həsr edilmişdi. "Yeni dünya nizamı" sürətlə silahlanmanın azaldılması, ərzaq böhranının və "demoqrafik partlayış"ın nəticələrinin aradan qaldırılması əsasında formalaşmalıdır. Bu məqsədlə resursların inkişaf etməkdə olan ölkələrin xeyrinə yenidən bölüşdürülməsini təmin etməli olan fövqəlmilli təsisatların yaradılması zəruridir. Sonrakı məruzələr arasında iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı *Vasili Leontyevin* rəhbərliyi altında BMT-nin tədqiqatçılar qrupu tərəfindən hazırlanmış *"Dünya iqtisadiyyatının gələcəyi"* məruzəsi xüsusi qeyd edilməlidir.

3.1.12. Şimal-Cənub geoiqtisadi nəzəriyyəsi

Bu nəzəriyyə zəngin Şimal ("qızıl milyard") və yoxsul Cənub ("milyard işsiz") makroregionlarının qarşıdurmasını, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı sərhəddə yaranmış gərginliyi tədqiq edir. Beynəlxalq iqtisadi münasibətlərin transformasiyasının təsiri altında dünyanın geoiqtisadi arxitekturası daim dəyişir. İnformasiya texnologiyalarının və başqa kommunikasiyaların inkişafı beynəlxalq münasibətlərdə coğrafi amilin rolunu zəiflətmişdir. Şərqi Avropada geoiqtisadi yanaşmanın tərəfdarlarından bi-

ri olan *Aleksandr Neklessa* dünyanın Şimalının və Cənubunun konstruksiyası əsasında geosiyasi qaydanı aşağıdakı kimi təsvir etmişdir. Yeni coğrafiya, ilk növbədə, qloballaşma prosesləri və geoiqtisadi məkanda yeni transmilli "oyunçular" yaranması ilə şərtlənmişdi. Bu, regionallaşmaya və böyük məkanların yeni konstruksiyalarının yaradılmasına tələbat doğurmuşdur. Beynəlxalq münasibətlərin transformasiyası baş vermiş, bu da öz növbəsində dövlətlərarası idarəetmə sistemlərinin qurulması prinsiplərini dəyişmişdir. Dünyanın Şimalı və dərin Cənub yaranmışdır. Postsovet məkanı onların arasında keçid mövqeyi tutur.

Dünyanın Şimalı - Birləşmiş Ştatları, Kanadanı, Qərbi Avropanı və yüksək dərəcədə inkişaf etmiş başqa ölkələri (Yaponiya, İsrail, Avstraliya və Yeni Zelandiyanı) əhatə edən geoiqtisadi makroregion, dünyanın mərkəzidir. Nordik makroregionun Şimali Atlantika hissəsində xüsusi milli sərvətlər yaratmaq mümkün olmuşdur. Bu, informasiya-kommunikasiya texnologiyaları da daxil olmaqla yüksək texnoloji istehsal üçün çoxprofilli infrastrukturdur. Kommunist Şərqinin qüdrətli hakimiyyət qütbünü itirmiş postsovet dünyası Şimala münasibətdə keçid vəziyyətindədir. Postsovet dövlətlərinin əksəriyyəti Şimala əks istiqamətdə dreyf edir.

Dərin Cənub - sosial və iqtisadi münasibətlərin demodernləşmə və kriminallaşma prosesləri ilə səciyyəvi olan geoiqtisadi makroregion, dünyanın dərin periferiyasıdır. Əsasən tropik və subtropik bölgələrdə (Mərkəzi Afrika, Hind okeanı qövsü) yerləşən ölkələrin çoxu bu makroregiona aiddir. Bu ölkələrin əksəriyyəti üçün səciyyəvi cəhət xammal ehtiyatlarının hasilatıdır. Makroregion dövlətləri təbii rentanın bölüşdürülməsinin mövcud sisteminə yenidən baxılmasının tərəfdarıdır.

Geoiqtisadi nəzəriyyələrdə *dünyanın iqtisadi və texnoloji inkişaf qütbləri, preferensial proteksionizm və beynəlxalq (multimodal) nəqliyyat dəhlizləri* haqqında təsəvvürlər xüsusi yer tutur. Bu dəhlizlər maddi və maliyyə axınlarının dövriyyəsini sürətləndirmək məqsədilə əsas nəqliyyat növlərini başlıca istiqamətlərdə cəmləşdirir və sinxronlaşdırır. Məsələn, *preferensial proteksionizm nəzə-*

riyyəsi preferensial rejim - müəyyən məkana, sərbəst iqtisadi zonalara kapital və müasir texnologiyalar cəlb edilməsinə şərait yaradan gömrük, vergi və başqa güzəştlər sistemi yaradılması əsasında iqtisadi münasibətlərin liberallaşmasını əsaslandırır. Yüksək inkişaf etmiş ölkələrdə *preferensial rejim* çox vaxt vergi güzəştləri hesabına deyil, rəqabət qabiliyyətli regional təsərrüfatçılıq şəraiti formalaşdırılması əsasında yaradılır. *Nöqtəvi zonalar konsepsiyasına* uyğun olaraq buraxılan məhsulun xarici bazarda rəqabət qabiliyyətinin artırılması üçün lokal ərazilərə və ayrı-ayrı müəssisələrə preferensial rejim təqdim edilməsi geniş yayılmışdır.

3.1.13. Həyati maraq zonaları nəzəriyyəsi

Geoiqtisadi strategiya dünyanın müxtəlif regionlarında ABŞ-ın öz iqtisadi mənafeləri naminə hərbi iştirakını əsaslandıran amerikalı geosiyasətçilərin "həyati maraq zonaları" nəzəriyyəsinin əsası olmuşdur. Bu nəzəriyyə İkinci Dünya müharibəsi başa çatandan sonra inkişaf etmişdi. ABŞ həmin müharibədən dünyanın iqtisadi cəhətdən ən qüdrətli dövləti kimi çıxmışdı. *S.Kohen, E.Hantinqton, N.Spaykmen, C.Kiffer* və başqa alimlərin əsərlərində geoiqtisadiyyata üstünlük verən yeni geosiyasətin təməli qoyulur. Geoiqtisadi müharibələr yolu ilə dünya ağalığına nail olmağın ədalətliliyi əsaslandırılır. Beynəlxalq kommunikasiyaların, xüsusən dəniz və hava nəqliyyatının inkişafında texniki tərəqqi, Amerika şirkətlərinin təsir dairəsinin genişlənməsi ABŞ-ın coğrafi baxımdan təcrid olunmasının aradan qaldırılmasına şərait yaradır. Buna görə də ABŞ-ın iqtisadi maraqları dövlətin hüdudlarından çox-çox uzaqda ola bilər. "Həyati maraqlar" nəzəriyyəsi əslində almanların "həyati məkanlar" siyasətinin praktiki davamı idi.

3.2. MONDİALİZM

3.2.1. Mondializmin yaranma tarixi

Mondializm konsepsiyası "soyuq müharibə"də Qərbin qəti qələbəsindən xeyli əvvəl yaranmışdır. Bu konsepsiya irqi, dini, etnik, milli və mədəni sərhədlərin ləğv edilməsini, bütün dövlət və xalqların vahid planetar qurumda birləşməsini və dünya hökumətinin yaradılmasını nəzərdə tutur.

Bu ideyanın qaynaqlarına hələ orta əsrlərdə və daha əvvəlki dövrlərdə yaranmış bəzi utopik və xiliastik hərəkatlarda rast gəlmək olar. Mondializm ideyasının əsasını təşkil edən təsəvvürə görə, tarixin müəyyən kulminasiya anında Yer kürəsindəki bütün xalqlar bir səltənətdə toplaşacaq, orada adi yer tarixi üçün sociyyəvi olan ziddiyyətlər, faciələr, münaqişələr, problemlər olmayacaqdır. Mondialist utopiyanın xalis mistik versiyası ilə yanaşı onun rasionalist versiyaları da mövcud olmuşdur. Pozitivist O.Kontun "Üçüncü era" haqqında təlimi, yaxud *Qothold Lessinqin*[1] (1729-1781) humanist esxatologiyası həmin versiyalara nümunə hesab edilə bilər.

Mondialist ideyalar mötədil Avropa sosialistlərinə, xüsusən ingilis sosialistlərinə xas olan əlamət idi. Onların bir qismi *"Fabi cəmiyyəti"*[2] ("Fabian Society") şəklində birləşmişdi. Kommunistlər də vahid dünya dövləti barədə danışırdılar. Digər tərəfdən, XIX əsrin axırlarından başlayaraq, analoji mondialist təşkilatlar dünya biznesinin nəhəng simaları tərəfindən yaradılırdı. Məsələn, ser *Sesil Roudsun* təşkil etdiyi "Dəyirmi masa" qrupunun üzvləri "bütün dünyada maneəsiz ticarət sisteminin bərqərar olmasına və vahid dünya hökumətinin yaradılmasına kömək etməli idilər". Sosialistlərin və liberal kapitalistlərin motivləri çox vaxt bir-birinə uyğun olurdu, kommunistlər və bu təşkilatlarda ən iri maliyyə kapitalının nümayəndələri ilə qonşuluq edirdilər. Onların hamısını birləşdirən cəhət planetin birləşməsi barədə utopik ideyaya inam idi.

Qeyd etmək lazımdır ki, Millətlər Cəmiyyəti, daha sonra BMT və YUNESKO kimi məşhur təşkilatlar vaxtilə dünya siyasətinə çox böyük təsir göstərən mondialist dairələrin niyyətlərinin davamı olmuşdur. XX əsrdə hədsiz reklamdan çəkinən və çox vaxt "məxfi" xarakter daşıyan mondialist təşkilatlar dəfələrlə adlarını dəyişmişlər. *Harri Devisin* başçılıq etdiyi "Dünya konfederasiyası uğrunda universal hərəkat", "Federal ittifaq" və hətta "Dünya hakimiyyəti uğrunda xaç yürüşü" adlı təşkilatlar mövcud olmuşdur (bu sonuncu qurumu İngiltərə parlamentinin üzvü Henri Asborn 1946-cı ildə təşkil etmişdi).

Qərb üzərində bütün konseptual və strateji hökmranlıq ABŞ-da cəmləşdikcə məhz bu dövlət mondializmin əsas qərargahına çevrildi. Onun nümayəndələri analitiklərdən, müşavirlərdən, strateji araşdırma mərkəzlərindən ibarət paralel hakimiyyət strukturu yaradırdı. Beləliklə, üç əsas mondialist təşkilat yaranmışdı. Qərb ictimaiyyəti həmin təşkilatların mövcud olmasından yalnız sonrakı vaxtlarda xəbər tutmuşdu. Rəsmi qurumlardan fərqli olaraq, bu qruplar layihələşdirmə və tədqiqatlar baxımından qat-qat sərbəst idilər, çünki onlar BMT komissiyalarının fəaliyyətini reqlamentləşdirən formal prosedurlardan azad idilər. Bu təşkilatlardan birincisi ***Xarici Əlaqələr Şurası*** (The Council on Foreign Relations (CFR)) adlanırdı. Rokfellerlər ailəsinə mənsub olan bankirlər qrupu tərəfindən yaradılmış bu qeyri-rəsmi təşkilat planetar miqyasda Amerika strategiyasını yaratmaqla məşğul idi. Təşkilatın son məqsədi planeti tamamilə unifikasiya etmək və "dünya hökuməti"ni formalaşdırmaq idi. Hələ 1921-ci ildə "Karneginin kainatda sülh fondu"nun filialı kimi yaradılmış bu təşkilatın üzvləri olan yüksək vəzifəli siyasətçilərin hamısı planetin gələcəyi barədə mondialist baxışların tərəfdarı idi. CFR-in üzvlərinin əksəriyyəti, eyni zamanda, Şotlandiya masonluğunun yüksək vəzifəli diqnitariləri idi. Qeyd etmək lazımdır ki, onların geosiyasi layihələrində müəyyən humanist-mistik məqamlar da yox deyildi.

İkinci mondialist struktur 1954-cü ildə yaradılmış ***"Bilderberq klubu"*** və ya ***"Bilderberq qrupu"*** idi. Bu qurum amerikalı analitik, siyasətçi, maliyyəçi və intellektuallarla yanaşı onların avropalı həmkarlarını da birləşdirirdi. Amerika tərəfini burada yalnız CFR-

[1] Alman maarifçisi, filosof, publisist, dramaturq, tənqidçi və incəsənət nəzəriyyəçisi.

[2] Böyük Britaniyada reformist təşkilat. 1884-cü ildə yaradılmışdı; tərkibinə, əsasən, ziyalılar *(B.Şou, S.* və *B. Vebb, H.Uells* və b.) daxil idi. "Fabi cəmiyyəti"nin təşkilatçıları ona Roma sərkərdəsi *Fabi Maksim Kunktatorun* (Lənq) (e.ə. 275-203) adını vermişdilər. Sosializmi iqtisadi inkişafın zəruri nəticəsi hesab edən fabiçilər inkişafın yalnız təkamül yolunu məqbul sayır, inqilabı rədd edirdilər. Hazırda "Fabi cəmiyyəti" müstəqil təşkilat kimi Leyboristlər partiyasına daxil olub partiyada ideoloji mərkəz rolu oynayır.

in üzvləri təmsil edirdi və bu qrup CFR-in beynəlxalq müstəvidə davamı hesab edilirdi.

1973-cü ildə Bilderberq qrupunun fəalları ***"Üçtərəfli komissiya"*** və ya ***"Trilateral"*** (Trilateral) adlı üçüncü, çox mühüm mondialist struktur yaratdılar. CFR və "Bilderberq qrupu"nun tərkibinə daxil olan amerikalıların başçılıq etdiyi bu qrupun ABŞ-da, Avropada və Yaponiyada mənzil-qərargahları vardır.

Komissiyanın "üçtərəfli" adlanması fundamental geosiyasi amillərə əsaslanır. O, texniki inkişafda və bazar iqtisadiyyatında liderlik edən üç böyük məkanı atlantizmin və ABŞ-ın himayəsi altında birləşdirməli idi: 1) Şimali və Cənubi Amerikadan ibarət Amerika məkanı; 2) Avropa məkanı; 3) Yaponiyanın nəzarət etdiyi Sakit okean məkanı.

"Bilderberq"in və "Trilateral"ın ən mühüm mondialist qruplarına CFR-in yüksək vəzifəli üzvü "Ceyz Manhetten bank"ın sahibi *Devid Rokfeller* başçılıq edir. Bütün mondialist layihələrdə atlantizmin daimi analitikləri, geosiyasətçi və strateqləri *Zbiqnev Bjezinski, Henri Kissincer* və *Corc Boll* kimi məşhur şəxsiyyətlər təmsil olunurlar.

Bir daha qeyd edək ki, mondialist layihələrin əsas məqsədi Qərbin və mütərəqqi, humanist, demokratik dəyərlərin strateji üstünlük təşkil etdiyi vahid dünya sisteminə keçməkdən ibarətdir. Bu məqsədlə siyasətçi, jurnalist, intellektual, maliyyəçi, analitik və başqa mütəxəssislərdən ibarət paralel strukturlar yaradılırdı. Onlar mondialistlərin "dünya hökuməti" layihəsi geniş miqyasda açıqlanana qədər əlverişli zəmin hazırlamalı idilər. Çünki müvafiq hazırlıq aparılmasa bu layihə planetar miqyasda özlərinin bənzərsiz əlamətlərinin əriyib getməsini istəməyən xalqların və dövlətlərin çox güclü psixoloji müqaviməti ilə qarşılaşa bilərdi.

Lakin həmin təşkilatların işləyib hazırladığı və həyata keçirdiyi mondialist layihə yekcins deyildi. Onun iki əsas versiyası nəzəri cəhətdən eyni nəticəyə gətirib çıxarmalı olsa da, bu versiyalarda istifadə edilən metodlar müxtəlif idi.

3.2.2. Konvergensiya nəzəriyyəsi

Mondializmin ən pasifist və "barışdırıcı" ilk versiyası "konvergensiya nəzəriyyəsi" (lat. *convergo* - yaxınlaşıram, meyil edirəm) adı ilə məşhurdur. Bu konsepsiyanın ideyasını tarixdə ilk dəfə ABŞ Prezidenti *Lindon Conson* (1908-1973) səsləndirmişdir. Sonrakı illərdə bu ideyanı *P.Sorokin, C.Helbreyt, U.Rostou* (ABŞ), *Y.Tinbergen* (Niderland), *H.Şelsk* və *O.Fleytheym* (AFR) genişləndirmiş və nəzəri cəhətdən əsaslandırmışlar. Konvergensiya ideyasına görə, elmi-texniki inqilab əsrində bir-birinə zidd olan iki ictimai sistemin - kapitalizm və sosializmin əsas xüsusiyyətlərilə bir-birinə yaxınlaşmaları "zəruridir". Lakin hər ikisi, müəyyən zaman keçdikdən sonra, özlərində olan müsbət xüsusiyyətləri və əlamətləri biri digərinə transformasiya edəcək, daha sonra isə onların hər hansı bir "qarışıq cəmiyyətdə" birləşmələri zəruri tələbat kimi ortaya çıxacaqdır.

Canlı orqanizmlər aləmində özünü göstərən konvergensiya hadisəsi, onlar məskunlaşmış olduqları eyni mühitdə (genetik dəyişikliklər vasitəsilə), hətta məişətləri etibarilə bir-birindən uzaq olan orqanizmlərdə belə şərti oxşar anatomik (morfoloji) formalar əmələ gətirir.

Konvergensiyanın nəzəri əsaslarını ilk dəfə Amerika sosioloqu *U.Rostou* vermişdir. Onun nəzəriyyəsi cəmiyyətin "iqtisadi artım mərhələləri" konsepsiyasına əsaslanır və marksizmin ictimai-iqtisadi formasiya nəzəriyyəsinin əleyhinədir. *U.Rostou* "vahid sənaye cəmiyyəti"nin yaranacağının (bir neçə iqtisadi inkişaf mərhələsindən sonra) labüdlüyü fikrini irəli sürmüşdür. Onun mülahizəsinə görə, həmin cəmiyyətin strukturu mülkiyyət formalarının və ictimai münasibətlərin xarakterindən asılı deyil, orada əsas məsələ ölkələrin sənayeləşdirilməsinin inkişaf səviyyəsi və müəyyən mərhələdə yetkinliyi problemidir; kapitalizm və sosializm cəmiyyətləri - hər iki sistem yalnız "vahid sənaye cəmiyyəti"nin müxtəlif variantlarıdır.

Konvergensiya konsepsiyasının irəli sürülməsinin əsas səbəblərindən biri, 50-60-cı illərdə Qərbdə elmi-texniki inqilabın (ETİ) təsiri ilə istehsalın, əslində, ictimailəşməsi (əməyin ictimai bölgüsü-

nün dərinləşməsi, iqtisadi, siyasi və mədəni sahələrdə inteqrasiya proseslərinin baş verməsi) ənənəsi olmuşdur. Bu da həmin ölkələrin ictimai həyatında sosializmə xas olan bir sıra xüsusiyyətlərin mənimsənilməsinin labüdlüyünə gətirib çıxardı: dövlət planlaşdırılması elementlərinin tətbiqi, ictimai təminat sisteminin formalaşması mülkiyyətin dövlət formalarının yaranmasına və s. səbəb oldu. Konvergensiya konsepsiyasının irəli sürülməsinin bir səbəbi də Qərb müəllifləri tərəfindən sosializm sisteminin tənqidi təhlili nəticəsində baş vermişdir. Onların fikrincə, ümumi dövlət iqtisadiyyatı və ictimai həyat sosialist ölkələrində inkişafa ciddi mane olur. Bununla əlaqədar bu illərdə həmin ölkələrin bəzilərində (Yuqoslaviya, Çexoslovakiya, Macarıstan, ADR, Polşa və s.) planlı təsərrüfatı bazar iqtisadiyyatına uyğunlaşdırmaq, eyni zamanda, mülkiyyətin şəxsi formalarından istifadə üçün yollar axtarılmışdır. Nəhayət, konvergen yaxınlaşma nəzəriyyəsinin mühüm motivlərindən biri də dünyanın parçalanmasının və bir-birinə düşmən iki ictimai sistemin arasında qlobal nüvə münaqişəsi ilə bağlı təhlükənin aradan qaldırılmasına cəhd göstərilməsidir.

70-ci illərdə bir sıra müəlliflər, o cümlədən *Z.Bjezinski* və *S.Hantinqton* konvergensiya konsepsiyasını müəyyən mənada tənqid etməyə başladılar. Onlar iki əks qütbdə olan sistemlərin "nəhayət birləşəcəyi" ideyasını şübhə altına alırdılar. Prinston Universitetinin professoru *S.Blek* özünün "Modernləşdirmənin dinamikası. Tarixi-müqayisəli tədqiqat" əsərində *U.Rostounun* nəzəriyyəsinə bəzi düzəlişlər etmişdir. O, "Modernləşdirmə" terminindən istifadə edərək göstərmişdir ki, bu anlam "iqtisadi inkişaf səviyyəsi" təliminindən daha geniş və dərindir. O hesab edir ki, qeyri-Qərb ölkələrinin "ənənəvi natamamlığı" onları öz inkişaflarında Qərbi təkrar etməyə məcbur edəcəkdir. Elə 70-ci illərdə Qərbdən yeni "mənfi konvergensiya" (*R.Heylbroner, Q.Markuze, Y.Habermas* və b.) adlanan ideya yayılmağa başladı. Burada belə bir fikir irəli sürülürdü ki, əks qütblərdə duran sistemlər biri digərindən müsbət elementlərdən daha çox, mənfi elementləri mənimsəyirlər ki, bu da bütünlüklə "müasir sənaye sivilizasiyasının böhranı"na gətirib çıxarır.

Müasir tarixi inkişafın gedişi göstərir ki, ETİ-in təsiri ilə istehsalın ictimailəşməsi müxtəlif sistemli ölkələrdə həqiqətən ümumi cəhətləri meydana çıxarır: XX əsrin klassik kapitalizmi indi artıq o illərdə olduğu xüsusiyyətlərə malik deyil və o, xeyli dərəcədə yeni keyfiyyət vəziyyətinə keçmişdir. Lakin özünün bütün bu yeni keyfiyyətləri ilə bərabər əvvəlki sistemdəki əsas cəhətlərini saxlamaqdadır. Əvvəlki sosialist sisteminə daxil olan ölkələrin ictimai həyatlarında isə elə əlamət və formalar meydana gəlir ki, bunlar şəxsi mülkiyyətin müxtəlif formalarıdır, o cümlədən Qərb dövlətlərinin müasir sivilizasiyaya məxsus olan şəxsi mülkiyyət, bazar iqtisadiyyatı, hüquqi dövlət, çoxpartiyalılıq, aşkarlıq, söz azadlığı və bir çox başqa xüsusiyyətləri kapitalizm sisteminə xasdır. Bütün bunlar Ümumavropa evi və Qərblə Şərq, Şimal və Cənub ölkələri arasında daha geniş əməkdaşlıq konsepsiyası üçün zəmin yaradır.

70-ci illərdə Xarici Əlaqələr Şurasının (CFR) daxilində *Z.Bjezinskinin* rəhbərlik etdiyi bir qrup solçu analitik tərəfindən təkmilləşdirilmiş konvergensiya nəzəriyyəsinə görə, "soyuq müharibə" dövrünə xas olan ideoloji və geosiyasi dualizmin yeni, mədəni-ideoloji sivilizasiya tipi yaradılması yolu ilə aradan qaldırılmasının mümkünlüyü güman edilirdi. Sivilizasiyanın bu tipi sosializm ilə kapitalizm arasında, xalis atlantizm ilə xalis kontinentalizm arasında orta mövqe tutmalı idi.

Sovetlərin marksizmi dəf edilməsi mümkün olan maneə hesab edilirdi. Bunun üçün proletariat diktaturası, sinfi mübarizə, istehsal vasitələrinin milliləşdirilməsi və xüsusi mülkiyyətin ləğv edilməsi tezislərindən imtina etməklə marksizmin mötədil sosial-demokratik, təftişçi versiyasına keçid təklif edilirdi. Kapitalist Qərbi də öz növbəsində bazarın sərbəstliyini məhdudlaşdırmalı, iqtisadiyyatın dövlət tərəfindən qismən tənzimlənməsini tətbiq etməli və digər oxşar tədbirlər görməli idi. Mədəni oriyentasiyanın ümumiliyi maarifçilik və humanizm ənənələrində tapıla bilərdi. Həm Qərbin demokratik rejimləri, həm də kommunizmin sosial etikası (onun mötədil sosial-demokratik versiyalarında) bu ənənələrə yaxın idi.

"Konvergensiya nəzəriyyəsi" əsasında yarana biləcək "dünya hökuməti" Moskvanın Vaşinqtonla birlikdə planetin Atlantik idarə edilməsi barədə fərziyyəsi kimi təsəvvür edilirdi. Bu halda ümumdünya sülh dövrü başlanar, "soyuq müharibə"yə son qoyular, xalqlar geosiyasi gərginlikdən xilas olardı.

Burada texnoloji sistemlərin "talassokratiya"dan efirokratiyaya keçidi ilə paralel aparılması nəzərdə tutulurdu: mondialist siyasətçilər planetə dənizlərlə əhatə olunmuş Qərb qitəsinin sakinlərinin gözü ilə (ənənəvi atlantistlər kimi) deyil, kosmik orbitdəki asrtonovtların gözü ilə baxmağa başlamışdılar. Bu halda onlar həqiqətən vahid dünya görürdülər.

Mondialist mərkəzlərin Moskvada da öz dayaqları vardı. Burada əsas fiqur "Trilateral"ın SSRİ-də bir növ filialı olan Sistem Araşdırmaları İnstitutunun direktoru akademik *Qvişiani* idi. Lakin onların Qərbi Avropadakı ifrat solçu partiyalar arasında fəaliyyəti daha uğurlu idi. Bu partiyaların əksəriyyəti Avropa kommunizmi yoluna qədəm qoymuşdu, bu isə qlobal konvergensiya üçün əsas konseptual baza hesab edilirdi.

3.2.3. Qərbin planetar qələbəsi

"Konvergensiya nəzəriyyəsi" yenidənqurma siyasətini həyata keçirmiş *Mixail Qorbaçovun* və onun məsləhətçilərinin istinad etdikləri ideoloji zəmin idi. Sovet İttifaqında yenidənqurma başlanandan bir neçə il əvvəl Çində buna oxşar bir layihə həyata keçirilməyə başlamışdı. Üçtərəfli Komissiyanın nümayəndələri 70-ci illərin axırlarından etibarən Çinlə sıx münasibət yaratmışdılar. Lakin Çin və sovet yenidənqurmalarının geosiyasi taleləri müxtəlif idi. Çin Qərb ideologiyasında sosializm yönümlü müvafiq dəyişikliklərdə rolların ədalətli bölünməsini təkidlə tələb edirdi. SSRİ güzəştlər yolunda xeyli irəli getmişdi.

Amerikalı mondialistlərin məntiqinə əsaslanan Qorbaçov sovet məkanında demokratikləşmə və liberallaşma istiqamətində struktur dəyişiklikləri aparmağa başlamışdı. Bu, ilk növbədə, Varşava müqaviləsi ölkələrinə, sonra isə SSRİ respublikalarına da aid edildi. Strateji silahların azaldılması və Qərb ilə ideoloji yaxınlaşma

prosesi başlandı. Lakin bu halda bir fakta xüsusi diqqət yetirmək lazımdır ki, *Qorbaçovun* hakimiyyətdə olduğu illər ABŞ-da ifrat respublikaçılar olan *Reyqanın* və *Buşun* prezidentliyi ilə eyni vaxta düşmüşdür. Özü də *Reyqan* son illərdə bütün mondialist təşkilatlarda iştirak etməkdən ardıcıl imtina etmiş yeganə prezident idi. O, öz əqidəsinə görə sərt, ardıcıl və kompromissiz atlantist, hətta ən mötədil demokratik və sosial-demokratik təmayüllü solçu ideologiyalara hər hansı kompromisə meyil etməyən liberal bazar iqtisadiyyatı tərəfdarı idi. Buna görə də Moskvanın konvergensiyaya və Şərq bloku nümayəndələrinin xeyli üstünlük təşkil etdiyi "dünya hökuməti" yaradılmasına yönəlmiş addımları əks qütbdə ən xoşagəlməz ideoloji maneələrlə üzləşirdi. Atlantist *Reyqan* (sonra isə *Buş*) *Qorbaçovun* mondialist islahatlarından sadəcə olaraq sırf utilitar məqsədlər üçün istifadə edirdi. "Hartlənd"in könüllü güzəştləri"Dəniz qüdrəti" tərəfindən müvafiq güzəştlərlə müşayiət olunmadı və Qərb özü-özünü ləğv edən Avrasiyaya nə geosiyasi, nə də ideoloji kompromisə getdi. Liberal-demokratik ideologiya öz mövqelərini daha da möhkəmlətdi.

Bu halda mondializm praktikada gerçəkləşmiş müstəqil geosiyasi doktrina kimi deyil, "soyuq müharibə"də praqmatikcəsinə istifadə edilmiş vasitə kimi çıxış etdi, ABŞ isə *Makinderin* və *Mehenin* tezislərinə əsaslanan "soyuq müharibə" məntiqindən imtina etmədi.

3.2.4. Frensis Fukuyamanın "Tarixin sonu" konsepsiyası

SSRİ dağılandan və Qərbin, atlantizmin qələbəsindən sonra mondialist layihələr ya ölüb getməli, ya da öz məntiqini dəyişməli idi. Lakin postsovet dövründə Frensis Fukuyamanın (1952) doktrinası mondializmin yeni versiyası oldu. Onun 80-ci illərin sonunda dərc etdirdiyi *"Tarixin sonudurmu?"* adlı məqaləsi, eləcə də 90-cı illərin əvvəlində nəşr edilmiş *"Tarixin sonu və sonuncu insan"* adlı kitabı neomondializmin ideya əsası hesab edilə bilər. Fukuyama tarixi prosesin aşağıdakı versiyasını təklif edir. Bu dövrə qədər bəşəriyyət "güc qanunu", "cəhalət" və "sosial gerçəkliyin qeyri-rasional idarə edilməsi" dövründən ən təkmil, qabaqcıl və məntiqli quruluşa doğru irəliləyirdi. (Bu quruluş kapitalizmdə, müasir Qərb si-

vilizasiyasında, bazar iqtisadiyyatında və liberal-demokratik ideologiyada təcəssüm etmişdir). Tarix və onun inkişafı öz yerini tədricən zəka qanunlarına güzəşt edən qeyri-rasional, səmərəsiz amillər, bütün dəyərlərin ümumi pul ekvivalenti hesabına davam edirdi. SSRİ-nin dağılması "irrasionalizm"in sonuncu istehkamının süqutu demək idi. Köhnə tarixin sona çatması ilə xüsusi planetar mövcudluğun başlanması bununla əlaqədardır *[Фукуяма, 2006, стр. 568-590].*

Müəllifə görə, yeni dövr dünyanı səmərəli fəaliyyət göstərən harmonik mexanizm kimi birləşdirən bazar və demokratiya əlamətləri altında keçəcəkdir. Xalis atlantik sistemin universallaşmasına əsaslansa da, bu yeni qayda atlantizm çərçivəsindən kənara çıxır və dünyanın hər yeri, daha doğrusu, Yer kürəsinin bütün regionları yeni model üzrə, "atomda elektronlar kimi yenidən qurulmağa başlayır", ən nəhəng iqtisadi və nüvə mərkəzlərinə yönələrək orbitlərini dəyişir. Yeni planetar orbitin bütün ictimai davranış normalarını, nümunəvi həyat dəyərlərini Fukuyama ABŞ-da olduğu kimi, ABŞ-ın nümunəsi əsasında qurmağı tövsiyə edirdi. (Bu ideya geosiyasi ədəbiyyatda "vesternizasiya" adlandırılmışdır).

Qeyd etmək lazımdır ki, F.Fukuyamanın "Tarixin sonu" nəzəriyyəsini ingilis-amerikan mərkəzlərinin nümayəndələri istisna olmaqla, demək olar ki, dünyada heç kim real qəbul etmədi, utopik ideya kimi onu ilk gündən tənqid etməyə başladılar. Əslində ingilis-amerikan məktəbinin nümayəndələri də Fukuyamanın vesternizasiya nikbinliyini bölüşmədilər. Çünki *"Fukuyamanın nəzəriyyəsi nə tarixin sonu oldu, nə Yuqoslaviyanın, İraq və Əfqanıstanın bombalanmasını dayandıra bildi, nə də ki, dünyanı bürümüş lokal regional münaqişələrin qarşısını alaraq, dünyanı ABŞ-ın nümunəsində yenidən təşkil edə bildi" [Василенко, 2006, стр. 120].*

3.2.5. Jak Attalinin geoiqtisadiyyatı

Avropalı müəlliflər arasında da Fukuyama nəzəriyyəsinin analoqu var. Məsələn, uzun müddət Fransa Prezidenti *Fransua Mitteranın* müşaviri, sonralar Avropa Yenidənqurma və İnkişaf Bankının direktoru olmuş Jak Attali (1943) özünün *"Üfüqün xətləri"* kitabında (1990) buna oxşar bir nəzəriyyə irəli sürmüşdür.

Attalinin fikrincə, indi üçüncü era - universal dəyər ekvivalenti olan "pul erası" başlanır, çünki bütün əşyaları maddi cəhətdən rəqəmlə ifadə edən pulun ən səmərəli qaydada idarə edilməsi çox asandır. Attali özü məsələyə bu cür yanaşmanı iudaist-kabbalist kontekstdə messiya (xilaskar Məsihaya etiqad) erasının başlanması ilə əlaqələndirir. O, həmin aspekti özünün xüsusi olaraq messianlığa (məsihaçılığa) həsr edilmiş *"O gələcək"* adlı kitabında daha ətraflı şərh edir. Ciddi praqmatizm və utilitarizm (fayda prinsipi) çərçivəsində qalan *Fukuyamadan* Attalini fərqləndirən cəhət bundan ibarətdir.

Jak Attali "artıq başlanmış" gələcək barədə öz versiyasını təklif edir. Onun fikrincə, vahid liberal-demokratik ideologiyanın və bazar sisteminin planetdə hökmranlıq etməsi və informasiya texnologiyalarının inkişafı nəticəsində dünya vahid və yekcins olur, bütün tarix boyu hökmranlıq etmiş geosiyasi reallıqlar "üçüncü era"da arxa plana keçir. Geosiyasi dualizm ləğv edilir. Lakin vahid dünya bu dəfə "geoiqtisadiyyat" prinsiplərinə əsaslanan yeni geosiyasi strukturlaşma kəsb edir. "Geoiqtisadiyyat" konsepsiyasının inkişaf etdirilməsini ilk dəfə tarixçi *Frits Reriq* təklif etmiş, onu populyarlaşdıran isə *Fernan Brodel* olmuşdur.

"Geoiqtisadiyyat" mondialist geosiyasətin xüsusi versiyasıdır. Burada geosiyasi yanaşmanın mahiyyətini təşkil edən coğrafi, mədəni, ideoloji, etnik, dini və başqa amillər deyil, iqtisadi gerçəklik və onun məkana münasibəti nəzərdən keçirilir. Müəyyən ərazidə hansı xalqın yaşaması, onun tarixi, mədəni ənənələri "geoiqtisadiyyat" üçün heç bir əhəmiyyət kəsb etmir. Burada əsas məsələ dünya birja mərkəzlərinin, faydalı qazıntıların, informasiya mərkəzlərinin, iri istehsal sahələrinin harada yerləşməsi məsələləridir. "Geoiqtisadiyyat" siyasi gerçəkliyə elə yanaşır ki, vahid planetar dövlət və "dünya hökuməti" sanki artıq mövcuddur.

Attali geoiqtisadi yanaşmanı "Vahid dünya"da yeni iqtisadi məkanların mərkəzləri olacaq üç mühüm geosiyasi regionu fərqləndirməkdən ibarət hesab edir:

1) Amerika materikinin hər iki hissəsini vahid maliyyə-sənaye zonası şəklində birləşdirən Amerika məkanı;

2) Avropanın iqtisadi cəhətdən birləşməsindən sonra yaranan Avropa məkanı;

3) Tokio, Tayvan, Sinqapur və öz aralarında rəqabət aparan bir neçə mərkəzdən ibarət Sakit okean regionu, yeni tərəqqi zonası və s. [Attali, 1990].

Attalinin fikrincə, bu üç mondialist məkan arasında hər hansı ciddi fərq və ya ziddiyyətlər olmayacaqdır, çünki bütün hallarda iqtisadi və ideoloji tip tamamilə eynidir. Yeganə fərq ən çox inkişaf etmiş mərkəzlərin xalis coğrafi yerləşməsindəki fərqdən ibarət olacaqdır. Həmin mərkəzlər məkan etibarilə onlara yaxın yerləşən, nisbətən az inkişaf etmiş regionları öz ətrafında konsentrik şəkildə strukturlaşdıracaqdır. Bu cür konsentrik strukturlaşdırma yalnız "dünyanın sonu" yetişəndə, yaxud başqa sözlə desək, geosiyasətin diktə etdiyi ənənəvi reallıqlar ləğv edildikdə həyata keçə bilər. Beləliklə, sivilizasiya-geosiyasət dualizmi ləğv olunur. Atlantizmə əks qütbün olmaması məkanın mənasının əsaslı şəkildə dəyişməsinə doğru aparır və geoiqtisadiyyat erası başlanır.

Bu cür layihələrin işlənib hazırlanmasında və həyata keçirilməsində konseptual siyasi alət olan "Üçtərəfli komissiya"nın əsasını təşkil edən ideyalar Attalinin modelində öz dolğun ifadəsini tapmışlar.

Əlamətdar haldır ki, 1989-cu ilin yanvar ayında "Trilateral" qrupunun rəhbərləri *(Devid Rokfeller,* o vaxt qrupun Avropa bölməsinin rəhbəri olan *Jorj Bertuen* və *Henri Kissincer*) Moskvada olanda SSRİ Prezidenti *Qorbaçov* onları qəbul etmiş, bu görüşdə digər yüksək vəzifəli sovet rəhbərləri - *Yakovlev, Medvedev, Falin, Axromeyev, Dobrınin, Çernyayev, Arbatov* və *Primakov* da iştirak etmişdi. Jak Attali özü isə Rusiya Prezidenti *Boris Yeltsinlə* şəxsən əlaqə saxlayırdı.

Bir şey şübhəsizdir: geoiqtisadi məntiqə və neomondializmə keçid yalnız Avrasiya mövqeyi tutan SSRİ-nin geosiyasi mənada özü-özünü ləğv etməsindən sonra mümkün olmuşdu. Neomondializm yekun modeldə solçu sosialist elementlərin mövcud olmasını lap əvvəldən nəzərə alan tarixi mondializmin birbaşa davamı deyildir. O, mondializm və atlantizm arasında keçid variantıdır.

3.2.6. Professor Santoronun postkatastrofik mondializmi

Neomondializmin daha müfəssəl versiyaları mövcuddur. Bu versiyaların ən parlaq nümunələrindən biri Milan Beynəlxalq Siyasi Tədqiqatlar İnstitutunda (ISPI) professor Karlo Santoronun rəhbərliyi altında işlənib hazırlanmış futuroloji geosiyasi konsepsiyadır.

Santoro modelinə görə, hazırda bəşəriyyət bipolyar dünyadan çoxqütblü mondialist versiyaya (Attalidə olduğu kimi geoiqtisadi mənada) keçid mərhələsindədir. *Fukuyamanın* optimist mondializmi üçün dünya hökumətinin nüvəsinə çevrilmək baxımından kifayət qədər inkişaf etmiş sayılan beynəlxalq təsisatlar (BMT və s.) Santoronun nəzərində ikiqütblü geosiyasətin artıq qüvvədən düşmüş və köhnəlmiş məntiqini əks etdirirlər. Üstəlik, dünyada davamlı "soyuq müharibə" izi qalmışdır, geosiyasi məntiq yenə də üstünlük təşkil edir. Santoro bu vəziyyətin sivilizasiya fəlakətləri dövrü ilə başa çatacağını qabaqcadan duyur. Daha sonra o, həmin fəlakətlərin ehtimal olunan ssenarisini şərh edir:

1) Beynəlxalq təsisatların rolunun daha da zəifləməsi.

2) Varşava müqaviləsinə daxil olmuş ölkələr arasında millətçilik meyillərinin Üçüncü dünyada da artması, nəticədə xaotik proseslərin başlanması.

3) Ənənəvi blokların dezinteqrasiyası (bunun Avropaya dəxli yoxdur) və mövcud dövlətlərin sürətlə parçalanması.

4) Kiçik və orta intensivlikli müharibələr dövrünün başlanması, nəticədə yeni geosiyasi qurumların yaranması.

5) Planetar miqyaslı xaos təhlükəsi nəticəsində müxtəlif blokların çox böyük səlahiyyətlərə malik olan yeni beynəlxalq təsisatlar yaratmaq zəruriliyini etiraf etməyə məcbur olması, faktiki olaraq dünya hökumətinin qurulması.

6) Yeni beynəlxalq instansiyaların himayəsi altında planetar miqyaslı dövlətin (dünya hökumətinin) yaranmasının başa çatması [Нарпов, 2007, стр. 100-101].

Bu model *Frensis Fukuyamanın* mondialist optimizmi ilə *Samuel Hantinqtonun* atlantist pessimizmi arasında orta variantdır.

3.2.7. Z.Bjezinskinin "Yeni dünya nizamı" konsepsiyası

Mondialist nəzəriyyələr içərisində "Yeni dünya nizamı" konsepsiyası xüsusi yer tutur. Bu nəzəriyyə də digər mondialist yanaşmalarda olduğu kimi, ABŞ-ın yeni şəraitdə dünya hegemonu (yeni tipli ABŞ hegemonluğu) olmaq imkanlarını və yollarını əsaslandırmağa xidmət edirdi. Bu konsepsiyanın əsas yaradıcısı *Zbiqnev Bjezinski* (1928) idi. Varşavada dünyaya gəlmiş, öz polyak kökünə çox bağlı olan Bjezinski tipik amerikan ziyalısıdır. Məşhur elm xadimi, "Üçtərəfli komissiya"nın birinci direktoru olaraq, konsepsiya və nəzəriyyələr irəli sürməyə və "böyük strategiyalar" təklif etməyə çox əhəmiyyət verir. *Henri Kissinceri* əvəz edərək, Zbiqnev Bjezinski 1977-1981-ci illərdə Prezident *Cimmi Karterin* milli təhlükəsizlik məsələləri üzrə müşaviri olmuşdur. O, Qərbin Avrasiya siyasətinin və digər dünya dövlətlərinin bu regiondakı geosiyasi maraqlarının kompleks tədqiqatını aparır və gələcək dünya nizamı ilə bağlı ciddi geostrateji tövsiyələr verir. Bu tövsiyələrdə və ortaya qoyulan yeni geosiyasi konsepsiyada Bjezinski özünün əvvəlki mədəni-iqtisadi konvergensiya ideyasından bir qədər geri çəkilir.

Bjezinski ABŞ-ı və Qərbi Avropa ölkələrini kontinental Avrasiyada ciddi və uzunmüddətli geostrategiya həyata keçirməyə, operativ proqramlar hazırlamağa və tətbiq etməyə çağırırdı. Bundan başqa, o, ABŞ-a "Avrasiya şahmat lövhəsi" üzərində necə davranmanın, əsas geostrateji fiqurları necə idarə etmənin və təsir mexanizmlərini bölgədə necə yerləşdirmənin yollarını da göstərir və onları ciddi, inandırıcı dəlillərlə əsaslandırırdı. Bjezinski, həmçinin Qərb dairələrinə Avrasiyanın əsas geosiyasi mərkəzlərinə və xalqlarına necə təsir göstərmək və onlara rəhbərlik etmək, ABŞ-a isə dünyada uzunmüddətli, sabit və aparıcı rol oynamaq üçün ciddi addımlar atmağı tövsiyə edirdi.

Bjezinski *"Böyük şahmat lövhəsi. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri"* əsərində (1997) gələcək dünyanın əsas cizgilərini və ABŞ-ın hegemonluğunun yeni formulunu göstərən geostrateji doktrina irəli sürmüşdür.

Müəllifin fikrincə, XXI əsrdə yenə də dünyada əsas geosiyasi məsələ atlantist və kontinental blokların Avrasiya üzərində hökmranlıq uğrunda mübarizəsi olacaqdır.

Bjezinskinin fikrincə, dünya hegemonluğu roluna yeni minillikdə iddia edə biləcək yeganə fövqəldövlət ABŞ-dır. O, bunun üç əsas səbəbini göstərir:

Əvvəla, ABŞ, sözün həqiqi mənasında dünyanın yeganə fövqəldövləti vəziyyətindədir.

İkincisi, ABŞ dünya miqyasında bütün göstəricilərinə görə Avrasiyanın əksər aparıcı dövlətlərindən güclüdür.

Üçüncüsü, dünyanın mərkəzi meydanı hesab olunan Avrasiya artıq faktiki olaraq qeyri-Avrasiya fövqəldövlətlərinin (ABŞ və Avropa İttifaqı nəzərdə tutulur - N.M.) təsiri altına keçmişdir.

Bjezinski ABŞ-ın Avrasiya üzərindəki hegemonluğunun ciddi modelini də təklif etmişdir. O, Avrasiyanı böyük bir şahmat lövhəsinə bənzədərək onun üzərindəki fiqurların (dövlətlərin və xalqların) idarə olunmasının vahid sistemini cızmışdır.

Z.Bjezinski özünün *"Seçim: dünya hökmranlığı, yaxud qlobal liderlik"* kitabında (2004) ABŞ-ın ümumdünya rolu haqqında və fövqəldövlətçilik missiyası ilə bağlı əvvəlki geosiyasi fikirlərini bir qədər də inkişaf etdirir. O, dörd məsələ üzrə ABŞ-ın dünya hegemonluğu imkanlarını əsaslandırır. Bunlar, müəllifin fikrincə, hərbi, iqtisadi, texniki və mədəni sahədəki üstünlükləridir. Bjezinski hesab edir ki, ABŞ-ın bəhs olunan üstünlükləri onun dünyaya təsir gücünü şərtləndirir. Bu da ABŞ-ın dünya miqyasında hegemon rol oynayacağına əminlik yaradır.

Bjezinski hesab edir ki, ABŞ dünya hökmranlığına mövcud geosiyasi xaosun aradan qaldırılması, etnik, dini və d. münaqişələrin qarşısının alınması prosesində həlledici rol oynayaraq və dünyada əmin-amanlıq yaradılması yolu ilə nail ola bilər.

Bjezinski 11 sentyabr 2001-ci ildən sonra dünyada yaranmış mövcud vəziyyətdən çıxış edərək ABŞ-ın gücü ilə geosiyasi əleyhdarlarının sayı arasındakı ciddi fərqin yaranmasını, Avropa İttifaqının hərbi-siyasi birliyi ilə iqtisadi inteqrasiyası arasında uyğunsuz-

luğun mövcudluğunu, Çinin yaxın illərdə dünya prosesləri ilə deyil, daha çox özünün daxili problemlərinin həlli ilə məşğul olacağını, Yaponiyanın böyük hərbi dövlətə çevrilə biləcəyini və buna can atmasını müasir geosiyasi reallıq kimi dəyərləndirir.

Bjezinskinin *"İkinci şans: üç prezident və Amerika fövqəldövlətinin böhranı"* əsərində (2007) SSRİ dağıldıqdan və Birinci Körfəz müharibəsindən sonra ata *Corc Buş, Bill Klinton* və oğul *Corc Buşun* hakimiyyət dönəmləri geniş təhlil edilərək, qlobal antiamerika əhval-ruhiyyəsinin necə yaranması və ABŞ-ın mövcud olan qlobal hegemonluğunu necə davam etdirəcəyi və ya paylaşa biləcəyi suallarına cavab axtarılır. Müəllif ABŞ-ın xarici siyasətində qırılma nöqtələri kimi Yaxın Şərq (İsrail-Fələstin) münaqişəsində səmərəsiz vasitəçiliyi və İraqa yersiz müdaxiləni xüsusi qeyd edir. Bunlar Z.Bjezinskinin "Qlobal Balkan regionu" adlandırdığı Yaxın Şərq, Qafqaz və Mərkəzi Asiya, Kiçik Asiya və Qara dəniz ətrafında Amerikaya rəğbətin kəskin azalmasına gətirib çıxarıb. Ancaq bütün bunlara baxmayaraq, ABŞ-ın qlobal siyasətdə rolu yenə də unikal və əvəzolunmazdır.

Bjezinski həmçinin bildirir ki, ***qlobal liderlik üçün indiki dövrdə gərəkli şərtlər Amerikadan öz xarici siyasətini yeniləməyi tələb edir və bu dəyişikliklər Amerika xalqına da təsirsiz ötüşməyəcək. Amerikanın demokratik sistemə malik olduğu nəzərə alındıqda, onun konstruktiv qlobal siyasət yürütmə qabiliyyəti öz mənbəyini indi düzgün məlumatlandırılmış xalqdan almalıdır. Ancaq bunların əvəzində Amerikanı dünyaya və dünyanı Amerikaya tanıtmalı olan kütləvi informasiya vasitələri müxtəlif qorxu ssenarilərini gündəlik olaraq xalqa yaymaqda yarışa girişiblər. Nəticədə isə "özünə inanan milli ruhun yerini qorxu ilə idarə olunan bir xalq almışdır".***

Bjezinski sonda belə bir qənaətə gəlir ki, ABŞ-ın oğul *Corc Buşdan* sonrakı prezidenti *(Barak Obama)* qlobal təhlükəsizliyin əsas təminatçısı kimi Amerikanın legitimliyini bərpa etmək və Amerikanı hazırda siyasi baxımdan oyanan və imperiya hakimiyyətinə qarşı zəif olmayan bir dünyada dərinləşən sosial dilemmalara

verilən birgə qarşılıqla əlaqələndirmək üçün böyük əmək sərf etmək məcburiyyətində qalacaq. Amerikanın təcili olaraq "soyuq müharibə"dən sonrakı dövrə aid həqiqi bir qlobal xarici siyasət formalaşdırmağa ehtiyacı var. Z.Bjezinski hesab edir ki, Amerikanın 2008-ci ildən başlamış ikinci şansının əvvəlkindən daha uğurlu olması çox vacibdir, çünki onun üçüncü şansı olmayacaq.

Bjezinskinin yeni geosiyasi doktrinasının əsas məsələlərindən biri də ABŞ-ı dünyada son illərdə güclənmiş anti-Amerika əhval-ruhiyyələrinə qarşı ciddi tədbirlər görməyə çağırmasıdır. O hesab edir ki, ABŞ dünyada nüfuzunu artırmaq üçün qloballaşmanın müxtəlif modellərinə, demokratiyanın ayrı-ayrı bölgələrdə tətbiqinə və s. məsələlərə incə şəkildə və daha diferensial formada yanaşmalıdır.

Bjezinski, eyni zamanda, İraqda və dünyanın digər bölgələrində həyata keçirilən müxtəlif antiterror əməliyyatlarında yaranmış fikir ayrılıqlarına baxmayaraq, ABŞ-ın Avropa ilə öz əlaqələrini bundan sonra da qorumağı və münasibətləri yaxşılaşdırmağı məsləhət görür. O, qeyd edir ki, ABŞ Avropanın maraqlarını nəzərə almalı, onunla birlikdə olmalı, lakin hegemon mövqelərini də əldən verməməlidir.

3.2.8. Amerika siyasətşünası Ayr Strausun unipolyar[1] dünya konsepsiyası

Ayr Straus 1985-ci ildən 1991-ci ilə qədər "Demokratiyaların birləşdirilməsi uğrunda assosiasiya" - atlantik-unipolyar təşkilatının icraçı direktoru olmuşdur. O, 1990-cı illərdə NATO-nun "soyuq müharibə"dən sonrakı vəziyyətə adaptasiyası məsələləri ilə məşğul olan qurumda Şərqi Avropa və Rusiya üzrə komitənin ABŞ tərəfdən koordinatoru kimi də fəaliyyət göstərmişdir.

Straus *bir-birinə qarşı müharibə aparmaq fikrində olmayan dövlətlərin qüvvə balansını göstərən* **qlobal unisahələri** ayırmışdır. Onun fikrincə, dünya geosiyasi məkanlarının inkişaf mərhələləri

[1] Uni... (lat. *unus* - bir) - mürəkkəb sözlərin bir, vahid, ümumi mənalarını bildirən tərkib hissəsidir (unirema, unifikasiya və s.). Unipolyar (təkqütblü) dünya dedikdə, SSRİ-nin "soyuq müharibə"dəki məğlubiyyətindən sonra ABŞ-ın dünyadakı üstünlüyünün geosiyasi modeli nəzərdə tutulur.

çoxqütblülükdən ikiqütblülüyə, sonra isə təkqütblülüyə yol açır. **Qlobal unisahə üçmərkəzli məkan quruluşuna malikdir,** yəni ona ABŞ, Avropa İttifaqı və Yaponiya kimi üç mərkəz daxildir. Bununla yanaşı, hərbi və iqtisadi ittifaqın üçtərəfli sistemi ABŞ ətrafında cəmləşmişdir.

Straus qeyd edir ki, ABŞ-ın liderliyi bir dövlətin tabeliyində olub müqavimət göstərən tərəfdaşları üzərində hökmranlığı yox, özü ilə bərabər dostları arasında birinci olmaq xarakteri daşıyır. Qərb unisahəsi dünyaya baxışın çoxqütblülükdən ikiqütblülüyə və təkqütblülüyə dəyişməsinin bütün mərhələsində eyniyyətini, bacarıq və strukturlarını artırmışdır. Strausun düşüncələrində çox mühüm an odur ki, praktik olaraq ən güclü müasir demokratiyaları unisahə ilə eyniləşdirir. O yazır ki, *XX əsrdə demokratiya dünyada ən kövrək təsirdən ən qüvvətli gücə çevrilmişdir [Cmpayc, 1997, cmp. 30].*

Sonra Qərb unisahəsi sınaqlardan keçdi. 1949-cu ildə NATO yarandıqdan sonra Böyük Britaniya, Fransa və ABŞ bir-biri ilə mümkün müharibə ehtimallı planlar qurmadılar. Onlar bir-birinin qüdrətini özlərinə əlavə kimi qəbul etməyə başlamışdılar. Almaniya və Yaponiya əsas etibarilə NATO və az dərəcədə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı vasitəsilə reallaşdırılmış möhkəmlənən unisahə çərçivəsində dirçəldildi. Straus qeyd edir ki, ABŞ 1941-1945-ci illərdə Britaniya imperiyasının parçalanması üçün çox şey etmişdir. ABŞ-ın bu münasibəti "soyuq müharibə" zamanında da qalırdı. Bu, Süveyş böhranı (1956) zamanı son həddə çatdı.

Onun fikrincə, Şərq monarxiyaları tədrici təkamülü müasir liberal dövlət istiqamətində qəbul edərək Qərblə tam ideoloji üzülüşmədən vaz keçdilər. Bununla belə, anti-Qərb ideyalarına meyil inadla qorunur. Hətta hər iki dünya müharibəsində müəllif Qərb və Şərq arasında qütbləşmə görür. "Soyuq müharibə" dövründə dünya nizamı yerfındığını xatırladırdı (*bax:* **xəritə-sxem 13).**

A.Straus hesab edir ki, dünya sivilizasiyasının bundan sonra yaşaması üçün Rusiyanın unisahə tərkibinə daxil olması çox vacibdir. Bu halda unisahənin nəhəng ehtiyatları uzun zaman kollektiv qlo-



Xəritə-sxem 13. ***A.Strausa görə dünyanın geosiyasi quruluşu***

A - "soyuq müharibə" dövründə dünya nizamında əks sistemlər (yerfındığına bənzər quruluş); **B** - dünya nizamının təkqütblü konsentrik quruluşu;

1 - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı; **2** - Şimali Atlantika İttifaqı; **3** - Avropa İqtisadi Birliyi; **4** - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı; **5** - Rusiya; **6** - SSRİ; **7** - Ümumdünya Ticarət Təşkilatı; **8** - Qarşılıqlı İqtisadi Yardım Şurası; **9** - Varşava Müqaviləsi Təşkilatı; **10** - Dünya maliyyə sahələrində Bretton-Vuds sazişləri sistemi; **11** - Birləşmiş Millətlər Təşkilatı; **12** - Müstəqil Dövlətlər Birliyi; **13** - Şimali Atlantika İttifaqı "Sülh naminə tərəfdaşlıq" koordinasiya şurası.

bal liderliyi mühafizə edər. Yox, əgər Rusiya unisahəyə daxil olmasa, onda qlobal liderlik mövqeyi uzun zaman mühafizə olunacaqdır. Bununla yanaşı, Qərbin təkqütblülüyü qlobal qüdrətin əsas strukturu olacaqdır. Lakin bu artıq dünyada sabitliyi təmin etməyə qabil kifayət qədər geniş bazası olan Rusiyasız olacaqdır.

Dünya birliyi Rusiyanı xarici işlər naziri *A.Kozırev*dən sonra onun müəyyən etdiyi xarici siyasi kursa əsaslanaraq millətçiliyə get-gedə daha çox meyil göstərən və ona görə də cidd-cəhdlə dünyanın çoxqütblülüyünü təbliğ edən mühafizəkar ölkələrə aid edir. Bu, sözsüz, Rusiyanın ABŞ-ın strateji müttəfiqi olması təsəvvürləri ilə tamamilə ziddiyyət təşkil edir. Strausa görə, Rusiya real siyasətində Çin və İranla münasibətlərin get-gedə daha çox möhkəmlənməsinə çalışır, kifayət qədər fəal surətdə ABŞ-ın strateji rəqiblərinə silah satır. Çinə gəldikdə isə, müəllif onun unisahəyə daxil olmasını ən yaxşı halda kifayət qədər uzunmüddətli perspektivdə görür.

Strausun fikrincə, təkqütblülüyün tənqidi gizli, yaxud aşkar şəkildə regional olmasa da qlobal mərkəzlər roluna iddia edən dünyanın nəhəng periferiyasının öz mərkəzləri ilə birlikdə hara aid edilməsi məsələsinin qaranlıq olaraq qalmasına gətirib çıxara bilər.

3.2.9. Y.Qaltunqun "təkqütblü dünya məkanının yeddi paraleli haqda" fərziyyəsi

Məşhur Skandinaviya tədqiqatçısı-politoloqu Yohan Qaltunq (1930) *dünyanı "soyuq müharibə" qurtarandan sonra daha mürəkkəb və diaqnozu çətin təyin edilən fenomen kimi qiymətləndirir.* Onun qənaətinə görə, "soyuq müharibə" dövlətlərin siyasi elitalarının müəyyən siyasi konstruksiyalar yaratmaq işinə stimul verirdi. Bu zaman dünyanın digər bütün siyasətlərini kölgədə qoyan, ölkədən-ölkəyə, elitadan-elitaya o qədər də dəyişməyən üç *supersiyasət* mövcud idi.

- **Birincisi,** supergüc - ABŞ-ın rəhbərliyi ilə öz blokuna söykənərək kommunizmlə mübarizə aparan **Qərb siyasəti.** Qərb siyasəti bütün müharibə meydanlarında hərbi üstünlüyü nəzərdə tutur, demokratiyaya və bazar iqtisadiyyatına əsaslanırdı.

- **İkincisi,** SSRİ-nin başçılıq etdiyi bloka söykənərək imperializmlə mübarizə aparan **Şərq siyasəti.** Qaltunqa görə, Şərq siyasəti ən geniş mənada hərbi pariteti nəzərdə tutur, idarəçilik sisteminin əsasını təşkil edən təkpartiyalılığa və planlı iqtisadiyyata əsaslanırdı.
- **Üçüncü** siyasət **birləşməmiş Üçüncü dünyanın, yəni inkişaf etməkdə olan ölkələrin siyasətidir,** onlar heç bir blokun üzvü və heç bir supergücün "müştərisi" deyildilər. O dövr, Üçüncü dünyada "müxtəlif çeşidli" demokratiya ilə milli dövlətlərin quruculuğu gedirdi. Üçüncü dünya ölkələri bəzən iki dünya supergücünü bir-birinə qarşı qaldırırdılar.

Belə vəziyyət 40 il, yəni 1949-cu ildə NATO və 1955-ci ildə Varşava Müqaviləsi Təşkilatının yaradılmasından, ta 1989-cu ildə Berlin divarının yıxılmasına qədər davam etmişdir. Sosialist blokunun dağılması və onun rəmzi ifadəsi - Berlin divarının sökülməsi dünyada geosiyasi vakuum yaratdı. Əgər hadisələrin gələcək inkişafı keçmişin bitməmiş siyasətinin davamı, yəni imitasiyası kimi üzə çıxsa, onda bu, müharibə və ona hazırlıq siyasəti olacaqdır. Lakin bu kifayət qədər ümumi formuldur. Ona görə Qaltunq geosiyasi qüvvələrin özünü aparmasının mahiyyətcə daha dərin ssenarisini təklif etmişdir.

"Soyuq müharibə"dən sonra siyasi problemlər Qərbdə, Şərqdə və Üçüncü dünyada müxtəlif cür görünür. Hər üç dünya üçün geosiyasətin daha yüksək səviyyədə sinxronlaşdırılması ümumi və aktual problemdir. Dünya siyasətinin asinxronizasiyası hətta iqtisadi cəhətdən güclü dövlətlər üçün çox məsrəf tələb edəndir. Bu, keçmişin siyasəti idi, amma istisna deyil ki, gələcəkdə lazım olan məbləği ödəməyə hazır olan çox güclü və nüfuzlu ölkələr tapılacaqdır.

Qaltunqun təhlilində Qərb son 50 ildə kifayət qədər açıq geosiyasəti ilə seçilir. Bu siyasət ona yönəldilmişdi ki, "dünya siyasətində din daxil olmaqla Qərb izi qoyulsun, dünyada iqtisadi vasitələrdən istifadə edilsin, siyasi yolla idarə olunsun və əgər bütün əvvəlki məqsədlər puç olarsa, dünya hərbi nəzarət altında saxlanılsın" *[Galtung, 1994, p. 199].*

Nasist Almaniyası, faşist İtaliyası, İspaniyası və Portuqaliyası ilə bir düşərgədə olan döyüşkən və kifayət qədər qapalı Yaponiya ilə ziddiyyətlərin çözülməsi baxımından İkinci Dünya müharibəsi Qərb üçün çox mühüm idi. "Soyuq müharibə" isə Qərbin sosialist blokunun geniş meydan oxuması ilə konfrontasiyasının ifadəsi idi. Qərb üçün İkinci Dünya müharibəsindən sonra bütün geosiyasət uğurla başa çatdı. Lakin bu, gələcəkdə Qərblə konfrontasiyada yeni namizədlərin istisnası demək deyildi.

Qaltunqa görə, iki belə namizəd mövcuddur. İkinci dünyanın (sosialist düşərgəsinin) əvəzinə Üçüncü dünya, yəni inkişaf etməkdə olan - Latın Amerikası, Ərəb dünyası, Qərbi Asiya, Cənubi Asiya, həmçinin ikinci namizəd - Cənub-Şərqi və Şərqi Asiyanın simasında Dördüncü dünya yarandı. Qaltunq bura digərləri ilə yanaşı Çin, hər iki Koreya, Vyetnam və Yaponiya kimi nəhəng gücləri daxil edir. Qaltunq hesab edir ki, Dördüncü dünya öz iqtisadi inkişafına görə hazırda Qərblə, yəni Birinci dünyayla yarışır.

Qərbin real siyasəti Qərb mədəniyyətinə, lakin, ilk növbədə, paradiqmalar kimi neoklassik iqtisadi nəzəriyyələrdən istifadə daxil olmaqla iqtisadi müdaxiləyə, həmçinin Qərbin Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı vasitəsilə nəzarət edilən siyasi idarəetməyə əsaslanır. Bu siyasət çarəsiz qaldıqda, daha çox ABŞ-ın hərbi potensialına əsaslanan döyüş əməliyyatı ilə müşayiət olunacaqdır. 1980-ci illərin əvvəllərində ABŞ istehsalı olan silahlar dünyadakı silahın 25%-ini təşkil edirdi, 1990-cı ildə bu rəqəm 30%-ə çatdı, 1997-ci ilədək 47, XX əsrin sonuna kimi isə dünyada silahlanmanın 50%-ə qədər genişlənməsi nəzərdə tutulurdu *[Galtung,1994, p. 209]*.

Haşiyə: *dünyada hərbi xərclərin sonrakı illəri əhatə edən artım tempi qrafik təsvirdə (bax:* ***cədvəl 13****) göstərilmişdir.*

Müəllif bütün göstəricilərə görə Qərb dünyasının qarşısında mühüm hissələrdən biri kimi (dövlət) olmadan federativ superdövlət yaratmaq vəzifəsi qoymuş *Avropa Birliyinin siyasətini* önə çəkir. Məlumdur ki, Avropa Birliyinin ABŞ-dan asılılığının azalması birləşmiş Avropanın geosiyasətində dəyişikliyə səbəb ola bilər ki,

bu da dünya hegemonluğu uğrunda mübarizəyə (hegemonların hegemonu kim olacaq) çevrilə bilən Avropa Birliyi və ABŞ arasında münaqişə ilə nəticələnər.

Qaltunq qeyd edir ki, *Yaponiya geosiyasəti*nin Qərbin bir hissəsi kimi qiymətləndirilməsində tez-tez səhvə yol verilir, düşünülür ki, ölkə həmin (Qərb) geosiyasət yolu ilə gedir. Əslində, bütün tarixi boyu yapon geosiyasətinin iki aspekti nəzərə çarpır: 1) yaxın qonşuları üzərində üstünlüyü təmin etmək, 2) öz layihələrinin Asiyada həyata keçirilməsinə nail olmaq. Sonuncu aspekt iki müharibəyə gətirib çıxarmışdır: 1904-1905-ci illərdə Rusiyaya qarşı və 1941-1945-ci illərdə metropoliya ölkələri Böyük Britaniya, Fransa, Niderland, Portuqaliya və ABŞ-a qarşı. Müəllifin fikrincə, Yaponiya hesab edir ki, ABŞ-dan başqa adıçəkilən ölkələrlə münasibətdə məqsədlərinə çatmışdır. Çünki ABŞ Asiya-Sakit okean regionunda əsas müstəmləkəçi qüvvə deyildi.



Cədvəl 13. **Dünya hərbi xərcləri** *(1988-2010-cu illər)*

Qaltunqa görə, *keçmiş SSRİ məkanında* bir çox cəhətdən Vilson siyasətini (ABŞ Prezidenti *V.Vilsonun* adı ilə adlandırılmışdır), yaxud Avstriya-Macarıstan imperiyasının dağıldığı dövrdəki milli təyini müqəddərat siyasətini xatırladan "siyasi formul hakimdir". Qaltunq müasir Rusiyanı "ən adi ölkə" hesab edir. O, gələcəkdə bu ölkənin geosiyasətinin Rusiya, Belarus, Şərqi Ukrayna və Şimali Qazaxıstan daxil olmaqla yeni Sovet İttifaqı yaratmaq cəhdində slavyan mədəniyyəti və pravoslav kilsəsinə əsaslanacağını istisna etmir. Birinci dünya ölkələrinin keçmiş müstəmləkəsi olan Üçüncü dünya ölkələrinin geosiyasəti artıq iki fövqəldövlət arasındakı ziddiyyətlərin siyasi oyunu deyil. Burada müasir geosiyasətin formalaşmasını siyasi endogen elementlər müəyyənləşdirir. Bu zaman iqtisadiyyatın və siyasətin milli liberallaşdırılması müəyyənedici element kimi çıxış edir.

Qaltunq *Üçüncü dünya hüdudlarında 3 əsas geosiyasi mərkəzi müəyyənləşdirir:* Qərbi Asiya, Hindistan, Çin.

Qərbi Asiyanın ərəb hissəsi yox, məhz Türkiyə, keçmiş Sovet İttifaqının 6 müsəlman respublikası (fars dili işlənən Tacikistan istisna olmaqla hamısında türk dillərindən birində danışırlar), İran, Pakistan və Əfqanıstan "soyuq müharibə"dən sonra siyasi vakuumu islamla doldururlar. Qərb isə bunu fundamentalizm kimi təfsir edir. Doğrudur, Türkiyə yeritdiyi geosiyasətlə Avropa Birliyinin müsəlman ölkəsi kimi üzvü olmağa can atır. Əgər buna müvəffəq olmasa, onda Türkiyə ərəb dünyasında yerləşməyən, amma Balkanları əhatə edən, əvvəlki Osmanlı imperiyası bazasında öz ittifaqını yaratmağa cəhd göstərə bilər.

Ərəb dünyası Fələstin daxil olmaqla 22 ölkədən ibarətdir. Onlardan bəziləri ikili, yəni islamçı və panərəb geosiyasəti yürüdür. Qaltunq bununla bağlı belə şərh verir: "bir siyasət uğur qazanmadıqda, digəri daha da fəallaşır" *[Galtung, 1994, p. 203].*

Hindistan ağır günlər keçirir. Bu ölkədə sərbəst bazara əsaslanan cəmiyyət quruculuğu siyasətini formalaşdıran hələ çoxlu Qərb təsiri və elita qalır. Bu yolda uğursuzluq əhalidə etiraz dalğasını yarada bilər. Amma onda öz kökləri ilə mədəniyyətə gedən daha güc-

lü siyasət - hinduizm həyata keçə bilər. Lakin bu siyasət də dini azlıqlarla, xüsusən müsəlmanlarla və sikhlərlə qarşıdurma yaradacaqdır.

Qaltunq hesab edir ki, *Çin siyasətini* orada qurulmaqda olan "gizli kapitalizm" müəyyənləşdirəcək. Kapitalist ölkəsi isə xüsusilə sərhədləri xaricində olan xammal bazasını və bazarlarını qoruyaraq genişlənməlidir. "Bütün kapitalist ölkələri kimi Çin öz iqtisadi dövrələrini qorumalı və lazım olarsa buna öz hərbi gücünü də cəlb etməlidir" *[Galtung, 1994, p. 204].*

Qaltunq "soyuq müharibə"dən sonra geosiyasi vəziyyəti təhlil edərək nəticədə *qlobal, yaxud regional hegemonluğa iddialı olan 7 mərkəz müəyyən edir:*

- *Qərb yarımkürəsində və Orta Şərqdə (ilk növbədə İsrail) açıq-aşkar cəhdlərlə hegemonların hegemonu olmaq istəyən ABŞ.* Lakin tamamilə aydındır ki, ABŞ hazırkı şəraitdə dünya fəaliyyətinin qanun və normalarını təkbaşına müəyyən etmək gücündə deyildir.
- Fövqəldövlət olmağa can atan və Rusiya ilə Osmanlı imperiyaları arasındakı keçmiş ziddiyyətlərdən istifadə etməyə çalışan *Avropa Birliyi.* Avropanın vahid beynəlxalq siyasət yeridəcəyi istisna deyildir. Nüvə silahına malik olan Fransa və Böyük Britaniya, sözsüz, yalnız öz milli və dini maraqlarını deyil, həm də dünya maraqlarını müdafiə edəcəklər. Almaniya qüdrətli iqtisadi dövlət kimi təmsil olunur və onun siyasi nüfuzu daim artacaqdır.
- *Rusiya və digər MDB ölkələri,* həmçinin ola bilsin gələcəkdə Mərkəzi-Şərqi Avropanın pravoslav və slavyan köklü hissəsi.
- *Türkiyə və o qədər güclü olmayan islam təzyiqi ilə birləşmiş 10 ölkə* öz siyasəti ilə MDB-nin və bəlkə də Rusiyanın parçalanmasına təsir göstərəcəkdir.
- Bir sıra ölkələri hinduizm əsasında birləşdirən *Hindistan* Cənubi Asiyada öz nüfuzunu gücləndirəcəkdir.

• Sürətlə inkişaf edən istehsaledici qüvvələri və artan hərbi potensialı ilə *Çin* dao-buddist-konfusian dövlət-sivilizasiya kimi öz geosiyasi nüfuzunu yaymağa çalışacaqdır.

• *Yaponiya* sinto-buddist-konfusian ölkə kimi, görünür, təkcə iqtisadi dünya nüfuzuyla kifayətlənməyəcəkdir.

Yeddiqütblü dünyadan yox, təkqütblü dünyanın yeddi paralelindən danışmaq daha peşəkar yanaşma olardı. Məsələ ondadır ki, yeddi mərkəzdən altısı "hegemonlar hegemonu ABŞ-la müəyyən mənada əlaqələndirilmişdir" *[Galtung, 1994, p. 207]*. Yeddi hegemondan 4-ü artıq tanınıb - ABŞ, Yaponiya, Hindistan və Çin, 3-ü isə, o cümlədən Rusiya hələ tanınmayıb. Yeddi hegemondan hər birinin şəxsi periferiyaları ilə böyük problemləri var, ya da ola bilər. Şimali Qafqazda, Çinin ucqarlarındakı (Tibet, Sinszyan) hadisələr buna misaldır.

Qaltunq mümkün (hərdən ağlagəlməz təsir bağışlayan) geosiyasi koalisiyaları proqnozlaşdırır. Məsələn, potensial ABŞ+Avropa Birliyi+Rusiya daxil olmaqla keçmiş Varşava müqaviləsi ölkələri Çin+Yaponiya+Koreyalar+Vyetnama qarşı birləşə bilər.

Bu yeddi mərkəzin digər altısında fundamentalizmin aşkar ediləcəyi vəziyyət də mümkündür. Çünki onların hamısı öz kökləri ilə qədim sivilizasiyalara gedib çıxır. Yeddisində də kapitalist iqtisadiyyatı mövcuddur və bu səbəbdən bazar və xammal uğrunda çarpışma yolunda durublar.

3.2.10. Bihevioristgeosiyasət

Müasir mondialist geosiyasət məktəbinin digər bir qrupu bihevioristnəzəriyyə təlimindən çıxış edərək bəşəriyyətə beynəlxalq münasibətlərin daha liberal modelini təklif etmişdir. Müəlliflər *Z.Bjezinskinin* "xalqların şahmat lövhəsi üzərindəki mövcud yerinə və fərqli düzülüşünə" toxunmadan müxtəlif iqtisadi, mədəni və hərbi-siyasi quruluşlara məxsus ölkələr və ölkə qrupları arasındakı ayırıcı sərhədləri sərbəst şəkildə aşmaq qabiliyyətinə malik yeni, liberal münasibətlər təklif edirdilər. Liberal əlaqələrdə əsas üstünlük ideoloji və geosiyasi amillərə deyil, daha çox texniki amillərə, kütləvi əlaqə kommunikasiyalarına və birləşdirici vasitələrə verilir.

3.4. Tətbiqi geosiyasət

3.4.1. İv Lakostun "daxili geosiyasət" məktəbi

Avropada geosiyasi renessans 1976-cı ildə "Herodot" adlı jurnalın əsasını qoymuş coğrafiyaçı İv Lakostun (1929) fəaliyyəti ilə bağlıdır. Müharibədən sonrakı dövrdə Avropada geosiyasi məzmunlu mətnlər müntəzəm olaraq ilk dəfə bu jurnalda dərc edilməyə başlamışdır. Qeyd etmək lazımdır ki, həmin jurnala rəhbərlik edən şəxs solçu siyasi dairələrə yaxın idi. O vaxta qədər isə Avropada geosiyasətlə yalnız kifayət qədər marginal vəziyyətdə olan sağçı millətçi dairələr məşğul olurdu.

1983-cü ildə "Herodot" jurnalının adından sonra "coğrafiya və geosiyasət jurnalı" yarımbaşlığı əlavə edildi. Bu andan etibarən geosiyasətin ikinci həyatı başlanır, o, vəziyyətin kompleks şəkildə təhlilinə kömək edən ayrıca politologiya fənni kimi rəsmən tanınır.

İv Lakost geosiyasi prinsipləri müasir şəraitə uyğunlaşdırmağa çalışır. Lakost özü nə kontinentalist məktəb üçün səciyyəvi olan "orqanisist yanaşmaya", nə də "Dəniz qüdrəti" ideoloqlarının xalis praqmatik və mexanisist geosiyasi utilitarizminə şərik çıxır. Onun fikrincə, geosiyasi mülahizələr yalnız *"hakimiyyət instansiyalarının müəyyən ərazilər və orada məskunlaşan insanlar barəsində rəqabət cəhdlərinə haqq qazandırmağa xidmət edir"* [Lacoste, 1993]. Bu, həm beynəlxalq münasibətlərə, həm də məhdud regional problemlərə aid ola bilər.

Lakostun nəzərincə, geosiyasət yalnız konkret şəraitin təhlil edilməsi üçün alətdir, bu fənnin əsasını təşkil edən bütün qlobal nəzəriyyələr isə tarixən şərtlənmiş nisbi anlayışlar dərəcəsinə enir. Beləliklə, Lakost geosiyasətə tamamilə yeni tərif verərək, əslində, yeni bir yanaşma təklif edir. Bu, artıq fundamental planetar sivilizasiya - coğrafi dualizmə əsaslanan və qlobal ideoloji sistemlərlə bağlı kontinental təfəkkür deyil, lakin ənənəvi geosiyasətçilərdə ümumi kontekstdə mövcud olan və bu halda müstəqil modellər kimi nəzərdən keçirilən bəzi metodoloji modellərdən istifadə edilməsi zərurətidir. Bu, geosiyasətin *"qloballaşmadan azad edilməsi"*, onu məhdud analitik metoda çevirmək deməkdir. Bu cür geo-

siyasət yalnız və müstəsna olaraq lokal problemlərlə məşğul olduğuna görə onu "daxili geosiyasət" (la geopolitique interne) adlandırırlar.

3.4.2. Elektoral geosiyasət

Bu cür daxili geosiyasətin növlərindən biri əhalinin və onun məskunlaşdığı ərazinin siyasi rəğbət və nifrəti arasında əlaqələri öyrənmək üçün işlənib hazırlanmış xüsusi metodikadır. Problemə bu cür yanaşmanın banisi fransız siyasi xadimi və coğrafiyaşünası *Andre Ziqfrid* (1875-1959) olmuşdur. "Daxili geosiyasət"i bu və ya digər regionların siyasi rəğbət və ya nifrət obyektlərinə tətbiqən araşdırmaq cəhdləri ona məxsusdur. İv Lakostun yeni məktəbinin "elektoral geosiyasət"in əsasını təşkil edən qanunauyğunluqları ilk dəfə Ziqfrid tərəfindən ifadə edilmişdir.

Ziqfrid yazırdı: *"Hər bir partiyanın, daha doğrusu, hər bir siyasi cərəyanın imtiyazlı ərazisi var; asanlıqla görmək olar ki, geoloji və ya iqtisadi regionlar mövcud olduğu kimi, siyasi regionlar da mövcuddur. Siyasi iqlimi də təbii iqlim kimi öyrənmək olar. Mən fikir vermişəm ki, aldadıcı zahiri təsəvvürlərə baxmayaraq, ictimai rəy regionlardan asılı olaraq öz sabitliyini qoruyub saxlayır. Siyasi seçimlərin daim dəyişən mənzərəsi arxasında regional temperamenti əks etdirən daha dərin və daha sabit meylləri müşahidə etmək olar" [Siegfried, 1913, p.74].*

Lakostun məktəbində bu nəzəriyyə sistematik şəkildə inkişaf etdirilmiş və siyasi praktikada geniş istifadə edilən adi sosial vasitəyə çevrilmişdir.

3.4.3. Mediakratiya geosiyasi amil kimi

İv Lakost informasiya cəmiyyətinə xas olan ən yeni meyarları geosiyasətə tətbiq etmək vəzifəsini qarşıya qoymuşdu. Geosiyasi proseslərə birbaşa təsir göstərən informasiya sistemləri arasında ən əhəmiyyətlisi kütləvi informasiya vasitələri, xüsusən televiziyadır. Müasir cəmiyyətdə konseptual-rasional yanaşma deyil, obrazın (imicin) parlaqlığı üstünlük təşkil edir. Buradan da Lakostun məşhur *"elektoral çağırış"* ideyası meydana gəlmişdir: "Ürəyinin səsinə səs ver!" (daha doğrusu, "Ürək var - ağıla ehtiyac yoxdur"). Cəmiyyətin xeyli hissəsində siyasi, ideoloji və geosiyasi baxışlar yalnız telekommunikasiyalar əsasında formalaşır. Mediatik obraz eyni vaxtda bir neçə yanaşmanın - etnik, mədəni, ideoloji və siyasi yanaşmaların cəmləşdiyi atomar sintezdir. İmicin sintetik keyfiyyəti onu ənənəvi geosiyasətin obyektləri olan kateqoriyalarla yaxınlaşdırır.

Məsələn, Amerika sakininə, haqqında heç nə bilmədiyi hər hansı qaynar nöqtədən informasiya reportajının təqdimatı zamanı jurnalist ən qısa müddətdə həmin regionun coğrafi, tarixi, dini, iqtisadi, mədəni, etnik profilini təqdim etməli və konkret siyasi məqsədə uyğun olaraq müəyyən aksentləri qabartmalıdır. Beləliklə, jurnalistin (xüsusən televiziya jurnalistinin) peşəsi geosiyasətçinin peşəsinə yaxınlaşır. **Müasir cəmiyyətdə kütləvi informasiya vasitələri əvvəlki kimi xalis köməkçi rol oynamır, onlar xalqların tarixi talelərinə güclü təsir göstərməyə qadir olan müstəqil geosiyasi amilə çevrilir** *[Нарпов, 2007, стр. 111-112].*

3.4.4. Geosiyasətin tarixi

Avropa geosiyasətinin ümumi "intibah" prosesi çərçivəsində daha bir istiqamət - geosiyasətin tarixi istiqaməti mövcuddur. Bu istiqamət sözün geniş mənasında geosiyasi xarakter daşımır, çünki o, həmin fənnin tarixi konstruksiyasını yeniləşdirmək, mənbələrlə işləmək, biblioqrafik məlumatları xronoloji ardıcıllıqla sistemləşdirmək kimi məsələləri qarşıya qoyur. Bu, müəyyən mənada aktual vəziyyətə münasibətdə hər hansı nəticələr çıxarmağa və ümumiləşdirmələr aparmağa iddia etməyən "muzey yanaşması"dır. Bu tarixi istiqamət, ilk növbədə, *Pyer-Mari Qallua, Erve Kuto-Beqari, Hans-Adolf Yakobsen* və başqa müəlliflərin əsərləri ilə təmsil olunmuşdur.

Tarixi geosiyasətçilərdən *Makinder, Mehen, Çellen, Haushofer* və başqalarının əsərləri bu təşəbbüs çərçivəsində dərc edilir və təkrar nəşr olunur.

Bu cür tarixi tədqiqatların nəticələri çox vaxt Fransada çıxan "Herodot" jurnalında və İtaliyada *Luço Karaççolo* və *Mişel Korinman* tərəfindən Lakostun iştirakı ilə nəşr edilən "Limes" adlı geosiyasi jurnalda çap olunur.

3.4.4.1. Qalluanın geosiyasi baxışları

Pyer-Mari Qallua (1911-2010) fransız hərbi hava qüvvələrinin generalı, nüvə silahı üzrə mütəxəssis, professor və beynəlxalq münasibətlər və geosiyasətə dair bir sıra monoqrafiyaların müəllifidir. O, hesab edir ki, **dünyanın geosiyasi təkamülünün müasir fazası onda nüvə-raket silahının aparıcı rolu ilə xarakterizə olunur.** Ona malik olma coğrafi şəraitindən, əhalisinin sayından, ərazisinin ənənəvi fiziki-coğrafi şərtlərindən asılı olmayaraq nüvə dövlətlərinin qüvvələrini bərabərləşdirir.

Digər mühüm fərqləndirici cəhət **ənənəvi geosiyasətin nəzərə almadığı "insanların kütləvi davranışıdır".** O, bunu nəzərə almağa borcludur, çünki kütləvi informasiya vasitələri və rabitənin inkişafı, eləcə də əhalinin siyasətə bilavasitə qatılması bəşəriyyəti, Qalluanın qeyd etdiyi kimi, yalnız nüvə kataklizmi aqibəti ilə müqayisə olunacaq nəticələrə gətirə bilər. Xüsusilə terrorçuların kütləvi qırğın silahına yol tapmasının mümkünlüyü təhlükəlidir. Qeyd edilməlidir ki, bəzi hökumətlər terrorizmə təşviq siyasəti yürüdür və onların ölkələri terrorçu yuvasına çevrilirlər.

Ənənəvi geosiyasəti öyrəndikdən sonra Yer məkanları Quru və Dənizlə məhdudlaşır. Müasir geosiyasi vəziyyət isə çox şeydə kosmik məkanın hazırda və gələcəkdə öyrənilməsi ilə müəyyən olunur.

Bu və bir sıra digər yeni amillərin birgə effekti elədir ki, əgər ənənəvi geosiyasətin subyekti və obyekti dövlətlər-millətlər idisə, indiki zamanda ümumi, birgə, kollektiv fəaliyyət terminləri ilə, yəni bəşəri terminlərlə düşünmək vacibdir.

P.Qallua geosiyasətin təkamülünü 3 tarixi fazaya ayırmışdır:

- İnsanlığın inkişafının erkən mərhələlərindən birinci sənaye inqilabınadək **protogeosiyasət** *coğrafi fatalizmlə* seçilirdi.
- Başlanğıc nöqtəsi sənaye inqilabı olan yeni faza - **insanın təbii ətraf mühiti yırtıcı istismarı,** bəşəriyyətin mövcudluğunun özünə təhlükə yaradaraq qlobal problemlərin kəskinləşməsinə gətirib çıxaran **təbiətin dəyişdirilməsi.**
- Üçüncü fazada bumeranq qayıdır: təbiət "əvəz çıxır", dövlətləri və siyasətləri "özü ilə hesablaşmağa" məcbur edir. Bunun

üçün də əsasında gələcək nəsillər üçün sivilizasiyanın xilası duran ümumplanetar geosiyasətin hazırlanması və həyata keçirilməsində beynəlxalq ictimaiyyətin bütün formal və qeyri-formal üzvlərinin uzlaşdırılmış fəaliyyətlərinin zəruriliyi meydana çıxır. Bu, **geosiyasətin qeyri-konfrontasion tipi**dir. Bununla yanaşı, Qallua qeyd edir ki, geosiyasətin predmetinin mahiyyətinin itirilməməsi vacibdir. Bunun üçün də o, bu təlimin köhnə tərifinin - "Beynəlxalq planda mövcud olan səlahiyyətli siyasətlə yürüdüldüyü coğrafi çərçivələr arasındakı münasibətlərin öyrənilməsinin" *[Gallois, 1990, p. 37]* - saxlanılmasını təklif edir.

3.4.5. "Tətbiqi geosiyasət" - yeni geosiyasi anlayış

İv Lakost, Mişel Korinman, Pol-Mari dö la Qors və başqa tanınmış mütəxəssislər tərəfindən inkişaf etdirilən tətbiqi (praktiki) və ya "daxili geosiyasət" müasir Avropa politologiyası üçün səciyyəvidir. O, bilərəkdən konseptual ümumiləşdirmələrdən və futuroloji araşdırmaladan yan keçir. Fransa və İtaliyada xüsusilə inkişaf etmiş bu istiqamətin ABŞ-da və İngiltərədə mövcud olan mondialist məktəblərdən prinsipial fərqi bundan ibarətdir.

"Tətbiqi geosiyasət"in "kontinentalist" ənənələri, onun tarixi, müharibədən əvvəlki geosiyasətlə əlaqəsi, atlantizm və mondializm ilə müqayisədə qat-qat zəifdir. Bu, xalis analitik, politoloji, sosioloji metodikadan başqa bir şey deyildir. Buna görə də onunla geosiyasətçilərin planetar qlobal layihələri arasında fərq qoyulmalıdır. Əslində, yalnız terminologiya və bəzi metodlar sayəsində birbirinə yaxınlaşan iki fənndən söhbət gedir. "Tətbiqi geosiyasət" geosiyasi dualizmi təkzib etməklə, onu vaxtı keçmiş və ya əhəmiyyətsiz, yaxud sadəcə olaraq əsas öyrənmə predmetinin çərçivəsindən kənara çıxan bir şey hesab etməklə, sözün həqiqi mənasında geosiyasət olmaqdan çıxır və yalnız statistik-sosioloji metodikanın bir formasına çevrilir.

Avropanın və orada məskunlaşmış xalqların taleyi ilə əlaqədar real geosiyasi qərarlar və layihələr isə atlantizmin və mondializmin strateji mərkəzləri ilə əlaqədar olan başqa instansiyalarda işlənib hazırlanır. Məsələn, Avropa inteqrasiya layihəsi yalnız "Üçtərəfli

komissiya"da, yəni özünün ciddi hüquqi statusu və siyasi legitimliyi olmayan fövqəlmilli mondialist təşkilatda əməkdaşlıq etmiş intellektualların səyi ilə hazırlanmışdır. Fransız *Jak Attali* öz geosiyasi görüşlərini müasir Avropa məktəbinin "tətbiqi" geosiyasəti əsasında deyil, məhz özünün üzv olduğu bu təşkilatın məlumatlarına əsaslanaraq inkişaf etdirmişdir.

3.5. Avropalı "yeni sağlar"ın geosiyasi konsepsiyaları

3.5.1. Yüzbayraqlı Avropa. Alen dö Benua

Müharibədən əvvəlki dövrün alman geosiyasətçi-kontinentalistlərinin ideyaları ilə qırılmaz əlaqələri qoruyub saxlamış azsaylı Avropa geosiyasi məktəblərindən biri "yeni sağlar"dır. Bu istiqamət keçən əsrin 60-cı illərinin axırlarında Fransada yaranmışdır və bu hərəkatın lideri filosof və publisist Alen dö Benuanın (1943) adı ilə bağlıdır.

"Yeni sağlar" demək olar ki, bütün məsələlərdə ənənəvi fransız sağçı monarxistlərdən, katoliklərdən, millətçilərdən, antikommunistlərdən və mühafizəkarlardan kəskin fərqlənir. "Yeni sağlar" "orqanik demokratiya"nın tərəfdarları, germanofillər, sosialistlər, modernistlər və başqalarıdır. Əvvəlcə ənənəyə görə Fransada yüksək nüfuz sahibi olan "sol düşərgə" bunu sağların adi "taktiki manevri" hesab etmişdir, lakin zaman keçdikcə təkamülün ciddi olması sübut edildi və hamı tərəfindən qəbul olundu.

Tezliklə Avropanın başqa ölkələrində də "yeni sağlar"ın analoqları yarandı. Bu ideologiyanın fundamental prinsiplərindən biri "kontinental geosiyasət" prinsipi idi. "Köhnə sağlar"dan və klassik millətçilərdən fərqli olaraq Benua belə hesab edirdi ki, mərkəzçi *dövlət-millət* (etat-nation) prinsipi tarixən tükənmişdir və gələcək yalnız "böyük məkanlar"a məxsusdur. Bu cür "böyük məkanlar"ın əsası praqmatik siyasi blok şəklində birləşmiş müxtəlif dövlətlər deyil, bərabər əsaslarla vahid "federal imperiya"ya daxil olan müxtəlif miqyaslı etnik qruplar olmalıdır. Bu cür "federal imperiya" strateji cəhətdən vahid, etnik baxımdan diferensiasiya edilmiş olmalıdır. Bu halda strateji vəhdət özəli mədəniyyətin vəhdəti ilə təsdiqlənməlidir.

Benuanı daha çox maraqlandıran "böyük məkan" Avropadır. "Yeni sağlar" belə hesab edirdilər ki, Avropa xalqlarının hamısı vahid Hind-Avropa mənşəlidir, onların bir qaynağı var. Bu, *"ümumi keçmiş"* prinsipidir. Lakin həqiqi geosiyasi suverenliyə malik olmaq üçün zəruri strateji və iqtisadi inteqrasiya meyillərinin fəallaşdığı müasir dövrün şəraiti xalis praqmatik mənada birləşməyin də zəruri olmasını diktə edir. Beləliklə, Avropa xalqları *"müştərək gələcəyə"* məhkumdurlar. Benua bu nəticəyə gəlir ki, əsas geosiyasi prinsip "Yüz bayraqlı vahid Avropa" tezisi olmalıdır *[Benoist, 1979]*. "Yeni sağlar"ın bütün konsepsiyalarında olduğu konservativ və modernist elementləri, yəni sağçılığı və solçuluğu birləşdirmək cəhdi aşkar görünür. Son illərdə "yeni sağlar" bu tərifdən imtina edərək bildirirlər ki, onlar nə dərəcədə solçudurlarsa, eyni dərəcədə də sağçıdırlar.

Benuanın geosiyasi tezisləri *"Avropanın kontinental taleyi"* hökmünə əsaslanır. Bu məsələdə o, *Haushofer* məktəbinin konsepsiyalarının tezislərinə əsaslanır. "Yeni sağlar" üçün səciyyəvi olan Avropa-Qərb qarşıdurması buradan irəli gəlir. Onların nəzərində Avropa Hind-Avropa mənşəli etnik birliyə əsaslanan və ümumi mədəni köklərə malik olan kontinental geosiyasi qurumdur. Bu, ənənəvi anlayışdır. Qərb isə, əksinə, müasir dünya ilə bağlı olan, etnik və mənəvi ənənələri inkar edən, varlığın xalis maddi və kəmiyyət meyarlarını irəli sürən geosiyasi və tarixi anlayışdır. Bu, utilitar və rasionalist, mexanistik burjuaziya sivilizasiyasıdır. Qərbin və onun sivilizasiyasının ən dolğun təcəssümü ABŞ-dır.

"Yeni sağlar"ın konkret layihəsi bundan ibarətdir. Avropa Qərbə və ABŞ-a qarşı qoyulmuş "federal imperiya" şəklində inteqrasiya etməlidir. Regionalizm meyillərini xüsusi təşviq etmək lazımdır, çünki Qərb ruhu qarşısında təslim olmuş meqapolislər və mədəni mərkəzlərlə müqayisədə regionlar və etnik azlıqlar ənənəvi xüsusiyyətləri daha çox qoruyub saxlamışlar. Bu halda Fransa Almaniyaya və "Orta Avropa"ya oriyentasiya etməlidir. Buna görə də "yeni sağlar" *dö Qoll* və *Fridrix Naumanna* xüsusi maraq göstərir-

lər. 70-ci illərdən etibarən "yeni sağlar" praktik siyasət səviyyəsində Avropanın ciddi strateji bitərəfliyinə, NATO-dan çıxmağa, özünü təmin etmək iqtidarında olan Avropa nüvə potensialının inkişaf etdirilməsinə tərəfdar olduqlarını bildirirlər.

"Yeni sağlar"ın SSRİ-yə (sonradan Rusiyaya) münasibətdə mövqeyi tədricən təkamül etmişdir. Onlar əvvəlcə klassik "nə Qərb, nə də Şərq, yalnız Avropa" tezisindən başlayaraq tədricən "ilk növbədə Avropa, lakin Qərblə müqayisədə Şərqlə olması daha yaxşıdır" tezisinə doğru təkamül yolu keçmişlər. Praktiki səviyyədə Çinə əzəli maraq və həm Amerika, həm də sovet imperializminə qarşı müqavimət göstərmək üçün Çin ilə Avropanın strateji alyansının təşkil edilməsi layihələri mötədil sovetofiliya və Avropanın Rusiya ilə ittifaqı ideyası ilə əvəz edilmişdir.

"Yeni sağlar"ın geosiyasəti antiatlantik və antimondialist yönümlüdür. Onlar Avropanın taleyini atlantist və mondialist layihələrin qarşı-qarşıya qoyulması şəklində təsəvvür edirlər. Onlar talassokratiyanın və "Vahid dünya" konsepsiyasının əleyhinədirlər.

Qeyd etmək lazımdır ki, "soyuq müharibə" dövründə Avropada atlantizmin total strateji və siyasi hökmranlığı şəraitində Benuanın nəzəri və məntiqi baxımdan qüsursuz görünən geosiyasi mövqeyi siyasi təfəkkür normalarına o dərəcədə zidd idi ki, bu mövqe geniş yayıla bilmədi. Bu, bir növ dissidentlik idi və hər hansı dissidentlik və nonkonformizm kimi, o da marginal xarakter daşıyırdı. "Yeni sağlar"ın intellektual səviyyəsi, onların nəşrlərinin yüksək keyfiyyəti, hətta Avropanın akademik mühitində onların çoxsaylı davamçılarının olması da öz geosiyasi layihələri ilə hakimiyyət qurumlarına xidmət edən analitik strukturların və hökumət orqanlarının onlara cüzi diqqət yetirməsi ilə təzad təşkil edirdi.

3.5.2. Dublindən Vladivostoka qədər Avropa. Jan Tiriar

Digər avropalı dissident, belçikalı Jan Tiriar (1922-1992) kontinentalist geosiyasətin bir qədər fərqli versiyasını inkişaf etdirmişdir. 60-cı illərin əvvəllərində o, "Gənc Avropa" adlı ümumavropa radikal hərəkatının rəhbəri olmuşdur.

Tiriar geosiyasəti əsas politoloji fənn hesab edirdi. Onun fikrincə, geosiyasətsiz rasional və uzaqgörən siyasi və dövlət strategiyasını qurmaq mümkün deyil. *Haushoferin* və *Nikişin* davamçısı olan Tiriar özünü "avropalı millətçi-bolşevik" və "Avropa imperiyası"nın qurucusu hesab edirdi. Məhz onun ideyaları "yeni sağlar"ın daha çox inkişaf etmiş və zövqlü layihələrini qabaqlamışdır.

Jan Tiriar öz siyasi nəzəriyyəsini *"böyük məkanların avtarkiyası"* prinsipi əsasında qurmuşdur. XIX əsrin ortalarında alman iqtisadçısı *Fridrix List* tərəfindən inkişaf etdirilmiş bu nəzəriyyəyə görə, dövlətin tamdəyərli strateji və iqtisadi inkişafı yalnız o halda mümkündür ki, onun kifayət qədər böyük geosiyasi və ərazi imkanları olsun. Tiriar bu prinsipi aktual vəziyyətə tətbiq edərək bu nəticəyə gəlmişdir ki, əgər Avropa dövlətləri ABŞ-a qarşı dayanan vahid imperiya şəklində birləşməsələr, onların dünyada əhəmiyyəti tamamilə itiriləcəkdir. Bu halda Tiriar belə hesab edirdi ki, bu cür imperiya federal və regional yönümlü deyil, daha çox unifikasiya edilmiş, yakobin modelinə müvafiq mərkəzçi imperiya olmalıdır. Bu, qüdrətli və vahid kontinental dövlət-millət olmalıdır. *Benua* ilə Tiriarın baxışlarının əsas fərqli cəhəti bundan ibarətdir.

70-ci illərin axırlarında Tiriarın baxışları bir qədər dəyişmişdi. O, geosiyasi vəziyyəti təhlil edərək bu qənaətə gəlmişdi ki, Avropanın miqyası Amerika talassokratiyasından xilas olmaq üçün artıq kifayət deyildir. Buna görə də Avropanın azad edilməsinin əsas şərti Avropanı SSRİ ilə birləşdirməkdir. O, üç əsas zonadan (Qərb, Avropa, Rusiya) ibarət olan geosiyasi sxemdən yalnız iki tərkib hissəsi - Qərb və Avrasiya kontinenti nəzərdə tutulan sxemə keçmişdir. Bu halda Tiriar belə bir radikal nəticəyə gəlir ki, Avropa üçün anqlosaks kapitalizmindənsə, sovet sosializmini seçmək daha yaxşı olar.

"Dublindən Vladivostoka qədər Avrosovet imperiyası" layihəsi bu cür yaranmışdır *(bax: **xəritə 14**)*. Həmin layihədə peyğəmbərcəsinə uzaqgörənliklə bildirilir ki, əgər SSRİ ən yaxın vaxtda Avropada və Cənubda fəal geosiyasi addımlar atmasa, müəyyən səbəblər SSRİ-nin süqutuna gətirib çıxarmalıdır. Tiriar hesab edirdi ki, Berlin-Moskva-Tokio kontinental bloku barədə *Haushoferin* ideya-



Xəritə 14. ***Dublindən Vladivostoka qədər Avrosovet imperiyası. Tiriar avropalılara Amerika asılılığından azad olmanın özünəməxsus orijinal yollarını tövsiyə edirdi.***

ları indiyə qədər aktualdır. Çox maraqlıdır ki, Tiriar bu tezisləri SSRİ-nin dağılmasından 15 il əvvəl şərh etmiş, bu prosesin məntiqini və səbəblərini tamamilə dəqiq göstərmişdir. Tiriar öz baxışlarını sovet rəhbərlərinə çatdırmağa cəhd göstərmiş, lakin bunu etmək ona nəsib olmamışdı. Hərçənd, 60-cı illərdə o, *Naser, Çjou Enlay* (1898-1976) və Yuqoslaviyanın ali rəhbərləri ilə şəxsən görüşmüşdü. Maraqlıdır ki, Moskva Tiriarın Avropada "atlantizm agentləri"nə qarşı terrorçu mübarizə aparmaq üçün gizli "Avropa azadlıq dəstələri" yaratmaq layihəsini rədd etmişdi.

Jan Tiriarın baxışları hazırda çox fəallaşmış nonkonformist Avropa millətçi bolşeviklər hərəkatının ("Avropa azadlıq cəbhəsinin") ideya əsasını təşkil edir. Onlar müasir rus avrasiyaçılığı layihələrinə yaxındırlar.

3.5.3. Kontinentlər səviyyəsində düşünməli. Yordis fon Lohauzen

Avstriyalı general Henrix Yordis fon Lohauzenin (1907-2002) düşüncələri *Tiriara* çox yaxındır. Lakin Tiriardan və ya *Benuadan* fərqli olaraq o, birbaşa siyasi fəaliyyətdə iştirak etmir və konkret sosial layihələr qurmur. O, ciddi elmi yanaşmaya əsaslanır və geosiyasi təhlil ilə kifayətlənir. Onun əzəli mövqeyi milliyyətçi-bolşeviklərin və "yeni sağlar"ın mövqeyi ilə eynidir. O, kontinentalistdir və *Haushoferin* davamçısıdır.

Lohauzen belə hesab edir ki, siyasi hakimiyyət yalnız o halda uzunömürlü və sabit olmaq şansına malikdir ki, hökmdarlar ötəri və lokal kateqoriyalar əsasında deyil, "minilliklər və kontinentlər" kateqoriyaları əsasında düşünsünlər. Onun əsas kitabının adı da belədir: *"Hökm etmək cəsarəti. Kontinentlər səviyyəsində düşünməli"*.

Lohauzenin fikrincə, qlobal ərazi, sivilizasiya, mədəni və sosial proseslər o halda anlaşıqlı olur ki, onlar "uzaq perspektiv"də görünsün. Müəllif bunu "tarixi uzaqgörməzliyə" qarşı qoyur. Bəşər cəmiyyətində tarixi yol seçimi və ən mühüm qərarlar hakimiyyətdən asılıdır. Hakimiyyət isə bu və ya digər dövlətin və ya xalqın uzaq tarixi perspektivdə yerini tapmağa imkan verən ən ümumi sxemləri rəhbər tutmalıdır. Buna görə də hakimiyyətin strategiyasını müəyyən etmək üçün zəruri olan əsas fənn ənənəvi geosiyasətdir, yəni analitik təfsilatdan yayınaraq qlobal kateqoriyalarla əməliyyat aparmaq bacarığıdır (*Lakostun* "daxili" tətbiqi geosiyasət məktəbindən fərqli olaraq). Əlbəttə, müasir ideologiyalar, ən yeni texnoloji və sivilizasiya irəliləyişləri dünyanın relyefini dəyişir, lakin onlar müddəti minilliklərlə ölçülən təbii və mədəni dövrələrlə bağlı, baza əhəmiyyətli bəzi qanunauyğunluqları ləğv edə bilməz. Məkan, dil, etnos, resurslar bu cür qlobal kateqoriyalardır.

Lohauzen hakimiyyətin bu formulunu təklif edir:

"Qüdrət = Güc x Yerləşmə ərazisi"

O, həmin formulu dəqiqləşdirərək yazır: *"Qüdrət güc ilə yerləşmə ərazisinin hasilinə bərabər olduğu üçün yalnız əlverişli coğrafi*

mövqe daxili qüvvələrin tam inkişaf etməsinə imkan verir" (xəritə 15) [Lohausen, 1978].



Xəritə 15. Lohauzenə görə, dövlətin qüdrəti onun yerləşmə ərazisinə bərabərdir. Qlobal sosial-siyasi, ərazi, iqtisadi və mədəni proseslər uzaq perspektivləri aydın təsəvvür edildiyi zaman düzgün anlaşıla bilər.

Beləliklə, hakimiyyət (siyasi, intellektual və s.) birbaşa məkanla əlaqələndirilir.

Lohauzen Avropanın taleyini Qərbin taleyindən fərqləndirir. O belə hesab edir ki, Avropa talassokratiyanın müvəqqəti nəzarəti altına düşmüş kontinental qurumdur. Lakin Avropanın siyasi cəhətdən azad olması üçün ona məkan (mövqe) minimumu lazımdır. Bu minimum isə yalnız Almaniyanın birləşməsi, "Orta Avropa"da inteqrasiya prosesləri, Prussiyanın (Polşa, SSRİ və ADR arasında parçalanmış diyarın) ərazi vəhdətinin bərpa edilməsi və Avropanın böyük dövlətlərinin atlantizmdən asılı olmayan yeni müstəqil blok

şəklində birləşməsi yolu ilə əldə edilir. Prussiyanın rolu xüsusi qeyd edilməlidir. *Nikiş* və *Şpenqlerdən* sonra Lohauzen də belə hesab edir ki, Prussiya Almaniyanın daha kontinental hissəsi, "avrasiyalaşmış" hissəsidir və əgər Almaniyanın paytaxtı Berlin deyil, Keniqsberq şəhəri olsaydı, onda Avropanın tarixi anqlosaks talassokratiyalarına qarşı Rusiya ilə ittifaqa oriyentasiya edərək başqa, daha düzgün məcraya düşərdi.

Lohauzen belə hesab edir ki, strateji perspektivdə Avropanın gələcəyi Rusiyasız təsəvvür edilə bilməz və əksinə, Avropa Rusiya (SSRİ) üçün zəruridir, çünki Avropasız Rusiya yarımçıq və Amerika üçün zəifdir. Axı, Amerikanın mövqeyi SSRİ-dən qat-qat güclüdür, deməli onun qüdrəti də gec-tez SSRİ-dən qat-qat möhkəm olacaqdır. Lohauzen xüsusi vurğulayırdı ki, SSRİ üçün Qərbdə dörd Avropa ola bilərdi: *"SSRİ-yə düşmən Avropa, ona tabe Avropa, viran Avropa və müttəfiq Avropa"*. Bu variantlardan ilk üçü SSRİ-nin "soyuq müharibə" dövründə yeritdiyi Avropa siyasətini davam etdirəcəyi halda labüddür. Yalnız Avropanı nəyin bahasına olur-olsun özünə "müttəfiq və dost" etmək səyləri SSRİ-nin geosiyasi vəziyyətini yaxşılaşdıra bilər və geosiyasi tarixin yeni mərhələsinin - Avrasiya mərhələsinin başlanğıcı ola bilər.

Lohauzen öz mövqeyini bilərəkdən xalis geosiyasi mülahizələrlə məhdudlaşdırır. O, ideoloji məsələlərdən yan keçir. Məsələn, boyar Rusiyası, çar Rusiyası və ya Sovet İttifaqının geosiyasəti onun nəzərində hakim quruluşun və ideologiyanın dəyişməsindən asılı olmayan vahid və fasiləsiz prosesdir. Geosiyasi Rusiya "Hartland"dir. Deməli, Rusiyada hansı rejimin mövcudluğundan asılı olmayaraq, onun taleyini onun torpaqları müəyyən edir.

Tiriar kimi, Lohauzen də SSRİ-nin geosiyasi iflasını qabaqcadan proqnozlaşdırmışdı. Əgər SSRİ öz yolu ilə getsəydi, bu iflas labüd idi. Atlantist geosiyasətçilər hadisələrin bu nəticəsini qələbə hesab edirdisə, Lohauzen bunu kontinental qüvvələrin məğlubiyyəti kimi qiymətləndirirdi. Lakin burada bir nüans var ki, sovet sistemi süqut edəndən sonra yaranacaq yeni imkanlar gələcəkdə yeni Avrasiya bloku, kontinental imperiya yaradılması üçün əlverişli zə-

min hazırlaya bilər, çünki marksist ideologiyasının diktə etdiyi müəyyən məhdudiyyətlər bu halda aradan qaldırılardı.

3.5.4. Afrika - Ümumavropanın bir nömrəli vəzifəsi. A.Çişki

XX əsrin 60-70-ci illərində Avropa kontinental geosiyasətində yeni bir istiqamət açıq müşahidə olunmağa başlayır. Bu istiqamətin tərəfdarları *K.Haushoferin* "zəruri həyati məkan" klassik geosiyasi nəzəriyyəsini yeni istiqamətə - Afrikaya yönəldərək, gələcək Vahid Avropanın zəruri ərazi və xammal ehtiyaclarının məhz bu qitədə reallaşa biləcəyini iddia edirdilər. Bu nəzəriyyənin əsas mahiyyəti ondan ibarət idi ki, Avropa artıq kiminsə ərazilərini işğal etmək deyil, Afrikanın boş, lakin xammal ehtiyatları ilə zəngin olan ərazilərinin məskunlaşdırılması, onların ucuz işçi qüvvəsindən və təbii ehtiyatlarından istifadə olunması istiqamətində hərəkət etməlidir. Avropanın iqtisadi inteqrasiya və sürətli inkişaf ideyasını bu məktəbin tərəfdarları Afrikanın şimalında "yeni həyati məkanlar"ı ələ keçirmək istiqaməti ilə bağlamaq istəyirdilər.

Alman alimi A.Çişki özünün *"Afrika. Ümumavropanın bir nömrəli vəzifəsi"* adlı məqaləsində yazırdı ki, Birləşmiş Avropa özünün gələcək inkişafını təmin etmək üçün Afrika ilə birgə assosiasiya yaratmalıdır. O qeyd edirdi ki, *"Şərq torpaqları artıq Avropa üçün bağlıdır. Qərbə doğru hərəkətin sərhədləri də artıq bitmişdir. Deməli, qalır bircə Cənub və Afrika"*.

Müəllifə görə, Avropa tropik Afrika ilə birləşərək kontinental təbii sərhədlərini tamamlayacaq və müasir inkişaf üçün lazım olan zəruri məkana malik olacaqdır. Göründüyü kimi, Çişki Afrikanı əsas geosiyasi maraqların gələcək toqquşma nöqtəsi kimi qiymətləndirir, Şərq və Qərbdən gələn işğalçı qüvvələrin geosiyasi düşərgəsi rolunda görür və avropalıları bu qitəni tezliklə ələ keçirməyə çağırırdı [Василенко, 2006, стр. 101-102].

3.5.5. Avrasiya Məhşər İmperiyası. Jan Parvulesko

Görkəmli fransız yazıçısı Jan Parvulesko (1929-2010) geosiyasətin romantik versiyasını şərh edir. Geosiyasi mövzulara ədəbiyyatda ilk dəfə müraciət edən ingilis yazıçısı və publisisti, *Corc Oruell* adı ilə daha çox tanınmış Erik Artur Bleyr (1903-1950) ol-

muşdur. O, "1984" adlı antiutopik əsərində planetin üç nəhəng kontinental bloka - "Ostasiya", "Avrasiya" və "Okeaniya" bloklarına bölünməsini *futuroloji* tərzdə təsvir etmişdir. Buna oxşar mövzulara *Artur Kestler, Oldos Haksli, Reymon Abellio* və başqa müəlliflər də müraciət etmişlər.

Özünün bütün əsərlərində geosiyasi mövzulara xüsusi yer ayırmış Jan Parvulesko *"geosiyasi belletristika"* deyilən yeni bir janr yaratmışdır.

Parvuleskonun konsepsiyasının qısa məzmunu belədir *[Parvulesco, 1991]:* bəşəriyyətin tarixi qüdrətin, hakimiyyətin tarixidir. Sivilizasiyada mərkəzi mövqelərə, yəni qüdrətə malik olmaq üçün müxtəlif yarımməxfi təşkilatlar səy göstərir. Bu təşkilatların mövcudluq dövrələri adi siyasi ideologiyaların, hakim sülalələrin, dini təsisatların, dövlətlərin və xalqların mövcudluq dövründən xeyli artıqdır. Parvulesko tarixdə müxtəlif adlarla çıxış edən bu təşkilatlara "atlantistlər ordeni" və "avrasiyaçılar ordeni" kimi tərif verir. Onların arasında əsrlər boyu davam edən mübarizədə papalar, patriarxlar, krallar, diplomatlar, iri maliyyəçilər, inqilabçılar, mistiklər, generallar, alimlər, rəssamlar və başqaları iştirak edir. Beləliklə, bütün sosial-mədəni təzahürlər hədsiz mürəkkəb, lakin özəli geosiyasi arxetiplərdən ibarət hesab edilə bilər.

Məntiqi sonluğa çatdırılmış bu geosiyasi xəttin təməli tam rasional və "mistisizm"ə yabançı olan geosiyasətin banilərində müşahidə olunur.

Parvuleskonun süjetlərində general *dö Qoll* və onun təsis etdiyi, amma prezidentliyindən sonra kölgədə qalmış geosiyasi struktur mühüm rol oynayır. Parvulesko bu strukturu *"geosiyasi qollizm"* adlandırır. Bu "geosiyasi qollizm" *Haushoferin* kontinentalizm məktəbinin Fransadakı analoqudur.

Bu xəttin tərəfdarlarının əsas vəzifəsi Avropada Paris-Berlin-Moskva kontinental bloku yaratmaqdır. Bu baxımdan Parvuleskonun mövqeyi "yeni sağlar"ın və "millətçi bolşeviklər"in tezisləri ilə qovuşur.

Parvulesko belə hesab edir ki, indiki tarixi mərhələ çoxəsrlik geosiyasi qarşıdurmanın kulminasiya nöqtəsidir. Kontinental-sivilizasiyalı duelin dramatik tarixi düyünü açılmaqdadır. O, tezliklə *"Avrasiya Məhşər İmperiyası"* deyilən nəhəng kontinental konstruksiyanın yaranacağını, sonra isə Atlantika imperiyası ilə həlledici toqquşmasını proqnozlaşdırır. Parvulesko özünün apokaliptik ifadələrlə təsvir etdiyi esxatoloji savaşı "Endkampf" ("Həlledici mübarizə") adlandırır. Maraqlıdır ki, Parvuleskonun əsərlərində uydurma personajlar real tarixi şəxsiyyətlərlə qonşudur. Müəllif bu şəxsiyyətlərin çoxu ilə əlaqə saxlamışdır, bəziləri ilə dostluq münasibətləri isə həyatının sonunadək davam etmişdir. Onların arasında *dö Qollun* yaxın ətrafındakı siyasətçilər, ingilis və amerikan diplomatları, şair *Ezra Paund,* filosof *Yulius Evola,* siyasətçi və yazıçı *Reymon Abellio,* heykəltəraş *Arno Breker,* okkult təşkilatlarının üzvləri və başqaları vardı.

Parvuleskonun əsərlərinin belletristika formasında yazılmasına baxmayaraq, bu mətnlərin xalis geosiyasi dəyəri çox yüksəkdir, çünki onun 70-ci illərin axırlarında dərc edilmiş bəzi məqalələrində dünyada yalnız 90-cı illərin ortalarında yaranmış vəziyyət təsvir edilir.

3.5.6. Hind okeanı dünya ağalığına aparan yoldur. Rober Stoykers

Belçikalı geosiyasətçi və publisist, "Oriyentasyon" və "Vuluar" adlı iki prestijli jurnalın naşiri Rober Stoykers (1956) "geosiyasi vizioner" *Parvuleskonun* tam əksidir. Stoykers geosiyasətə xalis elmi, rasionalist mövqelərdən yanaşır, bu fənni bütün "təsadüfi" təzahürlərdən azad etməyə çalışır. Lakin akademik istiqamətdə "yeni sağlar"ın məntiqini əsas götürən Stoykers *Parvuleskonun* "peyğəmbərliklərinə" heyrətamiz dərəcədə yaxın olan nəticələrə gəlir.

Stoykers də belə hesab edir ki, müxtəlif dövlətlərin və blokların sosial-siyasi və xüsusən diplomatik layihələri, hansı ideoloji forma almalarından asılı olmayaraq qlobal geosiyasi layihələrin dolayı və bəzən pərdələnmiş ifadəsidir. Stoykers "torpaq" amilinin bəşər tarixinə təsirini bunda görür. İnsan yerdən, torpaqdan yaranmış varlıqdır. Deməli, insanın ən mühüm təzahürləri torpaq və məkan vasitəsilə əvvəlcədən müəyyən edilmişdir. Bu, "coğrafi tarix" üçün zəmindir.

Kontinentalist oriyentasiya Stoykers üçün birincidir. O, atlantizmi Avropaya düşmən hesab edir, Avropanın rifahının taleyini isə Almaniya və "Orta Avropa" ilə bağlayır *[Steukers, 1983].* Stoykers Avropanın Üçüncü dünya ölkələri və xüsusən ərəb dünyası ilə fəal əməkdaşlığının tərəfdarıdır.

Bununla bərabər, o, planetin gələcək geosiyasi strukturu üçün Hind okeanının çox böyük əhəmiyyətini vurğulayır. O, Hind okeanına Atlantik və Sakit okeanlar arasında yerləşən "Orta okean" kimi tərif verir. Hind okeanı Afrikanın şərq sahilləri ilə Yeni Zelandiya, Avstraliya, Yeni Qvineya, Malayziya, İndoneziya, Filippin və Hind-Çin yarımadasının yerləşdiyi Sakit okean zonasının düz ortasında yerləşir. Hind okeanına dənizlər vasitəsilə nəzarət üç ən mühüm "böyük məkana" - Afrikaya, Cənubi Avrasiya "Rimlənd"inə və Sakit okean regionuna eyni vaxtda geosiyasi təsir göstərmək üçün mühüm mövqedir. Hind okeanındakı bəzi kiçik adaların, xüsusən bütün sahil zonalarından bərabər məsafədə yerləşən Dieqo Qarsiya adasının strateji üstünlüyü buradan irəli gəlir ***(bax: 16 və 17-ci xəritələr).***



Xəritə 16. ***Hind okeanına nəzarət Avrasiyanın mühüm zonalarına strateji təsir imkanını genişləndirir.***



Xəritə 17. *Hind okeanında böyük güclərin rəqabəti*

Hind okeanı elə ərazidir ki, bütün Avropanın strategiyası orada cəmləşməlidir, çünki Avropa bu zona vasitəsilə həm ABŞ-a, həm Avrasiyaya, həm də Yaponiyaya təsir göstərə bilər. Onun fikrincə, gələcək XXI əsrin mənzərəsini müəyyənləşdirməli olan həlledici geosiyasi qarşıdurma məhz bu məkanda baş verəcəkdir.

3.5.7. Rusiya + islam = Avropanın nicatı. Karlo Terraçano

Kontinentalist oriyentasiyalı fəal geosiyasi mərkəz İtaliyada da mövcuddur. İkinci Dünya müharibəsindən sonra *Karl Şmittin* ideyaları Avropanın başqa ölkələri ilə müqayisədə İtaliyada daha geniş yayılmışdı. Bunun sayəsində orada geosiyasi təfəkkür çox geniş miqyas almışdı. Bundan əlavə, *Jan Tiriarın* "Gənc Avropa" hərəkatı və buna müvafiq olaraq, kontinental millətçi-bolşevizm ideyaları məhz İtaliyada xüsusilə inkişaf etmişdi.

Geosiyasətlə məşğul olan çoxsaylı politoloji və sosioloji "yeni sağçı" jurnallar və mərkəzlər arasında Milanda buraxılan *"Orion"* jurnalı maraq doğurur. Son 15 ildə bu jurnalda müntəzəm olaraq

doktor Karlo Terraçanonun geosiyasi təhlillərinin nəticələri dərc edilir. Terraçano mahiyyət etibarilə avrasiyaçılığa yaxın olan ifrat Avropa kontinentalizmi mövqeyini ifadə edir.

Terraçano *Makinderin* və *Mehenin* təsvir etdiyi mənzərəni tamamilə qəbul edir və onların vurğuladığı ciddi sivilizasiyalı və coğrafi dualizmlə razılaşır. Bu halda o, birmənalı şəkildə "Hartlənd" mövqeyinə keçir və belə hesab edir ki, Avropanın taleyi bütünlüklə və tamamilə Rusiyanın və Avrasiyanın taleyindən, Şərqdən asılıdır. Kontinental Şərq pozitiv, Atlantik Qərb isə neqativdir. Avropalının məsələyə bu dərəcədə radikal yanaşması hətta kontinental yönümlü geosiyasətçilər arasında da müstəsna haldır, çünki Terraçano Avropa üçün məxsusi statusu vurğulamadan belə hesab edir ki, talassokratiya və tellurokratiya arasında planetar miqyaslı qarşıdurma ilə müqayisədə bu məsələ ikinci dərəcəli məqamdır.

O, vahid Avrasiya dövləti, "Dublindən Vladivostoka qədər Avrosovet imperiyası" ideyasına tamamilə şərik çıxır. Bu məsələ onu *Tiriarla* yaxınlaşdırır. Lakin bununla belə, Terraçano *Tiriara* xas olan "yakobinçilik" və "universalizm" ideyalarını dəstəkləmir, etnik-mədəni diferensiasiya və regionalizmə tərəfdar çıxır. Bu da öz növbəsində onu Alen dö Benua ilə yaxınlaşdırır.

Rus amilinin mərkəzi rol oynamasını vurğulayan Terraçano başqa bir maraqlı məqama da diqqəti cəlb edir: onun fikrincə, atlantizmə qarşı mübarizədə islam dünyası çox mühüm rol oynayır. Xüsusən İranın, Liviyanın, İraqın və başqa dövlətlərin aşkar antiamerika rejimləri bu məsələdə mühüm rol oynamalıdır. Terraçano bu nəticəyə gəlir ki, islam dünyası kontinental geosiyasi maraqların ən yüksək ifadəçisidir. Bu halda o, islam dininin məhz "fundamentalist" versiyasını əsas kimi qəbul edir.

Doktor Terraçanonun geosiyasi baxışlarını yekunlaşdıran formul belədir:

Rusiya ("Hartlənd") + islam ABŞ-a qarşı (atlantizm, mondializm).

Terraçano Avropanı rus-islam antimondialist blokunun plasdarmı kimi təsəvvür edir. Onun fikrincə, məsələnin yalnız bu şəkildə qoyuluşu obyektiv olaraq Avropanın həqiqi dirçəlişinə gətirib çıxara bilər.

"Orion" və onun bazasında işləyən intellektual mərkəzin başqa əməkdaşları (prof. *Klaudio Mutti, Mauritsio Murelli,* sosioloq *Alessandra Kolla, Marko Battarra* və b.) da Terraçanonun baxışlarına oxşar mövqe tuturlar.

İtaliyanın bəzi solçu, sosial-demokrat, kommunist və anarxist dairələri - "Umanita" qəzeti, "Nuovi Anqulatsioni" jurnalı və s. bu millətçi-bolşevik istiqamətə meyil edirlər.

Avropanın müasir geosiyasətində, xüsusən geosiyasi ideyaların transformasiyasından sonra bir çox yeni ideya və nəzəriyyələrə də rast gəlmək olar. Onların sırasında alman və fransız alimlərinin təklif etdiyi bir neçə yanaşmanı nəzərdən keçirək:

3.5.8. İqtisadi aləmlər haqqında təlim. Fernan Brodel

Fransanın böyük mütəfəkkirlərindən və tarixçilərindən olan Fernan Brodelin (1902-1985) iqtisadi aləmlər haqqında təlimi geoiqtisadiyyatın təşəkkülündə xüsusi rol oynamışdır. Brodel "Annallar" tarixşünaslıq məktəbinin hamılıqla qəbul edilmiş lideri, Avropanın və Amerikanın bir sıra universitetlərinin fəxri doktoru idi. O, *"Maddi sivilizasiya, iqtisadiyyat və kapitalizm, XV-XVIII əsrlər"* adlı əsərində (1967) bəşəriyyətin iqtisadi inkişafının bütün mərhələlərini və qanunauyğunluqlarını araşdıraraq belə qənaətə gəlmişdir ki, **planetin beş-altı əsrlik iqtisadi inkişafı növbəlilik əsasında bir neçə muxtar dünya regionunun - "iqtisadi aləmin"** hesabına baş vermişdir. *Müəllif Aralıq dənizi regionu "iqtisadi aləminin" nümunəsində öz nəzəriyyəsini əsaslandıraraq qeyd edir ki, bu "aləmlər" bəşəriyyətin böyük ərazi inteqrasiyasının, iqtisadi birliklərin, qeyri-etnik tarixi insan cəmiyyətlərinin yaranmasında mühüm rol oynamış və indinin özündə də oynamaqdadır.*

3.5.9. Dördüncü dünya nəzəriyyəsi

Dördüncü dünya nəzəriyyəsi dünyanın etnomədəni müxtəlifliyinin qorunub saxlanması zərurətini əsaslandırır. Hazırda dünyanın siyasi xəritəsində təqribən 200 dövlət olduğu halda, 5000-dən çox yerli xalq mövcuddur. Dördüncü dünya nəzəriyyəsi dövlətçiliyi olmayan xalqların tipologiyasını yaratmağa çalışır. Alman alimi *B.Nitşmann* "əzici dövlət" konsepsiyasını təklif etmişdir. Onun gətirdiyi

məlumatlara görə, 1945-ci ildən sonra dünyada 122 lokal müharibə baş vermiş, onlardan 97-si dövlətlər tərəfindən xalqlara qarşı aparılmışdır. Kiçik xalqları məhv edən dövlətlər gələcəkdə özlərinin parçalanmasının təməlini qoyurlar. Dördüncü dünya nəzəriyyəsi geosiyasətə mədəni və bioloji müxtəlifliyi nəzərə alan sivilizasiyalı yanaşmanın gücləndirilməsini tələb edir. Amerikalı alim *Saul Kohenin* polisentrizm və geostrateji qüvvələrin balansı konsepsiyası yeni və ən yeni geosiyasətin inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

O, *"Dünyanın yeni dövründə geosiyasət: köhnə intizamın perspektivləri"* əsərində (1994) belə bir nöqteyi-nəzər irəli sürür ki, klassik geosiyasət qarşıdurma və müharibə arsenalının tərkib hissəsi idisə, yeni geosiyasət beynəlxalq sülhün və kooperasiyanın formalaşması vasitəsinə çevrilə bilər. Bunun üçün təkcə fiziki proseslərin yox, həm də ictimai proseslərin öyrənilməsinə diqqət yetirmək lazımdır. Müəllif "köhnə" geosiyasi anlayışların yeni məzmunu üzərində ətraflı dayanır. Hərbi "qüvvələr balansı" öz yerini dünya sisteminin yeni iyerarxiyasına - "poliokratiyaya" (çoxluğun hakimiyyətinə) verir. Burada maraq dairələri, hegemonluğun, milli və nəqliyyat komponentlərinin müxtəlif səviyyələri kəsişir. Dünyanın müasir geosiyasi strukturunda "münaqişə zonaları", əsas "ox məkanları" və "geosiyasi qapılar" yeni məna kəsb edir.

3.5.10.Tarixi inkişaf konsepsiyası

Tarixi təfəkkür nəzəriyyəsində tarixi inkişafın iki konsepsiyası formalaşmışdır. Ümumdünya tarixi konsepsiya (*İ.Herder, K.Yaspers* və b.) vahid ümumbəşəri mədəniyyətin formalaşmasını əsaslandırır. Mədəni-tarixi konsepsiya isə (*H.Ryukkert, N.Danilevski, K.Leontyev, O.Şpenqler, A.Toynbi, P.Sorokin, D.Andreyev, L.Qumilyov*) vahid ümumbəşəri mədəniyyəti inkar edir. Etnosfera yaşları məhdud olan mədəniyyətlər (sivilizasiyalar) çoxluğu kimi təsəvvür edilir.

Müasir dövrün ən görkəmli mütəfəkkirlərindən biri olmuş alman filosofu *Karl Yaspers* (1883-1969) əmin idi ki, bəşəriyyət üçün ümumi cəhət yalnız fəlsəfi inam ola bilər. Bu inamın yaranması vaxtı "dünya tarixinin oxu", yaxud "ox dövrü"dür (e.ə. 2000-800-cü illər arası). Sonradan zəka və şəxsiyyət adlanan kateqoriyalar kəşf

edilmişdir. **Bəşəriyyətin ümumi tarixinin başlanğıcı xalqlar (lokal mədəniyyətlər) arasında qohumluq əlaqələri və təbii əlaqə deyil, mənəvi əlaqədir. Cəmiyyətlərin, xalqların və dinlərin müxtəlif tiplərinin bir-biri üçün açıq olması, qarşılıqlı anlaşma problemi təmtəraq deyil, həyati zərurətdir.** Fəlsəfi inam Yer üzündə cənnət yaratmaq iddiasında olan, əslində isə əxlaqi və mədəni ənənələri məhv edən rasionalist utopiyalara düzəliş etməlidir.

3.5.11."Çağırış və Cavab" sivilizasiya nəzəriyyəsi

Bu nəzəriyyə ingilis tarixçisi və sosioloqu, tarix fəlsəfəsinin tanınmış "dayağı" Arnold Toynbinin (1889-1975) adı ilə bağlıdır. Toynbi 1919-1924-cü illərdə London Universitetinin professoru, 1925-1955-ci illərdə London İqtisad elmləri məktəbinin professoru və eyni zamanda, Kral Beynəlxalq Münasibətlər İnstitutunun rəhbərlərindən biri olmuşdur. Tarixi inkişaf nəzəriyyəsi *O.Şpenqlerin* ideyalarının təsiri altında yaradılmışdır. Toynbinin 12 cildlik *"Tarixin dərk edilməsi"* adlı şah əsərində (1934-1961) bəşəriyyətin vahid tarixinin mövcudluğu inkar edilir. Bu tarix lokal sivilizasiyaların dövranı kimi nəzərdən keçirilir. Alim mədəniyyətlərin zaman-məkan təmaslarının sosial və psixoloji nəticələrini təhlil edərək, "Çağırış və Cavab" sivilizasiya nəzəriyyəsini irəli sürmüşdür. **Toynbi tarixin dərk edilməsi prosesini bəşəriyyətin öz-özünü dərk etməsi prosesi hesab edirdi, sosial inkişafda isə dörd meyili fərqləndirirdi: arxaizm, futurizm, dərvişlik və çevrilmə. Arxaizm keçmişə qayıtmaq cəhdi (məsələn, stalinçi kommunistlər), futurizm işıqlı gələcəyə inam (neokommunistlər, sosialistlər), dərvişlik real gerçəklikdən (indiki dövrdən) uzaqlaşma, çevrilmə isə mənəvi aləm vasitəsilə nicat tapmaq deməkdir.**

Sivilizasiyanın həyat qabiliyyəti həyat mühitinin ardıcıl mənimsənilməsi imkanı və insan fəaliyyətinin bütün növlərində mənəvi başlanğıcın (yaradıcılıq enerjisinin) inkişafı ilə müəyyən edilir. Son 500 ildə Qərbi Avropa sivilizasiyası Yer kürəsinin başqa regionlarına mədəni və siyasi nüfuzetmə sahəsində prioriteti ələ keçirmiş, bu isə Avropa mərkəzçiliyi geosiyasətində öz əksini tapmışdır. 1683-cü ildə Osmanlı qoşunlarının Vyananı mühasirəyə alması

uğursuzluğa düçar olandan sonra Şərqin Qərb sivilizasiyasına həlledici təsirinə son qoyuldu. Yalnız İkinci Dünya müharibəsindən sonra Sovet İttifaqı və Şərq dövlətləri (Yaponiya və Çin) yenidən dünya siyasi arenasında aparıcı rolları ələ keçirdilər, lakin bu, Qərb dünyası çərçivəsində olmadı. Beynəlxalq arenada qüvvələrin yeni nisbəti sivilizasiyalar arasında əlaqələr problemini ön plana çəkdi. SSRİ dağılandan sonra polisentrizm şəraitində sivilizasiyalar arasında sərhəd kommunikativliyi problemləri xüsusi aktuallıq kəsb edəndə tarixi inkişafın A.Toynbi tərəfindən bu cür şərhi daha da aktuallaşdı. Başqa mədəniyyətlər üçün açıq olmaq yabançı ənənələrin kor-koranə əxz edilməsindən ibarət olmamalıdır. Əxz edilmiş element ona doğma zəmindən (ənənələrdən) məhrum olanda yeni mühitdə dağıdıcı təsirə başlaya bilər.

3.5.12. Modernləşmə nəzəriyyəsi

Bu nəzəriyyə XX əsrin 70-ci illərindən sonra Avropada yaranmış və müasir Qərb geosiyasi nəzəriyyələri içərisində xüsusi populyarlıq qazanmışdır. Modernləşmə nəzəriyyəsinin baniləri dünyanın ənənəvi, aqrar cəmiyyətdən müasir, sənaye cəmiyyətlərinə keçməsi[1] ideyasını irəli sürürdülər. Müasir cəmiyyət dedikdə yalnız Qərb sivilizasiyası, Qərb dəyərləri və həyat tərzi başa düşülür. Modernizm Avropa maarifçiliyinin rasionallıq, fərdiyyətçilik və maddilik prinsiplərinə əsaslanır. Maarifçilik insanların öz zəkası sayəsində, onlara nəsihət verənlərin və nüfuzlu insanların iştirakı olmadan düşünmək və səmtləşmək qabiliyyətidir. Avropa ənənəsində maarifçilik "həqiqətə və şərəfə meyil" hesab edilir.

Qərbi Avropa cəmiyyətində dəyişiklikləri təmin edən sosial təsisatlar dövlətin şəxsiyyət üzərində birinciliyinin mövcud olduğu başqa cəmiyyətlər üçün heç də həmişə məqbul olmur. Yaxın insanlara sevginin qanundan yüksək olduğu, kollektivizm hissinin fərdiyyətçilik üzərində hökmranlıq etdiyi ölkədə liberallaşma heç də həmişə demokratikləşmə demək deyil.

[1] Bu, sənayeləşdirmə və ya kapitalizmə keçid ilə müqayisədə daha geniş sosial prosesdir.

Modernləşmə nəzəriyyəsinə görə insanlar açıq, liberal, demokratik və bazar iqtisadiyyatına əsaslanan dövlət və cəmiyyətdə yaşamalı, qanunlarla, öz ağıl və dərrakələri, ictimai-siyasi davranış normaları və ətraf aləm haqqındakı bilikləri ilə hərəkət etməlidirlər. Bütün sosial, dövlət institutları insan və onun fəaliyyətinin səmərəliliyinə, həyatının dolğunluğuna xidmət etməlidir.

Modernləşmə bəşəriyyətin ən kamil dövlət, cəmiyyət, xalq, din və ayrıca götürülmüş insan (şəxsiyyət) münasibətlərinin ən təkmil formasını qurmuş Qərb ölkələrinin təcrübəsini və "vesternizasiya" (qərbləşmə) ideyasını təlqin edir. Onun əsas mahiyyəti *"avropalılar kimi düşünmək, yaşamaq və fəaliyyət göstərmək"*dən ibarətdir.

"Modernləşmə" və "qərbləşmə" anlayışlarının fərqləndirilməsinin çox böyük əhəmiyyəti var. "Axı Qərb kütləvi şüurda bu iki terminin sinonimlərə çevrilməsi üçün əlindən gələni edir. Məsələyə bu məntiqlə yanaşsaq, belə çıxır ki, bütün dəyişikliklər və hər hansı islahatlar yalnız o halda mümkündür ki, onlar qərbyönümlü olsun və Qərb nümunələrini təkrar etsin. Alternativ variant kimi "durğunluq", "arxaizm", "konservatizm", səmərəsizlik, dinamikanın olmaması kimi variantlar təklif olunur" *[Mehdiyev, 2008, səh. 254].*

Yeri düşmüşkən, ictimaiyyatşünaslıq terminlərinin izahlı lüğətində qərbləşməyə belə tərif verilir:

1) Qərb nümunəli bir sıra dəyərlərin (bazar iqtisadiyyatı, hüquqi dövlət və parlamentarizm, mənəvi və siyasi plüralizm və s.) müasir sivilizasiyanın ümumbəşəri dəyərlərinə çevrilməsi prosesi;

2) bəşəriyyətin inkişaf etmiş ölkələrin təsir, hakimiyyət və istismar dairəsinə cəlb edilməsinə yönəlmiş fəaliyyət;

3) Qərbi Avropaya və Şimali Amerikaya xas olan həyat tərzinin kor-koranə, düşünülməmiş şəkildə əxz edilməsi [Яцеико, 1999].

3.6. Yeni avrasiyaçılıq

3.6.1. Avrasiya passionarlığı. Lev Qumilyov

Avrasiyaçılıq hərəkatı öton əsrin 20-ci illərində formalaşmağa başlamışdır. Bu hərəkatın yaradıcıları rus mütəfəkkirləri - linqvist və filoloq alim, knyaz *N.S.Trubetskoy* (1890-1938), filosof və geniş

intellektli ictimai xadim *P.N.Savitski* (1895-1968), pravoslav ilahiyyatçı *Q.V.Florovski* (1893-1979) və görkəmli incəsənət alimi *P.P.Suvçinski* (1892-1985) olmuşdur. 1926-cı ildə avrasiyaçılığın proqram sənədi işıq üzü görür. O vaxtlar avrasiyaçılığın lideri və ideoloqu *Savitski* idi. Lakin keçən əsrin 30-cu illərindən başlayaraq avrasiyaçılıq geosiyasi istiqamət kimi qürub etməyə başlasa da, 60-cı illərdə Lev Qumilyov tərəfindən yenidən dirçəldilmişdir.

Məşhur rus tarixçisi, etnoqraf və etnoloqu Lev Qumilyov (1912-1992) Savitskinin ən istedadlı şagirdi olmuşdur. Rusiyanın görkəmli şairləri *Nikolay Qumilyov* və *Anna Axmatovanın* övladı olan Lev Qumilyov bütün ömrü boyu müxtəlif təqiblərə məruz qalmış, dəfələrlə həbs olunmuş və illərlə həbsxanalarda yatmışdır. Əsl elmi yaradıcılığa yalnız 1967-ci ildə, 55 yaşında başlamaq imkanı əldə edən Qumilyov taleyin ona qismət etdiyi qısa zaman kəsiyində yeni dövr sovet-rus geosiyasət nəzəriyyəsi tarixində əsl inqilabi çevriliş etmişdir. Tarixi məlumata görə, təxminən oxşar tale yaşamış Qumilyov və *Savitski* bir dəfə, 1966-cı ildə Praqada beynəlxalq konfransda üz-üzə gəlmiş, sonrakı illərdəsə onlar uzun müddət yazışmışlar. Bu görüş və yazışmalar Qumilyovun sonrakı ideyalarına, xüsusən onun avrasiyaçı görüşlərinə təsirsiz qalmamışdır.

Lev Qumilyov öz əsərlərində xüsusi geosiyasi mövzulara müraciət etməmişdi, lakin onun etnogenez və etnik tsikllər nəzəriyyəsi "orqanisist" yanaşmanı və qismən "coğrafi determinizm" xəttini aşkar davam etdirir. Bunlar isə *Ratselin, Çellenin, Haushoferin* və b. əsərlərində geosiyasətin mahiyyətini təşkil edir.

Qumilyovun Avrasiyanın qədim dövrlərdəki etnik xəritəsi, çöllər, köçəri xalqlar və onların sivilizasiyaları ilə əlaqədar tədqiqatları xüsusi əhəmiyyət kəsb edir. Onun əsərlərində siyasi tarixin tamam yeni mənzərəsi görünür. Burada Avrasiya Şərq sivilizasiyasının periferiyasındakı barbar torpaqları kimi deyil, müstəqil və dinamik etnogenez, mədəniyyət, Qərb sivilizasiyasına bərabər tutulan siyasi tarix, dövlətçiliyin və texnikanın inkişafı mərkəzi kimi çıxış edir. Qərb və onun tarixi relyativistləşdirilir, Avrasiya mədəniyyəti və Avrasiya etnosları bürcü çoxölçülü və əsla öyrənilməmiş, öz

dəyərlər şkalası, dini problemləri, tarixi qanunauyğunluqları və başqa əlamətləri olan bir dünya kimi təzahür edir.

Avrasiyada belə bir ümumi ideya var ki, etnik velikoruslar, ruslar Şərq slavyanlarının bir şaxəsi deyil, türk-slavyan qarışığı əsasında yaranmış ayrıca bir etnosdur. Qumilyov bu ideyanı inkişaf etdirir və məntiqi baxımdan tamamlayır. Velikorus sivilizasiyası coğrafi mənada Meşə ilə Çölün tarixi alyansı kimi reallaşmış türk-slavyan etnogenezi əsasında yaranmışdır. Rusiyanın tarixi mahiyyətini təşkil edən, onun mədəniyyətinin, sivilizasiyasının, ideologiyasının, siyasi taleyinin xarakterini müəyyən edən məhz Meşə ilə Çölün geosiyasi birləşməsidir.

Qumilyov bütün keçmiş kontinental geosiyasətçilər kimi, xalqlar, mədəniyyətlər, cəmiyyətlər və sivilizasiyaların canlı orqanizm kimi tarixi mərhələlərlə - yarandığını, inkişaf etdiyini, qocaldığını və nəhayət, iflas edərək tarix səhnəsindən silindiyini qəbul edirdi.

Qumilyovun etnogenezin səbəbləri, yəni xalqın və ya dövlətin yaranması barədə nəzəriyyələri son dərəcə maraqlıdır. **Alim cəmiyyətin inkişaf dinamikasının səbəblərini cəmiyyətdə yaşayan fərdlərin keyfiyyətlərində görürdü. O, hesab edirdi ki, yeni etnosun formalaşması, yəni onun təşəkkülü həmişə bəzi fərdlərdə mühitin dəyişdirilməsinə yönəldilmiş məqsədyönlü fəaliyyətə daim daxili bir istəyin olması ilə bağlıdır. Üstəlik, belə fərdlər qarşıya qoyulmuş məqsədə çatmağı özlərinin həyatından üstün tutur, yəni daxilindəki özünüqoruma instinktini boğurlar. Nadir rast gəlinən belə hallar növün davranış normasından kənaraçıxma deməkdir.**

Bu hal Qumilyova qədər heç yerdə və heç kim tərəfindən nə təsvir edilmiş, nə də araşdırılmışdır. Belə əlamətlərə malik olan şəxslər özləri üçün əlverişli şəraitdə elə hərəkətlər edirlər ki, bunlar cəmlənərək, ənənənin ətalətini pozur və yeni etnosların yaranmasına səbəb olur. Bu genetik əlamətin doğurduğu xüsusiyyət çoxdan bəlli idi. Lakin onun təsviri üçün "sosial passionarlıq" və ya "passionar təkan" ("passio" - ehtiras deməkdir) terminini məhz Qumilyov təklif etmişdir *[Гумилёв, 1990]*.

Qumilyova görə, passionarlıq ətraf mühiti dəyişdirməyə çalışmaq, yaxud fizika dilində desək, mühitin aqreqat halının ətalətini pozmaq qabiliyyəti və buna çalışmaq deməkdir. Passionarlıq impulsu elə güclü olur ki, bu əlamətin daşıyıcıları - passionarilər özlərini öz hərəkətlərinin nəticələrini bəri başdan nəzərə almağa vadar edə bilmirlər. Bu, çox mühüm haldır və göstərir ki, passionarlıq şüurun deyil, təhtəlşüurun[1] atributudur, əsəb fəaliyyətinin quruluşunun xüsusiyyətində özünü göstərən əlamətdir. Passionarlıq dərəcələri müxtəlifdir, lakin onun görünən və tarix tərəfindən qeydə alınan təzahürlərinin olması üçün passionarilər çox olmalıdır, yəni, bu, təkcə fərdi əlamət deyil, həm də populyasiya əlamətidir.

Passionarlıqdan irəli gələn əməllər ümumbəşəri özünüqoruma instinktinin - şəxsi və növ - olması nəticəsində edilən adi əməllərdən asanlıqla seçilir. Özünü bəzən bütün ömür boyu bu və ya digər bir məqsədə həsr etmək passionarilər üçün səciyyəvi haldır. Bu deyilənlərdən mühüm bir nəticə hasil olur: etnik kollektivin yerinə yetirdiyi iş onun passionar gərginliyinin səviyyəsinə bilavasitə mütənasibdir.

Qumilyov bu və ya digər landşaftın, təbii şəraitin etnosun formalaşmasına təsirinin, etnoslararası əlaqələrin forma və xüsusiyyətlərinin də özünəməxsus izahını vermişdir. Bu əlaqələri o, üç formada izah etmişdir:

Simbioz - etnosların ahəngi, burada hər bir etnos öz ekoloji ərazisini, landşaftını tutur və bununla bərabər milli xüsusiyyətlərini saxlayır. Simbiozda etnoslar bir-biri ilə qarşılıqlı əlaqədə olur və bir-birini zənginləşdirirlər. O, xalqların həyat imkanlarını artırır, ölkəni qüdrətli edir.

Kseniya - uyğunlaşmadır, burada bir "qonaq" etnos başqasının ərazisinə səpələnir. "Qonaq" təcrid olunmuş şəkildə yaşayır və "sahib"in etnik sistemini pozmur. Kseniyanın olması qarışıq etnos üçün təhlükəsizdir. Lakin "qonaq" öz təcridliyini aradan qaldırarkən ximeraya çevrilir.

[1] Təhtəlşüur - şüuraltı, instinktiv.

Ximera - birləşməzin birləşməsidir. O, superetnoslara məxsus iki etnosun bir vahid məkanda üz-üzə gəldiyi və etnik dəyərləri uyğun gəlmədiyi təqdirdə meydana çıxır və onlar bir-biri ilə qarışıq şəkildə yaşayır. Belə hallarda dağıntı və qan tökülməsi, bu və ya digər etnosun məhvi də qaçılmazdır. Etnosun dağılması prosesi 150-200 ildən çox davam edə bilər *[Гумилёв, 1993, стр.178-179]*.

Hər şeydən göründüyü kimi, "köhnə" xalqların və mədəniyyətlərin süst tarixi mövcudluğunu qəflətən hərəkətə gətirən, məkan, mənəvi və texniki ekspansiyanın dinamik inkişafında yaranmış müxtəlif etnik və dini qrupları ehtiva edən bioloji və mənəvi enerjinin izahedilməz sinxron sıçrayışı ayrı-ayrı etnosların qalıqlarının ələ keçirilməsinə və onların yeni, fəal və həyat qabiliyyətli formalarının yaranmasına gətirib çıxarır. Normal halda yüksək və tamdəyərli passionarlıq, dinamik etnogenez prosesi siyasi təşkilatın milli dövlətçilik formasından daha çox, imperiyaya uyğun gələn xüsusi superetnosun yaranmasına gətirib çıxarır.

Passionarlıq tədricən azalır. "Passeizmi" (Qumilyov üçün pozitiv məna daşıyan bu kateqoriyanı o "qəhrəmanlığa", milli ənənələrə sədaqət naminə təmənnasız quruculuq cəhdinə bərabər tutur) "aktualizm", yəni gələcək nəsillərin taleyinə məhəl qoymadan və ənənələrdən təcrid olunmuş şəkildə yalnız müasir dövrlə bağlı qayğılar əvəz edir. Bu fazada "passionar sarsıntı" baş verir və etnogenez mənfi stadiyaya - konservasiya və parçalanmanın başlanması mərhələsinə daxil olur. Sonrakı "futurist" fazada aciz xəyalpərəstlər, fantaziyaçılar, mistiklər hökmranlıq edir. Onlar ətraf varlığa inamı itirir və "o dünyaya" can atırlar. Qumilyov bunu tam tənəzzül əlaməti hesab edir. Etnos deqradasiyaya uğrayır (düşkünləşir), superetnoslar tərkib hissələrə parçalanır, imperiyalar dağılır.

Bu vəziyyət yeni "passionar təkan" baş verənə qədər davam edir. Sonra yeni, "təravətli" etnos yaranır və o, əvvəlki konstruksiyaların qalıqlarından ibarət yeni etnogenez yaranmasına təhrik edir. Bu halda bəzi etnoslar (Qumilyov onları "ximera" adlandırır) "relikt" vəziyyətində qalır, digərləri isə yeni etnogenetik prosesin dinamikasında yox olur.

Qumilyova görə, etnik passionarlığın çökməsi onunla müəyyənləşir ki, enerjili passionar insanlar nəsildən-nəslə azalır, onlar tərəfindən yaradılan sosial sistem inkişafla ayaqlaşa bilmir, təbii mühitə nisbətən fəaliyyətsizləşir. Etnos getdikcə sarsılır və daha ağır şəraitə uyğunlaşmaq, daim yenidən dəyişmək məcburiyyəti ilə üzləşir və bununla razılaşır. Əgər bu proses uğurla başa çatırsa, onda etnos etnogenezin digər fazasına - ətalət fazasınadək yaşamaq şansı qazanır. Ətalət fazasında passionarlıq etnik varlığı tədricən öldürür, insanlar isə yalnız maddi və mədəni nemətlərdən zövq alır. Lakin passionarlıq böhranlı nöqtədən aşağı səviyyəyə düşəndə insanların maddiyyatdan duyduğu aldadıcı uğur öz passionarları tərəfindən məhv edilir və etnos bir varlıq kimi yox olur, qalan ayrı-ayrı insanlar isə ya assimilyasiyaya məruz qalaraq yeni etnoslara çevrilir, ya da etnik qalıqlar şəklində ömürlərini başa vurana qədər mövcud olurlar.

Qumilyov belə bir fikri xüsusi vurğulayır ki, nisbətən "təzə" və "gənc" etnos olan velikoruslar öz ətrafında Rusiya-Avrasiya "superetnosu", yaxud Avrasiya imperiyasını yaratmışlar.

Tədqiqatçılar hesab edir ki, bəzi məsələləri mübahisəli olsa da, Qumilyovun etnogenez və velikorus dövlətçiliyinin meydana gəlməsi tarixi probleminə yanaşması tamamilə düzgün idi. **Qumilyovun fikrincə, özünəməxsus mədəni və sosial xarakteristikası olan velikoruslar heç də *Trubetskoy* və *Savitskinin* iddia etdiyi kimi, Şərq slavyanlarının bir qanadı deyil, türk-slavyan birləşməsindən yaranan "xüsusi etnosdur". O, monqol-tatarları rus torpaqlarının qəsbkarı kimi təsvir edənlərlə qətiyyən razılaşmayaraq, əksinə, onların: *"Rus dövlətini Avropanın katolik təcavüzlərindən qurtaran xilaskar"* olduğunu sübuta yetirmişdir.**

Qumilyovun avrasiyaçılığından aşağıdakı geosiyasi nəticələr çıxır (məlum siyasi mülahizələrə görə, Qumilyov özü bu nəticələri şərh etməmiş, ciddi tarix elminin çərçivəsində qalmağı üstün tutmuşdur):

1) Avrasiya tamdəyərli "inkişaf yeri", etnogenez və kulturogenez üçün çox zəngin və münbit zəmindir. Buna görə də dünya tarixini birqütblü "Qərb və yerdə qalanların hamısı" işığında deyil, çoxqütblü aspektdə nəzərdən keçirməyi öyrənmək lazımdır. Özü də Şimali və

Şərqi Avrasiya xüsusi maraq doğurur, çünki onlar ən mühüm planetar sivilizasiya proseslərinin Qərbə alternativ mənbəyidir. Qumilyov öz əsərlərində *Makinderin* "tarixin coğrafi oxu" haqqında tezisinin geniş şərhini verir və bu oxa konkret tarixi və etnik məzmun kəsb etdirir.

2) Velikorus dövlətçiliyinin əsasını təşkil edən Meşə və Çölün geosiyasi sintezi Asiya və Şərqi Avropa üzərində mədəni-strateji nəzarət üçün mühüm reallıqdır. Bu, Şərqlə Qərbin harmonik münasibətlərinə kömək edərdi, halbuki Qərb sivilizasiyasının (Meşə) mədəni məhdudluğu hökmranlığa meyil edərkən Şərq mədəniyyətinin (Çöl) tam dərk edilməməsi ilə müşayiət olunur, bu isə yalnız münaqişələrə və sarsıntılara gətirib çıxarır.

3) Qərb sivilizasiyası "ximerik" etnosların konqlomeratı olmaqla etnogenezin ən son tənəzzülü mərhələsindədir. Buna görə də ağırlıq mərkəzi hökmən daha gənc xalqlar tərəfə dəyişəcəkdir.

4) Mümkündür ki, yaxın gələcəkdə əvvəlcədən proqnozlaşdırıla bilməyən və nəzərdə tutulmayan "passionar təkanlar" baş verəcək, planetin siyasi və mədəni mənzərəsi kəskin dəyişəcəkdir, çünki relikt etnosların hökmranlığı uzun müddət davam edə bilməz *[Дугин, 1994, стр.67-68].*

3.6.2. Yeni rus avrasiyaçıları

Qumilyov özü dünyanın onun təsəvvür etdiyi mənzərəsi əsasında geosiyasi nəticələri ifadə etməmişdir. Marksist ideoloji senzurasının zəiflədiyi (və sonradan ləğv edildiyi) dövrdə bu işi onun davamçıları gördülər. Bütövlükdə, bu istiqamət "yeni avrasiyaçılıq" adı almışdır. Öz növbəsində, onun da bir neçə növü mövcuddur. Bu növlərin heç də hamısı Qumilyovun ideyalarını qəbul etmir, lakin bütövlükdə götürdükdə, Qumilyovun bu geosiyasi ideologiyaya təsiri çox güclüdür.

Yeni avrasiyaçılığın bir neçə növü var. Bunlardan birincisi (ən əsası və daha çox inkişaf edəni) 1990-1994-cü illərdə Rusiyada liberal islahatlara etiraz edən milli müxalifətin bəzi siyasi dairələri tərəfindən ifadə edilmiş *çoxölçülü ideologiyadır.* Söhbət "День" (sonradan "Завтра" adlandırılmışdır) qəzetinin və "Элементы" jurnalının ətrafında birləşmiş ziyalılar qrupundan gedir.

Bu yeni avrasiyaçılıq *P.Savitskinin, G.Vernadskinin,* knyaz *N.Trubetskoyun,* eləcə də rus millətçi bolşevizm ideoloqu *Nikolay Ustryalovun* ideyalarına əsaslanır. Tarixi avrasiyaçıların apardığı təhlil yüksək dərəcədə aktual və indiki şəraitə tamamilə tətbiq oluna bilən hesab edilir. Kontinental miqyaslı milli imperiya ideokratiyası tezisi, eyni zamanda, həm liberal qərbçiliyə, həm də məhdud etnik millətçiliyə qarşı qoyulur. Rusiya geosiyasi "böyük məkan"ın oxu hesab edilir, onun etnik missiyası imperiya quruculuğu ilə birmənalı şəkildə eyniləşdirilir.

Sosial-siyasi səviyyədə bu istiqamət Avrasiya sosializminə birmənalı şəkildə meyil edir, liberal iqtisadiyyatı atlantist düşərgənin səciyyəvi əlaməti hesab edir. Rusiya tarixinin sovet dövrü "smenovexa" perspektivində rus millətinə xas olan ənənəvi planetar ekspansiyaya və "Avrasiya antiatlantist universalizm"inə meyil etməyin modernist forması sayılır. Buna görə də yeni avrasiyaçılığın bu versiyası kommunistpərəst meyillərlə fərqlənir.

Lev Qumilyovun irsi qəbul edilir, lakin bu halda passionarlıq nəzəriyyəsi italyan sosioloqu *Vilfredo Paretonun*[1] (1848-1923) "elitaların sirkulyasiyası" haqqında təlimi ilə əlaqələndirilir, Qumilyovun dinşünaslıq baxışları isə Avropa tradisionalistlər məktəbi (*Henon, Evola* və b.) əsasında təshih edilir.

Tradisionalistlərin "müasir dünyanın böhranı", "Qərbin deqradasiyası", "sivilizasiyanın desakralizasiyası" və başqa ideyaları yeni avrasiyaçılığa mühüm komponent kimi daxil olur, rus müəlliflə-

[1] Pareto istənilən sahədə yüksək nəticələr əldə edən fərdlərin cəmini "elita" adlandıraraq, onu "hakim" və ya "əkselita" kimi ayırırdı. Elitaların dövranında o, cəmiyyətin inkişafına təkan verən amil görürdü. Paretoya görə, bir-birini mütəmadi əvəz edən iki əsas elit tipi var. Birinci tip - şərti olaraq "aslanlar" adlanır. Onlara həddən artıq mühafizəkarlıq, kobud "güc" idarəçilik davranışı xasdır. İkinci tip - "tülkülər", demaqogiyanın, yalanın və siyasi kombinasiyaların ustalarıdır. Sabit siyasi sistem "aslanlar" elitasının üstünlüyü ilə xarakterizə olunur, qeyri-stabil sistem isə, əksinə, praqmatik düşünən çevik, enerjili və yeniliyə meyilli "tülkülər", tələb edir. "Aslanlar" elitasının üstünlük təşkil etdiyi cəmiyyət durğundur. "Tülkülər" elitası cəmiyyətə dinamizm verir. Elitaya sadalanan hər tipli insanların proporsional şəkildə axını təmin olunduğu zaman, sosial tarazlıq mexanizmi qorunub saxlanılır. Zamanla "tülkülər" sərt metodlar və despotizm tərəfdarı olan "aslanlara" çevrilirlər. Dövriyyənin dayanması hakim elitanın cırlaşmasına səbəb olur. Paretoya əsasən, elitanın hakimiyyəti iki vasitədən birinin - ya gücün, ya da hiylənin istifadəsi nəticəsində gerçəkləşir.

rinin yalnız sövq-təbii şəkildə və fraqmentar formada təqdim etdikləri məqamları tamamlayır və inkişaf etdirir.

Bundan əlavə, Avropa kontinentalist layihələri (*Haushofer, Şmitt, Nikiş,* "yeni sağlar" və b.) hərtərəfli araşdırılır, bunun hesabına avrasiyaçılıq doktrinasının əhatə dairəsi potensial kontinental qüvvə kimi başa düşülən Avropaya da şamil edilir. Bu motiv tarixi mühacir avrasiyaçılara tamamilə yabançıdır. Onlar öz əsas əsərlərini yazarkən ABŞ hələ müstəqil geosiyasi əhəmiyyət kəsb etmirdi və Avropa ilə Qərbin fərqi haqqında tezis hələ lazımınca inkişaf etməmişdi. Avropalı kontinentalistlərdən nümunə götürən yeni avrasiyaçılıq Avrasiyanın "Böyük məkan" kimi geosiyasi cəhətdən bitkin və tamdəyərli olması üçün strateji əhəmiyyətini qəbul edir, xüsusən bir məqamı nəzərə alır ki, SSRİ-ni "soyuq müharibə"də məğlub olmağa gətirib çıxarmış amil məhz Avropanın geosiyasi xəritəsinin qeyri-sabit bölünməsi olmuşdur.

Yeni avrasiyaçılığın daha bir xüsusiyyəti islam ölkələrinin (xüsusən kontinental İranın) ən mühüm strateji müttəfiq kimi seçilməsidir. Avrasiya materikinin cənub-qərb sahillərində antiatlantik strategiyanın əsasını kontinental rus-islam alyansı ideyası təşkil edir. Doktrinal səviyyədə bu alyans rus və islam sivilizasiyalarının ənənəvi xarakteri ilə əsaslandırılır. Bu, ənənələrə zidd, dünyəvi-praqmatik Qərb ilə qarşıdurmada rus və islam sivilizasiyalarını birləşdirir.

Yeni avrasiyaçılığın bu istiqamətində aktual şəraitə tətbiqən bütün geosiyasi layihələrin mənzərəsi tamamlanır, çünki yeni avrasiyaçılıq layihəsi ideoloji, strateji və siyasi baxımdan Qərbin geosiyasi layihələrinin (həm atlantist, həm də mondialist layihələrin) bütün müxtəlif formalarının əksidir.

Mondializm və atlantizm uzaq Qərbin geosiyasi ideologiyasının iki müxtəlif növünü ifadə edir. Avropalı geosiyasətçilərin avropaçılığı və mötədil kontinentalizmi aralıq gerçəklikdir. Nəhayət, "День" qəzetinin və xüsusən "Элементы" jurnalının avrasiyaçılığı radikal anti-Qərb mövqeyini ifadə edir. Bu mövqe Avropa millətçi bolşevizmindən başlamış islam sosializminə qədər bütün başqa alternativ geosiyasi layihələrlə, hətta Üçüncü dünyanın bütün guşələrində milli-azadlıq hərəkatları ilə də qovuşur.

Yeni avrasiyaçılığın digər formaları nisbətən ardıcıl deyil və onlar yuxarıda adlarını çəkdiyimiz bütün ideyalar kompleksinin dəyişkən siyasi gerçəkliyə uyğunlaşmasından ibarətdir. Bu halda ya təkcə praqmatik, keçmiş SSRİ respublikalarının qarşılıqlı iqtisadi əlaqələrini bərpa etmək məqsədi güdən iqtisadi avrasiyaçılıqdan (Qazaxıstan Prezidenti *N.Nazarbayevin* layihəsi), ya ekspansionist tezislərin əsaslandırılmasından (*V.Jirinovskinin* "böyük dövlətçilik" layihəsi), ya rusların və milli azlıqların (bunların əksəriyyəti etnik türklər və müsəlmanlardır) Rusiya Federasiyasının tərkibində saxlanması üçün "Avrasiya birliyi" barədə xalis ritorik çağırışlar (*B.Yeltsin* hökumətinin bəzi xadimlərinin layihəsi), ya da mühacirətdə fəaliyyət göstərən *Savitski, Trubetskoy, Suvçinski, Karsavin* və b. irsinə tarixi maraq barədə söhbət gedir. Lakin bütün bu versiyalar fraqmentar, qeyri-ardıcıl olub müstəqil və sistemli geosiyasi ideologiyaya və metodologiyaya çevrilməyə iddia edə bilmirlər. Buna görə də həmin versiyalar üzərində ətraflı dayanmağa lüzum yoxdur.

3.7. Türk avrasiyaçılığı

Türkiyə geosiyasətində "avrasiyaçılıq" terminindən ilk dəfə *Mustafa Kamal Atatürk*[1] (1881-1938) istifadə edib. Bu ifadəni Tür-

[1] Türkiyənin hərbi, siyasi və dövlət xadimi. 1902-ci ildə hərbi məktəbi bitirdikdən sonra orduda müxtəlif vəzifələr tutub. 1913-cü ildə Türkiyənin Sofiyada (Bolqarıstan) hərbi attaşesi olub. Atatürk Birinci Dünya müharibəsində Osmanlı ordusunda öz sərkərdəlik bacarığına görə ən çox nəzərə çarpan generallardan olub. Onun rəhbərlik etdiyi hərbi hissələr İstanbulu ələ keçirmək üçün Gelibolu yarımadasına çıxarılan ingilis-fransız qoşunlarını 1915-1916-cı illərdə məşhur Çanaqqala əməliyyatında ağır məğlubiyyətə uğradıb.

Türkiyə Birinci Dünya müharibəsində məğlub olandan sonra, 1919-cu ildə Anadoluya gələn Atatürk burada başlayan milli-azadlıq hərəkatına rəhbərlik edib. Atatürkün yaratdığı yeni türk ordusu 1921-1922-ci illər ingilis-yunan müdaxiləçilərini məğlub edərək, ölkədən qovandan sonra Türkiyəni parçalamağı planlaşdıran Sevr müqaviləsi (1920) öz əhəmiyyətini itirmişdir. Türkiyə Böyük Millət Məclisi (TBMM) bu qələbəyə görə Atatürkə marşal rütbəsi və qazi (qalib) fəxri ləqəbini verib.

Atatürk 1920-1933-cü illərdə TBMM-in sədri, 1923-1938-ci ildə isə Türkiyə Cümhuriyyətinin Prezidenti olub. Türkiyəni orta əsr cəhalətindən xilas edərək, onu dünyanın müasir sivil dövlətləri səviyyəsinə qaldırmaq məqsədilə Atatürk 20-30-cu illərdə Türkiyə tarixinə "Mədəni inqilab" adı ilə daxil olan sosial-iqtisadi, siyasi və mədəni-maarif sahələrində bir sıra islahatlar həyata keçirib. Türkiyənin milli istiqlaliyyəti və suverenliyinin möhkəmləndirilməsində misilsiz xidmət göstərib.

Türkiyə Cümhuriyyətinin banisi yaxınlıqda yerləşən ərazilərlə birlikdə Türkiyə dövlətinin geosiyasi məkanını "Avrasiya" adlandırır, onun əsas əlaqələrini də məhz bu coğrafiyada yerləşən dövlət və xalqlarla bağlamağa çalışırdı.

kiyənin geosiyasi düşüncə müstəvisinə 1908-ci ildə klassik turançı ideoloq *Ziya Göyalp*[1] (1876-1924) gətirib. Sonrakı illərdə bu terminə geosiyasi məkan anlamı verilmiş və onu Türkiyənin rəsmi xarici siyasət xətti kimi ayrı-ayrı zamanlarda və şəraitlərdə aktuallaşdıraraq müəyyən tarixi dönəmlərdə istifadə etmişlər.

Tədqiqatçı Fatih Akgül türk avrasiyaçılığını *üç əsas cərəyana* bölür. Bunlar:

- mühafizəkarlar,
- milliyyətçilər və
- sol sosialist baxışlı avrasiyaçılardan ibarətdir *[Fatih Akgül, 2009, səh.164]*.

Müəllifin fikrincə, *mühafizəkar avrasiyaçılıq xətti* Türkiyənin hazırkı xarici işlər naziri *Əhməd Davutoğlunun* rəhbərliyi ilə həyata keçirilən rəsmi xarici siyasət konsepsiyasında əksini tapıb. Bu cərəyan "Yeni Osmanlı" geosiyasi konsepsiyası əsasında Türkiyə Cümhuriyyətini beynəlxalq aləmdə "dünya dövləti" səviyyəsinə qaldıraraq onun geosiyasi statusunu yüksəltməyə, planetdə baş verən əksər dünya əhəmiyyətli hadisələrdə iştirakını təmin etməyə yönəlib. *Ə.Davutoğlunun* konsepsiyasına görə, Türkiyə Avropa İttifaqı ilə tərəfdaşlıq və ABŞ-la strateji müttəfiqlik əlaqələrindən bəhrələnərək, Rusiyanın bölgədə yürütdüyü slavyan-ortodoks avrasiyaçılığına (Yunanıstan, Kipr (Cənubi), Ermənistan və İranla reallaşdırdığı geosiyasi müttəfiqliyə) qarşı, Türkiyə-Qərb və Türkiyəyə yaxın digər dövlətlərin geosiyasi avrasiyaçılığını formalaşdırmaq və bölgədə "yeni bir geosiyasi güc" reallaşdırmaq lazımdır. Mühafizəkar avrasiyaçılar Türkiyənin yeni geosiyasi statusuna onun fəal dünya geosiyasəti reallaşdırmaq, bütün region ölkələri ilə *"sıfır problem - maksimum inteqrasiya"* siyasəti yürütmək, türk diasporunun, Türkiyənin müasir

[1] Ziya Göyalp ən alovlu türkçü, sosioloq, fikir adamı kimi tanınır. Onun millətçi "avrasiyaçılıq-turançılıq" ideyası sonrakı illərdə Osmanlı dövlətinin ruslarla Avrasiya uğrundakı mübarizələrində türk millətçiliyinin güclənməsinə xidmət etmişdir. Cümhuriyyətin ilk illərində türklərin geosiyasi düşüncə sahibləri olan *Yusuf Akçura* (1876-1935), *Nihal Atsız* (1905-1975) və *Reha Oğuz Türkkan* (1920-2010) "avrasiyaçılığı" Türkiyənin yeni dövlət strategiyası səviyyəsinə qaldırmağa cəhd göstərmişlər. Atatürk Cümhuriyyətin 1920-30-cu illərdəki xarici siyasətində bu ideyanı özünəməxsus bir yanaşma ilə həyata keçirmiş və ölkənin regiondakı geosiyasi təmaslarının qurulmasında ondan məharətlə bəhrələnmişdir.

iqtisadi potensialından istifadə etməklə nail olmağa üstünlük verir və beynəlxalq aləmdə mövcud olan qlobal geosiyasətə *"dünyada türk kimliyinin qorunması və gücləndirilməsi"* yolu ilə müqavimət göstərməklə, cavab verməyə çalışırlar *[Fatih Akgül, 2009, səh.164]*.

Bu qrup Avrasiya coğrafiyasında həm türk-müsəlman cümhuriyyətləri, həm də digər ölkələrlə işbirliyini gücləndirmək, Rusiya ilə bölgədə geosiyasi tarazlıq yaratmaq və Türkiyənin qonşu dövlətlərlə bütün mövcud problemlərini aradan qaldırmaq istiqamətində çalışır.

Millətçi baxışlara malik avrasiyaçılar daha çox *"turançı avrasiyaçılıq"* ideyasından çıxış edərək milli mənsubiyyət əlamətləri üzrə bütün türkəsilli xalqları bir araya gətirmək, pantürkizm - çağdaş türk birliyi ideyasını dirçəltmək istəyirlər. Bir faktı da vurğulamaq lazımdır ki, millətçi qrup heç də bölgədə Rusiya ilə ittifaqda siyasət yürütməyə qarşı deyil. Onlar dünyanın Avratlantik gücləri qarşısında "rus-slavyan birliyi" ilə "türk birliyinin" geosiyasi ittifaqını ən güclü və nəhəng planetar geosiyasi varlığa çevirmək ehtimalına heç də xəyal kimi baxmırlar.

Avrasiyaçıların üçüncü əsas qrupu - *sol sosialist görüşlü qüvvələr və strateji mərkəzlər, jurnal, qəzet və digər nəşrlərdə təbliğ olunan geosiyasi nəzəriyyə tərəfdarları sayılır.* Bu qrupun nümayəndələri özlərini ən dürüst atatürkçülər kimi təqdim edərək, Avrasiya coğrafiyasında "xalq dövləti" ideyasını həyata keçirmək, bölgənin bütün xalq və dövlətlərini ortaq maraqlar ətrafında birləşdirərək "dinc və firavan" Avrasiya Birliyinə nail olmaq məqsədinə nail olmaq istəyirlər. Türkiyənin "Aydınlıq" jurnalı, "Ulusal" televiziya kanalı və İşçi Partiyasının ətrafında birləşən solçu avrasiyaçılar Rusiya, Çin, Mərkəzi Asiya və digər ölkələrdə "solyönlü xalq birliyi" və antiatlantik ideyalarını yaymaqla, Türkiyənin Atlantik müttəfiqliyi əvəzinə, Avrasiya müttəfiqliyini reallaşdırmağa və bu yolla bütün bölgənin rifahına qovuşmağa səsləyirlər.

Türk geosiyasətində avrasiyaçıları daha geniş şəkildə təsnif etmək cəhdləri də var. Məsələn, *Mehmet Açа* Türkiyədəki bütün avrasiyaçıları 6 qrupa bölür:

• *Sultan Qaliyevin* (1892-1940) "Sosialist Turan dövləti" nəzəriyyəsinin davamçıları,

• geosiyasətçi alim *Atilla İlhanın* "Kamalçı avrasiyaçılığı",

• İşçi Partiyası və *Doğu Perinçek* tərəfindən müdafiə olunan avrasiyaçılıq,

• "Ulusal" və "Yeni Avrasiya" jurnalları ətrafında toplanan "milliyyətçi avrasiyaçılar",

• Türkiyənin Strateji Araşdırmalar Mərkəzi - TSAM tərəfindən istiqamətləndirilən "avrasiyaçılığı",

• "Zaman" qəzeti və onun qrupuna daxil olan Gülənçilərin Dialoq Avrasiya platforması ətrafında birləşən "mühafizəkar avrasiyaçılar" *[Mehmet Açа, 2002, səh.161-162]*.

Digər türk tədqiqatçısı Suat İlhan avrasiyaçıları iki təməl qrupa bölüb. Bunlardan birincisi, Rusiyanın Duqin və Jirinovski kimi geosiyasi xadimlərinin ideyalarını müdafiə edərək "rus-türk geosiyasi birliyini dəstəkləyən və reallaşdırmaq istəyən qruplar"dır (bunların sırasına Türkiyənin İşçi Partiyası, "Aydınlıq" jurnalı, "Ulusal" kanalı və ona yaxın "Ulusalçı İş Adamları Dərnəyi" (USAİD və s. daxildir). İkincisinə isə "Türküstan mərkəzli avrasiyaçılıq xətti yürüdən" avrasiyaçıları aid edirlər. Müəllif örnək olaraq bu qrupa özünü, *Anil Çeçeni,* Yeni Çağ qrupunu, *Namik Kamal Zeybəki,* TSAM-ı və Avrasiya televiziyasını aid edir *[Suat İlhan, 2005, səh.212-213]*.

Suat İlhana görə, hər iki qrupu birləşdirən ümumi cəhət onların Atatürkçü düşüncə nümayiş etdirmələri, Türkiyənin Avropa İttifaqı üzrə fəaliyyətini Avrasiya siyasəti ilə əvəzləmək istəyi və Qərbə qarşı çıxmalarıdır *[yenə orada]*.

Türkiyənin müasir avrasiyaçıları sırasında "milliyyətçi avrasiyaçılığa" yaxın geosiyasi mövqeni "Mərmərə" Strateji Araşdırmalar Vəqfi və onun sədri *Akkan Suver* tutur. Onların yanaşmasında Avrasiya coğrafi mənada iki ayrı qitənin birləşməsi hesab olunsa da, geoməkan olaraq hər iki qitənin milli-mənəvi və ictimai davranış normalarını, düşüncə və dəyərlərini meydana gətirən, formalaşdıran və milli sərhədləri keçərək "qlobal geosiyasi birlik" mahiyyəti daşıyan subregiondur. *Akkan Suver* və "Mərmərə" qrupu Çindən

Adriatik dənizinə qədər böyük bir geosiyasi məkanda Avropa İttifaqına bənzər "Avrasiya Birliyi" yaratmaq ideyasını təbliğ edir və bu istiqamətdə fəaliyyət qururlar.

Türkiyədə "yeni osmanlıçılıq" düşüncəsinə söykənən mühafizəkarlardan tutmuş millətçi sağ qüvvələrə qədər - bütün avrasiyaçı cərəyanlar öz geosiyasi baxışlarını Atatürkün ideyaları və görüşləri ilə əsaslandırmağa çalışırlar.

Mühafizəkar avrasiyaçı cərəyanlar hazırkı bölgə siyasətlərini də *Atatürklə* bağlayaraq hesab edirlər ki, *Atatürk* Türkiyə Cümhuriyyətini qurarkən, pantürkçülük və turançılıqdan müəyyən qədər uzaqlaşmış, Türkiyə sərhədlərindən kənarda qalan türklərlə əlaqələrdə daha ehtiyatlı davranmış, Cümhuriyyətin hüdudları çərçivəsində mədəni bir ulus dövləti yaratmış, "Yurdda sülh, cahanda sülh" şüarından çıxış edərək, bölgənin bütün xalqları və dövlətləri ilə ortaq maraqlar çərçivəsində münasibətlər qurmuş, qatı millətçilik ideyalarından imtina edərək beynəlxalq bölgə siyasəti yürütmüşdür.

Sağ millətçi avrasiyaçılar isə *Atatürkün* reallaşdırdığı siyasətin kökündə "türk birliyi" ideyası dayanan "turançı avrasiyaçılıq" düşüncəsinə əsas axtarırlar. Onlar hesab edirlər ki, *Atatürkün* istiqlal mübarizəsində və sonrakı Avrasiya geosiyasətində həm pantürkçülük, həm də turançılıq əsas yer tutmuşdur. Onların iddiasına görə, *Atatürk* nə vaxtsa SSRİ-nin dağılacağına, Mərkəzi Asiya və Qafqazdakı türklərin bir araya gələcəyinə və bütün dünya türklərinin bütövləşəcəyinə inanırdı və Türkiyəni buna hazır olmağa səsləyirdi.

Türkiyənin solyönlü avrasiyaçıları isə geosiyasi fikirlərini əsaslandırmaq üçün *Atatürkün* "Anadoluda məzlum millətlərə örnək olan antiimperialist mübarizəni və siyasəti" başlatmasını, daha sonra dünyəvi dövləti quraraq bütün Avrasiyanın işğal altında inləyən xalqlarına örnək olmasını nümunə göstərirlər.

Məlum olduğu kimi, *Atatürkün* geosiyasi görüşləri hazırkı türk geosiyasətçilərinin fəaliyyətində və nəzəriyyələrində bu və ya digər dərəcədə onların dünyagörüşlərinə və fəaliyyət istiqamətlərinə uyğun olaraq istifadə edilir. Lakin Türkiyədə "*Atatürk* avrasiyaçılığı"nın

müasir cərəyanlardan, xüsusən millətçi düşüncələrdən ciddi fərqləndiyi fikrini söyləyənlər, önə çəkənlər də var. Onlar hesab edirlər ki, *Atatürkün* geosiyasi yanaşmasında indiki türk milliyyətçiliyindən fərqli olaraq, "millət" anlayışı heç də "ayırıcı" bir ünsür kimi qəbul edilmir. Onun təməlində "ortaq yaşayış arzusu, eyni coğrafiyanı bölüşmək, əsrlərlə formalaşmış birgə tarixi və mədəni dəyərləri qorumaq, şovinist, etnik və ya dini ayrı-seçkilikdən və ayırıcı millətçilikdən uzaq olmaq istəyi dayanır" *[Həmzə Eroğlu, 1990, səh.391-392].*

Eroğlunun fikrincə, Atatürk hətta mənfi anlamda türk millətçiliyinin qavranılmasının, dərk olunmasının qarşısını almaq üçün ömrünün son anlarında "millətçilik" anlayışı yerinə, "ulusçuluq" məfhumuna üstünlük verirdi. Hazırda rus və türk avrasiyaçıları da "vahid bölgəyə mənsubluq" anlamında "avrasiyalı" kimi termindən yararlanırlar. *Atatürkün* vətənsevərlik fikri ruscada "patriot" mənasında istifadə olunur.

3.8. Geosiyasi kodlar haqqında təsəvvür

3.8.1. Geosiyasi kodlar (kodekslər)

Geosiyasi kodlar - hökumətin xarici siyasətini formalaşdıran zaman digər dövlətlər haqqında qurduğu strateji ehtimallar toplusudur. Bu cür operativ kodekslərə dövlətin sərhədlərindən kənar regionların strateji əhəmiyyəti baxımından və potensial təhlükələr qismində qiymətləndirilmə daxildir. Geosiyasi kodekslər sadəcə dövlətsentrik deyillər, onlar həm də dünyaya xüsusi baxışa malikdirlər. Kodekslər, eyni zamanda, geosiyasi dünya nizamının başlıca "inşaat blokları" kimi dərk edilirlər.

Geosiyasi kodekslər *yerli, regional və dünya səviyyəsində* fəaliyyət göstərirlər:

- *Yerli səviyyədə kodeks* qonşu dövlətlərin qiymətləndirilməsindən ibarətdir. Bütün, hətta kiçik ölkələrin hökumətləri bu cür kodeksə malik olmalıdırlar.
- *Regional səviyyədə kodekslər* təsirini birinci dərəcəli qonşularından uzağa yaymağa çalışan dövlətlər üçün tələb olunur. Bütün regional dövlətlərin hökumətləri və potensial regional dövlətlərə bu cür kodekslərin işlənib hazırlanmasını planlaşdırmaq

zəruridir. *Bəzən regional kodeks yerli kodekslə münaqişədə olur.* Türkiyə və Yunanıstan arasında münasibət buna yaxşı misaldır. Hər iki ölkə NATO-ya daxildir, yəni bu təşkilatın müəyyən etdiyi eyni regional kodeksin tərəfdarıdır. Lakin, eyni zamanda, ənənəvi olaraq yerli düşmənçilik vəziyyətindədirlər.

- Nəhayət, planetin bir neçə dövləti qlobal siyasət həyata keçirirlər və onların hökumətləri müvafiq *geosiyasi dünya kodlarına* malik olmalıdırlar.

Bu səbəbdən bütün ölkələrin yerli kodeksləri var. Bir çox ölkələr regional kodekslər və yalnız bəzi ölkələr qlobal kodekslər (dünya səviyyəsində) işləyib hazırlayırlar.

Qlobal geosiyasi kodlar xüsusi diqqətə layiqdirlər. Xüsusən 1960-cı illərdən başlamış "ballistik raketlər erası"ndan sonra bu səviyyəli kodların mahiyyətinin nüvə silahının mövcudluğu ilə müəyyənləşdiyini iddia etmək mübaliğə olmazdı. Strateji raketlərin uçuş uzaqlığı saatda 15 min km-dək, "avrostratejilərin" saatda 2 min km-dək, taktiki raketlərin isə saatda 25-30 min km-ə qədərdir, seçilmiş hədəfi vurma dəqiqliyi çox yüksəkdir, mobil yerləşmə qabiliyyətlidir (şaxtalar, sualtı qayıqlar, bombardmançılar) - bütün bu göstəricilər strateji qüvvələr iyerarxiyasında çevriliş yaratmışdır.

Bir çox coğrafi amillər (ada vəziyyəti, morfoloji (forma, quruluş) xüsusiyyətlər, metereoloji şərtlər və s.) dünya geostrategiyası üçün ilkin mahiyyətini itirmişdir. "Atom" və ballistik raketlərin meydana çıxmasından sonra "böyük batalyonlar" dövrü ənənəvi strategiyanın əsas elementləri kimi tamamilə sona çatmışdır. Strateji sferalarda çalışanların sosial strukturu dəyişmişdir. "Göy" yaxalıqların "ağlarla" əvəzlənməsi daha böyük sabitliklə müşayiət olunur. Çünki "ağ yaxalıq" nadir halda həmkarlar ittifaqlarına daxil olur və praktik olaraq tətilə qalxmır. Belə radikal dəyişiklərlə əlaqədar dünya dövlətləri onlara əsaslanan geosiyasi kodlarını və doktrinalarını yenidən nəzərdən keçirdilər.

İkinci Dünya müharibəsindən sonra dünya geosiyasətinin bir sıra hakim ölkələrində qlobal geosiyasi kodların necə formalaşmasına diqqət yetirmək maraqlıdır *[Gaddis, 1982].*

3.8.2. ABŞ-ın geosiyasi kodları

İkinci Dünya müharibəsindən sonra ABŞ-ın siyasəti rəqibə - SSRİ-yə qarşı müdafiə mövqeyini nəzərdə tutan "qabağınalma" anlayışıyla müəyyən olunur. Ümumi istilah kimi "qabağınalma"-dan operativ kodekslər səviyyəsinə keçid zamanı bu anlayışın mənasının əhəmiyyətli dərəcədə dəyişdiyi üzə çıxır. Ümumi "qabağınalma" istilahı adı altında xeyli kodekslər "ailəsi" meydana çıxır.

Ən məşhur kodekslərdən biri Amerika diplomatı *C.Kennana* məxsusdur. *Qeddis* qeyd edir ki, 1945-ci ildə ABŞ SSRİ-ni yeni dünya nizamına cəlb etməyə çalışaraq "vahid dünya" siyasəti yürüdürdü. Bu "inteqrasiya yolu ilə qabağınalma" uğursuzluğa düçar oldu *[Gaddis, 1982, p. 9]*. SSRİ başqa məqsədlər güdürdü və universialist ideyalar faydasız idi. Belə olan halda 1947-ci ildə SSRİ ilə münasibətlərdə "dözümlülük və sərtlik" mövqeyi adlanan daha sərt xətt götürülmüşdü. Bunun kulminasiyası xüsusi məqsədlər güdən Amerika Prezidenti Harri Trumenin (1884-1972) doktrinası[1], - Britaniya qoşunlarının Yunanıstana və Türkiyəyə daxil olmasının ABŞ Konqresi tərəfindən təqdir edilməsi, - oldu. Trumen ABŞ-ın bütün "azad xalqlara" əl tutacağını bəyan etmişdi və bunu təbii ki, yerinə yetirmək mümkün deyildi. Bu, idealist düşüncənin elementi kimi qəbul edilirdi. 1945 və 1947-ci illər arasında ABŞ silahlı qüvvələri 12 milyondan 1,5 milyonadək azaldıldı, ekvivalent olaraq müdafiə büdcəsi də azaldıldı.

1947-ci ildə ABŞ dövlət katibi *C.Marşall* (1880-1959) tədqiqat sahəsi SSRİ olan *Kennanı* Dövlət Departamentinin siyasəti planlaşdırma idarəsinin direktoru təyin etdi. Artıq bizə məlum olduğu kimi, məhz bu vaxt "Foreign Affairs" jurnalında onun sovet xarici siyasətini və bunun ABŞ üçün nəticələrini təhlil edən məqaləsi çıxmışdır.

Kennanın "qabağınalma" kodeksi özündə bir neçə geosiyasi mövqeyi birləşdirirdi. ABŞ-ın təhlükəsizliyi baxımından dünyanın bütün bölgələri eyni dərəcədə əhəmiyyətli deyil. *O, ABŞ-a qarşı müasir müharibədə tab gətirə bilən sənaye potensialına malik 4 mühüm hakimiyyət mərkəzini müəyyənləşdirmişdir: Böyük Britaniya, Almaniya, Yaponiya və SSRİ ABŞ-la birlikdə 5 hakimiyyət mərkəzini təşkil edirdilər.* 1947-ci ildə bu mərkəzlərdən yalnız biri, SSRİ ABŞ-a düşmən idi. *Kennana* görə, problem onun düşmənçiliyinin azaldılması və İkinci Dünya müharibəsi zamanındakı vəziyyətin təkrarlanmasının qarşısının alınmasından ibarət idi. O zaman bu güc mərkəzlərindən Almaniya və Yaponiya ABŞ-ın təhlükəsizliyini birlikdə təhdid edirdilər. Bu məqsədə çatmağın üsulu ənənəvi *qüvvələr tarazlığı strategiyası* idi. Bu o demək idi ki, Almaniyada və Yaponiyada hakimiyyət vakuumuna yol vermək olmazdı. Onları Böyük Britaniya kimi dost dövlətlərə çevirmək zəruridir.

Lakin hakimiyyətin bu mühüm həyati vakuumları doldurulduqdan sonra, *Kennan* kodeksi bu, yaxud istənilən digər dövlətlərin daxili işlərinə sonrakı hansısa müdaxiləni nəzərdə tutmurdu. ABŞ-ın ona düşmən koalisiyaların qarşısını almaq üçün kənarda dura-dura diplomatik və digər vasitələrdən istifadə edəcəyi klassik hegemon siyasəti olmalıydı: "Qeyd edilməlidir ki, Kennan tərəfindən ayrılmış orazilər Avropada və ya Asiyada Amerika təsir dairəsinə daxil deyildilər, yalnız SSRİ-də olduğu kimi, ABŞ nəzarətindən azad regionlar faktiki hakimiyyət mərkəzləri kimi göstərilirdilər *[Gaddis, 1982, p. 31]*.

Deməli, *ABŞ siyasəti dost dövlətlərin hərbi yox, iqtisadi dəstəklənməsindən ibarət idi. Kennan* Qərbi Avropa üçün Marşall planının qatı tərəfdarı idi və iqtisadi yardımın amerikalılar tərəfindən deyil, avropalıların özləri tərəfindən paylaşdırılmasını israr edirdi. Onun geosiyasi kodunda sovet təhlükəsi hərbi yox, daha çox siyasi təhlükə kimi nəzərdə tutulurdu. Marşall planı Avropanın iqtisadi iflasının qarşısının alınmasına yönəldilmişdi ki, bundan da yalnız SSRİ siyasi qazanc əldə edə bilərdi. *Kennan* psixoloji sovet təhdidinə nəzər yetirirdi. Söhbət ondan gedirdi ki, əgər SSRİ qonşu dövlətlər üzərində nəzarəti əlinə alsaydı (dünya hakimiyyətinin beş mərkəzinin hüdudlarından kənarda), onda ABŞ öz geosiyasi maraqlarını dünyanın digər regionlarına da yaymalı olacaqdı.

Qeddis 1949 və 1979-cu illər arasında 4 müxtəlif geosiyasi kodeksi müəyyən edir. Bu kodeksin hər biri ABŞ və SSRİ arasında rəqabət haqda müddəalara əsaslanır, lakin bu münaqişənin təbiəti-

[1] Bu plan hərbi yolla Avropa dövlətlərini, o cümlədən Türkiyə və Yunanıstanı SSRİ-nin təsiri altına keçməkdən xilas etmək məqsədi daşıyırdı.

ni müxtəlif cür təfsir edir, nəticə etibarilə müxtəlif siyasi qərar verirdi. *Bu kodekslər Kennanın kodeksindən prinsipial dərəcədə onunla fərqlənirdi ki, burda düşməni təcrid etmək əvəzinə, ya onu əhatəyə almaq, ya da təqib etmək təklif olunur.*

1949-cu ildən sonra dünya siyasətinin mərkəzi Asiyaya keçdi. *Kennan* kodeksi sosialist Çinin SSRİ ilə müttəfiqlik münasibətlərinə və Koreya müharibəsinin başlanmasına tab gətirmədi. Bu hadisələr qaçılmaz olaraq geosiyasi konsepsiyanın yenidən dərkinə gətirib çıxardı ki, bu da məşhur "*ABŞ milli təhlükəsizlik şurası - 68 doktrinası*" adlı sənədin təşəkkül tapmasına səbəb oldu. Nəzəri cəhətdən, sabahı daha aydın bilinən dünya yaratmaq üçün, *Kennanın* rəngarəng dünya nəzəriyyəsi yeknəsəklik konsepsiyası ilə əvəz olundu. Nəticə SSRİ sərhədlərinin perimetri boyu ümumqabağınalma modeli oldu. Seçilmiş bəndləri müdafiə etmək əvəzinə, yeni doktrina (kodeks) iddia edirdi ki, "sərbəst institutların məğlubiyyəti istənilən yerdə məğlubiyyət deməkdir" *[Gaddis, 1982, p. 91]*. Beləliklə, ABŞ-ın siyasi leksikonuna "geri oturtmaq" anlayışı daxil oldu. Nüvə qisası təhdidi kommunist təhlükəsinin qarşısını alan əsas vasitə oldu. Bununla yanaşı, MKİ-nin fəaliyyəti başqa ölkələrin daxili işlərinə birbaşa müdaxiləyə qədər genişləndi.

1960-cı ildə *Con Kennedinin* (1917-1963) ABŞ Prezidenti seçilməsi ilə qüvvələr balansı və müxtəliflik anlayışlarına qayıdışın ilk əlamətləri yarandı. Bu, məşhur "çevik reaksiyavermə" doktrinasında ifadə olundu. Lakin bir sıra səbəblər üzündən, xüsusən politoloq *U.Rostounun* Prezidentə təsiri, Kuba hadisələri səbəbindən kommunizm və kapitalizm arasında yarış bu dəfə inkişaf edən ölkələr üçün alternativ ideya kimi yenidən önə çıxdı. Vyetnam ABŞ-ın kommunizmə müqavimətinin simvolu oldu. Qeyd edək ki, bu, əslində, ABŞ-ın mahiyyət etibarilə imperialist təcavüzünün çox səthi qiymətləndirilməsidir. Görkəmli fransız sosioloqu *R.Aron* haqlı olaraq Vyetnam kampaniyasının yekununu ABŞ-ı "hər şeyə qadir illüziyasından" ayıldan detonator adlandırmışdır.

ABŞ-ın Vyetnamda məğlubiyyətindən sonra *Riçard Nikson* (1913-1994) administrasiyasında baş strateq ABŞ qoşunlarını qəti

olaraq Vyetnamdan çıxarmış, XIX əsr Avropa dövlətlərinin siyasəti üzrə mütəxəssis *H.Kissincer* oldu. Kommunizmə qarşı mənəvi xaç yürüşü *güc siyasətinin praqmatik təcrübəsi* ilə əvəz olundu. Yeni yanaşmanın mahiyyəti ümumi geosiyasi maraqların fəlsəfəyə və tarixə transformasiyasının mümkünlüyünün etirafında idi *[Киссинджер, 1997]*. Bu qeyri-əxlaqi mövqe kimi qiymətləndirildi. Lakin konkret məqsəd qoyulmuşdu - kommunist blokunu parçalamaq. Kommunist monoliti həqiqətən parçalanmağa başladı: 1948-ci ildə Tito Yuqoslaviyası və SSRİ, Çin və SSRİ arasında nifaq baş verdi, Stalinin şəxsiyyətə pərəstişin tənqidi başlandı. ABŞ SSRİ-nin maraqları hesabına Çinlə müqavilə bağladı. Nəticədə, 1970-ci illərdə "soyuq müharibə"də "detant" fazası (gərginliyin azalması dövrü) gəldi.

1970-ci illərin sonu - 1980-ci illərin əvvəllərində "qabağınalma siyasəti"nin nəticələri demək olar ki, təkrar olundu. Yəni ideoloji traktovka yenidən qayıdır, lakin artıq SSRİ "şər imperiyası" şəklində təqdim edilir, "geri oturtma siyasəti" qayıtmış olur. ABŞ-ın 40-cı Prezidenti *Ronald Reyqanın* (1911-2004) doktrinası üç qitədə, xüsusən Anqola, Əfqanıstan və Mərkəzi Amerika dövlətlərində kommunist rejimləri ilə müharibə aparan üsyançı dəstələrə yardımı nəzərdə tuturdu. Sonuncu region Amerika siyasətində daha mühüm yer tuturdu.

Nəhayət, 1980-ci illərin sonu üçün ABŞ-ın "qabağınalma kodeksləri" SSRİ ilə dostluq münasibətləri qurub tam fəaliyyətini bitirdi.

ABŞ-ın "soyuq müharibə" dövründə Qərbdə dünyanın geosiyasi nizamını müəyyən etməsini nəzərdə tutan digər ölkələrin geosiyasi kodları ABŞ-ın dünyabaxışına köklənir və ya buna zidd olurdu. Hətta SSRİ ABŞ-ın kodlarındakı dəyişiklikləri hesaba almağa məcbur idi.

3.8.3. SSRİ-nin İkinci Dünya müharibəsindən sonra geosiyasi kodları

Stalin zamanında SSRİ İkinci Dünya müharibəsi dövründə məruz qaldığı böyük insani və maddi itkilərə baxmayaraq, resurslarının əksər hissəsini hərbi kompleksə yönəldərək fövqəldövlət statusunu saxladı. Geosiyasi kodeksin rüşeymləri 1949-cu ildə atom

bombası və 1953-cü ildə hidrogen bombasının sınağından sonra əmələ gəlir. *1960-cı illərin əvvəllərinə qədər SSRİ-ni regional səviyyəli ölkə kimi qiymətləndirmək olar.*

1960-cı illərdən yeni dövr başladı. *SSRİ İkinci Dünya müharibəsindən sonra ilk dəfə özünü dünya səhnəsində göstərdi.* O, Afrika ilə, xüsusən Misirlə əlaqələrini genişləndirir, ideoloji cəhətdən Qvineyaya, Maliyə kök salır, İndoneziyada *Sukarno* rejimini dəstəkləyir, Konqodakı siyasi böhranda iştirak edir və Kubada *F.Kastronu* dəstəkləyir. 1960-cı ilin martında strateji təyinatlı qoşunlar yaradılır. SSRİ və ABŞ arasında hərbi münaqişələrdə nüvə qüvvələrinin birinci dərəcəli əhəmiyyətini hesaba alan *Sokolovski doktrinası* faktiki olaraq 1980-ci illərin əvvəllərinədək sovet strategiyasının təməli oldu. Nə Vyetnam böhranı, nə Amerikanın oradakı məğlubiyyəti, nə də "detant" Sokolovski kodeksini dəyişə bilmədi.

1960-cı illərin sonunda SSRİ-də geosiyasi kodlara yenidən baxılması baş verdi. *Brejnev doktrinasında söhbət təkcə SSRİ-nin müdafiəsindən yox, həm də bütün sosialist ölkələrinin qorunmasından gedirdi.* Bu doktrina faktiki olaraq sovet qoşunları 1968-ci ilin avqustunda Çexoslovakiyaya daxil olduqdan sonra bəyan edilmişdir. Mahiyyətcə doktrina *xarici sosialist ölkələrin suverenliyinin məhdudlaşdırılmasına yönəlmişdir.* Bundan başqa, SSRİ Üçüncü dünya ölkələrinin müttəfiqi elan edilmişdi və buna görə onun dəstəyi olmadan bu ölkələrdə antiimperialist azadlıq müharibəsi mümkün deyildi.

Strategiya və hərbi doktrina Sovet İttifaqı Kommunist Partiyasının siyasi kursuna tabe idi. Nüvə müharibəsi ehtimalı adi müharibənin mümkünlüyünü heç bir vəchlə istisna etmirdi. Nüvə müharibəsinin klassik üsulla, yəni silahların nüvə olmayan növü ilə başlanacağı etiraf olunurdu. *Brejnev doktrinasının* müdafiə yox, hücum strategiyasında bütöv qitələr, hətta planet tamamilə müharibə meydanı kimi göstərilirdi.

1989-cu ilin oktyabrında SSRİ-nin ilk Prezidenti M.Qorbaçov Brejnev doktrinasını qeyd-şərtsiz rədd etdi. 1991-ci ildə hərbi koalisiya kimi 1955-ci ildə yaradılmış Varşava Müqaviləsi Təşkilatı

buraxıldı. Elə həmin ildə Almaniyanın birləşməsi baş verdi, sovet qoşunları Əfqanıstandan çıxarıldı, keçmiş sosialist ölkələrindən 600 mindən çox hərbi qulluqçu SSRİ-yə qayıtdı, ordunun qeyri-siyasiləşdirilməsi baş verdi, tankların və raketlərin birtərəfli məhv edilməsi elan edildi.

Qorbaçov doktrinası bipolyar dünyadan heç bir dövlətin dünya hökmranlığına can atmadığı, harmoniya və beynəlxalq həmrəyliyə əsaslanan qütbsüz dünyaya keçidi nəzərdə tuturdu. "Beynəlxalq təhlükəsizliyin əhatəli sistemi", "Ümumavropa evi", "beynəlxalq münasibətlərin ideologiyasızlaşdırılması", "fərdi inkişaf yolu hüququ" kimi siyasi terminlər aparıcı olmuşdu.

Müvafiq dövrlərin fransız və hind kodları nəzərdən keçirilməlidir ki, bu zaman onları fövqəldövlətlərin kodları ilə müqayisə etmək mümkün olar.

3.8.4. Fransanın dö Qoll geosiyasi kodu

1958-ci ildən 1969-cu ilədək Fransanın Prezidenti olmuş *Şarl dö Qoll*[1] (1890-1970) Fransanın ənənəvi geosiyasi kodlarına əsaslanırdı ki, bunun mərkəzində yerli səviyyədə Rusiya təhlükəsi var idi. Regional (Avropa) səviyyədə Rusiyaya qarşı manevr etmək, qlobal səviyyədə isə Böyük Britaniya ilə rəqabət məsələsi önə çəkilirdi (qlobal səviyyədə Böyük Britaniyanın yerini ABŞ-a verməsi düzəlişi ilə).

[1] Fransa hərbi, dövlət və siyasi xadimi, briqada generalı (1940). Birinci Dünya müharibəsində iştirak etmiş, müxtəlif hərbi vəzifələrdə işləmişdir, İkinci Dünya müharibəsi dövründə tank və zirehli tank diviziyalarına başçılıq etmiş, milli müdafiə nazirinin müavini olmuşdu. Alman faşist qoşunları Parisi tutduqdan və *Petenin* təslimçi hökuməti hakimiyyətə gəldikdən sonra Böyük Britaniyaya getmiş, Londonda "Azad Fransa" hərəkatının əsasını qoymuşdur. Onun təşəbbüsü ilə 1942-ci ildə SSRİ-də fransız təyyarəçilərindən ibarət Normandiya-Neman aviasiya eskadrilyası yaradılmışdı.

Dö Qoll 1943-cü ildə Fransa Milli Azadlıq Komitəsinin, 1944-cü ildə isə Fransa Respublikası Müvəqqəti hökumətinin sədri olmuşdu. Qarşılıqlı yardıma dair 1944-cü il sovet-Fransa müqaviləsini imzalamışdı. Fransada prezident idarə üsulu yaratmaq planları müqavimətə rast gəldiyindən, 1946-cı ildə istefaya çıxmışdı. 1947-ci ildə Fransız Xalqının Birliyi (FXB) partiyasını yaratmış, 1953-cü ildə isə partiyanın buraxıldığını elan edərək siyasi fəaliyyətdən uzaqlaşmışdı. 1958-ci ildə Əlcəzairdəki hərbi qiyamla əlaqədar yaranmış kəskin siyasi böhran şəraitində dö Qoll hökumətə başçılıq etməyə dəvət almışdı. Dö Qoll 1958-ci ildə Nazirlər Şurasının sədri olmuşdu. O, iki dəfə (1958 və 1965-ci illər) Fransanın Prezidenti seçilmişdi.

Fransanın XX əsrdə universal qayğısı Almaniya tərəfindən təhlükəsizliyinə təhdid idi. Lakin 1960-cı ilədək Avropa ictimaiyyətinin inkişafından, 1963-cü ildə Fransa və Almaniya arasında dostluq barədə müqavilədən sonra yerli səviyyədə təhlükəsizlik problemi qəti həll olundu. Bu, dö Qolla səylərini regional və qlobal səviyyələrdə təhlükəsizlik problemlərinin həllinə, yəni ABŞ və SSRİ ilə münasibətlərə yönəltməyə imkan verdi.

1960-cı ildə Fransa atom bombasını sınaqdan keçirərək dünya dövləti statusunu təsdiq etdi və nüvə dövləti kimi ABŞ, SSRİ və Böyük Britaniyaya qoşuldu. Bununla belə, müasir dünya tarixində ilk dəfə idi ki, dünyanın əsas hakimiyyət mərkəzləri Qərbi Avropa hüdudlarından kənarda yerləşirdi. Qərbi Avropanı fövqəldövlətlərin biri ilə birləşdirən NATO-nu seçmək dö Qollun dünyabaxışı üçün yolverilməz idi.

Dö Qoll hesab edirdi ki, Fransa ABŞ-a müqabil olaraq Qərbi Avropa dövlətləri blokunun başında durmalıdır. Buna görə NATO-ya üzv olmaq dö Qollun bu mövqeyi ilə bir araya sığmırdı. 1966-cı ildə Fransa NATO-nun inteqrasiya olunmuş hərbi strukturundan çıxdı və dinc yanaşı yaşamaq tezisini irəli sürdü. Dö Qoll geosiyasi kodeksinin pozitiv siyasi nəticəsi "detant"ın inkişafı idi. Lakin dö Qollun "dəmir pərdəni" açmaq cəhdi 1968-ci ildə SSRİ-nin və hərbi müttəfiqlərinin gözlənilmədən Çexoslovakiyaya girməsi ilə yarımçıq qaldı. Dö Qollun geosiyasi kodeksi onun istefaya getməsindən sonra (1969) inkişaf etdirilmədi. Bununla belə, dö Qoll yanaşması ideyası ABŞ-dan asılı olmayan Avropanın inkişafı üçün qalmaqdadır.

3.8.5. Hind qoşulmama kodeksi

Bu kodeksin müəllifi ömrünün sonunadək Hindistanın Baş naziri olmuş Cəvahirlal Nehrudur (1889-1964). Bu illərdə (1947-1964) hamı Nehrunu sülh keşikçisi sayırdı. O, üç səviyyəyə malik özünəməxsus geosiyasi kodekslə çıxış etmişdir:

- *yerli* səviyyədə Hindistan kiçik Himalay krallıqları Nepal və Butan üzərində qeyri-rəsmi protektorat və Şri-Lankaya ata münasibəti təklif etmişdir;

- *regional* səviyyədə Cənubi Asiyada Pakistanla kəskin rəqabət və daha geniş Asiya miqyasında Çinlə rəqabət qeyd edilmişdir;
- *qlobal* səviyyədə Hindistan dünya dövləti statusuna iddia etmişdir. Bu iddia geosiyasət üçün ənənəvi olmayan meyara - Nehrunun dünyanın dövlət xadimi statusuna və qoşulmamaq hərəkatının yaranmasında onun roluna əsaslanırdı.

Nehru, həmçinin *dinc yanaşı yaşamanın 5 prinsipini*[1] təklif etmişdir (hind dilində *"pança şila"*):

- ərazi bütövlüyünə qarşılıqlı hörmət;
- hücum etməmək;
- bir-birinin daxili işlərinə qarışmamaq;
- hüquq bərabərliyi və qarşılıqlı fayda;
- dinc yanaşı yaşama.

Nehrunun sağlığında Hindistan "pança şila" çərçivəsində geniş beynəlxalq hərəkat təşkil etmişdi, lakin onun ölümündən sonra ölkə dünya səhnəsində mühüm rol oynaya bilməmişdi. Ancaq Hindistan üçün Nehrunun irsi qoşulmama prinsipi kimi indiyədək əhəmiyyətlidir. Buna görə geosiyasətçilər Cənubi Asiyanı xüsusi geosiyasi regiona ayırırlar.

Dö Qoll kodeksi də, *Nehrunun qoşulmama kodeksi* də ABŞ tərəfindən böyük tənqidlə qarşılanmışdır. Axı, ABŞ-ın "qabağınalma" kodeksində qoşulmamaq və NATO-nun dağılması üçün yer yox idi. Hind və fransız kodları "soyuq müharibə" dövrünün əksər real siyasətçilərinin ortodoksal düşüncəsinə uyğun deyildi.

3.9. Geosiyasətdə sakral[2] ənənələr

Geosiyasi konsepsiyalar artıq xeyli vaxtdır ki, müasir siyasətin ən mühüm amillərinə çevrilmişdir. Onlar ayrılıqda götürülmüş hər hansı ölkənin və regionun xüsusiyyətlərini asanlıqla təhlil etməyə imkan verən ümumi prinsiplər əsasında qurulur.

[1] Dinc yanaşı yaşamanın 5 prinsipi ilk dəfə Hindistanla ÇXR arasında ticarət və Çinin Tibet rayonunun Hindistanla əlaqəsi haqqında sazişin preambulasında ifadə edilmişdir (1954). Bu prinsiplər Bandunq konfransının (1955) qərarlarında, Beynəlxalq hüququn prinsipləri haqqında bəyannamədə (1970), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktında (1975) və digər beynəlxalq sənədlərdə əksini tapmışdır.

[2] Müqəddəs, müqəddəslik, dinə və imana aid olan; ənənə, mərasim, ritual.

Geosiyasət bu gün mövcud olduğu şəkildə, heç şübhəsiz, dünyəvi, "profanik", sekulyarlaşdırılmış elmdir. Lakin ola bilsin ki, bütün başqa müasir elmlər arasında məhz geosiyasət ənənə ilə və ənənəvi elmlərlə əlaqəni daha çox saxlamışdır. *Rene Henon* deyirdi ki, müasir kimya elmi ənənəvi kimyagərlik elminin, məşhur fizika isə magiyanın desakralizasiyasının nəticəsidir. Eynilə bu şəkildə deyə bilərik ki, müasir geosiyasət başqa bir ənənəvi elmin - sakral coğrafiyanın sekulyarlaşmasının, desakralizasiyasının məhsuludur. Lakin geosiyasət müasir elmlər arasında xüsusi yer tutduğuna görə onu da tez-tez "yalançı elmlər" sırasına aid edirlər. Yəni, geosiyasətin profanlaşması kimya və ya fizika elmləri ilə əlaqədar olduğu kimi mükəmməl və labüd deyildir. Burada sakral coğrafiya ilə əlaqələr aşkar görünür. Buna görə də deyə bilərik ki, geosiyasət ənənəvi elmlə (sakral coğrafiya ilə) profanik elm arasında orta mövqe tutur.

Quru və Dəniz geosiyasətin iki əzəli anlayışıdır. İnsanın Yer məkanı haqqında təsəvvürünün əsasını məhz bu iki stixiya təsdiq edir - Torpaq və Su. İnsan Qurunu və Dənizi, Torpağı və Suyu dərk etdikdə, özünün mövcudluğunun fundamental aspektləri ilə əlaqəyə girir. Quru sabitlik, sıxlıq, məkan deməkdir. Su isə hərəkət, yumşaqlıq, dinamika, zaman rəmzidir.

Bu iki stixiya dünyanın maddi təbiətinin ən əyani təzahürləridir. Onlar insandan kənarda mövcuddur: bütün sıx və duru maddələr bələdir. Onlar insanın daxilindədir: bədən və qan kimi. Eyni şeylər hüceyrələr səviyyəsində də təzahür edir.

Torpağın və suyun dərk edilməsinin universallığı ənənəvi Göy cisimləri konsepsiyasını doğurur, çünki səma sularının (yağış mənbəyinin) mövcud olması həm də simmetrik və zəruri torpaq, quru elementinin, Göy cisimlərinin mövcud olmasını nəzərdə tutur. Hər halda Torpaq, Dəniz, Okean Yer üzündə mövcudluğun əsas kateqoriyalarıdır və insan onlarda dünyanın yaranmasının əsas atributlarını görməyə bilməz. Geosiyasətin iki əsas termini olan Quru və Dəniz terminləri həm ənənəvi sivilizasiyalar üçün, həm də müasir dövlətlər, xalqlar üçün öz əhəmiyyətini saxlayır. Qlobal geosiyasi

fenomenlər səviyyəsində Dəniz və Quru, talassokratiya və tellurokratiya, yəni "Dənizin doğurduğu qüdrət" və "Qurunun doğurduğu qüdrət" terminlərini yaratmışdır.

Hər bir dövlətin, hər bir imperiyanın gücü bu kateqoriyalardan birinin daha üstün inkişafına əsaslanır. İmperiyalar ya talassokratik, ya da tellurokratik olur. Bunlardan birincisinin metropoliya və müstəmləkələri, ikincisinin "ümumi quruda" paytaxtı və əyalətləri olur. Talassokratiyanın əraziləri qurunun bir məkanında cəmləşməmişdir. Bu, fasiləlilik amili yaradır. Dəniz talassokratik qüdrətin həm güclü, həm də zəif yeridir. Tellurokratiya isə, əksinə, ərazi baxımından kəsilməzlik keyfiyyətinə malikdir.

Lakin coğrafi və kosmoloji məntiq bu bölgünün ilk baxışda sadə sxemini dərhal mürəkkəbləşdirir: "Torpaq-Dəniz" cütlüyünün elementləri üst-üstə düşəndə "dəniz torpağı" və "torpaq suyu" ideyaları yaranır. Dəniz torpağı ada deməkdir, yəni dəniz imperiyasının əsası, talassokratiya qütbüdür. Torpaq suyu və ya quru suyu quru imperiyasının inkişafını müəyyənləşdirən çaylardır. Şəhərlər, deməli, dövlətin paytaxtı, tellurokratiya qütbü məhz çaylar üzərində yerləşir. Bu simmetriya həm rəmzi, həm də təsərrüfat-iqtisadi, coğrafi mənada mütənasiblik təşkil edir. Qeyd etmək lazımdır ki, ada və kontinent statusu onların fiziki böyüklüyündən daha çox əhalinin tipik şüurunun spesifikasına əsasən müəyyən edilir. Məsələn, Şimali Amerikanın böyük ölçülərinə baxmayaraq, ABŞ-ın geosiyasəti ada xarakterlidir. Adalar dövləti olan Yaponiya isə geosiyasi mənada kontinental mentalitet nümunəsidir və s.

Daha bir mühüm detal: talassokratiya tarixən Qərblə və Atlantik okeanı ilə, tellurokratiya isə Şərqlə və Avrasiya qitəsi ilə bağlıdır (beləliklə, yuxarıda Yaponiyanı misal göstərməyimiz Avrasiyanın daha güclü cazibəsi, təsiri ilə izah edilir).

Talassokratiya və atlantizm qədim dövrlərdə sinonimlərə çevrilmişlər. Hələ dəniz miqrasiyaları dalğası başlanana qədər Qərb xalqları və onların mədəniyyətləri Atlantikada yerləşən mərkəzlərdən Şərqə doğru hərəkət etməyə başlamışdı. Aralıq dənizi sahilləri də Yaxın Şərqdən Cəbəllütariqə doğru deyil, əks istiqamətdə

öyrənilmişdir və əksinə, Şərqi Sibirdə və Monqolustanda aparılmış arxeoloji qazıntılar göstərir ki, burada sivilizasiyanın ən qədim mənbələri mövcud olmuşdur. Deməli, məhz qitənin mərkəzi torpaqları Avrasiyada bəşəriyyətin beşiyi olmuşdur.

Quru və Dəniz kimi iki qlobal kateqoriya ilə yanaşı, geosiyasətdə digər xüsusi anlayışlardan da istifadə edilir. Talassokratik reallıqlar arasında dəniz və okean mənşəli törəmələr fərqləndirilir. Məsələn, Qara dəniz və ya Aralıq dənizi bölgələrinin sivilizasiyası öz keyfiyyətinə görə okeanların sivilizasiyasından, yəni açıq okeanların sahillərində məskunlaşmış xalqların və ada-dövlətlərin sivilizasiyasından xeyli fərqlənir. Kontinentlərlə bağlı çay və göl sivilizasiyaları daha xüsusi bölgüdür.

Tellurokratiyanın da öz spesifik formaları var. Məsələn, Çölün və Meşənin, Dağların və Vadilərin, Səhranın və Buzların sivilizasiyasını fərqləndirmək olar. Sakral coğrafiyada landşaftın müxtəlif formaları bu və ya digər xalqların spesifik dövlətçilik, dini və etik ideologiyası ilə əlaqədar simvolik komplekslər kimi başa düşülür. Hətta universalist-eykumenist dinlə bağlı hallarda da onun bu və ya digər xalqda, irqdə, dövlətdə konkret təcəssümü lokal sakral-coğrafi kontekstə uyğun adaptasiyaya məruz qalacaqdır.

Səhralar və çöllər köçərilərin geosiyasi mikrokosmudur. Tellurokratik meyillər məhz Səhralarda və Çöllərdə öz zirvəsinə çatır, çünki burada su amili minimuma endirilmişdir. Məntiqi baxımdan məhz Səhra və Çöl imperiyaları tellurokratiyanın geosiyasi meydanı olmalıdır.

Çöl imperiyasına nümunə kimi *Çingiz xanın* imperiyasını, Səhra imperiyasının səciyyəvi nümunəsi kimi bilavasitə köçərilərin təsiri altında yaranmış Ərəb Xilafətini göstərə bilərik.

Dağlar və dağ sivilizasiyaları çox vaxt arxaik, fraqmentar qurumlar şəklində mövcud olur. Dağlıq ölkələr təkcə ekspansiya mənbələri deyil, əksinə, başqa tellurokratik qüvvələrin geosiyasi ekspansiyasının qurbanları dağlara üz tutur. İmperiyalardan heç birinin mərkəzi dağlıq rayonlarda yerləşmir. Sakral coğrafiyada tez-tez təkrarlanan "dağlar iblislərin məskənidir" motivi də belə yaran-

mışdır. Digər tərəfdən, dağlarda qədim irqlərin və sivilizasiyaların qalıqlarının saxlanması ideyası onu göstərir ki, sakral ənənələrin mərkəzləri məhz dağlarda yerləşir. Hətta demək olar ki, tellurokratiyada dağlar hansısa mənəvi hakimiyyətlə əlaqələndirilir.

Dağların kahin obrazı, düzənliklərin isə şahlıq obrazı olması barədə hər iki konsepsiyanın məntiqi baxımdan əlaqələndirilməsi təpə, yəni kiçik ölçülü və ya orta yüksəklik rəmzi olmuşdur. Təpə çölün dünyəvi səviyyəsi üzərində ucalan, lakin dövlət mənafelərinin hüdudlarından kənara çıxmayan (dağlarda olduğu kimi) səltənətin rəmzidir. Təpə kahinlərin deyil, kralın, hersoqun, imperatorun olduğu yerdir. İri tellurokratik imperiyaların hamısının paytaxtları təpədə və ya təpəliklərdə yerləşir (çox vaxt bu təpələrin sayı planetlərin sayı kimi yeddi, yaxud efir də daxil olmaqla stixiyaların sayı kimi beş olur).

Sakral coğrafiyada meşə, müəyyən mənada dağlara yaxındır. Ağac simvolikasının özü dağ simvolikasına yaxındır (onların hər ikisi dünyanın oxunu bildirir). Buna görə də tellurokratiyada meşə həm də periferiya funksiyasını yerinə yetirir. O, həm "kahinlər (druidlər, dərvişlər) məskəni", həm də "iblislər məkanı", yəni keçmişin arxaik qalıqlarının məskunlaşdığı məkandır. Meşəlik zona da quru imperiyasının mərkəzi ola bilməz.

Tundra - çölün və səhranın şimal analoqudur, lakin soyuq iqlim tundranın geosiyasi baxımdan əhəmiyyətini xeyli azaldır. Bu periferiyalılıq buzlarda öz apogeyinə çatır. Dağlar kimi buzlar da dərin arxaik zonalardır. Əlamətdar haldır ki, eskimosların şaman ənənələrinə görə gələcək şaman o dünyada nələr olacağını təsəvvür etmək üçün buzlara qərq olmalıdır. Beləliklə, buzlar kahinlər zonası, axirətin astanasıdır.

Geosiyasi xəritənin bu ilkin və ən ümumi xarakteristikalarını nəzərə alaraq, planetin müxtəlif regionlarını onların sakral keyfiyyətlərinə uyğun təyin etmək olar. Bu metod ayrıca bir ölkə, hətta ayrıca ərazi səviyyəsində landşaftın lokal xüsusiyyətlərinə də tətbiq edilə bilər. Əgər ilk baxışda ən müxtəlif xalqların yaşadığı mə-

kanın əsas landşaftı eynidirsə, onların ideologiya və ənənələrində oxşarlıq tapmaq olar.

Sakral coğrafiya kontekstində cəhətlər xüsusi keyfiyyət xarakteristikasına malikdir. Müxtəlif ənənələrdə və bu ənənələrin müxtəlif dövrlərində sakral coğrafiyanın mənzərəsi həmin ənənənin inkişafının tsiklik fazalarına müvafiq olaraq dəyişə bilər. Bu halda çox vaxt cəhətlərin simvolik funksiyası da variasiya edir. Təfərrüata varmadan, sakral coğrafiyanın Şərqə və Qərbə tətbiqən ən universal qanununu ifadə etmək olar.

Ənənəyə görə, sakral coğrafiyada Şərq kosmik simvolizm əsasında "ruhlar yeri", cənnət guşəsi, bolluq diyarı, ən tam və mükəmməl sakral dəyərlərin vətəni hesab edilir. Məsələn, Bibliyanın mətnində cənnətin Şərqdə yerləşməsindən söhbət gedən hissədə bu ideya öz əksini tapmışdır. Eyni anlam digər dini ənənələrə (islama və iudaizmə), eləcə də çinlilərin, indusların və iranlıların bir sıra ənənələrinə xasdır. Qədim misirlilərin belə bir sakral formulu var: Şərq Allahların məskənidir. Misir dilində "Neter" ("Şərq") sözü həm də "Allah" deməkdir. Təbii simvolizm baxımından Şərq gündoğar cəhətdir, dünyanın nuru, ilahi ruhun maddi simvoludur.

Qərb isə tamam əks rəmzi məna daşıyır. Qərb "ölülər ölkəsi", "ölüm dünyası"dır. Qədim misirlilər onu belə adlandırırdı. İslam mistiklərinin təbirincə desək, Qərb "yabançılar quyusu"dur.

Təbii kosmik simvolizmin bu məntiqinə görə, qədim ənənələr öz müqəddəs məkanını təşkil edir, ibadət, dəfn mərkəzləri, məbədlər və tikililər yaradır, planetin coğrafi, mədəni və dövlət ərazilərinin təbii və sivilizasiya xüsusiyyətlərini öyrənirdi. Beləliklə, miqrasiyaların, müharibələrin, yürüşlərin, demoqrafik dalğaların, imperiya quruculuğunun strukturu sakral coğrafiyanın əzəli, paradiqmatik məntiqi ilə müəyyən edilirdi. Təbii ki, bu məntiq mütləq məna daşımırdı, lakin eyni zamanda, bu gün qədim dinlərin və ənənələrin "profanik" tədqiqatçılarının çoxunun səhvən hesab etdiyi kimi ikinci dərəcəli və nisbi xarakter də daşımırdı. Əslində, qədim xalqlarda sakral məntiq və kosmik simvolizmə inam bu gün hesab

ediləndən qat-qat artıq dərk edilmişdi. Hətta bizim antisakral dünyada "qeyri-şüuri" səviyyədə sakral coğrafiya arxetipləri demək olar ki, həmişə bütöv halda qalır və sosial kataklizmlərin ən mühüm və böhranlı anlarında üzə çıxırlar. Beləliklə, sakral coğrafiya "keyfiyyət məkanı" qanununu birmənalı şəkildə təsdiq edir.

İndi bu sakral-coğrafi məntiqin xalis müasir elm olmaqla sakral prinsiplərin özlərini kadr arxasında saxlayan, yalnız faktiki vəziyyəti qeyd edən geosiyasətdə necə əks olunması məsələsini nəzərdən keçirək.

Ratsel, Çellen və *Makinderin* (sonra isə *Haushoferin* və rus avrasiyaçılarının) təbirincə, geosiyasət məhz sivilizasiyaların müxtəlif tiplərinin xüsusiyyətlərini və dövlətlərin coğrafi mövqeyindən asılı olan səciyyələrini əsas götürürdü. Geosiyasətçilər ada dövlətləri ilə kontinental dövlətlər, Qərb sivilizasiyası ilə Şərq sivilizasiyası, despotik və arxaik mədəni formalar arasında fundamental fərq olması faktını qeyd etmişlər. Müasir elmdə "ruh" anlayışının metafizik və sakral anlamında ruh məsələsi ümumiyyətlə irəli sürülmədiyi üçün geosiyasətçilər də bu məsələni kənarda qoyur, vəziyyəti qiymətləndirmək üçün "sakral" və "profanik", "ənənəvi" və "ənənələrə zidd" anlayışları əvəzinə, daha müasir terminlərdən istifadə etməyi üstün tuturlar.

Geosiyasətçilər son əsrlərdə Şərq və Qərb regionlarının dövlətçilik, mədəni və sənaye baxımından inkişafında prinsipial fərq olmasını vurğulayırlar.

Maraqlıdır ki, "geosiyasət" terminin özünü ilk dəfə işlətmiş *Rudolf Çellen* Qərb ilə Şərq arasında fərqi bu cür illüstrasiya etmişdir: *"Amerikalılar hərfi mənası "irəli" demək olan "go ahead" söz birləşməsindən tez-tez istifadə edirlər. Qərb modelinin ən yüksək forması olan Amerika sivilizasiyasının daxili və təbii geosiyasi optimizmi və proqressizmi bunda ifadə olunur. Ruslar isə, adətən, "niçeqo" sözünü təkrar edirlər. Bu, Şərqə xas olan pessimizmin, seyrçiliyin, fatalizmin və ənənələrə bağlılığın ifadəsidir".*

Sakral coğrafiya paradiqmasına qayıtsaq, müasir geosiyasətin prioritetləri (indi tərəqqi, liberalizm, insan hüquqları, ticarət qayda-

sı və s. anlayışlar insanların əksəriyyəti üçün müsbət məna daşıyan terminlərdir) və sivilizasiya tiplərini tamamilə əks mövqedən qiymətləndirən sakral coğrafiyanın prioritetləri arasında kəskin ziddiyyət olduğunu görərik. Beləliklə, müasir geosiyasət (*Haushoferin* alman davamçıları, rus avrasiyaçıları və digərləri istisna olmaqla) dünyanın mənzərəsini ənənəvi sakral coğrafiyaya tam əks şəkildə qiymətləndirir. Lakin bununla belə, sivilizasiyanın coğrafi mənzərəsinin fundamental qanunauyğunluqlarının təsvirində hər iki elm oxşar mövqe tutur.

Şərq-Qərb oxu boyunca sakral coğrafi determinizmlə yanaşı şaquli, Şimal-Cənub istiqamətində ox problemi də çox vacibdir. Bütün başqa hallarda olduğu kimi, burada da sakral coğrafiya prinsipləri, cəhətlərin və onlara müvafiq kontinentlərin simvolizmi dünyanın geosiyasi mənzərəsində birbaşa analoqa malikdir. Bu mənzərə ya tarixi prosesin gedişində təbii şəkildə formalaşır, ya da bilərəkdən və süni şəkildə bu və ya digər geosiyasi qurumların liderlərinin məqsədyönlü hərəkətləri nəticəsində yaranır. İnteqral tradisionalizm baxımından süni və təbii arasındakı fərq, ümumiyyətlə, nisbi xarakter daşıyır, çünki ənənə subyektiv ilə obyektiv (fenomenal ilə noumenal) arasında ciddi hədd qoyan kartezian və ya kantçı dualizmə heç vaxt və əsla bənzəməmişdir. Buna görə də Şimalın və Cənubun sakral determinizmi təkcə fiziki, təbii, landşaft-iqlim amili (yəni obyektiv) və ya təkcə bu və ya digər fərdlərin zehninin məhsulu olan ideya, konsepsiya (yəni, subyektiv) deyil, həm obyektiv, həm də subyektiv qütbləri üstələyən üçüncü bir amildir. Deyə bilərik ki, sakral Şimal, Şimalın arxetipi tarixdə ikiləşərək bir tərəfdən təbii Şimal landşaftına, digər tərəfdən Şimal ideyasına, nordizm ideyasına bölünür.

Müasir geosiyasətdə "Şimal" və "Cənub" terminlərinin bildirdiyi kateqoriyalar sakral coğrafiyada olduğundan fərqlənir. Əvvələn, artıq bir neçə minillikdir ki, Şimal, Hiperborey palcokontinenti fiziki səviyyədə yoxdur, o, spiritual gerçəklik səviyyəsində qalır, əzəli ənənələrin mənəvi baxışları bu gerçəkliyə yönəlmişdir.

İkincisi, ənənəvi Şimal, onun əzəli əhalisi, nordik avtoxtonlar artıq çoxdan konkret tarixi-coğrafi reallığı təmsil etmirlər. Görünür, hətta bu qeyri-adi mədəniyyətin son qalıqları da bir neçə minillik bundan əvvəl fiziki reallıqdan çıxmışdır.

Beləliklə, Şimal və ənənələri metatarixi və metacoğrafi reallıqdır. Eyni sözləri Hiperborey irqi haqqında da demək olar. O, bioloji mənada deyil, xalis spiritual, metafiziki mənada irqdir (metafiziki irqlər mövzusu *Yulius Evolanın* əsərlərində hərtərəfli inkişaf etdirilmişdir).

Cənub kontinenti və bütövlükdə ənənəvi Cənub da xeyli vaxtdır ki, onun ən qədim əhalisi kimi xalis şəkildə mövcud deyildir. Müəyyən mənada polyar mərkəzin və onun elçilərinin dünyaya təsiri məhdudlaşdıqca demək olar ki, bütün planet Cənuba çevrilmişdir. Cənubun müasir irqləri Şimal irqləri ilə birlikdə çoxsaylı yerdəyişmələrin məhsuludur və dərinin rəngi artıq çoxdandır ki, bu və ya digər metafiziki irqə mənsub olmağın əsas fərqləndirici əlaməti sayılmır.

Başqa sözlə desək, müasir dünyanın geosiyasi mənzərəsi fövqəltarixi, zamanın fövqündə olan dünyanın prinsipial mənzərəsinə az oxşayır. Bizim dövrdə qitələr və onların əhalisi qədim dövrlərdə onlara müvafiq olmuş arxetiplərdən hədsiz dərəcədə uzaqlaşmışdır. Buna görə də bir tərəfdən müasir geosiyasətin reallıqları olan qitələr və irqlər arasında, digər tərəfdən ənənəvi sakral coğrafiyanın reallıqları olan metakontinentlər və metairqlər arasında nəinki sadəcə müxtəliflik, hətta demək olar ki, əks uyğunluq vardır.

IV Fəsil

POSTMODERN EPOXASININ GEOSİYASİ TƏLİMLƏRİ

4.1. Geosiyasi fikrin üfüqlərinə doğru: transformasiya problemləri

Geosiyasətin bir elm kimi gənc olmasına baxmayaraq, geosiyasi təfəkkürün ənənəvi (hərbi qüdrət) geosiyasətdən yeni geosiyasətə və ya geoiqtisadiyyata (iqtisadi qüdrət geosiyasətinə) və nəhayət, ən yeni və ya sivilizasiya geosiyasətinə transformasiyası (ingiliscə *transformation* - dəyişiklik sözündən) baş vermişdir. Bu transformasiya dünya nizamının fundamental əsaslarını özündə ehtiva edir. Dünya nizamının rəmzləri böyük məkanlar, kapital və informasiya, o cümlədən zaman daxilində kommunikativlik kimi başa düşülən ənənələrdir.

Yeni geosiyasət ***geoiqtisadiyyatla*** eyniləşdirilir. Coğrafi və iqtisadi determinizmin ənənəvi məhdudluğunu aradan qaldırmaq məqsədilə ***sivilizasiya geosiyasəti*** təkmilləşir. *Akademik* və *praktik* geosiyasət fərqləndirilir. *Akademik* geosiyasət ümumi geosiyasi qanunauyğunluqları öyrənir, siyasi fundamentalizm, coğrafi və iqtisadi determinizm kimi ifratçılıqdan xilas olmağa çalışır. O, geosiyasi dövrələri, dünya nizamının (dünyanın geosiyasi strukturunun) transformasiyasını, dövlətlərin kodlarını və vektorlarını, böyük dövlətlərin tərəqqisinin və tənəzzülünün səbəblərini araşdırır. *Praktik* geosiyasət praqmatizm və ya idealizm prinsiplərinə əsaslanır. Praqmatizmin bazası dövlətin idarə edilməsinə və beynəlxalq münasibətlərdə münaqişələrin güc (hərbi, iqtisadi güc) mövqelərindən həll edilməsinə aid klassik baxışlardır. İdealizm beynəlxalq münasibətlərdə hüququn üstünlüyünü əsas götürür. Müasir geosiyasətdə praqmatizm ənənələri idealizmə münasibətdə üstünlük təşkil edir. ***Siyasi coğrafiya*** - politologiya və coğrafiyanın qovuşduğu tətbiqi elmi fəndir. *O, coğrafi dövlətşünaslıq, siyasi regionşünaslıq, regional politologiya və elektoral coğrafiyanı əhatə edir.*

Ənənəvi geosiyasətin əsasını sosial darvinizm və beynəlxalq münasibətlərdə təbii-coğrafi amilin rolunu şişirdən ***coğrafi determinizm (geodeterminizm)*** təşkil edir. Məkanın hakimiyyət texnologiyası əsasında təşkil edilməsi (mənimsənilməsi) *geosiyasi utopiyadır. Geosiyasi ekspansiya* dövlətin və ya dövlətlər blokunun (hərbi-siyasi, iqtisadi, mədəni blokun) təsir dairəsinin təkcə coğrafi amil əsasında genişləndirilməsi demək deyildir. Müasir dünyada coğrafi amil hərbi-siyasi məkanda əhəmiyyətli rol oynamır və o, dövləti nüvə zərbələrindən, yaxud transmilli terrorizmdən qoruya bilməz.

İqtisadi geosiyasət - dövlətin və ya dövlətlər blokunun siyasi məqsədlərə, dünyada və ya regionda qüdrətli mərkəzə çevrilməyə, əsasən iqtisadi yollarla nail olmağı nəzərdə tutan geosiyasətdir.

Geoiqtisadiyyat beynəlxalq iqtisadi münasibətlərin transformasiyasını, dünya təsərrüfat sisteminə inteqrasiyasını və qloballaşma amillərinin təsiri altında rəqabət qabiliyyətli regional təsərrüfatçılıq şəraiti yaradılmasını tədqiq edir. Geosiyasət - *resursların və dünya üzrə gəlirin yenidən bölüşdürülməsi siyasətidir.* Əsas izafi gəlirlər (sərhəd energetikası rentası) dünyanın iqtisadi və texnoloji inkişaf qütblərinin payına düşür.

Sivilizasiya geosiyasəti - dövlətlərin beynəlxalq səhnədə davranışını müəyyən edən bazis amillərinin toplusunun genişləndirilməsi hesabına coğrafi və iqtisadi determinizmin ənənəvi məhdudluğunu aradan qaldıran geosiyasətdir. Formasiya yanaşmasından fərqli olaraq, *sivilizasiya geosiyasəti mədəni-genetik kodların* davamlılığına - bu və ya digər sivilizasiyaya (superetnosa) mənsubluq əlamətinə istinad edir. Tarix göstərir ki, dünya sivilizasiyası öz mənəvi dəyərlərini qoruyub saxlayanda o, hər hansı kənar çağırışın qarşısında davam gətirə bilər.

Ənənəvi geosiyasətdən fərqli olaraq, sivilizasiya geosiyasəti insanın kommunikasiya təbiətini inkar etmir və gələcəyin konsolidasiyaedici layihəsi üzərində diqqəti cəmləşdirir. İspan filosofu *Xose*

Orteqa-i-Qasset (1883-1955) *"Onurğasız İspaniya"* əsərində yazırdı: *"Millətin mövcud olması üçün onun dünənki günü və ənənələri həlledici rol oynamır. Dövlətin təməlini ailədə, qəbilə cəmiyyətində və keçmişdə axtaranlar səhv edirlər. Millətlər onların gələcək üçün proqramının mövcud olması hesabına formalaşır və yaşayırlar. Buna görə də Roma gələcək zəfərlər layihəsindən məhrum olanda imperiya parçalandı".*

Sivilizasiya yanaşması diqqəti sivilizasiyalara xas olan mədəni kodların və arxetiplərin davamlı olmasına cəlb edir. *Formasiya yanaşması* tərəqqinin yeni dövrəsinin, ictimai inkişafın keyfiyyətcə yeni mərhələsinin məqsəd və ümidləri ilə bağlıdır. Formasiya-determinist nəzəriyyə ictimai inkişaf fazalarının ən aşağı pillədən ən yüksək pilləyə doğru istiqamətlənmiş dəyişməsinin qanunauyğunluqlarını təsvir edir və bu halda insanın enerji mənbələrinin entropiyasını, qıtlığını inkar edir. *Ənənəvi geosiyasi yanaşmada* "qan və torpaq" paradiqması "ruh" paradiqmasını üstələyir. Sivilizasiya yanaşması baxımından "soyuq müharibə"də Qərbin qələbəsi xristian dünyasına xas olan dixotomiyanı alt-üst etmiş, qlobal çağırışlar qarşısında onu daha da zəiflətmişdir.

Çoxölçülü kommunikasiya məkanına daxil olan aləmlərin müxtəlifliyinə dair təsəvvürlərə əsaslanan dünya nizamının dəyişməsi və sivilizasiyalararası münasibətlər haqqında elm kimi *geofəlsəfə* - sivilizasiya geosiyasətinin metodoloji əsasını təşkil edir. O, dövlətin immanent dünyada hər hansı ölkənin axtarışını aparan fəlsəfi idrakıdır. Geofəlsəfə sərhədsiz kommunikasiyaların immanent məkanına keçməklə, ənənəvi coğrafiyaya xas olan məhdudluqları aradan qaldırır. O, fəlsəfə və kulturologiyanın, etnologiya, iqtisadiyyat və coğrafiyanın qovuşuğunda formalaşır. Bu isə siyasi-coğrafi fəlsəfə və ya hadisələrlə zəngin olan coğrafi məkanın fəlsəfəsi haqqında danışmağa imkan verir.

4.2. Yeni geosiyasət: nəzəri mənbələri və əsas konsepsiyaları

Müasir dünyada informasiya texnologiyaları, nəqliyyat magistralları, telekommunikasiyalar və digər texniki nailiyyətlər coğrafi

məkanın məhdudiyyətlərini əhəmiyyətli dərəcədə azaltmışdır. Yer kürəsinin çoxölçülü kommunikasiya məkanları haqqında təsəvvürlərə əsaslanan "ən yeni geosiyasət"i formalaşmağa başlamışdır.

Geosiyasi konsepsiyaların əksəriyyətində "Dəniz-Koustlənd (Rimlənd)-Kontinent (Hartlənd)" və ya "Şimal-Cənub" sistemində, bir qayda olaraq, coğrafi və iqtisadi determinizmə əsaslanan təmas zonaları haqqında təsəvvürlər vardır. Geosiyasət yüksək sərhəd energetikasına malik olan *çoxölçülü kommunikasiya məkanı* konsepsiyası əsasında qlobal və regional geosiyasi, geoiqtisadi və geoekoloji problemlərin həllinə yeni yanaşmalar işləyib hazırlamağa imkan verir. Bu yanaşma təbiətdə və cəmiyyətdə baş verən sərhəd prosesləri üzərində diqqəti cəmləşdirir.

Çoxölçülü kommunikasiya məkanı konsepsiyasının təşəkkülü mədəniyyətin fəlsəfəsi və morfologiyası, geosiyasət, etnologiya, iqtisadiyyat və coğrafiya fənlərinin qovşağında dünyanın zəngin intellektual irsini elmi dövriyyəyə daxil etmək sayəsində mümkün olmuşdur. Bu təfəkkür tərzinin formalaşmasına klassik Avropa fəlsəfəsi, *İmmanuil Kant, Fridrix Nitsşe, Martin Haydeqqer, Karl Yaspers, Arnold Toynbi, Osvald Şpenqler, Fernan Brodel, Vidal dö la Blaş, Helford Makinder, Pitirim Sorokin və Jil Delüzün əsərləri daha ciddi təsir göstərmişdir [Дергачев, 2004, стр. 97-98].*

Geosiyasətin keyfiyyət kateqoriyalarını nəzərə alan əsas anlayış *"məkan"* anlayışıdır. Fəlsəfədə bu anlayış ətraf aləmin hər hansı şəkildə qavranmasının formal xassəsini əks etdirir. Kanta görə, bizim əyani zahiri təsəvvürlərimiz məhz bu formal xasso sayəsində mümkündür. Çoxölçülü kommunikasiya məkanının müxtəlif tipləri fərqləndirilir (geosiyasi, geoiqtisadi, sosiomədəni, konfessional, informasiya, coğrafi və s.).

Məkan parçalanmış, hissələrə bölünmüş, çətin, həroki, yığcam və ya dağınıq ola bilər. Məkanı yalnız ruhən fəth etmək mümkündür. Onun fiziki mənada fəth edilməsi isə dinc yolla müstəmləkələşdirmə və ya "od və qılınc gücünə" həyata keçirilə bilər. Həqiqət məkanını yalnız zəhmətlə dəf etmək olar. Geosiyasətdə məkan dedikdə hər şeydən əvvəl geosiyasi məkan (geoməkan) başa düşü-

lür. Lakin çox vaxt "geo" sözönü buraxılır, çünki geosiyasət həmişə "geoməkanla" işləyir.

Kommunikasiya (latınca *communicatio* - əlaqələndirirəm, birisi ilə ünsiyyətdə oluram, ümumiləşdirirəm, məsləhətləşirəm mənasında) anlayışı universal məna kəsb edir. Bu məna konkret coğrafi, tarixi, sosiomədəni, sosiopsixoloji, iqtisadi, informasiya və başqa məkanlarda üzə çıxır (siyasi, sosial, iqtisadi, mədəniyyətlərarası, millətlərarası, elmi, texnoloji kommunikasiya (*əlifba hərfləri və rəqəmlər*)). Maddi-praktiki mənada "kommunikasiya" nəqliyyat və rabitə yolları deməkdir. Sosiomədəni məkanda kommunikasiyaya adətən hər hansı fəaliyyət prosesində informasiyanın bir insandan başqasına verilməsi kimi tərif verilir. Bir qayda olaraq, müəyyən işarələrdən istifadə edilməsinə əsaslanan nitq və ya hər hansı başqa fəaliyyət vasitəsilə ünsiyyət "kommunikativ" anlayışı ilə ifadə edilir. Zamanda əks olunan kommunikasiya kimi onunə sosiomədəni dəyərlərin və yazının nəsildən-nəslə ötürülməsini həyata keçirir. Sosiomədəni məkanda transsərhəd kommunikasiyasının müxtəlif növləri komplimentar etnik münasibətlər, iqtisadi məkanda isə ticarət, sənaye və maliyyə kapitalının dövriyyəsinin sürətləndiyi kommunikasiya dəhlizləridir (sərbəst iqtisadi zonalar və s.). *Status kommunikasiyaları,* yəni dünyanın aparıcı dövlətlərinin güc, iqtisadiyyat və sivilizasiya qüdrəti statuslarının sürətlə dəyişməkdə olan iyerarxiyası geosiyasətdə xüsusi yer tutur. Ənənəvi (klassik) geosiyasətdə *kommunikasiyanın neqativliyi* - məkanın ətraf aləmdən təcrid olunmasına reaksiya kimi münaqişəlilik beynəlxalq münasibətlərin mərkəzində dayanır. Bu halda münaqişə həm "rahatlığı pozan", həm də yeni kommunikasiyanın yaradıcı funksiyası kimi əmələ gəlir.

Yaspersə görə, *mənəvi sahədə kommunikasiya* elə bir prosesdir ki, orada "Mən" özünü başqasında aşkar etmək sayəsində "Mən" olur. Kommunikasiyanın üç tipi fərqləndirilir - şəxsiyyətlərarası, formal-hüquqi və icmaların qeyri-formal kommunikasiyası (milli və ya mənəvi əsasda birləşən insanların üzvi bütövlüyü). Kommunikasiyalardan kənarda insanın azad olması qeyri-mümkündür. Ek-

zistensial fəlsəfə kommunikasiya əsasında qurulur: xalqlar arasında həqiqi əlaqə nə qəbilə əlaqəsidir, nə də təbii əlaqə. O, mənəvi əlaqədir. Yaspersə görə, ümumbəşəri kommunikasiyanın şərti bütün bəşəriyyət üçün ümumi mənəvi mənbə olan "ox epoxası"dır. Tarixdə ən faciəli yanılmalardan biri real çoxölçülü kommunikasiya məkanı nəzərə alınmadan başqalarının inkişaf modellərini ixrac etməyin mümkünlüyünə sadəlövhcəsinə inanmaq olmuşdur. Tarixin gedişində dövlətlərin bəzilərində hökmranlıq edən strategiyalar real coğrafiyaya deyil, mifoloji coğrafiyaya əsaslanmışdır. Bu halda coğrafi, geosiyasi və geoiqtisadi vəziyyət, tarixi və yekcins olmayan sosial zaman anlayışları bir-birinə qarışır *[Дергачев, 2004, cmp. 99-100].*

Çoxölçülü kommunikasiya məkanının əsas "stratlarını" nəzərdən keçirək.

Geosiyasi məkan (geoməkan) - geosiyasətin bu fundamental anlayışı insanların fəaliyyətinin siyasi, sosial, mənəvi və iqtisadi sahələrini ümumi panideya ilə birləşdirən çoxölçülü kommunikasiya məkanının coğrafi interpretasiyasını əks etdirir. Hərbi-siyasi, iqtisadi, demoqrafik, sosiomədəni, informasiya və başqa məkanlar fərqləndirilir. Geoməkanın ölçüləri dövlətin hərbi-siyasi, iqtisadi və texnoloji qüdrətinin yayılma hüdudları ilə müəyyən edilir.

Məkanın uzunluğu mühüm geosiyasi amillərdən biridir. Bu, ölkənin inkişafı və müdafiəsi üçün mühüm kommunikasiya resursu kimi çıxış etməklə bərabər, güclü hakimiyyət və kapital tələb edir.

Demokratiyanın geniş məkana münasibəti problemi hələ tədqiq edilməmişdir. Hər hansı başqa siyasi institut kimi, demokratiyanın da çoxölçülü kommunikasiya məkanında tətbiq hüdudları mövcuddur. Tamamilə aydındır ki, dünyanın ərazi etibarilə ən böyük dövləti (Rusiya) və ya əhalisinin sayına görə ən iri dövlət (Çin) öz coğrafi və ya demoqrafik məkanını qoruyub saxlamaq üçün güclü hakimiyyətə malik olmalıdır.

Karl Şmitt "həqiqi demokratiya"nı yekcins, homogen cəmiyyətlə eyniləşdirirdi: *"Bu, tamamilə məntiqə uyğundur, çünki məhdud mənada xalq... müəyyən keyfiyyət birliyi kimi, vahid canlı orqanizm*

kimidir, onu adekvat şəkildə idarə etmək və öz iradəsini ifadə etmək üçün (xalq) mürəkkəb deyil, yekcins olmalıdır". Bir neçə etnomədəni qurumdan ibarət olan cəmiyyətə keçid zamanı vahid sakral avtoritet və ya geosiyasi (sivilizasiyalı) paradiqma tələb olunur. Geosiyasi məkandan fərqli olaraq, geoiqtisadi məkan dünya dövlətinin və ya regional dövlətin hərbi-siyasi qüdrəti ilə deyil, onun iqtisadi qüdrəti ilə müəyyən olunur. Lakin bu məkanın parçalanmasının təbiəti geosiyasi məkana identikdir və sosiumun xüsusiyyətləri ilə şərtlənmişdir *[Дергачев, 2004, стр.100].*

Sosial məkan öz təbiətinə görə coğrafi məkandan tamamilə fərqlənir. Amerikanın böyük sosioloqu, *sosial stratifikasiya nəzəriyyəsini* işləyib hazırlamış *Pitirim Sorokin* (1889-1986) bu xüsusiyyətə diqqəti cəlb edirdi. Alim sosial məkanı Yer kürəsinin əhalisi ilə eyniləşdirirdi. Coğrafi məkanda bir-birinə yaxın yerləşən insanlar (məsələn, kral və onun qulluqçuları) sosial məkanda çox böyük məsafə ilə ayrılır və əksinə, coğrafi məkanda bir-birindən uzaq olan insanlar (məsələn, iki qardaş) sosial baxımdan çox yaxın ola bilər. Beləliklə, məkanın nəzərdən keçirilən iki növü bir-birindən tamamilə fərqlənir. İnsanın və ya hər hansı sosial hadisənin sosial məkanda mövqeyini müəyyən etmək onun "hesablama başlanğıcı" kimi götürülmüş başqa insanlara və başqa sosial hadisələrə münasibətini müəyyən etmək deməkdir. *Sosial stratifikasiyanın* əsasını insanların müəyyən məcmusunun (əhalinin) iyerarxik ranqda siniflərə diferensiasiyası təşkil edir (ən yüksək və ən aşağı təbəqələr də daxil olmaqla). Bu stratifikasiyanın mahiyyəti bu və ya digər birliyin üzvləri arasında hüquq və imtiyazların, məsuliyyət və vəzifələrin qeyri-müntəzəm bölgüsü, sosial dəyərlərin, hakimiyyətin və ya nüfuzun mövcud olub-olmamasıdır. Sosial stratifikasiya üç formanın mövcud olmasında ifadə edilir: iqtisadi, siyasi və peşə stratifikasiyası *[yenə orada].*

Şəxsiyyətlərarası kommunikasiyalar məkanı üzərində ayrıca dayanmaq lazımdır. "Dialoji təfəkkür" fəlsəfi məktəbinin görkəmli nümayəndələrindən olan *Oyqen Rozenştok-Hyussi* müasir cəmiyyətdə bir neçə böhranlı vəziyyəti göstərirdi: anarxiya, tənəzzül, in-

qilab və müharibə. Anarxiya kooperasiyaya mane olur, tamı hissələrə parçalayır, bu vəziyyətdə hər kəs cəmiyyətin üzvü kimi toplamalı olduğundan daha çox sərvət toplamağa çalışır. Tənəzzül liberalizm xəstəliyi, öz ideal və məqsədləri ilə növbəti nəslə ilham vermək qabiliyyətinin olmamasıdır. Anarxiyanı birlik və həmrəyliklə aradan qaldırmaq olar, tənəzzüldən yaxa qurtarmaq üçün isə o vaxta qədər heç vaxt mövcud olmamış bir şeyə etiqad yaranmalıdır.

Hər bir böhranlı vəziyyət insanların birgəyaşayışının zaman-məkan xarakteristikaları ilə bağlıdır. O cümlədən, anarxiya daxili məkanla, tənəzzül isə zamanın geriyə istiqamətlənməsi ilə müqayisə edilə bilər. Cəmiyyət bu vəziyyətdə zaman və məkan oxu vasitəsilə salamat qalmaq uğrunda mübarizə aparır. Bir cəbhədə vəziyyətin gərginləşməsi ilə əlaqədar kəskinləşmiş zaman-məkan şəraitində şəxsiyyətlərarası kommunikasiyalar pozulur və deməli, ünsiyyət imkanı olmur. Beləliklə, şəxsiyyətlərarası kommunikasiyaları yaradan və onları dağıdan dilin imkanlarıdır. Burada cəmiyyətin polixronluğu, danışan ilə dinləyən arasında zaman fərqi birinci dərəcəli əhəmiyyət kəsb edir. Dinləməyi bacaran danışandan daha irəli gedə bilər, lakin real həyatda mənəvi üstünlük bir sıra amillərdən asılıdır. Bununla belə, inamla deyilən söz təsir etməyə başlayır və o, gerçəkliyə çevrilə bilər.

Şəxsiyyətlərarası kommunikasiyalar məkanında biliklərə malik olan translyator ilə dinləməyi bacaran reseptor arasında energetik gərginlik yaranır. Mərkəz və periferiya kimi fundamental anlayışlar təkcə coğrafi və iqtisadi məkanda deyil, həm də mənəvi, sosiomədəni və ya informasiya məkanında mövcuddur. Mənəvi məkanda İnam (Allah) yox olduqda periferiya mərkəzi üstələyir və bu halda şərəfsiz, abırsız və vicdansız ruh lümpenləri sosiumda müvəqqəti zəfər çalır.

"Üçüncü yol" kommunitar nəzəriyyəsinə görə, müasir sosial məkanda əsas sosial element cəmiyyət və fərd deyil, insanlar arasında münasibətlərdir (kommunikasiyalar). Keçən əsrin 90-cı illərində ümumi rifah və ya sosial bazar iqtisadiyyatı cəmiyyətinin modelində ciddi böhran başlandı. ABŞ-da yeni demokratlar, İngil-

tərədə yeni leyboristlər, Almaniyada yeni sosial-demokratlar üçüncü yol ideologiyasını mənimsəməyə başladılar. Sosial iyerarxiyanın müxtəlif səviyyələrində həyat fəaliyyətinin mühüm elementi fərd və cəmiyyət deyil, insanlar arasında münasibətlər və ya kommunikasiyalar elan edilir. Kommunitaristlər vətəndaş cəmiyyəti üçün dövlət kollektivizmi ilə neoliberal fərdiyyətçilik arasında üçüncü yolu seçirlər. Üçüncü yol tələbin təmin edilməsinə əsaslanan *tetçerizmi*[1] və *keynsçilik*[2] konsepsiyasını inkar edir. Bu şəraitdə iqtisadiyyatda uğur qazanmağın əsas sirri bəzən fiziki və maliyyə kapitalından deyil, insan amilinin - biliklərin, ideyaların və yaradıcılığın zənginliyindən asılıdır. Sosial nemətlərin bölüşdürülməsində bərabərlik prinsipi yeni prinsiplə əvəz olunur: "Kim işləməsə, o, müavinət almır".

Sosiopsixoloji məkan psixoloji ab-havanın sosiuma təsirini nəzərə alır. Psixoloji ab-hava da öz növbəsində sosial transformasiyanın təsiri altında formalaşır və müxtəlif formalar kəsb edə bilər (kütləvi psixoz, möcüzələrə inam və s.). Landşaftın, iqlimin və ilin fəsillərinin mənəvi həyata təsiri haqqında elm olan *geopsixologiya* (yunanca Yer və psixologiya sözlərindən yaranmışdır) xüsusi yer tutur. Geopsixologiya şüur problemləri, psixopotologiya, təbiətin və landşaftın estetikası ilə bağlı elm sahəsidir. Avrasiya sivilizasiyalarının hüdudlarında müşahidə olunan millətlərarası və konfessiyalararası münaqişələrlə zəlzələlərin tektonik zonaları arasında qarşılıqlı əlaqə məsələləri hələ tam öyrənilməmişdir */Дергачев, 2004, стр. 102-103].*

Müasir dövrdə *informasiya məkanı* xüsusi əhəmiyyət kəsb edir. *İnformasiya inqilabı* texnoloji təroqqi nəticəsində informasiyanın, kapitalın və ixtisaslı kadrların qlobal mobilliyidir. Bu, status-institusional mədəniyyətinin məhdudlaşmasına gətirib çıxaran informa-

[1] İnfrastruktur (yollar, rabitə və enerji sistemi), təhsil və elm, xarici ticarət istisna olmaqla, digər sahələrin özəlləşdirilməsi və dövlət tənzimlənməsinin aradan qaldırılması prosesi.

[2] Aparıcı Qərb dövlətlərinin iqtisadi siyasətinə mühüm təsir göstərən iqtisadiyyatın dövlət tənzimlənməsi nəzəriyyəsi. İngilis iqtisadçısı *Con Meynard Keynsin* (1883-1946) adı ilə bağlıdır.

siya texnologiyaları ilə şərtlənmişdir. Mənəvi texnologiyaların maddi-praktiki texnologiyalar üzərində birinciliyi üstünlük təşkil edir. Əvvəllər statusa görə müəyyənləşən, fərdin tutduğu vəzifədən və cəmiyyətdəki mövqeyindən asılı olan, milli hökumətlər və beynəlxalq korporasiyalar tərəfindən nəzarət edilən rabitə kanalları, informasiya bazarları və informasiya mənbələri indi qeyri-rəsmi şəxslər üçün əlçatan olmuşdur. İnformasiyanın, kapitalın və ixtisaslı kadrların qlobal mobilliyi dövlətin bir sıra fiskal funksiyalarının yerinə yetirilməsində onun rolunu zəiflədir. Gərəksiz informasiyanın toplanması informasiya inqilabının əlavə effektidir. "Vəhşiləşmiş" informasiya məkanında gərəksiz informasiya hakimiyyət uğrunda mübarizənin və ya elmi məhsulların imitasiya edilməsinin mühüm vasitəsidir.

İnformasiya resursları yüksək ixtisaslı və yaradıcı işçilərin - mənəvi istehsal sahəsinin peşəkarlarının intellektual fəaliyyətinin məhsuludur. Müasir informasiya texnologiyaları siyasi, müdafiə, iqtisadi, sosial və mədəni baxımdan çox böyük strateji əhəmiyyətə malikdir. Transaksiyadan, yəni informasiyanın uzaq məsafələrə ünvanlı şəkildə ötürülməsindən fərqli olaraq, indi interaksiya, yəni internet şəbəkəsində sözün interaktiv mövcudluğu getdikcə geniş yayılmaqdadır.

Formalaşmaqda olan dünya informasiya məkanı, o cümlədən internetin kibernetik məkanı təfəkkür sivilizasiyası adlanır. YUNESKO-nun məlumatına görə, dünyada kommunikativ informasiya axınının 65 faizi ABŞ-ın payına düşür. Beləliklə, Amerika dünya informasiya məkanının mərkəzində yerləşir. Dünya birliyi xeyli dərəcədə Amerika informasiya məkanından asılıdır. Hər hansı maddi əmtəə və ya obyekt ilə müqayisədə intellektual məhsulların səhm kursu heç də az dəyişmir. İntellekt sahibi bu səhmlərin məzənnəsi aşağı düşəndən sonra da yaradıcı fəaliyyətini dayandırmayacaqdır. Buna görə də iqtisadi təməli yüksək informasiya texnologiyaları olan Amerika valyuta-maliyyə sistemi dünyada ən davamlı sistemdir.

Yer kürəsinin çoxölçülü kommunikasiya məkanında "orta mövqe tutmaq" çox vaxt salamat qalmağın və geosiyasi qüdrətin zəma-

nəti kimi çıxış edir. Orta Çin etnik məkanda, Orta Rusiya təbii-coğrafi məkanda, Orta Amerika (ABŞ) geosiyasi və geoiqtisadi məkanlarda fərqlənir. Çini "həzm etmək" cəhdləri dəfələrlə işğalçıların assimilyasiyasına gətirib çıxarmışdır. Ucsuz-bucaqsız Rusiyanın kommunikasiya karkası çox böyük və natamam olduğuna görə onu həzm etmək çətindir. ABŞ-ın Avropa mədəniyyətinə yaxın olması və eyni zamanda, dünya müharibə meydanlarından uzaqda yerləşməsi onun qüdrətinin artmasına şərait yaratmışdır. Qədim Yunanıstanda ekssentrik sistem yaradılmışdı. Bu sistemdə mərkəz və periferiya birləşmişdi. Siyasi və iqtisadi qütblər Quru ilə Dənizin sərhədində (təmas zonasında) yerləşirdi. Avrasiya çöl-okeanında köçəri sivilizasiyalar və Mərkəzi Asiyanın şəhər mədəniyyətləri oazisləri - adaları yanaşı mövcud idi *[Дергачев, 2004, стр. 104-105]*.

Dövlətin kommunikasiya karkası - ona daxil olan ərazinin davamlı geosiyasi transformasiyası nəticəsində tarixən qərarlaşmış çoxölçülü dövlət məkanıdır. Yeni müstəqil dövlətin kommunikasiya karkası, bir qayda olaraq, artıq mövcud olmayan geosiyasi məkanın bir hissəsidir. Buna görə də kommunikasiya karkasının milli mənafelərə uyğun olaraq formalaşması üçün dövlət xadimlərinin geosiyasi və geoiqtisadi kodun transformasiyası üzrə əzmkarlığı tələb olunur.

Yer kürəsinin çoxölçülü kommunikasiya məkanında coğrafiya ilə tarixin qovuşduğu elə ərazilər var ki, orada təbii landşaftın hissi qavrayışı tarixi assosiasiyalar hesabına güclənir. Belə yerlərdə geosiyasi, sosiomədəni, geoiqtisadi və başqa proseslərin sərhəd kommunikativliyi nəticəsində vaxtaşırı yüksək gərginliklər enerqetikası yaranır. Unudulmuş ölkə uzun letargiya yuxusundan oyanır və sosial zaman təzədən hesablanmağa başlayır. Lakin dünyada heç nə əbədi deyil. Həmin ərazi yenidən unudula bilər və ya intensiv həyatın periferiyasına düşə bilər və haçansa yeni geosiyasi məkanda başqa bir tarixi adla dirçələ bilər.

Gənc dövlətlər mikrokosmosunda çoxölçülü kommunikasiya məkanının geosiyasi və sosiomədəni sərhədləri xüsusi formada təzahür edir, onlar həm konsolidasiyanın, həm də dezinteqrasiyanın

əsası ola bilər. Bir dövlətin kommunikasiya karkası dağıdılmış və yeni karkas yaradılmamış olduqda mərkəzdənqaçma meyilləri təhlükəsi güclənir. İqtisadi cəhətdən zəif dövlət mədəni-genetik sivilizasiya kodunu nəzərə almadan bir ənənə əsasında hamını eyniləşdirməyə cəhd göstərəndə bu təhlükə daha çox ehtimal edilir.

Rasional və hissi-lamisə (təmas) qavrayışının sərhədində kommunikasiyanın məhsuldar qüvvələri *həyat landşaftları* - bol enerjili fərdi emosional dəyər intensivliyi sahəsi yaradır. İnsanın kommunikasiyasının hərəkətverici qüvvəsi onun inkişaf etdiyi təbii landşaft (kiçik vətən) ilə həyat yolunun başqa landşaftları arasında təzadlardır. Sosial-psixoloji amil güclü nostalgiya vasitəsilə müstəqil təfəkkürün (insanın özü ilə söhbətinin) emosional-dəyər intensivliyindən ibarət energetik sahə yaradır. İnsanın inkişaf etdiyi landşafta zidd olaraq landşaft-natürmort (ruha yabançı landşaft) mövcuddur. İnsanın kristallaşmış passionarlığının ərazidə qoyduğu maddi-əşyavi iz - *tarixi landşaft* xüsusi qeyd edilməlidir, məsələn, xatirələr və poetik assosiasiyalarla zəngin olan təbii-park landşaftı.

Çoxölçülü kommunikasiya məkanı - əsas nəzəri anlayışlardan biri, izafi (qurucu və ya dağıdıcı) enerji gərginliyi yaradan müxtəlif miqyaslı proseslərin təbiətdə və cəmiyyətdə stratifikasiyasının nəticəsidir. Coğrafi məkandan fərqli olaraq, çoxölçülü kommunikasiya məkanını yalnız zəkanın və ya qəlbin gücü ilə fəth etmək mümkündür.

Təbiətdə və cəmiyyətdə baş verən müxtəlif miqyaslı proseslərin stratifikasiyası nəticəsində yüksək energetika sahələri yaranır. Əslində isə təbii, siyasi, iqtisadi, sosiomədəni, konfessional və informasiya kommunikasiyaları sahələri coğrafi məkanda heç də üst-üstə düşmür və bir-birini qismən əhatə etməklə, intensiv qarşılıqlı fəaliyyət enerqetikasına malik olan marginal zonalar yaradırlar. Bu halda nəzərə almaq lazımdır ki, sərhəd kommunikativliyi coğrafi interpretasiyaya malik olmaqla yanaşı, həm də emosional sahədən - insanın qəlb landşaftlarından keçir.

Beləliklə, ikili kommunikasiya təbiətinə malik olan çoxölçülü məkan formalaşır. Bu məkanın hüdudları sosial-iqtisadi inkişafın

və mənəvi dirçəlişin strateji resursu ola bilər, yaxud təmas funksiyalarının itirildiyi şəraitdə dövlət üçün ağır bir yükə çevrilər. Bu halda məkanın kommunikasiya təbiəti pozulur, dövlət isə dağılır. Müxtəlif miqyaslı proseslərin zaman-məkan stratifikasiyası nəticəsində onların dinamik təmasda olması çoxölçülü kommunikasiya məkanında çoxsaylı, o cümlədən indi artıq ömrünü başa vurmuş sərhədlər yarana bilər. Lakin sosial-psixoloji diskomfort, kommunikasiyaların neqativliyi və aşkar ifadə olunan münaqişələrin təsiri ilə dövlətin parçalandığı dövrdə "reliktlər" məkanın ətraf aləmdən təcrid olunmasına reaksiya kimi özünü göstərir. Bu halda münaqişə həm rahatlığı pozan qüvvə, həm də yeni kommunikasiyanın yaradıcı funksiyası kimi çıxış edir *[Дергачев, 2004, стр. 105-106]*.

4.2.1. Sərhəd energetikası

Ərazilərin müstəmləkələşdirilməsi və mənəvi ekspansiya üçün son imkanların aradan qaldırılması nəticəsində transsendent təfəkkürdən, əsasən immanent təfəkkürə və dünyaların çoxluğunun qavrayışına keçid baş verir. Bu, həm də utopik enerjilərin tükənməsi ilə şərtlənir. Bəşəriyyət *çoxölçülü məkanın sərhəd kommunikativliyinin böyük kəşfləri dövrünə* qədəm qoyur, sivilizasiyalar, xalqlar, dəniz və qitə arasında, iqtisadiyyat dünyaları, təbiət və insan, onun xarici və daxili aləmi arasında sərhəd prosesləri diqqət mərkəzinə keçir. Təbiətdə seysmik fəal tektonik zonalar, Zavarnitski-Benyöf zonası, hava kütlələrinin metereoloji cəbhələri, quru-okean sahil zonası, bioloji aktiv ekotonlar geniş yayılmışdır. Təbiətin və insanın yaratdığı sərhəd kommunikativliyi (sivilizasiyalar və böyük çaylar, dənizkənarı bölgə, çöllər, sahil, oazislər) də bu qəbildəndir. Geosiyasi, geoiqtisadi və sivilizasiyalararası hədlər bir-biri ilə qarşılıqlı əlaqəli şəkildə qurucu və ya dağıdıcı energetika yaradır. Məsələn, təbii hüdudların (çay, dəniz və okean sahilləri, meşələr və çöllər) attraktivliyi (cəlbediciliyi) məlum faktdır. Təbiətdə və cəmiyyətdə marginallıq sərhəd proseslərinin intensivləşməsində (divergensiya və konvergensiya, mərkəzdənqaçma və mərkəzəqaçma qüvvələri, quruculuq və dağıntılar, bir hadisənin zəifləməsi və digərinin güclənməsi şəklində) təzahür edir. Təbii, geosiyasi,

geoiqtisadi, geoekoloji, etnik, konfessional, mədəni-tarixi və başqa proseslər müəyyən ərazidə və tarixi dövrdə bir-biri ilə kəsişərək, bir-birini qismən əhatə edərək yüksək sərhəd energetikasına malik olan çoxölçülü kommunikasiya məkanının ehtimal edilən stratifikasiya mənzərəsini (sivilizasiya və ya sosiomədəni hüdudlar, dəniz və okeanların sahil zonası, *Lev Qumilyovun* passionar oxları, marginal submədəniyyətlər və s.) yaradır.

"Sərhəd" anlayışı, artıq deyildiyi kimi, mərkəzə əks, marginal (lat. margo - ucqar) sərhəd, hüdud deməkdir. Sərhədin funksiyaları təbii, siyasi, iqtisadi, etnik, konfessional, informativ, konvensial və başqa sərhədlərdə təzahür edir. Fəlsəfi mənada "sərhədlər" anlayışı *Hegel* tərəfindən "Məntiq elmi" əsərində ifadə edilmişdir: *"Şey yalnız öz hüdudları daxilində və onun sayəsində olduğu kimidir. Deməli, sərhədi yalnız varlığa nəzərən zahiri anlayış hesab etmək olmaz, əksinə, o, bütün varlığa sirayət edir"*. Sərhəd vəziyyətləri dedikdə elə vəziyyətlər nəzərdə tutulur ki, heç kəs prinsip etibarilə həmin vəziyyətləri yaşaya bilməz. Onlar xeyirxah hərəkətlərin, sevgi, ölüm və doğumun baş verə biləcəyi dünyanı təsvir edirlər. İnsan onun öz duyğularının hüdudlarında mövcud olan vəziyyətləri xalis şəkildə yarada bilməz.

A.Toynbi sərhədin maneə və təmas funksiyalarını fərqləndirirdi: *"Simvolik şəkildə göstərilən sərhəd möhkəm divardan daha etibarlıdır, lakin dəf edilə bilməyən sərhəd təbiətin inkarı deməkdir. Bu isə həmişə insan üçün pis nəticələr doğura bilər"*. Sərhədin baryer (əlaqəni çətinləşdirən) və təmas (bağlayıcı) funksiyaları ilə yanaşı, onun filtrasiyaedici (gömrük) funksiyaları da fərqləndirilir. Bu funksiyalar, məsələn, milli təhlükəsizliyi təmin edən dövlət sərhədində özünü bürüzə verir. *K.Popper* dövlətin təbii sərhədlərinin mövcud olmamasını qeyd edirdi. Onun fikrinco, bu sərhədlər dəyişir və yalnız "status-kvo" prinsipinin tətbiq edilməsi yolu ilə, yəni xalis konvensional prosedur vasitəsilə müəyyən edilə bilər. Dövlətin təbii sərhədlərini axtarıb tapmaq cəhdləri milli dövlət prinsipinə, millətçilik və irqçilik kimi romantik saxtakarlıqlara gətirib çıxarır.

Çoxölçülü kommunikasiya məkanında sərhəd yüksək energetika zonaları deməkdir. Coğrafi məkanda sərhədin təmas, maneə və tranzit funksiyaları fərqləndirilir. Dövlətlərin və ya sivilizasiyaların çoxölçülü sərhədinin qurucu və ya dağıdıcı (geosiyasi, geoiqtisadi, milli, konfessional və s.) energetikası sərhəd gərginliyi (sərhəd energetikası) yaradır. Həyatın nisbi keyfiyyətini təmin edən intensiv enerji-informasiya və maddi (ticarət) mübadiləsi yaratmaq mümkün olmadıqda sivilizasiyaların sərhədləri hərəkətə gəlir. Etnik-milli və etnik-konfessional münaqişələr daha çox təhlükə doğurur.

Marginallıq periferiya (əyalət, geridə qalmış) demək deyildir, periferiyalıq marginallığın xüsusi halıdır. Sərhəd enerji-informasiya mübadiləsi (şəxsiyyətlərarası, silki, etnik, sivilizasiyalı) qurucu və dağıdıcı ola bilər. Buna görə də "marginal" termini həm müsbət, həm də mənfi mənada istifadə edilə bilər.

Çoxölçülü kommunikasiya məkanının sərhədi antipodlar dünyası ilə şərtlənmişdir. Məcazi mənada antipodlar müxtəlif sosiomədəni ənənələrə malik olan insanlar, etnoslar və sivilizasiyalar deməkdir. Antipodlar dünyası geosiyasətin təməlidir. Dəniz-Kontinent, Qərb-Şərq, Şimal-Cənub və Mərkəz-Periferiya konsepsiyaları buna sübutdur. Cəmiyyət qapalı və açıq, ənənəvi və mülki, sənaye və postsənaye, demokratik və totalitar cəmiyyət ola bilər. İqtisadiyyat bazar və mərkəzləşmiş növlərə, mədəniyyət isə milli və kosmopolit növlərinə bölünür. Etnik sahədə xalqların müsbət və mənfi komplimentarlığı fərqləndirilir.

Yer kürəsinin məkan etibarilə təşkili yer sferalarının: biosfer, sosiosfer, etnosfer, litosfer, hidrosfer və atmosferin rayonlaşdırılması (bütöv sistemlərin ayrılması) və diferensiasiya (tamın hissələrə bölünməsi) əməliyyatlarını əhatə edir. Məlum olduğu kimi, rayonlaşdırmanın bütün xüsusi növləri müəyyən hadisənin təbii və sosial mahiyyətini: biokütlənin sıxlığı (canlı maddənin paylanması), landşaft-coğrafi, iqlim, litosfer, əhalinin sıxlığı kimi göstəriciləri əks etdirən amillər əsasında həyata keçirilir. Yer sferalarının məkanda diferensiasiyası üçün energetik yükün müxtəlif işarəli (müsbət və mənfi) olduğu sistemlər səciyyəvidir: atmosferdə sik-

lonlar və antisiklonlar, okeanda sinoptik və antisiklonal burulğanlar, etnosferdə etnoslar və super etnoslar, litosferdə kontinental və okean tektonik pilitələr, biosferdə canlı maddə konsentrasiya arealları və bioloji səhralar.

Yerin səthi quruya və dünya okeanına (suya), daha sonra materiklərə və kontinentlərə, dənizlərə və okeanlara bölünür. Lakin yerin coğrafi diferensiasiyası əsasən konvensionaldır, yəni okeanların, Avropa ilə Asiyanın sərhədləri şərtidir. İlk baxışda sadə görünən bu şərtilik ehkam dərəcəsinə çatdırıldıqda bəzən fəlakətə çevrilir. Təbii və konvensional sərhədləri fərqləndirmək zəruridir. Əgər insanla analogiya üzrə sivilizasiyaları (superetnosları) və etnosları təkcə sosiosferdə deyil, həm də biosferdə marginal (sərhəd) qurumları hesab etsək, naməlum dünyanın gizli mənzərəsi aşkar olar. Bu halda yer sferaları üçün ümumi qanunauyğunluqlar üzə çıxır. Yer biosferinin məkan etibarilə təşkili canlı maddənin (bioloji kütlənin) yüksək energetikası əsasında bütöv sistemlərin fərqləndirilməsi kimi təsəvvür edilir. Dünya okeanında bu, enerji ilə zəngin olan antisiklonal burulğanlar, kontinentlərdə isə intellektual və mənəvi elitanın zərif bir sosial təbəqə təşkil etdiyi sivilizasiyalar, düşmənçilik və sülh kimi seysmik aktiv sərhədlərdir. Etnik-milli və etnik-konfessional münaqişə zonaları bu qəbildəndir. Bu münaqişələr nəticəsində dünyanın rasional və hissi-lamisə (təmas) qavrayışının enerji ilə zəngin olan sərhədləri dağılır, sivilizasiyalar məhv olur.

Aşağıdakı məqamlar diqqəti cəlb edir. "Təbii" okeanların və sivilizasiyaların sayı təxminən eynidir. Təbiətlə analogiya üzrə superetnoslar az mütəhərrik antisiklonları, etnoslar isə daha mütəhərrik siklonları xatırladır. Təsadüfi deyil ki, Avrasiya sivilizasiyalarının hüdudları kimi atmosfer cəbhələri, seysmik aktiv zonalar, quru-okean təmas zonası nəzərdən keçirilir. Həqiqi okeanlar arasında, su mübadiləsi və bioloji növlər arasında mübadilə məhdud, sivilizasiyaların sərhədində isə mənfi komplimentarlıq səciyyəvi haldır. Hətta uzun müddət eyni ərazidə yaşamaq qarışıq nikahlara və assimilyasiyaya səbəb olmur. Okeanlarda ən yüksək bioloji aktivlik quru-dəniz təmas zonasının ekstremal şərait ilə "bərkimiş" ekoton-

lar üçün səciyyəvidir. Sosial sahədə ən yüksək işgüzar fəallıq diaspor, sosiomədəni və konfessional marginallar üçün səciyyəvidir.

Sərhəd submədəniyyətləri və ya müsbət, yaxud mənfi energetikalı mədəni-marginal klanlar (icmalar) sivilizasiyalararası dialoq üçün bir növ "odlama şamı" rolunu oynayır. Fəaliyyətin bu energetik resursu çox vaxt ictimai inkişafın lokomotivinə çevrilir. Daxili aləmlə itirilmiş xarici aləm arasında güclü nostaljik duyğular, vətəndən (təbii inkişaf yerindən) uzaq düşməyə görə kəskin iztirab çəkmək, fani dünyanın digər sosial-psixoloji amilləri qurucu fəaliyyətin zəruri olmasına inam yaradır. Kəskin nostaljik hisslər etnik sahənin yabançı ritminin hökm sürdüyü sosiomədəni mühitin insana təsiri ilə şərtlənir.

Yaradıcı enerji mənbələrini (passionarlığı) akkumlyasiya edən müxtəlif miqyaslı proseslərin sərhəd vəziyyəti böyük insanların meydana çıxması və istedadların coğrafiyasını müəyyən edir. Sərhəd vəziyyətlərinin yüksək energetikası və açıqlığı sayəsində marginal mədəniyyətlər zirvələrə çatır.

Beləliklə, Yer səthinin ən iri qurumlarında həm konvensional, həm də bir qayda olaraq üst-üstə düşməyən təbii təmas sərhədləri mövcuddur. Lakin məhz təbii sərhədlərin yüksək energetikaya malik olması səbəbindən xalqların milli və ya konfessional əlamətlərə görə süni şəkildə bir-birindən aralanması yolu ilə həmin sərhədləri zorla ləğv etmək üçün göstərilən hər hansı cəhdlər naməlum nəticələrə gətirib çıxarır. Daim yadda saxlamaq lazımdır ki, sivilizasiyalar ikili təbiətə malikdir və bu, qan qohumluğu, torpağa bağlılıq prinsiplərinə, insanın ağlına əsaslanır. Rasionalist təfəkkürün imkanlarını həddən artıq şişirtmək, eləcə də insanın bioloji köklərini lazımınca qiymətləndirməmək düzgün deyil. Bu, XXI əsrin əvvəlində təbii-coğrafi determinizm prinsiplərindən qaynaqlanan və dünyaya sahib olmağın mümkünlüyü barədə şişirdilmiş inamdan qidalanan geosiyasətə haqq qazandırılması üçün xüsusilə aktualdır.

Təbiətdə və cəmiyyətdə müxtəlif miqyaslı proseslərin stratifikasiyası nəticəsində çoxölçülü kommunikasiya məkanında yüksək energetika sərhədləri yaranır. Doğrudan da təbii, siyasi, iqtisadi,

sosiomədəni, konfessional və informasiya kommunikasiyalarının sahələri real aləmdə coğrafi məkanda üst-üstə düşmür və bir-birini qismən əhatə etməklə intensiv qarşılıqlı əlaqələr energetikasına malik olan sərhəd zonaları yaradırlar.

Bu halda nəzərə almaq lazımdır ki, sərhəd kommunikativliyi coğrafi interpretasiyaya malik olmaqdan əlavə, həm də emosional sahədən, insanın qəlb landşaftından keçir. Beləliklə, ikili kommunikasiya təbiətinə malik olan çoxölçülü məkan formalaşır. Bu məkanın hüdudları maddi inkişaf və ya mənəvi dirçəliş üçün strateji resurs da ola bilər, təmas funksiyalarının itirildiyi şəraitdə ölkə üçün ağır yükə də çevrilə bilər. Bu halda məkanın kommunikasiya təbiəti pozulur, dövlət isə dağılır.

Müxtəlif miqyaslı proseslərin zaman-məkan stratifikasiyası nəticəsində onların dinamik təmasda olması çoxölçülü kommunikasiya məkanında çoxsaylı, o cümlədən indi artıq ömrünü başa vurmuş sərhədlər yarada bilər. Lakin sosial-psixoloji diskomfort, kommunikasiyaların neqativliyi və aşkar ifadə olunan münaqişələrin təsiri ilə dövlətin parçalandığı dövrdə "reliktlər" məkanın ətraf aləmdən təcrid olunmasına reaksiya kimi özünü göstərir. Bu halda münaqişə həm rahatlığı pozan qüvvə, həm də yeni kommunikasiyanın yaradıcı funksiyası kimi çıxış edir.

Real çoxölçülü məkanda müxtəlif ərazilərin fərqlərini dərk etmək üçün özünün tərkib hissələrinin (fakültativ parametrlərin) sadəcə məcmusu olmayan bütöv obraza əsaslanmaq lazımdır. Sovet elminin ideoloji məhdudluğu təfəkkürün və hisslərin, zəkanın və qəlbin sərhəd qavrayışına əsaslanan real coğrafi məkan obyektlərinin öyrənilməsinə empirik yanaşmadan tam istifadə etməyə imkan vermirdi. Müstəsna rasionalizm regional sosial-iqtisadi problemlərin inzibati yollarla həllində çıxılmaz vəziyyətlərə gətirib çıxarırdı. Unikal iqtisadi-coğrafi mövqe hakimiyyətin sərtləşdirilməsi, inzibati-ərazi quruluşunun qeyri-mükəmməl olması ilə kompensasiya edilir, partiya və istehsalat prinsiplərinə üstünlük verilirdi. Müxtəlif miqyaslı coğrafi məkanlar, ölkənin, regionun, şəhərin və ya başqa obyektin fiziki və iqtisadi-coğrafi vəziyyəti tədqiqat üçün vacib

şərt olsa da kafi deyildir. İnsanın mövcud olduğu vaxtı (bir-birinin ardınca baş verən hadisələri) insandan kənarda nəzərdən keçirmək olmaz. Çoxölçülü məkanda obyektin vəziyyəti dəfələrlə dəyişir. Obyektin kommunikasiya təbiəti onun sərhəd (təmas və münaqişə) strukturu vasitəsilə üzə çıxır. Burada sərhəd amili, eyni zamanda, müxtəlif kommunikasiya sahələrində yerləşən coğrafi obyektin inkişaf resursu və həmin obyektin yerinin əsas funksiyası kimi çıxış edir. Müasir dövrü sərhəd vəziyyətlərinin energetikası vasitəsilə dərk etmək mümkündür.

Müxtəlif miqyaslı geosiyasi, geoiqtisadi, geoekoloji, sosiomədəni və başqa proseslər bir-birini qismən əhatə etməklə *geostratlar* - stratifikasiya edilmiş çoxölçülü kommunikasiya məkanları yaradır. Geostratlar çoxölçülü məkanın müxtəlif miqyaslı proseslərinin zaman-məkan stratifikasiyasının nəticəsidir. Geostrat müəyyən geosiyasi, geoiqtisadi və başqa məkanlarda hadisələrlə zəngin olan ərazinin energetik sahəsi və xüsusi zamanı ilə səciyyəvidir. Geostratda maddiləşmiş (iqtisadiyyatda və ya siyasətdə), yaxud kristallaşmış (mədəniyyətdə) passionarlıq əks olunur. Geostratların yaranması təkamülün və inkişafın dövri və qeyri-dövri silsilələri ilə şərtlənmişdir. Müxtəlif dövrlərə aid geoloji təbəqələr və ya stratlar məlumdur. Etnogenezdə inteqrasiya və dezinteqrasiya proseslərinin növbələşməsi baş verir. İqtisadiyyatda böyük və kiçik dövrələr, məsələn *Kondratyevin* 50 illik inkişaf dövrələri fərqləndirilir. *O.Şpenqler* mədəniyyətlərin inkişafında dövri olmayan sikllər göstərirdi, *A.Toynbi* isə bəşər tarixini lokal sivilizasiya dövrələrinin məcmusu kimi təsvir edirdi.

Geostratların bir növü olan *"geosiyasi adalar"* nisbətən kiçik zaman fasiləsində müxtəlif geosiyasi məkanlara (platformalara) daxil olan ərazilərdir. Geosiyasi məkan dəyişdikdə bu adalar daha çox transformasiyaya məruz qalır, çox vaxt bu proses etnik-milli və etnik-konfessional münaqişələrlə müşayiət olunur. Müstəsna hallarda burada yerli əhalinin etnik qruplarından birinə münasibətdə soyqırımı təzahür edir. "Geosiyasi adalar" dağılmış siyasi məkanın kommunikasiya energetikasını uzun müddət qoruyub saxlayan ərazidir. Dövlətin geosiyasi qüdrətinin itirilməsinin nəticəsində onun çoxölçülü kommunikasiya məkanının əlaqələri zəiflədikdə sərhəd əraziləri hərəkətə gəlir.

Geostratların zaman-məkan sərhədlərində *geomarlar* - geostratlar arasında məsafəni dəf etməyə imkan verən izafi enerjili (bol enerjili) sərhəd kommunikasiya sahələri yaranır. Burada keçmiş, müasir dövr və gələcək zaman ünsiyyətdə olur, onların fəal qarşılıqlı əlaqəsi nəticəsində obyektin energetikası artır. Nəticədə yeni paradiqma və ya dünya mənzərəsi impulsu yaranır.

Geomarlar yüksək energetikalı sərhəd stratlarının çoxluğudur. Mənəvi aləm marginal mədəniyyətin energetik sahəsini formalaşdırır. Geoloji stratlar energetik resursların təbii təmərküzləşmə sahələrini yaradır. Bu konservləşdirilmiş enerji (məsələn Devon neft) insan tərəfindən kəşf olunur və istifadə edilir. Geostratların zaman-məkan hüdudlarında geomarlar yaradan təbii, geosiyasi, sosiomədəni, iqtisadi, etnik, informasiya, sosiopsixoloji və digər energetik sahələr fərqləndirilir. Müəyyən ərazidə və müəyyən sosial zamanda yuxarı strat açıldıqda o vaxta qədər "yatan" tarixi enerji sərbəstləşir. Məsələn, geosiyasi məkanın mövcud yuxarı təbəqəsi dağıldıqda açılmış tarixi stratların energetikasından qaynaqlanan etnik-milli və etnik-konfessional münaqişələr baş verir. Geosiyasətdə ən iri geomarlar Avrasiya sivilizasiyalarının marginal zonası və quru-dəniz təmas zonasıdır.

Beləliklə, ilkin (təbii) və təkrar (insan tərəfindən yaradılmış) maddi resurslarla analogiya üzrə sərhəd kommunikativliyi qurucu və ya dağıdıcı energetikaya malik olan strateji resurs hesab edilə bilər. Məsələn, sərbəst iqtisadi zonalarda kapitalın yüksək dövriyyə sürəti geosiyasi iqtisadiyyatın (yerli preferensiyaların və xarici texnologiyaların) və sosiobioenergetikanın, etnik və psixoloji amillərin (diasporun mövcudluğu və itirilmiş vətən üçün nostalgiya) əlaqəsinin nəticəsidir. Nəsillərdə və ya mədəniyyət abidələrində (kristallaşmış passionarlıq) gerçəkləşən mexaniki və irsi informasiyanın (ənənələrin) ötürülməsi sərhəd kommunikativliyi vasitəsilə baş verir.

Sərhəd kommunikativliyinin çoxfunksiyalı geomarları və qütbləri çoxölçülü kommunikasiya məkanının zaman-məkan stratifikasiyasının nəticəsi kimi formalaşır. Təbii-etnik, təbii-iqtisadi, geosiyasi, etnik-siyasi və etnik-konfessional münasibətlər kimi, binar (ikihədli) münasibətlərə əsaslanan geomarlar (sərhəd zonaları) geniş yayılmışdır. İnsan təbiətin və cəmiyyətin övladıdır. Bağlar və parklar, insanın əli ilə poetik məziyyət kəsb etmiş təbiət insanın və təbiətin sərhəd kommunikativliyinin özünəməxsus nümunəsidir. Təbii-etnik təmas zonaları çoxsaylı etnosların inkişaf yeridir.

Marginal xalqlar, o cümlədən Latın Amerikası xalqları, Afrika mənşəli xalqlar, kanadalı ingilislər və kanadalı fransızlar, amerikalılar, ingilis mənşəli avstraliyalılar və ingilis mənşəli Yeni zelandiyalılar etnik sərhədləri əks etdirir. Sivilizasiyaların hüdudlarında olan dövlətlər (ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya) və ya polietnik sərhəd dövlətləri (İsveçrə, Lüksemburq) başqalarından fərqlənir. Tarixdə Aralıq dənizi sahillərinin, Avrasiya və Afroasiya çöllərinin təbii-etnik sərhədlərini birləşdirmiş dünya imperiyaları məlumdur (Roma, Osmanlı, Monqol və Rusiya imperiyaları, Ərəb Xilafəti).

Mənəvi sərhəd kommunikativliyi öz əksini insan ilə Allah arasında konfessional sərbəst zona olan protestantizmdə tapmışdır. Bir qayda olaraq diasporun milli mədəniyyətini təmsil edən iki mədəniyyətin daşıyıcısı bikultural adlanır. Amerikan sosioloqları akkulturasiya (assimilyasiya) problemini tədqiq edərkən monolinqlərin (birdillilərin) və monokulturalların (bir ilkin mədəniyyətin daşıyıcılarının) yeni mədəniyyətin və yeni dilin daşıyıcıları olan monokulturallara çevrilməsinin dörd nəslini aşkar etmişlər. Lümpen marginallar cəmiyyətin baxımsız "silki", sinifsizləşmiş sosial təbəqəsidir. Müəyyən tarixi şəraitdə lümpenlər mövcud ictimai münasibətləri dağıdırlar.

XX əsrdə iki ictimai-siyasi sistemin qovşağında dünya miqyaslı ictimai-siyasi eksperiment aparılmış, antipod dövlətlər yaradılmışdır: Şərqi və Qərbi Almaniya, Şimali və Cənubi Koreya, kommunist Çini və Tayvan. Geosiyasi baryer olan Berlin divarının ləğv

edilməsi dünya sosializm sisteminin süqutu ilə bərabər bu antipod situasiyanın aradan qalxmasının başlanğıcı olmuşdur.

Sərhəd kommunikativliyinin ən iri tarixi polyusları (qovşaqları) açıq şəhərlədir. Bu polyusların bir-birini əvəz etməsi aşağıdakı ardıcıllıqla baş verir: Qədim Yunanıstan polisi - orta əsrlərin azad şəhəri (vicdan azadlığı uğrunda mübarizə mərkəzi) - kosmopolit dünya şəhəri. Orta əsrlərdə o dövrün ideyalarını başa düşmək uğrunda mübarizə kəndlilərin (zadəganların və ruhanilərin) torpaq ruhu ilə özlərini idarə edən qədim və məşhur böyük şəhərlərin kübar ruhu arasında baş verirdi.

Ona görə də *Spenqler* belə hesab edirdi ki, dünya şəhərləri sivilizasiyanı məhvə doğru aparır.

Dünya dinlərinin mərkəzləri Vatikan, Qüds, Məkkə, Mədinə və başqaları müəyyən mənada kristallaşmış passionarlığın mənəvi polyuslarıdır.

Beləliklə, sivilizasiyaların məchul və müəmmalı "sahillərinə" yola düşməzdən əvvəl sərhəd kommunikativliyinin prinsiplərini sadalayaq:

- *məkanın (geosiyasi, geoiqtisadi, geoekoloji, geososio-mədəni, sosiopsixoloji, mənəvi, informasiya və başqa məkanların) çoxölçülü olması;*
- *müəyyən məkanda və sosial zamanda çoxölçülü kommunikasiya məkanının zaman-məkan stratifikasiyası;*
- *təbii okeanların sərhəd səthləri və dünya sivilizasiyaları arasında analogiyalar, hol enerjili ən mühüm zonaların sərhədlərdə (ekssentrik sistemlərin təmas zonalarında) yerləşməsi;*
- *kommunikasiyanın məhsuldar və ya dağıdıcı qüvvəyə malik olduğu yüksək gərginlik qütbləri yaradan sərhəd energetikası;*
- *inkişafın strateji resursu kimi sosiomədəni sərhəd;*
- *müəyyən mədəniyyətin (sivilizasiyanın) kommunikasiya məkanı ilə məhdudlaşan komplimentarlıq (tamamlama) prinsipi və mədəniyyətlərin dialoqu prosesində komplimentarlıq və ya anlama aktı prinsipi;*
- *çoxölçülü məkanın sosial zamanının qeyri-bircins olması;*

• *çoxölçülü kommunikasiya məkanının ekssentrisiteti;*

• *çoxölçülü kommunikasiya məkanının dağıdıcı (sosium üçün) energetikasının neytrallaşdırılması üsulu kimi geostrateji prinsip;*

• *bol enerjili sərhədlərdə (geomarlarda) yaranan sosial və ekoloji fəlakətlərin qarşısının alınması texnologiyası.*

Sərhəd kommunikativliyinin aşağıdakı əsas tipoloji tədqiqat obyektləri fərqləndirilir: geosiyasi (Dəniz və Kontinent, "Rimlənd" və "Hartlənd"), geoiqtisadi (sərbəst iqtisadi zonalar, beynəlxalq nəqliyyat dəhlizləri), sosiomədəni (kosmopolit dünya şəhərləri, marginal mədəniyyət, diaspor, bikulturallar), geoekoloji (Quru-Dəniz təmas zonası, ekotonlar). Bu obyektlər kəsişmə nöqtələrində çoxölçülü məkanın qovşaqlarını (polyuslarını) yaradan kommunikasiya dəhlizləri qismində çıxış edirlər. Sivilizasiya geosiyasətində tədqiqat obyekti kimi Yerin immanent dünyasının çoxölçülü kommunikasiya məkanının bol enerjili sərhədləri nəzərdən keçirilir. Əsas geosiyasi obyektlər arasında sivilizasiyaların sərhədlərində təmas zonaları, kontinentin və dünya okeanının sərhədlərində təmas zonaları fərqləndirilir. Sərhəd kommunikativliyi insanın ikili (rasional və hissi) təbiətini əks etdirir və sosiumun dağılması və ya səmərəli böyük çoxölçülü əlaqə məkanının yaradılması üçün strateji resurs ola bilər. Dövlətin inkişafı üçün strateji resurs olan sərhəd anlayışı sözün hərfi mənasında, coğrafi mənada deyil, çoxölçülü kommunikasiya məkanının yüksək energetika zonası kimi başa düşülməlidir. Burada əsas meyar həmin zonanın əhatə dairəsi, fiziki ölçüləri (uzunluğu, eni) və ya insanın ayrı-ayrı keyfiyyətləri (ağıllı, mərd olması) deyil, geosiyasi, geoiqtisadi, sosiomədəni, sosiopsixoloji və başqa məkanların sərhədlərində qarşılıqlı təsirlərin energetikası xüsusi rol oynayır.

Potensial baxımdan hər bir ölkənin bu cür resursları var, lakin bu resursdan yalnız o halda istifadə etmək mümkün olur ki, passionarların siyasi iradəsi komponentlər arasında həmin məkan və sosial zaman üçün səciyyəvi olan harmonik nisbəti aşkar edə bilsin. Bu isə hələ yunanlar tərəfindən kəşf edilmiş siyasət sənətidir. ***İnsanların idarə edilməsi sənətində siyasi müdriklik zəkanın yüksək gərginliyinin nəticəsidir.***

Sivilizasiya geosiyasətində *sosiomədəni sərhəd* çoxölçülü kommunikasiya məkanının münaqişəli strukturu vasitəsilə inkişafın strateji resursu deməkdir. Təbii resurslardan (yanacaq-energetika resursları və s.) fərqli olaraq, sosiomədəni sərhəd "texniki iş" kimi deyil, yalnız savadlı iradə vasitəsilə həyata keçirilə bilər. Dövlətin çoxölçülü kommunikasiya məkanının yaradıcı sərhəd energetikası sosial inkişafın strateji resursunu yaradır.

İnsan təfəkküründün ən böyük məhsulu olan azadlığın və zərurətin birgə mövcud olması haqqında tezis insanın daxili və xarici dünyası arasında, onun sosial və təbii mahiyyəti arasında əbədi sərhəd kommunikativliyi axtarışlarında təzahür edir. Mənəvi siyasət şəxsiyyətin azadlığına və qanuniliyə nail olmağa yönəlmişdir. Bu siyasət ümumi qaydaların (formal hüququn) mövcud olmasını nəzərdə tutur və konkret qrupların mənafelərinə istiqamətlənmiş korporativ qanunları istisna edir. Rus filosofu *Nikolay Berdyayev* (1874-1948) özünün *"Azad xalq"* adlı məqaləsində yazırdı: ***"Xalq özünü idarə etməyi öyrənəndə vətəndaş kamilliyinə layiq olur. Azadlıq da ilk növbədə özünü idarə etmək qabiliyyətidir. Başqalarını, bütöv bir ölkəni yalnız o kəslər idarə edə bilər ki, onlar özlərini, öz hisslərini və fikirlərini, öz stixiyalarını idarə etməyi öyrənmiş olsunlar. Ölkədə qaydanı yalnız o kəslər yarada bilər ki, onlar öz daxilində qayda yaratmış, öz iradəsini tənzimləmiş və onu ali məqsədə doğru yönəltmiş olsunlar".*** Deməli, hüquqlara yalnız o kəs malikdir ki, özünü idarə edə bilsin. Özünü idarə etmək qabiliyyəti fərdin vicdanını müəyyən edir.

4.2.2. Böyük sərhədlər

Ənənəvi geosiyasətin əsas obyektləri Kontinent və Dəniz, onların qarşıdurmasıdır. Dəniz stixiyası "Yerin mərkəzi"ni ("Hartlənd") öz nəzarəti altına almaq üçün Kontinentin sahillərini ("Rimlənd") yuyub ovmağa çalışır. Preferensial rejimli kommunikasiyalar (transmodal dəhlizlər və azad iqtisadi zonalar) tərəfindən dəf edilən iqtisadiyyat-dünyaların sərhədləri geoiqtisadiyyatda xüsusi

yer tutur. Sivilizasiya geosiyasətinin sərhəd kommunikativliyinin ən iri obyektləri sivilizasiyaların Avrasiya marginal (sərhəd) zonası və quru-okean təmas zonasıdır. Sivilizasiya geosiyasətində dünya sivilizasiyalarının sahillərinə diqqət üstünlük təşkil edir. Burada Avrasiya marginal (sərhəd) zonası (Avrasiya sivilizasiyalarının sərhədləri) bəşəriyyətin mənəvi tərəqqisinin ən mühüm mühərriki, dünya dinlərinin inkişaf etdiyi yer, bir-biri ilə uyuşmayan superetnosların təmas forması olan ximeraya qarşı maneədir.

Avrasiya sivilizasiyalarının marginal (sərhəd) zonası - mədəniyyətlərin dialoqunun təmas zonası, bəşəriyyətin mənəvi tərəqqisinin ən mühüm mühərriki və eyni zamanda, qarşılıqlı anlaşılmazlığın və şübhələrin (dünyada ən böyük hərbi münaqişələrin) qarşısına çəpər çəkən "qaynar cəbhələr" deməkdir. Ekssentrik sosiomədəni sistemlərin əsası, bəşər tarixində ən böyük Avrasiya sərhəd zonası bizim eradan əvvəl təxminən 800-200-cü illərdə "ox dövrü"ndə yaranmışdır. Yeni eranın əvvəlində dörd imperiya - Roma, Parfiya, Kuşan və Xan imperiyaları Atlantik və Sakit okean arasındakı əraziləri vahid geosiyasi məkan halında birləşdirmişdi.

Avrasiya marginal (sərhəd) zonası daim hərəkətdədir. Sivil dünyanın və köçəri tayfaların maneə və təmas sərhədləri Roma imperiyası, Reyn və Dunay sahilləri, Qara dəniz, Baş Qafqaz sıra dağları, Amu-Dərya və Sır-Dərya hövzələri, Böyük Çin səddi boyunca keçirdi. Cənubda - Fələstin, Suriya, Şimali Mesopotamiya və İran ərazilərindən yarımhalqa şəklində dağlar, səhra və çöl zonaları ilə əhatə olunmuş məhsuldar aypara torpaqları yerləşirdi. Sivilizasiyaların ilkin tarixi bu məkanda başlanmışdır. Şimalda Karpat dağlarından Xinqana qədər ərazidə yerləşən böyük Avrasiya çölü orta əsrlərdən başlayaraq üç dəfə Türk, Monqol və Rusiya imperiyaları ilə birləşmişdir.

Çoxölçülü Avrasiya marginal (sərhəd) zonası məkanında təbii, geosiyasi, konfessional, iqtisadi, etnik, mədəni və başqa sərhədlər stratifikasiya etmişdir. Təbii sərhədlər də öz növbəsində iqlim, atmosfer, litosfer və biosfer fərqlərinə malikdir. Burada şiddətli və davamlı şaxtalı hava ilə səciyyəvi olan daxili kontinent və müsbət

temperaturlu ərazilər arasında hədd vardır. Avrasiya çölü ilə suvarılan musson subtropiklərindəki orta düzənliyi bir-birindən ayıran Böyük Çin səddi; Dobrucada romalıların ucaltdığı Trayan valları, Qafqazdakı Dərbənd qalası, Mərkəzi Asiyada türklərin ucaltdığı digər qala qurğuları məhz təbii sərhədlərdə tikilmişdir.

Böyük Avrasiya superetnik zonası yüksək energetikalı kommunikasiya polyusları yaradan çoxölçülü məkanın sərhəd vəziyyətlərinin nəticəsidir. Avrasiyanın əsas sərhədi insanların qəlbindən keçir. Avrasiya marginal (sərhəd) zonasının coxölçülü kommunikasiya məkanında dünya dinlərinin mənəvi mikrokosmosu yaranmış və onların mərkəzləri (Qüds, Roma, Məkkə, Mədinə) yerləşmişdir. Dünya fəlsəfi fikrinin polyusları (Qədim Yunanıstan, Çin, Almaniya), tarixi beynəlxalq ticarət mərkəzləri (İstanbul, Beyrut, Bağdad, Pekin və s.) bu məkanda cəmləşmişdir. Avrasiya marginal (sərhəd) zonası dünyanın üç demoqrafik polyusu (Çin, Hindistan və Qərbi Avropa), habelə iqtisadi və texnoloji inkişaf baxımından dünyanın iki mərkəzi (Avropa İttifaqı və Asiya-Sakit okean regionu) arasında sədd yaradır.

Ticarət, sənaye və maliyyə kapitalının dövriyyəsinin sürətlənməsi ilə əlaqədar intensiv informasiya mübadiləsi xalqların rifahının yüksəlməsinə və sosiomədəni sərhədlərdə dünya dinlərinin yaranmasına kömək etmişdir. Lakin, eyni zamanda, "dəmir pərdə"lər ucaldılması ən qanlı etnik-milli və etnik-konfessional münaqişələrlə müşayiət olunmuşdur. İri gərginlik mənbələrini etnik landşaft sərhədləri ilə müqayisə etsək görərik ki, münaqişələrin tarixi episentlərinin çoxu sivilizasiyaların üçqat konfessional sərhədlərində yerləşir: Qərbi xristian, pravoslav və islam (Balkanlar, Levant, Krım); islam (ərəb, türk), hind və Çin (Əfqanıstan, Tacikistan, Pəncab); pravoslav, Çin və yapon (Mancuriya). XX əsrdə Avrasiya marginal (sərhəd) zonası iki dünya müharibəsinin episentri olmuşdur. Həmin müharibələrdə 60 milyon nəfər və ya bəşəriyyətin bütün əvvəlki müharibələrində olduğundan çox insan həlak olmuşdur.

Avrasiya sivilizasiyalarının sərhədlərində bəşəriyyət ilk dəfə olaraq siyasi və sosial-iqtisadi seçim barədə əbədi suala ca-

vab almışdır. Əslində, bu cavab Bibliyada, Quranda və digər dini kitablarda ana xətt kimi keçir. Peyğəmbərlər bu müqəddəs kitablarda inkişafın Şərq və Qərb modellərinə deyil, mənəviyyata, insanın mənəvi həyatının saflığına üstünlük vermişlər. Bu yol insanın vicdanından keçir. Peyğəmbərlər və mütəfəkkirlər bəşəriyyəti dünya sivilizasiyasının beşikləri olmuş Cənuba və Şərqə, mənəvi həyatın mənbələrinə səsləyirdi. Bu, əsgər çəkmələrini geymiş insanların cismani yürüşü deyil, mənəvi yürüş olmalıdır.

Əsrlər boyu Avrasiya marginal (sərhəd) zonasının təmas funksiyaları beynəlxalq əməkdaşlıq, azad ticarət və informasiya mübadiləsi ilə səciyyəvi olmuşdur. Bu funksiyalar sülhün və xalqların rifahının, müxtəlif etnik-mədəni ənənələrə malik olan dövlətlərin təhlükəsizliyinin zəmanətidir. Qədimdə və orta əsrlərdə Avrasiya sivilizasiyalarının sərhədlərində sabitliyin zəmanəti Böyük İpək yolu idi. Sivilizasiyaların sərhədlərində maddi, nəqliyyat və maliyyə kommunikasiyaları pozulan kimi həyatın səviyyəsi və keyfiyyəti aşağı düşürdü. Millətçilik və dini fundamentalizm iblisləri müharibə yolunu seçirdilər. Avrasiya marginal (sərhəd) zonasının "qan damarlarında" yaranan nəhəng "tromblar" münaqişələri və sivilizasiyaların sərhədlərində maneələri daha da gücləndirirdi. ***"Təbiətin inkar edilməsi dəf edilə bilməyəcək bir maneədir, bu inkar insan üçün həmişə mənfur nəticələrə gətirib çıxara bilər"*** *[Тойнби, 1991, стр. 541.]*

Avrasiya marginal (sərhəd) zonasının geosiyasi sərhədləri dəfələrlə dəyişmiş, düşmənçilik çağırışları sülh ilə və əksinə əvəz olunmuşdur. Burada *Makedoniyalı İsgəndər, Çingiz xan* və *Teymurdan* başlamış *Napoleona* qədər böyük sərkərdələr iz qoymuşdur. Roma imperiyasının Konstantinopol (İstanbul) və Vyana kimi istehkamları Avrasiyada Bizans imperiyasının, Avropada Avstriya-Macarıstan imperiyasının paytaxtlarına çevrilmişdir. Bizansın hüquqi varisi olmuş Osmanlı imperiyası müsəlman Şərqinin sərhədlərini Avropanın içərilərinə doğru genişləndirmişdir. Qərb ilə Şərq

arasında qarşıdurma *Şərq məsələsində* və *Qara dəniz boğazları problemində* öz əksini tapmışdır.

Avrasiya marginal (sərhəd) zonası sivilizasiyalararası dialoqun translyatorudur. Bu zonanın çoxölçülü kommunikasiya məkanında Qərbi Avropa, slavyan, müsəlman (türk, ərəb, fars), Hindistan və Çin sivilizasiyalarının sərhəd energetikası stratifikasiya edilmişdir. Polietniklik, intensiv ticarət, mədəni və informasiya mübadiləsi tarixdə dəfələrlə sosial-iqtisadi inkişaf resursu və konfessiyalararası dözümlülüyün zəmanəti olmuşdur. Yekcins olmayan sosial zamanda coğrafi və superetnik sərhədlərdə yunanlar və barbarlar, antik dövr və orta əsrlər, Qərb və Şərq arasında fasiləsiz dialoq olmuşdur. Avrasiyanın Qədim Yunanıstan, Bizans, Qızıl Orda, Osmanlı və Rusiya imperiyaları, bir sıra başqa dövlətlər dialoqun translyatorları rolunda çıxış etmişlər. XX əsrin axırlarında Qərb ilə Şərq arasında dialoqda bu rolu yenə Avrasiya dövlətləri - Türkiyə və Rusiya yerinə yetirir. Avrasiyanın "tacsız paytaxtları" Afinadan İstanbula və Moskvaya keçmişdir.

Seysmik təhlükə mənbəyi olan sivilizasiyanın iflas zonası Avrasiya marginal (sərhəd) zonasından keçir. XX əsrin axırlarında Yer kürəsində bipolyar dünya nizamının mövcudluğuna xitam verilmişdir. Parçalanmış geosiyasi məkanda etnik vulkanların püskürməsi və ayrılmış "adaların" "dreyfi" başlanmışdır. Mənəvi qohumluq, psixoloji oxşarlıq və qarşılıqlı rəğbət hisslərinin zəiflədiyi Avrasiya sivilizasiyalarının sərhədlərində "konservləşdirilmiş" nəhəng enerji sərbəstləşmişdir. Baltik dənizindən Sakit okeana qədər geniş bir ərazidə etnik-milli və etnik-konfessional münaqişələrin seysmik təhlükəli zonası yaranmışdır. Bir müddət iki qüdrətli fövqəldövlətin himayəsi altında mürgüləyən tarixi reliktlər - geosiyasi, konfessional, sosiomədəni, geoiqtisadi və başqa sərhədlər (Balkanlar, Yaxın Şərq, Qafqaz, Əfqanıstan, Mərkəzi Asiya) oyanmış və hərəkətə gəlmişdir. Yoxsulluq, işsizliyin artması, demoqrafik amillər, torpaq və su uğrunda mübarizə sərhədlərdə münaqişələri gücləndirir. Etnik-milli və etnik-konfessional münaqişə əraziləri "sərbəst kriminal zonalara" çevrilmişlər: burada narkotik maddələr,

qəlp pullar və saxta sənədlər istehsal və nəql edilir; silah, oğurlanmış avtomobillər alveri, insanların girov götürülməsi və kölə alveri genişlənir. Müharibə biznesi bir ovuc adamın varlanması üçün ən mənfəətli məşğuliyyətə çevrilmişdir. Balkanlarda, Yaxın Şərqdə, Qafqazda və Mərkəzi Asiyada etnoslararası problemlərin güc tətbiq edilməklə həll metodları dünyanı yeni müharibələrə sürükləyir. Avrasiya marginal (sərhəd) zonası xalqları arasında milli və ya konfessional mənsubiyyət əlamətlərinə görə ayrı-seçkilik meyilləri yeni "dəmir pərdə" ucaldılmasına şərait yaradır.

Avrasiya marginal (sərhəd) zonasının geosiyasi gələcəyi təmas (tranzit) kommunikasiya funksiyalarının genişləndirilməsi və müasir infrastruktur yaradılması hesabına sivilizasiyaların sərhədlərində polietnikliyin qorunub saxlanması zərurəti ilə bağlıdır. Avrasiya sivilizasiyalarının sərhədlərində preferensial rejimli kommunikasiya qovşaqlarının formalaşması iqtisadi tərəqqiyə, Balkanlarda, Yaxın Şərqdə, Qafqazda və Mərkəzi Asiyada sosial-psixoloji komfort və etnoslararası dözümlülük ab-havası yaradılmasına kömək edir.

Yer kürəsinin quru ərazisinin təbii mühitinin min illər boyu insan tərəfindən məskunlaşması, bu ərazinin təsərrüfat məqsədləri üçün mənimsənilməsi və dəyişdirilməsi nəticəsində müəyyən kontinental təfəkkür stereotipi yaranmışdır. Təbii mühitə təsirin coğrafi miqyaslarının tədricən artaraq lokal səviyyədən regional səviyyəyə və nəhayət, qlobal səviyyəyə çatacağına inam yaranmışdır. Aktiv energetik zonalara malik olan Dünya okeanının sirkumsərhəd təbii strukturu bu inamı təkzib edir. İnsanın təbii mühitə təsirlərinin fasiləsiz və tədrici olması vacib deyil, onlar qəflətən, müəyyən müddətdən sonra da baş verə bilər. Okean mühitinin təbii vəhdəti və mütəhərrikliyi (cərəyanlar, qarışmalar) hətta nisbətən lokal xarakterli antropogen təsir nəticəsində də bu mühitin qlobal potensial çirklənməsinə şərait yaradır. Ona görə də dəniz və okeanların bu cür "qaynar nöqtələrinin" aşkar edilməsi mühüm vəzifəyə çevrilir.

Mühüm geosiyasi və geoiqtisadi məna kəsb edən sahil zonası və ya Quru-Dəniz (okean) təmas (marginal) zonası Böyük coğrafi

kəşflərin, Yer kürəsinin müstəmləkələşdirilməsinin, geosiyasi və geoiqtisadi istehkamların yaradıldığı tarixi meydan, okeanların eksentrik təbii sistemlərinin əsası, dünya okeanının başlıca ekoloji mühərrikidir.

Dəniz və okeanların sahil zonası dövlətin geosiyasi və geoiqtisadi qüdrətinin təşəkkülündə müstəsna rol oynayır. "Üzü dənizə" olmaqla inkişaf edən ölkənin qüdrəti onun dünyaya açıq olması hesabına artır. Ölkə təcridçilik yoluna qədəm qoyduqda onun kommunikasiya funksiyalarının itirilməsi hesabına parçalanma təhlükəsi yaranır.

"Sahil zonası" anlayışı çox geniş anlayışdır. Coğrafiyada və iqtisadiyyatda o, təbii, iqtisadi, demoqrafik və başqa proseslərin intensiv qarşılıqlı əlaqəsi ilə səciyyəvi olan Quru-Dəniz təmas zonası kimi nəzərdən keçirilir. Ənənəvi geosiyasətdə sahil zonası dəniz ilə kontinentin qarşıdurma vəziyyətində olduğu təmas zonası, geosiyasi ekspansiya üçün plasdarm ("Rimlənd"), geoiqtisadiyyatda müxtəlif təsərrüfat sistemləri arasında təmas zonası, məsələn, sərbəst iqtisadi zonalar, sivilizasiya geosiyasətində isə müxtəlif keyfiyyətlərin qarşılıqlı əlaqədə (münaqişədə) olduğu sivilizasiyalar arasında çoxölçülü kommunikasiya məkanının bol enerjili sahilləri deməkdir.

Dəniz və okeanların sahil zonası Yer kürəsinin ən iri hərbi güc mərkəzləri, iqtisadi və demoqrafik polyusların cəmləşdiyi əsas geosiyasi meydandır. Bəşəriyyətin tarixi qitələrin müstəmləkələşdirilməsinin və Dünya okeanının fəth edilməsinin tarixi istehkamı olan sahil zonası ilə ayrılmaz şəkildə bağlıdır. Beynəlxalq əmək bölgüsünün dərinləşməsi, qloballaşma və regionalizm meyilləri dəniz və okeanların sahil zonasının iqtisadi və demoqrafik cazibəsini artırır. Sahil zonası ayrı-ayrı dövlətlərin həyati mənafe zonasına çevrilir. Quru-Dəniz təmas zonası təbii (fiziki, kimyəvi, bioloji) proseslərin, təsərrüfat fəaliyyətinin və antropogen çirklənmənin intensiv qarşılıqlı əlaqə zonasıdır. Bu zonanın müasir vəziyyəti dəniz sahillərində əhali sıxlığının intensivləşməsi və təbii mühitə antropogen təsirin artması ilə səciyyəvidir.

Qurunun və Dünya okeanının mənimsənilməsi prosesinin bütövlüyü, onun məkan etibarilə diferensiasiyası və beynəlxalq hüquqi rejim haqqında təsəvvürlər əsasında sahil zonası Yer kürəsinin ən mühüm geosiyasi obyektlərindən biridir. Çoxölçülü kommunikasiya məkanında Dəniz ilə Kontinentin qovuşduğu məkanda yüksək yaradıcı və ya dağıdıcı energetika yaranır. Bu, dövlətlərin qüdrəti, iqtisadi fəaliyyətin miqyası, demoqrafik cəlbedicilik və təbii mühitə təsirlə şərtlənir.

Quru-Dəniz (okean) təmas zonası və ya sahil zonası kontinental şelfi və dənizsahili zonanı əhatə edir. Onun sahəsi təqribən 36 milyon kvadratkilometr və ya Yer kürəsi səthinin 7 faizi qədərdir (Dünya okeanının sahil xəttinin uzunluğu 1,5 milyon kilometrdən artıq, dənizkənarı zonanın şərti eni 3 kilometr olmaqla). Beləliklə, Quru-Dəniz (okean) təmas zonası ərazisinə görə materiklər arasında Avrasiyadan sonra ikinci yeri, okeanlar arasında dördüncü yeri tutur. Hazırda dənizlərdə təsərrüfat fəaliyyətinin 98 faizi və dünyanın hərbi gücünün yarısı burada cəmləşmişdir. "Rimlənd" bu zonanın xüsusi halıdır, çünki o, dənizsahili Avrasiya zonasının yalnız bir hissəsini əhatə edir. Müasir dövrdə "Rimlənd"ə daha artıq diqqət yetirilən Avrasiya geosiyasəti üstünlük təşkil edir. Gələcəkdə Dünya okeanının, ilk növbədə, kontinental şelfin energetik resurslarının mənimsənilmə dərəcəsi artdıqca sözügedən məkan geosiyasətin əsas obyektinə çevriləcəkdir.

Dünya okeanının insan tərəfindən mənimsənilməsi diferensiasiyasını təhlil edərək bu nəticəyə gəlmək olar ki, geoekoloji problemlər ümumilikdə qlobal mahiyyət daşımır və daha çox sahil zonasının mənimsənilməsi ilə bağlı problemlərdir. Sahil zonasında insan fəaliyyətinin lokal miqyası gələcəkdə qlobal (qarşısıalınmaz və neqativ) ekoloji nəticələrə gətirib çıxara bilər. Piratların "dənizlərə və okeanlara sahib olan - dünyanın sahibidir" şüarı əvvəllər geosiyasətin mühüm tərkib hissəsi idi. XXI əsrdə dəniz geosiyasəti yeni məzmun kəsb edir: *"sahil zonasına kim nəzarət edirsə, o, dünya okeanının və bəşəriyyətin geoiqtisadi və ekoloji gələcəyinə nəzarət edəcəkdir"*.

4.2.3. Böyük məkanların təsnifatı

Yuxarıda şərh edilən yanaşma əsasında böyük məkanların aşağıdakı sistemli *təsnifatını* təklif etmək olar:

1) İdeokratiya (ideya-qüvvələr) əsasında mərkəzləşmiş imperiya məkanları.

2) Teokratiya, Allaha inam əsasında mərkəzləşmiş məkanlar. İnam qaldıqda (mərkəz insanın qəlbindədir) geosiyasi parçalanma nəticəsində dövlət uğurla transformasiya edilə bilər. Mənəviyyatsız məkanda xaos vəziyyətinə keçid ehtimalı daha böyükdür.

3) Ətraf aləm üçün açıq olan ekssentrik məkanlar. Məsələn, Qədim Yunanıstan (hər yer mərkəzdir, periferiya yoxdur), Dünya okeanının təbii strukturu.

4) Parçalanmış (dağılmış) məkanlar. Məsələn, elitanın Qərb dəyərlərinə oriyentasiya etdiyi, xalqın isə qərarlaşmış mədəni-genetik kodu qoruyub saxladığı vəziyyət.

5) Periferik (dağılışan) məkanlar. Etiqadın olmaması (mərkəzin ürəkdə olmaması). Böyük iqtisadi səhralar.

6) Davamsız mədəni-genetik koda malik olan sərhəd məkanları, o cümlədən transformasiya edən, dağılan, deqradasiyaya məruz qalan və genişlənən məkanlar.

7) Udulmuş məkanlar.

Dünya sivilizasiyalarının böyük məkanları mədəni-genetik kodların davamlı olması və arxetiplərlə, kənardan təhdidlərə qarşı mübarizədə mentalitetin və mənəvi dəyərlərin üstün rolu ilə səciyyəvidir. Çoxölçülülüyü tədqiq etmək üçün böyük məkanların funksional tiplərini fərqləndirmək tələb olunur. Bu məkanların bir qismi geosiyasi konsepsiyalarda öz əksini tapmışdır.

1) "Dənizdən-dənizə" böyük məkanlar (V.P.Semyonov-Tyan-şanski) dəniz ilə kontinentin qarşıdurmasına ənənəvi geosiyasi yanaşmanın məhdudluğunu aradan qaldırır. Atlantik və Sakit okean sahillərində iqtisadi və texnoloji inkişafın iki qütbünü yaratmış ABŞ bu modelin effektivliyini daha əyani şəkildə nümayiş etdirir. Rusiya (sovet) imperiyası "dənizdən-dənizə" səmərəli geoiqtisadi məkan yarada bilmədi.

2) Tarixi təcrübə göstərir ki, *dünya sivilizasiyaları arasında böyük məkanlar* böyük sərkərdələrin siyasi əzmkarlığı nəticəsində yaranmışdır. Bu böyük məkanlar əmtəələr, ideyalar və informasiya üçün preferensial transkontinental dəhlizlər rolu oynayırdı. Məsələn, Böyük İpək yolu və dünya sivilizasiyaları arasında böyük Avrasiya çölü bu qəbildəndir.

3) Fridrix Listin "böyük məkanların iqtisadi avtarkiyası" yerli istehsalçıya münasibətdə ümumi proteksionist siyasət və gömrük ittifaqı ilə birləşən bir neçə dövləti əhatə edir. Milli təsərrüfatın dünya bazarına transformasiyası aralıq mərhələ (gömrük ittifaqı) vasitəsilə baş verdikdə o, daha səmərəli nəticələrə gətirib çıxarır.

4) Karl Şmittin böyük məkanı bir neçə böyük dövləti vahid strateji blok şəklində birləşdirir. Bu nizamlanmış məkan (Nomos) çoxölçülü, lakin qurucu sərhəd energetikası haqqında təsəvvürlərdən məhrum olan kommunikasiya məkanının proobrazıdır. Böyük məkanın əsasını ideya-qüvvə əsasında imperiya inteqrasiyası prinsipi təşkil edir. Müasir beynəlxalq münasibətlərdə *Şmittin* ideyası liberal-demokratik və ya *Konfusi* ideyasının üstünlük təşkil etdiyi dövlət-sivilizasiyalar yaradılması meyilində müşahidə olunur (Amerika sivilizasiyası, Birləşmiş Avropa, Böyük Çin).

5) "Ümumi bazar" - bir neçə dövlətin vahid iqtisadi məkanı. Bu məkanda iştirakçı ölkələr arasında əmtəələrin sərbəst və qeyri-məhdud yerdəyişməsi təmin edilmişdir. Böyük məkanın bu modelini Avropa İttifaqı nümayiş etdirir.

6) Etnik sahibkarlığın həyata keçirildiyi böyük məkanlar dünya bazarına təsirinə görə milli iqtisadiyyatlarla müqayisə edilə bilər. Qlobal etnik ticarət sistemləri formalaşır. Diasporun da daxil olduğu Böyük Çin "Bütün ölkələrin çinliləri, birləşin!" devizi altında dünya bazarının ən iri oyunçularından birinə çevrilir.

7) Kriminal iqtisadiyyatın böyük məkanları (narkotik maddələr, oğurlanmış avtomobillər, sənət əsərləri və canlı əmtəə alveri). Burada korporasiyalararası münasibətlər rolunu beynəlxalq

mafiya yerinə yetirir. Həmin mafiyada Çin triadaları xüsusilə fərqlənir.

8) Dünya dinlərinin böyük konfessional məkanları.

9) Çox geniş daxili bazara malik olan *böyük demoqrafik məkanlar.* Özlərini təmin etmək iqtidarında olan Çin və Hindistan bu cür məkanlardır. Əgər həmin dövlətlər böyük dünya dövlətlərinə çevrilsə, beynəlxalq əmək bölgüsü barədə nəzəriyyələrin çoxunu yenidən nəzərdən keçirmək lazım gələcəkdir.

10) Amerika kütləvi mədəniyyətinin böyük məkanı dünya sosiumuna güclü təsir göstərir. Müəyyən təhsil səviyyəsi tələb etməyən kütləvi mədəniyyət, əsasən, insanın şüuraltı hisslərinə təsir göstərilməsi yolu ilə görmə və eşitmə qavrayışı üçün nəzərdə tutulmuşdur. Bu, emosional qavrayışı mənəvi və informasiya qavrayışından getdikcə daha çox fərqləndirir və nəticə etibarilə başqa sivilizasiyaların mədəni-genetik kodu üçün təhlükə mənbəyidir.

Ənənəvi və yeni (hərbi-siyasi və iqtisadi) geosiyasətin böyük məkanlarından fərqli olaraq, böyük məkanlar nəzəriyyəsi ətraf aləm üçün selektiv açıqlığa malik olan sivilizasiyalı və ya imperiya-ideokratik məkana diqqəti cəlb edir. Böyük məkanlar nəzəriyyəsi effektiv geoməkanın sərhəd energetikasını yaradan bazis amilləri toplusu hesabına ənənəvi və yeni geosiyasətin coğrafi və iqtisadi determinizminin məhdudluğunu aradan qaldırmağa şərait yaradır.

4.2.4. Sosiomədəni dinamika və kommunikasiya qütbləri

Böyük məkanların sosiomədəni dinamikasının tədqiqi problemi son dərəcə mürəkkəb olub, sivilizasiya prosesinin xüsusiyyətləri ilə bağlıdır. Hələ ötən əsrin əvvəllərində cəmiyyətin siklik-genetik dinamikasının paradiqması yaranmışdır.

Sözün hərfi mənasında sikl (yun. *kyklos* - dairə) dedikdə, müəyyən zaman fasiləsi müddətində inkişafın tam dövrəsini başa vuran hadisələrin, işlərin, proseslərin məcmusu nəzərdə tutulur. Sikl ərazi və zaman ilə bağlı anlayışdır. Çoxölçülü kommunikasiya məkanında sosiomədəni sikllərin fərqləndirilməsi üçün onların zaman və ərazi baxımından geniş miqyaslı olması mühüm şərtdir. Bu as-

pektlərin hər ikisini inteqrasiya edən universal xarakteristika kimi zaman-məkan stratifikasiyası (ZMS) çıxış edir. ZMS stratifikasiya ərazilərinin fəaliyyət vaxtı və ölçüləri ilə səciyyəvi olan təbəqələrin miqdarını göstərir.

Sosiomədəni dinamikanı təhlil edərkən 10, 100, 1000 ilin mislinə bərabər olan zaman miqyası və ərazi miqyası tətbiq edilə bilər: *lokal miqyas* (ayrıca götürülmüş bir ölkə), *regional miqyas* (ölkələr qrupu) və *qlobal miqyas* (sivilizasiyalar). Hər bir strat daxilində yüksək sərhəd energetikasına malik olan ZMS qütbləri fərqləndirilir. Qütblərin aşağıdakı tipləri var: miqrasiya edən daimi qütblər və öz əvvəlki mövqelərini əks mövqelərlə əvəz edən qütblər. Bu və ya digər ZMS qütblərinin yaranması ehtimalı bir sıra təbii, sosial, iqtisadi və psixoloji amillərdən asılıdır. Qısa zaman fasiləsi (bir neçə onillik) üçün daimi qütblər səciyyəvidir. Miqrasiya edən qütblər də yarana bilər, lakin bir-birini qarşılıqlı əvəz edən qütblər müşahidə olunmur. Bu vəziyyət ZMS qütblərinin qərarlaşmış nisbəti sabit qaldıqda və onların miqrasiya edə bilməsi nəzərə alınmadıqda uzunmüddətli proqnozlaşdırma zamanı psixoloji maneə yaradır. Yüzillik miqyasda dövlətlərin və imperiyaların sürətli inkişafını və tənəzzülünü təhlil etməyə imkan verən qütblərin hər üç variantı mümkündür. Minillik miqyasda vaxtilə ZMS baxımından dünya qütbləri olmuş sivilizasiyaların tərəqqisini və tənəzzülünü nəzərdən keçirmək olar.

Real gerçəklikdə hər birinin xüsusi fəaliyyət vaxtı və ərazi miqyası ilə səciyyəvi olan sosiomədəni sikllərin çoxluğu müşahidə olunur. Hər bir konkret sikl kontinuallıq və diskretlik, davamlılıq və davamsızlıq, tərəqqi və reqress mərhələlərinin birləşməsi, təmərküzləşməsi və dispersliyi kimi fərdi xüsusiyyətlərə malikdir. Bu, dünya şəhərlərində qütblərin sosiomədəni dinamikası nümunəsində əyani müşahidə olunur.

Sərhəd kommunikativliyi qütbləri çoxölçülü məkanın sərhədlərində bol enerjili ən iri lokallaşmalardır. Bu zonalar (qütblər) kommunikasiyanın məhsuldar və ya dağıdıcı qüvvəyə malik olduğu

yüksək gərginlikli energetik mənbələrdir. Maddiləşmiş və kristallaşmış passionarlıq qütbləri fərqləndirilir.

Sərhəd kommunikativliyinin mühüm obyekti olan *tarixi şəhər* məkanın tarixə qovuşaraq kristallaşmış passionarlıq geostratları yaratdığı, yekcins olmayan zamanda mövcud ərazidir. Şəhər hadisələrlə zəngin olan müəyyən ərazidə təbii (coğrafi mövqe), geosiyasi, geoiqtisadi, sosiomədəni və başqa proseslərin zaman-məkan stratifikasıyasının nəticəsidir. Şəhər təkcə maddi-əşyavi obyekt olmayıb, həm də mənəvi həyatın cəmləşdiyi mühitdir. Şəhər sərhəd zaman-məkan vəziyyətləri (geomarlar) vasitəsilə özünün keçmişi və gələcəyi ilə əbədi dialoq aparır. Passionarilərin çoxunun taleyi intensiv etnik və iqtisadi əlaqələrin və informasiya mübadiləsinin baş verdiyi azad şəhərlərlə bağlıdır.

Çoxölçülü kommunikasiya məkanında *dünya şəhərləri (açıq şəhərlər)* ən iri maddiləşmiş tarixi qütblərdir. Bu qütblərin əvəzlənməsində aşağıdakı ardıcıllıq müşahidə olunur: qədim yunan polisi - orta əsrlərin azad şəhəri (vicdan azadlığı uğrunda mübarizə mərkəzi) - "kosmopolit" dünya şəhəri. Orta əsrlərdə dövrün ideyalarını başa düşmək uğrunda mübarizə kəndlinin (zadəganların və ruhanilərin) torpaq ruhu ilə özlərini idarə edən qədim və məşhur böyük şəhərlərin (Florensiya, Nürnberq, Brüqqe, Praqa və s.) "kübar" patrisiya ruhu arasında gedirdi. Kapitalizm inkişaf etdikcə əyalətlərlə yanaşı, dünya şəhərləri və onların vətəni əvəz edən kosmopolitizmi sivilizasiyanın əsas anlayışlarına çevrilmişdir.

Dünya şəhərləri çoxölçülü məkanın sərhəd kommunikativliyi qütbləridir (interpolislər); qlobal iqtisadiyyatın və cəmiyyətin daşıyıcıları rolunda çıxış edən beynəlxalq mərkəzlər - metropoliyalar dövlətdaxili periferiyadan getdikcə daha çox fərqlənir (Nyu-York, Honkonq, Sinqapur, İstanbul, Moskva və s.). Orta əsrlərdə olduğu kimi, XXI əsrdə də dünya şəhərləri bütün dünyanı idarə etmək iddiasındadırlar. Ən müasir informasiya və kommunikasiya texnologiyaları (şəhərdaxili və beynəlxalq elektron şəbəkə sistemləri, elektron poçt, elektron ticarət və bank sistemləri), kapitallar və *"nou-hau"* bu şəhərlərdə cəmləşmişdir. *Strateji paytaxt* - dünya

şəhərinin bir növü, dünya miqyaslı lokal geosiyasi qütbdür. Dünya geosiyasi məkanında Vaşinqton bu cür strateji paytaxtdır. Dünya geoiqtisadi məkanında Nyu-York, Frankfurt-Mayn, Tokio, Şanxay dünyanın maliyyə paytaxtlarıdır.

Dünya şəhəri çox böyük maddi və mənəvi sərvətlərin, o cümlədən mədəniyyət və elmin cəmləşdiyi sivilizasiyalararası dialoq mərkəzidir. Bu baxımdan, tarixi dövrlər ərzində dünyanın sosiomədəni qütblərinin necə dəyişməsini nəzərdən keçirmək maraqlıdır. Bizim eradan əvvəl VII-V əsrlərdə yaranmış ilk dünya şəhərlərinin əhalisi təqribən 100-250 min nəfər idi. Bu şəhərlər Nil, Dəclə və Fərat çaylarının vadilərində lokallaşmışdır. Bizim eradan əvvəl üçüncü minilliyin əvvəllərində Yuxarı və Aşağı Misirin sərhədində, Nil çayının sol sahilində salınmış Memfis şəhəri daha çox seçilirdi. Mesopotamiyada ən iri şəhərlər Nineviya (Assuriya çarlığının paytaxtı, 612-ci ildə dağılmışdır) və Babil şəhərləri idi.

Bizim eradan əvvəl V əsrdə Aralıq dənizi bölgəsindəki şəhərlər - əvvəlcə Afina, sonradan Sirakuz, İsgəndəriyyə, Karfagen və Roma şəhərləri, habelə Hindistanın Patna şəhəri dünya qütblərinə çevrilir. Yeni eranın birinci minilliyinin əvvəlində dünyanın ən iri şəhərləri arasında liderlik Romaya, 500-cü ildə isə Konstantinopola (İstanbul) məxsus idi. Bu şəhərlərin çiçəkləndiyi dövrdə onların əhalisinin sayı 500 mindən çox idi.

Orta əsrlərdə, ikinci minilliyin əvvəlində Şərq dünya sivilizasiyasının mərkəzi idi, Avropada isə yoxsulluq hökm sürürdü. Burada yalnız iki sosiomədəni mərkəz seçilirdi: qitənin cənub-qərbində ərəb xəlifələri, cənub-şərqdə isə Bizans hökmdarları ağalıq edirdi. Avropanın qalan ərazisində "Üçüncü dünya" - yoxsullar dünyası mövcud idi. Həmin dövrdə Yer kürəsi müstəvi şəklində hesab edilirdi, Avropa sakinləri arasında vikinqlərdən başqa heç kəs Amerikanın mövcud olmasını bilmirdi. Əhalisinin sayı 12 mindən çox olmayan Roma qot tayfaları, vandallar və yerli sakinlər tərəfindən talan edilmişdi. İmperator saraylarının xarabalıqlarında qoyun sürüləri otlayır, üzüm və kələm yetişdirilirdi. Avropanın ən zəngin şəhərləri - İspaniyada Sevilya və Kordova, Siciliyada Palermo islam mər-

kəzləri idi. Kordova dünyada ikinci ən böyük islam mərkəzi hesab edilirdi. Mədəni abidələrin sayına və sərvətinə görə Kordova yalnız əhalisinin sayı 300 minə yaxın olan Konstantinopol (İstanbul) şəhərindən geri qalırdı. Lakin qiyamlar, zəlzələlər və taun xəstəliyi nəticəsində Bizansın paytaxtı tədricən tənəzzülə uğrayırdı. İran, Kiçik Asiya, Misir və Ərəbistanın karvan yollarının kəsişdiyi məkanda yerləşən Bağdad şəhəri islam dünyasının qütbü sayılırdı.

IX əsrdə Hindistandan Çinə gedən karvan yolunun yaxınlığında salınmış Khmer dövlətinin paytaxtı Anqkor şəhəri 1000-ci ildə Bağdadı da üstələyərək, dünyada ən böyük şəhərə çevrilmişdi. Bu şəhərin məbədləri, sarayları, su anbarları və su kanallarından ibarət möhtəşəm kompleksin qalıqları qorunub saxlanmışdır. Təxminən 1113-1150-ci illərdə burada hinduistlərin Anqkor-Vat məbədi tikilmişdir. Sonradan buddistlər tərəfindən istifadə edilmiş bu məbəd dünyada ən iri ibadətgahlardan birinə çevrilmişdir. XV əsrdə barbar tayfaları tərəfindən talan edilmiş bu şəhər cəngəllik sakinlərinin əlinə keçmişdir. Anqkor buddist məbədlərinin xarabalıqları Qərb dünyası üçün yalnız 1860-cı ildə açıq elan edilmişdir.

Şərqi Asiyada Anqkor ilə yanaşı, Kioto və Quançjou şəhərləri də seçilirdi. İmperiyanın paytaxtı Kioto şəhərinin əhalisi yarım milyondan çox idi. İpək, kağız və çininin[1] vətəni olan Quançjou isə 1000 il müddətində Çinin ən böyük şəhəri olmuşdur. Birinci və ikinci minilliklərin qovşağında Amerikadakı Yukatan yarımadasındakı Mayya dövlətində nəhəng piramidaların olduğu gözəl şəhərlər salınmışdır. Şərqi Avropada Kiyev başda olmaqla "şəhərlər ölkəsində" Bizans mədəniyyəti ənənələri və savadlılıq yayılmışdır.

Orta əsrlərdə Böyük coğrafi kəşflər dövründən əvvəl Çinin paytaxtı, Yanszı çayının sahilində yerləşən Nankin şəhəri (1400-cü ildə əhalisinin sayı 470 min nəfər idi) dünyanın ən iri şəhərinə çevrilir. Dünya qütbləri sırasında Qahirə, Vicayanaqar, Pekin və Paris şəhərləri də vardır.

[1] Çini (Çinin adı ilə bağlıdır) - su və qaz keçirməyən sıx quruluşlu keramika materialı.

Kapitalizm dövründə dünya şəhərləri arasında liderlik edən London XX əsrin əvvəlində birinciliyi Nyu-Yorka güzəşt etmişdir. Dünya şəhərləri arasında Qərb şəhərləri üstünlük təşkil edirdi, lakin XX əsrin ortalarında dünyanın on ən iri şəhəri sırasına hər birinin sakinlərinin sayı 4 milyondan çox olan Tokio, Paris, Buenos-Ayres, Şanxay, Çikaqo, Moskva və Kəlküttə şəhərləri də daxil idi. Min il bundan əvvəl ən uzaqgörən insanların yuxusuna belə gəlməzdi ki, Nyu-York dünya polyusu olacaqdır. Lakin fakt faktlığında qalır. XXI əsrin əvvəllərində dünyanın fond bazarlarında kapitallaşmanın təxminən yarısı 25 ən iri şəhərin payına düşür. Valyuta bazarındakı əməliyyatların yarıdan çoxu Nyu-York, London və Tokioda cəmləşmişdir.

Müxtəlif mədəniyyətlərin "radiasiya mənbələrinə" malik olan dünya şəhərləri arasında İstanbul, Vyana və Sankt-Peterburq kimi keçmiş imperiya paytaxtları fərqlənir. İmperiya paytaxtı funksiyalarını itirmiş Moskva isə sivilizasiyalararası dialoqda oynadığı rol sayəsində dünya şəhərlərindən biri kimi öz funksiyalarını qoruyub saxlamışdır. Bir neçə imperiyanın paytaxtı olmuş Bizans-Konstantinopol-İstanbul coğrafi baxımdan Avropa ilə Asiyanın sərhədində yerləşir. Bizans yazıçılarından birinin obrazlı şəkildə dediyi kimi, bu Avrasiya şəhəri Yer kürəsinin məskunlaşmış ərazisində heç nə ilə müqayisə edilə bilməyəcək ən gözəl məkandır. İstanbul III minillikdə də çox gözəldir, X əsrdə isə Bosfor sahillərində yerləşən bu paytaxt şəhəri müxtəlif dinlərə etiqad edən xalqların yanaşı yaşadığı ən parlaq mədəni mərkəz idi.

Dünya şəhərlərinin yaranmasını təkcə onların coğrafi mövqeyi ilə izah etmək olmaz, bu vəziyyət qitələrə münasibətdə dəyişməz qalır. Dünya şəhərlərinin təşəkkülü çoxölçülü kommunikasiya məkanında cərəyan edirdi. Müəyyən sosial dövrdə həmin ərazi maddi, mədəni və informasiya axınları radiasiyası ilə şüalanır (yəni onların kəsişdiyi məkan olur).

Beləliklə, Romanı "əbədi şəhər" adlandırsalar da, dünya polyusları təkcə miqrasiya etməklə qalmayıb, bəzən yer üzündən həmişəlik silinir, onların yerində yalnız kristallaşmış passionarlığın maddi abidələri qalaqlanır.

Məsələn, Böyük Avrasiya çölü Böyük çay (Volqa) ilə qovuşduğu məkanda tarixdə dəfələrlə çoxölçülü məkanın geosiyasi, geoiqtisadi, təbii-etnik və etnik-konfessional kommunikasiya sərhədlərində yüksək gərginliklər energetikası yaratmışdır. Çox vaxt sədd funksiyalarını yerinə yetirən dağlardan fərqli olaraq, küləklər üçün həmişə açıq olan Çöl xalqlar arasında əlaqələrə xidmət edir, bir növ təbii kommunikasiyaya çevrilir. Gəmilərin hərəkət etdiyi çay ilə çölün qovuşduğu məkana gedən karvan yolları boyunca sonradan çəkilmiş polad magistrallar bu ərazinin funksiyalarını daha da gücləndirir. Volqa çayının aşağı axarı Avrasiyanın çoxölçülü məkanında təbii, sosial-iqtisadi və başqa kommunikasiyaların nadir qovşağıdır. Təbiətin öz əli ilə yaranmış göy çəmənlərdə və otlaqlarda bol yem yetişən ərazilər, məhsuldar torpaqlar (tərəvəz, meyvə və bostan bitkiləri), sayqak və quşların ovlanmasına icazə verilən ərazilər, nərə balıqları da daxil olmaqla balıq sərvətləri, xörək duzu yataqları köçəri xalqları həmişə cəlb edirdi. Burada iki dəfə - birinci və ikinci minilliklərdə İrana və Hindistana gedən Böyük Volqa yolunun və Çindən Avropaya gedən Böyük İpək yolunun kəsişməsində Avrasiya dövlətlərinin mərkəzləri yaranmışdır. Orta əsrlərdə Xəzər Xaqanlığının (İtil) və Qızıl Ordanın paytaxtlarının (Saray və Saray-əl Cədid) izləri itmişdir.

Kristallaşmış passionarlıq qütbləri keçmişin stratları üzərində yaranır. Kristallaşmış passionarlıq arxeoloji, yazılı və başqa abidələrdə saxlanılan insan enerjisi vasitəsilə yaranır. Sivilizasiyanın qapalılığı və açıqlılığı arasında nisbəti əks etdirən Böyük Çin səddi və Böyük İpək yolu ən böyük abidələrdir.

Kristallaşmış passionarlıq landşaftları tarixi dövr (hadisələr) ilə zəngin olan kommunikativ ərazilər, güclü energetik nostalgiya sahələridir. Məsələn, zadəgan malikanələrinin landşaft-park mədəniyyəti təbiətdə kristallaşmış mənəvi passionarlıq, insan ilə təbiətin vəhdətinin tarixi xatirələr və poetik assosiasiyalarla zəngin olan formasıdır. Həyat landşaftları insanın mənəvi həyatının fərdi ener-

getik sahəsi olub, onun inkişaf etdiyi ərazidə (kiçik vətən) və çoxölçülü məkanda onun real mövcud olduğu bir sıra başqa yerlərdə formalaşır. İnsanın həyat landşaftları onun zahiri və daxili aləminin çoxsaylı təcəssümləri ilə yaranır.

Yerin coğrafi, iqtisadi və siyasi qütbü ilə yanaşı mənəvi qütbü də var, lakin coğrafi məkanda həmin qütbü lokallaşdırmaq mümkün deyil. Hərçənd, insan həmişə buna can atacaqdır. Dünya dinlərinin mərkəzləri - Vatikan, Qüds, Məkkə, Mədinə və başqaları böyük konfessional məkanların özünəməxsus mənəvi qütbləridir.

Geoiqtisadi məkanda iqtisadi və texnoloji inkişafın qütbləri kimi ABŞ, Avropa İttifaqı və Böyük Çin çıxış edir. Böyük iqtisadi səhralar (məsələn, Rusiyanın şimal-şərqi) isə iqtisadi və texnoloji inkişafın antiqütbləridir. Kriminal iqtisadiyyat qütbləri, suveren dövlətlər tərəfindən nəzarət edilməyən ərazilər, məsələn, Asiyada "qızıl üçbucaq", Kolumbiyanın Medelin narkokarteli tərəfindən nəzarət edilən əraziləri, Şimali Əfqanıstan, Anqolanın cənubu və digər ərazilər bu qəbildəndir.

4.2.5. Effektiv geosiyasi məkan

Effektiv geosiyasi məkan kommunikasiya əlaqələrinin çoxölçülü məkanıdır. Dövlət quruculuğunun uğurlu olması heç də həmişə təbii sərvətlərdən asılı olmur. Bəzən effektiv ərazisi, zəngin energetik və başqa təbii resursları olmayan dövlət daha yaxşı inkişaf edir. Burada insanın yaradıcı enerjisinin strateji resursları əsasında müxtəlif kommunikasiyalar arasında tənasüblərin aşkar edilməsinə əsaslanan hakimiyyət texnologiyası mühüm rol oynayır.

Məsələyə sivilizasiya mövqeyindən yanaşma hakimiyyətin müxtəlif texnologiyalarını təklif edir: Qədim Yunanıstanda kosmos, polis və ruhun mikrokosmosu arasında əlaqə, Çində böyük nizam, Qərbi Avropada təfəkkür ilə kapitalın əlaqəsi, Amerikada bazar və demokratiya modeli buna misal ola bilər. İnsanın yaradıcı enerjisi milli təhlükəsizliyin təməlidir. Yalnız ləyaqət hissi və müəyyən sivilizasiyaya (o cümlədən konfessional) mənsubluq olduqda həm maddi, həm də mənəvi dəyərləri qorumaq mümkündür. Coğrafi ərazisinə görə kiçik dövlətlər (İsveçrə, Yaponiya və s.) böyük geosiyasi məkanda, məsələn, ABŞ-ın nüvə çətiri altında olmaqla effektiv geosiyasi məkan yarada bilir.

Effektiv ərazi dedikdə, insanların həyatı üçün ekstremal şəraitin olmadığı dövlət ərazisi başa düşülür. Orta illik temperatur iki dərəcə şaxtadan aşağı, dəniz səthindən yüksəklik 2000 metrdən artıq olan iqlim zonaları həyat üçün yararsız hesab edilir. Bu göstəriciyə görə Braziliya, ABŞ, Avstraliya və Çin bütün dünyada liderlik edir. Ən geniş və ən soyuq ölkə olan Rusiya beşinci yeri tutur. Rusiya ərazisinin yalnız üçdə bir hissəsi (5,5 milyon kvadratkilometr) effektiv ərazi meyarlarına uyğundur. Burada yeni istehsalat sahələri yaradılması məhsulun hər vahidi üçün çoxlu xərc tələb edir. Avropanın ərazisinə görə ən böyük dövləti olan Ukraynada ölkənin effektiv ərazisi ümumi sahəyə nisbətən çox yüksək xüsusi çəkiyə malikdir. Lakin hakimiyyət texnologiyası səmərəsiz olduqda bu amil dövlətin rifahına çox cüzi təsir göstərir.

Effektiv geosiyasi məkan ticarət, sənaye və maliyyə kapitalının, informasiya məhsullarının dövriyyəsini sürətləndirmək üçün əsas kommunikasiya istiqamətləri olan *beynəlxalq nəqliyyat dəhlizlərinin* yaradılmasına imkan verir. Böyük İpək yolu buna klassik nümunədir. Bu yol təkcə qədim texniki qurğu olmayıb, ilk növbədə geosiyasi və geoiqtisadi məkan kommunikasiyasıdır. Bu çoxşaxəli kommunikasiya karkası qədimdə və orta əsrlərdə sivilizasiyaları birləşdirirdi.

Vahid preferensiyaların tətbiq edildiyi böyük kommunikasiya məkanı yaradılarkən beynəlxalq nəqliyyat dəhlizi səmərəli ola bilər. Buna görə də Qərbi və Şərqi Avropa arasında nəqliyyat dəhlizlərinin layihəsi və Böyük İpək yolunun bərpası üçün gömrük ittifaqı da daxil olmaqla, vahid iqtisadi məkan yaradılması zərurətə çevrilmişdir. Virtual internet məkanında ümumdünya informasiya magistralı uğurla formalaşır.

SSRİ-nin dağılması Qərbdə son imperiyalardan birinin süqutu kimi qəbul edilmişdir. Lakin çox keçmədi ki, liberal imperiyalar yaratmağın mümkünlüyü yenidən effektiv geoməkan hesab edilməyə başladı.

Böyük məkanların bir növü olan *imperiyaya* müxtəlif anlayışların məcmusu kimi tərif verilir:

1) Ölçüləri böyük olan dövlət.

2) Dövlət hakimiyyətinin xalqa mənsub olması (Roma imperiyasının respublika dövrü).

3) Tarixən formalaşmış orqanizmin genişlənməsi nəticəsində uzun müddət sabit qalmış sərhədlər hüdudlarından kənara ekspansiya.

4) Hər bir imperiya yaradılandan sonra əhəmiyyətli resursların təmərküzləşməsi və geniş ərazidə nisbətən möhkəm sülhün bərqərar olması imkanından irəli gələn tərəqqi dövrü yaşayır. Əhali bunu böyük nemət hesab edir. Sərbəstləşmiş sanballı ehtiyatlar və vahid kommunikasiya məkanı özünü təmin etmək iqtidarında olan qapalı dövlət yaranmasına, onun hüdudları daxilində gömrük, siyasi və iqtisadi sərhədlərin ləğv edilməsinə imkan verir.

5) Orta əsrlərdə və yeni dövrdə imperiyalar öz daxili siyasətinə görə bir-birindən az fərqlənirdi. Hər iki halda mərkəzləşmiş idarəetmə və məsrəf iqtisadiyyatı, əmək ehtiyatlarından və təbii resurslardan israfçılıqla istifadə edilməsi, əsrin bahalı layihələrinin həyata keçirilməsi, ordunun saxlanması üçün küllü məbləğdə xərc çəkilməsi, bütöv xalqlara münasibətdə repressiyalar səciyyəvi hal alır.

6) İmperiya başda imperator olmaqla monarxiya, federasiya (Almaniya imperiyası), unitar dövlət (Rusiya imperiyası), dövlətlər birliyi (Britaniya imperiyası) şəklində mövcud ola bilərdi.

7) İmperiya inteqrasiyası güclü ideyaya malik olan dövlət başda olmaqla sintezə, böyük məkan yaratmağa məntiqi cəhdin təzahürüdür *(Karl Şmitt)*.

Müasir "liberal" imperiya qonşuluqda yerləşməsi zəruri olmayan başqa dövlətlərin həm xarici, həm də daxili siyasətini müəyyən edən siyasi idarəetmə formasıdır. İmperiya təfəkküründə sənin səciyyəvi cəhəti ondan ibarətdir ki, bu halda dövlət qanun üzərində hökmranlıq edir, Yer kürəsinin istənilən regionunda (həyati

mənafelər zonasında) sərhədsiz ədalətə nail olmaq üçün qüvvə tətbiq etmək hüququ vardır.

Müasir dünyanın qlobal təhdidlərinə və təhlükələrinə müqavimət göstərməyin ən səmərəli forması *dövlət-sivilizasiyadır*. Analoji qurumlar - Birləşmiş Ştatlar, Birləşmiş Avropa və Çin iqtisadi və texnoloji inkişafın ən iri polyuslarını təmsil edir. Klassik dövlət-sivilizasiya nümunəsi olan Çində siyasi, sosiomədəni və konfessional sərhədlər əsasən üst-üstə düşür. Amerika sivilizasiyası ətraf aləmə təsirinin miqyasına görə (hərbi-siyasi, iqtisadi, mədəni və informasiya genişlənməsi) bu cür hesab edilir. Milli qurumlara parçalanmış Sovet İttifaqı da dövlət-sivilizasiya idi.

Həqiqət səltənətinə həmişəlik düşmək mümkün deyil. Lakin insan böyük okeanın görünməz sahillərinə - insanın yaradıcı fəaliyyətinin və təbiətin məhsulu olan böyük kommunikasiya məkanlarına can atmağa məhkumdur. **Məhz bu məkanda təfəkkür müxtəlif miqyaslı proseslərin sərhəd vəziyyətlərini göstərir və bol enerjili qızğın üfüqlər yaranır. İnsan fenomeni sayəsində immanent dünyanın bu "sahillərində" tükənməkdə olan təbii enerji qıtlığını aradan qaldırmaq iqtidarında olan geosiyasi strategiyalar formalaşır.** Bu, həmişə belə olmuşdur və gələcəkdə də belə olacaqdır. İndi isə dünya sivilizasiyalarının böyük çoxölçülü məkanlarına nəzər salacağıq.

4.3. Ən yeni sivilizasiya geosiyasəti: əsas ideya və nəzəriyyələri

"Dəmir pərdə" aradan qalxandan sonra müasir dünya başqalaşmışdır. İki fövqəldövlətin mövcud olduğu dünya nizamı kommunikasiya məkanının çoxqütblü və çoxölçülü olması ilə əvəz edilmişdir. **Formalaşmaqda olan yeni dünya üfüqlərində dövlətlərin beynəlxalq münasibətləri heç də həmişə milli hökumətlərin iradəsindən asılı olmayan açıq informasiya məkanına öz yerini güzəşt edir.** Transmilli məkandakı beynəlxalq maliyyə və bank şəbəkələri getdikcə daha müstəqil və qüdrətli olur. Lakin indi dünyanı transmilli korporasiyalar da idarə etmir. Maliyyə bazarlarında

baş verən hadisələr bu bazarın nəzarətdən çıxmasına və peşəkar proqnozlar verilməsi imkanlarının məhdudlaşmasına dəlalət edir.

Dünyanın daha yaxşı, yoxsa daha pis olduğunu birmənalı şəkildə demək mümkün deyil. Sadəcə olaraq dünya daha açıq olmuşdur. İndi bu aləmdə başqalarının inkişaf modellərini kor-koranə əxz etmək yolu ilə deyil, öz sosiomədəni identikliyinin xüsusiyyətləri əsasında texnoloji nailiyyətlərdən istifadə etməklə öz layiqli yerini tutmaq mümkündür.

4.3.1. Çoxölçülü sivilizasiya məkanı

Sivilizasiya böyük məkanın bir forması, sivilizasiya geosiyasətinin əsas obyekti və mübariz (münaqişəli) qüvvəsidir. Dünya okeanı və Yer kürəsinin çoxölçülü kommunikasiya məkanının makrokosmosunda tektonik litosfer plitələrə oxşar sivilizasiyalar - bol enerjili sahilləri və ya tektonik zonaları olan okeanlar (plitələr) mövcuddur. Etnoslararası münaqişə və zəlzələ mənbələrinin üst-üstə düşməsi bəlkə də təsadüfi deyil. Bol enerjili sahillər məkan və sosial zaman etibarilə mütəhərrik olmaqla eyni dərəcədə müxtəlif aləmlər dünyasını həm ayırır, həm də birləşdirir. "Sivilizasiya" anlayışına mütləq tərif vermək mümkün deyil. Onun tərifləri çoxölçülü kommunikasiya məkanının seçilmiş əlaqə tipindən asılı olacaqdır.

Latınca "vətəndaşa, dövlətə xas olan" mənasını verən sivilizasiya anlayışı ictimai inkişafın, maddi və mənəvi mədəniyyətin səviyyəsini və dərəcəsini müəyyən edir. Sivilizasiyalar bəşəriyyətin mənəvi tərəqqisini idarə edir, qana görə (slavyan, roman-german) və mənəviyyata görə (pravoslav-xristian və Qərb xristianları) fərqlənir. Müasir sivilizasiya texniki nailiyyətlərin və onlarla əlaqədar rahatlığın məcmusudur.

Aristotelə görə, bəşəriyyət "azad" və "təbiətən kölə" insanlara bölündüyü dövrdə sivilizasiya barbarlığı və erkən qədim dövrü əvəz etmişdir. Sözün geniş mənasında sivilizasiya insanların və ölkələrin davamlı sosiomədəni birliyi (mədəni-tarixi tip), mədəniyyətin və ya konfessional (xristian, müsəlman və b.) aləmin sinonimi hesab edilir. Daha məhdud mənada superetnos kimi başa düşülən (*Qumilyova* görə) sivilizasiya müəyyən mənəvi qohumluq, psi-

xoloji oxşarlıq və qarşılıqlı rəğbət hissləri (komplimentarlıq) ilə birləşən xalqlardır. Superetnoslar zamanın sosial baxımdan qeyri-yekcins olması ilə səciyyəvidir, onların əlaqələri çox vaxt mənfi nəticə verir. Qeyri-yekcins sosial zamanda sivilizasiyalar və ya superetnoslar arasında təmas qeyri-mümkündür. Bəzi "mütərəqqi" mədəni-tarixi ənənələrin zorakı yolla digər müvafiq ənənələrin üzərinə qoyulması kentavr[1] səciyyəsi yaradır. Sivilizasiya sərhəd zonaları bol enerjili, intellektual və mənəvi elitadan ibarət zərif sosial təbəqəyə malik olan dolğun superetnik sistemdir.

Təbii-coğrafi amil sivilizasiyaların formalaşdığı bünövrələrdən biridir. Bu, təbii analogiyalarda öz əksini tapır: sivilizasiyalar və böyük tarixi çaylar, Aralıq dənizi, Atlantik, Sakin okean, Dunay, Çöl, Avrasiya sivilizasiyaları və s. İstehsal və idarəetmə texnologiyasına, insanların münasibətləri və onların fəaliyyətinin tənzimlənmə mexanizminə görə sivilizasiyalar *tradisionalist və texnogen tipli sivilizasiyalara* bölünür. Müasir aləmdə sivilizasiya həm də texnikanın bizə bəxş etdiyi komfort (rahatlıq) kimi başa düşülür. Komfort yaşayış mühitinin yaradılması və ondan istifadə edilməsi insan ilə texniki kollektivin qaynayıb-qarışmasına şərait yaradır, bu isə nəinki sivilizasiyalı, həm də mədəni olmaq kimi daxili tələbatın itirilməsinə gətirib çıxarır.

Sözün geniş mənasında müasir sivilizasiyalar arasında *xristian və müsəlman sivilizasiyaları, Hindistanda hinduizm sivilizasiyası, Çində buddist-konfusiçi sivilizasiya, Latın Amerikasında katolik sivilizasiyası, habelə Mezoafrika (Qara Afrika)* və başqa sivilizasiyalar fərqləndirilir. Xristian (Qərbi Avropa) sivilizasiyası roman-german aləmini, anqlosaks və xarici ingilis-Amerika superetnoslarını; müsəlman sivilizasiyası ərəb, türk, fars və malay superetnoslarını; Çin sivilizasiyası Çin, Yaponiya, Koreya və Vyetnam superetnoslarını əhatə edir. *Lev Qumilyov* Avrasiya (Rusiya) superetnosunu fərqləndirir. Sivilizasiyaların polisentrizmi zaman və məkanın qavrama tiplərinin müxtəlifliyində, habelə sosiopsixoloji, konfessional, geoiqtisadi və başqa xüsusiyyətlərdə təzahür edir. Qərbi Avropa sivilizasi-

[1] Qədim yunan əsatirində insan başlı at.

yası üçün idrak mədəniyyəti, insan hüquqları, dinamizm (inqilablar), praqmatizm, protestant fərdiyyətçi etika və başqa səciyyəvi cəhətlər vardır. Şərq sivilizasiyalarında müsəlman inteqrizmi, konfusiçiliyə, özünü kamilləşdirməyə və ictimai həmrəyliyə meyil aşkar nəzərə çarpır. Yapon mədəniyyətinin ən mühüm xüsusiyyəti bərqərar olmuş tarixi-mədəni ənənələrin varisliyi, keçmiş ilə indiki dövrün qırılmaz əlaqələri, onların arasında kəskin keçidlərin olmamasıdır. Orta əsrlərdən müasir dövrə qədər yapon mədəniyyəti ilə başqa mədəniyyətlər arasında dialoqun aşağıdakı sxemi formalaşmışdır: yapon qəlbi və Çin müdrikliyi; yapon qəlbi və Qərb bilikləri (rasionalizmi), son onilliklərdə isə Amerika bilikləri.

Müasir sivilizasiyalar cəmiyyətin ənənəvi və mülki strukturlaşma dərəcəsi ilə fərqlənir. Qərbi Avropa vətəndaş cəmiyyətində meritokratiya (keyfiyyət elitası) aristokratiya (qan elitası) üzərində birincilik qazanıb. Çində və Hindistanda ənənəvi cəmiyyət üstünlük təşkil edir.

Məkan və zamanın qavranılmasının aşağıdakı kulturoloji tipləri vardır. Çin duyğusu müvəqqəti saxlanma yerində hərəkətsiz dayanmağı tələb edir; hind hissiyyatı hərəkətə əsaslanır və zamanın bütün məzmununu məhv edərək heçə çevirmək istəyir; antik hissiyyat zamanın və əbədiyyətin məstedici tarazlığı barədə təsəvvür yaradır. O, hərarətsiz, ağrısız bədənə, bəbəkləri olmayan gözlərə malik soyuq heykəli xatırladır; qədim yəhudi hissiyyatı tarixi prosesin mütləqləşdirilməsinə və gələcəyi qabaqcadan görməyə əsaslanır; Qərbi Avropa dünya duyumu yəhudi-xristian tarixiliyini miras kimi qəbul edərək şəxsiyyəti, insanın ruhunu mütləqləşdirir.

İnsanın, təbiətin və texnikanın qarşılıqlı münasibətlərində prinsipial fərqlər müşahidə olunur. İudaizm və xristianlıq insanı təbiətə qarşı qoyduğu halda buddizm, islam və hinduizm insanı təbiətin bir hissəsi hesab edir. Qərbdə təbiət və transsendent Allah şəquli istiqamətdə, Şərqdə isə təbiət və insanın yaratdığı texniki məhsullar üfüqi istiqamətdə bir-birinə qarşı qoyulur. Qərb ənənəsində təbiət və texnika arasında qarşıdurma vəziyyəti yoxdur.

Amerikanın kəşf edilməsi nəticəsində Qərbi avropalılar mifoloji keçmişi özündə əks etdirən kənar sivilizasiyalarla qarşılaşmışlar. Konkvistadorlar[1] öz mənəviyyatının üstünlüyünə əmin olduğundan, fəth etdikləri xalqlara qılınc gücünə həmin əxlaqı "bağışlayırdılar". Lakin sivilizasiyaların qanlı toqquşmasında coğrafi kəşflə bərabər, ondan heç də az əhəmiyyətli olmayan daha bir böyük kəşf - insan hüquqları, onun öz mənliyini qoruyub saxlamaq hüququ haqqında təsəvvürlər kəşf edildi.

Bu hüquqlar Şimali Amerika cəmiyyətində gerçəkləşdi. Amerikalılar elə bir məkana düşmüşdülər ki, burada onların keçmişi yox idi. Kütləvi immiqrasiya və Böyük xartiya əsasında yaranmış Birləşmiş Ştatlar artıq 100 ildir ki, dünya iqtisadiyyatında liderlik edir. Əzmkar, güclü, qətiyyətli, inadkar, çətinliklərlə mübarizədə bərkimiş amerikalılar insana layiq həyat keyfiyyətinə malik olan demokratik hüquqi cəmiyyət yaratmışlar.

Latın Amerikasında ispanlar özlərinin "həzm edə bilmədiyi" anlaşılmaz mifoloji keçmişlə təmas yarada bilmədilər. Ən kəskin münaqişələrin baş verdiyi, qarşılıqlı məhvetmə dərəcəsinə çatan sivilizasiyaların qovuşduğu məkanda daha güclü iqtisadi əlaqələr nəzərə çarpırdı. Buna görə də polisentrizm şəraitində sivilizasiyaların sərhəd kommunikativliyi problemləri xüsusi aktuallıq kəsb edir, sosial-iqtisadi inkişaf yolunun seçimi ilə bağlı çətinliklər, beynəlxalq siyasi təsisatların etnik-milli və etnik-konfessional münaqişələri dinc yolla həll etməyə qabil olmaması müşahidə edilir.

Yekcins olmayan sosial zamanda bir sosiomədəni birliyə mənsub olan insan özünün dünya duyumunu başqa insanlara "bəxş etməyə" çalışır və tarixdə belə hallarda çox vaxt zorakılığa əl atılır. Təbiət bu şirnikmənin aradan qaldırılması qeydinə qalaraq çoxölçülü kommunikasiya məkanında intensiv qarşılıqlı təsirə malik olan energetik sahələr yaratmışdır. Düşmənçilik ilə sülhün superetnik sərhədlərində daim mədəni dialoq axtarışı prosesi gedir. Sivilizasiyalar bəşəriyyətin mənəvi tərəqqisini idarə edir. Onların qo-

[1] Mərkəzi və Cənubi Amerikanı tutmuş ispan və portuqal işğalçıları.

vuşduğu məkanda dünya dinləri və mənəvi tərəqqinin "mühərrikləri" olan insan hüquqları yaranmışdır. Avrasiya marginal (sərhəd) zonasında mənəvi dünya üfüqləri kəşf edilmişdir. Sonrakı dövrdə böyük coğrafi kəşflərin əksəriyyəti dəniz və okean sahillərində edilmişdir. Qarışıq zəmanələrdə Avrasiya sivilizasiyalarının kəsişdiyi məkanlarda peyğəmbərlər yaranır, mənəvi dirçəliş, təfəkkürün sıçrayışı müşahidə olunurdu.

Geosiyasi məkanda imperiyalar və dövlətlər arasında münasibətlər ya dinc qarşılıqlı anlaşma, ya da hərbi münaqişə yolu ilə qurulur. Sosiomədəni məkanda onlar sivilizasiyaların dialoqu yolu ilə energetik mübadilə edirlər. Burada diaspor da daxil olmaqla marginal submədəniyyətlər mühüm translyatorlara çevrilir. Geoiqtisadi məkanda sərhədlərdə preferensial kommunikasiya qovşaqları olan iqtisadi dünyalar fərqlənir. Mənəvi məkanda sərhədlər dini etiqada əsaslanır. Coğrafi məkanda böyük və kiçik çayları, düzənlikləri və dağları texniki vasitələrin köməyi ilə dəf etmək mümkün olduğu halda, mənəvi məkanda yolu, insanın vicdanından keçən zirvələri heç bir sərkərdə fəth edə bilməmişdir. Sivilizasiyalarda böyük çaylar mədəniyyətlərin kommunikasiya oxu, böyük düzənliklər "əritmə" qazanları rolunu oynayır, böyük dağlar isə mədəniyyətləri birbirindən ayırır. Köhnə və Yeni Dünya arasında manco və kommunikasiya funksiyalarını yerinə yetirən Atlantika ilə analoji olaraq, Böyük Avrasiya çölü - okean bu kontinentin xalqları və iqtisadi aləmləri arasında əsas kommunikasiya oxudur. Kontinentin səmasında geosiyasi burulğanlar yarananda sivilizasiyaların "sahilləri" və Avrasiya çölünün közərmiş səmasi üçün qasırğanın nəticələri daha təhlükəlidir. Kontinentin sərhəd obyektini fərqləndirən ənənəvi geosiyasətdən ("Rimlənd") fərqli olaraq, sivilizasiya geosiyasətində Avrasiya marginal (sərhəd) zonası xüsusi yer tutur.

Sosial hadisələrin çoxu sivilizasiya sərhədindən keçəndə öz keyfiyyətini dəyişir. Bir mədəniyyət çərçivəsində qurucu rol oynayan amil başqa zəmində dağıdıcı nəticələrə gətirib çıxara bilər. Buna görə də sosial-etnik kommunikasiyanın komplementarlıq və buna oxşar növləri sivilizasiya geosiyasəti üçün böyük əhəmiyyət kəsb edir.

Komplementarlıq (bir-birini tamamlama, qarşılıqlı tamamlama) vahid sosiomədəni məkan (sivilizasiya) hüdudlarında məna kəsb edən immanent anlayışdır *(Nils Bor)*. İnkişafın mənbəyi kimi əksliklərin mübarizəsi haqqında tezisin mütləq mənasını puç edən komplementarlıq prinsipi sistemin dağılmasına gətirib çıxarır, yalnız müəyyən davranış stereotipinə malik olan mədəniyyətin hüdudları daxilində fəaliyyət göstərir. Mütərəqqi mədəni-tarixi ənənələrin zorakı yolla başqa ənənələr üzərinə qoyulması ximera, kentavr doğurur. *L.Qumilyov* bu xüsusiyyətə diqqəti cəlb edərək passionar etnogenez nəzəriyyəsində komplementarlığı komplimentarlığın xüsusi halı kimi nəzərdən keçirməyi təklif etmişdir.

Komplimentarlıq (fransızca kompliment sözündən) - müəyyən mədəniyyətin və ya sivilizasiyanın empirik təcrübə hüdudlarından kənara çıxan transsendent anlayışdır (anlama aktı). Komplimentarlığın etnik (etnoslararası) və superetnik növləri fərqləndirilir. *L.Qumilyov* hər hansı etnik sistemlərə münasibətdə müsbət və mənfi komplimentarlıq anlayışlarından istifadə etmişdir. Komplementarlıq prinsipi isə yalnız müəyyən davranış stereotipinə malik olan konkret sivilizasiya hüdudlarında fəaliyyət göstərir. Zahirən bir-birinə oxşayan "komplimentarlıq" və "komplementarlıq" anlayışlarının prinsipial fərqi bundan ibarətdir. Komplimentarlıq etnik kollektivlərin üzvlərinin şüuraltı qarşılıqlı simpatiya (antipatiya) hisslərini, bu üzvlərin "özününkü" və "yad" kimi bölgüsünü əks etdirir. Müəyyən əlaqələrdə müsbət komplimentarlıq etnosların simbiozu və ya qarışması ilə, mənfi komplimentarlıq isə ximera ilə nəticələnə bilər. Yekcins olmayan sosial zaman sivilizasiyalarının qovşağında mənfi komplimentarlıq sosiyyəvi haldır.

Sosial marginallaşma fərdin həyatın girdabına yönəldilməsi, onun sosial statusunun kəskin azalması deməkdir. Lümpen-marginallar cəmiyyətin heç bir sinfinə aid edilməyən sosial təbəqəni, baxımsız bir silki təşkil edir. Müəyyən tarixi şəraitdə lümpenlər mövcud ictimai münasibətlərin dağıdıcılarına çevrilir. Barbarlığın müasir tipi olan totalitarizm sosial marginallarla - lümpenlərlə əlaqədardır. Siyasi marginallar olan kommunistlər *L.Trotskinin* obrazlı

təbirincə desək, "inqilabın köçərilərıdir". Sosial zəmini olmayan marginallar mədəniyyət ənənələrinə yabançı olan, hakimiyyətə aşağıdan gəlmiş adamlardır (*Hitler* və *Stalin* heç bir sinfə mənsub olmayan mühitin nümayəndələri, Lenin isə mədəni baxımdan məhdud adam idi). Sosiomədəni məkanda yaradıcı energetikaya malik olan böyük marginallar fərqlənir. Sosiuma daxil olmuş şəxsiyyətlərdən fərqli olaraq, marginal şəxsiyyətlər çox vaxt ideyaların təbliğçilərinə çevrilir.

Sivilizasiyanın kommunikasiya oxu ("bel sütunu") həm kapitalın, həm də informasiyanın yüksək dərəcədə dövr etdiyi kommunikasiya dəhlizləridir. Məsələn, Misir və Çin sivilizasiyaları üçün böyük çaylar, Qərbi Avropa üçün Reyn çayının sahilləri, Şərq slavyanları üçün "varyaqlardan[1] yunanlara doğru" ticarət yolu bu qəbildəndir.

Coğrafi determinizmi əsas götürərək təbii ekotonlarla yüksək passionarlıq energetikasına malik olan etnik marginallıq doğuran superetnik sərhədlərin bioloji xüsusiyyətləri arasında analogiya olduğunu qeyd edə bilərik. Biosfer və sosiosfer marginalı olan insanın ikili təbiəti etnik sərhədlərdə "qan və torpaq" paradiqması və ruhun dini paradiqması əsasında iki energetika qütbü yaradır. Sivilizasiya sərhədlərində (superetnik sərhədlər) xalqları konfessional əlamət üzrə zorla bir-birindən "aralamaq" cəhdləri "qan və torpaq" energetikasının güclənməsinə gətirib çıxarır və əksinə, mancələrin, sərhədlərin ləğv edilməsi, etnoslararası intensiv mədəni və iqtisadi əlaqələr ruhun pozitiv energetikasına şərait yaradır.

4.3.2. Sivilizasiyanın geosiyasi kodu

Sivilizasiyanın sosiomədəni, mədəni-genetik kodu bu və ya digər sivilizasiyaya (superetnosa) mənsub olmağın davamlı mədəni-genetik əlamətləridir. Tarixən qərarlaşmış kommunikasiyalar (münasibətlər) sistemi təbii-coğrafi, geosiyasi, geoiqtisadi və başqa əlamətlərin transformasiyasını inteqrasiya edir, onların bütövlüyünü və sivilizasiyalar məkanının və digər regional birliklərin (icmaların) xarici təhdidlərdən qorunmasını təmin edir. Dünya sivilizasiyalarının mentaliteti, mənəvi dəyərləri qorunub saxlandıqda onlar hər hansı xarici təhdidə qarşı davam gətirməyə qadirdir. Sivilizasiyanın geosiyasi kodu müəyyən sivilizasiya sərhədləri daxilində yaradıcı rol oynayan universal keyfiyyət xarakteristikaları toplusu ilə səciyyəvidir.

[1] Qədim Rusiyada: ticarət və talan məqsədilə Skandinaviyadan gələn silahlı dəstələr.

Mədəni-genetik kod yalnız müəyyən davranış stereotipinə malik olan mədəniyyət hüdudlarında fəaliyyət göstərir. "Mütərəqqi" mədəni-tarixi ənənələrin başqa ənənələrə zorla tətbiq edilməsi həmin ikinci sivilizasiya üçün dağıdıcı nəticələrə gətirib çıxarır. Mənəvi sahədə başqa sivilizasiyanın dəyərlərinin mənimsənilməsi yolu ilə öz kökündən imtina etmək cəhdləri xüsusilə əxlaqa zidd və təbiətinə görə dağıdıcıdır. Etnogenez nəzəriyyəsində bu fərqlər "komplimentarlıq" və "komplementarlıq" anlayışlarında öz əksini tapmışdır.

Sivilizasiyaların mədəni-genetik kodu teosentrik (transsendent) və ya antroposentrik dünyanın yaradılması prinsiplərinə əsaslanan immanent məkanın konkret təbii-coğrafi mühitində formalaşır. Qərb sivilizasiyasının "nüvəsi" immanent dünyanın çoxölçülü kommunikasiya məkanını dəyişdirən insandır. Şərq sivilizasiyalarında dünyanın ekssentrik quruluşa malik olması haqqında təsəvvürlər üstünlük təşkil edir. Müasir Qərb-xristian və islam sivilizasiyaları konfessional əsas üzərində qurulmuşdur. Dərin tarixi yaddaşa malik olan Çin və Hindistan sivilizasiyalarında vahid din yoxdur. Çin sivilizasiyası əsasən buddist-konfusiçi, Hindistan sivilizasiyası isə hinduist mahiyyətli olması ilə səciyyəvidir. Konfusiçilik vaxtilə dövlət dini forması kəsb etmiş əxlaq fəlsəfəsidir. Bundan əlavə, Latın Amerikası, katolik, mezoafrika (Qara Afrika) və başqa sivilizasiyalar da mövcuddur.

XX əsrdə Şərqi pravoslav sivilizasiyası öz yerini ideologiyaya əsaslanan sovet sivilizasiyasına güzəşt etmişdir. *L.Qumilyov* sərhəd Avrasiya (Rusiya) superetnosunu da fərqləndirirdi. Sosializm düşərgəsi ləğv olandan sonra Şərqi pravoslav sivilizasiyası parçalanmış vəziyyətdə qalmışdır. Buna görə də sovet sivilizasiyasının ta-

rix səhnəsindən getməsini pravoslav dünyasının məhv olması ilə eyniləşdirmək olmaz. Onun ruhən dirçəlməsi mümkündür.

Sivilizasiyaların mədəni-genetik kodunun mühüm tərkib hissələrinə müraciət edək. Sivilizasiyaların çoxölçülü kommunikasiya məkanının bipolyarlığı, onun hüdudları məsələlərini nəzərdən keçirək və belə bir suala cavab verməyə çalışaq: mədəniyyətlərin dialoqunun "odlama şamı" nədir?

Bəşəriyyətin enerji mənbələrinin yüksək gərginliyinin bipolyarlığı sivilizasiyaların çoxölçülü kommunikasiya məkanında müstəsna rol oynayır. Qədim yunan və Çin sivilizasiyaları bipolyarlıq prinsipləri əsasında təşəkkül etmişdir. Atlantik okeanı sivilizasiyasının bipolyarlığı ABŞ-ın kommunikasiya məkanının formaslaşmasında təməl rolu oynamışdır. Şimali Amerika çöllərinin hər iki tərəfində iqtisadi və texnoloji inkişafın iki qütbünün yaranması bu ölkənin ərazilərinin dərinliklərini daha səmərəli öyrənməyə imkan vermişdir. XX əsrdə iqtisadi və texnoloji inkişaf polyusları Kaliforniyada və Asiya-Sakit okean regionunda yerləşən yeni, Sakit okean bipolyar sisteminin formalaşması reallıqdır. Burada Yaponiya, Cənubi Koreya, Sinqapur, Tayvan və Çinin xarici aləm üçün açıq olan dənizkənarı rayonları inkişaf sürətinə görə seçilir.

Sivilizasiyanın sərhədləri təkcə coğrafi məna daşımayıb, həm də insanların qəlbindən keçir. Geosiyasətdə sivilizasiya yanaşmasının opponentlərinin fikrincə, informasiya dövründə bu sərhədlər qeyri-müəyyən olub, asanlıqla keçilir. Etnik-milli və etnik-konfessional münaqişələr, sivilizasiyalar arasında qarşıdurma xətləri elan edilməmiş müharibənin əsas cəbhə xəttinin yerləşdiyi sivilizasiya "qırçınları" yaradır.

Bəşəriyyət üçüncü minilliyə *sivilizasiyaların dialoqu* iddiası ilə qədəm qoymuşdur. Mədəniyyətlərin mövcudluq müddətindən asılı olmayaraq onların çoxsaylılığı bu cür dialoqun mənbəyidir. Sivilizasiyaların dialoqu, yəni müvafiq dəyərlərin və informasiyanın qarşılıqlı qəbul və mübadilə edilməsi ekvivalent xarakter daşıyır və qarşılıqlı zənginləşməyə səbəb olur. Sivilizasiyaların polisentrizmi və sosiomədəni xüsusiyyətlərin müxtəlifliyi bir sıra geosiyasi niy-

yətlər üçün baryerdir. Sivilizasiyaların qarşılıqlı əlaqəsi təcrübəsində inkişafın müxtəlif strategiyaları yaranır. Qədim və müasir Çin sivilizasiyası tarixi davamlılığı və varisliyi ilə insanı heyran edir. **Xarici aləmə münasibətdə açıqlıq və qapalılıq siyasətinin dəfələrlə bir-birini əvəz etməsi sayəsində müasir Çində başa düşmüşlər ki, yabançı ənənələrin kor-koranə əxz edilməsi heç bir yaxşı nəticəyə gətirib çıxarmır. İctimai inkişafın Qərb ideyalarını əxz edən müsəlman dünyası da eyni nəticəyə gəlir. Hindistan, malay və başqa sivilizasiyaların özünəməxsus inkişaf yolları vardır.**

Qərbdə geniş yayılmış inama görə, iqtisadi dəyişikliklərdən əvvəl siyasi dəyişikliklər baş verməlidir. Demokratiya məhz bu cür dəyişikliklər sayəsində kommunizmə qalib gəlmişdir.

Mənəviyyat sivilizasiyaların ictimai islahatlarının əsas hərəkətverici qüvvəsidir. **Fəlsəfədə şəxsiyyət məsələsini ilk dəfə irəli sürən və onun vicdanın diktə etdiyi həllini təklif edən *Sokrat* olmuşdur: əgər mən məhz nə olduğumu bilirəmsə, onda mən nə olmalı olduğumu da bilirəm; başqalarına yalnız o kəs hökm edə bilərki o, özünü idarə etməyi öyrənmiş olsun. *Platona* görə, ruhun harmoniyası və nizamı olan mənəviyyat ideyasını yalnız fəal, ideyaları rəhbər tutan insan həyata keçirə bilər. *Aristotelə* görə ruh zəkanın enerjisidir. Yalnız qəlbdə olanı öyrənmək mümkündür.**

Dünya dinləri - xristianlıq, buddizm və *islam* insanın mənəvi məkanında sosial tərəqqiyə yol açmışlar. Orta əsrlərdə yaşamış şair və mistik *Sileziyalı Angelius* deyirdi: *"İsa peyğəmbər* Vifleyemdə min dəfə doğula bilərdi, lakin əgər o sənin qəlbində doğulmamışdırsa, sən məhv olmusan". Dünya konfessiyaları üzrə dindarların sayı təxminən aşağıdakı kimidir: xristianlar 1,4 milyarddan artıq dindarı əhatə edir, onlardan təxminən 800 milyonu katolik, 400 milyonu protestant, 200 milyonu pravoslav və başqa məzhəblərə mənsub olanlardır. XX əsrdə müsəlmanların sayı 216 milyondan 1,2 milyarda çatmışdır. Dünyadakı buddustlərin sayı 500 milyondan çox, hinduizm tərəfdarlarının sayı 800 milyondan çox, konfusiçiliyə

etiqad edənlərin sayı 500 milyondan çoxdur. Şərqdə doğum göstəricisinin yüksək olduğunu nəzərə alsaq, dinə etiqad edənlərin sayı da artır.

XX əsrdə texnogen cəmiyyətin tərəqqisi əhalinin sürətli artımını təmin etmişdir, lakin bu artım mənəvi tərəqqiyə adekvat deyildir. Rus filosofu *Aleksey Losevin* fikrincə, İntibah dövrünün estetikası və etikası xristianlıqdan sonra geriyə doğru atılmış addım idi. Dindar insan dünya nizamının mərkəzində öz fərdiyyətini görürsə, o, mənəvi düşkünlüyə məhkumdur. Əgər intibah dövrünün insanı dünyanın mərkəzində şəxsiyyəti görürdüsə, islahat dövründən başlayaraq bu insan orada yalnız özünü görürdü. Antik dövrdən İsa peyğəmbərə qədər və ya mənəvi yüksəlişə, ruhun zirvəsinə, daha sonra intibaha və intibahdan mükəmməlliyə doğru yüksələn xətt üzrə mənəvi tərəqqi müşahidə olunurdu.

Bizim eradan əvvəl 800-200-cü illərdə mənəviyyat aləmində böyük kəşflər dövründə və ya "ox dövrü"ndə Hindistanda *Budda,* Çində *Konfusi,* Azərbaycanda *Zərdüşt,* Yunanıstanda *Sokrat, Platon* və *Aristotel,* Fələstində *İliya (İlyas peyğəmbər), İsayya, İeremiya* həyatın mənası haqqında suallara cavab verməyə çalışmışlar. **Bu böyük peyğəmbərlər və mütəfəkkirlər sivilizasiyaların inkişafına birlikdə götürülmüş bütün sərkərdələrdən daha artıq təsir göstərmişlər, onların yaratdığı mənəvi dünya yüz milyonlarla insanı birləşdirmişdir. Təfəkkürə heç də həmişə lazımınca ehtiram göstərilməyən indiki dövrdə də *Budda Qautamanın* xüsusi mülkiyyət barəsində dediyi aşağıdakı sözləri xatırlatmağa dəyər: "Mülkiyyət hissi əşyalarla deyil, fikirlərlə ölçülür. İnsan əşyalara malik olduğu halda mülkiyyətçi olmaya bilər". Bu qədim həqiqəti aşkar etmək üçün insanın qəlbinə yol tapmaq, uzun müddət bunun üçün çalışmaq lazımdır. Buddizmin banisi zor tətbiq etməmək prinsipini, əməkdaşlığı dünyanın və insanın təkmilləşdirilməsinin yeganə üsulu elan etmişdi.**

XX əsrin tanınmış dövlət xadimi *Mahatma Qandi* zor işlətməməyə çağıraraq, yüksək etikaya əsaslanan siyasi fəaliyyəti bərqə-

rar etmişdir. Qandi sübut etmişdir ki, siyasət və əxlaq bir-biri ilə uyuşa bilər: "zorakılıq, əslində daxili zəiflik hissinin ifadəsidir".

Maks Veberə görə, dini-etik təlimlərin əsas daşıyıcıları xristianlıqda səyyar sənətkar, islamda dünyanı fəth edən döyüşçü, buddizmdə dünyanı gəzib dolaşan seyrçi rahib, hinduizmdə dünyada qayda yaradan maq (cadugər), konfusiçilikdə dünyanı təşkil edən bürokrat, güclü hakimiyyətə malik olan məmurdur.

Yekcins olmayan sosial zamanda bir sosimədəni birliyə mənsub olan insan özünün dünyagörüşünü başqalarına "bağışlamaq" həvəsinə düşür. Tarixdə bu həvəs çox vaxt soyuq və odlu silah gücünə təmin edilmişdir. Təbiət bu cür şirnikmənin aradan qaldırılması qeydinə qalaraq çoxölçülü kommunikasiya məkanında intensiv qarşılıqlı əlaqələrin energetik sahələrini yaratmışdır. **Superetnik düşmənçilik və sülh sərhədlərində əbədi mədəni dialoq axtarışı gedir. Sivilizasiyalar bəşəriyyətin mənəvi tərəqqisini idarə edir. Mənəvi tərəqqinin hərəkətverici qüvvələri olan dünya dinləri və insan hüquqları sivilizasiyaların sərhədlərində yaranmışdır. Qarışıq dövrlərdə Avrasiya sivilizasiyalarının sərhədlərində peyğəmbərlər yaranır, təfəkkür inkişaf edir, mənəvi dirçəliş baş verirdi.**

Real coğrafi və ya iqtisadi məkanda sosial inkişaf yolları tapmaq cəhdləri çox vaxt növbəti mifin yaranması ilə başa çatır. Yol seçimi xalis iqtisadi və ya siyasi vasitələrlə həll edilə bilməz, çünki rifah bununla bitmir.

Toynbiyə görə, sosial inkişaf heç vaxt düzxətli və irəliləmə hərəkətli olmur. Bu prosesdə dörd meyil fərqləndirilir: işıqlı gələcəyə inam, keçmişə qayıtmaq cəhdi, real gerçəklikdən (indiki zamandan) uzaqlaşma və çevrilmə, mənəvi aləm vasitəsilə nicat. Lakin bunun üçün özünü dindar elan etmək kifayət deyil. ***Kantın* interpretasiyasında Allaha inam, ilk növbədə insanın öz mənəvi qüvvəsinə ümid kimi izah edilir: "Mənəviyyat olmayan yerdə Allah qorxuludur".**

Mənəvi siyasət şəxsiyyətin azadlığına, ümumi qaydaların, formal hüququn, mövcud olmasını fərz edən və konkret qrupların

mənafelərinə yönəlmiş korporativ qanunları istisna edən siyasətdir. *N.Berdyayev* yazırdı: **"Tam azadlıq əldə etmək mənəviyyat dünyasına daxil olmaq deməkdir. Əsl azadlıq ruhun azadlığıdır... İnsan mənəviyyat aləminə daxil olmaq üçün qəhrəmanlıq göstərib azad olmalıdır...". Bu fikri daha lakonik tərzdə ifadə etmək olar: "Hüquqlara o kəs malik olur ki, özünü idarə edə bilsin".**

Özünü idarə etmək qabiliyyətini müəyyən edən vicdan - şəxsiyyətin mənəvi özünənəzarət, dərk edilmiş məhdudlaşdırma kimi yüksək qabiliyyətini ifadə edən etik kateqoriyadır. Siyasətdə və ya iqtisadiyyatda imitasiya mümkündür, lakin vicdanı imitasiya etmək mümkün deyil, vicdan ya var, ya yoxdur. Vicdan həm edilən hərəkətlərin mənəvi mənasının rasional dərk edilməsi formasında, həm də emosional şüuraltı iztirablar formasında təzahür edir. Vicdan insan ruhunun etik dəyərləri gerçəklikdə olduğu kimi dərk etmək qabiliyyəti, daha məhdud mənada nəyin yaxşı və nəyin pis olmasını hiss etmək və ya bilmək, mənəvi şüur deməkdir. Şəxsiyyətin azadlığı vicdanla ölçülən ağır mənəvi yük və məsuliyyətdir. Vicdan - insanın təbiət qarşısında borcudur. **Mənəviyyatsız hakimiyyət əbədi və cəzasız mövcud ola bilməz. Xalqı bir müddət çaşdırmaq olar, lakin təbiəti daim aldatmaq olmaz, təbiət hökmən müxtəlif şəkildə özünü yada salacaqdır.**

Müasir aləmdə sivilizasiyalararası dialoqun müxtəlif formaları xüsusilə aktualdır, məsələn, açıq şəhərlər ticarət mübadiləsinin translyatorları rolunda çıxış edir. "Dəmir pərdə" qaldırılandan sonra Qərb ilə Şərqin sərhədlərində sərbəst iqtisadi zonalar yaratmaq niyyətləri gücləndi. Vahid informasiya məkanının formalaşması, eləcə də şəxsiyyətlərarası kommunikasiyalar sivilizasiyalararası dialoqda mühüm rol oynayır. Dialoqun əsas translyatoru marginal submədəniyyətlər və ya mədəni-marginal icmalar olur.

Marginal submədəniyyətlərin bir neçə funksional tipi var. Baptistlər, mormonlar və staroverlər konfessional tipə, etnik sahibkarlıq nümayəndələri etnik-təsərrüfat tipinə aiddirlər. Pomorlar, dağlılar, sibirlilər, markomanlar, konkvistadorlar və kazaklar

kimi geoetnik submədəniyyətlər də vardır. Diaspor və silk klanları (orta əsrlərdə marginal tacirlər) və ailə (qəbilə) klanları bu bölgüdə xüsusi yer tutur. *M.Veber* "Sahibkarlıq etikası və kapitalizm ruhu" adlı məşhur əsərində (1905) birincilər sırasında sosiomədəni ətraf mühitə nəzərən marginal konfessional (protestant) icmaların işgüzar fəallığa təsiri məsələsinə diqqəti cəlb etmişdi.

Real həyatda qarışıq tiplərə daha çox rast gəlinir. Məsələn, kazaklar eyni zamanda həm yaşayış yerinə görə (sərhəd adamları), həm də dininə görə (pravoslav məzhəbinin təmsilçiləri) marginallardır. İki mədəniyyəti təmsil edən insan bikultural adlanır. Marginallar qan qohumluğu prinsipi əsasında ekzoqamiya vasitəsilə irsi informasiyanın etnoslararası ötürülməsini təmin edir, bu isə genofondun zənginliyini artıraraq istedadlar doğulmasına şərait yaradır. Eyni zamanda, endoqamiya maddi mülkiyyətin qorunub saxlanması məqsədilə inkorporasiyaya qarşı baryer rolu oynayır.

Sosial-iqtisadi şəraitdən asılı olaraq marginallar cəmiyyətdə ikili - ya müsbət, ya da mənfi rol oynayır. Əgər mədəni-marginal icmalar quruculuq funksiyalarını yerinə yetirirsə, mütəşəkkil cinayətkarlığı, gəlmələri (yerli xalqın nümayəndələri olmayan) lümpen-proletarları təmsil edən sosial-marginal klanlar dağıdıcı funksiya yerinə yetirilər. Qərbi Avropada və ABŞ-da marginal klanlar əsasında yaranmış etnik sahibkarlıq əvvəlcə kriminal-klan mərhələsindən keçmiş, sonra isə sivil bazar münasibətlərinə transformasiya etmişdir. "Yadların" sosial-psixoloji diskomfortuna məruz qalan marginal submədəniyyətlər dövlətdə "beşinci sütuna" çevrilə bilərlər.

Mədəniyyətlərin sərhədində diaspor (yunanca səpələnmə deməkdir), xalqın xeyli hissəsinin (etnik birliyin) mənşə ölkəsindən kənarda olması xüsusi rol oynayır. Bənzərsiz etnik-mədəni fenomen olan diaspor özlərini bir xalqla eyniləşdirən, tarixi vətən hüdudlarından kənarda yaşayan etnik qruplar əsasında yaranır. Müasir dünyada diasporlar onların yaşadığı ölkə ilə tarixi vətənləri arasında ikitərəfli əlaqələrin möhkəmlənməsi üçün mühüm "körpü" rolunu həyata keçirir, çox vaxt tarixi vətənin milli mənafelərinin

lobbiləşdirmə təsisatı kimi çıxış edir. XX əsr Qərbi Avropa sivilizasiyasının ən yüksək inkişaf etmiş dünya ölkəsini - ABŞ-ı yaratmış mühacirlərin "ulduz saatı" hesab edilə bilər. Dünyada üzvlərinin sayına görə ilk yerləri Çin (55 milyon), rus (25 milyon), yəhudi (11 milyon), Ukrayna, hind, erməni, yunan və irland diasporları tutur. Diasporun taleyi, əsasən, geosiyasi və iqtisadi amillərlə müəyyən olunur. Məsələn, 11 milyona yaxın üzvü olan Ukrayna diasporunun coğrafiyası belədir: Ukrayna hüdudlarından kənarda, başqa postsovet ölkələrində 7,5 milyon ukraynalı yaşayır. Onlardan 5 milyonu Rusiyada, 0,8 milyonu Qazaxıstanda, 0,6 milyonu Moldovada məskunlaşmışdır. Qərbdə Ukrayna diasporunun üzvlərinin sayı 3 milyondan çoxdur. O cümlədən Kanadada 750 min, ABŞ-da 730 min, Zakarpatyedə 500 min "rusin" ukraynalı yaşayır. Ərəb ölkələrində fəaliyyət göstərən Fələstin diasporu Yaxın Şərqin, Ərəbistan yarımadasının, xüsusilə İordaniya və Livanın siyasi həyatında mühüm rola malikdir.

Amerikalı sosioloqlar akkulturasiya (assimilyasiya) məsələsində belə bir qanunauyğunluq müəyyən etmişlər. Dörd nəslin həyatı dövründə monolinqlər (birdillilər), monokulturallar və ya bir ilkin mədəniyyətin daşıyıcıları bilinqlər və bikulturallar vasitəsilə monokulturallara - yeni mədəniyyətin və başqa dilin daşıyıcılarına çevrilir. Bu, titul xalqının, konkretləşdirsək, amerikalıların mədəni və həyat səviyyəsinin yüksək olması şərtilə mümkündür.

Dünya diasporları (yəhudi, Çin, hind, erməni və s.) elə dövlətüstü ictimai təsisatlara və iqtisadi imkanlara malikdir ki, bu, beynəlxalq münasibətlərə əhəmiyyətli dərəcədə təsir göstərməyə imkan verir. Yəhudi, Çin, erməni və başqa diasporların tarixi təcrübəsi onların aktiv təsərrüfat fəaliyyəti üçün motivasiyanın yüksək dərəcədə olmasına dəlalət edir. Avropada sələmçiliyin və bank kapitalının təşəkkülündə yəhudi icmalarının rolu hamıya məlumdur.

55 milyonluq Çin diasporu (xuatsyao) öz iqtisadi potensialına görə "tarixi vətən" ilə müqayisə edilə bilər: Çində xarici investisiyaların həcminə görə bu diaspor liderlik edir. Orta imperiya xaric-

də yaşayan etnik çinlini öz təbəəsi hesab etmək ənənəsini indi də davam etdirir. 1909-cu ildə çinlilərin vətəndaşlığının müəyyən edilməsində "qan prinsipi" qanunvericilik yolu ilə təsbit edilmişdir.

4.3.3 Qloballaşma və sivilizasiyanın təhdidləri

Qloballaşma - müasir beynəlxalq münasibətlərdə obyektiv proses, informasiya texnologiyalarının inkişafına əsaslanan *beynəlmiləlləşmənin* ən yüksək mərhələsidir. Qloballaşmanın mənbələri barədə baxışlar mübahisəlidir. Tarixçilər bu prosesi kapitalizmin inkişaf mərhələlərindən biri hesab edirlər. İqtisadçılar maliyyə bazarlarının transmilliləşməsi mövqeyindən çıxış edirlər. Politoloqlar demokratik təsisatların geniş yayılmasına istinad edirlər. Kulturoloqlar qloballaşmanın yaranmasını mədəniyyətin qərbləşməsi ilə, o cümlədən Amerika mədəniyyətinin yayılması ilə əlaqələndirirlər. Qloballaşma proseslərinin izahına informasiya-texnoloji və ekoloji yanaşmalar da mövcuddur. Qloballaşmanın siyasi və iqtisadi növləri fərqləndirilir. Qloballaşmanın subyekti qismində çıxış edən regionallaşma dünyanın *geoiqtisadi qütblərinin* formalaşmasına güclü kumulyativ effekt verir.

Beləliklə, qloballaşma anlayışına çoxölçülü məkanların bağlılığının seçilmiş tipindən asılı olaraq tərif verilir. İlk növbədə, maarifçi qloballaşma, neoliberal qloballaşma, ezoterik və etnik qloballaşma anlayışlarını fərqləndirmək lazımdır.

Maarifçi qloballaşma - Avropa maarifçiliyi prinsipləri əsasında vahid dünya məkanının formalaşması deməkdir. Sovet dövründə maarifçi qloballaşma ideyalarından ölkə ziyalılarını şirniləndirmək üçün, sosiomədəni məkanın dağıdıcısı rolunu oynamış əsas aldadıcı qida kimi istifadə edilmişdir. Ötən əsrin 90-cı illərində təbliğ edilən maarifçi qloballaşmadan fərqli olaraq, ABŞ-ın mənafeyi naminə Amerika dəyərləri əsasında müasir beynəlmiləlləşmə proseslərinin real məzmunu Amerika qlobalizmi kimi səciyyələndirilir.

Neoliberal qloballaşma - bir sıra sivilizasiya imperativlərinin təkzib edilməsi ilə müşayiət olunan bəşəriyyətin iqtisadi, siyasi və mədəni həyatının beynəlmiləlləşməsi prosesidir. **Bu, Qərbin bazarının hər şeyə qadir olması və dünyada ədalət barədə təlimə**

əsaslanır. ABŞ başda olmaqla Qərb milli suverenliklərin məhdudlaşdırılması ilə müşayiət olunan siyasət, iqtisadiyyat, maliyyə, informasiya və mədəniyyət sahəsində qloballaşmanın tərəfdarı kimi çıxış edir. Eyni zamanda, liberal demokratların əvəzinə hakimiyyətə gəlmiş mühafizəkar demokratlardan ibarət yeni Amerika administrasiyası beynəlxalq birliyin ən mühüm problemləri (strateji sabitliyin bərqərar edilməsi, raketdənmüdafiə sistemlərinin yaradılması, ticarətin daha da liberallaşdırılması, qlobal ekoloji tarazlığın bərpa olunması və s.) ilə bağlı Birləşmiş Ştatların suverenliyini məhdudlaşdırmaqdan imtina edir.

Ezoterik (gizli, seçmə adamlar üçün nəzərdə tutulan) qloballaşma dedikdə elitaların beynəlmiləlləşməsi, əsasən "qızıl milyard" ölkələrindən olan seçmə adamların dünya klubunun formalaşması nəzərdə tutulur.

İqtisadi və etnik qloballaşmada bir sıra ziddiyyətli meyillər qabarıq şəkildə nəzərə çarpır. *İqtisadi qloballaşma* kapital dövriyyəsini və yeni ideyaların tətbiqini sürətləndirməyi təmin edən vahid dünya iqtisadi (əsasən maliyyə) və informasiya məkanının formalaşması və inkişafı prosesi ilə səciyyəvidir. İqtisadi qloballaşmanın mafioz submədəniyyətlərlə qovuşması kriminal (mafioz) qloballaşmaya gətirib çıxarır. Dünyada vahid kriminal iqtisadiyyat məkanı formalaşır. Burada etnik qruplaşmalar transmilli korporasiyalar şəklində çıxış edir. Onların arasında Çin triadaları öz sayına və mütəşəkkilliyinə görə xüsusi fərqlənir.

Etnik qloballaşma iri diasporların və etnik sahibkarlığın vahid məkanın formalaşmasına təsirində təzahür edir. Burada yəhudi və Çin diasporları xüsusi seçilir. Yəhudi diasporu açıq cəmiyyətə xas olan, əsasən Amerika mənşəli neoliberal dəyərlərin daşıyıcısı kimi çıxış edir. Həsrətində olduqları diyarı Amerika ilə assosiasiya edən yəhudilərdən fərqli olaraq, Çin diasporu böyük Çin nizamı ənənələrinin daşıyıcısıdır.

Mövcud problemlərin kəskinləşməsi və ya ziddiyyətli qloballaşma prosesi ilə əlaqədar yeni problemlərin yaranması *qlobal təhdidlərdə* daha əyani təzahür etmişdir. Bu təhdidlər dünyanın inki-

şafında yeni, ictimai həyatın, sivilizasiyalararası münasibətlərin, mövcud dünya nizamı daxilində beynəlxalq siyasi-iqtisadi münasibətlərin təkrar istehsal mexanizminin normal, sabit fəaliyyətini pozan yeni amillərin nəticəsidir. Dünya miqyasında təhdidlərə terrorizm, dini ekstremizm, etnik düşmənçilik, nəzarət edilməyən miqrasiya, qanunsuz silah alveri və başqa məsələlər aiddir.

Bəşəriyyətin texnoloji nailiyyətləri mövcud nəzarətin institusionallaşdırılmış məntiqinə zidd olan qlobal problemlər və təhdidlər yaradır, məsələn terrorçuların Amerikaya qarşı hücumu və s. Alman politoloqu *U.Bekin* fikrincə, hazırda qlobal risk cəmiyyəti formalaşır. Bir qayda olaraq bu cəmiyyətdə dövlət təsisatları gerçəkliklə üzləşdikdə aciz qalırlar.

Beynəlxalq münasibətlərin transformasiyası prosesində varlığın həqiqi əsasları haqqında təlim hesab edilən fundamentalizmin (təməlçiliyin) populyarlığı artmışdır. Fundamentalizm qloballaşmanın real alternativi, müəyyən təlimlərin, doktrinaların ilkin ideyalarına, prinsiplərinə, dəyərlərinə sadiq qaldıqlarını elan edən, onların inkişafı prosesində yaranan təhrifləri, meyilləri, cəfəng fikirləri aradan qaldırmağı və ilkin saflığın bərpa olunmasını, köklərə qayıtmağı tələb edən ictimai, ideoloji, dini hərəkatlardır. Fundamentalizmin dini, bazar və milli növləri fərqləndirilir.

Dini fundamentalizm yeni dövrdən əvvəlki ənənəvi dini dəyərlərə qayıtmağı tələb edir. *Bazar fundamentalizmi* sərvət toplamaq həvəsinin əxlaq, şərəf və vəzifə anlayışlarını üstələməsinə şərait yaratmış, sosial qeyri-bərabərlik şəklində ifadə olunmuş kriminal-korrupsiyaya qurşanmış sistemin təşəkkülünə gətirib çıxarmışdır. *Millətçi fundamentalizm* mübariz əyalətçiliyi hüquqi vətəndaş cəmiyyətinə qarşı qoymaq cəhdlərində təzahür edir.

Dünya sivilizasiyalarının böyük məkanları dünya nizamının quruluşuna yanaşmalarda polisentrizmi əyani şəkildə nümayiş etdirir. Hər bir sivilizasiya Kosmos (təbiət), Polis, Ruh və ya Təfəkkürün, Hakimiyyət və Kapitalın müəyyən əlaqəsini təklif etmiş və öz sosial zamanında uğurlar qazanmışdır. Beləliklə, sivilizasiya geosiya-

sətinə görə, dövlətin firavanlığı təkcə onun təbii sərvətlərinin həcmindən asılı deyil. Təbii enerji resurslarının böyük ehtiyatlarına malik olmaqla yanaşı, yoxsul ölkə kimi qalmaq mümkündür. Lakin dünyada başqa nümunələr də məlumdur: təbii sərvətləri çox cüzi olan ölkə sürətlə tərəqqi etməyə başlayır. Deməli, əsas məsələ insanın yaradıcı enerjisinin mənbələri ilə başqa resursların nisbətlərini düzgün müəyyən etməkdir.

Beləliklə, sivilizasiya nəzəriyyələrində və dünyanın quruluşu barədə konsepsiyalarda mövcud fərqlərə baxmayaraq, klassik alimlərin yüksək intellekti, yeni ideyalar generasiyası və ən başlıcası çoxölçülü kommunikasiya məkanının sərhəd vəziyyətləri vasitəsilə mürəkkəb hadisələrin təhlilinə fəlsəfi yanaşma bu nəzəriyyə və konsepsiyaları birləşdirir.

Sivilizasiya kodu (mədəni-genetik kod) sivilizasiyanın bütövlüyünü və onun çoxölçülü məkanın xarici təhdidlərdən müdafiəsini təmin edən, tarixən bərqərar olmuş kommunikasiyalar (münasibətlər) sistemidir.

Sivilizasiyalar bəşəriyyətin mənəvi tərəqqisini idarə edir. Mənəviyyat sivilizasiyaların ictimai reformasiyalarının əsas hərəkətverici qüvvəsidir. Şəxsiyyətin azadlığı vicdanla ölçülən məsuliyyətdir. Vicdan insanın təbiət qarşısında borcudur. Marginal submədəniyyətlər sivilizasiyalararası dialoqun özünəməxsus "odlama şamı"dır. Başqa mədəniyyətlər üçün açıqlıq özgə ənənələrinin korkoranə əxz edilməsindən ibarət olmamalıdır. "Hədsiz ədalət" naminə "mütərəqqi" mədəni-tarixi ənənələrin zorla tətbiq edilməsi başqa sivilizasiya üçün dağıdıcı nəticələrə gətirib çıxarır. Mənəviyyat sahəsində başqa sivilizasiyanın dəyərlərinin əxz edilməsi yolu ilə öz kökündən imtina etmək cəhdi təbiətən əxlaqa zidd və dağıdıcı cəhddir.

Terminlər lüğəti

Aborigen (lat. *aborigines* - başlanğıc) - ölkənin hər hansı məkanında qədimdən məskən salmış yerli sakinlər.

Abstraksiya (lat. *abstractio* - mücərrədlik, diqqəti yayındırmaq) - 1) predmetin hansısa xüsusiyyətindən xəyali olaraq diqqəti yayındırmaq, təcrid etmək; 2) mücərrəd məfhum, idrak prosesində hansısa təzahürə aid olmayan, onun mahiyyəti ilə uyğunluq təşkil etməyən mülahizə və nəticələrin söylənməsi.

Açıq qapılar siyasəti - 1899-cu ildə ABŞ-ın dövlət katibi C.Heyin Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Rusiya və Yaponiya hökumətlərinə göndərdiyi notalarda irəli sürülmüşdü. Çində azad ticarət və bərabər imkanlar prinsipinin həyata keçirilməsini tələb edirdi. 1900-cü il martın 20-də C.Hey nota göndərərək ölkələrin bu prinsiplərə qoşulduqlarını elan etdi. Açıq qapılar siyasəti iri dövlətlərin əlində rəqibləri sıxışdırmaq aləti idi.

Adekvatlıq (lat. *adaeguatus* - bərabərləşdirilmiş) - uyğunluq, bərabərlik, ekvivalentlik.

Akkulturasiya (lat. *acculturare*) - birbaşa ünsiyyət nəticəsində yeni mədəniyyətə inteqrasiya.

Aksiologiya (yun. *axia* - dəyər və *logos* - təlim, söz) - dəyərlər haqqında təlim.

Aktor (ing. *actor*) - praktik olaraq fəaliyyət göstərən subyekt.

Aqnostisizm (yun. *agnostos* - dərketmə mümkünsüzlüyü) - təbii və sosial proseslərin inkişaf qanunlarının və dünyanın obyektiv dərkinin qeyri-mümkünlüyünü iddia edən idealist fəlsəfi cərəyan.

Alternativ (lat. alternus - vaxtaşırı) - bir-birini qarşılıqlı istisna edən iki ya daha çox imkandan birini seçmək zərurəti.

Alıcılıq qabiliyyətinin nisbəti - iki ölkənin pul vahidlərinin valyuta zonasında eyni alıcılıq qabiliyyətinə səbəb olan valyuta kursu.

Anakonda strategiyası - Avrasiya üzərində geosiyasi nəzarəti təmin etmək məqsədilə "Rimlənd"in (sahil zonasının) qoparılmasına yönəlmiş atlantizm geosiyasi xətti.

Analiz və sintez (yun. *analysis* - parçalanma və *synthesis* - birləşmə) - ən ümumi mənada bütövün fikrən, yaxud faktik olaraq tərkib hissələrinə bölünməsi və bütövün tərkib hissələrinin birləşib bütövü əmələ gətirməsi prosesləri. Analiz və sintez idrak prosesində mühüm rol oynayır və onun bütün pillələrində gedir.

Analogiya (yun. *analogia* - uyğunluq) - eyniyyət təşkil etməyən obyektlərin bəzi cəhətlərdən keyfiyyətcə, münasibətcə oxşarlığı.

Anarxizm (yun. *anarchia* - hakimiyyətsizlik) - bu nəzəriyyənin əsasını hakimiyyətsizlik, cəmiyyətin dövlətsiz qurulması ideyası təşkil edir.

Antanta (fr. *Entente* - razılıq) (Üçlər sazişi) - Fransa, Böyük Britaniya və Rusiyadan ibarət hərbi blok. 1904-1907-ci illərdə formalaşmış və Birinci Dünya müharibəsinin gedişində 25 dövləti birləşdirmişdi. Almaniya, Avstriya-Macarıstan və İtaliyadan ibarət digər hərbi bloka, Üçlər ittifaqına qarşı durmaq üçün yaradılmış və Birinci Dünya müharibəsində qalib gəlmişdi. 1917-ci il oktyabr çevrilişindən sonra Rusiya Antantadan çıxmışdır.

Antikomintern paktı (1936) - Faşist Almaniyası və militarist Yaponiyası arasında Berlində imzalanmış və 5 il müddətinə nəzərdə tutulmuşdu. Kommunist İnternasionalına (Komintern) qarşı mübarizə aparan bu pakta 1937-ci ildə İtaliya, 1939-cu ildə Macarıstan və İspaniya qoşuldu. 1941-ci ildə pakt daha 5 il uzadılmış və bir sıra Avropa dövlətləri də ona qoşulmuşdu.

Aparteid (burların dilində, *apartheid* - ayrı yaşama) - CAR rejimi tərəfindən köklü afrikalılara və avropalı olmayan əhaliyə münasibətdə həyata keçirilən irqi fərq, ayrı-seçkilik, əsarət və zülm siyasəti; aparteid CAR-da dövlət siyasəti həddində olub. Aparteid BMT BM, Afrika Birliyi Təşkilatı və Qoşulmamaq Hərəkatının bir çox qərarlarında bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilib.

Apokalipsis (yun. *apokalypsis* - kəşf etmək, açıqlamaq) - 1) Bibliyanın bir hissəsi olan "Yeni nəsihətlər"in kitablarından birinin adı. Burada dünyanın axırı, şər qüvvələrlə mübarizə barədə mistik əhvalatlar toplanmışdır; 2) böyük kataklizmlər, çalxalanmalar, zəlzələlər nəticəsində bəşəriyyətin, sivilizasiyanın, ətraf aləmin məhvinin mümkünlüyü haqda təlim.

Apriori (yun. *a priori* - başlanğıc) - idealist fəlsəfədə termin, aposterioridən fərqli olaraq, təcrübədən əvvəl və təcrübədən asılı olmadan əldə edilən və başlanğıc şüura xas biliyi ifadə edir.

Arxetip (yun. *arche* - başlanğıc və *typos* - surət) - 1) nümunə, ilkin forma, örnək; antik fəlsəfənin sonlarında timsal, ideya. Termin müasir Qərb ədəbiyyatında İsveçrə psixoloqu *Karl Yunqun* (1875-1961) əsərlərinin təsiri altında yayılmış və bütün psixi proseslərin özülünü təşkil edən kollektiv şüursuzluğun struktur elementi kimi izah edilir; 2) linq. təsdiq edilmiş və ya yenidən qurula bilən, onun sonrakı davamı üçün əsas, ilkin sayılan dil forması; 3) mədəniyyətin, mənəvi həyatın dəyişməz modellərini formalaşdıran əsas, baza elementləri.

Arqumentasiya - əsaslandırma, dəlil gətirmə, sübut göstərmə.

Atlantizm (mənaca yaxın terminlər: Su, Dəniz, Talassokratiya, Dəniz qüdrəti) - mürəkkəb geosiyasi anlayışdır. Bəşər sivilizasiyasının tarixi Qərb sivilizasiyasını, liberal-demokratik ideologiyanın üstünlük təşkil etdiyi Qərb ölkələrinin strateji ittifaqını, NATO iştirakçısı olan ölkələrin hərbi-strateji baxımdan ticarət quruluşuna, bazar dəyərlərinə oriyentasiyasını əks etdirir (ABŞ modeli). Avrasiyaçılığın əksidir.

Avesta - zərdüştiliyin müqəddəs kitablar külliyatı.

AVRAMAR (Sivilizasiyaların Avrasiya marginal zonası) - Böyük çoxölçülü məkanlar nəzəriyyəsinin əsas anlayışlarından biri. Mədəniyyətlər dialoqunun təmas zonası, bəşəriyyətin mənəvi inkişafının mühüm hərəkətverici qüvvəsi və eyni zamanda, qarşılıqlı anlaşılmazlıq və şübhənin "odlu cəbhəsi".

Avrasiya - Qitə (Kontinent), "Hartlənd", Quru, Torpaq, Tellurokratiya anlayışlarının sinonimi. Daha dar mənada geosiyasi Rusiya deməkdir.

Avrasiyaçılıq - mürəkkəb geosiyasi anlayış; bəşər sivilizasiyasının tarixi Şərq bölgəsini, liberal-demokratik ideologiya imperativini tanımaqdan imtina edən dövlətlərin və millətlərin strateji aktual və ya potensial bloku, "tellurokratik" Şərq ölkələrinin hərbi alyans şəklində aktual və ya potensial strateji birliyi, "ideokratiya" yönümlü sosial dövlət, qeyri-kapitalist iqtisadi quruluş.

Avro (ing. *euro*) - Avropa İttifaqına daxil olan ölkələrin ümumi pul vahidi.

Avrosentrizm - Qərbi Avropa mədəniyyətinin dünyada mərkəzi yer tutduğunu əsaslandıran konsepsiya.

Avtarkiya (yun. *autarkeia* - özü-özünə vurğunluq, özündən həzz alma) - yalnız daxili imkanlar hesabına mövcud olma imkanı. Ölkəni təsərrüfat cəhətdən xüsusiləşdirmə, ümumi iqtisadi prinsiplərdən yayındırmaq siyasəti, yalnız özünü təmin edən qapalı iqtisadiyyat qurmaq üsulu;

öz ölkəsini siyasi və iqtisadi cəhətdən dünya birliyindən, dünya bazarından ayırmaq siyasəti.

Avtoritet (lat. *autoritas* - ləyaqət, qüvvə, hakimiyyət) - müəyyən keyfiyyətlərinə, xidmətinə görə hər hansı bir şəxsin, baxışlar sisteminin və ya təşkilatın hamı tərəfindən etiraf edilən nüfuzu.

Ayətullah (ər. - hərfi mənada *"Allahın nişanəsi"*) - şiələrdə yetirmələri və ardıcılları olan ilahiyyat alimlərinin yüksək dini titulu. İslam tarixi boyunca din, xüsusilə şiə alimlərinin ləqəbləri və adları yanında axund, molla və şeyx, sonra da şeyxülislam kimi ümumi adlar işlənmişdir. Böyük fəqihlərin bir neçəsi bu titulu almış və tədricən ən görkəmli fəqihlərdən bir neçəsi Ayətullah-əl-uzma ("böyük ayətullah") adlandırılmışdır.

Azad ticarət - ölkələr arasında malların və xidmətlərin azad yerdəyişməsinə mane olan tariflərlə, idxal və ixrac kvotaları ilə və digər mexanizmlərlə çətinləşdirilməyən ticarət.

Azad ticarət zonası - aralarında gömrük vergilərinin və digər ticarət məhdudiyyətlərinin olmadığı, lakin ümumi xarici tarifə malik olmayan dövlətlər və ya regionlar qrupu.

Begemot - qədim yəhudi dilində "quruda yaşayan yırtıcı heyvan" növüdür (Bibliya). Bu termini *Şmitt* təklif etmişdir. Sinonimləri: kontinent, kontinentalizm, avrasiyaçılıq.

Berlin - Orta Avropanın təbii-strateji paytaxtı.

Berlin divarı - Qərbi və Şərqi Berlin əhalisinin sərbəst yerdəyişməsinin qarşısını almaq üçün inşa edilmiş sədd (1961-ci il avqustun 13-də tikilmişdir); ayırıcı sərhəd tikilisi. Berlin divarı "soyuq müharibə" dövründə kapitalist Qərbi ilə sosialist Şərqi arasında "dəmir pərdə"nin geosiyasi rəmzinə çevrilmişdir.

Bibliya (yun. *Biblia* - kitablar) - iudaizmə və xristianlığa aid müqəddəs kitablar külliyatı (e.ə. VIII əsr - eramızın II əsri). Birinci kitab - "Əhd-i ətiq" (Tövrat və s.) qədim vəsiyyətlər, ikinci kitab - "Əhd-i cədid" (İncil və s.) yeni vəsiyyətlər adlanır. Bütövlükdə Bibliya 77 kitabdan ibarətdir. Bunlardan 50-si "Əhd-i ətiq"ə, 27-si "Əhd-i cədid"ə daxildir. "Əhd-i ətiq"ə yəhudilər və xristianlar, "Əhd-i cədid"ə isə yalnız xristianlar etiqad edir.

Biosfer (yun. *bios* - həyat, *sphaira* - sfera, sahə) - Yerin həyatla əhatə olunmuş və bununla əlaqədar olaraq xüsusi geoloji və fiziki-kimyəvi

mütəşəkkilliyə malik örtüyü. Elmə E.Zyus gətirmiş və Vernadski inkişaf etdirmişdir.

Bipolyar (ikiqütblü) dünya - beynəlxalq münasibətlərdə iki fövqəldövlətin və ya ictimai-siyasi sistemin hökmranlıq etdiyi dünya nizamı.

Blok - bir neçə dövlətin strateji və geosiyasi keyfiyyətini əhəmiyyətli dərəcədə dəyişdirən, onları planetar fəaliyyətin daha yüksək səviyyəsinə çatdıran birliyi. "Məkan tərəqqisi" qanununa müvafiq olaraq blokların yaranması labüd prosesdir.

Böyük Avrasiya çölü - geosiyasətdə "Hartlənd" çox vaxt Böyük Avrasiya çölü - Şərq ilə Qərb arasında nəhəng təbii kommunikasiya dəhlizi ilə assosiasiya edilir. Dəhlizin ucqarları boyunca "sürtünmələr" nəticəsində mədəniyyətlərin qarşılıqlı təsiri və bir-birini qarşılıqlı zənginləşdirməsi baş vermiş, yeni etnoslar, imperiyalar və sivilizasiyalar yaranmışdır. Böyük Avrasiya çölü kontinentin əsas kommunikasiya oxu olaraq qalır, Qərb ilə Şərq arasında intensiv maddi, mədəni və informasiya mübadiləsi bu ox boyunca baş verir. Qərbi Avropada və Asiya-Sakit okean regionunda iqtisadi və texnoloji inkişafın qütbləri arasında gələcək nəqliyyat kommunikasiyaları buradan keçəcəkdir. Avrasiya çölünün ərazisində sivilizasiyalar arasında mədəni dialoqun və sərbəst ticarətin tarixi kommunikasiya qovşaqları yerləşir. Avrasiya çölünü kim fəth edərsə, o, iqtisadi tranzit və sivilizasiyalararası dialoqun translyatoru funksiyalarını yerinə yetirəcəkdir. Bu həqiqətin unudulması imperiyaların parçalanmasına və AVRAMAR-da çoxsaylı münaqişələrə gətirib çıxarmışdır.

Böyük coğrafi kəşflər - Avropa səyyahlarının XV-XVII əsrlərdəki ən böyük coğrafi kəşflərini göstərmək üçün qəbul olunmuş termin. Böyük coğrafi kəşflərin əsas səbəbləri Avropada əmtəə istehsalının sürətlə artması, bir sıra Avropa ölkəsinin Şərqə yeni ticarət yolları axtarmaq zəruriyyəti qarşısında qalması (XV əsrdə türklərin köhnə yolları tutması ilə əlaqədar), pul dövriyyəsində olan qızılın çatışmazlığı və s. idi.

1492-ci ildə *X.Kolumbun* Amerikanı, 1497-1498-ci illərdə *Vasko da Qamanın* Hindistana dəniz yolunu kəşf etmələri Böyük coğrafi kəşflərin əsasını qoydu. Bu kəşflər Avropa dövlətlərinin Amerika, Cənubi Asiya, Okeaniya və Avstraliyanı istila etməsi və müstəmləkələşdirilməsi üçün zəmin yaratdı. Yeni kəşf olunmuş torpaqların istilası və qarət edilməsi ilkin kapital yığımı deyilən prosesə və dünya bazarının yaradılmasına kömək etməklə müstəmləkəçilik dövrünün başlanmasına səbəb oldu.

Böyük Çin - kontinental Çindən əlavə Honkonqu (Syanqan), Tayvanı, Sinqapuru və çoxsaylı Çin diasporunu ehtiva edən dövlətüstü qurum və ya özünəməxsus transmilli korporasiya. "Sarı Çin fövqəlmilyardı" Qərbin "qızıl milyardına" qarşı dayanır. Böyük Çinin ümumi daxili məhsulu (ÜDM) ABŞ-ın ÜDM-i ilə müqayisə oluna bilər. Kontinental Çin diaspor nümayəndələrini ənənəvi olaraq öz ölkəsinin vətəndaşları hesab edir.

Böyük çoxölçülü məkanlar (BÇM) nəzəriyyəsi - geofəlsəfə (immanent məkan fəlsəfəsi) zəminində işlənib hazırlanan sivilizasiya geosiyasəti təlimi. Ənənəvi və yeni geosiyasətin coğrafi və iqtisadi determinizminə xas olan məhdudluğu effektiv coğrafi məkanın sərhəd energetikasını yaradan çoxölçülü məkanın kommunikasiya əlaqələri hesabına aradan qaldırmağa çalışır.

Böyük Xəzər - SSRİ-nin süqutundan sonra Avrasiyada yaranmış geosiyasi region. Bu regiona Xəzərə birbaşa çıxışı olan beş ölkə - Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran aiddir. Daha geniş mənada Cənubi Qafqazı və Mərkəzi Asiyanı əhatə edir.

Böyük limitrof - Şimal Buzlu okeanından Sakit okeanadək uzanan sivilizasiyalararası geosiyasi qurşaq.

Böyük məkan (Grossraum) - bu termin *K.Şmitt* tərəfindən təklif edilmişdir. Bir neçə dövlətin vahid strateji qurum şəklində birləşməsi deməkdir. Böyük məkanların yaranması "məkan tərəqqisi" nəzəriyyəsi ilə əlaqədardır.

Böyük məkanlar avtarkiyası - alman iqtisadçısı *F.Listin* geoiqtisadi nəzəriyyəsi. Bu nəzəriyyəyə görə, dövlətin dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası yerli istehsalçıya və gömrük ittifaqına münasibətdə proteksionist siyasətin birləşməsi əsasında tədricən açıq iqtisadiyyata keçid yolu ilə mümkündür. Milli təsərrüfatın dünya bazarına aralıq mərhələ (gömrük ittifaqı) vasitəsilə transformasiyası daha səmərəli olur. Dövlət islahatlar prosesinə nəzarət edir və yerli iqtisadiyyatın inkişafını proteksionist tədbirlərin köməyi ilə təşviq edir.

Böyük məkanlar nəzəriyyəsi - *K.Şmittin* geosiyasi təlimi, bir neçə dövlətin vahid strateji blok şəklində birləşməsi. Şmitt imperiya inteqrasiya prinsipini məntiqi sintezə meyil hesab edirdi. Böyük məkan güclü ideyaya malik olan dövlətin hökmü altında olur. *Şmitt* böyük məkanlara nümunə kimi Monro doktrinası vasitəsilə birləşdirilmiş Şimali və Cənubi Amerikanı nəzərdən keçirirdi. Nasist Almaniyasının məqsədi ümumdünya imperiyası (Üçüncü reyx) yaratmaq idi. Müasir beynəlxalq münasibətlərdə Böyük məkanlar ideyası liberal demokratik ideyanın üstünlük təşkil etdiyi dövlət-sivilizasiyaların yaradılmasında müşahidə olunur (Amerika sivilizasiyası, Birləşmiş Avropa).

"Böyük Rusiya" - rus siyasi xadimi, iqtisadçı və filosof *P.B.Struvenin* (1870-1944) geosiyasi konsepsiyası. Bu konsepsiya Kadet partiyasının sağ cinahı və iri sahibkarlar arasında mühüm ideoloji rol oynamışdır. İmperiyanın daxili inkişafı onun xarici qüdrətindən asılıdır. 1916-cı ildə "Проблемы великой России" ("Böyük Rusiyanın problemləri") adlı xüsusi jurnal təsis edilmişdir.

Böyük Turan - XX əsrin əvvəllərində Türkiyədə formalaşmış türk xalqlarının birliyi ideyası. SSRİ-nin dağılmasından sonra yenidən canlanmış türk dövlətlərinin birliyi ideyasının başında Türkiyə dövləti dayanır.

"Böyük yeddilik" - öz qüdrəti və nüfuzu sayəsində dünya siyasətinə və iqtisadiyyatına mühüm təsir göstərə bilən böyük dövlətləri birləşdirən beynəlxalq siyasi təsisat. "Yeddiliyə" ABŞ, Yaponiya, Almaniya, Fransa, Böyük Britaniya, İtaliya və Kanada daxildir. 1990-cı illərin sonlarından etibarən Rusiya da onun iclaslarında iştirak edir.

"Bretton-Vuds institutları" - dünya valyuta-maliyyə sisteminin əsası, Beynəlxalq Valyuta Fondunu və Dünya Bankını ehtiva edir. 1944-cü ilin iyulunda Nyu-Hempşir ştatındakı (ABŞ) Bretton-Vuds adlı şəhərcikdə 44 ölkənin nümayəndələrinin iştirak etdiyi valyuta-maliyyə konfransında təsis edilmişdir.

Buddizm - dünya dinlərindən biri; istəklərdən imtina etmək yolu ilə iztirablardan azad olmağı və "nicat"a - nirvanaya çatmağı təbliğ edən din. E.ə. VI-V əsrlərdə Hindistanda meydana gəlmişdir. Hazırda Şri-Lanka, Yaponiya, Çin, Nepal, Myanma, Tibet (lamaizm formasında) və b. ölkələrdə yayılmışdır.

Bufer dövlət - geosiyasi güc mərkəzlərinin arasında yerləşən və onları bir-birindən ayıran bir və ya bir neçə ölkə. Keçmişdə Əfqanıstan Rusiya və Britaniya imperiyaları arasında bufer dövlət rolunu oynayırdı.

Cəmiyyət - icma qurumlarının parçalanmasının nəticəsi. İcmadan fərqli olaraq prinsip etibarilə atomar üzvlərə (fərdlərə) bölünə bilər.

Cənub - sakral coğrafiyada nizamsızlıq, qarışıqlıq və cırlaşma regionları. Müasir coğrafiyada - Üçüncü dünya, liberal-demokratik prinsiplərin bərqərar olmadığı, zəif inkişaf etmiş ölkələr.

Cənub ilə Şimalın toqquşması - zəngin Şimal ("qızıl milyard") ilə yoxsul Cənubun ("milyard işsizin") qarşıdurması haqqında geosiyasi konsepsiya.

Cihad (qəzavat) - müsəlmanların etiqad uğrunda kafirlərə qarşı müqəddəs müharibəsi.

Coğrafi amil - ənənəvi geosiyasətin əsaslarından biri. Müasir dövrün hərbi-siyasi məkanında coğrafi amilin rolu xeyli azalmışdır. Bu amil artıq nüvə zərbəsindən və ya transmilli terrorçuluqdan qorunmaq üçün yetərli deyildir.

Coğrafi determinizm (geodeterminizm) - sosial-darvinizmlə yanaşı, ənənəvi geosiyasətin əsaslarından biri. Beynəlxalq münasibətlərdə təbii-coğrafi amillərin rolunu şişirdir.

Coğrafi məkan - insanların fəaliyyətinin siyasi, sosial, mənəvi və iqtisadi sahəsini ümumi panideya ilə birləşdirən çoxölçülü (hərbi-siyasi, iqtisadi, demoqrafik, sosiomədəni, informativ və s.) kommunikasiya məkanının coğrafi interpretasiyası.

Çoxqütblü dünya - müasir mərhələdə bir neçə böyük məkanın mövcud olmasını nəzərdə tutan nəzəri konsepsiya. Yalnız birqütblü dünya dəf edildikdən sonra mümkündür.

Çoxölçülü kommunikasiya məkanı - böyük çoxölçülü məkanlar nəzəriyyəsinin əsas anlayışlarından biri.

Daxili aypara (qitə ayparası, "Rimlənd") - *Makinderin* təklif etdiyi bu termin Avrasiyanın "xarici aypara" ilə "ox arealı" arasında yerləşən sahil ərazilərini bildirir.

Daxili dəniz (lat. *mare internum*) - quru tellurokratik kütlənin daxilində olan, buna görə də strateji və ya mədəni sərhədləri olmayan su məkanını bildirən termin.

Daxili ox - periferiya ilə mərkəzin vahid strateji (yaxud siyasi) məkan daxilində geosiyasi əlaqəsinin keyfiyyəti.

Daxili okean - planetar miqyaslı "daxili dəniz". Onu "Orta okean" da adlandırırlar.

Daosizm - dao və yaxud "yollar" haqqında təlim; e.ə. VI-V əsrlərdə Çində meydana gəlmişdir. Daosizmin banisi qədim Çin filosofu Lao-tszı hesab olunur.

Deduksiya (lat.) - məntiq. mühakimə prosesində ümumi müddəalardan xüsusi nəticəyə gəlmə; hər hansı bir ümumi fikirdən məntiqi yolla yeni müddəa çıxarma (induksiyanın əksi).

Definisiya (lat. *definitio* - təyinetmə, təyin) - hər hansı anlayışın qısa tərifi.

Demilitarizasiya (hərbsizləşdirmə) - müəyyən ərazinin beynəlxalq hüquqi rejimi; dinc dövrdə həmin ərazidən hərbi məqsədlərlə istifadəni qadağan edir.

Demokratiya (yun. *demokratia*, hərfi mənası - xalq hakimiyyəti; *demos* - xalq, *kratos* - hakimiyyət) - dövlətin idarə edilməsi forması. Birbaşa xalq hakimiyyəti (birbaşa demokratiya) və ya xalq tərəfindən, yaxud xalqın müəyyən hissəsi tərəfindən seçilən nümayəndələr vasitəsilə (nümayəndəli demokratiya) həyata keçirilir.

S.Hantinqtona görə, müasir dünyada *demokratikləşmənin üç dalğası* baş vermişdir. Hantinqton qeyd edir ki, XIX əsrin əvvəlində başlamış *demokratikləşmənin birinci, ən uzun dalğası* 1920-ci ildə demokratiyanın 30 ölkədə qələbəsi ilə nəticələnmişdir. Sonrakı dövrdə avtoritarizmin və faşizmin yaranması 1942-ci ildə demokratik ölkələrin sayının 10-a qədər azalmasına səbəb olmuşdur. İkinci Dünya müharibəsindən sonra *demokratikləşmənin ikinci yüksələn qısa dalğası* yenidən demokratik dövlətlərin sayını 30-a qədər artırmış, lakin əvvəl də olduğu kimi bu ölkələrin bəzilərində demokratik idarəçilik süquta uğramışlar. Keçən əsrin 70-ci illərində Portuqaliya, İspaniyada avtoritar rejimlərin yıxılması ilə başlayan, 90-cı illərdə SSRİ-nin parçalanması və Şərqi Avropada sosialist sisteminin süqutu ilə davam edən *demokratikləşmənin üçüncü dalğası* daha qüvvətli və sürətli, əvvəlkilərdən qat-qat üstün olmuşdur. İndi dünya ölkələrinin çoxu bu və ya digər formalarda, açıq və ədalətli seçkilər nəticəsində hakimiyyətə gəlmiş hökumətlərə malikdirlər.

Demosiyasət - *Çellen* tərəfindən təklif edilmiş termin. Demoqrafik parametrlərin dövlətin strukturuna təsiri. Geniş yayılmamışdır.

Determinizm (lat. *determinare* - müəyyən etmək) - cəmiyyət və təbiətdə baş verən bütün hadisələrin ümumi obyektiv qanunlardan və səbəbiyyət əlaqəsindən asılı olduğu haqqında elmi anlayış. Müxtəlif elm sahələrinə tətbiqinə görə spesifik adlarda işlədilir (coğrafi determinizm, fiziki determinizm, üzvi determinizm, sosial determinizm, texnoloji determinizm). Determinizmə qarşı indeterminizm (lat. *in* - inkar bildirən sözönü və *determinizm*) durur. İndeterminizm üçün səbəbiyyətin ən ümumi xarakterinin inkar edilməsi səciyyəvidir.

"Dəmir pərdə" - sosialist düşərgəsinin təcrid edilməsi siyasəti. İdeya 1946-cı il martın 5-də Fulton şəhərində (ABŞ) kommunist ekspansi-

yası təhlükəsi barədə xəbərdarlıqla çıxış edən *U.Çörçillə* (1874-1965) məxsusdur.

Dəniz - talassokratiya, Su terminlərinin sinonimi.

Dəniz-Qitə - ənənəvi geosiyasətin əsas obyektlərindən biri. Dünyanın bir-birinə qarşı duran dəniz və qitə dövlətlərinə bölünməsini əks etdirir.

"Dəniz qüdrəti" nəzəriyyəsi - təlim dəniz dövlətinin qitə dövləti üzərində üstünlüyünü irəli sürmüş amerikalı admiral və tarixçi *A.Mehenin* əsərlərində şərh olunmuşdur.

Dərin Cənub - sosial-iqtisadi münasibətlərin kriminallaşması və demodernizasiyası (yeniləşməsi) prosesləri ilə səciyyələnən geoiqtisadi region, dərin dünya əyaləti. Bu makroregion, əsasən, tropik və subtropik zonalarda (Mərkəzi Afrika, Hind okeanı qövsü) yerləşən ölkələrə aiddir.

Dialektika - məntiqi proses; Hegeldə - ideyanın inkişafı və ya tezis, antitezis və sintez prosesləri vasitəsilə digər ideyalara keçid şərti.

Diaspor (yun. *diaspora* - dağılmaq, səpələnmək) - bu termin daha çox yəhudilərə aid işlədilir. E.ə. VIII əsrdə Assuriya çarı II Sarqon tərəfindən İsrail çarlığının paytaxtı Samariya işğal olduqdan sonra yaranmışdı. Qədim yəhudilərin xüsusilə böyük miqyasda diasporu e.ə. VI əsrdə, 586-cı ildə İuda çarlığının paytaxtının Yeni Babil padşahlığının padşahı II Navuxodonosor tərəfindən tutulub dağılmasından sonra baş vermişdi. Yəhudilər isə Babilə sürgün olunmuşdular. Yəhudi müharibəsindən (66-70-ci illər) və romalılar tərəfindən Yerusəlimin dağılmasından sonra Fələstinin yəhudi əhalisinin əsas hissəsi bir çox ölkələrin ərazisinə səpələnmişdi.

Sonralar bu termin öz ərazilərini məcburi şəkildə tərk edən digər dini və etnik qruplara da aid edilməyə başladı.

Dixotomiya (yun. *dicha* - iki hissəyə və *tome* - yarılma) - ardıcıl surətdə ikiyə bölünmə; botanikada: haçalanma, budaqlanma.

Dinc yanaşı yaşama - müxtəlif ictimai quruluşa malik dövlətlərin qarşılıqlı münasibətlərinin əsas prinsipləri.

Diskontinual qurşaq - *Koen* tərəfindən təklif edilmişdir. Qeyri-müəyyən, dəyişkən oriyentasiyalı, həm tellurokratik kontinentə, həm də talassokratik dənizə çevrilə biləcək pərakəndə sahil zonaları.

Dominant [lat. *dominans (dominantis)* - hökm etmək, hökmranlıq, təkhakimiyyətlilik] - başlıca ideya, bir şeyin əsas əlaməti, mühüm tərkib hissəsi.

Dominion (ing. *dominion*, lat. *dominium* - mülk, hakimiyyət) - 1947-ci ilədək Britaniya Millətlər Birliyinin üzvü olan dövləti bildirmək üçün işlədilən termin. 1947-ci ildə "Dominon" termini "Birlik üzvü" termini ilə əvəz edilmişdir.

Dost (lat. *amicus*) - *Şmitt* tərəfindən təklif edilmişdir. Mövqeləri strateji paytaxtın mövqeləri ilə üst-üstə düşən xarici dövlət, sosial, etnik və ya dini qurumların məcmusunu bildirən xalis siyasi anlayış. Mənəvi yük daşımır və dinamik şəkildə müxtəlif qurumlara aid edilə bilər. Dəyişkən kateqoriyadır. *Bax:* düşmən.

Dövlət-Millət - aşkar ifadə edilmiş mərkəzçiliklə seçilən dünyəvi dövlət. Dövlət formalarının yeni etnos və onun mədəniyyətinin yaranması ilə nəticələndiyi siyasi qurum. Etnik qurumdan (icma, xalq) və imperiyadan fərqlənir.

Dövlət-sivilizasiya - müasir dünyada qlobal çağırış və təhlükələrə qarşı dayanmağın daha səmərəli forması. İqtisadi və texnoloji inkişafın ən iri qütbləri analoji təsisatlarla - Birləşmiş Avropa, Birləşmiş Ştatlar və Çinlə təmsil olunmuşdur.

Dünya adası - *Makinderin* işlətdiyi termin. Makinder Avrasiyanı və "tarixin coğrafi oxu"nu belə adlandırırdı. *Spaykmenin* əsərlərində bu anlayışın mənası əsaslı şəkildə dəyişmiş və o, talassokratik zonaların (xarici aypara zonalarının) məcmusunu ifadə etməyə başlamışdır.

Dünya-iqtisadiyyat - *F.Brodelə* görə, müəyyən iqtisadi birliklə səciyyələnən hər hansı bütöv ərazi qurumu (məsələn, Aralıq dənizi hövzəsi).

Dünya nizamı - dünyanın (beynəlxalq münasibətlərin) formalaşmış qüvvələr tarazlığını əks etdirən geosiyasi strukturu. Üç klassik modelə - ikiqütblü, çoxqütblü və təkqütblü modellərə əsaslanır.

Dünya okeanı - bütün materikləri və adaları əhatə edən fasiləsiz su örtüyü başa düşülür.

Düşmən (lat. *hostis*) - *Şmitt* tərəfindən təklif edilmiş bu termin xalis siyasi anlayış olub dövlətin xarici sosial, etnik və ya dini xarakterli, strateji paytaxtın mövqelərinə əks mövqe tutan qurumlarının məcmusunu bildirir. Mənəvi yük daşımır və dinamik şəkildə müxtəlif qurumlara aid edilə bilər. Dəyişkən kateqoriyadır. *Bax:* dost.

Ehkamçılıq (yun. doğma münasibət, elm, qərar) - hər cür şəraitdə, müxtəlif vəziyyətlərdə qeyd-şərtsiz həqiqət kimi qəbul olunmuş mövqe,

vəziyyət, təfəkkür metodu. "Ehkamçılıq" terminini elmə ilk dəfə qədim yunan filosof-skeptikləri Pirron və Zenon gətirmişlər.

Ekosiyasət - bu termini *Çellen təklif etmişdir. Dövlətə iqtisadi qüvvə* kimi baxılması deməkdir. Geniş tətbiq edilmir.

Ekzistensializm (lat. *exsistentia* - mövcudluq) - mövcudluq fəlsəfəsi - XX əsr fəlsəfəsində insanı özü taleyini seçməyə qadir olan nadir mənəvi varlıq hesab edən istiqamət.

Ekzogen - xarici mənşəli, kənar səbəblərdən irəli gələn.

Elitizm - XX əsrin əvvəlində İtaliyada yaranmış və dövlətin idarə edilməsi haqqında *N.Makiavellinin* ideyalarını inkişaf etdirən ideologiya. Elitizmə görə cəmiyyət onun fəaliyyətini idarə edən elitadan və bioloji kütlə olan xalqdan ibarətdir.

Endogen - *daxili mənşəli, daxili səbəblərdən irəli gələn.*

Enlik ekspansiya (paralellər boyunca ekspansiya) - labüd olaraq münaqişəli vəziyyətlər yaradan təcavüzkar geosiyasi tendensiya, hücum xarakterli geosiyasi strategiya. Demək olar ki, həmişə hərbi münaqişələrə gətirib çıxarır. Yalnız meridional ekspansiya başa çatandan sonra həyata keçirilir.

Enlik inteqrasiya (paralellər boyunca inteqrasiya) - mərkəzin nəzarətində olan geosiyasi məkanların əlaqələndirilməsində ən incə və mürəkkəb məqam. Mümkün qədər dinc və diplomatik vasitələrlə həyata keçirilməlidir. Müxtəlif tipli regionların və mərkəzə ən loyal bölmələrinin məkan iyerarxiyası vasitəsilə mərkəzi hissəyə tədricən birləşməsinə əsaslanır.

Ensiklika (yun. *enkyklios* - dairəvi) - Roma papasının bütün katoliklərə və ya ayrıca bir ölkənin katoliklərinə göndərdiyi məktub. Dini etiqad və ictimai-siyasi məsələlərə aid olur. Katolik kilsəsinin qanunlarına görə ensiklika müzakirə oluna bilməz və icra edilməsi məcburidir. Ensiklika vasitəsilə papalıq katolisizm yayılmış ölkələrdə katoliklərin ictimai fikrini formalaşdırmağa və ictimai-siyasi münasibətlərə təsir göstərməyə cəhd edir.

Entropiya (yun. *en* - da, də və *trope* - çevrilmə) - termodinamik sistemin hal funksiyası. Elmə *R.Klauzius* daxil etmişdir (*1865*).

Epistemologiya - biliyin mənşəyi, prosesləri və səhihliyi haqqında təlim.

Esxatologiya (yun. *eschatos - son* və *logos* - təlim, söz) - dünyanın və bəşəriyyətin son aqibəti barədə, dünyanın sonu və məhşər ayağı haqqında dini təlim.

Etatizm (fr. *etat* - dövlət sözündən) - cəmiyyətdə dövlətin rolunu mütləqləşdirən və onu ictimai inkişafın əsas məqsədi hesab edən baxış; cəmiyyətin həyatına və şəxsi həyatın bütün sahələrinə dövlətin fəal müdaxiləsi siyasəti.

Etnik qlobalizm - vahid məkanın formalaşmasına iri diasporların və etnik sahibkarların təsiri.

Etnik lobbi - yaşadıqları ölkənin inkişafına və onun beynəlxalq siyasətinə təsir göstərən ictimai qruplaşma.

Etnomərkəzçilik - dünyanın inkişafında bu və ya digər sivilizasiyanın (məsələn, Çin mərkəzçiliyi və avromərkəzçilik) əsas yer tutduğunu əsaslandıran konsepsiya.

Eyniyyət - predmetin, hadisənin öz-özü ilə bərabərliyini, eyniliyini və ya bir neçə predmetin bərabərliyini ifadə edən kateqoriya.

Ənənəvi cəmiyyət - sənayeləşmədən əvvəlki dövrə aid, əsasən, aqrar xarakterli kənd cəmiyyəti. "Ənənə-müasirlik" baza sosioloji tipologiyada müasir sənaye cəmiyyətinə qarşı qoyulur.

Ərazi qüdrəti konsepsiyası - *V.Semyonov Tyan-Şanskinin* "Rusiyaya münasib olan qüdrətli ərazi sahibliyi haqqında" (1915) əsərində şərh edilən təlim. ABŞ və Rusiya üçün səmərəli olan "dənizdən dənizə" kontinental geosiyasi sisteminin daha səmərəli olduğunu bildirirdi.

"Ərəb baharı" (ing. *Arab Spring)* - 2010-cu ilin dekabrından ərəb ölkələrində işsizlik, ərzaq qiymətlərinin yüksəlməsi, söz azadlığı, bürokratik əngəllər və aşağı həyat səviyyəsi ilə əlaqədar başlayan etiraz nümayişləri dalğasıdır. İlk qiyam 18 dekabrda 1987-ci ildən hakimiyyətdə olan dövlət başçısı *Zeynalabdin ben Əlinin* ölkəni tərk etməsi və onun qurduğu siyasi sistemin çökməsi ilə nəticələnmişdir. Tunis inqilabının qələbəsi digər ərəb dövlətlərində də nümayişlər dalğasına səbəb olmuş, nəticədə Misir və Liviyada uzunmüddətli siyasi hakimiyyətlər dəyişmiş, Suriya, Əlcəzair, Yəmən, Oman, Mərakeş, İordaniya, Bəhreyn kimi ölkələrdə kütləvi etirazlar baş qaldırmışdır.

"Əsrin müqaviləsi" (1994) - Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" neft yataqlarının birgə tədqiqi və istismarı haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında bağlanmış müqavilə.

Əyalət - əsas geosiyasi qurumun tərkibinə daxil olan və üzvi tamın ayrılmaz tərkib hissəsi kimi nəzərdən keçirilən periferiya əraziləri. Müstəmləkənin əksi.

Faşizm - bu söz qədim Romada hakimiyyətin simvolu olan balta ətrafına sarınmış çubuqlar dəstəsi mənasını verən latın mənşəli *fasces* sözündən törəmişdir.

Fatalizm (lat. *fatalis* - tale, qismət) - qəzavü-qədər, bəxt-tale işi; alın yazısı, taleyə inam.

Fiskal siyasət - iqtisadi fəaliyyətin səviyyəsinə təsir göstərmək üçün və məxaric xərclərinin ödənilməsi məqsədilə gəlirin artırılması üçün hökumət tərəfindən həyata keçirilən siyasət.

Formasiya nəzəriyyəsi - ictimai inkişafın fazalarının aşağıdan ali pilləyə qədər dəyişməsinin qanunauyğunluğu haqqında təlim.

Fövqəldövlətlər - gücünə görə başqalarından üstün olan dünya dövlətləri.

Fraqmentar (lat. *fragmentum* - parça, tikə) - parçalar, hissələr halında qalmış; yarımçıq, natamam, qırıq.

Fundamentalizm - varlığın "həqiqi" əsasları haqqında təlim.

Geoiqtisadi kod - milli maraqların tarazlığı əsasında dövlətin xarici aləmlə iqtisadi münasibətlərinin çoxvektorlu sistemi.

Geoiqtisadiyyat - atlantist geosiyasətin bir şaxəsi. Utilitar-iqtisadi mənada məkanı nəzərdən keçirir. Talassokratik təhlilin prioritet fənlərindən biri.

Geofəlsəfə - çoxölçülü kommunikasiya məkanına daxil olan aləmlərin müxtəlifliyinə dair təsəvvürlərə əsaslanan dünya nizamının dəyişməsi və sivilizasiyalararası münasibətlər haqqında elm. Geofəlsəfə sivilizasiya geosiyasətinin metodoloji əsasını təşkil edir.

Geomarlar - geostratlar arasındakı məsafəni qət etməyə imkan verən, enerji ilə zəngin sərhəd kommunikasiya sahələri; məsələn, real coğrafi məkanda sivilizasiyaların Avrasiya marginal zonası (AVRAMAR) və ya "Quru-Dəniz" təmas zonası (MOREMAR).

Geosiyasət - əsas müddəaları bu kitabda şərh edilmiş elm.

Geosiyasətdə status kommunikasiyaları - dünyanın aparıcı dövlətlərinin güc, iqtisadi və sivilizasiya qüdrəti statuslarının sürətlə dəyişməkdə olan iyerarxiyası.

Geosiyasi "adalar" - nisbətən kiçik zaman fasiləsində müxtəlif geosiyasi məkanlara (platformalara) daxil olan ərazilər.

Geosiyasi anlayışlar - ənənəvi olaraq daha geniş mənada şərh olunan coğrafi terminlər: coğrafi anlayışlar - şimal, cənub, şərq, qərb, dəniz və kontinent. Geosiyasi anlayışlar - Şimal, Cənub, Şərq, Qərb, Dəniz və Kontinent.

Geosiyasi doktrina - konkret beynəlxalq şəraitdə dövlətin xarici siyasət kodeksi. Dövlətin geosiyasi kodu və geosiyasi məkanın mümkün dəyişməsi əsasında formalaşır.

Geosiyasi dualizm - talassokratiya ilə tellurokratiyanın tarixi qarşıdurma prosesinin hərəkətverici qüvvəsi olduğunu iddia edən əsas geosiyasi prinsip.

Geosiyasi ekspansiya - dövlətin və ya blokun (hərbi-siyasi, iqtisadi, mədəni) öz nüfuz dairəsini genişləndirməsi.

Geosiyasi fikir - geosiyasətdə realizm və praqmatizm ənənələri.

Geosiyasi idealizm - dünya nizamını müharibələr və böyük dövlətlərin üstünlüyü olmadan, beynəlxalq hüququn prinsipləri əsasında bərqərar etmək cəhdi.

Geosiyasi kod - milli maraqların balansı əsasında tarixən yaranmış dövlətin xarici aləmlə siyasi münasibətlərinin çoxvektorlu sistemi. Bu sistem dövlətin dünya, regional və yerli səviyyələrdə müəyyən statusunu təmin edir (fövqəldövlət, regional dövlət və s.).

Geosiyasi qüdrət - dövlətin və ya hərbi-siyasi blokun hərbi (o cümlədən nüvə), demoqrafik, maddi, ərazi və mənəvi (dəyər) resurslarının məcmusu.

Geosiyasi ox - iki və daha artıq dövlətin geostrateji məqsədlərə nail olmaq üçün yaratdığı ittifaq. İkinci Dünya müharibəsi ərəfəsində Berlin-Roma-Tokio oxu belə ittifaqlardan idi.

Geosiyasi parça - strateji paytaxtın (və ya geosiyasi qütbün) periferiya regionları ilə münasibətlərinin məcmusu. Konkret tarixi dövrdə siyasi proseslərin ümumi dinamikası hesaba alınmadan nəzərdən keçirilir. Həmçinin bax: geosiyasi şüa.

Geosiyasi praqmatizm - dövlətin öz praqmatik maraqlarından çıxış edərək xarici siyasətdə yürütdüyü realist xətt.

Geosiyasi region - 1) kollektiv hərbi-siyasi təhlükəsizliyin təmin edilməsi məqsədilə dövlətlərin qonşuluq və birlik barədə müxtəlif meyarlar əsasında yaratdığı qurum; 2) dünyanın qalan hissəsi üçün çox ciddi nəticələrə gətirib çıxara biləcək yüksək dərəcədə münaqişəli çoxölçülü siyasi-coğrafi və geoiqtisadi məkan.

Geosiyasi şüa - geosiyasi qütbün periferiya orqanlarına güc vasitəsilə (iqtisadi, strateji, mədəni, təsərrüfat, inzibati və s.) təsir vektoru. Statik vəziyyətdə dünyanın real siyasi mənzərəsi geosiyasi parçalarla əməliyyat aparır. Geosiyasətdə davametmə müddəti sabit olan açıq dinamik impuls prosesi kimi şüalar haqqında söhbət gedir.

Geosiyasi təfəkkür - geosiyasətdə realizm və praqmatizm ənənələri. Realizm dövlətin idarə edilməsində və beynəlxalq münasibətlərdə münaqişələrin güc mövqeyindən (hərbi, iqtisadi) həllinə dair klassik əsərlərə əsaslanır. İdelaistlər isə beynəlxalq münasibətlərdə hüququn üstünlüyünü əsas götürürlər. Müasir geosiyasətdə realizm və praqmatizm ənənələri idealizmi üstələyir.

Geosiyasi təsir agentləri - geosiyasi layihələrin lobbiləşdirilməsi ilə məşğul olan fiziki şəxslər və korporativ qruplar.

Geosiyasi utopiya - məkanın hakimiyyət texnologiyası əsasında təşkil edilməsi (mənimsənilməsi) barədə utopiya, xəyal.

Geosiyasi vektorlar - dövlətin və ya blokun güc (hərbi-siyasi, iqtisadi, mədəni) tətbiq etməklə ətraf aləmə təsir göstərməsinin vektorları. Qlobal, regional və yerli səviyyələrdə xarici siyasətin geostrateji istiqamətləri. Əsas geosiyasi vektorlar strateji tərəfdaşlıqda təzahürünü tapır.

Geosiyasi vəziyyət - dövlətlərin və dövlətlərarası qurumların dünya güc mərkəzlərinə (nüfuz dairələrinə), o cümlədən hərbi-siyasi bloklara və münaqişə zonalarına münasibətdə mövqeyi.

Geosofiya - geosiyasətdə ilk sivilizasiyalı yanaşma cəhdlərindən biri. Avrasiyaçılıqda daha əyani şəkildə təzahür etmişdir. Geosofiyanın sinonimi mədəni-tarixi geosiyasətdir.

Geostrategiya - geosiyasi təhlilin hərbi aspektləri.

Geostrateji region - eyni hərbi-strateji sistemə mənsub olan dövlətlərin yerləşdiyi region.

Geostratlar - çoxölçülü məkanın müxtəlif miqyaslı proseslərinin zaman-məkan stratifikasiyasının nəticəsi.

Gömrük ittifaqı - vahid gömrük ərazisi yaradan dövlətlər və ya regionlar qrupu: üzv dövlətlər arasında tariflər və digər ticarət məhdudiyyətləri ləğv olunur və ittifaq digər ölkələrə münasibətdə ümumi xarici tarifi saxlayır.

"Hartlənd-Rimlənd" nəzəriyyəsi - amerikalı geosiyasət nəzəriyyəçisi *N.Spaykmenin* XX əsrin 30-cu illərinin axırları - 40-cı illərin əvvəllərində işləyib hazırladığı təlim.

"Həyati maraqlar zonası" - ABŞ geosiyasətinin mühüm anlayışlarından biri. Yer kürəsinin Amerika kapitalı üçün maraq kəsb edən istənilən regionu bu statusu ala bilər.

Həyati məkan - *Haushoferin* təklif etdiyi bu termin xalqın öz tarixi və siyasi arzularına çatmasına imkan verən minimal ərazi deməkdir.

Hidroqrafiya (yun. *hydor* - su və *grapho* - yazıram) - coğrafiyanın Yer üzündəki suları öyrənən və təsvir edən şöbəsi.

Hinduizm - Hindistan əhalisinin əksəriyyəti üçün səciyyəvi olan dini təsəvvürlərin, mərasim və adətlərin, sosial-məişət təsisatlarının məcmusu.

Homogen - vahid.

Xarici aypara (və ya ada ayparası) - *H.Makinder* tərəfindən təklif edilmişdir. Talassokratik təsir zonasına daxil olan geosiyasi məkanı bildirmək üçün işlədilir. Kontinentlərin və adanın "dənizdə mövcud olmağa" can atan hissələri, strateji baxımdan atlantizmin tam nəzarəti altında olan zona.

Xilafət (ər.) - ərəb xəlifələrinin hakimiyyəti dövrü; xəlifəlik. Ərəb istilaları nəticəsində yaranmış, başında xəlifənin durduğu feodal dövlət.

Xiliazm (yun. *chilias* - min), millenarizm (lat. *mille* - min) - axirətdən əvvəl Yer üzündə Allahın minillik hökmranlığının bərqərar olacağını təlqin edən dini təlim. Xiliazm iudaizmə və *xilaskar Məsihanın* gəlməsi barədə ideyalarla əlaqələndirildiyi ilkin xristianlığa xas olmuşdur. İslamın şiəlik təriqətinin 12-ci imamın zühur edəcəyi barədə təlimi xiliazm ideologiyasına yaxındır.

Xristianlıq - üç dünya dinlərindən (buddizm və islamla yanaşı) biri.

Xurafat - hərfən: idraka zidd, qeyri-tənqidi, düşüncəsiz qavranılan nöqteyi-nəzər.

İdealizm - düşüncə və təfəkkürün (psixi və mənəvi) ilkin və əsas olmasını təsdiq edən fəlsəfi təlim. Materiya, təbiət və fiziki aləm isə idealizmə görə ikinci, yaradılan, şərtləndirən və asılıdır. Banisi *Platondur.*

İcma - üzvi tellərlə bir-birinə bağlı olan insanların mövcudluğunun təbii forması. İcmadan fərqli olaraq cəmiyyətdə üzvi əlaqələr əvəzinə, fərdlər arasında formallaşdırılmış müqavilə normativləri üstünlük təşkil edir. Cəmiyyət ənənə ilə tənzimlənir.

İctimai müqavilə nəzəriyyəsi - insanlar arasında şüurlu surətdə bağlanmış müqavilə nəticəsində dövlətin və hüququn meydana gəlməsi haqqında təlim.

İdentifikasiya, identikləşdirmə (lat. *identificare* - eyniləşdirmək) - müəyyən əlamətlər arasında müxtəlif obyektlərin eyniliyinin müəyyən edilməsi.

İdentiklik (son lat. *identicus* - eyni) - iki əşyanın, yaxud anlayışın eyniliyi.

İdeokratiya (yunanca "ideyaların və idealların hakimiyyəti") - rus avrasiyaçıları *(N.Trubetskoy, P.Savitski)* tərəfindən təklif edilmiş bu termin materiyanın hakimiyyətinə, bazar sisteminə, "ticarət quruluşu"na qarşı qoyulur. İdeokratiya şəraitində cəmiyyətdə iyerarxiya və əməyin stimullaşdırılması qeyri-iqtisadi prinsiplərə əsaslanır.

İkinci dünya - "soyuq müharibə" dövründə sosializm düşərgəsinin adı. "Soyuq müharibə" başa çatandan sonra Avrasiyanı bildirir.

İmmanentlik (lat. *immanetis* - nəyinsə daxilində olan, nəyə isə xas olan) - hər hansı predmetə, hadisəyə, prosesə daxilən xas olan bu və ya digər xassəni, qanunauyğunluğu bildirən anlayış. Fəlsəfədə transsendentliyə qarşı qoyulur.

İmperiya - dini, etik və ideoloji xarakterli universal ideyanın ətrafında bir neçə xalqı və ölkəni birləşdirən dövlətüstü qurum.

İmperativ (lat. *imperativus* - hökmlü, hökm edən) - 1) idealist fəlsəfədə: qəti tələb, qeyd-şərtsiz tələb; 2) qram. felin əmr forması.

İmplisit - mahiyyəti induksiya və deduksiya vasitəsilə aşkarlanan.

İnduksiya (lat.) - məntiq. ayrı-ayrı, xüsusi təsadüflərdən ümumi nəticələr çıxarma üsulu.

İnformasiya cəmiyyəti - informasiya-kompyuter inqilabının başlanması ilə əlaqədar olaraq inkişaf etmiş ölkələrin qədəm qoyduğu ictimai inkişafın keyfiyyətcə yeni modelinin təsvir edilməsi üçün istifadə olunan nəzəri modellərdən biri.

İnkişaf yeri - *Savitski* tərəfindən təklif edilmiş termin. Keyfiyyət məkanı və ya sadəcə məkan (geosiyasi mənada).

İnnovasiya - yenilik, texnoloji baxımdan təzə olan bir şey.

İnteqrasiya - geosiyasətdə bir neçə məkan sektorunun birləşməsinin müxtəlif formalarını bildirir. İnteqrasiya həm hərbi ekspansiya əsasında, həm də dinc yolla həyata keçirilə bilər. Geosiyasi inteqrasiyanın bir neçə yolu var: iqtisadi, mədəni, linqvistik, strateji, siyasi, dini və s. Bu yolların hamısı son nəticədə blokun strateji və məkan həcminin artmasına gətirib çıxara bilər.

İnterpretasiya (lat. *interpretatio* - şərhetmə) - izah, təfsir, şərh, yozum.

İntifad (ər. *elliklə mübarizə*) - Fələstin ərəblərinin azadlıq mübarizəsi.

İpostas (yun. *hypostasis* - fərd, mahiyyət) - xristian təlimində üçlüyün hər birinin adı. Tək olan Allah üç İpostasda çıxış edir: Tanrı-Ata, Tanrı-Oğul, Tanrı-Müqəddəs Ruh.

İrenologiya (yun. *ire* - sülh və *loqos* - təlim, söz) - geosiyasi fikrin liberal dünya nizamı problemlərinin tədqiqi ilə məşğul olan elmi-idealist istiqaməti.

İrqçilik - xalqların "aşağı" və "ali" irqlərə bölünməsini əsaslandıran baxışlar sistemi və bu sistemə əsaslanan siyasi fəaliyyət; irqlər (xalqlar) arasında nifaq və ədavət salma.

İslam (ər.) - dünyada geniş yayılmış təkallahlı dinlərdən biri.

İstehlak cəmiyyəti - get-gedə daha artıq dərəcədə istehlak prinsipi əsasında təşkil olunan modern cəmiyyətin (müasir cəmiyyətin) xarakteristikalarından biri.

İudaizm - əsasən yəhudilər arasında yayılmış din.

İzolyasionizm (təcridçilik) - ABŞ-ın xarici siyasətində və ictimai fikrində istiqamət; dövlət meydana gələndən mövcud olmuş bu istiqamət ABŞ-ın Amerika qitəsindən kənarda aktiv fəaliyyət aparmaqdan imtinasını ifadə etmişdi.

Kapitalizm (alm. *kapital*, fr. *capital* - başlıca əmlak və yaxud məbləğ) - ictimai-iqtisadi formasiya. İstehsal vasitələri üzərində xüsusi mülkiyyətə əsaslanır.

Katexizis (yun. *katechesis* - nəsihət, təlimat) - 1) xristian təliminin əsas müddəalarının toplandığı dərslik. 2) Məcazi mənada - sual-cavab formasında yazılmış əsər.

Katolisizm (yun. *catholicos* - dünyəvi, ümumi) - xristianlığın əsas cərəyanlarından biri.

Kəlam (ər. söz, *ifadə, nitq*) - müsəlman sxolastikası, ilahiyyatı.

Kibbus (ivrit - *birlik*) - İsraildə kənd təsərrüfatında istehsalatın bütün vasitələrinin və kommunal təşkilatların ümumiləşdirilməsi yolu ilə gedən kollektiv təsərrüfatçılıq növü.

Kiniklər - qədim yunan fəlsəfəsinin (Sokrat fəlsəfəsinin, e.ə. IV əsr) nümayəndələri, Antisfenin davamçıları.

Klassik alman fəlsəfəsi - fəlsəfənin inkişafının Kantın, Şellinqin, Hegelin və Feyerbaxın təlimləri ilə təmsil olunan mərhələsi.

Klassik burjua siyasi iqtisadı - iqtisadi fikir cərəyanı. Onun nümayəndələri ilk dəfə olaraq kapitalist istehsalının tədqiqinə başlamış və bununla da siyasi iqtisadın (ictimai elm tarixində "siyasi iqtisad" terminini ilk dəfə fransız iqtisadçısı *A.Monkretyen* işlətmişdir) bir elm kimi əsasını qoymuşlar. Klassik burjua siyasi iqtisadı XVIII əsrdə Böyük Britaniya və Fransada əmələ gəlmiş, Böyük Britaniyada daha çox inkişaf etmişdir; burada onun nümayəndələri *U.Petti, A.Smit, D.Rikardo,* Fransada - banisi *P.Buagilber,* nümayəndələri fiziokratlar (fr. *physiocrates,* yun. *physis* - təbiət, *kratos* - qüvvə, hakimiyyət, hökmranlıq) və isveçrəli *J.Ş.Sismondi* olmuşlar.

Kommunikasiya (lat. *communicatio* - rabitə, əlaqə) - konkret coğrafi, tarixi, sosiomədəni, sosiopsixoloji, iqtisadi, informativ və digər məkanlarda universal məna daşıyan anlayış.

Komplementarlıq (fr. *complementaire* - əlavə etmək, tamamlamaq) - vahid sosiomədəni məkan (sivilizasiya) hüdudlarında məna kəsb edən anlayış.

Komplimentarlıq (fr. *compliment* - kompliment, iltifat, tərif) - mövcud mədəniyyətin və ya sivilizasiyanın hüdudlarından kənara çıxan transsendent anlayış (anlama aktı).

Konfusiçilik - qədim Çinin aparıcı ideya cərəyanlarından biri. Banisi Konfusidir (e.ə. 551-479).

Kontinent - Avrasiya, Quru, tellurokratik prinsip.

"Kontinental blok" - Berlin-Moskva-Tokio geosiyasi oxu. Böyük kontinental Avrasiya İttifaqı ideyası alman geosiyasətçisi *K.Haushoferə* məxsusdur. Yaponiyanın Baş naziri *F.Konoye* bu ideyanı dəstəkləyirdi.

Kontinentalizm - məhdud strateji mənada avrasiyaçılığın sinonimi. Quru, Torpaq anlayışlarına yaxındır. Kontinentalist geosiyasi məktəb Rusiyada yeganə, Almaniyada üstün, Fransada mövcud olan və anqlosakson ölkələri üçün qeyri-mümkün hesab edilən məktəbdir. Atlantizmin əksidir.

Konurbasiya [lat. *con (cun)* - birgə, bir yerdə və *urbs* - şəhər] - birbirinin yaxınlığında yerləşən və iqtisadi cəhətdən sıx əlaqədə olan müstəqil şəhərlər qrupu. Konurbasiyanın özəyini adətən iri şəhər təşkil edir. Konurbasiyanın əsas əlamətləri iqtisadi həyatın ümumiliyi və inkişaf etmiş nəqliyyat əlaqələrinin olmasıdır. Konurbasiyaya misal: Böyük Paris,

Böyük London, Böyük Moskva, Tokio-Yokohama rayonu və s. Konurbasiyaya yaşayış məntəqələrinin aqlomerasiyasının bir elementi kimi də baxılır.

Korrelyasiya (lat. *correlatio* - nisbət) - elm və texnikanın bir çox sahəsində müqayisə edilən anlayış, iş, əşya və funksiyaların qarşılıqlı asılılığını, uyğunluğunu, münasibətini ifadə etmək üçün işlədilən termin.

Kratosiyasət - *Çellen* tərəfindən təklif edilmiş termin. Dövlətə onun güc potensialı baxımından qiymət verilməsi. Geniş yayılmamışdır.

Qabağınalma siyasəti - 1) bir dövlətin, yaxud dövlətlər qrupunun digər dövlətə (yaxud dövlətlər qrupuna) münasibətdə birbaşa təcavüzünün, yaxud ilhaqın başqa formalarının qarşısını almağa yönəldilmiş tədbirlər kompleksi. Qabağınalma siyasətinin əsas komponenti təcavüzkarın özü üçün təcavüzün, ilhaqçı üçün ilhaqın əlverişsiz nəticələr verə biləcəyini açıq nümayiş etdirməkdir; potensial təcavüzkara, yaxud ilhaqçıya münasibətdə qoruyucu tədbirlər silsiləsini nəzərdə tutur (məs.: NATO-nun sülhməramlı qüvvələrinin Bosniyada serblərin təcavüzünün qarşısını almaq üçün həyata keçirdiyi qoruyucu tədbirlər); 2) artıq başlanmış təcavüzün və ilhaqın nəticələrini minimuma endirmək üçün onun miqyasını daraltmağa yönəldilmiş tədbirlər kompleksi.

Qərb - Şərqə əks olan geosiyasi məfhum. Sinonimlər: talassokratiya, atlantizm.

"Qərbin ölümü" - Qərb və ya xristian sivilizasiyasının məhvinin ssenarisi.

Qərbləşmə - Qərbin həyat tərzinin mexaniki şəkildə köçürülməsi.

Qəyyumluq (protektorat) - havadar, hami mənasında olub, müstəmləkə asılılığı formalarından biridir.

Qitə (Quru, Avrasiya) - tellurokratiyanı bildirən geosiyasi termin.

"Qızıl milyard" - postindustrial ölkələr (ABŞ, Qərbi Avropa, Kanada, Yaponiya və başqaları).

"Qızıl milyard" nəzəriyyəsi - Yer üzərində imtiyazlı həyat sürməsi təmin edilmiş "seçilmiş xalqlar" haqqında müasir avromərkəzçi nəzəriyyə.

Qlobal çağırışlar - ziddiyyətli qloballaşma prosesləri nəticəsində mövcud problemlərin kəskinləşməsi və ya yenilərinin yaranması.

Qloballaşma - maliyyə bazarlarının və istehsal sahələrinin ümumi planetar miqyasda dəyişməsi prosesləri. Bu proseslər nəticəsində coğrafi sərhədlər, milli hökumətlər və sosial dövlət əslində kütləvi istehsala və

əmtəə istehlakına nəzarət etmir. Dünyanın ən iri banklarının bilavasitə iştirakı ilə prinsipcə yeni siyasi əlaqələr yaranır və bunlar dövlətüstü təsisatların köməyi ilə reallaşdırılır. Son dövrlərdə antiqloballaşma hərəkatının kütləvi xarakter alması ilə əlaqədar olaraq transmilli şirkətlər "qloballaşma" terminindən istifadə edirlər.

Qlobal problemlər - daha mühüm ümumbəşəri problemlər mənasında qəbul olunmuş anlayış; bu problemlərin yaranması müasir dövrdə bir sıra sosial-iqtisadi və elmi-texniki amillərin bütövlükdə ictimai varlığa təsiri ilə bağlıdır.

Qlobal təhlükələr - Dərhal aradan qaldırılması zəruri olan konkret hərbi-siyasi, iqtisadi və digər təhlükələr.

Qoşulmamaq hərəkatı (ing. *Non-Aligned Movement, NAM*) - əvvəldən "soyuq müharibə"də iştirak etməmiş dövlətlərdən ibarət qrup; halhazırda Yer kürəsində yeni qaydanın bərqərar olmasında və iqtisadi inkişafda maraqlıdır. 120 üzv və 17 müşahidəçi dövlətin, habelə 10 müşahidəçi beynəlxalq təşkilatın daxil olduğu Hərəkatın hazırkı toplantılarında 100 üzv ölkə təmsil olunur. Bununla yanaşı, 30 ölkə və 15 beynəlxalq təşkilatın nümayəndəsi toplantıların qonağıdır.

Qoşulmamaq siyasəti - İkinci Dünya müharibəsindən sonra imperializmə, müstəmləkəçiliyiə və yeni müstəmləkəçiliyiə qarşı, sülh və əmin-amanlıq uğrunda, hərbi ittifaq və qruplardan azad, beynəlxalq münasibətlərdə bərabərhüquqlu iştirak uğrunda gedən mübarizədə dünyanın əksər ölkələrinin seçdiyi xarici siyasət xətti; ilk dəfə C.Nehru tərəfindən irəli sürülmüşdür.

Quran (ər. *mütaliə, oxu*) - müsəlmanların müqəddəs kitabı. İslam ehkamlarına görə Allah Cəbrayıl vasitəsilə müqəddəs vəhyləri, ayinləri göndərmiş və xalqa çatdırmışdır. Sonralar bu müqəddəs kəlamlar Quranda cəmlənmişdir.

Quru - *bax:* Torpaq.

Qüvvələr tarazlığı - "Qüvvələr balansı konsepsiyası" - dövlətlərarası münasibətlər sistemində tarazlığın spesifik formasını müəyyən edən konsepsiya.

Landsknext (alm. *Landsknecht, Land* - ölkə, *Knecht* - muzdur, əsgər) - XV-XVII əsrlərdə öz silahı ilə xidmət etməyə gələn muzdlu alman piyadası.

Landşaft (alm. *Landschaft*) - 1) məhəllin ümumi görünüşü; 2) *landşaft* (coğrafi) - təbii-ərazi kompleksi.

Leviafan (qədim yəhudi dilində (Bibliyada) "dəniz əjdahası") - 1) Bibliya mifologiyasında nəhəng timsaha bənzər çox iri dəniz əjdahası. Məcazi mənada: çox dəhşətli və nəhəng şey. 2) *T.Hobbsun* dövlət problemlərinə həsr olunmuş əsərinin adı ["Leviafan, yaxud Materiya, kilsə dövlətinin və mülki dövlətin forma və hakimiyyəti" (1651)]. 3) *Şmitt* tərəfindən təklif edilmiş Leviafan termini atlantizm, dəniz terminlərinin sinonimidir.

Liberal beynəlmiləlçilik - proletar beynəlmiləlçiliyinə əks olan geosiyasi strategiya. *V.Vilsonun* irəli sürdüyü liberal dünya nizamı proqramında şərh olunmuşdur.

"Liberal" imperiya - digər dövlətlərin daxili və xarici siyasətini müəyyən edən siyasi idarəetmə forması.

Liberalizm (lat. *liberalis* - azad) - demokratik azadlıqlar və parlament quruluşunun tərəfdarlarını birləşdirən ideoloji və siyasi cərəyan. Atlantist düşərgənin hakim ideologiyası. Liberalizmin siyasi ifadəsi liberal demokratiyadır.

Loqos - ilk dəfə Heraklitin (e.ə. 544-483) təlimində dünyanın ümumi qanunauyğunluğu mənasında irəli sürülmüş fəlsəfi termin. Yunan fəlsəfəsinin əsas anlayışlarından biridir.

Maarifçi qloballaşma - Vahid dünya məkanının Avropa maarifçiliyi prinsipləri əsasında formalaşması.

Maltusçuluq - antielmi sosioloji doktrina; əhalinin təkrar istehsalı qanunauyğunluqlarına olan yanlış baxışlar sisteminə əsaslanır. İngilis keşişi, iqtisadçısı *T.R.Maltusun* (1766-1834) adı ilə adlandırılmışdır. Maltus özünün "Əhali artımının qanunları haqqında təcrübə" (1798) əsərində Qərb ictimai fikrində, xüsusilə XIX əsrin sonlarında siyasi iqtisadda geniş yayılmış baxışlarını şərh etmişdir. Maltus əhali artımı qanunu deyilən qeyri-tarixi bir qanunu vermişdir; bu qanuna görə əhalinin artımı həndəsi silsilə, yaşayış vasitələrinin artımı isə yalnız ədədi silsilə üzrə baş verir. Buradan da o, ictimai inkişafın ziddiyyətlərini hasil edirdi. Maltus bu ziddiyyətlərin aradan qaldırılması imkanını iqtisadi cəhətdən təmin olunmayan əhali artımının qarşısının alınması ilə (nikahın qaydaya salınması, doğumun nizamlanması), həmçinin əhali artımının miqdarının aclıq, epidemiyalar, müharibələr və s. vasitəsilə "təbii" surətdə qaydaya salınması ilə əlaqələndirirdi.

Manhetten layihəsi - ABŞ-ın atom bombası yaratmaq layihəsi.

Marginal (lat. *marginalis* - kənarda yerləşən sözündən) - "mərkəzi" məfhumunun əksi; kənarda, hüdudda, sərhəddə yerləşən.

Marginallıq - müəyyən sosial qrupun tərkibinə yarımçıq, qismən daxil olmaq. Əvvəllər bu termin ilk növbədə miqrantların öyrənilməsində iki müxtəlif qrupun həyat tərzini və ənənələrini bir-birindən ayırmaq üçün "mədəni hibrid" mənasında istifadə edilirdi.

Marginal submədəniyyətlər və ya mədəni-marginal tayfalar (icmalar) - sivilizasiyalararası dialoqun özünəməxsus "alışdırıcıları".

Marksizm - proletariatın sinfi mənafeyini, ictimai idealını, tarixi vəzifələrini, dünyagörüşünü, elmi ideologiyasını, dünyanın dərk olunması və inqilabi yolla dəyişdirilməsi vəzifəsini qarşısına məqsəd qoymuş fəlsəfi, iqtisadi və sosial-siyasi baxışlar sistemi. XIX əsrin 40-cı illərində *K.Marks və F.Engels* tərəfindən yaradılmış, həmin əsrin 90-cı illərindən *V.İ.Lenin* tərəfindən inkişaf etdirilmiş və tarixə marksizm-leninizm kimi daxil olmuşdur.

Materializm (lat. *materialis* - maddi, real) - idealizmə əks elmi-fəlsəfi cərəyan.

Mexanisizm - bütün hadisələrin və fikirlərin mexanikanın qanunlarına uyğun olaraq baş verdiyini irəli sürən doktrina.

Meridional ekspansiya (Şimal-Cənub oxu boyunca ekspansiya) - nüfuz sahəsinin (hərbi, strateji, mədəni və ya iqtisadi) meridian boyunca genişlənməsi, uzununa ekspansiya; dövlətin ərazi və strateji sabitliyinin əsas şərti.

Meridional inteqrasiya (Şimal-Cənub oxu boyunca inteqrasiya) - ayrı-ayrı məkan bölmələrinin meridian boyunca vahid tam şəklində əlaqələndirilməsi (uzununa inteqrasiya). Şimal və mərkəz vilayətlər üzərində inamlı nəzarət olduqda pozitiv nəticə verir. Şimalda və ya mərkəzdə strateji paytaxta loyallığı şübhəli və ya zəif olan geosiyasi qurumlar mövcud olduqda neqativ nəticəyə səbəb olur.

Metafizika - varlığın əzəli prinsipləri haqqında elm, dialektik anlayışın əksi, dünyanın birmənalı, statistik və mücərrəd mənzərəsi.

Metasivilizasiya - müəyyən ümumi əlamətlər əsasında bir neçə sivilizasiyanın konseptual birliyi (məsələn, Qərb və Şərq).

Metodologiya (yun. *methodos* - tədqiqat, yaxud idrak yolu, nəzəriyyə, təlim, *logos* - söz, təlim) - 1) hər hansı elmdə istifadə olunan idrak vasitələrinin, metodlarının, üsullarının məcmusu; 2) idrak və praktiki-dəyişdirici fəaliyyətin təşkili vasitələrini, ilkin şərtlərini və prinsiplərini öyrənən bilik sahəsi.

Mədəni-genetik kod - bu və ya digər sivilizasiyaya (superetnosa) mənsubluğun sabit əlamətləri.

Mədəniyyətlərin dialoqu - dəyərlərin və informasiyanın qarşılıqlı qəbulu və mübadiləsi.

Məğrib (ər. *günbatan*) - Mərakeş, Tunis, Əlcəzair (bəzən Liviya), həmçinin Mavritaniya, Qərbi Böyük Səhra daxil olmaqla Şimali Afrika regionunun tarixi və coğrafi mənbələrdəki adı. Orta əsrlərdə müsəlman İspaniyası da Məğribə daxil edilirdi. Orta əsr ərəb alimləri Ərəb Şərqi (Məşriq) ölkələrini Ərəb Qərbindən fərqləndirmək üçün "Məğrib" anlayışından istifadə edirdilər.

Məkan - geosiyasətin əsas anlayışıdır. Kəmiyyət xarakterli deyil, keyfiyyət xarakterli kateqoriyadır. Məkanın strukturu tarixin (ilk növbədə siyasi tarixin) strukturunu müəyyən edir. Bir elm kimi geosiyasətin əsas tezisi belədir.

Məkanın mənası - *F.Ratsel* tərəfindən təklif edilmiş termin. Keyfiyyət məkanında təsbit olunmuş tarixi öncəgörmələr sistemi. *Bax:* məkan.

Məkan ölçüləri - Dövlətin geosiyasi amillərindən biri onun məkan ölçüsüdür. Məkan ölçüsü təkcə onun böyüklüyü, yaxud da kiçikliyi ilə deyil, həm də onun geosiyasi xarakteristikası ilə - vahidliyi, rahatlığı, etibarlı qorunan xarici sərhədləri, sərhədlərinin dağlıq və ya düzənlik olması və s. ilə ölçülür.

Məkan paradiqması - geosiyasətin konseptual əsasıdır.

Məkan tərəqqisi qanunu - Jan Tiriar tərəfindən ifadə edilmiş bu qanun belə səslənir: "Şəhər-dövlətlərdən ərazi-dövlətlər vasitəsilə qitə-dövlətlərə". Siyasi tarixin coğrafi dinamikası labüd olaraq minimal sosial qurumların miqyasının artmasına doğru aparır. Həmçinin *bax:* həyat məkanı.

Məkan-zaman stratifikasiyası - müasir geosiyasi məkanın dəyişməsi zamanı "üzə çıxan" Böyük çoxölçülü məkanlar, çoxsaylı geosiyasi "stratlar" anlayışıdır.

Milli borc - hökumətin daxili və xarici borcları.

Milli gəlir - müəyyən olunmuş dövr, adətən il ərzində ölkədə iqtisadi fəaliyyət nəticəsində istehsal olunmuş malların və xidmətin ümumi pul dəyəri.

Minimal geosiyasət - həqiqi geosiyasətdən bəzi terminləri və metodikanı əxz edən, lakin baza geosiyasi dualizmi bir kənarda saxlayan tətbiqi fənn.

Modernləşmə - ənənəvi, aqrar cəmiyyətdən müasir, sənaye cəmiyyətlərinə keçid prosesi. Bu, sənayeləşdirmə və ya kapitalizmə keçidlə müqayisədə daha geniş sosial prosesdir.

Mondializm (fransızca *"dünya"* mənasında işlədilən *"monde"* sözündən) - bütün dövlətlərin və xalqların vahid planetar qurum şəklində birləşməsini, dünya hökuməti qurulmasını, irqi, etnik, dini, milli və mədəni sərhədlərin ləğv olunmasını nəzərdə tutan xüsusi ideologiya. "Sağçı" və "solçu" mondializm mövcuddur. Sağçı mondializm atlantizmin qloballaşması deməkdir. Solçu mondializm vahid dövlətə (bu və ya digər əsaslarla) Avrasiya bölməsinin də daxil edilməsini zəruri sayır.

Monosentriklik - birtərəfli/vahid hakimiyyət mərkəzinin mövcud olması.

Monro doktrinası - ABŞ-ın xarici siyasət prinsipləri bəyannaməsi; ABŞ Prezidenti *C.Monronun* (1758-1831) Konqresə 1823-cü il 2 dekabr tarixli məktubunda elan olunmuşdu. Müqəddəs İttifaqın Latın Amerikasına müdaxilə etmək cəhdi ilə əlaqədar irəli sürülmüşdü. Doktrinada dünyanın Avropa və ABŞ arasında nüfuz dairələrinə bölünməsi prinsipi əks olunmuşdu. Monro doktrinasına görə Latın Amerikasında əsas rol ABŞ-a məxsus olmalıdır.

MOREMAR - Böyük çoxölçülü məkanlar nəzəriyyəsinin geosiyasi və geoiqtisadi anlayışı. Sahil zonası və ya "Quru-Dəniz" təmas zonası.

Moskva - Avrasiyanın təbii strateji paytaxtı. Hər hansı kontinental inteqrasiya oxlarının əsası. *Bax:* Avrasiya.

"Moskva-Üçüncü Roma" - geosiyasi məna daşıyan panpravoslav xilaskarlıq ideyası.

Mühafizəkar inqilab - "solçu" iqtisadiyyatın və "sağçı" siyasətin, milli-mühafizəkar və sosial-inqilabi elementlərin birləşdirilməsini nəzərdə tutan "üçüncü yol" ideologiyası.

Müharibə - siyasətin zorakı vasitələrlə davam etdirilməsi.

Müstəmləkə - su məkanı ilə ondan ayrılmış metropoliyanın nəzarətində olan ərazi. Metropoliyanın ümumi geosiyasi məkanından ayrılmış müvəqqəti xarici baza hesab edilir. Əyalətin əksidir.

Nasional-bolşevizm - antikapitalizmi ifrat millətçiliklə birləşdirən "mühafizəkar inqilab" və ya "üçüncü yol" ideya-siyasi cərəyanı.

Neoatlantizm - atlantizmin müasir versiyası, mondializmi (hətta sağ təmayüllü mondializmi də) vaxtı yetişməmiş və indiki şəraitdə yerinə yetirilməsi mümkün olmayan layihə kimi inkar edir. Neoatlantistlər belə hesab edirlər ki, Vahid dünya əvəzinə sivilizasiyaların toqquşması baş verəcəkdir.

Neomondializm - bəşəriyyətin bazar sistemi və demokratiya əsasında planetar mövcudluğu layihəsi. Dünyanı yenidən qurmağı nəzərdə tutur. Atlantizmlə mondializmin aralıq variantı kimi çıxış edir.

Neoliberal qloballaşma - bəşəriyyətin iqtisadi, siyasi və mədəni həyatının bir çox sivilizasiya imperativlərinə etinasızlıqla müşayiət olunan beynəlmiləlləşməsi.

Nonsens (ing. *nonsetse,* lat. *non* - yox və *sensus* - məna, ağıl) - mənasız, cəfəngiyyat, ağlabatmaz.

Nou-hau (ing. *know-how*) - sənədləşdirilmiş və qanunla qorunan ixtiralar, yeni texnologiya, tibb və kommersiya sahəsində diqqəti cəlb edən nailiyyətlər.

Nomos - bu termini *K.Şmitt* təklif etmişdir. İstənilən məkanın (coğrafi, sosial, siyasi, iqtisadi, mədəni və s.) təşkilinin baza prinsipi. "Qayda", "qanun", "uklad" anlayışlarının sinonimi. Qurunun nomosu = tellulokratiya. Suyun (və ya Dənizin) nomosu = talassokratiya.

Noumen (yun. *noumenon*) - fenomenin əksinə olaraq yalnız ağılla dərk edilən mahiyyəti ifadə edən termin.

Nüvə çəkindirməsi siyasəti - rəqabət aparan dövlət və blokların siyasi məqsədlərə hərbi yolla nail olmasının yolverilməzliyi. Nüvə silahı bu yeni siyasi psixologiyanın yaranmasına səbəb olmuşdur.

"Nüvə klubu" (London klubu) - nüvə materialları, avadanlığı və texnologiyaları istehsal edən, onları nüvə silahının yayılmaması rejiminə uyğun ixrac etmək haqqında razılığa gələn dövlətlər qrupu. Razılaşma 1975-ci ildə Londonda əldə olunmuşdur.

Nüvə pariteti - SSRİ və ABŞ-ın nüvə silahlarının təxmini bərabərliyi.

Od - xalis ruhun rəmzi olan element, transsendent prinsip.

Ox - iki və ya daha artıq geosiyasi paytaxtın geosiyasi ittifaqı.

Ox regionu - Kolumbaqədərki Aralıq dənizi hövzəsi, müasir Rusiya.

"Orta Avropa" (Mitteleuropa) - Rusiya ilə Avropanın Atlantik sahilləri arasındakı məkan. Ənənəyə görə, əsasən, Almaniyanın təsir zonası hesab edilir.

Orta okean (Midland Ocean) - *N.Spaykmenin* terminidir. Avropa və Şimali Amerika vahid geosiyasi məkanı üçün Atlantik okeanını bildirir.

Ortodoksal - hər hansı təlimə (daha çox dini) tamlıqla əməl edilməsi

Panasiyaçılıq - "Böyük Şərqi Asiyada ortaq rifah sahəsi"nin yaradılmasını nəzərdə tutan yapon ideyası. Bu ideya Yaponiyanın rəsmi dövlət doktrinasının əsasını təşkil etmişdi. İkinci Dünya müharibəsində bu doktrinaya uyğun olaraq Çinin bir hissəsi, Cənub-Şərqi Asiya və Cənub dənizləri arasındakı ölkə və ərazilər zəbt edilmişdi.

Panislamçılıq - xəlifənin rəhbərliyi altında bütün müsəlmanların birləşdirilməsini nəzərdə tutan dini-siyasi ideologiya. XIX əsrin 2-ci yarısında meydana gəlmişdir. İlk ideoloqu Azərbaycan əsilli *Cəmaləddin əl-Əfqanidir* (1838-1897).

Panregionçuluq - dünyanın "Böyük məkanlar" konsepsiyası əsasında hazırlanmış geosiyasi modeli.

Panslavizm və ya panslavyançılıq - slavyan xalqlarının mədəni ümumiliyi, federasiya və ya konfederasiya yaradılması yolu ilə birləşdirilməsi ideyalarını ehtiva edən milli-siyasi ideologiya.

Pantürkçülük - türk xalqları arasında ictimai-siyasi fikir cərəyanı.

Paradiqma (yun. *paradeigma* - nümunə, model, formul, üsul) - hər hansı faktın, hadisənin, prosesin təhlilində və qiymətləndirilməsində istifadə olunan daimi, əsas amillər, biliklər sistemi. Daha çox elmi anlayış kimi qəbul edilmiş paradiqma ictimai proseslərin təhlilində də geniş işlənir.

Paritet - bərabərlik, bərabər münasibətlər, uyğunluq.

Partizan - *Şmitt* tərəfindən təklif edilmiş bu termin əks geosiyasi qüvvələr zəfər çaldıqda "Quru nomosu"nun müdafiəçisinin rəmzi fiquru deməkdir.

Pasifizm - sülhpərvərlik

Passionarlıq - termin *Lev Qumilyov* tərəfindən təklif edilmişdir. Etnosun daxili energetikası, mədəni, siyasi və geosiyasi quruculuğun hərəkətverici qüvvəsi deməkdir.

Periferiya - müstəqil geosiyasi oriyentasiyası olmayan, strateji paytaxtdan uzaq məkanlar və torpaqlar. Bu halda əsas geosiyasi qərarlar strateji paytaxtın adından qəbul edilir.

Polisentrik - çoxmərkəzli, çoxtərəfli; hakimiyyətin bir neçə mərkəzinin olması.

Polisivilizasiyalı - çoxsivilizasiyalı.

Politeizm və monoteizm - çoxallahlılıq və təkallahlılıq.

Possibilizm (fransızca "mümkün" mənasını verən *"possible"* sözündən) - bu termini *Vidal dö la Blaş* təklif etmişdir. Geosiyasətə qismən xas olan coğrafi determinizmi ifadə edir. Possibilizm nəzəriyyəsinə görə, məkan tarixi əvvəlcədən müəyyənləşdirmir, yalnız onu bu və ya digər istiqamətə yönəldir.

Postsənaye cəmiyyəti - bu anlayışı ilk dəfə 1962-ci ildə *D.Böll* təklif etmişdir. XX əsrin 50-ci illərinin axırı - 60-cı illərinin əvvəlində sənaye cəmiyyətinin potensial imkanları tükənən inkişaf etmiş Qərb ölkələrinin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasını bildirirdi. Bu anlayış xidmətlər sahəsinin və informasiyanın genişlənməsi hesabına sənaye istehsalının payının və əhəmiyyətinin azalması ilə səciyyəvidir.

Postmodern - postmüasirlik epoxası - modernə - müasirlik epoxasına qarşı qoyulur. Postmodern nəzəriyyəçilərinin fikrincə, bu termin öz tarixi potensialını tükədən moderndən sonra başlanan ictimai inkişafın keyfiyyətcə yeni mərhələsini təsvir etmək üçün ən geniş anlayış kimi işlədilir. Adətən, postmodern xarakteristikaları modernin başlıca xarakteristikaları ilə müqayisə (eləcə də onların inkar olunması) əsasında müəyyən edilir.

Praqmatizm (yun. *pragma* - iş, hərəkət, fəaliyyət) - 1) müasir fəlsəfədə və siyasətşünaslıqda obyektiv gerçəkliyi deyil, reallığı, praktikada əldə olunan müsbət nəticəni həqiqət hesab edən cərəyan; 2) tarixi hadisələri formal xarici əlamətlərə görə təhlil etmə üsulu.

Pravoslavlıq - xristianlığın mühüm cərəyanlarından biri; başlıca olaraq Şərqi Avropa, Yaxın Şərq və Balkanlarda yayılmışdır.

Preferensiya (son lat. *praeferentia* - üstünlük, lat. *praefero* - üstün tuturam) - müəyyən dövlətin başqa bir ölkənin bütün, yaxud bəzi məhsulları üçün müəyyən etdiyi xüsusi güzəştli (yaxud üstünlük təşkil edən) idxalat gömrüyü (digər ölkələrin məhsullarına aid edilmir).

Protestantizm - pravoslavlıq və katolisizmdən sonra xristianlığın Reformasiya dövründə meydana gəlmiş cərəyanı.

Realpolitik - *Otto fon Bismarkın* təklif etdiyi termin. İdeoloji amillərdən və ya başqa "sentimental xülyalardan" daha çox konkret və ciddi praktik aspektlərə əsaslanan siyasəti əks etdirir.

Reduksionizm (lat. *reducere* - məhdudlaşma, qaytarma, geriyə dönmə) - mürəkkəb sosial prosesin sadə prosesə keçməsi və ya keçirilməsi; bir şeyin bu və ya başqa cəhətdən azalması, zəifləməsi.

Regional geosiyasət - obyekti dövlət deyil, ərazi münaqişəsi olan "daxili geosiyasət". Regional geosiyasətin əsasları "Herodot" jurnalının naşiri və rəhbəri olmuş *İ.Lakostun* yeni fransız geosiyasət məktəbində qoyulmuşdur.

Regionalistika - geosiyasi və geoiqtisadi amillərin təsiri altında məhsuldar qüvvələrin ərazi təşkilinin dəyişməsi haqqında elm.

Regionalizm - periferiya məkanlarının avtonomluğuna istiqamətlənmə. Bir neçə forması mövcuddur: iqtisadi, mədəni, siyasi və strateji regionalizm.

Relyef (fr. *relief,* ital. *rilievo,* lat. *relevo* - qaldırıram) - Yer səthi formalarının məcmusu.

Sahil zonası - 1) təbii, iqtisadi, demoqrafik və başqa proseslərin qarşılıqlı təsirinin intensivliyi ilə səciyyəvi olan "Quru-Dəniz" təmas zonası; 2) daha geniş məna daşıyan geosiyasi anlayış. Ənənəvi geosiyasətdə dənizlə qurunun qarşıdurma vəziyyətində olduğu təmas zonası, geosiyasi ekspansiya üçün meydan ("Rimlənd"). Geoiqtisadiyyatda müxtəlif təsərrüfat sistemləri arasında təmas zonası. Məsələn, sərbəst iqtisadi zonalar. Sivilizasiya geosiyasətində müxtəlif keyfiyyətlərin qarşılıqlı təsirdə (münaqişədə) olduğu sivilizasiyalar arasında çoxölçülü kommunikasiya məkanının enerji ilə bol təchiz olunmuş "sahilləri".

Sakral (lat. *sacer (sacri)* - müqəddəs) - ilahi, dini sahəyə aid olan hadisələr, əşyalar, insanlar sahəsini dünyəvi, naşı sahədən fərqləndirməyi bildirir. Tarixin gedişində müqəddəsləşdirmə, sakrallaşdırma prosesinin əksi bəşəriyyətin mövcudluğunun müxtəlif cəhətlərinin desakrallaşdırılması, dünyəviləşdirilməsi prosesidir.

Sakral coğrafiya - qədim insanlarda keyfiyyət məkanı haqqında təsəvvürlərin məcmusu. Müasir geosiyasət məkanın tipoloji oxşar anlamını rəhbər tutur, lakin bunu rasional təbii-elmi formada ifadə edir.

Sanitar kordon - ciddi blok yarada biləcək və bu halda üçüncü tərəf üçün təhlükəli olacaq iki qonşu iri dövlətdə sabitliyi pozmağa xidmət edən süni geosiyasi qurumlar. Atlantistlərin Avrasiyanın kontinental inteqrasiyasına qarşı mübarizəsində onların strategiyasının klassik gedişi.

Sekulyarizasiya (fr. *secularisation,* son lat. *saecularis* - dünyəvi) - cəmiyyətin müxtəlif sahələrinin, o cümlədən fərdi və ictimai şüurun dindən azad olması prosesi; dünyəviləşdirmə.

Səbəbiyyət - biri (səbəb) digərinin (nəticə və ya təsir) şərti olan hadisələrin zəruri genetik əlaqəsini ifadə edən fəlsəfi kateqoriya.

Səkkizlər qrupu (ing. *Group of Eight, G8*) - aparıcı sənaye ölkələri - ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Kanada, Rusiya, Yaponiya, eləcə də Avropa Komissiyasının Prezidenti.

Sənaye cəmiyyəti - cəmiyyətin inkişafının yeni texnoloji əsaslarını yaratmış sənayeləşmənin baş verdiyi cəmiyyət.

Sənayeləşdirmə - XVIII əsrin axırı - XIX əsrin əvvəlində Böyük Britaniyada sənaye inqilabının gedişində başlamış və digər ölkələrə yayılmış proses. Kənd təsərrüfatının və sənətkarlığın üstünlük təşkil etdiyi iqtisadiyyatların və cəmiyyətlərin maşınlı (mexanikləşdirilmiş) istehsalata əsaslanan iqtisadiyyatlara və cəmiyyətlərə çevrilməsi.

Sərhəd - geosiyasətdə sərhədlərin iki növü var: sərhəd-xətt və sərhəd-zolaq. Sərhəd-xətt dəniz sərhədini, sərhəd-zolaq isə quru sərhədini bildirir. Planetar miqyasda fəaliyyət iddiasında olan geosiyasi blokun vəzifəsi sərhəd-xətləri özü üçün maksimum və rəqib üçün minimum etməkdir və əksinə.

Sərhəd dövləti - sivilizasiyaların sərhədlərində və digər hüdudlarda yerləşmiş dövlətlər.

Sintetik (yun. *synthesis* - birləşmə, uyğunlaşma) - sintezə - təhlil prosesində hasil olmuş ayrı-ayrı ünsürlər arasındakı əlaqəni müəyyən etmə və onlardan ümumi nəticə çıxarma üsuluna əsaslanan.

Sintoizm (yaponca *sinto,* hərfi mənası - Allahların yolu) - ibtidai icma quruluşunda Yaponiyada meydana gəlmiş və öz inkişafında xeyli dəyişikliyə uğramış din.

Sionizm (Qüds şəhəri yaxınlığındakı Sion dağının adı ilə) - XIX əsrin sonlarında Avropada yəhudi burjuaziyası daxilində meydana gəlmiş millətçi cərəyan. Dünyanın bütün yəhudilərinin Fələstin torpağına köçməsi və burada yəhudi dövlətinin yaradılmasını əsas məqsəd kimi elan etmişdir.

Sipahi - zabitləri ingilis, əsgərləri hindlilərdən ibarət olan qoşun növü.

Sivilizasiya (lat. *civilis* - mülki, dövlət) - cəmiyyətin zəkaya, sosial ədalətə, mədəni dəyərlərə və müəyyən texnologiyaya əsaslanan tarixi

inkişaf mərhələsi; ictimai həyatın və mədəniyyətin sosial təşkili. XVIII əsrdə Avropada meydana çıxan "sivilizasiya" anlayışı ümumbəşəri mahiyyət kəsb etmiş, mədəniyyətin sinonimi kimi işlədilərək dağıdıcılığa, vəhşiliyə qarşı qoyulmuşdur. Mədəniyyət sivilizasiyanın inkişaf səviyyəsinin göstəricisi kimi çıxış edir. Sivilizasiya mədəniyyətin inkişafı üçün sosial-iqtisadi şərait yaradaraq, bu prosesi tənzimləyir. Tarixin keçid dövrlərində sivilizasiya kateqoriyasından mövcud sosial-mədəni birliklərin vəziyyətini əvvəlki sosial-mədəni birliklərin vəziyyəti ilə müqayisə etmək üçün istifadə olunur. Sivilizasiyanın formalaşması hər hansı bölgə və ya ölkənin maddi və mənəvi mədəniyyətinin müəyyən tarixi vəziyyəti ilə bağlıdır.

Sivilizasiya geosiyasəti - formasiya yanaşmasından fərqli olaraq mədəni-genetik kodların və arxetiplərin dayanıqlı olmasına əsaslanır.

Sivilizasiya kodu - bu və ya digər sivilizasiyaya (superetnosa) mənsub olmağın dayanıqlı mədəni-genetik əlamətləri.

Sivilizasiyaların toqquşması - bu termini *Hantinqton* təklif etmişdir. Sivilizasiyalar səviyyəsində geosiyasi münaqişələrin permanentliyi və aradan qaldırıla bilməməsi nəzəriyyəsi. Bu konsepsiya "Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması" kitabında (1996) ətraflı şərh edilmişdir.

Siyasi coğrafiya - *Ratsel* tərəfindən təklif edilmiş termin. *Çellendən* sonra məxsusi mənada "geosiyasət" adlanan kateqoriyanı ifadə edirdi.

Siyasi elita (lat. *eligere*, fr. *elite* - ən yaxşı, seçilmiş) - hakim sinfin yuxarı təbəqələrinin, hər şeydən əvvəl, onun cəmiyyətə siyasi rəhbərliyi bilavasitə həyata keçirən, dövlət idarəsinin sükanı arxasında duran hissəsinin xüsusi rolunu əks etdirən anlayış. Bu problemin qoyuluşu *Platona, Makiavelliyə* gedib çıxan qədim ənənəyə malikdir. Müasir yanaşmada siyasi elita nəzəriyyəsini *Q.Moskva, V.Pareto, R.Mixels* dürüst ifadə etmiş, siyasi prosesdə hakim yuxarı təbəqənin roluna aid məsələləri ayrı-ayrı hissələrə bölməyə və sistemləşdirməyə, onları xüsusi tədqiqat mövzusu etməyə cəhd göstərmişlər.

Siyasi realizm - müharibədən sonrakı dövrdə ABŞ-da meydana gəlmiş və "soyuq müharibə" şəraitində iki qütbə, yəni iki ictimai sistemə ayrılmış dünyada qüvvələr nisbətini əks etdirən beynəlxalq münasibətlər nəzəriyyəsinin istiqamətlərindən biri.

Solçuluq - geniş sosial məqsədlərə çatmaq üçün zorakılıq vasitələrinin tətbiqini istisna etməyib inqilabi dəyişiklikləri nəzərdə tutan siyasi

xəttin radikallaşdırılmış ifadəsi; çox vaxt azadlıq, bərabərlik, qardaşlıq, hakimiyyətsizlik və s. kimi emosional, yaxud uydurma şüarlarla bağlı olur.

Sosial-darvinizm - bəşər cəmiyyətinin bioloji qanunlarla idarə olunması haqqında sosioloji təlim. Darvinizmin sosial elmlərdə və geosiyasi nəzəriyyələrdə tətbiqi coğrafi determinizmlə yanaşı, ənənəvi geosiyasətin əsaslarından biri sayılır.

Sosial dövlət - İkinci Dünya müharibəsindən sonrakı siyasi və ictimai nəzəriyyədə yaranmış anlayış; nisbətən sabit və inkişaf etmiş iqtisadiyyata malik olan müasir demokratik tipli dövləti bildirmək üçün işlədilir.

Sosiosiyasət - termin *Çellen* tərəfindən təklif edilmişdir. Dövlətin sosial aspektlərinin öyrənilməsi deməkdir.

"Soyuq müharibə" - 1946-1991-ci illərdə fövqəldövlətlərin hərbi-siyasi və iqtisadi qarşıdurması.

Spontanlıq - öz-özünə baş verməklik; xarici təsirlərlə deyil, daxili səbəblər nəticəsində meydana gələn proseslərin xarakteristikasıdır.

Sporadik (yun. *sporadikos* - az təsadüf edilən, ayrı) - hərdənbir (olan), hər yerdə olmayan, təsadüfdən-təsadüfə olan.

Stixiya (yun. *stoicheion* - element, ünsür) - təbiətin maddi əsasları; qədim yunan materialist filosoflarının fikrincə, təbiətin əsasını 4 ünsür təşkil edir: su, od, torpaq, hava.

Stoisizm (yun. *stoa* - sütunlu eyvan) - ellinizmin və Roma fəlsəfəsinin mühüm cərəyanlarından biri. Məktəbin adı Afinadakı "Səfalı Stoya" (bina) eyvanı ilə əlaqədardır. Əsas nümayəndələri *Kitionlu Zenon, Kleanf, Xrisipp, Panetsi, Posedoni, Seneka, Epiktet, Mark Avreli* və b. idi. Stoisizm Heraklitin od-loqos təlimini yenidən dirçəltmişdi; daxilində ilk od, pnevma olan aləm - bütün şeylərin kosmik "cazibəsini" yaradan canlı orqanizmdir; bütün mövcud şeylər maddidir; şeylər və hadisələr kosmosun hər bir dövri alışması və paklaşmasından sonra təkrarlanır. Etikada stoisizm sinizmə (yun. *kynismos* - abırsızlıq; kiniklərin təlimi: onlar ictimai normalara etinasızlığı, var-dövlətdən, şan-şöhrətdən və hissi zövqlərdən əl çəkməyi xoşbəxtliyin əsası saymışlar) yaxın olmuş, lakin onun mədəniyyətə mənfi münasibətini qəbul etməmişdir; müdrik şəxs təbiət kimi ehtirassız olmalı və öz qismətini sevməlidir. Bütün insanlar dünya dövləti olan kosmosun vətəndaşlarıdır. Stoik kosmopolitizmi nəzəriyyədə bütün insanları qanun qarşısında bərabər hesab edirdi. Orta əsrlərdə və İntibah dövründə stoisizm etikasının böyük nüfuzu var idi.

Strateji paytaxt (geosiyasi qütb və ya geosiyasi şüa mənbəyi) - geosiyasi inteqrasiya mərkəzi və geniş əhatəli geosiyasi prosesin fəal aktoru. Strateji paytaxtlar arasında əlaqələr geosiyasi oxlar yaradır. Dünya geosiyasi məkanında Vaşinqton, Pekin bu cür paytaxtlar sayılır. Dünya geoiqtisadi məkanında - dünyanın maliyyə paytaxtları (Nyu-York, Frankfurt-Mayn, Tokio, Şanxay), SSRİ dağılandan sonra Moskva Şərqi Avropada dünya şəhəri olmuşdur.

Substansiya - varlıq, obyektiv reallıq

Sufilik, sufizm, təsəvvüf (ər. zahidlik, möminlik) - islamda VIII əsrdə yaranmış müsəlman adət və ehkamlarına qarşı çıxıb asketizmi təbliğ edən mistik-asketik cərəyan, istiqamət.

Suverenlik - dövlətin daxili və xarici işlərdə müstəqilliyi.

Su (və ya Dəniz) - talassokratiyanı ifadə edən xüsusi termin. *Şmitt* onu "das Meer", *Mehen* isə "Sea, Sea Power" adlandırmış və xüsusi tədqiq etmişdir.

Syoqun - yaponca "vəhşiləri itaətə gətirən Böyük sərkərdə" deməkdir. İrsən verilən bu titul sahibi dövlət hakimiyyəti hüququna malik sərkərdə hesab olunurdu.

Şaman (şumer - *kahin, cadugər*) - İraq, Mərkəzi Asiya, Ural və s. yerlərdə, o cümlədən Şimal xalqlarında, islama qədərki dövrdən XX əsrin əvvəllərinədək türkdilli və farsdilli xalqlar arasında geniş yayılmış folklor janrının aparıcı siması.

Şərq - Qərbin antonimidir. Avrasiya ölkələrini və islam dünyasını əhatə edir.

Şərq məsələsi - Qara dəniz boğazlarına nəzarət uğrunda mübarizə də daxil olmaqla, ən mühüm geosiyasi problemlərdən biri.

Şimal - sakral coğrafiyada (və *Doyblerin* əsərlərində) ruhun və ideal qaydanın rəmzi. Müasir geosiyasətdə Zəngin Şimal anlayışının sinonimi.

Şimal-Cənub - inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı sərhəddə gərginliyi öyrənən geosiyasi konsepsiya.

Şovinizm (fr. *chauvinisme*) - ifrat millətçilik.

Talassokratiya (yunanca "dəniz vasitəsilə hökmranlıq" və ya "dəniz qüdrəti" deməkdir) - hərbi dəniz və ticarət donanmasına malik dövlətlərin dəniz qüdrəti.

Taliban (ər. *arzu edən, istəyən, tələbə*) - 1) müsəlman sünni ruhanilərı arasında yaranmış cərəyan. İlkin vaxtlarda ruhani məktəblərində oxuyanlara verilən ad; 2) bir vaxtlar Əfqanıstanda hakimiyyətdə olmuş dini-

siyasi qüvvə; hazırda həmin ölkədə mövcud hakimiyyətə qarşı vuruşan fundamental radikal təşkilat.

Talmud (yəh. öyrənmə) - e.ə. IV əsr - b.e. V əsrlərində yaranmış yəhudi dini ədəbiyyat məcmusu; yəhudilərin ehkamçı, dini-etik və hüquqi müddəaları külliyyatı.

Tarixin coğrafi oxu (ox arealı və ya "Hartlənd") - dünya geosiyasi məkanında mərkəzi yer tutan Avrasiyanın qitədaxili ox arealını ifadə etmək üçün *Makinder* tərəfindən işlədilmiş termin. *Makinderə* görə, orta oxa sahib olmaq dünya ağalığına yol açır. Müxtəlif vaxtlarda "Hartlənd" dedikdə, Şərqi Avropa və SSRİ nəzərdə tutulmuşdur.

"Tarixin sonu" - *Fukuyama* tərəfindən təklif edilmiş termindir. Talassokratiyanın və liberal-demokratik modelin bütün planetdə total qələbəsi haqqında mondialist tezis. *Bax:* mondializm, Vahid Dünya.

Texnokratiya (yun. *tehno, kratos* - hərfi mənada sənətkarlığın, ustalığın hökmranlığı) termini müxtəlif mənalarda işlədilir: 1) idarəetmənin yuxarı pilləsinə daxil olan texniki mütəxəssislər təbəqəsi; 2) texnokratik idarəetmənin müddəalarını əməli həyata keçirən real siyasi rejim; 3) cəmiyyətdə müasir sənaye istehsalının əsası kimi texnikaya və texniki mütəxəssislərə aparıcı rol ayıran nəzəri konsepsiya, yaxud ideologiya.

Teleologiya (yun. *telos, teleos* - nəticə, məqsəd, *logos* - söz, təlim) - aləmdə obyektiv, insan fövqündə duran məqsədlərin və məqsədəuyğunluğun mövcudluğu haqqında dini-fəlsəfi təlim. Canlıların nisbi məqsədəuyğunluğu faktını (həyat şəraitinə uyğunlaşmasını) əsas götürən teleologiya tərəfdarları təbii məqsədəuyğunluğu qeyri-maddi qüvvələrin fəaliyyətinin nəticəsi hesab edir və ya səbəbini Allahda görürdülər. Teleologiyanın ən ardıcıl nümayəndəsi *X.Volfa* görə, şeyləri Allah "insan məqsədi naminə" yaratmışdır (ağac ona görə yaşıldır ki, gözə xeyri var, qaramal yaradılmışdır ki, insan yesin və s.).

Teokratiya (yun. *tueos* - Allah və *kratos* - hakimiyyət) - hakimiyyətin ruhanilərin əlində cəmləşdiyi dövlət idarəçiliyi forması.

Tellurokratiya (yunanca "torpaq vasitəsilə hökmranlıq" və ya "qurunun qüdrəti" deməkdir) - geosiyasəti aşkar quru ərazilərinə yönəlmiş dövlətlərin xarakteristikası. Bax: Avrasiya, "Hartlənd", ideokratiya.

Təbii hüquq - dövlətdən asılı olmayan və guya insanın zəkasından və təbiətindən irəli gələn ideal hüquq haqqında təlim.

Təkqütblü dünya - Sovet İttifaqının "soyuq müharibə"dəki məğlubiyyətindən sonra Birləşmiş Ştatların dünyadakı üstünlüyünün geosiyasi modeli.

Təriqət (ər.) - əqidə və ya məsləkdə tutulan yol, dini cərəyanlarda qəbul edilən bir yol, məzhəb.

Tərk-silah - sürətlə silahlanmanın dayandırılmasına, müharibə aparmaq vasitələrinin azaldılmasına və ləğvinə yönəldilmiş tədbirlər sistemi.

Tətbiqi geosiyasət - regional problemlərin həlli zamanı geosiyasi texnologiyaların tətbiq edilməsi. *İv Lakost* tərəfindən təklif edilmişdir.

Təzminat (ər. *əvəzini ödəmə*) - beynəlxalq hüquqda dəymiş ziyanı ödəməyi (adətən, pulla) nəzərdə tutan əvəzetmə; sülh müqaviləsi, yaxud başqa beynəlxalq aktlar əsasında həyata keçirilir. İlk dəfə Versal sülh müqaviləsində (1919) əsaslandırılmışdır.

Ticarət quruluşu - əməyin iyerarxiyasının və stimulyasiyasının iqtisadi prinsiplərə əsaslandığı cəmiyyət tipi. Bazar sistemi, liberal-demokratik sistem. İdeokratiyanın əksi.

TMK (transmilli korporasiya) - xaricdə aktivləri (kapital qoyuluşları) olan və iqtisadiyyatın hər hansı sahəsinə (bir neçə sahəsinə) beynəlxalq miqyasda güclü təsir göstərən korporasiya, yaxud iri şirkət (və ya müxtəlif ölkələrin şirkətlərinin birliyi). Beynəlxalq iqtisadiyyata aid ingilisdilli ədəbiyyatda beynəlxalq biznes təşkilatlarını göstərmək üçün tez-tez "çoxmilli şirkətlər" (multinational firms - MNF) və "çoxmilli korporasiyalar" (multinational corporations - MNC) terminlərindən sinonimlər kimi istifadə edilir.

Tokio - Sakit okean məkanının təbii strateji paytaxtı.

Tolerant (lat. *tolerantia* - səbr, dözüm) - xoşniyyətli yanaşma, xoşgörü, dözüm.

"Torpağın nomosu" - *K.Şmittin* geosiyasi konsepsiyası. Dünya nizamının təşkili ilə dövlətin sosial-hüquqi quruluşunun xüsusiyyətləri arasındakı qarşılıqlı əlaqənin qanunauyğunluqlarını əks etdirən təlim.

Torpaq (və ya Quru) - geosiyasətdə "tellurokratiya" kimi işlədilən xüsusi termin. "Torpaq", "das Land" nəzəriyyəsi *K.Şmitt* tərəfindən ətraflı işlənmişdir.

Transformasiya cəmiyyəti (ingiliscə *transformation* - dəyişiklik sözündən) - dəyişikliklər prosesində olan cəmiyyət.

Turan - Avrasiya kontinentinin şimal-şərq vilayətləri, Avrasiyanın ucsuz-bucaqsız çölləri.

Unilateralizm (latınca *unilateral* sözündən) - birtərəfli; yeni dünya nizamına xas olan birtərəflilik siyasətini əks etdirir.

Urbanizasiya (lat. *urbanus* - şəhər sözündən) - cəmiyyətin inkişafında şəhərlərin rolunun artması prosesi.

Utilitar (fr. *utilitaire*, lat. *utilitas* - fayda, mənfəət) - yalnız əməli fayda, yaxud xeyir götürməyə uyğunlaşdırılan.

Üçüncü dünya (Cənub) - əsasən geosiyasi cənub regionlarına mənsub olan zəif inkişaf etmiş ölkələrin ümumi adı.

"Üçüncü reyx" ("Üçüncü imperiya") - Hitler hakimiyyətə gəldikdən (1933) sonra nasistlərin faşist Almaniyasına verdikləri ad. Onlar X əsrdə yaranmış "Alman millətinin Müqəddəs Roma imperiyası"nı "Birinci reyx" hesab edirdilər. 1871-ci ildə Fransa üzərində qələbədən və Almaniyanın Prussiya militarizmi əsasında birləşdirilməsi başa çatdıqdan sonra yaradılmış alman dövlətini faşistlər "İkinci reyx" adlandırırdılar. 1918-ci ildə Almaniyada noyabr inqilabının zərbələri altında "İkinci reyx" dağıldı. İkinci Dünya müharibəsində alman faşizminin darmadağın edilməsi ilə "Üçüncü reyx" öz ömrünü başa vurdu.

Ümumavropa evi - 1980-ci illərin ortalarında SSRİ-nin irəli sürdüyü Ümumavropa quruculuğu ideyası. Onun əsasını Avropa qitəsinin parçalanmasını aradan qaldırmaq, siyasi cəbhələşmədən, hərbi qarşıdurmadan, iqtisadi uyuşmazlıq və ideoloji düşmənçilikdən regionun bütün dövlətlərinin geniş əməli qarşılıqlı əlaqələr praktikasına keçmək təşkil edirdi.

Ümumi daxili məhsul (ing. *gross domestic product, GDP*) - dövlətdə istehsal olunan əmtəənin və xidmətin dəyəri.

Ümumi milli məhsul (ing. *gross national product, GNP*) - ümumi daxili məhsul üstəgəl xarici ölkələrdəki aktivlərdən faizlər, gəlirlər və dividendlər şəklində alınan xalis gəlir.

Ümumi rifah dövləti (ing. *welfare state*) - vətəndaşların maddi rifahına görə dövlətin məsuliyyət daşıdığı cəmiyyət. Bu məsuliyyət nə fərdin özünə, nə də özəl korporasiyaya, yaxud yerli hakimiyyətə həvalə edilə bilər.

Vahid dünya (ing. *One World*) - *bax:* mondializm.

Vaşinqton konsensusu - XX əsrin axırlarından etibarən qeyri-Qərb dövlətlərinə münasibətdə Beynəlxalq Valyuta Fondu və başqa beynəlxalq maliyyə təsisatları vasitəsilə həyata keçirilən dünya iqtisadi nizamının layihəsi.

Vedalar - qədim hindlilərin dörd başlıca müqəddəs kitabı.

Vesternləşdirmə - Qərb nümunəsinin mexaniki təqlidi. Qərbləşdirmə.

Veto (lat. *veto* - qadağan edirəm) - əleyhinə səs vermək.

Vəhhabi (ər. *vahid Allah*) - əsas ehkamı vahid Allaha inam olan ortodoksal islamda yaranmış dini-siyasi cərəyan; təməli XVIII əsrdə qoyulmuş məzhəb və bu məzhəbə xidmət edən adam. İlkin islama qayıdışı əsas götürən vəhhabilik Quranı qəbul etsə də, müqəddəslərə pərəstişi, dərvişiliyi və s. rədd edir. Səudiyyə Ərəbistanında hakim ideologiya olan vəhhabilik son illərdə keçmiş SSRİ-nin müsəlman respublikalarında da kifayət qədər geniş yayılmışdır.

Vəhy (ər.) - islam dini etiqadına görə bir fikir və ya hökmün Allah tərəfindən Peyğəmbərə ilham olunması, çatdırılması, verilməsi.

"Vişi hökuməti" - 1940-1944-cü illərdə Fransada hitlerpərəst antimilli rejimin təmsilçisi.

Volyuntarizm (lat. *voluntas* - iradə) - həm kainatın, həm də insanın fəaliyyətində iradəni əsas amil hesab edən doktrina.

Yakobinçilik - geniş mənada - hakimiyyəti ələ almaq və əldə saxlamaq, inqilabi dəyişiklikləri davam etdirmək üçün bütün vasitələrdən (o cümlədən kütləvi terrordan) istifadə edən radikal inqilabi cərəyan. Terminin mənşəyi Parisdəki keçmiş müqəddəs Yakov monastırının binası ilə bağlıdır. Böyük Fransa inqilabının yakobinçi xadimlərinin *(Marat, Danton, Robespyer)* yetişdiyi siyasi klub öz iclaslarını həmin binada keçirirdi.

Yaşamaq uğrunda mübarizə - orqanizmlərin öz həyatları və yayılması üçün cansız və canlı təbiətin əlverişsiz amillərinə əks təsiri.

Yeni avrasiyaçılıq - *L.Qumilyovun* əsərlərində inkişaf etdirilmiş "köhnə" avrasiyaçıların ideyaları.

Yeni dünya nizamı - mondializm, Dünya hökuməti yaradılmasına dair layihələr.

Yeni qayda - genişmiqyaslı geosiyasi yenidəntəşkil layihəsi.

"Yeni sağlar" - XX əsrin 60-70-ci illərində inkişaf etmiş Qərb ölkələrində ziyalıların, texnokratların və bəzi digər sosial imtiyazlı təbəqələrin yeni mühafizəkarlıq ideologiyasına əsaslanan hərəkatı.

"Yeni sollar" - XX əsrin 60-70-ci illərində Qərb ölkələrinin əsasən tələbə gəncləri və ziyalıları arasında yayılmış hərəkat; müasiri olduğu sosial-siyasi quruluş formalarını kəskin tənqidə tutur və iqtisadi həyatı ifrat radikalizm (terrorçuluq da daxil olmaqla) və anarxizm mövqelərindən təşkil etməyə çağırırdılar.

"Yeni sosializm" - vətəndaş cəmiyyətinin inkişafının "üçüncü yolu" nəzəriyyəsi.

Yurisprudensiya (lat. *yuris-prudentia*) - hüquqşünaslıq, hüquqa dair elmlərin toplusu; hüquqşünasların praktik fəaliyyəti, məhkəmə orqanlarının çıxardığı qərar və qətnamələr.

Zəngin Şimal - atlantizm, Qərb və liberal-demokratik dünya kateqoriyalarının sinonimi.

Heartland (ing. *"Yerin mərkəzi"*) - *bax:* "tarixin coğrafi oxu". Bu termini *Makinder* təklif etmişdir.

Hinterland (alm. *"arxa torpaq"*) - sahil xətlərindən qitənin dərinliklərinə doğru uzanan ərazi. Məkanın talassokratik təhlili üçün sosiyyəvi termin.

Jus in bellum (lat.) - müharibə hüququ.

Jus Publicum Europeum (lat. *"Ümumi Avropa Qanunu"*) - Avropada dövlətlərarası münasibətləri reqlamentləşdirən hüquqi sənədlərin tarixi toplusu.

Jus Publicum Euroasiaticum (lat. *"Ümumi Avrasiya Qanunu"*) - kontinental tellurokratik dəyərlərin üstünlüyünün tanınması əsasında Avrasiya ölkələri və xalqları arasında münasibətləri tənzimləyə biləcək beynəlxalq qanun layihəsi.

Lenaland (ing. *"Lena çayının hövzəsinə bitişik torpaq"*) - termini *Makinder* təklif etmişdir. Yenisey çayından Şərqə tərəf ta Sakit okean sahillərinə qədər yerləşən bütün Şimali Avrasiya ərazilərini bildirir. Makinder özünün sonrakı əsərlərində bu bölgəyə xüsusi diqqət yetirmişdir. O belə hesab edirdi ki, bu torpaqlar tellurokratik təsir zonalarına deyil, talassokratik təsir zonalarına mənsubdur.

Linkage - termini *Kissincer* təklif etmişdir. Avrasiyanın diskontinual qurşağının Qərbin nəzarəti altında olan bütöv əraziyə birləşdirilməsinə dair atlantist strategiya.

Mitteleuropa (alm. *Orta Avropa*) - *bax:* "Orta Avropa".

Modus vivendi (lat.) - mövcud olma, yanaşı mövcud olma şəraiti; mübahisə edən tərəflərin müvəqqəti sazişi.

One World - mondialist Vahid Dünya konsepsiyası. Həmçinin *bax:* "Tarixin sonu".

Pax Americana (lat. *Amerika dünyası*) - atlantizmin sinonimi. ABŞ-ın üstün rolunun təsiri altında yaranan beynəlxalq münasibətlərin yeni xarakteri bu terminlə eyniləşdirilir.

Pax Euroasiatica (lat. *Avrasiya dünyası*) - avrasiyaçılığın sinonimi.

Pax Oeconomicana - dünya nizamının geoiqtisadi sistemini əks etdirir.

Pax Persica (lat. *İran dünyası*) - Rusiya ilə müttəfiqlikdə İranın himayəsi altında Mərkəzi Asiya məkanının geosiyasi baxımdan yenidən təşkil edilməsi layihəsi.

Rimland (ing. *"sahil zonası"*) - *bax:* "daxili aypara". Termini *Makinder* təklif etmişdir.

Status quo (lat. *əvvəlki vəziyyət*) - müəyyən anda mövcud olmuş və ya mövcud olan faktiki və ya hüquqi vəziyyətdir. Status kvonu bərpa etmək baş vermiş dəyişikliklərə qədər mövcud olmuş vəziyyətə qayıtmaq deməkdir. Status quo ante bellum müharibəyə qədər, yəni onun meydana gətirdiyi dəyişikliklərə qədərki mövcud olmuş vəziyyət deməkdir.

Zərdüştilik - qədim Azərbaycan, İran və Mərkəzi Asiya xalqlarının dini (zərdüştiliyin ən səciyyəvi xüsusiyyəti dünyada iki qüvvənin - xeyir ilə şərin həmişə bir-biri ilə mübarizədə olduğu təsəvvüründən ibarətdir).

Adlar göstəricisi

Abellio Reymon
Açа Mehmet
Adams Con Kuinsi
Adorno Teodor
Axmatova Anna Andreyevna
Axromeyev Sergey Fyodoroviç
Akçura Yusuf
Akgül Fatih
Aqanbekyan Abel
Aleksandr I
Alperovits Qar
Al Saud Əbdüləziz
Al Saud Fəhd bin Əbdüləziz
Amin Samir
Anaksimandr Miletli
Andreyev Daniil Leonidoviç
Ansel Jak
Antoni Mark
Arbatov Georgi Arkadyeviç
Aristotel
Arndt Ernst Moris
Aron Reymon
Asborn Henri
Assner Pyer
Atatürk Mustafa Kamal
Atsız Nihal
Atlasov Vladimir Vasilyeviç
Attali Jak

Badi Bertran
Baffet Uorren
Balayan Zori
Baran Pol
Battarra Marko
Bayader Frans Ksaver fon
Ben-Qurion David
Berdyayev Nikolay Aleksandroviç
Bertuen Jorj
Bəyazid I İldırım
Bəhmənyar Əbülhəsən
Bjezinski Zbiqnev
Biruni Əbu-r-Reyhan
Bismark Otto fon Sönhauzen
Bleer Toni
Boden Jan
Bokl Henri Tomas
Bolivar Simon
Boll Corc Uildman
Bor Nils Henrik David
Bosk Rober
Boumen İsayya
Brejnev Leonid İliç
Breker Arno
Brian Aristid
Brodel Fernan
Budda
Buş Corc Herbert Uoker (ata)
Buş Corc Uoker (oğul)
Butul Qaston

Cavad xan
Cefferson Tomas
Cilpin Robert
Cons Stiven B.

Conson Lindon Beyns

Çan Kayşi (Szyan Sze-şi)
Çan Mön
Çeçen Anil
Çellen Rudolf
Çernyayev
Çiçerin Boris Nikolayeviç
Çingiz xan (Temuçin)
Çjaotszyun Van
Çörçill Uinston Leonard Spenser

Delamber Jan Leron
Dalay-lama Tenzin Gyatso
Dalles Con Foster
Danilevski Nikolay Yakovleviç
Darvin Çarlz
Davud Məhəmməd
Davutoğlu Ahmet
Demanjon Albert
Demolen Edmon
Derryenik Jan-Pyer
Devis Harri
Diks Artur
Dobrınin Anatoli Fyodoroviç
Dostoyevski Fyodor Mixayloviç
Dö Benua Alen
Dö la Blaş Vidal
Dö la Qors Pol-Mari
Döyç Karl
Dreyfyüs Alfred
Dreyfyüs Serj
Duqin Aleksandr Qelyeviç
Due Culiyo
Düpon Jan Batist
Dürand Henri Mortimer
Dürkheym Emil
Dürozel J.-B.

Ekkart Ditrix
Eqnyu Con A.
Emeri Leopold Stennet
Engels Fridrix
Enlay Çjou
Eroğlu Həmzə
Evola Yulius

Əliyev Heydər
Əliyev İlham
Ərdoğan Rəcəb Tayyib

Fales
Falin Valentin Mixayloviç
Fergüson Adam
Fevr Lüsien
Feyqriv Ceyms
Fərabi (əl-Fərabi) Əbu Nəsr
Fornari Franko
Forrester Cey
Frans I
Fridman Milton
Fridrix Vilhelm III
Fukidid
Fuko Mişel
Fukuyama Frensis
Fulbrayt Vilyam Ceyms

Göyalp Ziya

Haas Ernst
Haas Riçard
Habermas Yürgen

Haksli Oldos Leonard
Hantinqton Samuel
Hartşorn Riçard
Harun ər-Rəşid
Harvi Devid
Haushofer Albrext
Haushofer Karl
Haushofer Marta
Haydegger Martin
Hayek Fridrix Avqust fon
Hegel Georq Vilhelm Fridrix
Hekkel Ernst Henrix
Helmolt Hans F.
Henon Rene
Henş Feliks
Heraklit
Herder İohann Qotfrid
Herodot
Hess Rudolf
Hesse Herman
Hettner Alfred
Hey Con Milton
Heyk
Heyne Henrix
Hidalqo, Hidalqo-i-Kostilya Migel
Hippokrat
Hitler (Şiklqruber) Adolf
Hobbs Tomas
Holsti Kalevi
Horatsi
Hotmann Jan
Humboldt Aleksandr
Hüqo Viktor Mari
Hülaku xan
Hüseyn Səddam Əbdülməcid ət-Tikriti
Hyum Devid

Xomeyni Ruhulla Musəvi
Xorenatsi Movses
Xunəci Əfzələddin

İbn Bəcca
İbn Xəldun
İbn Rüşd
İbn Saud
İbn Sina
İbn Tüfeyl
İbn Yunis
İbrahim I Şirvanşah
İbrahimxəlil xan
İeremiya
İeva
İlhan Atilla
İlhan Suat
İliya (İlyas peyğəmbər)
İmmanuel Arciri
İppolit Ten
İsayya

Jak K.
Jirinovski Vladimir Volfoviç

Kant İmmanuil
Kaplan Morton
Karaççolo Luço
Karaqanov Sergey Aleksandroviç
Karl I
Karl II
Karl XII
Karr Edvard Hallett
Karsavin Lev Platonoviç

Karter Ceyms (Cimmi) Erl
Kautilya Arthaşastra
Kennan Con Frost
Kerzon Corc Nataniel
Kestler Artur
Keyns Con Meynard
Kiffer Con E.
Kim İr Sen
Kim Yusin
Kirk Vilyam
Kir II, Böyük Kir
Kissincer Henri Alfred
Klark R.
Klauzevits Karl Filip Qotlib fon
Klayn R.S.
Koçetov Ernest Georgiyeviç
Kohen Saul Bernard
Koks K.
Kol Helmut Yozef Miheil
Kolber Jan Batist
Kolçak Aleksandr Vasilyeviç
Kolla Alessandra
Kolumb Xristofor
Kondratyev Nikolay Dmitriyeviç
Konfusi (Kun-tszı)
Konoye Fumimaro
Kont Ogüst
Kooheyn Robert
Korani Bahqat
Korinman Mişel
Kornell Svante
Kovalevski Maksim Maksimoviç
Kozırev Andrey Vladimiroviç
Kristina (kraliça)
Kromvel Oliver
Kuto-Beqari Erve
Kvanqetxo
Kvaşnin-Samarin Yevdokim Nikolayeviç

Qallua Pyer-Mari
Qaltunq Yohan
Qandi Mahatma
Qeddis Con Lüis
Qəzali (əl-Qəzali) Əbu Hamid
Qiddens Entoni
Qoquan U.
Qolitsın Qriqori Sergeyeviç
Qoll Şarl dö
Qolovin Vasili Mixayloviç
Qonidek Pyer-Fransua
Qorbaçov Mixail Sergeyeviç
Qreyko Cozef
Qrey Kolin
Qrotsi Hüqo
Qumilyov Lev Nikolayeviç
Qumilyov Nikolay Stepanoviç
Qvişiani Cermen Mixayloviç

Lenin Vladimir İliç
Lakost İv
Lao-tszı (Li-Er)
Laqard Paul Anton dö
Lamprext Karl
Larrabi Stiven
Latimor O.
Laval Pyer
Leontyev Konstantin Nikolayeviç
Leontyev Vasili Vasilyeviç
Lessinq Qothold Efraim
Leybovits R.
Li Homer
Li Sın Man
Li Son Qe
List Fridrix
Lobov Vladimir Nikolayeviç
Loc Henri
Lohauzen Yordis fon
Lokk Con
Losev Aleksey Fyodoroviç
Lüdendorf Erix
Lüdovik XIII
Lüdovik XVIII
Lyovental R.
Lyuttvak E.

Madzini Cüzeppe
Makedoniyalı İsgəndər
Makiavelli Nikkolo di Bernardo
Makinder Helford Corc
Mak-Klellan Corc
Maklyuen Marşall Herbert
Maknamara R.
Maltus Tomas Robert
Manli Torkvat
Mao Tszedun
Marks Karl
Marşall Corc Ketlett
Maull Otto
Mazarini Culio
Meçnikov Lev İliç
Medlovits S.
Medous Dennis L.
Medvedev Vadim Andreyeviç
Medvedev Dmitri Anatolyeviç
Mehdiyev Ramiz
Mehen Alfred
Men-tszı
Meranda Fransisko
Merl Marsel
Mesaroviç Mixaylo
Mets Fridrix
Meyniq Donald
Məhəmməd Peyğəmbər
Mədətov Valerian Qriqoryeviç
Miçurin İvan Vladimiroviç
Milyutin Dmitri
Mitrani Devid
Mitrofanov Aleksey Valentinoviç
Mitteran Fransua
Molotov Vyaçeslav Mixayloviç
Moltke Helmut İohan
Monro Ceyms
Monteskyö Şarl Lui
Mori Yoşiro
Morqan Lüis Henri
Morqentau Hans
Moro-Defarj Filip
Mours Devid
Munduk
Murelli Mauritsio
Muryol
Mussolini Benito
Mutsuxito
Mutti Klaudio
Müller Artur van den Bruk
Müşərrəf Pərviz

Napoleon I (Napoleon Bonapart)
Nartov Nikolay Aleksandroviç
Naser Camal Əbdül
Naumann Fridrix
Nay Cozef
Nazarbayev Nursultan Abişeviç
Nehru Cəvahirlal

Neklessa Aleksandr
Nibur Reynhold
Nikiş Ernst
Nikolay I (Nikolay Pavloviç Romanov)
Nikson Riçard Milhaus
Nitsşe Fridrix
Nitşmann Bernard Q.
Nurşa Askar

Obama Barak Hüseyn
Olbrayt Madlen Korbel
Olni Riçard
O'Loklin Con
Orteqa-i-Qasset Xose
Oruell Corc

Pak Çonxi
Palmerston Henri Con Templ
Panarin Aleksandr Sergeyeviç
Papa II İohann Pavel
Parç Yozef
Pareto Vilfredo
Parker Ceffri
Parsons Tolkott
Parvulesko Jan
Paund Ezra Lumis
Pavel I
Perikl
Perri Metyu Kelbreyt
Pestel Eduard
Peten Anri Filipp
Peters Karl
Pəhləvi Məhəmməd Rza
Pənahəli xan Cavanşir
Pifaqor, Samoslu Pifaqor
Platon
Pleşakov Konstantin Viktoroviç
Plutarx
Polibi
Pompey Qney, Böyük
Popper Karl Raymund
Pozdnyakov Elgiz Abduloviç
Primakov Yevgeni Maksimoviç
Prust Marsel
Ptolemey
Putin Vladimir Vladimiroviç
Putyatin Yevfimi Vasilyeviç
Pyotr I, Böyük Pyotr

Ratsel Fridrix
Rayt Kuinsi
Reklü Elize
Rellinq B.
Reriq Frits
Reyqan Ronald Uilson
Ribbentrop Yoahim fon
Rilke Rayner Mariya
Ritter Karl
Rokfeller Devid
Rostou Uolt Uitmen
Rotşild Edmon
Rouds Sesil Con
Rozenau C.
Rubens Piter Paul
Rudolf II
Russo Jan Jak
Ruzvelt Teodor
Ruzvelt Franklin Delano
Rüdiger Hans
Ryukkert Henrix

Samuel A.
San Martin Joze dö
Santoro Karlo
Sarkisyan Serj
Sarkozi Nikola
Savitski Pyotr Nikolayeviç
Savona Paolo
Semyonov-Tyanşanski Venyamin Petroviç
Sen-Pyer Bernardin dö
Sen-Simon Klod-Anri dö Ruvrua
Singer Devid
Sinqh Manmohan
Siseron Mark Tulli
Sisianov Pavel Dmitriyeviç
Smit Adam
Smuts Mari-Klaude
Sohn L.B.
Sokolovski Vasili Daniloviç
Sokrat
Solovyov Sergey Mixayloviç
Sorokin Konstantin Eduardoviç
Sorokin Pitirim Aleksandroviç
Spaykmen Nikolas Con
Spenser Herbert
Spens Maykl
Spinoza Benedikt
Stalin (Cuqaşvili) İosif Vissarionoviç
Strabon
Straus-Hyupe R.
Stendal (Anri Mari Beyl)
Stoykers Rober
Straus Ayr
Stefanson V.
Struve Pyotr Bernqardoviç
Suizi Pol
Sultan-Qaliyev Mirsəid Heydərqaliyeviç
Sun-Tszı (Sunu)
Suvçinski Pyotr Pyotroviç
Suver Akkan Mehmet
Syaopin Den

Şatobrian Fransua Rene
Şaumyan Stepan Geogiyeviç
Şellinq Fridrix Vilhelm Yozef
Şevardnadze Eduard Amvrosiyeviç
Şirak Jak Rene
Şirvanşah I İbrahim
Şmitt Karl
Şomon Şarl
Şpenqler Osvald
Şuman Frederik
Şvarsenberger Corc

Terraçano Karlo
Tetçer Marqaret Hilda
Teylor M.
Teylor Peter Ceyms
Teymur, Əmir Teymur
Tiriar Jan
Tirpits Alfred
Tit Livi
Toxtamış xan
Tompson Kennet
Toynbi Arnold Cozef
Tönnis Ferdinand
Trubetskoy Nikolay Sergeyeviç
Trumen Harri
Tusi Nəsirəddin

Türkkan Reha Oğuz

Uaydqert H.
Uilyamson C.
Untsinger J.
Uolfers Arnold
Uolts Kennet
Urməvi Siracəddin
Ustryalov Nikolay Vasilyeviç
Uzunyan Andronik (tayqulaq)

Vacpai Atal Bahari
Vaqner Moris Fridrix
Vaqner Vilhelm Rixard
Vallerstayn İmmanuel
Van Qon
Vattel Emerik dö
Veber Maks
Vernadski Vladimir İvanoviç
Vernadski Georgi Vladimiroviç
Verner V.
Veygel Corc
Veyrinen Raim
Veysman Xaim
Vilhelm I
Vilhelm II
Vilhelm Oranlı
Vilson, (Uilson) Tomas Vudro
Vittoria Fransisko dö
Vladimirov Aleksandr İvanoviç
Volfers Arnold
Volfovits Pol
Volter Fransua Mari Arue
Voronsov-Daşkov İllarion İvanoviç
Vozjenikov A.

Yakobsen Hans-Adolf
Yakovlev Aleksandr Nikolayeviç
Yaspers Karl
Yekaterina II
Yeltsin Boris Nikolayeviç
Yermolov Aleksey Petroviç
Yuli Sezar Qay
Yunger Ernst
Yunger Fridrix Georq
Yunq Karl

Zeybək Namik Kamal
Zərdüşt
Ziqfrid Andre
Zombart Verner
Zorqbib Şarl

Ədəbi və mifoloji personajlar

Adəm
Buzirus
Cəbrayıl
Faust
Hefest
Həvva
Kentavr
Leviafan
Meduza
Pandora
Persey
Prometey
Sizif
Tanqun
Vişnu
Yəhva
Zevs

SUMMARY

Novruz Mammadov's "Introduction into Geopolitics" presents a systematic analysis of geopolitics by describing its contents, methods, objectives, obligations, and giving a comprehensive outlining of its basic definitions, categories and trends, and a general overview in the development of this field of science. The author offers thorough insight into the main ideas, models and suggestions of geopolitics by also citing the achievements of world renowned political scientists. Finally, the book contains separate descriptions of the life and activities of philosophers and thinkers as well as the issues related to the specific philosophical and social-public ideas of the Eastern peoples that created the most ancient samples of the geopolitical studies.

The origin of these ideas is taken from examples both in international relations and in the political life of many countries around the world. The book focuses on the latest developments which have occurred on the global-political map in recent years. New geopolitical trends are highlighted in the book. It retraces globalization in the world economy, the geo-economic interests of states and the political forum at global level. The rights of sovereign nations are also kept in focus. In his research, the author is particularly attentive to information about geopolitics, the problems and contradictions in the information war, new possibilities created in the geopolitical sphere by information and the current realities of information war.

At the same time, the author gives his thoughts on the most important geopolitical ideas which both constitute the basis of international relations and of national security. Particular attention is paid to new terminology which describes both economic globalization and regionalization processes of the neo-liberal international relations. The book gives one of the first analysis of ideas and definitions of the contemporary geopolitics based on the traditional geopolitics (military might), geo-economy (economic power) and the civilization approach. Finally specific facets of these are ideas which are universally accepted by the West in the post-Soviet territory are also taken into account.

The book is intended for political and business elite, civil servants, teachers, scholars, the University students studying Public Management, Political Science, Regional Studies, International Relations, International Economic Relations, Global Economy, Global Business and International Law and the wider public.

İSTİFADƏ OLUNMUŞ VƏ TÖVSİYƏ EDİLƏN ƏDƏBİYYAT

Azərbaycan dilində

1. *Heydər Əliyev.* Azərbaycan nefti dünya siyasətində. I-V kitablar. Bakı, 1997-1998.
2. *Heydər Əliyev.* Minilliklərin qovuşuğunda. Bakı, 2001.
3. *Heydər Əliyev.* Müstəqillik yollarında. I-IV kitablar. Bakı, 1997.
4. *Heydər Əliyev.* Müstəqillik yolu: seçilmiş fikirlər. Bakı, 1997.
5. *Heydər Əliyev.* Müstəqilliyimiz əbədidir. I-XXXIV kitablar. Bakı, 1997-2011.
6. *Heydər Əliyev* Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994.
7. *Heydər Əliyevin* neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə. 2 cilddə. Bakı, 2001.
8. *Heydər Əliyev* və Şərq. 6 cilddə. Bakı, 2005.
9. *Heydər Əliyevin* yeni neft strategiyası. Bakı, 2002.
10. *İlham Əliyev.* İnkişaf məqsədimizdir. I-V kitablar. Bakı, 2008-2010.
11. *Prezident İlham Əliyev:* yüksək səviyyədə görüşlər: 2003-2008-ci illər. 3 cilddə. Bakı, 2008.
12. *Azərbaycan* beynəlxalq aləmdə. 5 cilddə. Bakı, 1996-1999.
13. *Azərbaycan* beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrdə. Bakı, 1997.
14. *Azərbaycan* Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. Bakı, 2004-2005.
15. *Azərbaycan* Milli Ensiklopediyası: 25 cilddə. Azərbaycan / A.A. Abbasov; red. heyəti: İ.Əliyev; red. M.K. Kərimov. Bakı, 2007.
16. *Azərbaycan-NATO:* tərəfdaşlıqdan başlanan yol: 1994-2009 / Heydər Əliyev İrsini Araşdırma Mərkəzi. Bakı, 2009.
17. *Azərbaycan* Respublikası 1991-2001 / red. R.Ə. Mehdiyev. Bakı, 2001.
18. *Azərbaycan* tarixi. 7 cilddə. Bakı, 2007-2008.
19. *Azərbaycan* tarixi üzrə qaynaqlar. Bakı, 1989.
20. *Aristotel.* Böyük etika. Bakı, 2006.
21. *Aristotel.* Politika. Bakı, 1997.

22. *Babaoğlu H.* Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı, 2009.
23. *Baxışov M.* Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2007.
24. *Bakı-Brüssel:* Azərbaycan-Avropa İttifaqı münasibətləri / Heydər Əliyev İrsini Araşdırma Mərkəzi. Bakı, 2011.
25. *Bakı-Tbilisi-Ceyhan* neft kəmərinin beynəlxalq və regional əhəmiyyəti. Beynəlxalq konfrans: tezislər. Bakı, 6-7 iyun 2002 / Azərbaycan Respublikası Yanacaq və Enerji Nazirliyi; Qafqaz Universiteti; Azərbaycan Dövlət Neft Akademiyası; Azərbaycan Respublikası Dövlət Neft Şirkəti. Bakı, 2002.
26. *Brayar F., Cəlili M.-R.* Beynəlxalq münasibətlər. Bakı, 2010.
27. *Budaqov B., Qeybullayev Q.* Naxçıvan diyarının yer yaddaşı. Bakı, 2004.
28. *Bünyadzadə K.* İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı, 2010.
29. *Cəfərov N.* Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə. Bakı, 2004.
30. *Cəfərov N.* Azərbaycanşünaslığın əsasları. Bakı, 2005.
31. *Cəfərov T.* Avrasiyaçılıq ideyaları müasirlik prizmasında. Bakı, 2010.
32. *Çavçavadze İ.Q.* Erməni alimləri və fəryad edən daşlar. Bakı, 1995.
33. *David K.* Qara Qurd: Çingiz xan. Bakı, 2009.
34. *Darabadi P.* Xəzər bölgəsində geosiyasi rəqabət və Azərbaycan. Bakı, 2001.
35. *Dünya dövlətləri.* Ensiklopedik məlumat kitabı. Bakı, 1999.
36. *Dünya xalqları.* Tarixi-etnoqrafik ensiklopedik məlumat kitabı. Bakı, 1998.
37. *Dürant U.* Fəlsəfi hekayətlər. Bakı, 2006.
38. *Əhmədov E.* Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998.
39. *Əfqani C.* Seçilmiş əsərləri. Bakı, 1998.
40. *Əliyev C.* Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı. Bakı, 2003.
41. *Əliyev F.* İrəvan xanlığı. Bakı, 2007.
42. *Əliyev F.* Naxçıvan xanlığı. Bakı, 2007.
43. *Əliyev Q.* Qafqaz tarixi. I hissə: Ən qədim çağlardan XVIII əsrin sonunadək. Bakı, 2009.

44. *Əliyev K.* Azərbaycan antik dövrdə (e.ə. IV - b.e. III əsrləri). Bakı, 1997.

45. *Əmrahov M.* İkinci dınya müharibəsinin yekunları və dərsləri 1939-1945. Bakı, 2010.

46. *Əmrahov M.* Qarabar xanlığı. Bakı, 2008.

47. *Əsəd Bəy, Məhəmməd.* Ağ Rusiya: Vətənsiz insanlar. Bakı, 2005.

48. *Əsəd Bəy, Məhəmməd.* Altunsaç, Bakı, 2005.

49. *Əsəd Bəy, Məhəmməd.* Son Peyğəmbər. Bakı, 2005.

50. *Əsəd Bəy, Məhəmməd.* Şərqdə neft və qan. Bakı, 2005.

51. *Əsəd Bəy, Məhəmməd, Vaysl, Volfqanq fon.* Allahu Əkbər: islam dünyasının Əbdülhəmiddən İbn Səuda qədər çöküşü və qalxışı. Bakı, 2005.

52. *Əsədov N.* Azərbaycanın Asiya və Avropa ölkələri ilə qarşılıqlı əlaqələri: Qədim dövrdən XIX əsrə qədər. Bakı, 2006.

53. *Fətəliyev M.* Avropa və Amerika ölkələrinin müasir tarixi. 2 hissədə. II hissə: 1945-2002-ci illər. Bakı, 2008.

54. *Göyalp Z.* Türkçülüyün əsasları. Bakı, 1991.

55. *Göyüşov R.* Qarabağın keçmişinə səyahət. Bakı, 1993.

56. *Hacıyeva A.* Beynəlxalq münasibətlər tarixi (1871-1917-ci illər). Bakı, 2008.

57. *Herodot.* Tarix (doqquz kitabda). Bakı, 1998.

58. *Həmidov S.* Avropa ittifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan. Bakı, 2009.

59. *Həsənli C.* Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993.

60. *Həsənli C.* Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı, 1998.

61. *Həsənli C.* SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı. Bakı, 2005.

62. *Həsənov Ə.* Geosiyasət. Bakı, 2010.

63. *Həsənov Ə.* Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.

64. *Hitler A.* Mənim mübarizəm. Bakı, 2004.

65. *Hüseynova H.* Azərbaycan Avropaya inteqrasiya prosesləri sistemində (1991-1997). Bakı, 1998.

66. *Xəlilov S.* Sivilizasiyalararası dialoq. Bakı, 2009.

67. *İbrahimli X.* Yeni Avrasiya Qafqazı. Bakı, 2001.

68. *İrəvan əyalətinin* icmal dəftəri / araşd., tərc., qeyd və əlavə. müəl. *Z.Bunyadov, H.Məmmədov.* Bakı, 1996.

69. *İrəvan xanlığı:* Rusiya işğalı və ermənilərin şimali Azərbaycan torpaqlarına köçürülməsi . Bakı, 2010.

70. *İsmayılov F.* Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı, 2001.

71. *İsmayılov M.* Qarabağın tarixi. Bakı, 1999.

72. *İsmayılov R., Axundova N.* Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-2000-ci illər). 2 hissədə. Bakı, 2003, 2006, 2008.

73. *Qafqaz:* tarix, müasirlik və geosiyasi perspektivlər. Bakı, 1998.

74. *Qarayeva G.* Ərəb ölkələrinin orta əsrlər və yeni dövr tarixi. Bakı, 2009.

75. *Qasımlı M.* Avropa və Amerika ölkələrinin müasir tarixi. 2 hissədə. Bakı, 2003, 2008.

76. *Qasımlı M.* Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı, 1996.

77. *Qasımlı M.* Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, 1993.

78. *Qasımlı M.* Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. Bakı, 2000, 2001, 2004.

79. *Qasımlı M.* Heydər Əliyev - istiqlala gedən yol: 1969-1987-ci illər. Bakı, 2006.

80. *Qasımlı M.* SSRİ-Türkiyə münasibətləri: Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək. 2 cilddə. Bakı, 2007, 2009.

81. *Qeybullayev Q.* Qədim türklər və Ermənistan. Bakı, 1992.

82. *Qədim Şərq* ədəbiyyatı müntəxabatı. Bakı, 2007.

83. *Qədim Yunan* fəlsəfəsi antologiyası. Bakı, 2002.

84. *Qlinka S.N.* Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Bakı, 1995.

85. *Qocatürk N.* İlham Əliyev: İpək Yolu sivilizasiyası və Azərbaycan diplomatiyası. Bakı, 2008.

86. *Qumilyov L.* Etnogenez və yerin biosferi. Bakı, 2005.

87. *Qumilyov L.* Qədim türklər. Bakı, 1993.

88. *Mahmudov Y.* Azərbaycan diplomatiyası. Bakı, 2006.

89. *Mahmudov Y.* Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı, 2005.

90. *Mahmudov Y.* Səyyahlar Azərbaycana gəlir. Bakı, 1977.

91. *Mahmudov Y., Şükürov K.* Qarabağ: real tarix, faktlar, sənədlər. 2005.

92. *Makiavelli N.* Hökmdar. Bakı, 2006.

93. *Maksakovski V.* Dünyanın coğrafi mənzərəsi. 2 cilddə. / I cild: Dünyanın ümumi xüsusiyyətləri. Bakı, 2010.

94. *Mayevski V.* Qafqazda erməni-tatar qırğını erməni məsələsinin mərhələlərindən biri kimi. Bakı, 1995.

95. *Mehdiyev R.* Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005.

96. *Mehdiyev R.* Azərbaycanın inkişaf dialektikası. Bakı, 2000.

97. *Mehdiyev R.* Azərbaycan - 2003-2008: zaman haqqında düşünərkən. Bakı, 2009.

98. *Mehdiyev R.* Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı, 2008.

99. *Mehdiyev R.* Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, 2008.

100. *Mehdiyev R.* Gorus - 2010: Absurd teatrı mövsümü. Bakı, 2010.

101. *Mehdiyev R.* XXI əsrdə milli dövlətçilik. Bakı, 2003.

102. *Mehdiyev R.* Modernləşmə xətti yenə də gündəlikdədir. Bakı, 2008.

103. *Məmmədov C., Axundov N.* Dünya dövlətlərinin əsas coğrafi, siyasi və iqtisadi göstəriciləri. 3 cilddə. Bakı, 2000, 2001, 2003.

104. *Məmmədov C.* Geosiyasət. Bakı, 2005.

105. *Məmmədov K.* Birinci dünya müharibəsindən sonra Antanta-Osmanlı münasibətləri. Bakı, 2008.

106. *Məmmədov N.* Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri haqqında // Azerbaijan Focus. Journal of International Affaris. 2010, № 2.

107. *Məmmədov Z.* Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 2006.

108. *Məmmədova F.* Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993.

109. *Məmmədyarov E.* Azərbaycanın xarici siyasəti: təsir edən amillər və prioritetlər // Diplomatiya aləmi, 2009, № 23.

110. *Mirabdullayev A.* Rusiyanın postsovet məkanında geostrategiyası. Bakı, 2008.

111. *Moro-Defarj F.* Geopolitikaya giriş. Bakı, 2010.

112. *Musabəyov R.* Cəmiyyət və dövlət. Bakı, 2000.

113. *Mustafazadə T.* Qarabağ xanlığı. Bakı, 2009.

114. *Mustafazadə T.* Ümumi tarix. I kitab: Ən qədim zamanlardan XVIII əsrin sonunadək. Bakı, 2009.

115. *Nəcəf Ə.* Səlcuqlu dövlətləri və Atabəyləri tarixi: Oğuzların ortaya çıxmasından-XIV əsrə qədər. Bakı, 2010.

116. *Nəsibli N.* Azərbaycan Demokratik Respublikasının xarici siyasəti. Bakı, 2011.

117. *Nəsibli N.* Azərbaycan geopolotikası və neft. Bakı, 2000.

118. *Nəsirov E.* ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı. 2003.

119. *Nəsirov E.* Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999). Bakı, 1999.

120. *Ögəl B.* Böyük Hun imperiyası. 2 cilddə. Bakı, 1992.

121. *Paşayev H.* Bir səfirin manifesti. Bakı, 2007.

122. *Paşayev H.* Yüksəkliyə doğru. Bakı, 2008.

123. *Piriyev V.* Azərbaycangn tarixi-siyasi coğrafiyası. Bakı, 2006.

124. *Platon.* Dövlət. Bakı, 1999.

125. *Protopopov A.* Beynəlxalq münasibətlər və Rusiyanın xarici siyasəti tarixi, 1648-2005. Bakı, 2009.

126. *Ruintən K.* Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı, 2008.

127. *Rüstəmov Y.* Siyasi-hüquqi təlimlər tarixi. Bakı, 2000.

128. *Rzayev A.* Nəsrəddin Tusi: həyatı, elmi, dünyagörüşü. Bakı, 1996.

129. *Rzayev O.* Heydər Əliyev və Azərbaycan Respublikasının qloballaşma dövründə inteqrasiya və inkişaf siyasəti. Bakı, 2009.

130. *Süleymanov M.* Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı, 2008.

131. *Svyatoxovski T.* Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı, 2000.

132. *Topçubaşov Ə.* Paris məktubları: Azərbaycan Xalq Cümhuriyyəti sülh nümayəndə heyəti sədrinin Azərbaycan hökumətinə məlumatları: mart 1919 - noyabr 1919. Bakı, 1998.

133. *Tusi N.* Əxlaqi-nasiri. Bakı, 1980.

134. *Uimz S.* Ermənistan: terrorçu "xristian" ölkənin gizlinləri. Bakı, 2004.

135. *Vəliyev T.* Ümumdünya tarixi. 2 hissədə. Bakı, 2003, 2004.

136. *Yan V.* Çingiz xan. Bakı, 2006.

137. *Yaspers K.* Tarixin mənası və təyinatı. Bakı, 2008.

138. *Yergin D.* Neft fəlsəfəsi. I cild. Bakı, 2006.
139. *Yusifov Y.* Qədim Şərq tarixi. Bakı, 2007.

Türk dilində

140. *Abdullah Gündoğdu.* Türk Jeopolitiği. İstanbul, 2009.
141. *Agah Oktay Güner.* Türkiye'nin Jeopolitiği ve Ermeni Propagandası. Ankara, 2001.
142. *Ahmet Arslan.* İbni Haldun. İstanbul, 2009.
143. *Ahmet Davutoğlu.* Küresel Bunalım. İstanbul, 2002.
144. *Ahmet Davutoğlu.* Stratejik Derinlik: Türkiye'nin Uluslararası Konumu. İstanbul, 2001.
145. *Ahmed Raşid.* Taliban: İslamiyet, Petrol ve Orta Asya'da Yeni Büyük Oyun. İstanbul, 2007.
146. *Ahmet Sapaz.* Rusya'nın Transkafkasya Politikası ve Türkiye'ye Etkileri. İstanbul, 2008.
147. *Albert Hourani.* Arap Halkları Tarihi. İstanbul, 2009.
148. *Albert Hourani.* Avrupa ve Orta Doğu. İstanbul, 2001.
149. *Albrecht Noth.* Müslümanlıkta ve Hıristiyanlıkta Kutsal Savaş ve Mücadele. İstanbul, 1999.
150. *Alexandre Defay.* Jeopolitik. İstanbul, 2006.
151. *Ali Külebi.* Alüst Olan Stratejik Öngörüler ve Türkiye. Ankara, 2007.
152. *Ali Külebi.* Askeri Doktrinler ve Stratejik Yaklaşımlar. Ankara, 2010.
153. *Ali Külebi.* Türkçe Jeopolitik: Türk Jeopolitiğinde Sorunlar, Olgular, Kavramlar, Stratejik Yaklaşımlar ve Tehdit Değerlendirmeleri. Ankara, 2010.
154. *Ali Külebi.* Türkiye'nin Enerji Sorunları ve Nükleer Gereklilik. Ankara, 2007.
155. *Ali Külebi.* Yeni Dünya Stratejileri ve Kilit Ülke Türkiye. Ankara, 2005.
156. *Andrew Baruch Wachtel.* Dünya Tarihinde Balkanlar. İstanbul, 2009.
157. *Barış Adıbelli.* Büyük Avrasya Projesi ABD, Rusya ve Çin'in Varolma Mücadelesi. İstanbul, 2006.
158. *Barış Adıbelli.* İstanbul, 2007.

159. *Barış Adıbelli.* Jeopolitik Ödül Avrasya. İstanbul, 2009.
160. *Baskın Oran.* Türk Dış Politikası-Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar. 2 Cilt, İstanbul, 2001.
161. *Batı'da Jeopolitik* Düşünce. Ankara, 2009.
162. *Celalettin Yavuz.* Avrasiya'da Türk Jeopolitiği (Türklere Açılan Geniş Ufuklar). Ankara, 2009.
163. *Celal Cem Oğuz.* Türkiye-Azerbaycan İlişkileri ve Ermenistan Faktörü. 2010.
164. *Cemalettin Şahin, Hayati Doranay.* Türkiye Coğrafyası (Fiziki, Beşeri, Ekonomik, Jeopolitik). Ankara, 1999.
165. *Colin S. Gray.* Jeopolitik, Strateji ve Coğrafya. Ankara, 2003.
166. *Çağrı Erhan, Mustafa Aydın.* Beş Deniz Havzasında Türkiye. Ankara, 2006.
167. *Çağrı Erhan.* Türk Dış Politikası'nın Güncel Sorunları. Ankara, 2010.
168. *Çağrı Erhan.* Türk-Amerikan İlişkilerinin Tarihsel Kökenleri. Ankara, 2001.
169. *Doris Naisbitt, John Naisbitt.* Çin'in Megatrendleri / Yeni Bir Toplumun Sekiz Dayanağı. İstanbul, 2011.
170. *Erkan Karagüz.* Güneybatı Kafkasya Siyasal ve Sosyal Mücadeleler Tarihi. İstanbul, 2011.
171. *Eyyub Kandemir.* Karadeniz'in Değişen Jeopolitiği. İstanbul, 2008.
172. *Fahir Armaoğlu.* 19. Yüzyıl Siyasi Tarihi (1789-1914). İstanbul, 2010.
173. *Fahir Armaoğlu.* 20. Yüzyıl Siyasi Tarihi (1914-1995). İstanbul, 2010.
174. *Fatih Akgül.* Rusya ve Türkiye'de Avrasyacılık. İstanbul, 2009.
175. *Feridun Ergin.* Uluslararası Politika Stratejileri. İstanbul, 2008.
176. *Graham E. Fuller.* İslamsız Dünya. İstanbul, 2010.
177. *Hasan Yıldız.* Jeopolitik Yapılar Açısından AB; Türkiye ve Kürtler. İstanbul, 2005.
178. *Hasret Çomak.* 21 Yüzyılda Çağdaş Türk Dış Politikası ve Diplomasisi. Ankara, 2010.
179. *Həmzə Eroğlu.* Türk inkilab tarihi. Ankara, 1990.
180. *İbrahim Okzuorlu.* Emperyalist Küreselleşme ve Jeopolitika. İstanbul, 2009.

181. *İbrahim S.Canbolat.* Alman Dış Politikası Değişen Dünyada Ulusal Çıkar, Ulusal Birlik ve Kamuoyu Tercihi Açısından Bir İnceleme. İstanbul, 1999.

182. *İbrahim S.Canbolat.* Avrupa Birliği Uluslarüstü Bir sistemin Tarihsel, Teorik, Kurumsal, Jeopolitik Analizi Ve Genişleme Sürecinde Türkiye ile İlişkiler. İstanbul, 2002.

183. *İbrahim S.Canbolat.* Uluslararası Politikada Üçüncü Dünya. Bursa, 1995.

184. *İlber Ortaylı.* Türkiye'nin Yakın Tarihi. İstanbul, 2010.

185. *John Morris Roberts.* Dünya Tarihi 1. Cilt. Tarihöncesi Çağlardan 18. Yüzyıla. İstanbul, 2011.

186. *John Morris Roberts.* Dünya Tarihi 2. Cilt. 18. yüzyıl ve sonrası. İstanbul, 2011.

187. *Jean-Paul Roux.* Türklerin Tarihi Pasifik'ten Akdeniz'e 2000 Yıl. İstanbul, 2007.

188. *Kemal Çiftçi.* Tarih, Kimlik ve Eleştirel Kuram Bağlamında Türk Dış Politikası. Ankara, 2010.

189. *Kenan Arıbaş.* Küresel Çağda Siyasi Coğrafya. Konya, 2007.

190. *Korkmaz Tarma.* Siyasi Güç ve Yönetimin Yeniden Yapılandırılması (Türkiye İçin Önerilen Model). İstanbul, 2003.

191. *Korkmaz Tarma.* Yeniden Yapılanmada Siyasi Sistemler, Yünetim Modelleri ve Türkiye. İstanbul, 2002.

192. *Korkmaz Tarma.* Yeniden Yapılanma Kuralları: Jeopolitik, İstihbarat ve Strateji (JİS) İlim, Kural ve Becerisi. İstanbul, 2001.

193. *Lokman Çilingir.* Farabi ve İbn Haldun'da Siyaset. Ankara, 2009.

194. *Lütfü Özşahin.* Kaosun Jeopolitiği ve Dinler Arası Diyalog. İstanbul, 2005.

195. *Mahir Kaynak, Emin Gürses.* Geleceğin Türkiyesi (Yeni Osmanlılar). İstanbul, 2011.

196. *Mahir Kaynak, Emin Gürses.* Yeni Ortadoğu Haritası. İstanbul, 2008.

197. *Marisol Touraine.* Altüst Olan Dünya. 21 Yüzyılın Jeopolitiği. Adana, 1997.

198. *Mehmet Açа.* Avrasiyaçı Yaklaşımın Türkiye Çeşitlenmeleri ve Türk dünyasının Geleceği. Bağımsızlıklarının Onuncu Yılında Türk Cumhuriyetleri. İstanbul, 2002.

199. *Mehmet Saray.* Ermenistan ve Türk Ermeni İlişkileri. İstanbul, 2003.

200. *Mehmet Saray.* Yeni Türk Cumhuriyetleri Tarihi. Ankara, 1996.

201. *Mehmet Seyfettin Erol.* Yeni Büyük Oyun: Küresel Güç Mücadelesinde Avrasyanın Değişen Jeopolitiği. Ankara, 2009.

202. *Mustafa Aydın.* İslam'ın Tarih Sosyolojisi İlk Dünem İslam Toplumunun Şekillenişi. İstanbul, 2001.

203. *Mustafa Aydın.* Kafkaslar. İstanbul, 2005.

204. *Mustafa Aydın.* Onların Savaşı Brzezinski... Kissinger... Huntington. İstanbul, 2007.

205. *Mustafa Aydın.* Siyasetin Sosyolojisi. İstanbul, 2002.

206. *Mustafa Bıyıklı.* Türk Dış Politikası Cumhuriyet Dönemi (2 Cilt). İstanbul, 2008.

207. Mustafa Peköz. Küresel Güçlerin Ortadoğu Stratejisi. İstanbul, 2007.

208. *Mustafa Selver.* Balkanlara Stratejik Yaklaşım Ve Bosna. İstanbul, 2003.

209. *Necati Gültepe.* Turancılık Tarihinin Kaynakları. İstanbul, 1999.

210. *Nejat Eslen.* Tarih Boyu Savaş ve Strateji. İstanbul, 2009.

211. *Oral Sander.* Siyasi Tarih İlkçağlardan 1918'e. Ankara, 2010.

212. *Oral Sander.* Siyasi Tarih (1918-1994). Ankara, 2010.

213. *Oral Sander.* Türkiye'nin Dış Politikası. Ankara, 2010.

214. *Orhan İyiler.* Körfezin Kutsal Adakları. İstanbul, 1991.

215. *Ömer Budak.* Türkiye'nin Dünya Ülkeleri Açısından Jeopolitik Önemi ve Avrasya'daki Yeri. Ankara, 2006.

216. *Örgün Andaz Ururlu.* Çevresel Güvenlik ve Türkiye'de Enerji Politikaları. İstanbul, 2009.

217. *Özcan Yeniçeri.* Bugünden Yarına Türk Dünyasına Stratejik Bakış. İstanbul, 2008.

218. *Rafael Muhammetdin.* Türkçülüğün Doğuşu ve Gelişimi. İstanbul, 1998.

219. *Rifat Uçarol.* Siyasi Tarih (1789-2010). İstanbul, 2010.

220. Siyasi İslam ve Panislamizm. Ankara, 1993.

221. *Stefanos Yerasimos.* Milliyetler ve Sınırlar: Balkanlar, Kafkasya ve Orta-Doğu. İstanbul, 2000.

222. *Suat İlhan.* Jeopolitik Duyarlılık. İstanbul, 2003.

223. *Suat İlhan.* Türkiye'nin Jeopolitik Konumu Ve Türk Dünyası. Ankara, 1999.

224. *Suat İlhan.* Türklerin Jeopolitiği ve Avrasyacılık. İstanbul, 2005.

225. *Sun Tzu.* Savaş Sanatı. İstanbul, 2009.

226. *Tolga Barış Kılıçkap.* Hindistan / Bölgesel Güçten Küresel Güce. İstanbul, 2007.

227. *Ufuk Tepebaş.* Büyük Güçler ve Afrika 21. Yüzyılda Çok Boyutlu Afrika Rekabeti. İstanbul, 2010.

228. *Ümit Hassan.* İbn Haldun Metodu ve Siyaset Teorisi. Ankara, 2010.

229. *Ümit Özdağ, Yaşar Kalafat, M.Seyfettin Erol.* 21 Yüzyılda Türk Dünyası Jeopolitiği (2 Cilt). Ankara, 2003.

230. *Ünal Gündoğan.* İran ve Ortadoğu. Ankara, 2010.

231. *Vassilis K. Fouskas.* Balkanlar Ortadoğu Kafkasya: Soğuk Savaş Sonrası ABD Politikaları. İstanbul, 2004.

232. *Yaşar Onay.* Batı'ya Direnen Devlet Rusya. Rus Devlet Geleneği ve Kutsal Devletin Meşruiyeti. İstanbul, 2008.

233. *Yalçın Sarıkaya.* Tarihi ve Jeopolitik Boyutlarıyla İran'da Milliyetçilik. İstanbul, 2008.

234. *Yeni Dünya* düzeni ve Türkiye. İstanbul, 1994.

235. *Yeni Dönemde* Türk Diş Politikası: Uluslararası IV. Türk dış politikası sempozyumu tebliğleri. Ankara: USAK Yayınları, 2010.

236. *Yılmaz Tezkan.* Jeopolitik Yazılar. İstanbul, 2007.

237. *Yılmaz Tezkan.* Jeopolitikten Milli Güvenliğe. İstanbul, 2005.

238. *Yılmaz Tezkan, Murat Taşar.* Dünden Bugüne Jeopolitik. İstanbul, 2002.

239. *Zeki Ali.* İslamiyyet ve Bati Dünyası. İstanbul, 1964.

İngilis dilində

240. *Agnew J.* Geopolitics: Re-Visioning World Politics. L., N.Y., 1998.

241. *Agnew J., Cobridge S.* Mastering Space. Hegemony, Territory and International political Economy. L., N.Y., 1995.

242. *Alperovitz G.* Atomic Diplomacy: Hirosimaand Potsdam. The Use Atomic Bomb and the Amerian Confrontation with Soviet Power. N.Y., 1965.

243. *Altstadt A.L.* The Azerbaijani Turks: Power and Identity Under Russian Rule. Hoover Institution Press: Stanford, 1992.

244. *Amirahmadi H.* The Caspian Region at a Crossroad: Challenges of a New Frontier of Energy and Development. N.Y., 2000.

245. *Anderson E.W.* The Middle East: Geography and Geopolitics. London, Routledge, 2002.

246. *Azerbaijan* In Global Politics Crafting Foreign Policy. Baku, 2009.

247. *Bal I., Özcan M., Laciner S.* European Union with Turkey. The possible impact of Turkey's membership on the European Union. Ankara, 2005.

248. *Banuazizi A., Weiner M.* The New Geopolitics of Central Asia and its Borderlands. Indiana, 1994.

249. *Baran Z.* The Other Muslims: Moderate and Secular. N.Y., 2010.

250. *Baran Z.* Torn Country: Turkey Between Secularism and Islamism. Stanford, 2010.

251. Bassin M. Friedrich Ratzel's Travels in the United States: a Study in the Genesis of his Anthropogeography // History of Geography Newsletter, vol.4, 1984.

252. *Bendersky J.W.* Carl Schmitt. Theorist for the Reich. N.Y., 1983.

253. *Bergman E.F.* Modern Political Geography. Dubuque, 1975.

254. *Berry B. J. L, Cohen S. V., Minghi J.* National Research Council Ad hoc Committee on Geography. Studies. Washington, 1965.

255. *Bertsch G.* Crossroads and Conflict: Security and Foreign Policy in the Caucasus and Central Asia. N.Y., 2000.

256. *Biijde H.* Systematic Political Geography. N.Y., 1973, second edition 1996.

257. *Blouet B.W.* Geopolitics and Globalization in the Twentieth Century. Chicago, 2004.

258. *Blouet B.W.* Global Geostrategy, Mackinder and the Defence of the West. Londres, 2005.

259. *Blouet B.W.* Sir Halford Mackinder as British high commissioner to South Russia 1919-1920 // Geographical Journal, 1976, №142.

260. *Blum R.M.* Drawing the Line: the Origin of the American Containment Policy in East Asia. N.Y., 1982.

261. *Bowmen I.* The New World: Problems in Political Geography. London, 1922.

262. *Brzezinski Z.* America and the World: Conversations on the Future of American Foreign Policy. N.Y., 2008.

263. *Brzezinski Z.* Game Plan: A Geostrategic Framework for the Conduct of the U.S.-Soviet Contest. Boston, 1986.

264. *Brzezinski Z.* Grand Failure: The Birth and Death of Communism in the Twentieth Century. N. Y., 1989.

265. *Brzezinski Z.* Out of Control: Global Turmoil on the Eve of the 21st Century. N.Y., 1993.

266. *Brzezinski Z.* Second Chance: Three Presidents and the Crisis of American Superpower. N.Y., 2007.

267. *Brzezinski Z.* The Choice: Global Domination or Global Leadership. N.Y., 2004.

268. *Brzezinski Z.* The Geostrategic Triad: Living with China, Europe, and Russia. Washington, 2000.

269. *Brzezinski Z.* The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

270. *Bull H.* The Case for a Classical Approach // World Politics. Vol. XVIII, 1966.

271. *Channon J., Hudson R.* The Penguin Historical Atlas of Russia. N.Y., 1995.

272. *Chung C-P.* Domestic politics, international bargaining and China's territorial disputes. N.Y., 2004.

273. *Clark G., Sohn L.B.* World Peace trough World Law. Cambridge, 1960.

274. *Cohen S.B.* Geography and Politics in a Divided World. N.Y., 1963.

275. *Cohen S.B.* Geopolitics in the New World Era: A New Perspective on an Old Discipline // Reordering the World. Geopolitical Perspectives on the Twenty-first Century. Ed. by J. Demko & W. Wood. Oxford, 1994.

276. *Cohen S.B., Rosenthal S.D.* A geographical model for political systems analysis // Geographical Review. 1971. Vol. 61. № I.

277. *Cohen S.B.* Geopolitics: The Geography of International Relations. Lanham, 2009.

278. *Cornell S.E.* Azerbaijan Since Independence. N.Y., 2010.

279. *Cornell S.E.* Small Nations and Great Powers. A Study of Ethnopolitical Conflict in the Caucasus // Curzon Press, 2001.

280. *Cornell S.E.* The New Eastern Europe: Challenges and Opportunities for the EU. Brussels, 2010.

281. *Cornell S.E., Starr F.S.* The Caucasus: A Challenge for Europe // CACI & SRSP Silk Road Paper, June 2006.

282. *Cornell S.E., Starr F.S.* The Guns of August 2008: Russia's War in Georgia. N.Y., 2009.

283. *Daily news.* 12.10.1991.

284. *Davutoglu A.* Turkey's Zero-Problems Foreign Policy // Foreign Policy Magazine, May 20, 2010.

285. *De Blij H.J.* Systematic Political Geography. N.Y., 1967.

286. *Dekmejian R. Hrair, Simonian Hovann H.* Troubled Waters: The Geopolitics of the Caspian Region. N.Y., 2003.

287. *Dictionary of Geopolitics.* Ed. by J.O'Loughlin. Westport, 1994.

288. *Dolman E.C.* Astropolitik: Classical Geopolitics in the Space Age. Frank Cass, 2002.

289. *Dorpalen A.* The World of General Haushofer. Geopolitics in Action. N.Y., 1942.

290. *Duiker W.J.* U.S. Containment Policy and the Conflict in Indo-china. California, 1994.

291. *Fairgrieve J.* Geography and World Power. London, 1915.

292. *Friedman T.L.* The Lexus and the Olive Tree: Understanding Globalization. Farrar, Straus and Giroux, 1999.

293. *Friedman T.L.* The World is Flat. Farrar, Straus and Giroux, 2005.

294. *Fukuyama F.* America at the Crossroads: Democracy, Power, and the Neoconservative Legacy. New Haven, 2006.

295. *Fukuyama F.* Beyond Bioethics: A Proposal for Modernizing the Regulation of Human Biotechnologies. Washington, 2006.

296. *Fukuyama F.* Blindside: How to Anticipate Forcing Events and Wild Cards in Global Politics. Washington, 2007.

297. *Fukuyama F.* Our Posthuman Future: Consequences of the Biotechnology Revolution. N.Y., 2002.

298. *Fukuyama F.* Nation-Building: Beyond Afghanistan and Iraq. Baltimore, 2006.

299. *Fukuyama F.* State-Building: Governance and World Order in the 21st Century. N.Y., 2004.

300. *Fukuyama F.* The End of History and the Last Man. N.Y., 1992.

301. *Fukuyama F.* The End of History? // The National Interest, Summer 1989.

302. *Fukuyama F.* The End of Order. London, 1997.

303. *Fukuyama F.* The Great Disruption: Human Nature and the Reconstitution of Social Order. N.Y., 1999.

304. *Gachechiladze R.* Geopolitics in the South Caucasus: Local and External Players // Geopolitics, Summer 2002, Vol. 7, No. 1.

305. *Gaddis J.L.* Strategies of Containment: A Critical Appraisal of Postwar American National Security Policy. N.Y., 1982.

306. *Galtung J.* Geopolitics after the Cold War: an Essay in Agenda Theory//The International System after the Collapse of East-West Order. Luxembourg Institute for European and International Studies. Nijhoft, 1994.

307. *Gannes H.* Wahn China Unites. N.Y., 1937.

308. *Goldstein J.* Long Cycles: Prosperity and War in the Modern Age. Yale, 1988.

309. *Gyorgy F.* Geopolitics: The New German Science. Berkeley, 1944.

310. *Haas R.N.* The Age of Nonpolarity. Foreign Affairs, May/June 2008.

311. *Hahn P.L.* Empire and Revolution: The United States and the Third World Since 1945. Columbus, 2001.

312. *Harkavy R.* Great Power Competition for Overseas Dases. The Geopolitics of Accsess Diplomacy. N.Y., 1982.

313. *Huntington S.P.* The Clash of Civilizations? // Foreign Affairs, Summer 1993.

314. *Huntington S.* The Clash of Civilizations and Remaking the World Order. N. Y., 1996.

315. *Heuser B.* Western Containment Policies in the Cold War: the Yugoslav Case, 1948-1953. N.Y., 1989.

316. *Hook S.W., Spanier J.* American Foreign Policy Since World War II. Washington, 2000.

317. *Hombach B.* The Stability Pact: Breaking new ground in the Balkans. NATO Revu, №4, 1999.

318. *Fairbanks C., Nelson R.C., Starr F.S., Weisbrode K.* Strategic Assessment of Central Eurasia. The Atlantic Council and Central Asia-Caucaus Institute, SAIS, 2001.

319. *Fuller G.E.* New Turkish Republic: Turkey As a Pivotal State in the Muslim World. United States Institute of Peace Press, 2007.

320. *Gaddis J.* Strategies of Containment: a critical appraisal of post-war American national security policy. N.Y., 1982.

321. *Galtung J.* Geopolitics after the Cold War: an Essay in Agenda Theory // The International System after the Collapse of East-West Order. Luxembourg Istitute for European and International Studies. Nijhoft, 1994.

322. *Gilpin R.* War and Change in World Politics. Cambridge, 1983.

323. *Glassner M.I.* Political Geography. N.Y., 1996.

324. *Graham E. F., Lesser I.O.* Turkey's New Geopolitics: From the Balkans to Western China (Westview Press, 1993).

325. *Gray C.S.* The geopolitics of superpower. Lexington, 1988.

326. *Gray C.S.* The geopolitics of the nuclear era: heartland, rimlands, and the technological revolution. N.Y., 1977.

327. *Gyorgy F.* Geopolitics: The New German Science. Berkeley, 1944.

328. *Jamal S. al-Suwaidi* (ed.) Iran and the Gulf: A Search for Stability. The Emirates Center for Strategic Studies & Research, 1996.

329. *Kaplan R.D.* Center Stage for the 21st Century: Power Plays in the Indian Ocean // Foreign Affairs 88, 2 (March/April 2009).

330. *Karny Y.* Highlanders: A Journey to the Caucasus in Quest of Memory. Farrar Straus & Giroux, 2001.

331. *Kasperson R.E., Minghi J.V.* The Structure of Political Geography. Chicago, 1969.

332. *Keohane R.* Theory of World Politics: Structural Realism and Beyond. // Political Science: The State of a Discipline. Washington, 1983.

333. *Kearns G.* Geopolitics and Empire: The Legacy of Halford Mackinder. Oxford, 2009.

334. *Keegan J.D.* The American Civil War. N.Y., 2009.

335. *Kennan G.F.* The Source of Soviet Conduct // Foreign Affairs. (July 1947). V. 25, № 4.

336. *Kennedy P.M.* The rise and fall of the great powers, economic changes and military conflicts from 1500 to 2000. London, 1988.

337. *Kieffer J.E.* Realities of World Power. N.Y., 1952.

338. *Kinzer S.* Reset: Iran, Turkey, and America's Future. Times Books, 2010.

339. *Kirk W.* Geographical Pivots of History. Leicester, UK, 1965.

340. *Kissinger H.* Years of Upheaval. Boston, 1982.

341. *Korany B. et coll.* Analyse des relations internationales. Approches, concepts et donnees. Montreal, 1987.

342. *Korinman M., Laughland J.* Russia: A New Cold War? London, 2008.

343. *Leibowitz R.D.* Finlandization: An Analysis of the Soviet Union's "domination" of Finland // Political Geography Quartely. 1983, № 2.

344. *Livezey W.E.* Mahan on Sea Power. Norman, 1947.

345. *O'Loughlin J.* Ordering the crush zone: Geopolitical games in post Cold War Eastern Europe // N. Kliot, D. Newman, eds. Geopolitics and Globalization: The Changing World Political Map. London, 1999.

346. *Luttwak E.* From Geopolitics to Geoeconomics // Logic of Conflict, Grammar of Commerce. The National Interest, Summer, 1990.

347. *Mackinder H.J.* Britain and the British Seas. N.Y., 1902.

348. *Mackinder H.J.* Democratic Ideals and Reality. N.Y., 1919.

349. *Mackinder H.J.* Eight Lectures on India. London, 1910.

350. *Mackinder H.J.* Our own islands, an elementary study in geography. London, 1907.

351. *Mackinder H.J.* The geographical pivot of history // The Geographical Journal, 1904, №23.

352. *Mackinder H.J.* The modern British state: an introduction to the study of civics. London, 1914.

353. *Mackinder H.J.* The Rhine: its valley and history. N.Y., 1908.

354. *Mackinder H.J.* The Round World and the Winning of the Peace // Foreign Affairs, 1943, №4.

355. *Mahan A.T.* The Influence of Sea Power upon the French Revolution and Empire, 1793-1812. Boston, 1892.

356. *Mahan A.T.* The Influence of Sea Power upon History, 1660-1783. Boston, 1890.

357. *Mahan A.T.* The Interest of America in Sea Power, Present and Future, 1890-1897. Boston, 1897.

358. *Mahan A.T.* The Problem of Asia and Its Effects upon International Policies. London, 1900.

359. *Martin G.J., Preston E.J.* All Possible Worlds. N.Y., 1993.

360. *Mattern J.* Geopolitik: Doctrine of National Self-Sufficiency and Empire. Baltimore, 1942.

361. *McLuhan M.* The Gutenberg Galaxy: The Making of Typographic Man. Toronto, 1962.

362. *McLuhan M.* Understanding Media: The Extensions of Man. N.Y., 1964.

363. *McLuhan M., Fiore Q.* The Medium is the Massage: An Inventory of Effects. N.Y., 1967.

364. *McLuhan M., Fiore Q.* War and Peace in the Global Village. N.Y., 1968.

365. *McLuhan M., Parker H.* Through the Vanishing Point: Space in Poetry and Painting. N.Y., 1968.

366. *McLuhan M.* Culture is Our Business. N.Y., 1970.

367. *McLuhan M., Watson W.* From Cliche to Archetype.N.Y., 1970.

368. *McLuhan M., Hutchon K., McLuhan E.* City as Classroom: Understanding Language and Media. The Book Society of Canada Limited, 1977.

369. *Meinig D.W.* Heartland and Rimland in Eurasian History // The Western Political Quarterly, 1956, Vol. 9, № 3.

370. *Modelsky G.* Long Cycles in World Politics. Seattle; London, 1987.

371. *Modelsky G., Thompson W.R.* Seapowerin Global Politics 1494-1993. Seattle, 1987.

372. *Morgenthau H.J.* Politics among Nations. The Struggle for Power and Peace. N.Y., 1955.

373. *Musharraf P.* A Plea for Enlightened Moderation // The Washington Post. June 1, 2004.

374. *Nietschmann B.* The Fourth World: Nations Versus States // Reordering the World. Geopolitical Perspectives on the Twenty-first Century / Edited by G. J. Demko and W. B. Wood. Westview, 1994.

375. *Nijman J.* The Geopolitics of Power and Conflict: Superpowers in the International System 1945-1992. London, 1993.

376. *Painter J.* Politics, Geography, and "Political Geography": A Critical Perspective. N.Y., 1995.

377. *Papava V., Starr F.S.* In the Caucasus, a Neo-Imperial Russian Revival // The Daily Starr, January 20, 2006.

378. *Papava V.* The Economic Development Complex in the Black Sea Area: The Impact of the Global Financial and Economic Crisis // Xenophon Paper, №9, 2010.

379. *Paret P.* Makers of Modern Strategy from Machiavelli to the Nuclear Age. Princeton, 1986.

380. *Parker G.* Geopolitics. Past, Present and Future. London and Washington, 1998.

381. *Parker G.* Western Geopolitical Thought in the Twentieth Century. N.Y., 1985.

382. *Parker W.H.* Mackinder: Geography as an Aid to Statecraft. Oxford, 1982.

383. *Perceptions,* Journal of International Affairs, volume IV, №2, 1999.

384. *Polelle M.* Raising Cartographic Consciousness: The Social and Foreign Policy Vision of Geopolitics in the Twentieth Century. N.Y., 1999.

385. *Ratzel F.* Sketches of Urban and Cultural Life in North America. New Brunswick, 1988.

386. *Ratzel F.* Studies in Political Areas II: Intellectual, Political, and Economic Effects of Large Areas // The American Journal of Sociology. 1897. 3, 4, 449-463.

387. *Rees D.* The Age of Containment: the Cold War, 1945-1965. N.Y., 1967.

388. Ro'i Y. (ed.). Muslim Eurasia: Conflicting Legacies. Frank Cass, 1995.

389. *Roberts J.* Caspian Pipelines. Royal Institute of International Affairs, 1996.

390. *Samii K.A.* Involvement by invitation: American Strategies of Containment in Iran. Pennsylvania, 1987.

391. *Shams-ud-Din.* Geopolitics And Energy Resources In Central Asia Caspian Sea Region. Lancer Press, 2000.

392. *Sempa F.P.* Geopolitics: From the Cold War to the 21st Century. London, 2002.

393. *Sempa F.P.* Spykman's World // American Diplomacy, 2006.

394. *Seversky A.P.* Air Power: Key to Survival. N.Y., 1950.

395. *Sloan G.R.* Geopolitics in United States Strategic Policy. Brighton, 1988.

396. *Smith J.M.* The Great Game: Round Three // The Journal of International Security Affairs (Fall, 2009).

397. *Spiro P.* New Global Communities: Nongovernmental Organizations in International Decision-Making Institutions Quaterly. Hiver, 1995.

398. *Spykman N.J.* America's Strategy in World Politics: The United States and the Balance of Power. N.Y., 1942.

399. *Spykman N.J.* The Geography of the Peace. N.Y., 1944.

400. *Spykman N.J.* The Social Theory of Georg Simmel. Chicago, 1925.

401. *Starr F.S.* Caspian Oil: Pipelines and Politics // Middle East Policy, 1998, №4.

402. *Starr F.S., Cornell S.E.* The Baku-Tbilisi-Ceyhan Pipeline: Oil Window to the West // CACI & SRSP, 2005.

403. *Starr F.S.* In Defense of Greater Central Asia // CACI & SRSP Policy Paper, September 2008.

404. *Starr F.S.* Power Failure: American Policy in the Caspian // National Interest, 1997, №47.

405. *Stratfor,* The Geopolitcs of Israel and the Palestinians: The Intelligence Behind the Headlines (Create Space, 2009).

406. *Strausz-Hupe R.* Geopolitics: The Struggle for Space and Power. N.Y., 1942.

407. *Taelor C.C.* The life of admiral Mahan, naval philosopher. N.Y., 1920.

408. *Taylor P.J.* Geography: world-economy, nation-state and Jooality. London, 1993.

409. *Taylor P.J.* Political Geography of the Twentieth Century. London, 1993.

410. *The China* Jornal. 1995, №1.

411. *Tillema H.K.* Appeal to Force: American Military Intervention in the Era of Containment. N.Y., 1973.

412. *Tosevic D.J.* The World Crisis in Maps. N.Y., 1954.

413. *Toynbee A.* A Study of History. London, 1954.

414. *Tunander O.* Swedish-German Geopolitics for a New Century - Rudolf Kjellen's "The State as a Living Organism" // Review of International Studies, 2001, №3.

415. *Vayrynen R.* Regional Conflict Formations: An Intractable Problem of International Relations // Journal of Peace Research, November 1984, Vol. 21, Issue 4.

416. *Wallerstein I.* Geopolitics and Geoculture: Essays on the Changing World-System. Cambridge, 1991.

417. *Wallerstein I.* The Capitalist World-Economy. Cambridge, 1979.

418. *Wallerstein I.* The Modern World-System, vol. I: Capitalist Agriculture and the Origins of the European World-Economy in the Sixteenth Century. New York/London, 1974.

419. *Wallerstein I.* The Modern World-System, vol. II: Mercantilism and the Consolidation of the European World-Economy, 1600-1750. N.Y, 1980.

420. *Wallerstein I.* The Modern World-System, vol. III: The Second Great Expansion of the Capitalist World-Economy, 1730-1840's. San Diego, 1989.

421. *Wallerstein I.* The Politics of the World-Economy. The States, the Movements and the Civilizations. Cambridge, 1984.

422. *Wallerstein I.* Utopistics: Or, Historical Choices of the Twenty-first Century. N.Y., 1998.

423. *Wallerstein I.* The End of the World As We Know It: Social Science for the Twenty-first Century. Minneapolis, 1999.

424. *Wallerstein I.* Decline of American Power: The U.S. in a Chaotic World. N.Y., 2003.

425. *Wallerstein I.* World-Systems Analysis: An Introduction. Durham, North Carolina, 2004.

426. *Wallerstein I.* Alternatives: The U.S. Confronts the World. Boulder, Colorado, 2004.

427. *Walters R. E.* The Nuclear Trap. Harmondsworth, 1974.

428. *Wanklyn H.* Friedrich Ratzel, a Biographical Memoir and Bibliography. Cambridge, 1961.

429. *Weinberg A.* Manifest Destiny: A Study of Nationalist Expansionism in American History. Baltimore, 1935.

430. *Wildavsky A.* Beyond Containment: Alternative American Policies Toward the Soviet Union. California, 1983.

431. *William F.L.* Mahan on Sea Power. Norman, 1947.

432. *Wolfers A.* Discord and Colloboration. Essays on international Politics. Baltimore, 1962.

433. *Wolf M.* Why is China growing so slowly // Foreign Policy, January-February, 2005.

434. *Zhao Q.* Interpreting Chinese foreign policy. N.Y., 1996.

435. *Zhao S.* Across Taiwan Strait: Mainland China Taiwan and 1995-1996 Crisis. N.Y., 1999.

436. *Zoppo C.E., Zorgbibe Ch.* On Geopolitics: Classical and Nuclear. Boston, 1985.

Fransız dilində

437. *Amin S.* L'accumulation a l'échelle mondiale. Paris, 1970.

438. *Amin S.* Le développement inégal. Paris, 1973.

439. *Ancel J.* Geopolitique. Paris, 1936.

440. *Ancel J.* Geographie des frontieres. Paris, 1938.

441. *Ancel J.* Peuples et Nations des Balcans. Paris, 1993.

442. *Aron R.* Les etapes de la pensee sociologique. Paris, 1967.

443. *Aron R.* Memoires. 50 ans de reflexion politique, 2 volumes. Paris, 1983.

444. *Aron R.* Paix et Guerre entre les nations. Avec une présentation inédite de l'auteur. Paris, 1984.

445. *Aron R.* Penser la guerre, Clausewitz. Paris, 1976.

446. *Aron R.* Une Sociologie des relations internationales // Revue française de sociologie. 1963, vol. IV.

447. *Attali J.* Lignes d'horizon. Paris, 1990.

448. *Badie B.* La fin des territoires. Essai sur le désordre international et sur l'utilité sociale du respect, coll. L'espace du politique. Paris, 1995.

449. *Badie B., Smouths M.-C.* Le retournement du Monde. Sociologie de la scene internationale. Paris, 1992

450. *Benoist A.* Les idess a l'endroit. Paris, 1979.

451. *Berdoulay V.* Des mots et des lieux. La dynamique du discours géographique. Mémoires et documents de géographie. Paris, 1988.

452. *Berdoulay V.* Géographie: lieux de discours. Cahiers de géographie du Québec, vol.32, № 87, p.245-252. 1988.

453. *Berdoulay V.* La géographie vidalienne: entre texte et context. Paris, 1993.

454. *Berdoulay V.* La formation de l'école française de géographie (1870-1914). Paris, 1995.

455. *Blache Paul Vidal de la.* La France de l'Est. Paris, 1917.

456. *Blache Paul Vidal de la.* Principes de géographie humaine. Paris, 1922.

457. *Blache Paul Vidal de la.* Tableau de la géographie de la France. Paris, 1903.

458. *Boutoul G.* Traite de polémologie. Sociologie des guerres. Paris, 1970.

459. *Boutoul G., Carrere R., Annequin J.-L.* Guerres et civilisations. Paris, 1980.

460. *Brunet R., Eckert D., Kolossov V.* Sous la direction de. Atlas de la Russie et des pays proches. Paris, 1995.

461. *Claval P.* Espace et pouvoir. Paris, 1994.

462. *Claval P.* Histoire de la géographie française de 1870 à nos jours. Paris, 1998.

463. *Claval P.* Geopolitique et geostrategie: la pensée politique, l'espace et le territoire au XXe siecle. Paris, 1978.

464. *Defay A.* La Geopolitique. Paris, 2006.

465. *Demangeon A.* La plaine Picarde, Paris, 1905.

466. *Demangeon A.* Le déclinde l'Europe, Paris, 1920.

467. *Demangeon A.* L'Empire Britannique, Paris, 1923.

468. *Demangeon A.* Les îles Britanniques, Paris, 1927 (Géographie universeille, publiée sous la direction de P. Vidal de la Blache et L. Gallois, t. 1); Belgique, Pays-Bas, Luxembourg, Paris, 1927 (həmin seriya, t. 2).

469. *Demangeon A.* La France économique et humaine, t. 1-2. P., 1946-48 (həmin seriya, t. 6).

470. *Demangeon A.* Le Rhin. Problémes d'histoire et d'économie, Paris, 1935.

471. *Dictionnaire géopolitique.* Sous la direction d'Yves Lacoste. Paris, 1994.

472. *Dollfus O.* "Le systeme-monde", L'information geographique (Paris, Armand Colin), № 54, 1990.

473. *Durand M.-F., Levy J., Retaille D.* Le monde: espaces et systemes. Paris, 1992.

474. *Emmanuel A.* L'échange inégal. Paris, 1975.

475. *Encel F.* Dix morts en sursis (roman de géopolitique-fiction). Paris, 2006.

476. *Encel F.* Géopolitique du monde contemporain. Paris, 2008.

477. *Encel F.* Géopolitique, Sirey, 1997.

478. *Encel F.* Horizons geopolitiques. Paris, 2009.

479. *Encel F., Thual F.* Géopolitique d'Israél: Dictionnaire pour sortir des fantasmes. Seuil, 2004.

480. *Febre L.* La terre et l'évolution humaine. Introduction géographique à l'histoire. Paris, 1922.

481. *Foucher M.* Fronts et frontieres: un tour du monde geopolitique. Paris, 1988.

482. *Freund J.* Les lignes de force de la pensée politique de Carl Schmitt // Nouvelle école, № 44, Paris, 1987.

483. *Huntzinger J.* Introduction aux relations internationales. Paris, 1987.

484. *Gallois P.M.* Géopolitique. Les voiles de la puissance. Paris, 1990.

485. *Gérard F.* L'Unité fédérale du monde. Paris, 1971.

486. *Goldfinder C.* La Geofinance. Pour comprendre la mutation finanoiere. Paris, 1986.

487. *Gottmann J.* Doctrines geographiques en poltique. N.Y., 1947.

488. *Gottmann J.* La politique des Etats et leur geografie. Paris, 1952.

489. *Goguel F.* Geographie des elections françaises sous la Troisieme et la Quatrieme Republique. Paris, 1970.

490. *Gourdin P.* Géopolitiques, manuel pratique. Paris, 2010.

491. *Kervégan J.-F. Hegel, Carl Schmitt.* Le politique entre sp?culation et positivité, Paris, 1992.

492. *Korinmann M.* Ouand l'Allemagne pensalt le monde. Grandeur et decadence d'une geopolitique, Paris, 1990.

493. *Korinmann M.* Friedrich Ratzel. De la géographie politique à la géopolitique. In Ratzel, F., La géographie politique. Les concepts fondamentaux, Paris, 1987.

494. *Korinmann M.* Quand l'Allemagne pensait le monde. Paris, 1990.

495. *Lacoste Y.* Ibn Khaldoun, Naissance de l'histoire, passe du tiers-monde. Paris, 1966.

496. *Lacoste Y.* La geographie, ca sert d'abord a faire la guerre. Paris, 1976.

497. *Lacoste Y.* Questions de la Géopolitique. Paris, 1988.

498. *Lacoste Y.* Dictionnaire de Géopolitique. Paris, 1993.

499. *Lacoste Y.* Paysages politiques. Paris, 1990.

500. *Lacoste Y.* Une mode qui n'est pas futile // V.-F., Durand, J. Levy, D. Retaile. Le monde: espaces et systemas. Paris, 1993.

501. *Le Mondialisme.* Paris, 1977.
502. *Lorot P.* Histoire de la geopolitique. Paris, 1995.
503. *Lorot P., Thual F.* La geopolitique. Paris, 1997.
504. *Löwie R.* Histoire de l'ethnologie classique. Paris, 1971.
505. *Merle M.* Sur la "problématique" de l'etude des Relations internationales en France // RFSP. 1983. № 3.
506. *Montesquieu C.* CEuvres completes. 3 vol. Paris, 1950-1955.
507. *Philippe Moreau D.* La Politique Internationale. Paris, 1990.
508. *Philippe Moreau D.* Introduction à la géopolitique. Paris, 2009.
509. *Nicolas G.P.* Vidal de la Blache et la politique. Bulletin de l'association de géographes français, vol.65, № 4, p.333-337. 1988.
510. *Parvulesco J.* Galaxie GRU. Paris, 1991.
511. *Périller L.* Demain, le gouvernement mondial? Paris, 1974.
512. *Ratzel F.* La géographie politique. Les concepts fondamentaux. Paris, 1987.
513. *Ritter K.* Introduction à la géographie générale comparée. Paris, 1974.
514. *Rosiére S.* Géographie politique et géopolitique. Paris, 2003.
515. *Rousseau J.-J.* CEuvres completes. 13 vol. Paris, 1885-1905.
516. *Scheibling J.* Ou'est-ce gue la geographie?. Paris, 1994.
517. *Senarclens P.* de. La politique internationale. Paris, 1992.
518. *Siegfried A.* Tableau politique de la France de l'ouest sous la troisiéme république. Paris, 1913.
519. *Soppelsa J.* Geopolitique de 1945 a nos jours. Mementos dc geographic serie. Paris, 1994.
520. *Soppelsa J.* Geopolitique du monde contemporain. Paris, 2008.
521. *Steukers R.* La Russie, L'Europe et L'Occident // Orientation. 1983, №4.
522. *Thiriart J.* L'Empire Eurosovietique dc Vladivistok jusque Dublin. Brussell, 1988.
523. *Vidal de la Blache, Paul.* La France de l'est. Paris, 1917.
524. *Vidal de la Blache, Paul.* Principes de géographie humaine. Paris, 1921.
525. *Vidal de la Blache, Paul.* Tableau de la geographie de la France. Paris, 1903.
526. *Zorgbibe Ch.* Géopolitique contemporaine: les zones d'affrontement. Paris, 1986.

527. *Zorgbibe Ch.* Géopolitique et Histoire du Golfe. Paris, 1991.
528. *Zorgbibe Ch.* Histoire de la construction européenne. Paris, 2005.
529. *Zorgbibe Ch.* Histoire Des Relations Internationales. 5e édition. Paris, 1994.

Alman dilində

530. *Ebeling F.* Geopolitik. Karl Haushofer und seine Raumwissenschaft. 1919-1945. Berlin, 1997.
531. *Haushofer A.* Allgemeine politische Geographie und Geopolitik. Heidelberg, 1951.
532. *Haushofer K.* Dai Nihon, Betrachtungen über Groß-Japans Wehrkraft, Weltstellung und Zukunft. Berlin, 1913.
533. *Haushofer K.* Der Kontinentalblock: Mitteleuropa, Eurasien, Japan. Berlin, 1941.
534. *Haushofer K.* Geopolitik der Pan-ideen. Berlin, 1931.
535. *Haushofer K.* Geopolitik des Pazifischen Ozeans. Berlin, 1925.
536. *Haushofer K.* Grenzen in ihrer geographischen und politischen Bedeutung. Berlin, 1939.
537. *Kjellen R.* Der Staat als Lebensform. Leipzig, 1917.
538. *Kjellen R.* Die Grossmaechte der Gegenwart. Leipzig, Berlin, 1914.
539. *Kjellen R.* Die Grossmaechte vor und nach dem Weltkriege. Leipzig, Berlin, 1930.
540. *Kjellen R.* Die politische Probleme des Weltkrieges. Leipzig, 1916.
541. *Lohausen J.* Mut zur Macht. Denken in Kontinenten. Berg, 1978.
542. *Maull O.* Das Wesen der Geopolitik. Leipzig, 1939.
543. *Maull O.* Friedrich Ratzel zum Gedachtnis // Zeitschrift für Geopolitik. 1929. № 8.
544. *Naumann F.* Mitteleuropa. Berlin, 1915.
545. *Partsch J.* Mitteleuropa. Die Lander und Volker von den Westalpen und dem Balkan bis an den Kanal und das Kurische Haff. Gotha, 1904.
546. *Ratzel F.* Anthropogeographie. (3 vols.). Stuttgart, 1882-1891.
547. *Ratzel F.* Anthropogeographie. Bd. 1. Stuttgart, 1899.

548. *Ratzel F.* Das Meer als Quelle der Vôlkergrôsse. München / Berlin, 1900.

549. Ratzel F. Der Lebensraum: Eine Biogeographische Studie. Tübingen, 1901.

550. Ratzel F. Die Erde und das Leben: Eine Vergleichende Erdkunde (2 vols.). Leipzig, 1902.

551. *Ratzel F.* Erdenmacht und Volkerschicksal. Stuttgart, 1940.

552. *Ratzel F.* Politische Geographie oder die Geographie der Staaten, des Verkehrs und des Krieges. München, 1897.

553. *Ratzel F.* Stâdte-und Culturbilder aus Nordamerika. Leipzig, 1876.

554. *Schenk W.* Mitteleuropa - tipologische Annaherungen an einen schwierigen Begriff aus der Sicht der Geographie // Europa Regional. 1995. № 4.

555. *Schmitt C.* Der Begriff des Politischen. Berlin/Grunewald, 1927.

556. *Schmitt C.* Der Leviathan in der Staatslehre des Thomas Hobbes, 1938.

557. *Schmitt C.* Der Nomos der Erde im Völkerrecht des Jus Publicum Europaeum. Köln, 1950. N.Y., 2003.

558. *Schmitt C.* Die planetarische Spannung zwischen Ost und West und der Gegensatz von Land und Meer. Köln, 1959.

559. *Schmitt C.* Land und Meer. Eine weltgeschichtliche Betrachtung. Leipzig, 1942.; Stuttgart, 2008.

560. *Schmitt C.* Politische Theologie. Vier Kapitel zur Lehre von der Souveränität. München/Leipzig, 1922.

561. *Schmitt C.* Raum und Großraum im Völkerrecht // Zeitschrift für Völkerrecht. Berlin, 1940.

562. *Schmitt C.* Staatliche Souveränität und freies Meer // Das Reich und Europa, Leipzig, 1941.

563. *Schmitt C.* Theodor Däublers "Nordlicht": Drei Studien über die Elemente, den Geist und die Aktualität des Werkes. München, 1916.

564. *Schmitt C.* Theorie des Partisanen. Zwischenbemerkung zum Begriff des Politischen. Berlin, 1963; N.Y., 2007.

Rus dilində

565. *Алиев И.Г.* Каспийская нефть Азербайджана. М., 2003.

566. *Алперовиц Г.* Ядерное оружие и политика // США: экономика, политика, идеология. 1994, № 2.

567. *Андреев А.Г.* Геополитика и мировые войны XX века // США-Канада: Экономика, политика, культура. 1999. №11.

568. *Андрианова Т.В.* Геополитические теории XX в. (Социальнофилософское исследование). М., 1996.

569. *Антология* мировой политической мысли, тт. 1-2. М., 1997.

570. *Арин А.* Азиатско-Тихоокеанский регион: мифы, иллюзии и реальность. М., 1997.

571. *Аристотель.* Политика. Соч. в 4-х т. М., 1984.

572. *Ашенкампф Н.Н.* Современная геополитика. М., 2005.

573. *Ашенкампф Н.Н.* Геополитика. М., 2010.

574. *Белов Д.В.* Латинская Америка: перестройка экономики и государства. М., 1996.

575. *Белокреницкий В.Я., Москаленко В.Н.* Южная Азия в мировой политике. М., 2004.

576. *Берге И.* История недоразумения? Холодная война. 1917-1991 гг. М., 1998.

577. *Бердяев А.Н.* Истоки и смысл русского коммунизма. М., 1989.

578. *Бжезинский З.* Великая шахматная доска. Господство Америки и егогеостратегические императивы. М., 1998.

579. *Бжезинский З.* Выбор: мировое господство или глобальное лидерство. М., 2010.

580. *Бжезинский З.* Геостратегия для Евразии // Независимая газета. 24.10.1997.

581. *Бисмарк О.* Мысли и воспоминания. Т. 1-3, М., 1940.

582. *Бокль Г.Т.* История цивилизаций. История цивилизации в Англии. В двух томах. М., 2000.

583. *Бобровников А.* Латинская Америка: стратегия и принципы экономической модернизации в период перехода к индустриальной цивилизации. М., 1998.

584. *Болгова И.В., Александров О.Б., Барабанов О.Н.* Европейские страны СНГ: Место в "Большой Европе". М., 2005.

585. *Бродель Ф.* Время мира. Материальная цивилизация, экономика и капитализм XV-XVIII вв. М., 1992.

586. *Букин Д.* Значение Каспийского региона в мировом энергетическом балансе и национальные интересы России. М., 2000.

587. *Вавилин М.* Нефтегазовая политика стран Каспийского региона: современное состояние и перспективы развития.

588. *Вандам Е.А.* Геополитика и геостратегия. М., 2005.

589. *Василенко И.А.* Геополитика. М., 2003.

590. *Василенко И.А.* Геополитика современного мира. М., 2006.

591. *Василенко И.А.* Политическая глобалистика. М., 2000.

592. *Ваттель Э.* Право народов или принципы естественного права, применяемые к поведению и делам наций и суверенов. М., 1960.

593. *Вебер М.* Наука как призвание и профессия. М., 1990.

594. *Владимиров А.И.* Стратегические этюды. М., 2002.

595. *Вотье П.* Военная доктрина генерала Дуэ. Пер. с франц. Изд. 2-е. М., 1937.

596. *Всемирная* история: в 13 т. М., 1957.

597. *Гаджиев К.С.* Введение в геополитику. М., 1998.

598. *Гаджиев К.С.* Геополитика. М., 1996.

599. *Гаджиев К.С.* Геополитика Кавказа. М., 2001.

600. *Галлуа П.* Стратегия в ядерный век. М., 1967.

601. *Гейден Г.* Критика немецкой геополитики. М., 1960.

602. *Генон Р.* Кризис современного мира. М., 1991.

603. *Геополитика:* Антология. М., 2006.

604. *Геополитика и геостратегии:* Хрестоматия / Под ред. Б.А. Исаева. СПб., 2004.

605. *Геополитика:* теория и практика / Отв. ред. Э.М. Поздняков М., 1993.

606. *Геополитика:* Учебник / под общ. ред. В.А. Михайлова. М., 2007.

607. *Геополитика:* Хрестоматия / Сост. Б.А. Исаев. СПб., 2007.

608. *Геополитики и теостратегии:* Хрестоматия в 3 ч. / Под ред. Б.А.Исаева. СПб 2003г. Ч.1. Предтечи геополитики.

609. *Горшков С.Г.* Морская мощь государства. Изд. 2-е, доп. М., 1979.

610. *Гражданская политика.* Мир политической мысли: Хрестоматия по политологии. СПб., 1993, кн. I, ч. II.

611. *Гумилёв Л.Н.* Ритмы Евразии: Эпохи и цивилизации. М., 1993.

612. *Гумилёв Л.Н.* Этногенез и биосфера Земли. Ленинград, 1990.

613. *Данилевский Н.Я.* Россия и Европа. М., 1991 // Геополитика: Антология. М., 2006.

614. *Дарабади П.* Кавказ и Каспий в мировой истории и геополитике XXI века. М., 2010.

615. *Дергачев В.А.* Геополитика. М., 2004.

616. *Дергачев В.А.* Геоэкономика. Современная геополитика. Киев, 2002.

617. *Дергачев В.А.* Глобалистика. М., 2005.

618. *Дмитриевский А., Волож Ю.* Ресурсные загадки Каспийского региона // Мировая энергетика. № 11-12 (59), ноябрь-декабрь 2008.

619. *Дугин А.Г.* Основы геополитики. Геополитическое будущее России. М., 1997.

620. *Ефремова К.* "Стратегический треугольник "Россия-Индия-Китай" и концепции "нового мирового порядка"", http://www.rami.ru.

621. *Жан К., Савона П.* Геоэкономика: Господство экономического пространства. М., 1997.

622. *Желтов В.В., Желтов М.В.* Геополитика: история и теория. М., 2009.

623. *Жильцов С. и др.* Геополитика Каспийского региона. М., 2003.

624. *Жильцов С., Ушков А.* Политика США в Каспийском регионе: основные итоги и тенденции (после сентября 2001 г.) // Вестник Российского университета дружбы народов, 2003, № 4.

625. *Жириновский В.Ф.* Очерки по геополитике. М., 1997

626. *Зенгер Х.* Стратагемы. О Китайском исскустве жить и выживать. М., 1995.

627. *Зюганов Г.А.* География победы: Основы российской геополитики. М., 1997.

628. *Зюганов Г.А.* На рубеже тысячелетий. М., 2001.

629. *Иванова И.И.* История международных отношений от античности до конца первой мировой войны. Владивосток, 2001.

630. *Ильин И.А.* О грядущей России. М., 1993.

631. *Индия* в современном мире /под ред. Худолея К.К. М., 2004.

632. *Исаев Б.А.* Геополитика: Учебное пособие. СПб., 2006.

633. *История* международных отношений: Основные этапы с древности до наших дней / Под ред. Каменской Г.В., Колобова О.А., Соловьева Э.Г.). М., 2007.

634. *История* Японии. 1868-1998. М., 1999. Т. 2.

635. *Каледин И.В.* Политическая география. СПб., 1996.

636. *Кант И.* К вечному миру. Кант И. Сочинения немецком-русском языках. М., 1994.

637. *Караганов С.* Магия цифр-2009. // "Россия в глобальной политике", № 2, mart-aprel 2009. Bax: http://www.globalaffairs.ru/print/number/n_12824

638. *Кейган Р.* О рае и силе: Америка и Европа в новом мировом порядке (пер. с англ. Смирнова А.) М., 2004.

639. *Кейган Р.* Сила и слабость // Pro et Contra. 2002, № 3.

640. *Киссинджер Г.* Дипломатия. М., 1997.

641. *Киссинджер Г.* Нужна ли Америке внешняя политика? М., 2002.

642. *Классики* геополитики XX век (составитель К.Королев). М., 2003.

643. *Клаузевиц К.* О войне. В 2 т. М., 1994.

644. *Колосов В.А., Мироненко Н.С.* Геополитика и политическая география. М., 2005.

645. *Кондратьев П.В.* Большие циклы и коньюктура. Избранные сочинения. М., 1993.

646. *Конфликты* на Востоке: этнические и конфессиональные: учебное пособие / под ред. А.Д.Воскресенского. М., 2008.

647. *Кочетов Э.Г.* Геоэкономика. Освоение мирового экономического пространства. М., 1999.

648. *Коэн С.* Американская политика и будущая Россия // Полис. 1993.

649. *Краткий очерк* международного гуманитарного права. М., 1993.

650. *Кряжева Е.* Влияние "Газпрома" в Западной Европе усиливается // Независимая газета. 30.06.1998.

651. *Ленин В.И.* Империализм как высшая стадия капитализма. // Полн. собр. соч., М, 1982. Т. 27.

652. *Лобов В.Н.* Карл Клаузевиц. Жизнь. Идеи. Современное значение // Клаузевиц К. О войне. М., 1994.

653. *Магомедов А.* Борьба за Каспийскую нефть и Каспийский транзит: геополитическое и региональное измерение // Центральная Азия и Кавказ, 2005, № 1 (37).

654. *Макиавелли Н.* Государь. Рассуждения о первой декаде Тита Ливия. О военном искусстве. М., 1996.

655. *Макиндер Х.Дж.* Географическая ось истории // Геополитика: Антология. М., 2006.

656. *Макиндер Х.Дж.* Географическая ось истории // Полис, 1995, №4.

657. *Макиндер Х.Дж.* Круглый мир и достижение мира // Уральский исторический вестник. Екатеринбург, 1994, вып. 1.

658. *Маклюэн М.* Понимание медиа: внешние расширения человека. М., 2003.

659. *Маринченко А.И.* Геополитика. М., 2009.

660. *Маркс К., Энгельс Ф.* Манифест коммунистической партии. // К.Маркс и Ф. Энгельс. Сочинения. Изд. 2-е. т.4. М., 1955.

661. *Мец А.* Мусульманский ренессанс. М., 1973.

662. *Мечников Л.И.* Цивилизация и великие исторические реки. М., 1924.

663. *Мироненко В.А.* Геополитика и политическая география. М., 2005.

664. *Мир политической мысли:* Хрестоматия по политологии/ Под ред. А.Н.Голикова, В.Е.Юстузова. СПб 1993.

665. *Митрофанов А.* Шаги новой геополитики//Русский вестник. М., 1997.

666. *Михайлов Т.А.* История геополитической идеи. М., 1999.

667. *Михайлов Т.А.* Эволюция геополитических идей. М., 1999.

668. *Многоликая глобализация:* Культурное разнообразие в современном мире. М., 2004.

669. *Модельски Дж., Томпсон У.* Волны Кондратьева, развитие мировой экономики и мировая политика // Вопросы экономики. 1992, № 10.

670. *Молодяков В.Э.* Ось Берлин-Москва-Токио: возможность невозможного // Знакомьтесь - Япония. 1995, № 7.

671. *Моро-Дефарж Ф.* Введение в геополитику. М., 1996.

672. *Морозов Ю.В., Сивков К.В.* Стратегические подходы к реализации геополитических интересов России в XXI веке // Вызовы безопасности и защита геополитических интересов России. М., 1999.

673. *Мэхэн А.Т.* Влияние морской силы на историю, 1660-1783. М.-Л., 1941.

674. *Мэхэн А.Т.* Влияние морской силы на французскую революцию и империю, 1793-1812. Т. 1-2. М.-Л., 1940.

675. *Мухаев Р.Т.* Геополитика. М., 2007.

676. *Най Дж.С. (мл.).* Взаимозависимость и изменяющаяся международная политика. // Мировая экономика и международные отношения. 1989. № 12.

677. *Най Дж.* После Ирана: мощь и стратегия США // Россия в глобальной политике. 2003. Т. 1. № 3.

678. *Нартов Н.А., Нартов В.Н.* Геополитика. М., 2007.

679. *Нартов Н.А.* Геополитика. М., 1999.

680. *Настасюк Н.П.* Геополитические факторы возникновения и развития этнических конфликтов. СПб., 1995.

681. *Науманн Ф.* Срединная Европа. Пл. 1918.

682. *Наш современник,* 1992, №9.

683. *Неклесса А.* Перспективы глобального развития и место Африки в новом мире // МЭиМО. 1995. № 5.

684. *Нибур Р.* Избранные труды. М., 1996.

685. *Новейшая история* стран Азии и Африки XX век. В 3ч./ Под ред. А.М.Родригеса. М., 2001.

686. *Новейшая история* стран Европы и Америки. XX век. В 3ч. М., 2000.

687. *Нурша А.* Прикаспийский регион: стратегическое значение пространства и нефти // Центральная Азия и Кавказ, 2001, № 2 (14).

688. *Нюрнбергский процесс.* Сборник материалов. Т. 1. М., 1952.

689. *Паркер Дж.* Преемственность и изменения в геополитической мысли Запада в XX столетии // Международный журнал социальных наук. 1993, № 3.

690. *Пикте Ж.* Развитие и принципы международного гуманитарного права. М., 1993.

691. *Плешаков К.В.* Геоидеологическая парадигма (взаимодействие геополитики и идеологии на примере отношений между СССР, США и КНР в континентальной Восточной Азии. 1949-1991 гг.). М., 1994.

692. *Плешаков К.В.* Геополитика в свете глобальных перемен // Международная жизнь. 1994, №10.

693. *Поздняков Э.А.* Геополитика. М., 1995.

694. *Полибий.* Всеобщая история в сорока книгах. М., 1890, кн. I.

695. *Полис.* 1995, №6.

696. *Политическая география* по Ратцелю. Землеведение, Спб., 1898, № 1-2, № 3.

697. *Ратцель Ф.* Земля и жизнь. Сравнительное землеведение. Спб., 1906, Т. 2.

698. *Ратцель Ф.* Народоведение (Антропогеография) // Классика геополитики, XIX век. М., 2003.

699. *Ратцель Ф.* Народоведение. Т. 1. М., 1893.

700. *Савицкий П.Н.* Географические и геополитические основы евразийства // Континент Евразия. М., 1997.

701. *Савицкий П.Н.* Географический обзор России-Евразии // Мир России-Евразия, М., 1926.

702. *Савицкий Л.Н.* Континент Евразия. М., 1997.

703. *Савицкий П.Н.* Степь и оседлость // Континент Евразия. М., 1997.

704. *Семенов-Тян-Шанский П.П.* Землеведение Азии Карла Риттеро. СПб., 1856.

705. *Сигов Ю.* Азербайджан: между Западом и Востоком. Стокгольм, 2008.

706. *Сирота Н.М.* Основы геополитики. СПб., 2001.

707. *Советский энциклопедический словарь.* М., 1989.

708. *Сорокин К.Э.* Геополитика современного мира и Россия // Политические исследования, 1995, №1.

709. *Сорокин К.Э.* Геополитика современности и геостратегия России. М., 1996.

710. *Страбон.* География. М., 1994.

711. *Страус А.Л.* Униполярность. Концентрическая структура нового мирового порядка и позиция России // Политические исследования, 1997, № 2.

712. *Тихонравов Ю.В.* Геополитика. М., 2000.

713. *Тирпиц А.* Воспоминания. М., 1957.

714. *Тойнби А.Дж.* Постижение истории. М., 1991.

715. *Тойнби А.Дж.* Цивилизация перед лицом истории. СПб., 1995.

716. *Толипов Ф., Лаумулин М., Панфилова В.* Центральная Азия и Южный Кавказ: Насущные проблемы: 2007. М., 2007.

717. *Тоффлер Э.* Новая технократическая волна на Западе. М., 1986.

718. *Тюлин И.Г.* Внешнеполитическая мысль современной Франции. М., 1988.

719. *Ушаков И.* Демографическое настоящее и будущее Европы // Мировая экономика и международные отношения. 1991, №6.

720. *Ушков А.М.* Современная геополитика. Вестник МГУ, сер.18. Социология и политика. 1997, №3.

721. *Февр Л.* Бои за историю. М., 1991.

722. *Фейгин М.* Закавказский узел // Новый мир. 1998, №9.

723. *Филиппов А.Ф.* Карл Шмитт. Расцвет и катастрофа / Шмитт К. Политическая теология. М., 2000.

724. *Философия Канта* и современность. М., 1974.

725. *Философский энциклопедический словарь.* 2-е изд. М., 1989.

726. *Фридман Дж.* Следующие 100 лет: прогноз событий XXI века. М., 2010.

727. *Фукидид.* История Пелопонесской войны в восьми книгах. Перевод с греческого Ф.Г. Мищенко с его предисловием, примечаниями и указателем. Т.1. М., 1987.

728. *Фукуяма Ф.* Великий разрыв. М., 2002.

729. *Фукуяма Ф.* Конец истории? // Геополитика: Антология. М., 2006.

730. *Фукуяма Ф.* Сильное государство: Управление и мировой порядок в XXI веке. М., 2001.

731. *Фуше М.* Европейская республика. Исторические и географические контуры. М., 1999.

732. *Хантингтон С.* Столкновение цивилизаций? // Полис, 1994, № 1.

733. *Хантингтон С.* Столкновение цивилизаций. М., 2003.

734. *Хатами М.* Ислам, диалог и гражданское общество. М., 2001.

735. *Хаусхофер К.* Границы в их географическом и политическом значении. В кн.: О геополитике. Работы разных лет. М., 2001.

736. *Хаусхофер К.* О геополитике: Работы разных лет. М., 2001.

737. *Ходов Л.Г.* и др. Государства Альпийского региона и страны Бенилюкс в меняющейся Европе. М., 2001.

738. *Цыганков П.А.* Геополитика: последнее прибежище разума? // Вопросы философии, 1994, №7-8.

739. *Цыганков П.А.* Раймон Арон о политической науке и социологии международных отношений // Власть и демократия. Зарубежные ученые о политической науке. М., 1992.

740. *Цымбурский В.Л.* Остров Россия (Перспективы российской геополитики) // Полис, 1993, № 5.

741. *Цымбурский В.Л.* Хэлфорд Макиндер: трилогия хартленда и призвание геополитика // Космополис, 2007, № 2 (16).

742. *Черветто А.* Унитарный империализм: Т. 1 М., 2005.

743. *Чжунго цзинцзиннянь.* Китайский экономический ежегодник. Пекин, 1998.

744. *Шлезингер А.-мл.* Циклы американской истории. М., 1992.

745. *Шмитт К.* Земля и море. М., 2000.

746. *Шмитт К.* Понятие политического // Вопросы социологии. 1992, № 1.

747. *Шмитт К.* Новый "номос" Земли // Элементы, 1993. № 3.

748. *Шмитт К.* Планетарная напряженность между Востоком и Западом и противостояние Земли и Моря // Элементы. 1996/97, № 8.

749. *Шульце П.* Политика кооперативной безопасности в Европе: Сценарии и шансы // "Вестник Аналитики", № 1(39), 2010, стр. 47. Bax: http://www. isoa.ru/docs/vestnik_2010-139.pdf

750. *Яценко Н.Е.* Толковый словарь обществоведческих терминов. СПб., 1999.

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

Texniki redaktoru
Elmira Tağıyeva

Rəssam
Nazim Rzaquliyev

Kompyuter dizaynı
Nüsrət Quliyev

NOVRUZ MƏMMƏDOV
GEOSİYASƏTƏ GİRİŞ

(İki cilddə)
I CİLD

Çapa imzalanmışdır 27.09.2011. Kağız formatı 60x90¹/16. Ofset kağızı.
Qarnituru Times. Fiziki çap vərəqi 36,0. Şərti çap vərəqi 36,0.
Tirajı 500. Sifariş 3204. Müqavilə qiyməti ilə.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az 1073 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99412) 5380010. Faks: (99412) 5380014.
E-mail: azerbneshr@yahoo.com